AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

SERGEY YESENİN YARADICILIĞI AZƏRBAYCAN VƏ ŞƏRQ ƏDƏBİ-BƏDİİ KONTEKSTİNDƏ

İxtisas: 5716.01 - Azərbaycan ədəbiyyatı
5718.01 Dünya ədəbiyyatı (rus ədəbiyyatı)

Elm sahəsi: Filologiya

Elmlər doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

İddiaçı: _____ Pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent **İsaxan Abdulla oğlu İsaxanlı**

Elmi məsləhətçi: _____ Filologiya elmləri doktoru, professor, akademik **İsa Əkbər oğlu Həbibbəyli**

Bakı – 2021

MÜNDƏRİCAT

GİRİŞ..... 3

I FƏSİL. SERGEY YESENİNİN YARADICILIĞINDA "BAKI DÖVRÜ"NÜN YERİ VƏ ROLU

1.1. Sergey Yeseninin həyatı və yaradıcılıq yolu 17
1.2. Sergey Yesenin Azərbaycanda..... 25
1.3. Sergey Yeseninin Bakı ünvanları..... 48
1.4. Sergey Yeseninin Bakı görüşləri..... 64

II FƏSİL. SERGEY YESENİN YARADICILIĞINDA ŞƏRQ MÖVZUSU

2.1. "İran nəğmələri" silsiləsi və onun yazılma tarixçəsi..... 82
2.2. "İran nəğmələri"ndə qadın obrazları və silsilənin baş qəhrəmanı 91
2.3. "İran nəğmələri"nin bədii-estetik xüsusiyyətləri və onların tərcümədə saxlanılması 102

III FƏSİL. SERGEY YESENİNİN ƏDƏBİ ŞƏXSİYYƏTİ VƏ YARADICILIĞI AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA

3.1. Sergey Yesenin Bakı mətbuatında 158
3.2. Sergey Yesenin yaradıcılığının Azərbaycan tədqiqatçıları..... 174

IV FƏSİL. SERGEY YESENİN POEZİYASI VƏ AZƏRBAYCAN TƏRCÜMƏÇILIK MƏKTƏBİ

4.1. Sergey Yeseninin əsərlərinin Azərbaycan tərcümələri: tarixi, nəzəri və praktik aspektlər 193
4.2. "Əlvida, Bakı!" şeiri və onun Azərbaycan dilinə tərcümələrində milli və yerli koloritin saxlanılması 204
4.3. "Əlvida, ey dostum, əlvida artıq!" şeiri və onun Azərbaycan dilinə tərcümə variantlarının müqayisəli təhlili 230

NƏTİCƏ..... 262

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI 269

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Dünyada müxtəlif mədəniyyətlərin, xalqların bir-birinə qovuşmasında hər zaman ədəbi-mədəni əlaqələrin ayrı-ayrı formalarından geniş istifadə edilmiş və bu gün də istifadə edilməkdədir. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, kiçik bir zaman kəsiyində, Azərbaycan-rus ədəbi əlaqələrində bir qədər durğunluq müşahidə edilsə də, XXI əsrin əvvəllərindən başlayaraq bu əlaqələr, ümumilikdə, həyatın müxtəlif sahələrində millətlərarası münasibətlər özünü daha səmərəli şəkildə əks etdirməyə başladı. Şübhəsiz, xalqlar arasında belə əlaqələrin məhsuldar olması və daha da sistemli şəkildə inkişaf etdirilməsində onların arasındakı ünsiyyət və anlaşma son dərəcə böyük rola malikdir. Bəzən müxtəlif səbəblərdən, həyatda mövcud olan müxtəlif, xüsusən də siyasi faktorlar ayrı-ayrı xalqlar arasında münasibətləri gərginləşdirir, ünsiyyəti zəiflədir ki, bu da sonda bu xalqlar arasında ümumilikdə əlaqələrin zəifləməsinə gətirib çıxarır, bəzən də daha ciddi şəkildə özünü büruzə verir. Lakin belə hallarda həmişə kara gələn yenə ədəbiyyat, ədəbi əlaqələr olur, müxtəlif xalqlardan olan ayrı-ayrı ədəbiyyat nümayəndələrinin müəyyən canlı fəaliyyətləri və ya onların yaradıcılığı xalqlar arasında yaranmış gərginliyi yumşaldır, nəticədə əlaqələrin tam qırılmasına yol vermir, tədricən bərpa olunması üçün zəmin yaradır. Ümumiyyətlə, tarix boyu bu məsələdə müxtəlif xalqların böyük ədəbiyyat nümayəndələrinin həm ədəbi fəaliyyəti, həm də bu fəaliyyət müstəvisində onların arasında yaranmış şəxsi əlaqələrin, formalaşmış dostluq münasibətlərinin rolu danılmazdır.

Şübhəsiz ki, qarşılıqlı münasibətlər, əlaqələr müxtəlif məsələlərin ayrı-ayrılıqda öyrənilməsi, müqayisə edilməsilə bitmir, həm də bu məsələlərlə bağlı hər iki tərəfdə gedən prosesləri, o cümlədən ədəbi prosesləri dərindən dərk etməyə imkan verir, onların qarşılıqlı inkişafı üçün zəmin yaradır. Ümumilikdə, bu sahələrdə aparılan elmi araşdırmalar baxımından, digər ədəbiyyatlarla müqayisədə, rus ədəbiyyatı ilə qarşılıqlı əlaqələr, Azərbaycan-rus ədəbi əlaqələrinin hərtərəfli tədqiqi ədəbiyyatşünaslığımızda daha mühüm yer tutmuşdur. Azərbaycan ədəbiyyatşünaslığında bu əlaqələr, ənənəvi olaraq, müxtəlif şair və yazıçıların yaradıcılığı timsalında nəzərdən keçiril-

mişdir. Təqdim olunmuş dissertasiya işi də bu əlaqələrin müxtəlif tərəflərinin böyük rus şairi S.Yeseninin yaradıcılığı timsalında, xüsusən də poetik tərcümə vasitəsi ilə öyrənilməsinə həsr olunmuşdur.

S.Yeseninin Azərbaycan ədəbi prosesi ilə bağlılığı, onun yaradıcılığından Azərbaycan şair və mütərcimlərinin qidalanması, ümumilikdə, poetik mənimsəmə və s. kimi problemlər ədəbiyyatşünaslığımızda S.Turabov, Ə.Xəlilov, R.Novruzov, Y.Quluzadə, G.Qurbanova, P.Məmmədova və başqaları tərəfindən müxtəlif aspektlərdən öyrənilmişdir. Burada adı çəkilən və çəkilməyən müəlliflərin məqalə, dissertasiya və monoqrafiyalarında Yeseninin Azərbaycan, onun mədəniyyəti, mətbuatı, ədəbi ictimaiyyəti ilə əlaqələri öyrənilmiş, Yesenin poeziyasının dilimizə tərcümələrinin, ümumilikdə, onun poeziyasının Azərbaycan ədəbiyyatının inkişafında yerinin və rolunun müəyyənləşdirilməsinə cəhd edilmişdir. Bununla belə, aparılmış işlər heç də tam, dolğun şəkildə bu problemin bütün spektrlərini əhatə etmədiyindən, burada bəzi məsələlər, xüsusən də Yesenin yaradıcılığının daha maraqlı, məhsuldar, eyni zamanda paradoksal, ziddiyyətli Bakı dövrü, şairin Bakı görüşləri, Bakıda yazılmış əsərlərin, o cümlədən "İran nəğmələri" silsiləsinin, "Əlvida, Bakı!", eləcə də şairin qələmindən çıxan son şeir – "Əlvida, ey dostum, əlvida artıq..." şeirlərinin tarixçəsi, onların mövzu, ideya, problematikası və s. Yesenin yaradıcılığının kifayət qədər aktual məsələləri kimi diqqət mərkəzinə çəkilmişdir. Azərbaycan-rus ədəbi əlaqələri S.Yesenin yaradıcılığı, onun poeziyasının dilimizə tərcümələri əsasında dərindən araşdırılmış, bu rus lirikinin poeziyasına yeni müstəvidən yanaşılaraq, onun Azərbaycan, Bakı ilə əlaqələrinin indiyə qədər açılmamış səhifələrinə nüfuz edərək, müxtəlif ədəbi nümunələrin, Yesenini şəxsən tanıyan müxtəlif insanların indiyə qədər naməlum qalmış xatirələri və s. təhlil edilərək geniş ədəbi ictimaiyyətin diqqətinə çatdırılmışdır. Eləcə də, S.Yesenin yaradıcılığının Azərbaycanla, onun mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri ilə əlaqələrinin indiyə qədər qəbul edilmiş bir sıra qeyri-dəqiq tərəfləri öyrənilərək dəqiqləşdirilmiş və bu faktların əksəriyyəti haqqında ilk dəfə obyektiv və dolğun təəssürat yaradılmışdır.

Qarşıya qoyulan problemin daha konstruktiv və daha konkret faktlara söykənilərək öyrənilməsi məqsədilə biz, ilk növbədə, S.Yeseninin həyat və yaradıcılığının Bakı

“səhifələrinə” yaxından bələd olan P.İ.Çaqin, V.A.Manuylov, V.Şveytser, V.Boldovkin, N.K.Verjbitski, V.İ.Kaçalov, S.A.Tolstaya-Yesenina, A.V.Mariyenqof və başqalarının Yesenin haqqında xatirələrinə üz tutaraq, onları təhlil etdikdən sonra, dissertasiyada əks etdirməyə cəhd etmişik. Bundan başqa əlaqələrin obyektiv mənzərəsi həm də Azərbaycan mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinin, tədqiqatçıların, alimlərin, şairlərin əsərlərində yer almış məlumatlara söykənilərək ortaya qoyulur. Bu baxımdan A.Selixanoviç, M.Danilov, Tsiklop, Pessimist, Y.Qurviç, L.Faynşteyn, F.Nepryaxin, K.Xromov, S.Rüstəm, S.Turabov, Ə.Kürçaylı, Ə.Xəlilov, R.Novruzov, P.Məmmədova, Q.Şipulina, Y.Quluzadə, R.Xəlilov, G.Qurbanova və başqalarının mülahizələri müqayisəli şəkildə öyrənilir. Təqdim olunmuş dissertasiyada ilk dəfə olaraq S.Yesenin yaradıcılığının bir sıra naməlum səhifələri, şairin Bakı ünvanları, Bakı görüşləri, Bakıda olduğu müddətdə “Бакинский рабочий” qəzetinin kollektivi, P.İ.Çaqin, V.İ.Boldovkin, F.S.Nepryaxin, İ.M.Moskalenko, N.İ.Moskalenko, F.Muxtarova, C.Qaryağdıoğlu və başqaları ilə ünsiyyət və əlaqələri ilə bağlı məlumatlar, xatirələr bir yerdə, sistemli, ardıcıl və ən başlıcası, faktlar əsasında öyrənilir. Bununla bağlı xeyli materialların bizə çatdırılmasında Bakıda, M.İbrahimov küçəsi 11 ünvanda (mənzil - 9) yaşayan İrina Georgiyevna Trofimovanın köməyi böyük olmuşdur.

Keçən əsrin 80-ci illərinin sonu - 90-cı illərin əvvəllərində cərəyan edən siyasi hadisələr fonunda, Azərbaycan-rus ədəbi-mədəni əlaqələrinin zəiflədiyi bir dövrdə, təbii olaraq, S.Yesenin yaradıcılığının, onun Azərbaycanla qarşılıqlı əlaqələrinin öyrənilməsində də bir müddət xeyli durğunluq hiss edilsə də, 1995-ci ildə Azərbaycan Prezidentinin S.Yeseninin anadan olmasının 100 illiyi münasibəti ilə imzaladığı sərəncamdan [76] sonra bu istiqamətdə aparılan işlər xeyli intensivləşmiş, S.Yesenin yaradıcılığı ilə bağlı məqalələrin, tədqiqat işlərinin, şairin poeziyasından Azərbaycan dilinə tərcümələrin sayı nəzərəçarpacaq dərəcədə artmağa başlamışdır.

Biz dissertasiyada Yesenin yaradıcılığının Bakı dövrünün bəzi indiyə qədər məlum olmayan məqamlarını ətraflı şəkildə araşdırmaqla, onun həyatının bu dövrü ilə bağlı yeni faktların üzə çıxarılmasını mərkəzi məsələlrdən biri kimi qarşıya qoymuşuq. Təsadüfi deyildir ki, müstəqillik dövründə S.Yeseninin əsərləri Azərbaycanda yenidən çoxsaylı mütərcimlər tərəfindən tərcümə olunmuş, onun yaradıcılığının

Azərbaycanla bağlı dövrünə yeni müstəvidən baxmaq cəhdləri yaranmışdır. Bu gün də davam etdirilməklə, müxtəlif vaxtlarda Azərbaycan ədəbi ictimaiyyətinin Yesenin yaradıcılığını və şəxsiyyətini diqqət mərkəzində saxlaması, Ə.Nazim, S.Rüstəm, M.Rahim, R.Zəka, F.Qoca, Ə.Ziyatay, N.Kəsəmənli, R.Rövşən, Anar, Ə.Kürçaylı, Ə.Cəmil, N.Xəzri, M.İsmayıl, S.Məmmədzadə, E.Borçalı və onlarca başqa tanınmış Azərbaycan şairlərinin Yesenin yaradıcılığından etdikləri tərcümələri və ya ona şeirlər həsr edib dövrü mətbuatda dərc etmələri, təbii olaraq, Azərbaycanda Yeseninə, onun yaradıcılığına, şəxsiyyətinə olan böyük maraq, sevgi və hörmət kimi dəyərləndirilməkdədir. Biz monoqrafiyalarımızda [42; 219], digər məqalə və kitablarımızda [34-49; 208-224; 388; 389] həmin şeirləri, tərcümələri, ümumiyyətlə, S.Yeseninin Azərbaycanla geniş əlaqələrini əks etdirən məlumatları oxuculara ətraflı şəkildə təqdim etmişik.

S.Yeseninin Azərbaycanla bağlı əlaqələri, onun Bakı həyatı o qədər maraqlı və cəlbedicidir ki, bu əlaqələrin bütün detallarını hərtərəfli, dərindən araşdırmağa ehtiyac vardır. Təəssüf ki, dediklərimizin hamısını bir dissertasiyanın hüdudları çərçivəsində yerinə yetirmək imkan xaricindədir. Bütün bunlar Azərbaycan Yeseninşünaslığında hələ də xeyli açılmamış səhifələrin olduğunu bir daha göstərir və məhz bu baxımdan "Sergey Yesenin və Azərbaycan" mövzusuna yenidən müraciət olunmasının vacibliyini gündəmə gətirir.

Qədim tarixə malik Azərbaycan-rus ədəbi əlaqələri, rus ədəbiyyatı nümunələrinin tərcümənin köməyi ilə Azərbaycan ədəbiyyatı və geniş mənada, Azərbaycan mədəniyyətinə daxil olması ədəbiyyatımızın tarixində mühüm ictimai-mədəni hadisə olmaqla, onun inkişafında həmişə xüsusi əhəmiyyət kəsb etmişdir. Bu mənada, Azərbaycan ədəbiyyatı və ictimaiyyətində daimi diqqət mərkəzində və maraq dairəsində olan böyük rus şairlərindən biri də Sergey Yesenindir. Ümumilikdə, müxtəlif dövrlərdə Yeseninin yaradıcılığı, onun yaradıcılığının Bakı dövrü ilə bağlı çoxsaylı məqalələr yazılmış, şairin müasirləri tərəfindən xatirələr qələmə alınmış, kitablar, toplular, monoqrafiyalar işıq üzü görmüşdür. Bununla belə, S.Yeseninin Azərbaycanla əlaqələri ümumi şəkildə öyrənilsə də, şairin yaradıcılığının Bakı dövrü yetərincə, sistemli şəkildə tədqiq edilməmiş, bəzi hallarda obyektivlikdən, faktlara söykənilməkdən

daha çox əsassız, subyektiv, bəzən də ümumiyyətlə, siyasi müstəvidə irəli sürülmüş, emosiyalara söykənmiş fikir və mülahizələrə meydan verilmişdir. Buna görə də S.Yeseninin Azərbaycanla, Bakı mühiti ilə əlaqələri, bununla bağlı mövcud olan fikir və faktlar elmi-konseptual baxımdan təhlil edilməli, sistemli şəkildə öyrənilməli, dövrün bu əlaqələrə adekvat ictimai-siyasi-ədəbi-mədəni mənzərəsi yaradılmalıdır. Yeseninin Azərbaycana ilk gəlişindən bir əsrlik vaxt keçdiyini nəzərə alsaq, bu böyük zaman kəsiyində mövcud olmuş ədəbi mühitin, faktların qərəzsiz, populizmdən uzaq təhlil olunaraq doğru-dürüst öyrənilməsi və bu baxımdan, Yesenin yaradıcılığı timsalında Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafının obyektiv müstəvidə izlənilməsi və təqdim olunması daha da aktuallaşır.

Məlumdur ki, Azərbaycan ədəbiyyatında Yesenin yaradıcılığına ilk müraciət şairin ölümündən sonra, 20-ci illərin sonuna yaxın, daha dəqiq desək, 1928-ci ildə baş vermiş (bu haqda dissertasiyanın sonrakı hissələrində daha ətraflı söhbət açılacaq), bu iş sonrakı onilliklərdə davam etdirilmiş və bu gün də uğurla davam etdirilməkdədir. Yesenin poeziyasından ilk tərcümədən sonra, təxminən 30 il müddətində - 1955-ci ilə qədər Azərbaycan ədəbiyyatında şairin poeziyasına ümumiyyətlə müraciət edən olmamışdır. Bu, heç də şairin yaradıcılığına Azərbaycanda olan laqeydliklə deyil, həmin illərdə, ümumilikdə Sovetlər ölkəsində Yesenin yaradıcılığına münasibətlə bağlı bir proses idi. Sirr deyil ki, S.Yeseninin həyatı və yaradıcılıq yolu böyük uğur və uğursuzluqlarla, enişlərlə və yüksəlişlərlə dolu olmuş, başqalarına o yaşda qismət olmayan şan-şöhrətlə yanaşı, onun ünvanına söylənilən bəzən yerli, bəzən yersiz, məqsədli, qərəzli tənqidlər, dözülməz təhqirlər, hətta, siyasi təqiblər də olmuşdur. Bu məsələlər yalnız şairin sağlığında deyil, onun ölümündən sonra da, nəinki səngiməmiş, əksinə daha yüksək siyasi dairələrdə vüsət almışdı. Belə ki, ÜK(b)P-nın Siyasi Bürosunun üzvü N.Buxarinin 1927-ci ilin yanvar ayında "Правда" qəzetində dərc etdirdiyi "Acı qeydlər" («Злые заметки») [132] adlı məqaləsi ilə, faktik olaraq, bütün ölkə miqyasında Yesenin şəxsiyyətinə və yaradıcılığına qarşı məqsədli və qərəzli kampaniya – "Yeseninçilik" hərəkatı başlandı. Bu məqalə, bir tərəfdən, Yesenin poeziyasına müsbət müstəvidən yanaşan, L.Trotskinin, təxminən bir il əvvəl, elə həmin qəzetdə dərc edilmiş, bir məqaləsinə [334] guya "ədəbi" cavab idisə, digər

tərəfdən də, əslində, həmin illərdə cərəyan edən və birincinin müvəqqəti qələbəsi ilə nəticələnən Buxarin-Trotski siyasi mübarizəsinin bir təzahürü idi. Üstəlik, N.Buxarinin adını çəkdiyimiz məqaləsinin ardınca, fevral ayının 13-də Kommunist Akademiyasının Ədəbiyyat və İncəsənət bölməsində, Xalq Maarif Komissarı A.V.Lunaçarskinin "Gənclər arasında ruh düşkünlüyü haqqında" («Об упадочничестве среди молодежи») [259] məruzəsinin dinlənilməsi və bunun ətrafında iki dəfə - həmin gün və martın 5-də xüsusi disputun keçirilməsi "Yeseninçilik" hərəkatına bir daha "rəsmi" təkan verdi və bu kampaniyanın təsiri, təxminən, əsrin ortalarına qədər davam etdi. "Yeseninçilik" hərəkatının yüksək dairələrdə xüsusi nəzarət altında saxlandığının sübutu kimi, bir faktı da qeyd edək ki, "Yeseninçilik", bir anlayış olaraq, hafizələrə yapışdırılmaq məqsədilə, 1930-cu ildə, Kommunist Akademiyasının Ədəbiyyat, İncəsənət və Dil İnstitutu tərəfindən hazırlanmış "Ədəbiyyat ensiklopediyası"na daxil edilmiş, haqqında geniş məlumat verilmişdi [256, s.79-92].

Keçən əsrin təxminən 60-cı illərindən başlayaraq, həm Sovetlər ölkəsində, həm də Azərbaycanda Yesenin yaradıcılığına münasibət yeni xarakter aldı. Artıq Azərbaycanda S.Yesenin yaradıcılığının geniş müstəvidə mənimsənilmə dövrü başlanmışdı və Azərbaycan mütərcimləri, söz və sənət, ədəbiyyat və elm xadimləri şairin yaradıcılığını daha çox diqqət mərkəzində saxlamağa çalışırdılar. Bu mənimsəmənin ən mühüm qollarından biri – şairin yaradıcılığının poetik tərcümə vasitəsilə Azərbaycan oxucularına çatdırılması getdikcə daha böyük vüsət almağa başladı. S.Yesenin poeziyası müxtəlif illərdə R.Zəka, Ə.Kürçaylı, Anar, Ə.Cəmil, N.Kəsəmənli, T.Bayram, S.Məmmədzadə, R.Rövşən, H.İsaxanlı, E.Borçalı, F.Mustafa, K.Aslan, F.Qoca, T.Kərimli və başqaları tərəfindən dilimizə tərcümə olundu. Bu tərcümələri nəzəri-praktik səviyyədə öyrənməyə çalışan müəyyən sayda elmi-tədqiqat və monoqrafik xarakterli araşdırmaların mövcudluğuna baxmayaraq, ümumilikdə S.Yesenin yaradıcılığına söykənən əlaqələr, mənimsəmə və qarşılıqlı təsirlər indiyə qədər yetərincə sistemləşdirilməmiş, öyrənilməmişdir. Yeseninin Azərbaycan, Bakı mühiti, mədəniyyətimiz və ədəbiyyatımızla bağlılığını, fikrimizcə, ona onlarca orijinal şeirlər həsr etmiş şairlərimizin yaradıcı işi də yaxşı sübut edir. Bu, onu göstərir ki, Yeseninin poeziyamıza və onun yaradıcı nümayəndələrinə təsiri də birmənalıdır. Bu gün bu təsirin

qarşılıqlı səbəblərinin öyrənilməsi də dissertasiya işinin aktuallığını sübut etməkdədir. Azərbaycan mütərcimlərindən hər biri Yesenini öz poetik imkanları çərçivəsində dilimizdə yaratmağa müvəffəq olmuşdur. Bu isə, öz növbəsində, tərcümə sənətinin mahiyyətini, onun ədəbi əlaqələrin inkişafındakı rolunu dərk etmək və qəbul etməklə bağlı maraqlı məqamların ortaya çıxması üçün zəmin yaradır.

S.Yesenin yaradıcılığındakı poetik vüsət, onun könüllərə sığal çəkən incə, zərif, lirik poeziyası, şairin Azərbaycan, Bakı mühiti ilə sıx əlaqələri, əsərlərinin Azərbaycan tərcümələrinin nəzəri və praktik məsələlərinin tədqiqi, Azərbaycan mütərcimlərinin və tədqiqatçılarının Yesenin yaradıcılığı ilə bağlı nəzəri və praktik mülahizələrinin təhlil edililb öyrənilməsi, bu böyük rus şairinin ümumi yaradıcılığında Bakı dövrünün yerinin və rolunun müəyyənləşdirilməsi Azərbaycan yeseninşünaslığının, ümumilikdə ədəbiyyatşünaslığımızın qarşısında duran prioritet istiqamətlər sırasındadır.

Beləliklə, S.Yesenin poeziyasının bu və ya digər aspektlərinin tədqiqi, qarşılıqlı münasibətlərdə olan rus və Azərbaycan poeziyasının, onların əlaqələrinin öyrənilməsi prosesinin mühüm bir həlqəsi kimi aktualdır. Eyni zamanda, mövzunun aktuallığı son illərdə ədəbiyyatımızda tərcümə işinin intevsivləşməsi ilə də bağlıdır. "*Nəzərə almaq lazımdır ki, tərcümənin daxilində dillərarası ünsiyyətlə yanaşı, mədəniyyətlərarası ünsiyyət də mühüm rol oynayır. Dilin özü qırılmaz tellərlə mədəniyyətlə bağlı olduğu kimi, tərcüməçi də bu mədəni sərvətləri başqa dildə əks etdirir və xalqlar arasında mədəni körpü yaradır*" [6, s.3]. Ədəbiyyatşünaslığımızda S.Yeseninin şeirlərinə mütərcimlərimiz tərəfindən çoxsaylı müraciətlərin mövcudluğu (məsələn, "Əlvida, Bakı!" şeirinin on üç, "Əlvida, ey dostum, əlvida artıq..." şeirinin on altı tərcüməsi) S.Yesenin poeziyasının Bakı dövrünün və bu kontekstdə ədəbi əlaqələrin öyrənilməsi, məsələnin daha geniş planda və sistemli tədqiqini aktuallaşdırır.

Dissertasiyada S.Yeseninin Cabbar Qaryağdıoğlu və Əliağa Vahidlə görüşləri, S.Yeseninin C.Qaryağdıoğluna şeir həsr etməsi, bu görüşlə bağlı bir sıra digər məqamlara aydınlıq gətirilməsi və s. məsələlər ətrafında, fakt və materiallara istinad edilərək, obyektiv tədqiqatçı mövqeyi ortaya qoyulur, A.K.Voronski, L.Polonski, V.Portnov, S.Koşeçkin, F.Şuşinski, Q.Şipulina, Z.Yusifqızı, C.Qaryağdıoğlunun kiçik qızı Şəhla xanım, Azərbaycanın xalq artisti Sevda İbrahimova və başqalarının

görüşlə bağlı mülahizələrinin təsdiqi, yaxud inkarı, bu görüşlərin yerinin, vaxtının doğru-dürüst göstərilməməsi, onların, əldə olan materiallar əsasında, ayrı-ayrı şəxslərin fantaziyasından qidalanması və s. kimi məsələlər dəqiqləşdirilərək diqqət mərkəzinə çəkilir. S.Yeseninin Əliağa Vahidlə görüşü ilə bağlı bəzilərinin təsdiqedici fikirlər söyləməsinə baxmayaraq [120, s.3; 264, s.10; 270, s.175-179] uyğun fikirlərin heç bir yazılı mənbələrdə, o cümlədən, nə onların müasirlərinin xatirələlərində, nə də Yesenin və Əliağa Vahidin öz poeziyasında təsdiqlənməməsi, kifayət qədər maraqlı və cəlbedici görünən bu məsələ ətrafında, daha obyektiv mövqe ortaya qoyulmasını zəruriləşdirir. Xeyli müddətdir ki, Moskvada, M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda Yesenin qrupu tərəfindən böyük bir layihə üzərində iş getdiyini - Yesenin ensiklopediyasının hazırlandığını nəzərə alsaq, şairin yaradıcılığında mühüm yer tutan Bakı dövründə onun Azərbaycanın tanınmış insanları, ziyalılar, mədəniyyət və incəsənət xadimləri ilə görüşlərinin tədqiq edilməsi, bununla bağlı indiyə qədər məlum olmayan fikirlərin ortaya qoyulması da mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, dissertasiyada "İran nəğmələri" silsiləsinin baş qəhrəmanı "Şaqane"nin kimliyinin müəyyənləşdirilməsi, onun, heç bir lüzum olmadan, azərbaycanlaşdırılması cəhdinə də münasibət bildirilir, buna qarşı ciddi tədqiqatçı mövqeyi ortaya qoyulur.

S.Yeseninın Azərbaycanla bağlı əlaqələrinin öyrənilməsində müəyyən təcrübə mövcud olsa da, bu əlaqələrin bir sıra konkret detallarını əks etdirən materialların yetərincə, sistemli şəkildə araşdırılmaması, məsələyə yenidən qayıtmanı zəruri edir. Problemlə əlaqədar indiyə qədər işıq üzü görmüş məqalə, dissertasiya və monoqrafiyalarda tədqiq etdiyimiz mövzunun başlıca problematikasının, nəticələrinin heç də konseptual planda ortaya qoyulmadığının şahidi oluruq. Təxminən 100 ilə yaxındır ki, Yeseninlə, xüsusilə onun Bakı həyatı, yaradıcılığının Bakı dövrü ilə bağlı davam edən müəyyən diskussiya və mübahisələrin bir sıra məqamlarına məhz təqdim olunmuş dissertasiyada nöqtə qoyulmuşdur. Tədqiqatda biz ikinci mənbə, yaxud ikinci müəllif konsepsiyasına yox, yalnız ilkin mənbəyə, oradan gələn fikir və nəticələri incələməyə üstünlük vermişik.

Mövzunun aktuallığı, eyni zamanda, ədəbi əlaqələrin xalqlar arasında münasibətlərin formalaşmasında və inkişafında oynadığı rol, ədəbi-mədəni əlaqələrin inkişa-

fında tərcümənin getdikcə artan rolu və bu kontekstdə mütərcimlərimizin Yesenin poeziyasına marağı və tez-tez müraciəti, Azərbaycan-rus ədəbi əlaqələrinin S.Yesenin yaradıcılığı ilə bağlı indiyədək diqqətdən kənar qalmış, işlənilməmiş problemlərinin mövcudluğu, eləcə də rus poeziyasının dilimizə tərcüməsinin nəzəri və praktik məsələlərini sistemli şəkildə işıqlandıran konkret tədqiqat işlərinin azlığı ilə bağlıdır.

Azərbaycan-rus ədəbi əlaqələrinin S.Yesenin yaradıcılığı timsalında öyrənilməsi, Yeseninin həyatının Bakı dövrü, bu dövrdə qələmə alınmış əsərlərin bədii-poetik səciyyəsi, onların məzmunu, ideyası, fərdi-poetik xüsusiyyətləri, yazılma tarixçəsi və səbəbləri, Azərbaycan ictimaiyyətinin Yesenin şəxsiyyəti və yaradıcılığına münasibəti, o cümlədən Azərbaycan mütərcimləri tərəfindən "İran nəğmələri", "Əlvida, Bakı!" və "Əlvida, ey dostum, əlvida artıq" şeirlərinə münasibət və çoxsaylı müraciət, bu tərcümələrə söykənilərək ümumilikdə tərcümə işinin ədəbiyyatlar arasında əlaqələrin inkişafındakı rolu və tərcümənin metodik prinsiplərinin müəyyənləşdirilməsi, nəzəri məsələlərinin işlənilməsi və s. bu kimi digər məsələlərin ciddi elmi təhlili indiyədək kompleks şəkildə aparılmamışdır.

Təqdim edilən dissertasiyada S.Yesenin poeziyasının Azərbaycan tərcümələri təhlillərə cəlb edilərkən tədqiqatçı-alimlərin fikirlərinə əsaslanmaqla, milli şeirşünaslıqdakı ritm, qafiyə, intonasiya, harmoniya və s. kimi elementlərə, onların tərcümədə necə qorunub saxlanılması məsələsinə xüsusi diqqət ayrılmışdır.

S.Yeseninin Azərbaycanla əlaqələrinə, o cümlədən onun yaradıcılığının Bakı dövrünə Azərbaycan tədqiqatçıları müxtəlif zamanlarda müraciət etmişlər. Bu haqda dissertasiyanın III fəslində (2-ci paraqraf) ətraflı söhbət açılmışdır. Burada yalnız onu qeyd etməklə kifayətlənirik ki, S.Yeseninin Azərbaycanla bağlı əlaqələrindın bəhs edən mənbələrdən bir çoxu şairin həyat və yaradıcılığının Bakı dövrü ilə bağlı ilkin fakt və materialları doğru-düzgün, hər hansı təhrifsiz əks etdirməyə səy göstərmişlərsə, onların digər qismində S.Yeseninin Bakı həyatı, eləcə də də bu rus lirikinin əsərlərinin dilimizə tərcüməsi, əsərlərinin yaranma tarixçəsi, Yeseninin Bakı dövrü ilə bağlı yetərincə qeyri-dəqiq, yanlış məlumatlar dolaşmaqdadır. Təqdim olunmuş dissertasiyada S.Yesenin yaradıcılığının Bakı dövrü daha dərindən araşdırılaraq öyrənilmiş, Azərbaycan ədəbiyyatşünaslarının diqqətindən kənarda qalmış müxtəlif mənbələr, o

cümlədən “S.Yesenin müasirlərinin xatirələrində” adlı əsər və digər nadir materiallar tədqiq edilərək təhlilə cəlb edilmiş, maraqlı nəticələrə gəlinmişdir. S.Yesenin əsərlərinin Azərbaycan tərcümələrinin daha da dərindən öyrənilməsinə, tədqiq edilməsinə, bizim məsələyə fərdi baxışlarımızla yanaşı, milli tərcümə nəzəriyyəçiləri, yaradıcılığında poetik tərcüməyə geniş yer vermiş şair - yazıçılar, o cümlədən S.Vurğun, M.İbrahimov, R.Rövşən, alimlər F.Vəlixanova, N.Tağısoy, Ə.Xəlilov, R.Novruzov və digərləri, eləcə də bir sıra rus və dünya tərcümə nəzəriyyəçilərinin müddəaları kömək etmişdir. Tədqiqatın bir hissəsi poetik tərcümə məsələlərinə həsr olunduğundan yuxarıda adları qeyd olunan Azərbaycan tərcümə nəzəriyyəçiləri, şair və yazıçıları ilə yanaşı, təhlil zamanı V.Belinski, A.Tolstoy, V.Bokov, L.Vasilyeva, V.Levik, A.Lilova, Y.Mineralov, L.Ozerov, S.Marşak, P.Skosırev, Y.Ryaşentsev, A.Abuaşvili, Q.Qaçeçiladze, H.Longfellow və başqalarının tərcümə ilə bağlı nəzəri müddəalarına müraciət etmişik.

Tədqiqatın məqsəd və vəzifələri. Təqdim olunmuş dissertasiya işinin əsas məqsədi Sergey Yeseninin Azərbaycanla əlaqələrinin, onun həyat və yaradıcılığının Bakı dövrünün adekvat mənzərəsini ortaya qoymaqla, bu dövrün Yeseninin ümumi yaradıcılığında yerini və rolunu müəyyənləşdirməkdən ibarətdir. Böyük rus şairinin Azərbaycanın mədəniyyət, ədəbiyyat və ictimaiyyət nümayəndələri ilə münasibətlərinin aydın mənzərəsinin yaradılması, S.Yeseninin “İran nəğmələri”, “Əlvida, Bakı!” və “Əlvida, ey dostum, əlvida artıq” şeirlərinin dilimizə tərcümələrini geniş tədqiq edərək, tərcümələrin hər biri üzərində filoloji, bədii-poetik müşahidələr aparmaqla, onların orijinala uyğunluğunu, orijinaldakı poeziyanın, struktur, ritm, intonasiya, qafiyə sisteminin və s. tərcümələrdə necə saxlanılması və ümumlikdə, bu sahədə olan uğur və uğursuzluqların ortaya qoyulması da tədqiqatın məqsədləri sırasındadır. Yesenin poeziyasından tərcümə prosesində əldə olunmuş təcrübəni ümumiləşdirməklə, Yesenindən tərcümə işinin Azərbaycan tərcüməçilik məktəbinin formalaşmasına və inkişafına təsirinin öyrənilməsi, eləcə də bütün bunların Azərbaycan-rus ədəbi əlaqələrinin qarşılıqlı zənginləşməsində rolunun müəyyənləşdirilməsi də tədqiqatın əsas məqsədlərindəndir. Bu məqsədlə dissertasiyada aşağıdakı bir sıra vəzifələrin həlli nəzərdə tutulmuşdur:

1. Rus-Azərbaycan ədəbi əlaqələrinin müxtəlif spektrlərinin Sergey Yeseninin Azərbaycanla ünsiyyəti müstəvisində nəzərdən keçirilməsi;
2. Sergey Yeseninin həyat və yaradıcılığının Bakı dövrünün indiyə qədər tədqiqatçılar tərəfindən az öyrənilmiş və ya ümumiyyətlə nəzərdən qaçırılmış bir sıra tarixi fakt və materiallar əsasında təhlili;
3. Sergey Yesenin yaradıcılığı ilə bağlı indiyədək ədəbi və elmi dövriyyəyə buraxılmamış materialların üzə çıxarılması;
4. Sergey Yeseninin Bakı ünvanları və Bakı görüşlərinin indiyə qədər məlum olmayan fakt, materiallar, o cümlədən Yesenini görmüş, onunla ünsiyyətdə olmuş insanların xatirələri əsasında tədqiqi;
5. Sergey Yesenin yaradıcılığında, o cümlədən "İran nəğmələri" silsiləsində yer almış bir sıra şeirlərin tarixçəsi, onların kimlərə həsr olunması ilə bağlı obyektiv mənzərənin yaradılması;
6. Azərbaycan mütərcimlərinin Yesenin poeziyasından tərcümələrində bu rus lirikinin əsərlərinin ideya-məzmun çalarlarının saxlanılması;
7. Orijinalın poetik-üslubi sisteminin, bədii-ifadə vasitələrinin və bədii-estetik rənglərinin tərcümələrdə verilməsi;
8. Sergey Yesenin şeirlərinin tərcümələrində, bir tərəfdən, rus poeziyasının bədii xüsusiyyətlərinin, digər tərəfdən, milli Azərbaycan şeirşünaslığının spesifik xüsusiyyətlərinin ortaya qoyulması və s.

Tədqiqat metodları. Ortaya qoyulmuş problemin tədqiqində S.Yeseninin həyat və yaradıcılığının Bakı dövrünə yaxından bələd olan, onu tanıyan, onunla ünsiyyətdə olmuş ictimaiyyət nümayəndələrinin, ədəbiyyat və mədəniyyət xadimlərinin, memuarçıların, ədəbiyyatşünasların xatirə, məqalə və kitabları ilə yanaşı, Azərbaycan, rus və dünya ədəbiyyatında tanınmış tərcümə nəzəriyyəçilərinin əsərləri nəzəri baza kimi xidmət etmişdir. Tədqiqat işində tarixilik prinsipinə üstünlük verilmiş, təhlilə cəlb edilmiş orijinal və tərcümə mətnlərinin tədqiqi prosesində müqayisəli-qarşılaşdırıcı metoddan istifadə edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar.

1. Sergey Yesenin yaradıcılığının ən məhsuldar dövrü olan Bakı dövrünün Azərbaycan-rus ədəbi əlaqələrinin qarşılıqlı zənginləşməsinə və inkişafına təsiri. S.Yeseninin Bakı dövrü Azərbaycan-rus ədəbi əlaqələrinin vacib bir həlqəsi kimi;
2. Sergey Yesenin yaradıcılığının Bakı dövrünün ədəbi-elmi mənzərəsinin yaradılmasında indiyə qədər diqqətdən kənarda qalmış yeni faktların, burada olduğu dövrdə şairlə ünsiyyətdə olmuş insanların naməlum xatirələrinin rolu;
3. Sergey Yeseninin, əsasən, Bakıda olduğu dövrdə yaratdığı "İran nəğmələri" silsiləsi və Bakıda yazılmış bir sıra digər əsərləri, buna qədər "Kabak Moskvası" dövrünü yaşayan şairin keçirdiyi mənəvi böhrandan azad olmasının bariz göstəricisi kimi;
4. Sergey Yeseninin ədəbi-poetik irsinin öyrənilməsində Azərbaycan alimlərinin, tədqiqatçılarının rolu. Bakı dövrünün şairin ədəbi-poetik irsində öz yeni və dolğun əksini tapması vacibliyi və buna nail olunması;
5. Sergey Yesenin yaradıcılığından tərcümələrin uğur qazanmasında orijinaldakı milli kolorit, özünəməxsusluq, fərdi üslub, söz və ifadə, forma, məzmun, mahiyyət uyğunluğu, bir sözlə, orijinala sədaqət məsələlərinin diqqət mərkəzində saxlanması vacibliyi;
6. Sergey Yesenin Azərbaycan mütərcimlərinin davamlı və intensiv surətdə müraciət etdiyi və əsərləri dilimizə ən çox tərcümə edilən əcnəbi poetik söz sahiblərindən biri kimi;
7. Sergey Yesenin poeziyasından tərcümələrin nəinki şairlərimizin tərcümə sənətinə yiyələnməsinə, həm də onların orijinal yaradıcılığının inkişafına, Azərbaycan tərcüməçilik məktəbinin formalaşması prosesinə və inkişafına təsiri və s.

Tədqiqatın elmi yeniliyi. Təqdim edilmiş dissertasiya işində Azərbaycan-rus ədəbi əlaqələri S.Yesenin - Azərbaycan müstəvisində öyrənilir, Azərbaycan yeseninşünaslığının tarixi inkişaf mərhələləri müəyyənləşdirilir. Yeseninin həyat və yaradıcılığının Bakı dövrü ilə bağlı yeni nəzəri, tarixi, ədəbi konsepsiya irəli sürülür ki, bu müstəvidə S.Yeseninin Azərbaycan, Bakı əlaqələri tam, dolğun və sistemləşmiş

şəkildə tarixi fakt və materiallar əsasında adekvat tədqiq edilir. Dissertasiyada Yeseninin Bakı dövrü ilə bağlı bir sıra yeni faktlar, məlum olmayan görüşlər, xatirələr üzə çıxarılmış, şairin Azərbaycanın mədəniyyət və ədəbiyyat xadimləri ilə əlaqələrinin indiyə qədər məlum olmayan tərəfləri öyrənilərək dəqiqləşdirilmiş, bu faktların əksəriyyəti haqqında ilk dəfə obyektiv və dolğun təəssürat yaradılmışdır. Yeseninin Azərbaycanın musiqi mədəniyyətinə, xüsusi halda, Azərbaycan aşıq yaradıcılığına verdiyi qiymət, Nizami, Vaqif kimi böyük Azərbaycan şairlərinə münasibəti ilə bağlı fikirlər ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir. Azərbaycan ədəbiyyatşünaslığında, ilk dəfə olaraq, Yeseninin Azərbaycan dilinə tərcümə edilmiş əsərlərinin tam siyahısı (həm əsərlər, həm də tərcüməçilər üzrə) müəyyənləşdirilib təqdim edilmişdir. Müxtəlif dövrlərdə Azərbaycan şairləri tərəfindən Sergey Yeseninə həsr edilmiş şeirlər ilk dəfə olaraq sistemli şəkildə tədqiq edilmiş, bu rus sənətkarına həsr edilmiş ilk şeirin, Azərbaycan ədəbiyyatşünaslığında indiyə qədər qəbul edildiyi kimi, S.Rüstəmə deyil, Ə.Nazimə məxsus olduğu ortaya çıxarılmışdır. Dissertasiyada S.Yeseninin Bakı dövrü ilə bağlı yalnız ilkin mənbələrin məlumatlarına söykənilib, təhlilə cəlb olunmuş bütün məsələlərin adekvat mənzərəsi yaradılmışdır. Təqdim olunmuş dissertasiyanın elmi yeniliyi həm də, tədqiqat boyu təhlilə cəlb edilmiş orijinal və tərcümə mətnlərinin ədəbiyyatşünaslıq, tərcüməşünaslıq, zəruri olduqda, linqvistik baxımdan öyrənilməsi və müxtəlif ədəbiyyatlara məxsus tərcümə nəzəriyyəçilərinin elmi müddəaları əsasında araşdırılması ilə bağlıdır.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Dissertasiyanın nəzəri əhəmiyyəti, ilk növbədə, Azərbaycan-rus ədəbi əlaqələrinin S.Yesenin poeziyasının Azərbaycanla bağlılığı kontekstində öyrənilməsi, bu əlaqələrin, poetik tərcümə vasitəsilə, ədəbiyyatların bir-birinə qarşılıqlı təsiri və zənginləşməsi zəminində inkişafının ortaya qoyulmasındadır. Təqdim edilmiş dissertasiya, ədəbi əlaqələr üzrə mütəxəssislər, tərcüməşünaslar, tərcümə praktikası ilə məşğul olanlar üçün gərəkli mənbədir.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas müddəaları və başlıca nəticələri ölkəmizdə və xaricdə müxtəlif respublika və beynəlxalq elmi konfranslarda, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xəzər

Universiteti, Azərbaycan Yazıçılar Birliyi və digər ali məktəb və təşkilatların nəzdində nəşr edilən müxtəlif toplu və elmi jurnallarda, eləcə də Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda, S.Yesenin adına Ryazan Dövlət Universitetində işıq üzü görmüş elmi məqalələr toplusunda, konfrans materiallarında, yeseninşünaslığın əksər aspektlərini geniş şəkildə əhatə edən "Müasir yeseninşünaslıq" jurnalında (Ryazan, Rusiya), "Müasir elm: nəzəriyyə və praktikanın aktual problemləri" jurnalında (Moskva, Rusiya), "Enthymema" jurnalında (Milan, İtaliya) və müəllifin iki monoqrafiyasında öz əksini tapmışdır.

Dissertasiya işinin materialları və nəticələri Azərbaycan-rus ədəbi-mədəni əlaqələrinin sistemli şəkildə, müqayisəli müstəvidə tədqiq edilməsində, poetik tərcümənin tarixi, nəzəriyyəsi, praktikası ilə bağlı məsələlərin öyrənilməsində, xüsusi halda, Yesenin poeziyasından yeni tərcümələrin meydana gəlməsində və şairin əsərlərinin Azərbaycan dilində nəşrlərinin hazırlanmasında böyük rol oynaya bilər, eləcə də ali məktəblərin xüsusi kurslarında və məşğələlərdə, uyğun proqramlar üzrə bakalavr, magistr və doktorant hazırlığında istifadə oluna bilər.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutu.

Dissertasiyanın strukturu. Dissertasiya "Giriş", "Əsas məzmun" (dörd fəsil, 12 paraqraf), "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan ibarətdir.

Dissertasiyanın struktur bölmələrinin həcmi. Giriş - 28,213 işarə; Dissertasiyanın əsas məzmunu - 473,196 işarə; Nəticə - 11,292 işarə; İstifadə edilmiş ədəbiyyat siyahısı - 41,930 işarə.

Dissertasiyanın ümumi həcmi. 512,701 işarə.

I FƏSİL. SERGEY YESENİNİN YARADICILIĞINDA "BAKI DÖVRÜ"NÜN YERİ VƏ ROLU

1.1. Sergey Yeseninin həyatı və yaradıcılıq yolu

"Puşkin şöhrətinin layiqli varisi" (Libedinski Y.N.) kimi qəbul edilən Sergey Yesenin dünyada ən çox oxunan rus şairlərindəndir. Onun yaradıcılığı XX əsr rus poeziyasının ən parlaq səhifələrindən biri olmaqla, çox kiçik zaman kəsiyində dövrün qabaqcıl ziyalılarının, ictimai və bədii fikir sahiblərinin, ən əsası isə sadə insanların, poeziyasevərlərin diqqətini özünə cəlb edə bilmiş, bu gün də onların qələmində və qəlbində yaşamaqda, öz layiqli yerini qorumaqdadır. Müasirlərindən biri Yesenin haqqında xatirələrində belə yazmışdı: "*Sergey Yesenin rus ədəbiyyatında kometalar səmada görünən kimi qəfildən ortaya çıxdı*" [275, s.187].

"Dünyanın ən zərif liriklərindən biri" (Aksyonova E.M.) Sergey Yesenin 1895-ci il oktyabrın 3-də Rusiyanın Ryazan vilayətinin Konstantinovo kəndində dünyaya gəlmiş, uşaqlıq illərini də burada, ana tərəfdən, nənə-babasının yanında yaşamışdır. Doğma kəndi Konstantinovoda 4 illik kənd məktəbini bitirdikdən sonra o, qonşu şəhərdə Spas-Klepikovo müəllimlik məktəbinə gedir və 1912-ci ildə həmin məktəbi bitirir. Artıq həmin illərdə Yesenin doğulduğu yerlərin gözəlliyini, Rusiyanın təbiətinin təkrarolunmazlığını vəsf edən ilk şeirlərini yazmağa başlayır. Adı çəkilən məktəbi bitirdikdən sonra, 1912-ci ildə Yesenin Moskvaya atasının yanına gedir və bir müddət orada yaşayır. Burada olduğu dövrdə o, Surikov ədəbi dərnəyinə üzv olur və bu, onun ədəbiyyata bağlılığını daha artırır. 1913-cü ildə təhsilini artırmaq və ədəbi aləmə daha yaxın olmaq məqsədilə, Yesenin, o dövrün tanınmış, nüfuzlu universitetlərindən sayılan Şanyavski universitetinə daxil olur, amma maddi çətinliklər üzündən təhsilini yarımçıq qoyaraq doğma kəndinə qayıtmalı olur. Bu dövrdə o, artıq mütəmadi olaraq şeirlər yazır, onları müxtəlif jurnallara göndərirdi. 1914-cü ildə Moskvada "Mirok" jurnalında Yeseninin ilk şeiri – "Beryoza" şeiri dərc olunur.

1915-ci ildə Yesenin Petrerburqa gedir və Peterburq həyatı onun bir şair kimi qəbul edilməsində müstəsna rol oynayır. Belə ki, burada o, dövrün məşhur şairləri A.Blok, S.Qorodetski və N.Klyuyevlə tanış olur, məhz onların xeyir-duası və himayədarlığı altında o, gənc şair kimi ədəbi aləmə daxil olur, şairlərlə, yazıçılarla əlaqələr yaradır, ədəbi gecələrin daimi iştirakçısına çevrilir və onun anadangəlmə fitri şairlik istedadı tezliklə bütün ədəbiyyat aləminə səs salır.

Çar Rusiyasının inqilabi yolla devrilməsi və həyatın tamamilə fərqli bir istiqamətdə inkişafı poetik düşüncəli yaradıcı insanların da həyatında mühüm rol oynadı. "*İnqilabın ilk dövrünü həmrəyliklə, lakin daha çox şüurlu şəkildə deyil, kortəbii surətdə qarşıladım*" (199, s.16) deyən Yesenin, əslində, bu dəyişikliyi kəndli və kənd həyatının sonu kimi qəbul etmişdi. Yaradıcılığının sonrakı dövrlərində bir sıra şeirlərində şair bu fikirlərindən bir qədər uzaqlaşsa da, bu düşüncə, ömrünün sonuna qədər, onun yaradıcılığna öz kəndli möhürünü vurmuşdu və təsadüfi deyildir ki, şeirlərindən birində [195, s.136] o, özünü "kəndin son şairi" adlandırmışdı.

1919-cu ildə Yesenin, həmin dövrün tanınmış şairlərindən hesab olunan Şerşeneviçlə birlikdə rus ədəbiyyatında yeni bir cərəyanın – İmajinizm cərəyanının əsasını qoyur. Məhz Yeseninin İmajinistlərlə əlaqəsi sonrakı bir neçə ildə onun yaradıcılığna mənfi təsirsiz ötüşməmişdi. Sonralar İmajinizmdən uzaqlaşan şair yazırdı: "*Hazırda mən bütün məktəbləri inkar edirəm. Hesab edirəm ki, şair hansısa müəyyən bir məktəbin arxasınca gedə də bilməz. Bu, onun əl-qolunu bağlayar. Yalnız azad sənətkar azad söz deyə bilər*" [199, s.17].

Məlum olduğu kimi, 1920-1923-cü illərdə Yesenin yaradıcılığına bədbin bir əhval-ruhiyyə hakim kəsilmişdi və bu, əsasən, onun imajinistlərlə ünsiyyəti ilə bağlı olmuşdur. Bu dövrdə şairin yaşadığı mənəvi sarsıntılar onun məhəbbət lirikasına da təsirsiz ötüşmür, şairin məhəbbət lirikasının geniş qol-qanad açmasına mane olurdu. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə bir sıra formalist nəzəriyyələr də Yesenin yaradıcılığına öz mənfi təsirini göstərmişdir. Bu dövrdə yazıb yaradan bir sıra şairlər kimi, o da hesab edirdi ki, "*ənənəvi poetik formalar heç də yeni məzmun ortaya qoymağa kömək etmir, buna görə də yeni qaydalarla yazmaq lazımdır. Lakin necə? Elə buradaca ziddiyyətlər başlayır*" [225, s.90].

1922-ci il may ayının 10-da Yesenin həyat yoldaşı amerikalı rəqqasə Aysedora Dunkanla birlikdə Avropa səyahətinə çıxır və avtobioqrafiyalarından birində özünün yazdığı kimi, İspaniyadan başqa bütün Avropanı gəzir. Sonra o, bir müddət, təxminən 4 aya yaxın Amerikada yaşayır və nəhayət, 1923-cü il avqustun 3-də Moskvaya qayıdır. Bir ildən çox müddətdə xaricdə - Avropada, Amerikada olmasına baxmayaraq Yesenin həmin dövrdə, demək olar ki, heç nə yazmır. Böyük arzu və ümidlərlə xaricə üz tutan şair oradan nəinki əliboş, həm də, tam əminliklə demək olar ki, qəlbiboş qayıdır. Qərbdə axtardığını tapa bilməməsi, burada böyük xəyal qırıqlığına uğraması da, müəyyən mənada, şairin Şərq, İran arzusunu gücləndirən amillərdən biri kimi qiymətləndirilə bilər. Qərblə müqayisədə Şərqdə həyatın nə qədər gözəl olduğunu, Belçikanın Ostende şəhərindən A.B.Marienqofa yazdığı bir məktubunda, Yesenin, nastalji hislərlə, belə dilə gətirir. "*İndi... Türküstanı yadıma salıram. Hər şey necə də gözəl idi! İlahi!...*" [198, s.143].

1923-cü il Yesenin yaradıcılığında xüsusi dönüş ili hesab edilir. Bu dövrdə o, bir sıra şeirlər yazmışdır ki, təxminən 2 il sürən bədbinlik dövründən sonra onlarda yenidən əsl məhəbbətin mənası duyulur, saflığı hiss edilirdi. Bu əhval-ruhiyyə 1924-1925-ci illər dövründə şairin Qafqazda, o cümlədən Bakıda olduğu dövrdə qələmə aldığı bir sıra şeirlərdə, "Anna Sneqina" poemasında, xüsusilə də "İran nəğmələri" silsiləsində daha bariz şəkildə hiss edilməyə başladı. "*İran nəğmələri"ndə "Kabak Moskvası" silsiləsinin bədii dəyərini aşağı salan naturalist detalların izi də yoxdur. Klassik poeziyanın ayrılmaz əlaməti olan sevgi hisslərinin poetizasiyası – budur "İran nəğmələri"nin ən xarakterik xüsusiyyəti. Elə buna görə də bu şeirlər saf və büllur, buradakı hiss və rənglər işıqlı və şövqlüdür*" [226, s.180].

1924-cü ilin sentyabrından 1925-ci ilin sentyabrına kimi, təxminən bir il ərzində Yesenin, fasilələrlə, üç dəfə Bakıda olmuşdur. Bakıya son iki gəlişi zamanı o, Mərdəkanda – P.Çaqinin bağ evində yaşayırdı. Cismani olaraq Bakıda, Mərdəkanda olsa da, əslində "*böyük rus şairi Mərdəkanda yox, İranda olduğunu xəyal etmiş, özünü Şərq aləmi ruhunda kökləmiş, bir növ, Sədi, Hafiz, Firdovsi, Xəyyam kimi korifeylərin ilham pərisi ilə görüşmüş, onların ruhlar dünyasında qərar tutmuşdu*" [16].

Bu dövrdə bütün varlığı ilə İran üstündə köklənən, İrana səfəri sanki, "Olum, ya ölüm?" kimi qədul edən şair, məhz bu arzu və poetik ruhun təsiri altında yaradıcılığının pik nöqtəsinə çatmışdı. Burada olduğu dövrdə o, yaradıcılığının ən gözəl nümunələrindən hesab edilən "İran nəğmələri" silsiləsini tamamlamışdır. "İran nəğmələri" adlanmasına baxmayaraq, silsilənin şeirləri Yeseninin, Qafqaz, xüsusən də Bakı təəssüratları əsasında yazılmış, əsasən də, Bakıda nəşr olunmuşdur. Elə buna görə də bu şeirlər-nəğmələr haqqında səmimiyyət və sevgi ilə "Bizim İran nəğmələri" deyə bilirik: "*İran nəğmələri bizimdir, - deyirəm. Və qətiyyən şübhə etmirəm ki, bu kimsəyə sübut olunmağa ehtiyacı olmayan həqiqətdir. Çünki, Yesenin "İran nəğmələri"ni Bakıda yaradıb. Əslində, Bakının Şərq mühiti, ona təlqin olunan, ona göstərilən Xəzər sahili – Mərdəkan... bir sözlə, qədimyana Azərbaycan gündoğarlığı Yeseninə Şərq anlamında İranı təlqin edib. Və Yesenin ömrü boyu yaratdığı ölməz sənət inciləri sırasına söz mirvarisi düzüb, "İran nəğmələri" adında*" [18].

"İran nəğmələri" Yeseninə bir lirik kimi böyük şöhrət qazandırdı. Şair bu silsilə şeirlərində Şərq aləminə, Şərq gözəllərinə, Şərq şairlərinə, Şərq poeziyasına, məhəbbətini tərənnüm edir, yeri gəldikcə, Şərq adət-ənənələrinə münasibətini bildirir. Bütün bunlarla yanaşı, Yesenin ana yurdunu – Rusiyanı unutmur, ucsuz-bucaqsız düzənliklərinin, ənginliklərinin, meşələrinin vurğunu olduğu ana vətənini yada salır, onun üçün darıxır. Bu məqamda böyük rus yazıçısı M.Qorkinin Yesenin haqqında bir fikrini yada salmaq yerinə düşər: "*Serqey Yesenin insan doğulmaqdan daha çox təbiətin, müstəsna olaraq, poeziya üçün, ucsuz-bucaqsız tarlaların kədərini, dünyada olan bütün canlılara məhəbbəti və insanların hər şeydən çox haqq etdikləri mərhəməti vəsf etmək üçün yaratdığı bir orqandır*" [144, s.9]. Yeseninin təbiət sevgisi, təbii olaraq, əsasən, rus təbiəti ilə bağlı olsa da, Bakıda yazılmış əsərlərində, o cümlədən "İran nəğmələri"ndə Azərbaycan təbiətinin vəsfi də unudulmamalıdır. "İran nəğmələri"nin yaranmasında, "ay işığına bələnmiş" gecələrdən, "göydə pərvanətək süzən ulduzlardan", "çıraq tək sayrışan", "dodağa gəl deyə qönçələnən güllərdən", güllərin-çiçəklərin "Sədinin nəğmələritək incə xışıltısı"ndan, Şərq gözəlinin "Həsənin ney səsini xatırladan" səsindən, ümumilikdə, Azərbaycan adlı

“mehriban bir diyarda rahatlıq içində gəzib-dolaşmaqdan” zövq alan Yeseninin məhz burada olduğu dövrdə çatdığı poetik ruhun rolu şübhəsizdir.

Ümumiyyətlə, vətən sevgisi, təbiət eşqi Yesenin yaradıcılığının ana xəttini təşkil edir desək, yəqin ki, yanılmarıq. Biz dissertasiya üzərində işləyərkən, Yesenin yaradıcılığına daha ətraflı münasibəti ortaya qoymaq məqsədi ilə, bir neçə dəfə, böyük şairin doğulduğu Rusiyanın Ryazan vilayətinin Konstantinivo kəndinə səfər etmiş, oradakı tarixi yerləri ziyarət etmişik, eləcə də Yeseninlə bağlı bir sıra digər tarixi ünvanlarda, dövlət və şəxsi muzeylərdə və başqa yerlərdə olmuş, maraqlı şəkillər çəkmişik (slaytların köməyi ilə onları nümayiş etdirə də bilərik).

Yesenin hələ lap erkən yaşlarından, lap uşaqlıq illərindən rus təbiətinin vurğunu olmuşdur. “Bütün poeziyası ilə insanın ruhuna bir ağcaqayın şirəsi kimi axan” (Ə.Xələfli) Yeseninin hələ 1910-cu ildə – 15 yaşında yazdığı, rus kənd axşamını təsvir edən cəmi dörd bənddən ibarət olan, zərif, qəlbə sakitlik gətirən sətirlərlə zövqümüzə sığal çəkən «Вот уже вечер. Роса» şeiri [195, s.15], eləcə də bir sıra digər şeirləri rus poeziyasına təbiət sevgisi ilə alışıb-yanan yeni bir nəfəsin gəlişindən xəbər verirdi. Vətənə, təbiətə məhəbbət Yesenin poeziyasının ilham mənbəyidir. Bu sevgi onun bütün yaradıcılığı boyu müşahidə olunur, hər misrasında hiss edilir. Yeseninin vətən sevgisini duymaq üçün onun 19 yaşında yazdığı bir şeirindən bircə bəndə nəzər salmaq kifayətdir. Şair vətənini cənnətə belə dəyişmir:

Если крикнет рать святая:	Müqəddəs bir haray gəlsə içimdən:
«Кинь ты Русь, живи в раю!»	Gəl at Rusiyanı, cənnətdə yaşa.
Я скажу: «Не надо рая,	Deyərəm: – Cənnət-zad istəmirəm mən,
Дайте родину мою» [195, s.92]	Vətəndə vuracam ömrümü başa*.

O bu vətən sevgisini sözdə deyil, həyatda da isbat etmişdi. Çoxlarının Avropaya, Amerikaya həmişəlik can atdığı bir zamanda, özünün dediyi kimi, İspaniyadan başqa, bütün Avropanı və Amerikanı dolaşdıqdan sonra oralarda çox yüksək səviyyəli həyat şəraiti, şan-şöhrət, böyük var-dövlət vəd edən müxtəlif təkliflərə baxmayaraq, onu maqnit kimi özünə çəkən vətəninə döndü Yesenin.

* Bəndin tərcüməsi bu sətirlərin müəllifinindir.

Azərbaycan-rus ədəbi əlaqələrinin yorulmaz tədqiqatçısı S.Turabov Yeseninin vətən sevgisi ilə dopdolu şeirləri haqqında yazır: "*Şairin ən böyük məhəbbəti – vətənə olan məhəbbətidir. Bu məhəbbəti şair elə təsirli, elə valehedici ifadə edib ki, Puşkinin özü belə, onun şeirlərinin altında öz imzasını qoyardı*" [342, s.19].

Yeseninin vətən sevgisi və vətən həsrəti bütün "İran nəğmələri" boyunca da müşahidə olunur. O, rus təbiətini unuda bilmir, burada gördüyü, şahidi olduğu hər mənzərəni öz ana yurdunun bir gözəllik mənzərəsi ilə müqayisə edir, harada olursa-olsun, hansı mehribanlıqla, səmimiyyətlə, hörmətlə əhatə olunursa olunsun, Rusiya – ana vətən onu maqnit kimi özünə çəkir, çağırır:

Мне пора обратно ехать в Русь.	Vaxtdır, Rusiyaya dönməliyəm mən,
Персия! Тебя ли покидаю?	Səni tərk edirəm deməli, İran?
Навсегда ль с тобою расстаюсь	Yoxsa ayrılıram ömürlük səndən?
Из любви к родимому мне краю?	Vətən məhəbbəti oyanıb yaman,
Мне пора обратно ехать в Русь	Vaxtdır, Rusiyaya dönməliyəm mən
[195, s.288].	[113, s.113].

Yeseninə görə ay şimalda daha gözəldir və Şərqdəkindən "yüz dəfə böyükdür". Elə buna görə də şairin fikrincə, Şərq onun qoynunda böyüyüb boy atdığı Ryazan düzənlikləri ilə müqayisə edilə bilməz, ay işığı altında tarlaların o möcüzə gözəlliyini – əsl rus mənzərəsini yada salanda şair hər şeyi unudur:

Про волнистую рожь при луне	Gecə ay nurunda çimən çovdarı
По кудрям ты моим догадайся.	Qıvrım saçlarımdan, telimdən tanı.
Дорогая, шути, улыбайся,	Əzizim, gül, danış, pozma halını,
Не буди только память во мне	Yadıma salma sən, deyirəm, barı
Про волнистую рожь при луне	Gecə ay nurunda çimən çovdarı
[195, s.277].	[104, s.333].

Şərqin gülündən-çiçəyindən zövq aldığı anlarda da vətəni üçün darıxan, qəlbində rus qarmonunun həsrətini daşıyan, ay işığı altında it hürüşlərinin hər kəsə görünməyən gözəlliklərindən xüsusi ilham alan şair, ana yurdunun füsunkarlığını görmək üçün, Şərq gözəlini öz vətəninə – "uzaq mavi diyara" dəvət edir, Şimal gözəlininin həsrətini ovundurmaq üçün ondan kömək istəyir:

Заглуши в душе тоску тальянки,	Sən öz nəfəsinlə məni məst elə,
Напои дыханьем свежих чар,	Kədəri, qüssəni qov ürəyimdən.

Чтобы я о дальней северянке	Şimallı bir qızın həsrəti ilə
Не вздыхал, не думал, не скучал	Ah çəkib, düşünüb, darıxmayım mən
[195, s.281].	[113, s.106].

Aleksandr Tvardovski özünün müəllimi hesab etdiyi Yesenini "Rusiyanın ağcaqayını" adlandırmaqla, həm böyük şairin böyüklüyünü, ağcaqayın kimi möhtəşəmliyini, həm də onun rus meşələrinin şahı ağcaqayına və bütünlükdə, təbiətə məhəbbətini ifadə etmişdir. Təbiətin başqalarına görünməyən füsunkar gözəlliklərini inanılmaz ilham və orijinallıqla vəsf edən Yesenin hərdən təbiətə öz şeirləri qədər şirin bir tərzdə söz də atır: "*Təbiət, sən Yesenini təkrarlayırsan*" [205, s.45].

"İran nəğmələri"nin yazılma tarixçəsi, şeirlərin bədii-estetik xüsusiyyətləri, onların Azərbaycan tərcümələri, silsiləsinin və ümumilikdə Yesenin poeziyasının, Azərbaycan tərcüməçilik məktəbinə müsbət təsiri və bir sıra digər məsələlərlə bağlı dissertasiyanın ikinci və dördüncü fəsillərində ətraflı söhbət açacağıq.

Hələ XX əsrin 20-ci illərindən Azərbaycan oxucularına tanış olan Sergey Yeseninin yaradıcılığı, onun ədəbiyyata gətirdiyi poetik ənənələr sonrakı illərdə poeziyamızın, ümumilikdə ədəbiyyatımızın inkişafına müsbət təsirsiz ötüşməmiş, qələm sahiblərimiz müxtəlif vaxtlarda S.Yeseninin zəngin poetik irsinin yaratdığı imkanlardan uğurla istifadə etmiş və bu gün də biz əminliklə, Yesenin yaradıcılığının Azərbaycan ədəbiyyatına müsbət təsirindən danışa bilərik. Yesenin yaradıcılığının Azərbaycan ədəbiyyatına təsirinin özü bir proses olaraq ədəbiyyatşünaslığımızın əsas istiqamətləri ilə əlaqəli müstəvidə öyrənilməlidir və deməli, Sergey Yesenin və Azərbaycan-rus poeziya əlaqələri, daha geniş mənada Sergey Yesenin və Azərbaycan-rus ədəbi-mədəni əlaqələri problemi kifayət qədər vacib, geniş və çoxşaxəlidir. Bu məsələlər hələ XX əsrin 20-ci illərindən ədəbiyyatşünaslığımızın gündəmində olmuş, sonrakı dövrlərdə məsələnin tədqiqi ilə bağlı çoxsaylı araşdırmalar aparılmış, müxtəlif yanaşmalar, fikirlər ortaya qoyulmuşdur. Lakin bütün bunlarla yanaşı hələ də "Sergey Yesenin və Azərbaycan" kontekstində həllini gözləyən məsələlər də az deyil. Biz burada Sergey Yesenin yaradıcılığının poeziyamıza, ədəbiyyatımıza təsirindən danışmaqla yanaşı, həm də bu mövzunun iki xalqın ədəbi əlaqələrinin inkişafına necə təsir etməsini, bunun ədəbi-mədəni inkişaf baxımından Azərbaycanda

necə əks-səda doğurduğunu göstərmək məqsədilə, ümumilikdə Yesenin poetik irsinin daha dərindən və hərtərəfli öyrənilməsini nəzərdə tutmuşuq.

Xalq şairi Nəriman Həsənzadə Sergey Yesenin günlərinə hazırlıq keçirilməsi ilə bağlı bu böyük şairin poeziyası haqqında yazırdı: "*Onun poeziyası insana, vətən torpağına, sözün əsl mənasında, məhəbbət poeziyası, mehribanlıq poeziyasıdır. Bu, qəlbin qəlbə isnişməsidir... Mənə elə gəlir ki, o, Rusiyaya Nekrasov məhəbbəti bəsləmiş və Rusiyanı Yesenin ilhamı ilə tərənnüm etmişdir... Şair – sözlü adam deməkdir. Yesenin sözlü adam idi. Xalq haqqında, torpaq haqqında ..., Sədinin, Firdovsinin qədim diyarı haqqında sözü olan adam idi. O, Rusiyada doğulsa da, bütün xalqların oğlu idi*" [15].

Başqa bir yerdə, "Yesenin – Puşkindən sonrakı Rusiyadır" deyən Nəriman Həsənzadə yazır: "*Yesenin mənim nəzərimdə ideal rus sadəlövhlüyünün rəmzidir. Buna görə də, oxunduqca oxunur, sevildikcə də sevilir. İçərisindən çıxdığı xalqın ruhunda və dilində danışır. Obrazlı ifadələr, poetik məcazlar, aforizmlər və s. – hamısı o xalqdan gəlir. Buna görə də, bu ranglər, boyalar daimidir. Heç nə: zamanın küləkləri, yağışı-qarı onları soldura bilmir... Yesenin milli rus ranglərinə Şərq – Azərbaycan rəngləri də qatdı. Azərbaycan naxışları alındı – Yeseninin toxuduğu Şərq – Azərbaycan xalçası*!" [16].

Azərbaycanda Yesenin poeziya günləri ilə əlaqədar Məmməd Araz isə böyük şair haqqında aşağıdakıları söyləmişdi: "*Mənə elə gəlir ki, Yeseninin Ryazandan başlanan cığırı bir Magellan yolu kimi dünyanın belinə dolanır... Bir sənətkar yolu, axtarış yolu onu Bakıya, qədim odlar məbədgahına da gətirib çıxartmışdır. Burada yazılan və bura ilə bağlı xatirələrdən alınan şeirlər Yesenin yaradıcılığında mövzu cəhətdən xüsusi xətlə ayrılır. Şair burada da yenə rus qəlbi ilə oxuyur, öz "şimal fırçası" ilə cənub boyalarını rəsm eləyir. Onları ruhuna, qanına hopdurur, öz şimal boyalarını daha da zənginləşdirir. Yesenin nəğmələri – şeiri, sözün rəngləridir. Rus torpağının mənzərələrini, rus sözünün rənglərini, rus ürəyinin vurğularını Yesenin qədər uşaq heyrəti ilə duyan, uşaq səmimiyyəti ilə ifadə edən ikinci sənətkar tapmaq çətindir... Yeseninin nəğmələri yetkindir, şirəlidir*" [5].

Hələ sağlığında, hər kəsə qismət olmayan böyük zirvələri fəth edən, dünyadan köçdüyü ilk gündəcə, müasirləri tərəfindən, "dahi şair" kimi, öz layiqli qiymətini alan Yesenin, cəmi otuz il ömür sürməsinə və üstəlik, bu yolda, müəyyən zaman kəsiyində, çox böyük ədəbi və həyatı sarsıntılar keçirməsinə baxmayaraq, sonda, sözünün qüdrəti ilə, şairlik istedadı ilə, bir mütəxəssisin dediyi kimi, "*planetin unikal hadisəsi*" [284, s.263] dərəcəsinə yüksələ bilmişdir.

1925-ci il dekabrın 31-də Moskvada, Vaqankovo qəbiristanlığında dəfn edilməzdən əvvəl Yeseninin cənazəsini üç dəfə Puşkinin abidəsinin başına dolandırmışdılar. Bu haqda Y.N.Libedinski xatirələrində yazır: "*Yesenini Vaqankovo qəbristanlığına aparmazdan qabaq onun tabutunu Puşkinin heykəlinin başına dolandırdıq. Biz nə etdiyimizi bilirdik – o, Puşkin şöhrətinin layiqli varisi idi*" [254, s.155].

"XX əsrin ən böyük lirik şairi" (N.Kəsəmənli) Sergey Yeseninin Azərbaycanla əlaqələrinə dair müxtəlif vaxtlarda olduğu kimi bu gün də çoxsaylı araşdırmalar aparılmasına baxmayaraq, hələ də "Sergey Yesenin və Azərbaycan" mövzusu ilə bağlı ədəbiyyatşünaslığımızda həllini gözləyən məsələlər qalmaqdadır. Odur ki, biz burada hər-hansı bir səbəbdən indiyə qədər aparılmış tədqiqatlardan kənarda qalmış və ya bu tədqiqatlarda səthi toxunulmuş, bəzən də müəyyən siyasi motivlərlə bağlı bilərəkdən üstündən keçilmiş bir sıra məsələ və faktları təhlilə cəlb edəcək, bu haqqda daha əsaslı, daha konkret fikirlər ortaya qoymağa çalışacağıq.

Beləliklə, bu fəsildə qarşıya qoyulan əsas məsələ Yesenin yaradıcılığının "qızıl dövrü" hesab olunan Bakı dövrünü tam təfsilatı ilə araşdırmaq, şairin Bakı həyatı ilə bağlı qaranlıq məsələlərə aydınlıq gətirmək, Yeseninin ümumi yaradıcılığında Bakı dövrünün yerini və rolunu müəyyənləşdirməkdən ibarətdir.

1.2. **Sergey Yesenin Azərbaycanda**

Azərbaycanın tarix boyu Qafqazın bir hissəsi kimi öz coğrafiyası, strateji mövqeyi, təbii ehtiyatları, adət-ənənələri, təbiəti, zəngin mədəniyyəti və digər xüsusiyyətləri ilə səyahətçiləri, yaradıcı insanları həmişə cəlb etmişdir. Bu mənada

rus şair və yazıçıları da istisna deyil və onların Azərbaycana marağı daha ardıcıl və davamlı xarakter daşımışdır.

Məşhur Norveç yazıçısı, 1920-ci il ədəbiyyat üzrə Nobel mükafatçısı Knut Hamsun özünün Qafqaz səfərlərindən bəhs edən "Nağıllar diyarında" əsərində A.S.Puşkin və M.Y.Lermontovun Qafqaz səfərlərini nəzərdə tutaraq yazır ki, rus çarı məşhur rus şairlərini Qafqaza sürgünə göndərir, Qafqaz isə sürgünlükdən çıxaraq onlar üçün ilham mənbəyinə çevrilir.

V.Q.Belinski də bu diyarda olmuş rus şairlərinin yaradıcılığında Qafqazın yerini yüksək qiymətləndirir və Qafqazı daha obrazlı şəkildə - "poeziya beşiyi" adlandırırdı.

Müxtəlif vaxtlarda rus şair və yazıçıları Qafqazda, o cümlədən Azərbaycanda olmuş, onun ədəbiyyatı, mədəniyyəti, təbiəti, adət-ənənələri ilə tanış olmuş və öz təəssüratlarını müxtəlif janrlarda yazılmış əsərlərində qələmə almışlar. Bununla bağlı H.Babayev, S.Qurbanov, K.Talıbzadə, Ə.Bağırov, M.Arif, S.Lukyanova, F.Vəlixanova, T.Şərifli, S.Turabov, M.Sadıxov, N.Məmmədov, Ə.Xəlilov, R. Novruzov və başqalarının əsərlərində ətraflı məlumatlar tapa bilirik. Hələ 1977-ci ildə ədəbi əlaqələr üzrə görkəmli tədqiqatçı S.Turabov "Azərbaycan rus və sovet yazıçılarının yaradıcılığında" kitabında Azərbaycanla müxtəlif dövrlərdə əlaqələri olan 80-dən artıq rus yazıçılarının əsərlərini təqdim etmişdi [119].

Heç şübhəsiz Azərbaycan-rus ədəbi-mədəni əlaqələrinin inkişafında və rus şair və yazıçılarının Azərbaycanla bağlılığında Azərbaycanın və Rusiyanın qabaqcıl ziyalıları arasında olan Bakıxanov-Qriboyedov, Bakıxanov-Puşkin, Bestujev Marlinski-Axundov, Zərdabi-Tolstoy və s. dostluq münasibətləri az rol oynamamışdır. 1828-ci ildə Azərbaycanın bir hissəsinin Rusiyaya birləşməsi də rus şair və yazıçılarının Azərbaycana marağının artmasında müəyyən rol oynadı.

XIX əsrin birinci yarısında A.Qriboyedov, A.Puşkin, M.Lermontov, A.Bestujev-Marlinski, əsrin ikinci yarısında Y.Polonski, N.Ostrovski, A.Çexov, M.Qorki kimi məşhur rus sənətkarları Azərbaycanda olmuşlar. XX əsrin əvvəllərində, inqilaba qədərki dövrdə yenə bir sıra rus şair və yazıçıları, o cümlədən V.Bryusov A.Kuprin, İnqilabdan sonrakı dövrdə M.Qorki, V.İvanov, V.Xlebnikov, S.Qorodetski, V.Kamenski, N.Tixonov, A.Fadeyev, D.Bednı, S.Yesenin, V.Mayakovski, V.Kirşon,

İ.Utkin, N.Aseev, P.Antokolski, K.Simonov, M.Aliqer, A.Adalis, Y.Dolmatovski və bir sıra digər rus şairləri Bakıda olmuşlar. Demək olar ki, Sovet hakimiyyəti illərində Bakıya gəlmiş bir rus şairi belə bu şəhərin gözəlliklərini vəsf etmədən getməmişdir. Bu, bir tərəfdən sovet hakimiyyətinin "xalqlar dostluğu" siyasətinin təsirindən doğurdusa, digər tərəfdən də, Bakının gözəlliyi, Azərbaycanın zəngin mədəniyyəti, xalqımızın adət-ənənələri, qonaqpərvərliyindən irəli gəlirdi. Yuxarıda adı çəkilən şairlərin, eləcə də bir sıra digər rus şairlərinin Azərbaycanla bağlı şeirlərinin dilimizə tərcüməsi (ümumilikdə 35 müəllifin 68 şeiri) "Rus şairləri Azərbaycan haqqında" adlı kitabda [73] verilmişdir. Bu şairlərin əksəriyyəti üçün Bakıya gəliş, bir səfər xarakteri daşısa da, onlardan bəziləri, o cümlədən V.İvanov, S.Qorodetski, V.Xlebnikov və başqaları müəyyən müddət Bakıda yaşayıb-yaratmışlar.

V.İvanov təxminən 5 ilə yaxın Bakıda yaşamış, Bakı universitetində müəllimlik etmişdir. O, filologiya elmləri doktoru alimlik dərəcəsini və professor elmi adını məhz burada – Bakıda almışdır.

S.Qorodetski də bir müddət Bakıda yaşamış, Azərbaycan Demokratik Respublikası dövründə bir neçə ədəbi cəmiyyətin üzvü olmuş, neftçi fəhlələrin həyatı ilə bağlı şeirlər yazmışdır.

Şərq mövzusu ilə ciddi maraqlanan V.Xlebnikov bir neçə dəfə Bakıda olmuş, Nizaminin "Leyli və Məcnun" poemasının təsiri altında "Leyla və Mədlum" adlı bir poema da yazmışdır. Həyatının sonuna yaxın o, yenidən Bakıya gəlmiş və bir müddət burada yaşamışdır.

Böyük rus şairi Sergey Yesenin isə, demək olar ki, yaradıcılığının ən məhsuldar dövrünü məhz Bakıda yaşamışdır. Əslində Puşkin və Lermontovun Qafqaz səfəri kimi, Yeseninin Bakı səfərini də müəyyən mənada "sürgün" kimi (daha doğrusu "könüllü sürgün" kimi) qəbul etmək olar. Şair Bakıda olarkən yazdığı "Qitələr" şeirində buna işarə edərək "milislərlə bacarmadığından onların əlindən Moskvadan uzun müddətə qaçdığını" yazır [196, s.134].

Doğrudur, Yeseninin Qafqazla ilk tanışlığı onda heç bir xoş təəssüratlar oyatmamış, əksinə onu məyus etmişdir. O bu haqda 1920-ci ilin avqustunda E.İ. Lifşiçə məktubunda yazır: "*Bu gün səhər biz Kislovodskidən Bakıya yola düşdük və indi,*

vaqonun pəncərələrindən bu Qafqaz peyzajlarını seyr edərkən içimdə nə isə bir narahatlıq keçirirəm. Mən bu yerlərdə ikinci dəfəyəm və heç başa düşmürəm ki, bu yerlər bizdə Terekin, Kazbekin, Dəryalın və s. obrazlarını yaradanları nə ilə valeh ediblər. Boynuma alım ki, Ryazan quberniyasında mən Qafqazla bağlı daha zəngin idim, nəinki burda" [198, s.115]. Bununla belə, onun məhz Kislovodsk-Bakı qatarında şahidi olduğu kiçik bir epizod "Sorokoust" poemasının yazılması ilə nəticələndi və sonradan Qafqaz, o cümlədən Bakı, demək olar ki, Yeseninin poeziya beşiyinə çevrildi.

Müxtəlif vaxtlarda Azərbaycanda, Bakıda olmuş yuxarıda adı çəkilən rus şairlərindən hər birinin səfəri özünün müəyyən məqamları ilə seçilsə də, Sergey Yeseninin səfərləri maraqlı, çoxsaylı suallar doğuran məqamları ilə şair və yazıçıların, tədqiqatçıların, ədəbiyyatşünasların diqqət mərkəzində olmaqla, hər zaman olduğu kimi, bu gün də aktual müzakirələr mövzusudur. Yeseninin həyat və yaradıcılığının "Bakı dövrü"nün araşdırıcıları ilə bağlı dissertasiyanın üçüncü fəslində ətraflı məlumat verəcəyik.

Yeseninin yaxın dostu, o dövrdə Azərbaycanda MK-nın ikinci katibi, "Бакинский рабочий" qəzetinin baş redaktoru P.İ.Çaqinin, onun kiçik qardaşı V.İ. Boldovkinin, V.A.Manuylovun və bir sıra digər həmkarlarının, müasirlərinin xatirələrində [9; 10; 131; 141; 151; 152; 154; 267; 353-359] şairin Bakı həyatı haqqında xeyli maraqlı məlumatlara - onun Bakıda olduğu dövrdə səyahətləri, gəzintiləri, insani keyfiyyətləri, xasiyyəti, vərdişləri ilə bağlı, eləcə də şairin buradakı ədəbi proseslərə münasibəti, müxtəlif ədəbi görüşlərdə, şeir-poeziya gecələrində iştirakı, məclislərdə şeir oxuma manerası, səhnə mədəniyyəti, ədası, davranışı və s. barəsində fikirlərə rast gəlirik. Bunlarla yanaşı Yeseninin Tiflisdən, Batumdan, Rostovdan, Bakıdan müxtəlif ünvanlara yazdığı məktubları da onun Bakı həyatı ilə bağlı məlumatların əldə edilməsini təmin edir. Onu da qeyd etməliyik ki, Yeseninin Bakı həyatı ilə bağlı xeyli ziddiyyətli məlumatlara da rast gəlirik. Onun Bakıda olduğu bəzi tarixlər dəqiq göstərilsə də, məlumatların çoxu, əsasən, "yaz ayları", "payız ayları", "yazın sonu", "payızın əvvəli", "aprelin ortası", "sentyabrın əvvəli" və s. kimi göstərilir. Əksər müəlliflər isə Yeseninin Bakıya ilk dəfə 1924-cü ildə gəldiyini

yazırlar. Ümumiyyətlə, bu məsələdə məlumatların pərakəndəliyi o dərəcəyə çatmışdır ki, hətta mənbələrdən birində Yeseninin Bakıda cəmi 72 gün olduğu yazılır [52].

Yesenin ilk dəfə Bakıya 1920-ci ildə gəlmişdir. Onun növbəti Bakı səfəri 1924-cü ilin sentyabr ayına təsadüf edir. Sentyabr ayında Yesenin iki dəfə Bakıda olmuşdur. Belə ki, ayın əvvəllərində bir neçə gün Bakıda olduqdan sonra Tiflisə qısa səfər etmiş və sentyabrın 20-də yenidən Bakıya qayıtmışdır. Yeseninin Bakıya ilk iki səfəri yaradıcılıq baxımından məhsuldar olmamışdır və həmin dövrdə Azərbaycan mətbuatında Yeseninin bir şeiri belə dərc edilməmişdir. Bu baxımdan, Yesenin yaradıcılığının "Bakı dövrü" dedikdə də, biz məhz onun son üç səfərini (20 sentyabr – 6 oktyabr 1924; 30 mart – 25 may 1925 və 28 iyul – 3 sentyabr 1925) nəzərdə tuturuq. S.Yeseninin Bakı səfərləri ilə bağlı məlumatların dəqiqləşdirilməsinin onun ümumilikdə Bakı həyatı ilə əlaqədar bəzi məqamlara aydınlıq gətirəcəyini nəzərə alaraq, onlar haqqında ardıcıl danışmağa ehtiyac duyuruq.

S.Yeseninin həyat və yaradıcılıq salnaməsini əks etdirən beş cildliyin ikinci cildində oxuyuruq: "*iyulun 8-də* (1920-ci il – İ.İ.) *Yesenin və A.Marienqof Q.Kolobovun xidməti vaqonunda Moskvadan Şimali Qafqaza və Zaqafqaziyaya uzunmüddətli səfərə yola düşürlər... Avqustun 11-də səhər Yesenin və A.Marienqof Q.Kolobovla birlikdə, Kislovodskdan çıxıb Pyatiqorskdan keçməklə, Mineralnıye Vodıya gedirlər. Qatarda Yesenin Y.İ.lifşitsə - Xarkova məktub yazaraq onu "Mineralnıye Vodı" stansiya vağzalından yola salır*" [250, s.378; s.389]. Şairin Xarkova göndərdiyi bu məktubdan məlum olur ki, o, Kislovodskdan məhz Bakıya gəlmək üçün çıxmışdır: "*Bu gün səhər biz Kislovodskdan Bakıya yola düşdük*" [198, s.115].

S.Yeseninin Bakıya avqustun ortalarında məhz hansı gün gəldiyini bu günə qədər dəqiqləşdirmək mümkün olmamışdır. Belə ki, Yeseninin bu Bakı səfəri barədə, səfərin məqsədi, Bakıda olduğu günlərdə şairin görüşdüyü insanlar haqqında nə arxiv materiallarında, nə də mətbuat səhifələrində heç bir məlumata rast gəlmədik. Yeseninin bu səfəri zamanı Bakı mətbuatında onun bir dənə də olsun şeiri dərc olunmamışdır. S.Yeseninin həyat və yaradıcılıq salnaməsini əks etdirən beşcildliyin ikinci cildində bunun səbəbi aşağıdakı kimi aydınlaşdırılır: "*5 sentyabra qədər Yesenin Q.R.Kolobova dəmiryol nəqliyyatının bərpası ilə bağlı onun üzərinə*

qoyulmuş vəzifələrin həllinə dair köməklik göstərir…”. *Görünür, Yesenin təşkilati-texniki işlərə daha çox vaxt ayırmaq məcburiyyətində qaldığından Bakıda ədəbi çıxışlar və əlaqələr üçün onun az vaxtı olmuşdur* [250, s.391].

Bu səfəri zamanı Yeseninin Bakıda şair A.Kruçyonıxla görüşmüşdür. Bu görüşlə bağlı yeganə şəkil haqqında Q.Şipulina məlumat vermişdir [367, s.143]. Eyni zamanda Q.Şipulina S.Yeseninin Bakıya bu səfəri ilə bağlı başqa bir məqaləsində şairin bir neçə gün burada qalaraq, üzərində uzun müddət işlədiyi “Sorokoust” poemasını bitirdiyini, A.Kruçyonıx ilə görüşdüyünü, Qafqazdan aldığı təəssüratları ilə bağlı məktub yazdığını qeyd edir [368, s.23], o vaxt Bakıda yaşayan şair S.M.Qorodetski ilə görüşünün olması haqqında fikir irəli sürür [369, s.113].

Sentyabrın 5-i ərəfəsində Yesenin Tiflisə qısa səfər edib qayıdır və təxminən 13 sentyabrda Moskvaya yola düşür. Yeseninin bu Bakı səfəri ilə bağlı əlimizdə olan bütün materiallar bunlardan ibarətdir.

S.Yeseninin Bakıya bundan sonrakı gəlişi 1924-cü ilin sentyabrına təsadüf edir. 25 avqustda Bakı mətbuatında S.Yeseninin sentyabr ayında Bakıya gələcəyi haqqında aşağıdakı kiçik informasiya ilə rastlaşırıq: “*Sentyabrın ortalarında Bakıya məşhur şair-imajinist S.Yesenin gəlir. Şair sənət və poeziya ilə bağlı disputda çıxış etmək niyyətindədir*” [302]. Bununla belə qeyd etmək lazımdır ki, S.Yesenin Bakıya tanınmış siyasi xadim, publisist, ədəbi tənqidçi İllarionVardinlə (Mqeladze) birlikdə gəlir, özü də mətbuatda yazılan kimi sentyabrın ortasında yox, ayın 7-də. Növbəti gün, yəni sentyabrın 8-də onlar birlikdə Tiflisə yola düşürlər. Yeseninin bu tələsik Tiflis səfərinin səbəbini N.K.Verjbitski belə izah edir: “*Bakıda olarkən Yesenin “Yeni Avropa” mehmanxanasında Zaqafqaziya üzrə hərbi müfəttiş təyin edilmiş moskvalı tanışı İlyinlə rastlaşır. Əvvəl onların görüşü tam normal keçsə də, birdən müfəttiş şairi dəli kimi öz arvadına qısqanmağa başlayır. İş hətta o yerə çatır ki, o, şairi revolverlə hədələyir. Bu son dərəcə müvazinətsiz adam öz hədəsini asanca yerinə yetirə bilərdi. Belə də olmuşdu. İlyin atəş açmasa da, o, bir dəfə Yeseninin üstə silah çəkmişdi. Elə bu da 1924-cü il sentyabrın əvvəllərində şairin Tiflisə ilk qısa müddətli səfərinə səbəb olmuşdur*” [137, s.23]. Maraqlı bir faktı da qeyd edək ki, bir sıra mütəxəssislərin, o cümlədən N.Verjbitskinin fikrincə, S.Yesenin Tiflisdə olarkən,

V.Mayakovski ilə görüşmüşdür [137, s.10-18]. Amma bu görüşün olması haqqında heç bir yazılı məlumat yoxdur. Digər tərəfdən, bir sıra mütəxəssislər belə bir görüşün ümumiyyətlə baş tutmadığını yazırlar. Biz isə bu məslənin bizim tədqiqatımızla əlaqəsi olmadığından bu haqda əlavə mülahizələrə ehtiyac duymuruq. Onu da qeyd edək ki, "*1924-cü il sentyabrın 10-18 aralığında Yeseninin Tiflis-Bakı-Tiflis marşrutu ilə daha bir səfər etməsi haqqında N.K.Verjbitskinin fikri son zamanlara qədər Yeseninlə bağlı ədəbiyyatlarda heç bir şübhə doğurmurdu. Amma Yeseninin həmin dövrə aid həyatı ilə bağlı bu günə məlum olan və yazılı şəkildə təsdiqlənmiş çoxsaylı sənədlərdən aydın olur ki, göstərilən Tiflis-Bakı və geriyə "marş-səfər" bu məlumatlarla gözəgörünəcək dərəcədə ziddiyyət təşkil edir. Amma Yeseninin buna oxşar qısamüddətli səfərinin ola bilməsi də istisna deyil, lakin sonralar (məsələn, 1924-cü ilin noyabrında). Bu problem hələ də öz həllini gözləyir*" [251, s.408-409].

Sentyabrın 20-də Bakıya qayıdan S.Yesenin "Yeni Avropa" otelində yerləşir və az müddətdən sonra o, P.İ.Çaqinlə görüşür. Bu görüşlə bağlı P.İ.Çaqinin təəssüratları "S.A.Yesenin müasirlərinin xatirələrində" ikicildliyinin ikinci cildində verilmiş "Sergey Yesenin Bakıda" materialında və onun Azərbaycan və rus dillərində dərc olunmuş digər yazılarında geniş şəkildə öz əksini tapmışdır [9; 355; 356; 357].

P.Çaqin Yeseninlə Bakı görüşünü belə təsvir edir: "... *Aylar keçirdi. Mən artıq Yesenini Bakıda görmək ümidimi itirmişdim* (P.Çaqin Yeseninlə həmin ilin fevralında Moskvada, V.Kaçalovun evində tanış olmuş və onu Bakıya dəvət etmişdi – İ.İ.). *Ancaq sentyabrın 20-də axşam redaksiyaya gələndə stolumun üstündə kiçik bir məktub gördüm: "Yoldaş Çaqin! Mən gəlmişəm. Yanınıza gəldim, lakin Sizi görə bilmədim. "Yeni Avropa" otelində yerləşmişəm, № 59. Mehmanxananın direktoruna zəng vurub söyləyin ki, Sizi nə vaxt görə bilərəm. 20. IX. 24. S. Yesenin". Elə həmin saat Yesenin mənim yanımda oldu. Hal-əhval tutduqdan sonra onu belə gec gəlməsinə görə məzəmmət etdim. Axı sentyabrın 20-si bakılılar üçün müqəddəs gün – 26-ların Xatirə günüdür. Əgər o, bir-iki gün qabaq gəlsəydi, yubiley nömrəsinə şeirlər verə bilərdi. Yesenin hələ Moskvada etiraf etmişdi ki, 26 komissarın ölümü ilə bağlı mövzu onu həyəcanlandırır. Səhvi tez düzəltmək və Yeseninin şeirlərini isti-isti qəzetin ən yaxın nömrələrində verməyi qərara aldıq. Amma şeirlər hələ yox idi. Bəs*

necə olsun? Mən Yeseninə 26 Bakı Komissarı haqqında materiallar verdim. Bakıda bu barədə material qıtlığından şikayətlənmək olmazdı. Məsələn, bundan qabaqkı ildönümü münasibətilə "Бакинский рабочий" qəzeti bu tipli materiallarla dolu 28 qoşa səhifədə dərc edilmişdi. Yesenin mənim kabinetimə qapanıb, materialları acgözlüklə nəzərdən keçirirdi. Səhərə yaxın redaksiyaya gəlib görürəm: "26-lar haqqında ballada" şeiri stolun üstündədir. Sovet poeziyası incisinin yaradıcısı isə divanda uzanıb yarıyuxulu halda hələ də soyumamış misraları pıçıldayırdı" [355, s.160-161].

26 Bakı Komissarının güllələnməsinin 6-cı ildönümü münasibətilə yazılmış "26-lar haqqında ballada" "Бакинский рабочий" qəzetinin 22 sentyabr tarixli sayında çap edilmişdi. Ballada rəssam və heykəltəraş, Yeseninin yaxın dostu Q.B.Yakulova (1884-1928) həsr edilmişdir. Yesenin Bakıda olduğu vaxt Yakulov 26-ların abidəsinin layihəsi üzərində işləyirdi. Çox güman ki, balladanın ona həsr edilməsi də elə bununla bağlı olmuşdur [366, s.185]. Qeyd edək ki, bir sıra mənbələrdə 1958-ci ildə 26-ların məzarı üstündə qoyulan abidənin məhz Q.B.Yakulovun layihəsi üzrə reallaşdığı yazılır. Lakin Q.B.Yakulovun bu layihəsi, həcminin çox böyük olması səbəbindən, həyata keçmədi. 26-ların məzarı üstündə qoyulan abidənin müəllifi heykəltəraş S.D.Merkurovdur (1881-1952).

Yeseninin müasirləri və dostları V.A.Manuylov və V.Şveytser xatirələrində 1924-cü il sentyabrın 20-də 26 Bakı Komissarının heykəli başında Yeseninin "26-lar haqqında ballada"nı böyük şövqlə oxuduğunu yazırlar [267, s.172; 365, s.64]. Bu məsələyə bir qədər aydınlıq gətirmək lazımdır. Məsələ burasındadır ki, V.A.Manuylov və V.Şveytserin xatirələrində yer alan bu məsələ bəzi digər məqamlarla müəyyən ziddiyyət təşkil edir. Bu mövzu, ümumilikdə, bizim üçün çox da xöş təəssüratlar oyatmasa da, Yeseninin Bakı həyatı ilə əlaqədar, böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, bütün məsələlərə müəyyən aydınlıq gətirilməsi naminə bununla bağlı fikirlərimizi qeyd etməyi özümüzə borc bilirik.

Əgər 26 Bakı Komissarının güllələnməsinin 6-cı ildönümü münasibətilə uyğun abidənin yanında hər-hansı bir rəsmi dövlət tədbiri keçirilsəydi, bu, sentyabrın 20-də olmalıydı. İlk olaraq qeyd edək ki, belə bir tədbirin keçirilməsi haqqında həmin günlərdə mətbuatda heç bir məlumata rast gəlinmir. Əlbəttə, bu, belə bir tədbirin

ümumiyyətlə keçirilməməsi faktı ilə eyniləşdirilməməlidr. Burada bizim də məqsədimiz, belə bir tədbirin keçirib-keçirilməməsini aydınlaşdırmaq yox, bu tədbirdə Yeseninin iştirak edib-etməməsini və eyni zamanda "26-lar haqqında ballada"nı oxuyub-oxumamasını müəyyənləşdirməkdir. Sözsüz ki, Yesenin belə bir tədbirdə iştirak etmiş olsaydı, bir şair olaraq mütləq şeir də oxuyardı. Amma Yeseninin bu tədbirdə iştirak edib-etməməsi məsələsinə aydınlıq gətirmək üçün bəzi məqamlara diqqət yetirək. Birincisi, V.A.Manuylovun xatirəsində qeyd olunur ki, həmin tədbirin açılışında S.M.Kirov özü şəxsən iştirak etmişdir. Bu isə onu deməyə əsas verir ki, P.İ.Çaqin də, MK-nin 2-ci katibi kimi, həmin tədbirdə iştirak etməliydi. P.İ.Çaqinin özünün xatirələrindən məlumdur ki, Yesenin Bakıya məhz sentyabrın 20-də gəlmişdir və onlar həmin gün axşam onun iş kabinetində görüşmüşlər. Qeyd edək ki, bu tip tədbirlər, bir qayda olaraq, gündüz saatlarında keçirilir. Əgər Yesenin həmin tədbirdə iştirak etmiş olsaydı, P.İ.Çaqinin bundan xəbəri olardı və onlar tədbirdə görüşərdilər. İkincisi, P.İ.Çaqin öz xatirələrində "26-lar haqqında ballada"nın yazılması tarixindən geniş danışsa da, nə keçirilən tədbir haqqında, nə də, xüsusən, Yeseninin həmin tədbirdə iştirakı və şeir oxuması ilə bağlı heç nə yazmır. Digər tərəfdən, P.İ.Çaqin "26-lar haqqında ballada"nın sentyabrın 20-dən 21-ə keçən gecə yazıldığını qeyd edir. Belə olan halda sentyabrın 20-də keçirilən tədbirdə həmin şeir necə oxuna bilərdi? Beləliklə, bəzi müasirlərinin xatirələrində yer almasına baxmayaraq, Yeseninin 1924-cü il sentyabrın 20-də 26 Bakı Komissarının heykəli qarşısında "26-lar haqqında ballada"nı oxuması fikri xeyli şübhə doğurur. Mümkündür ki, Yesenin həmin şeiri sentyabrın 20-də deyil, başqa bir gün başqa bir tədbirdə oxumuşdur.

Yeseninin Bakıya gəlməsindən bir neçə gün əvvəl P.İ.Çaqinin kiçik qardaşı V.İ. Boldovkin də İrandan Bakıya gəlmişdi (V.İ. Boldovkin SSRİ-nin Tehrandakı səfirliyində diplomatik poçt xidmətində işləyirdi). O, Yeseninin Bakıda olduğu vaxt ərzində (oktyabrın 6-na qədər) onunla birlikdə olmuşdur. V.İ. Boldovkinin xatirələrindən aydın olur ki, Yesenin onun tezliklə İrana qayıdacağını eşidəndə çox təsirlənir və onunla birlikdə İrana getmək istədiyini söyləyir: "*Pyotr* (P.İ.Çaqin – İ.İ.) *mənə dedi ki, sən tezliklə İrana qayıdırsan, mən sənlə İrana getmək, bu möcüzə Şərq ölkəsini görmək istəyirəm... Biz evdən çıxdıq və dənizkənarı bulvara yollandıq.*

O necə də nüfuzetmə qabiliyyəti ilə qala divarlarını, İsmailiyyə binasını (indiki Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası – İ.İ.) *seyr edir, onların tikilmə tarixi, memarları ilə maraqlanırdı. Onu hər şey maraqlandırırdı və mən onun suallarına cavab verməyə vaxt çatdırmırdım. Bəzən də elə suallar olurdu ki, mən onlara cavab verə bilmirdim. Məsələn, "Xan sarayında sonuncu xan kim olub?"... Biz axşama qədər dənizkənarı bulvarı və İçəri şəhəri dolaşdıq, Serqey aludəçiliklə tarixi abidələrlə maraqlanırdı. Məşhur Qız qalası, köhnə saray onun diqqətini cəlb etdi. Tarixi abidələri seyr edərək, Serqey mənə İran haqqında saysız suallar verirdi, hiss edirdim ki, İran onu rahat buraxmır, özünə çəkirdi. Gecəyarı biz evə gəldik, Serqey məndən əl çəkmirdi, nədən söhbət açsaq da, sözü İrana gətirirdi*" [131, s.85].

Həmin axşam V.Boldovkin Yeseninə Şərq haqqında, İran haqqında müxtəlif əfsanələr danışır, İran şəhərlərinin gözəlliyindən, oradakı Şərq bazarlarından, çadralı qadınlardan, çaydan, çayxanalardan və s. ətraflı söhbət açır. Bir tərəfdən, Yeseninin özünün Şərq poeziyasına məhəbbəti, digər tərəfdən, V.Boldovkinin ona Şərq, İran əfsanələri və nağıllarından danışması, onun İran arzularını daha da alovlandırırdı.

V.A.Manuylov Yeseninlə bağlı xatirələrində birlikdə Bakının dar küçələrini, Qız qalasını, Kubinkada dükan-bazarı gəzdiklərini, Şamaxı və ya Qubadan gələn karvanları necə izləmələrini, Şərq miniatür və əlyazmalarının böyük həvəskarı və bilicisi olan bir qocanın Yeseninin xahişi ilə fars dilində Firdovsi və Sədidən oxumasını, "Şahnamə"nin qədim əlyazmasını bəzəyən Şərq miniatürlərinə necə tamaşa etdiklərini ətraflı və ürəkdolusu təsvir edir, Yeseninin, demək olar ki, gördüyü və eşitdiyi hər şeylə, Şərqin müxtəlif adət-ənənələri ilə, o cümlədən, sünnülər, şiələr haqqında, şiyələrin qara bayram kimi qeyd etdikləri şaxsey-vaxsey yas mərasimi haqqında maraqlandığını, sorğu-sual etdiyini yazır [267, s.178-179].

Bu məqamda, bir qədər haşiyəyə çıxıb qeyd edək ki, Yeseninin «Быть поэтом – это значит то же» şeirindəki «Рубцевать себя по нежной коже / Кровью чувств ласкать чужие души» misralarının məhz şairin şaxsey-vaxsey təəssüratlarından doğduğu qənaətindəyik. Ümumiyyətlə, Yesenin poeziyasında kifayət qədər məqamlar var ki, onlar şairin həyatda gördüyü hadisələr, rast gəldiyi maraqlı epizodların təsviridir və yuxarıdakı misralar da şaxsey-vaxsey mərasimdə baş verənləri bariz

şəkildə özündə əks etdirir. Bəs, Azərbaycanda olduğu dövrdə Yesenin şaxsey-vaxsey yas mərasimində iştirak edə bilərdimi? Qafqaz Müsəlmanları İdarəsindən aldığımız məlumata görə 1925-ci ildə şiələrin qara bayramı (aşura) 19-21 aprel tarixlərində 3 gün qeyd edilmişdir. Məlumdur ki, həmin günlərdə şaxsey-vaxsey nümayişi də olmuşdur və bu haqda Abbas Mirzə Şərifzadənin lentə aldığı qısametrajlı sənədli film də mövcuddur. Bizim hesablamalarımıza görə Yesenin, təxminən, elə həmin günlərdə xəstəxanada müalicə olunmuşdur (bax: s.38-41). Amma bu, onun şaxsey-vaxsey mərasimində iştirak edə bilmə ehtimalını təkzib etmir. Çünki, Yesenin xəstəxanada olsa da yataq xəstəsi deyildi. Üstəlik, Yeseninin Çaqinin yaxın dostu olduğunu və ona, demək olar ki, istədiyi hər şey üçün həmişə hər cür şərait yaradıldığını nəzərə alsaq, onun elə xəstəxanada olduğu gündə də çox maraqlandığı şaxsey-vaxsey mərasimində iştirak etməsi kifayət qədər realdır. Burada qeyd etmək yerinə düşər ki, Yeseninin xəstəxanada müalicə olunduğu müddətdə Dəniz Nəqliyyatı Texnikumunun şagirdləri ilə görüşə getməsi faktı da məlumdur (bax: səh.39). Əlbəttə, bütün bunlar Yeseninin şaxsey-vaxsey mərasimində iştirak etdiyini fakt kimi qəbul etməyə də əsas vermir. Ona görə də biz belə hesab edirik ki, həmin misralar ya şairin mərasimdən canlı təəssüratları əsasında yazılmışdır, ya da onun mərasim haqqında eşitdiklərinin poetik təsviridir. Qeyd edək ki, şaxsey-vaxsey mərasiminin Yeseninin yaradıcılığında iz buraxması ehtimalına V.Devitt, "İran nəğmələri haqqında düşüncələr" məqaləsində, qısaca toxunmuş [156, s.110], amma nədənsə, sonradan tədqiqatçı bu misraların mənasını başqa müstəvidə izah edərək, fikrimizcə, doğru mətləbdən uzaqlaşmışdır.

Yeseninin bu 16 günlük səfəri zamanı bir neçə şeir gecəsi və görüşlər keçirilmişdi. Bu haqda "Бакинский рабочий" və "Труд" qəzetlərində məlumatlarla rastlaşırıq [138; 204]. Belə görüşlərdən biri Yesenin Bakını tərk etməzdən üç gün əvvəl, oktyabrın 3-də ADU-nun M.Ə.Sabir adına tələbə klubunda baş tutmuşdu. Bu şeir gecəsi Yeseninin Bakıda kütlə qarşısında ilk rəsmi çıxışı idi. "*Cümə günü oktyabrın 3-də Sabir adına tələbə klubunda Sergey Yeseninin şeir gecəsi keçiriləcək... Bu şeir gecəsi şair Yeseninin Bakıda kütlə qarşısında ilk rəsmi çıxışıdır*" [204].

Böyük əks-səda doğuran bu görüş haqqında oktyabrın 5-də "Труд" qəzetində "Tsiklop" imzası ilə bir yazı, oktyabrın 6-da isə "Бакинский рабочий" qəzetində

Mixail Danilovun hesabat yazısı çap olunmuşdur. Yesenin yaradıcılığına bir-birinə əks mövqedən iki müxtəlif baxış olan bu yazılarda ümumi bir məqam var: Hər iki yazıda "səhnədəki Yesenini" görmək olur. Mixail Danilovun yazısında oxuyuruq: "*Əzməyə də, əzizləməyə də, vurub dağıtmağa da eyni dərəcədə qadir olan rus ruhunun tufanı Yesenində, hətta hiss edilməməsi mümkün olmayan, mənasız və hansısa ibtidai şüuru ehtiva edən bu ruhda sağlam, faydalı çox şey var. O şeylər ki indi bizə lazımdır. Bax elə buna görə də həmişə yaxasıaçıq, boz köynəkli, dəliqanlı görkəmli və avazımış mavi gözlü bu «qalmaqallı şair» bizə, qəribə şəkildə çox yaxındır*" [152]. Ümumilikdə, qərəzli mövqedən yazılmış digər yazıda da, müəllifin istehzasına baxmayaraq, Yeseninin səhnə mədəniyyəti göz qabağındadır: "*Qızılı qıvrımsaçlı şair auditoriyaya gözəl parçalar ünvanlayaraq tələbələrin hay-küylü alqışlarını qazandı. Onun ədəbsiz lirikasının qızğın pərəstişkarları özlərini təqdim edərək şairin əlini öpdülər. O da öz növbəsində, mütəəssir halda xanımların zərif barmaqlarını öpdü*" [354].

Yesenin arzusunda olduğu İranı görə bilmədi. Oktyabrin 6-da o, Bakıdan Tiflisə, oradan da Batuma gedir.

Yeseninin bu Bakı səfəri zamanı (20 sentyabr – 6 oktyabr) Bakı mətbuatında 8 şeiri dərc edilir və onların hamısı "Бакинский рабочий" qəzetinin səhifələrində özünə yer alır. Bunlar «Баллада о двадцати шести» [161], «Сукин сын» [186], «Отговорила роща золотая…» [186], «Русь советская» [181], «Низкий дом с голубыми ставнями…» [173], «Этой грусти теперь не рассыпать…» [192], «Пушкину» [192], «Страна негодяев» (poemadan bir parça) [185] şeirləridir.

1924-cü il noyabrın sonlarında Yesenin yenidən Bakıya gəlməyi planlaşdırır. Bu haqda məlumatı biz onun 17 noyabrda P.M.Denisova – Sokolovaya yazdığı məktubdan alırıq. Həmin məktubda Yesenin yaxın günlərdə Bakıya gələcəyini, oradan isə Tehrana gedəcəyini yazır [198, s.185]. Bununla belə Bakı mətbuatı səhifələrində bu fakt öz təsdiqini tapmır və görünür, o vaxtlar S.Yesenin İrana getməyə can atsa da, bu səfər baş tutmadığından elə Bakıya da gəlməmişdir.

1925-ci il fevralın 26-da da Yeseninin Bakıda olması haqqında məlumat var: [203, s.464; 252, s.87-88]. Uyğun məlumata V.A.Manuylovun xatirələrində də rast

gəlirik: "*1925-ci ilin fevral ayının 20-si ərəfəsində Yesenin Tiflisdən Moskvaya gedərkən bir neçə gün* (fərqləndirmə bizimdir – İ.İ.) *Bakıda oldu. O, özü ilə "Anna Sneqina"nı və sonralar "İran nəğmələri"nə daxil edilən bir neçə şeir aparırdı. Onun bu səfərində biz yalnız ayaqüstü "Бакинский рабочий" qəzetinin redaksiyasında görüşdük*" [267, s.183-184]. Bu məlumatı bir qədər dəqiqləşdirməyə ehtiyac var. Məsələ burasındadır ki, Yeseninin fevralın 21-də Tiflisdən, ayın 26-da isə Bakıdan Q.A.Benislavskayaya göndərdiyi teleqramlarından [198, s.202], 3-7 mart günlərində Moskvadan P.Çaqinə yazdığı məktubundan [198, s.203] və digər materiallardan [252, s.87-88] tam aydın olur ki, Yesenin 1925-ci il fevralın 25-də (həftənin 3-cü günü) Tiflisdən Bakıya yola düşüb, 26-da (həftənin 4-cü günü) Bakıya çatıb, elə həmin gün də Moskvaya yola düşüb və martın 1-də (bazar günü; 1925-ci ilin fevral ayı 28-dəndir) Moskvaya çatıb. Bakı – Moskva qatarının saat 13-00-da yola düşdüyünü nəzərə alsaq, tam aydın olur ki, Yesenin Bakıda, V.A.Manuylovun, yazdığı kimi, bir neçə gün deyil, cəmi bir neçə saat olub.

Yesenin növbəti dəfə Bakıya 1925-ci il martın 30-da gəlir və mayın 25-nə qədər burada qalır. Yeseninin Bakı həyatının ardıcıl tədqiqatçılarından olan Q.Şipulina şairin yaradıcılığının bu dövrünü – "Bakı baharı"nı onun ümumi yaradıcılığının ən gözəl dövrü adlandırır [367, s.144]. Gəlişindən cəmi 3 gün sonra, aprelin 3-də "Бакинский рабочий" qəzetində Yeseninin «В Хорассане есть такие двери...» və «Голубая родина Фирдуси...» şeirləri dərc edilir [163]. Elə həmin gün Yesenin "Бакинский рабочий" qəzeti nəzdində fəaliyyət göstərən fəhlə şair və yazıçıların ədəbi dərnəyində yeni şeirlərini oxuyur [304].

Fəhlə şair və yazıçıların ilk ədəbi dərnəyi 1923-cü ilin yayında yaradılmışdır. Yeseninin bu dərnəyin məşğələlərində olması ilə bağlı həmin dövrdə dərnəyə rəhbərlik etmiş Yevsey Qurviçin Yesenin haqqında xatirələrində oxuyuruq: "*Bakıda olduğu müddətdə hər cümə günü o, səliqəli şəkildə dərnəyin məşğələlərinə gəlir, dərnək üzvlərinin şeirlərinin müzakirəsində fəal iştirak edirdi. ... Şairin iştirak etdiyi elə ilk məşğələlərdə biz ondan məşğələdən sonra öz şeirlərini oxumağı xahiş etdik. O, əzilib-büzülmədi – belə şeyləri sevməzdi – dərhal razılaşdı, oturdu, dizlərini əlləri arasına aldı və oxumağa başladı. O, səsini qaldırmadan, astadan oxuyurdu. Bəzi*

sözləri pıçıltı ilə deyirdi, lakin elə sakitlik idi ki, biz onu eşidirdik. O, başını bir qədər aşağı sallayaraq oxuyur, kirpiklərindən kiçicik yaş damlaları süzülürdü. Rus dili zəngin dildir, amma Yeseninin şeir oxumağını dinlədiyimiz zaman keçirdiyimiz hisləri çatdırmaq üçün söz tapmaq mümkün deyil... Yesenin getdi və dərnək sanki yetim qaldı" [151] .

"Бакинский рабочий" qəzetinin 10 aprel sayında Y.Qurviçin, "R.B." imzası ilə ("Raboçiy bolşevik"), Yeseninin bir həftə əvvəl, aprelin 3-də fəhlə şair və yazıçıların dərnəyində öz şeirlərini oxuması haqqında yazısına rast gəlirik. Həmin görüşdə, Yesenin, auditoriyanın xahişinə baxmayaraq, "mən artıq o dövrdən uzaqlaşmışam" deyərək, "Kabak Moskvası"nı oxumaqdan imtina edir və yalnız lirik şeirlərini oxuyur. Bu, şairin Bakı dövrünün onun həyatında və yaradıcılığında necə müsbət rol oynamasını bariz şəkildə nümayiş etdirən məqamdır [304]. Elə həmin gün, aprelin 10-da S.Yesenin yenidən təxminən 100 nəfərin iştirak etdiyi fəhlə şair və yazıçıların növbəti dərnəyində şeirlərini oxuyur [303].

Aprel ayında Yesenin bir neçə gün Bakı Dənizçilər Xəstəxanasında müalicə alır. Yeseninin həmin vaxt xəstəxanada keçirdiyi günlər tam məlum olmasa da, onun aprelin 19-da – Pasxa bayramında xəstəxanada olduğunu bir fakt kimi qəbul etmək olar. Bu haqda biz Yeseninin bacısının əri V.F.Nasedkinin hələ 1927-ci ildə qələmə aldığı xatirələrdən məlumat alırıq: "*Onun xəstəliyi haqqında onun öz dilindən aşağıdakıları xatırlayıram... Məni xəstəxanaya qoydular. Pasxa bayramıdır. Mən isə xəstəxanadayam. Mənə elə gəldi ki, mən ölürəm. Bir gündə iki şeir yazdım: «Есть одна хорошая», и «Ну, целуй меня, целуй»*" [278, s.137].

Aprel ayında Yeseninin, çoxlarına məlum olmayan, daha bir görüşü olmuşdur. Həmin ay şair Dəniz Nəqliyyatı Texnikumunun (indiki Azərbaycan Dəniz Akademiyası) akt zalında bu texnikumun tələbələri ilə, gələcək dənizçilərlə görüşmüş, onlara öz şeirlərini oxumuşdur. Bu barədə məlumatı biz B.Mixaylovun 1963-cü ildə Azərbaycan mətbuatında dərc olunmuş bir məqaləsindən alırıq. "*Bu, 1925-ci ilin aprelində olmuşdu. Mən ikinci mərtəbədə işləyirdim. Bir də eşitdim ki, Sergey Yesenini bizim xəstəxanaya qoyublar. Əvvəllər Moskvada mən Mayakovskini dinləmişdim, amma şeirlərini çox böyük həvəslə oxusam da Yesenini heç vaxt*

görməmişdim. Və əlbəttə ki, şairi görməyə tələsdim. Yesenin dənizçilərlə bir yerdə, üç və ya dörd adamlıq palatada qalırdı və onlarla çox tez dostlaşmışdı. O, onların söhbətlərini dinləyir, onlara öz şeirlərini oxuyurdu... Yesenin bizim xəstəxanada çox olmasa da, burada onun yeni tanışları ortaya çıxdı. Onlardan biri -Dənizçilik Texnikumunun müəllimi şairdən şagirdlər – gələcək dənizçilər qarşısında çıxış etməsini xahiş etdi. Şair həvəslə razılıq verdi və müəyyən olunmuş saatda Dəniz Nəqliyyatı Texnikumunun ağzına qədər dolu akt zalında göründü. Yesenin "Anama məktub", "Anna Sneqina"dan parçalar, "Kaçalovun itinə" və digər şeirlərini oxudu" [273]. Bu görüşlə bağlı məlumatı biz eyni zamanda, 1980-ci ildə Rusiya mətbuatında, kiçik əlavələrlə dərc edilmiş digər bir məqalədə də oxuyuruq [129]. Qeyd edək ki, bu görüş haqqında bu iki qəzet məlumatından başqa, heç bir tədqiqat əsərlərində, məqalələrdə, monoqrafiyalarda heç bir məlumata rast gəlmədik. Yeseninin digər şeir gecələri və görüşləri haqqında, demək olar ki, bütün tədqiqatçıların yazdıqları halda, bu görüş çoxlarına naməlum qalmışdır. Maraqlıdır ki, S.A.Yeseninin həyat və yaradıcılıq salnaməsini əks etdirən beş cildlikdə bu görüş haqqında yazılır, lakin onun aprel ayında deyil, 6-17 may aralığında baş tutduğu qeyd edilir [252, s.224].

Yeseninin aprel ayında xəstəxanada müalicə alması fikri yuxarıda göstərdiyimiz iki xatirədən başqa o illərdə heç bir digər mənbə ilə təsdiqlənmir. Lakin, eyni zamanda onu da qeyd etməliyik ki, bu fikir həmin illərdə heç bir mənbə ilə təkzib də edilmir. 1970-ci ildə tanınmış rus yeseninşünas V.Q.Belousov, V.F.Nasedkinin həmin xatirələri əsasında bir sıra mülahizələr irəli sürür və Yeseninin 19 apreldə xəstəxanada olmasını bir daha təsdiqləyir [127, s.344] və bundan sonra uzun bir müddət – 2012-ci ilə qədər bu fikir bir fakt kimi qəbul edilir. Yalnız 2012-ci ildə yeseninşünas S.Subbotin bu fikri şübhə altına alır [317]. Odur ki, burada bu məsələ ilə bağlı fikir söyləməyi lazım bilirik.

V.F.Nasedkinin yuxarıda istinad etdiyimiz xatirələri 1927-ci ildə, yəni Yesenin dünyasını dəyişəndən cəmi 1 il sonra işıq üzü görmüşdür. Bu o deməkdir ki, bu xatirələr şairin dünyasını dəyişməsindən dərhal sonra qələmə alınmışdır. Üstəlik, xatirələrdəki "Məni xəstəxanaya qoydular. Pasxa bayramıdır. Mən isə xəstəxanadayam" fikri və burada Pasxa bayramına edilən vurğu həddindən artıq faktik

səslənir. Bu məlumatın Pasxa bayramı ilə bağlılığı o qədər konkret və inandırıcıdır ki, xatirə müəllifinin Yeseninin həmin günlərdə xəstəxanada olması ilə bağlı sözlərinin şübhə altına alınması heç məntiqə uyğun görünmür. Bu ifadələrdə Yeseninin məhz Pasxa bayramında xəstəxanaya qoyulmasından nə qədər üzüntülü olduğu açıq-aydın hiss edilir. Sözsüz ki, Yesenin kimi, müəyyən mənada, çətin xarakterli bir adam Pasxa bayramında xəstəxanada olmaq istəməzdi. Lakin onun sözlərindəki "Məni xəstəxanaya qoydular" fikri onu göstərir ki, Yeseninin dostları, xüsusən də P.İ.Çaqin şairin xəstəliyinin çox ciddi olduğunu nəzərə alaraq, heç gecikmədən, Pasxa bayramı olmasına və şairin etirazına baxmayaraq, onu aprelin ya 18-də, ya da 19-da xəstəxanaya yerləşdirmişlər. Digər tərəfdən növbəti ay, 6-17 may aralığında Yesenin yenidən xəstəxanada müalicə almışdır. Lakin həmin günlərin Pasxa bayramı ilə heç bir əlaqəsi yoxdur. Belə olan halda, Yeseninin xəstəxanada olması fikrinin Pasxa bayramı ilə əlaqəsi hardan meydana gələ bilərdi? Şübhəsiz ki, V.F.Nasedkin bu bağlılığı özündən qoşmamışdır və bu, bir daha Yeseninin Pasxa bayramında xəstəxanada olması fikrinin məntiqi olduğunu göstərir. Üstəlik, bir məsələni də nəzərə almaq lazımdır ki, V.F.Nasedkinin həmin xatirəsində söhbət gedən iki şeirin («Есть одна хорошая песня у соловушки…», və «Ну, целуй меня, целуй…») yazılma tarixi, məhz həmin xatirələrə əsasən, 19---25 aprel (Pasxa həftəsi) olaraq qəbul edilmişdir. Belə çıxır ki, xatirələrin bir hissəsi fakt kimi qəbul edilir, digər hissəsi isə şübhə doğurur. Əlbəttə, nəzəri olaraq bu mümkündür. Amma, bu halda, o fikri təkzib edən çox dəqiq bir fakt olmalıdır. S.Subbotin "Yesenin v Baku" məqaləsində [317] bu fikri təkzib etməyə çalışır, amma o da 19-23 aprel aralığında Yeseninin Bakı həyatı haqqında heç bir ətraflı məlumatın olmadığını qeyd edir. Ona görə də məqalədə gətirilən mülahizələr Yeseninin aprel ayında xəstəxanada olmamasını tam əminliklə iddia etmək üçün kifayət etmir. Mümkündür ki, Yesenin elə həmin 3-4 gün müddətində xəstəxanada olub. Yuxarıdakı xatirələrdən birində [273] qeyd olunan "Yesenin bizim xəstəxanada çox olmasa da" fikri də bu məntiqə uyğun gəlir. Bu fikrə dəstək olaraq onu da qeyd edək ki, Yeseninin aprelin 19-da bacısı Ekaterinaya yazdığı məktubu mövcuddur. Doğrudur, həmin məktubda, o, xəstəxanada olması ilə bağlı heç nə yazmır, amma cox ciddi xəstəliyə - vərəm

xəstəliyinə düçar olduğunu, hətta öskürərkən qan qusduğunu bütün ciddiliyi ilə qeyd edir. Belə bir şəkildə ciddi xəstəliyi olan bir adamın, üstəlik MK-nin ikinci katibinin yaxın dostu olan Yeseninin çox təcili olaraq, elə həmin günlərdə xəstəxanaya yerləşdirilməsindən məntiqi nə ola bilər ki?

Aprelin 24-də Yesenin fəhlə şair və yazıçıların ədəbi dərnəyində son dəfə iştirak etmiş, dərnək üzvləri və "Бакинский рабочий" qəzetinin əməkdaşları ilə xatirə şəkli də çəkdirmişdir. Yeri gəlmişkən, qeyd edək ki, bir məqalədə verilən məlumata görə [117]. Yeseninin "Бакинский рабочий" qəzeti nəzdindəki dərnəyin üzvləri ilə çəkdirdiyi şəkilin əsli hazırda Y.Qurviçin İsraildə yaşayan nəvəsindədir. Dərnəyin rəsmi məşğələləri ilə yanaşı, Yesenin tez-tez redaksiyaya da gedir, orada öz şeirlərini oxuyurdu: "*Redaksiyada Yesenini sevir və əzizləyirdilər. O, burada özünü o qədər sərbəst hiss edirdi ki, bir dəfə hətta balalayka ilə gəldi. Şlyapasını boynuna ataraq öz musiqisinin müşayiəti altında sevimli Ryazan çastuşkalarını oxuya-oxuya stoldan stola gəzirdi*" [345, s.117].

1925-ci ilin aprelində Bakı mətbuatında S.Yeseninin 7 şeiri çap olunur və onların hamısı "Бакинский рабочий" qəzetinin səhifələrində özünə yer alır.

Aprel ayında baş vermiş bir maraqlı hadisəni də qeyd etmək istəyirk. Ayın birinci yarısında Yesenin tanınmış memar S.D.Erzya ilə birlikdə, heç kimə xəbər vermədən, 3 gün müddətinə, sanki qeyb olurlar və Abşeronu gəzib-dolaşdıqdan sonra qayıdırlar [332, s.17-18]. N.Q.Yusov bu səfərləri ərzində onların, potensial olaraq, hansı yerləri (şəhərdə və şəhər kənarında) gəzə biləcəklərini təsəvvür və təsvir edir, bu ehtimalla, faktik olaraq, onların səfər xəritəsini cızır və Yeseninin "İran nəğmələri" silsiləsindən olan «Воздух прозрачный и синий...» və «Золото холодное луны...» şeirlərini məhz bu səfər təəssüratları, xüsusən də, Atəşgah təəssüratları altında yazdığı ehtimalını irəli sürür [384, s.41-43].

Yeseninin Bakıya bu səfərində May ayı daha məhsuldar olmuşdur. 6-17 may aralığında yenidən Bakı Dənizçilər Xəstəxanasında müalicə almasına baxmayaraq, bu ay ərzində Yesenin "Бакинский рабочий" qəzetində 10 şeir dərc etdirməklə yanaşı, bir neçə tədbirdə fəal iştirak etmişdir.

1 May gününün Yeseninin Bakı həyatında daha yaddaqalan olduğunu biz P.İ.Çaqinin xatirələrindən də ala bilirik: "*Sergey Yeseninin həyatının Bakı dövrünün ən yaddaqalan günlərindən biri də 1 May günü idi. Biz həmin ilin 1 Mayını qeyri-adi keçirməyi qərara almışdıq. Ümumşəhər nümayişi yerinə, sənaye və zavod rayonlarında təzə fəhlə qəsəbələrinin əsasının qoyulmasına həsr edilmiş mitinqlər, sonra isə fəhlə, xalq gəzintiləri təşkil etdik. Azərbaycan Mərkəzi Komitə katiblərinin əyləşdikləri maşına Sergey Yesenini də mindirdik... May şənliklərində Yesenini köhnə tanış kimi qarşıladılar. Fəhlələrin öz ailələri ilə birlikdə təzə yaz otları üzərindəcə oturduqları çəmənliyi partiya rəhbərləri ilə birlikdə gəzən Yesenin şeirlər deyir, çastuşkalar oxuyurdu. Bundan sonra Bakı yaxınlığında, Mərdəkandakı bağa getdik. Burada Yesenin Sergey Mironoviç Kirovun yanında "İran nəğmələri" silsiləsindən yeni şeirlərini təkrarolunmaz bir şövqlə oxudu»*" [355, s.162].

A.Şveytser həmin günü belə xatırlayır: "*1925-ci ilin 1 Mayını Yesenin Balaxanıda fəhlə bayramında qarşıladı. Canlı, danışa-danışa, fəhlələrin sağlığına tostlar qaldıra-qaldıra, poeziya ünvanına tostları qəbul edə-edə, o, bir qrupdan digərinə keçirdi*" [365, s.69]. Həmin günün ruhunu özündə əks etdirən bir şəkil haqqında, Yeseninlə bağlı bir neçə kitabın müəllifi, N.Q.Yusov məlumat verir [384, s.543].

Yeseninin 1 Mayla bağlı təəssüratlarından doğan "1 May" şeiri "Бакинский рабочий" qəzetinin 5 may tarixli 98-ci sayında dərc edilmişdir [158]. 1 May günü Yesenin həmçinin Balaxanıda Stepan Razin adına yaşayış məntəqəsinin təməlqoyma mərasimində də iştirak edir [229].

May ayının 5-də – Mətbuat Günündə "Mətbuatın birgə ekspedisiya klubu"nun açılış mərasimi keçirilir və həmin tədbirdə Yesenin də iştirak edir. Tədbirdə məruzələrdən sonra şairlər Yesenin, Danilov və Muran çıxış edirlər. Yeseninin bu tədbirdə iştirakı ilə bağlı mətbuatda yazılırdı: "*Auditoriyaya Yeseninin şeirləri və ekspromtları xüsusi təsir bağışladı, iştirakçılar onu sürəkli alqışladılar*" [287]. Q.Şipulina da məqalələrindən birində bu haqda ətraflı danışır və qeyd edir ki, "*çox güman ki, bu görüşdə Yesenin bir neçə gün əvvəl yazdığı şeirləri – «Песня», «Ну, целуй меня, целуй...», «Воздух прозрачный и синий...», «Золото холодное луны...», «Голубая да веселая страна...» şeirlərini oxumuşdur*" [375]. Yuxarıdakı məlumatda həmin

görüşdə Yeseninin bədahətən şeirlər deməsi fikri vurğulansa da, mətbuatda həmin şeirlərin heç bir izi qalmamışdır.

May ayının 15-də Yeseninin dostu V.İ.Kaçalovun üzvü olduğu Moskva Bədii Akademik Teatrı Bakıya qastrola gəlir. Qastrolun son iki günündə, mayın 19-da və 20-də "Çar İvan Fyodoroviç" tamaşası göstərilir və həmin günlərin birində tamaşaya Yesenin də gedir. Bü və digər bir sıra məsələlər haqqında V.İ.Kaçalovun xatirələrində oxuyuruq [235].

1925-ci ilin mayın 22-də, səhər vaxtı, Yesenin İrandan qayıdan V.İ.Boldovkini Bakı dəniz vağzalında qarşılayır və 25 may günü onlar, birlikdə, qatarla Moskvaya gedirlər.

Bu səfəri dövründə (30 mart – 25 may) mətbuatda, ümumilikdə, Yeseninin 17 şeiri çap olunur və onların hamısı "Бакинский рабочий" qəzetinin səhifələrində yer alır. Bu şeirlər aşağıdakılardır: «В Хорассане есть такие двери...» [163], «Голубая родина Фирдоуси...» [163], «Собаке Качалова» [184]; «Несказанное, синее, нежное...» [184], «Воздух прозрачный и синий...» [165], «Золото холодное луны...» [165], «Мой путь» [170], «Анна Снегина» [159; 160], «1 мая» [158], «Письмо к сестре» [178], «Заря откликает другую...» [167], «Песня» [176], «Не вернусь я в отчий дом...» [176], «Синий май. Заревая теплынь...» [182], «Ну, целуй меня, целуй...» [182], «Неуютная жидкая лунность...» [172], «Прощай, Баку! Тебя я не увижу...» [172].

Bu əsərlərin hər biri həm mövzu, həm məzmun, həm də estetik baxımdan xeyli maraq kəsb edir. Bu şeirlərin hamısı Azərbaycan dilinə tərcümə edilmişdir və dissertasiyanın tərcümə məsələsinə həsr olunmuş fəslində biz bu barədə daha ətraflı danışacağıq. Burada isə onu söyləmək istərdik ki, şeirlərin içində "Əlvida, Bakı!" şeiri xüsusilə seçilir. Yesenin, bu şeirdə ona böyük məhəbbətlə qollarını açmış Bakıya dərin sevgisini ifadə etmişdir. Bu şeir, əsasən, Yeseninin Bakıdan ayrıldığı anda keçirdiyi hislərin, könül çırpıntılarının təcəssümü olsa da, burada Bakının gözəlliyi də öz əksini tapmışdır. Elə şeirin birinci misrasındaca şair Bakıdan ayrıldığı üçün, bir daha bu gözəlliyi görməyəcəyi üçün təəssüflənir, ayrılıq anında qəm, kədər, qorxu hisləri şairin ruhuna hakim kəsilir. Şeirdə Bakının türk dünyasının bir parçası

olduğu cəsarətlə qeyd edilir (Прощай, Баку! Синь тюркская, прощай!), "xəzərin dalğaları", neft borularından göylərə yüksələn "yasəməni tüstülər", "balaxanı mayı" Bakının həm rəmzi, həm də gözəlliyi kimi öz tərifini alır.

Böyük ilhamla yazıb-yaratdığı və demək olar ki, ən gözəl lirik şeirlərinin doğulduğu Bakı Yesenin üçün doğmalaşmışdı və o, artıq Bakısız yaşaya bilmirdi. Odur ki, "Əlvida, Bakı!" yazsa da, Bakıdan ayrıla bilmir, iyul ayının 28-də nişanlısı S.A.Tolstaya ilə yenidən Bakıya gəlir və sentyabrın 3-nə qədər burada qalır.

Bu səfəri dövründə (28 iyul – 3 sentyabr) Bakı mətbuatında, hamısı da "Бакинский рабочий" qəzetinin səhifələrində olmaqla, Yeseninin 14 şeiri işıq üzü görmüşdür. Bunlar aşağıdakılardır: «Каждый труд благослови, удача...» [168], «Видно, так заведено навеки...» [168], «Я иду долиной. На затылке кепи...» [193], «Я помню, любимая, помню...» [193], «Быть поэтом– это значит то же...» [162], «Глупое сердце, не бейся...» [162], «Руки милой–пара лебедей...» [180], «Голубая да веселая страна...» [180], «Море голосов воробьиных...» [180], «Отчего луна так светит тускло...» [175], «Гори, звезда моя, не падай...» [166], «Жизнь – обман с чарующей тоскою...» [166], «Над окошком месяц. Под окошком ветер...» [171], «Листья падают, листья падают...» [171].

Bu səfər Yeseninin Bakı ilə son görüşü idi. Həmin vaxtlar Moskvada Yeseninin üçcildlik "Şeirlər toplusu" çapa hazırlanırdı. Lakin çapa hazırlanan kitabın redaktoru İ.V.Yevdokimovdan aldığı 24 avqust tarixli məktubda kitabın çapı ilə bağlı müəyyən problemlərin olduğu yazılırdı. Bu xəbər Yesenini narahat edir və o, Bakı səfərini planlaşdırdığından xeyli əvvəl başa vurmalı olur. Moskvaya qayıtdıqdan sonra çapla bağlı problemləri yoluna qoyan Yesenin sentyabrın 18-də S.A.Tolstaya ilə rəsmi nikaha girir. S.A.Tolstaya -Yeseninanın yazdığına görə, bu son Bakı səfərində Yesenin, əsasən, "İran nəğmələri" silsiləsinin tamamlanması üzərində işləmişdir.

Ümumiyyətlə, 1924-1925-ci illərdə, Yesenin Bakıda olduğu dövrdə onun Bakı mətbuatında 39 əsəri (37 şeir və 2 poema) dərc edilmişdir. Bu 39 əsərdən başqa, Yeseninin aşağıdakı 7 əsəri, yenə Bakı mətbuatında, amma onun Bakıda olmadığı dövrdə dərc edilmişdir: «Письмо деду» [177], «Шаганэ, ты моя, Шаганэ...» [191], «Ты сказала, что Саади...» [191], «Цветы» [189], «Вижу сон. Дорога черная...»

[164], «Спить ковыль. Равнина дорогоя...» [164], «Сыпь, тальянка, звонко, сыпь, тальянка, смело...» [183].

Beləliklə, 1924-1925-ci illərdə Bakı mətbuatında Yeseninin 46 əsəri (44 şeir və 2 poema) çap olunmuşdur. Bunlardan 45-i (43 şeir və 2 poema) "Бакинский рабочий" qəzetində , 1 şeir isə "Арена" qəzetində işıq üzü görür. Bu fakt, öz-özlüyündə maraq doğurmaya bilməz. Şeirin "Арена" qəzetində çap olunmasının maraqlı tarixçəsi var. Belə ki, 1924-cü ilin sonunda, dekabr ayının 28-də Bakı sirkinin binasında yanğın baş verir Bunun nəticəsində bina tamamilə yarasız hala düşür. Bu hadisə ilə əlaqədar komissiya yaradılır, sirkin işçilərinə və artistlərə kömək məqsədilə müəyyən xeyriyyə tədbirlərinin keçirilməsi planlaşdırılır. Belə tədbirlərdən biri də xüsusi qəzet nömrəsinin buraxılması olur. Beləliklə, hadisə baş verəndən 1 həftə sonra, yanvar ayının 4-də "Арена" (mətbuat işçiləri – sirk işçilərinə) adlı birgünlük qəzet buraxılır və Yeseninin «Цветы» ("Çiçəklər") şeiri də xeyriyyə məqsədilə həmin qəzetdə çap olunur [189]. Böyük ehtimalla, Yesenin həmin şeirin bu qəzetdə çıxmasına öz razılığını vermişdir. Bu, öz-özlüyündə çox vacib bir məsələni əks etdirir və Yeseninin, Bakıda olduğu dövrdə, ümumilikdə, ictimai məsələlərdən də kənarda qalmadığını göstərir.

Göstərilən 46 əsərdən başqa, Yeseninin daha 5 əsəri (4 şeir və 1 poema) onun ölümündən dərhal sonra, 1926-cı il yanvar ayının sonu, fevralın əvvəllərində "Бакинский рабочий" qəzetində işıq üzü görür: «Черный человек» [190], «Какая ночь! Я не могу...», «Не гляди на меня с упреком....», «Ты меня не любишь, не жалеешь...», «Может, поздно, может, слишком рано...» [169]. Bu 51 əsərdən 47-si Bakı mətbuatında ilk dəfə olaraq işıq üzü görmüş, 4-ü isə təkrar dərc edilmişdir. Şairin təkrar dərc edilmiş əsərləri aşağıdakılardır: «Низкий дом с голубыми ставнями...» [173], «Несказанное, синее, нежное...» [184], «Черный человек» [190], «Может, поздно, может, слишком рано...» [169]. Bu şeirlər Bakıda dərc edilməzdən əvvəl, 1924-1926-cı illərdə, Rusiya mətbuatında dərc edilmişdi [219, s.53].

Bu məsələlərlə bağlı 2 faktı da qeyd etmək istəyirik. Aşağıda göstərilən iki əsərdən bir hissə əvvəlcə başqa bir mənbədə dərc edilsə də, əsərlər bütünlükdə ilk dəfə "Бакинский рабочий" qəzetində çap olunmuşdur. Bu səbəbdən də, onların hər

ikisinin ilk dəfə Bakı mətbuatında dərc edilmiş əsərlər siyahısına daxil edilməsini məqsədəuyğun hesab etdik. Bunlar «Мой путь» şeiri [170] və «Анна Снегина» poemasıdır [159; 160].

Digər bir məqam da «Страна негодяев» poeması ilə bağlıdır. Belə ki, bu poema, daha doğrusu poemadan bir hissə ilk dəfə "Бакинский рабочий" qəzetində [185] dərc edilsə də, bütünlükdə Yeseninin ölümündən sonra işıq üzü görən "Şeirlər toplusu"nun 3-cü cildində verilmişdir. Lakin əsərin Yeseninin sağlığında bütünlükdə heç bir yerdə çap olunmadığını nəzərə alaraq, bunu da ilk dəfə Bakı mətbuatında dərc edilmiş əsərlər siyahısına daxil etməyi doğru hesab etdik.

Qeyd edək ki, 1959-cu ildə Bakı mətbuatında Yeseninin daha 1 şeiri ilk dəfə işıq üzü görmüşdür: Bu, «Пускай я порою от спирта вымок...» şeiridir [179]. 1925-ci il aprelin 25-də yazılmış bu şeirin maraqlı tarixçəsi var. Bu haqda həmin dövrdə "Бакинский рабочий" qəzeti nəzdində fəaliyyət göstərən fəhlə şair və yazıçıların ədəbi dərnəyinə rəhbərlik etmiş Y.Qurviçin xatirələrində oxuyuruq: "*Şairin gedişindən bir qədər əvvəl* (24 aprel 1925 – İ.İ.) *mən Yeseninə dərnəyin üzvləri ilə şəkil çəkdirməyi təklif etdim. O, məmnuniyyətlə razı oldu. Bir neçə gün* (bir gün – İ.İ.) *sonra şəkilləri aldım və payladım. Məşğələdən sonra Yesenin mənə yaxınlaşdı, şəkli məndən götürdü və redaktor Çaqinin otağına getdi. Tezliklə çıxdı və sakitcə şəkli mənə verdi, özü isə getdi. Mən təsadüfən şəkli çevirdim və orada Yeseninin yazdığı şeiri* («Пускай я порою от спирта вымок...» şeirini – İ.İ.) *gördüm*" [151].

Beləliklə, 1924-1926-cı illərdə Yeseninin Bakı mətbuatında dərc olunan 51 əsərindən (48 seir və 3 poema) 50-si (47 şeir və 3 poema) "Бакинский рабочий" qəzetində işıq üzü görmüşdür. Onlardan 45-i (43 şeir və 2 poema) Yeseninin sağlığında, 5-i isə (4 şeir və 1 poema) ölümündən sonra çap olunmuşdur. Ümumiyyətlə, "Бакинский рабочий" qəzeti Yeseninin öz əsərlərini ən çox dərc etdirdiyi mənbədir. Bu baxımdan ikinci sırada 1921-ci ildən etibarən Moskvada A.K.Voronskinin baş redaktorluğu ilə çıxan «Красная новь» jurnalı durur. 1922-1925-ci illərdə həmin jurnalda Yeseninin 30-a yaxın əsəri çap olunmuşdu.

Bütün bunlarla yanaşı, Yeseninin Bakı yaradıcılığı ilə bağlı bir neçə məqamı da qeyd etməliyik. Məsələ burasındadır ki, Yeseninin Bakı mətbuatında dərc etdirdiyi

şeirlərlə, Bakıda yazılmış şeirləri qarışdırmamaq lazımdır. Belə ki, Yeseninin Bakı mətbuatında dərc etdirdiyi şeirlərin heç də hamısı Bakıda yazılmamışdır. Bu şeirlərin arasında, Tiflisdə, Batumda, Moskvada və digər yerlərdə yazılmış şeirlər var. Yeseninin elə şeirləri də var ki, onlar Bakıda yazılmış, lakin Bakı mətbuatında deyil, başqa yerlərdə (Tiflis, Leninqrad) dərc edilmişdir. Ümumiyyətlə götürsək, Yeseninin Bakıda olduğu dövrdə Bakı mətbuatında dərc etdirdiyi 39 şeirdən, 7-si "İran nəğmələri" olmaqla, aşağıdakı 22 şeir - «Баллада о двадцати шести», «Воздух прозрачный и синий...», «Золото холодное луны...», «1 мая», «Письмо к сестре», «Заря откликает другую...», «Песня», «Не вернусь я в отчий дом...», «Синий май. Заревая теплынь...», «Ну, целуй меня, целуй...», «Неуютная жидкая лунность...», «Прощай, Баку! Тебя я не увижу...», «Быть поэтом– это значит то же...», «Глупое сердце, не бейся...», «Руки милой–пара лебедей...», «Голубая да веселая страна...», «Море голосов воробьиных...», «Отчего луна так светит тускло...», «Гори, звезда моя, не падай...», «Жизнь – обман с чарующей тоскою...», «Над окошком месяц. Под окошком ветер...», «Листья падают, листья падают...» şeirləri burada - Bakıda yazılmış şeirlərdir. Yeseninin Bakıda yazdığı iki şeir - «Стансы» və «Тихий ветер. Вечер сине-хмурый...» şeirləri, Bakıda deyil, uyğun olaraq, Tiflisdə və Leninqradda dərc edilmişdir. Bakıda yazılmış «Пускай я порою от спирта вымок...» şeiri isə, yuxarıda qeyd etdiyimiz kimi, Bakı mətbuatında, lakin, yalnız 1959-cu ildə dərc edilmişdir. Yazılma yeri tam təsbit edilməmiş, "İran nəğmələri"nin ilk şeiri olan, «Улеглась моя былая рана...» şeirinin də, V.Boldovkinin sözlərinə görə, Bakıda yazıldığını (bax: s.86) nəzərə alsaq, Yesenin, Bakıda olduğu dövrdə, 26 şeir yazmışdır. Harda olmasından asılı olmayaraq, dərc etdirdiyi hər şeirinə böyük diqqət və həssaslıqla yanaşan Yeseninin, başqa yerlərdə yazılmış şeirlərini Bakıda dərc etdirərkən, onların üzərində, müəyyən mənada, yenidən işləməsi də istisna edilə bilməz. Beləliklə, bu paraqrafda verdiyimiz məlumatlar, yürütdüyümüz mülahizələr, göstərdiyimiz faktlar və rəqəmələr Yeseninin Bakıda kifayət qədər məhsuldar yaradıcılıq dövrü yaşadığının bariz göstəricisidir.

1.3. **Sergey Yeseninin Bakı ünvanları**

Məlum olduğu kimi, Yesenin Bakıda olduğu dövrdə, əsasən, Mərdəkanda P.İ.Çaqinin bağ evində yaşamışdır. Bununla belə o, səfərləri zamanı bir neçə dəfə P.İ.Çaqinin Şors küçəsi 174 ünvanda yerləşən (indiki B.Səfəroğlu küçəsi) mənzilində, onun kiçik qardaşı V.İ.Boldovkinin yaşadığı mənzildə (keçmiş Myasnikov küçəsi – indiki Əliyarbəyov küçəsi 9, mənzil 38) və Mariya Antonovnanın evində olmuşdur. Bu haqda biz Mariya Antonovnanın Yesenin haqqında xatirələrindən məlumat alırıq [10]. Təəssüf ki, biz Mariya Antonovnanın hansı ünvanda yaşamasını müəyyənləşdirə bilmədik. Onu da deyək ki, Mariya Antonovna sonralar P.İ.Çaqinin arvadı olmuş və onunla birlikdə Bakıdan Leninqrada getmişdir. Bundan əlavə bir mənbədə Yeseninin o vaxtlar Xəzər Dənizçiliyinin rəisi vəzifəsində işləmiş D.V.Poluyanın mənzilində olması haqda informasiyaya da rast gəlirik [129]. Lakin, təəssüf ki, D.V.Poluyanın yaşadığı ünvanı da dəqiqləşdirmək mümkün olmadı. Eyni zamanda Yeseninin tanınmış memar S.D.Erzyanın keçmiş Stanislavski küçəsindəki (indiki Azadlıq prospekti 20) Bakı Politexnik İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) həyətində yerləşən emalatxanasında (bu bir mərtəbəli bina Erzyanın həm emalatxanası, həm də yaşayış yeri idi) olması haqqında da məlumatlara rast gəlirik [332, s.11-18].

Yeseninin olduğu digər bir ünvan – M.Qorki küçəsi (indiki M. İbrahimov küçəsi), 11 ünvanı barəsində xüsusi danışmaq lazım gəlir. Yeseninin bu evlə bağlılığı haqqında həmin evdə dünyaya göz açan və hazırda da bu evdə (mənzil 9) yaşayan, evdəki o dövrə məxsus ab-havanı və şəraiti olduğu kimi qoruyub saxlamağa nail olmuş Trofimova İrina Georgiyevna ilə görüşüb söhbət etdik (AMEA-nın Nizami adına Ədəbiyyat Muzeyinin əməkdaşı Kəmalə Zeynalovanın köməyi ilə).

Yeseninin Bakıya ilk gəlişindən bir əsrlik zaman keçmişdir və təbii ki, onu şəxsən görmüş insanlar artıq həyatda deyillər. Bu səbəbdən də Yesenini şəxsən tanıyan, onunla şəxsən görüşmüş, təmasda olmuş, onunla fikir mübadiləsi etmiş insanların şairin haqqında şifahi xatirələrini onların özlərinin sağlığında, onların öz dilindən qələmə almış İrina Georgiyevna kimi insanların verdiyi məlumatlar, söy-

lədiyi hadisələr, böyük maraq doğurur. Bu baxımdan İrina Georgiyevnanın Yesenini şəxsən tanıyan F.S.Nepryaxinin, Yeseninin yaxın dostu V.İ.Boldovkinin dilindən eşitdiyi və qələmə aldığı yazılı və şifahi xatirələri, öz anasının Yesenin haqqında saxlanmış 2 səhifəlik yazılı xatirələri böyük şairin Bakı həyatının öyrənilməsində çox mühüm əhəmiyyət kəsb edir.

İrina Georgiyevna bizə bu mənzillə bağlı xeyli maraqlı şeylər danışdı. Bu məlumatların hamısı tədqiqatımızla bağlı əhəmiyyət kəsb etməsə də, məhz Yeseninlə bağlı "səhifələr" maraq doğurur. "Bizim bəxtimiz gətirdi: doğulduq və bütün həyatımız elə bir evdə keçdi ki, burada dəfələrlə dahi rus şairi Sergey Aleksandroviç Yesenin olmuşdu. Biz şairi yaxından, yaxşı tanıyan insanların əhatəsində böyüdük".

İrina Georgiyevnanın yaşadığı ev memarlıq abidəsi kimi 1889-cu ildə tikilmişdir. Onun, XIX əsrin ən məşhur bakılı memarı, milliyyətcə polyak olan, ulu babası Jozef Qoslavski, ömrünün son illərini bu evdə yaşamış və bu evdə də dünyasını dəyişmişdir. Yozef Qoslavski 1892-ci ildən ömrünün sonuna, 1904-cü ilə qədər Bakı şəhərinin baş memarı vəzifəsində çalışmışdır. O, Bakıda on iki memarlıq abidəsinin müəllifidir, o cümlədən Bakı Şəhər Dumasının, indiki Bakı Şəhər İcra Hakimiyyətinin binası onun sənət əsəridir.

Yozef Qoslavskidən sonra bu evdə inqilaba qədər İrina Georgiyevnanın ana tərəfdən babası olan məşhur neftçi A.V.Sısoyevin ailəsi yaşamışdır. Onun anası burada doğulmuş, burada ömür sürmüş, özü və bacısı da bu evdə dünyaya gəlmişlər. İnqilabdan sonra, bu ev kommunal mənzil kimi bir neçə hissəyə bölünmüş və mənzilin bir hissəsi başqa ailələrə verilmişdir. Beləliklə, inqilabdan sonra kommunal şəkil almış bu mənzildə bir neçə ailə –Sısoyevlər ailəsi, Altıağacdan gəlmiş malakanlar – Qriqori və Fyodor Nepryaxin qardaşları, eləcə də Moskvadan gəlmiş və Azərbaycan KP MK-da vacib vəzifə tutmuş İvan Mixayloviç Moskalenko öz həyat yoldaşı Nadejda İosifovna ilə birlikdə yaşamışlar. Qeyd edək ki, İvan Mixayloviç Moskalenko P.İ.Çaqinin uşaqlıq dostu olmuşdur və onu Bakıya P.İ.Çaqin dəvət etmişdi. Daimi hökumət işləri ilə məşğul olan P.İ.Çaqin Yesenini hərdənbir buraya məhz İ.M.Moskalenkonun yanına gətirirdi. Yeseninin bu evə gəlməsinin tarixçəsi də belə başlamışdır.

İrina Georgiyevna, bu mənzildə yaşayanlar arasında F.S.Nepryaxini xüsusilə fərqləndirir. Nepryaxin qardaşları bolşevik siyasətinə qulluq etmiş, partiya dairələrində xüsusi hörmətə malik olmuşdular. Görünür, elə bu səbəbdən də bu xidmətlərini nəzərə alaraq, hökumət onlara bu evdə – şəhərin mərkəzində mənzil ayırmışdı. F.S.Nepryaxin gənc yaşlarından neft mədənlərində işlədikdən sonra 30 il ərzində Bakı Neft Texnikumunun direktoru vəzifəsində çalışmışdır. Poeziyanı çox sevirdi, özü də şeirlər yazırdı. Onun Yesenin haqqında xatirələri də məhz orijinal poetik formada təqdim olunmuşdur. Ədəbiyyata olan böyük sevgisi gənc Nepryaxini "Бакинский рабочий" qəzetinin nəzdində fəaliyyət göstərən ədəbi dərnəyin məşğələlərinə gətirir. Burada o, ilk dəfə Yeseninlə görüşür. O, Yesenini xatırlayarkən həmişə deyərmiş: "Mən həyatımda bu qədər yaraşıqlı başqa bir adam görməmişəm".

F.Nepryaxinin xatırladığına görə 1925-ci ildə Bakıya gələn Yesenin "Бакинский рабочий" qəzeti nəzdində fəaliyyət göstərən ədəbi dərnəyin yığıncaqlarında daimi iştirak edirdi və faktik olaraq, həmin yığıncaqları aparırdı. Bu fikrə dəstək olaraq həmin ədəbi dərnəyin rəhbəri olmuş Y.Qurviçin ədəbiyyatçı S.Savelyevə yazdığı məktubunda belə bir məqam diqqət çəkir: "*Bu dərnəyə mən rəhbərliyi edirdim və Sergey Yesenin bizə çox kömək edirdi. Biz onu çox sevirdik. O, şeh damcısı kimi saf, cəzbedici bir insan idi. Onun sinəsində necə bir xeyirxah ürək döyünürdü, onun necə nəcib qəlbi vardı*" [308, s.298].

F.Nepryaxinin xatirələrində bir məqam da var ki, bu, Yeseninin Bakı həyatının bəzi səhifələrinə aydınlıq gətirilməsi baxımından çox maraqlıdır və şairin, 1925-ci il may ayının 11-də xəstəxanadan Moskvaya – Q. Benislavskiyə yazdığı məktubun məzmununda olan gizli məqamların açıqlaması kimi qəbul edilə bilər. Yesenin Q. Benislavskiyə məktubunda yazır: "*Xəstəxanada yatıram. Daha doğrusu, dincəlirəm... 5 gündən sonra sapsağlam çıxacağam. Bu, Batumda soyuqlamağımın nəticəsidir, sonra da, ağlım ucundan, aprelin ortalarında güclü küləkdə dənizdə çimdim*" (fərqləndirmə bizimdir – İ.İ.) [198, s.212].

Yeseninin xəstələnməsi ilə bağlı, F. S. Nepryaxinin 1965-ci ildə mətbuatda gedən bir yazısı kifayət qədər maraqlıdır: "*Bakı qəzetinin dərnək üzvləri ilə* ("Бакинский рабочий" qəzeti nəzdindəki fəhlə şair və yazıçıların dərnəyi nəzərdə

tutulur – İ.İ.) *ilk görüşdən, məşğələdən sonra Yesenin Suraxanıya getdi. Birdən güllələrin ən sıx olduğu yerdə gözlənilməz hadisə baş verdi: Bənzərsiz mənzərədən heyrətə gələn şair tələsik maşını saxlamağı xahiş etdi və demək olar ki, qaçaraq neftin saxlandığı anbara qalxdı. Bir anlığa o, anbarın kənarında durdu, sonra isə özünü neft dənizinə atdı... Qeyri-adi qara "Narzan" duşu şairin səhhətinə çox mənfi təsir göstərmişdi. O, bir həftədən çox xəstəxanada yatdı. Amma bu dövrdə də o, şeir yazmağından qalmırdı və növbəti cümə günü onları bizə göndərmişdi. Bu şeirləri gətirən dərnək üzvü, əlbəttə ki, zarafatla, onları öz şeirləri kimi qələmə verdi. Yadımdadır, yəqin ki, ilk dəfə bizdən heç kimin tənqidi qeydləri olmadı. Amma şeirlərin Sergey Yeseninin olduğunu biləndə onu uzun və dostcasına alqışladıq*" [279]. Bu hadisənin şahidləri çox olsa da, o, yalnız F. Nepryaxinin xatirələrində öz əksini tapmışdır. Görünür, başqaları bu hadisə haqqında danışmaqdan və yazmaqdan ya çəkinmişlər, ya da bu hadisəni qeyri-vacib hesab etmişlər. Yeseninlə bağlı istənilən kiçicik bir məsələyə də xüsusi önəm verən F. Nepryaxin isə bu maraqlı hadisəni tarixə salmağı özünə borc bilmişdir. Lakin bu hadisə ilə bağlı yuxarıda göstərdiyimiz yazıdan açıq-aydın hiss olunur ki, yazıda müəyyən texniki səhvlərə yol verilmiş, F.Nepryaxinin müəyyən ifadələri, fikirləri redaksiya tərəfindən dəyişdirilmiş və hətta mətnə bəzi uğursuz dəyişikliklər də edilmişdir. Bununla bağlı aşağıdakıları qeyd etmək istəyirik: Birincisi, həmin yazıda F.Nepryaxin Bakı Neft Texnikumunun bir əməkdaşı kimi təqdim edilmişdir. Amma o vaxlar o, artıq 5 ildən çox idi ki, həmin texnikumun direktoru vəzifəsində işləyirdi. İkincisi, həmin məqalədə Yeseninin Suraxanıya getdiyi yazılır. Əslində isə bu hadisə Suraxanıya gedəndə yox, Bibi-Heybət neft mədənlərindən geri qayıdanda baş vermişdir. F.Nepryaxinin xatirələrində qeyd edilir ki, Yesenin özünü neft anbarına atandan sonra adamlar tez ona köməyə qaçaraq anbardan çıxmasına kömək etdilər və lap yaxında – dənizdə yuyunduraraq ona, imkan dairəsində, təmiz paltar geydirdilər. Suraxanıda, yaxınlıqda dəniz yoxdur. Bu da bir daha göstərir ki, həmin hadisə Suraxanıda baş verməmişdir. Üçüncüsü, həmin yazıda Yeseninin bu səfərə maşınla getdiyi yazılsa da, F.Nepryaxin xatirələrində hamının faytonla getdiyini qeyd edir. Dördüncüsü, adı çəkilən yazıda göstərilir ki, dərnək üzvlərindən bir nəfər Yeseninin xəstəxanadan göndərdiyi şeiri,

zarafatla, öz adına çıxdı və şeirlərin təhlili zamanı dərnək üzvlərindən heç kimin tənqidi qeydləri olmadı. Əslində isə məsələ başqa cür olmuşdur. Dərnək üzvü həmin şeiri özününkü kimi oxuduqdan sonra dərnəyin digər üzvləri adəti üzrə öz fikirlərini söyləmiş və xeyli tənqidi qeydlər də etmişlər. Sonradan həmin şeirin Yeseninə məxsus olduğunu biləndə dərnək üzvləri onu sürəkli alqışlamışlar. Bu hadisədən xəstəxanada xəbər tutan Yesenin o vaxtlar doyunca gülür.

60-cı illərdə Bakıda "Вышка" qəzeti nəzdində fəaliyyət göstərən "Rodnik" ədəbi dərnəyin üzvü olmuş və sonralar Volqaqrada köçmüş şairə Yuliya Suxorukova həmin dərnəyin üzvü olan F.Nepryaxindən şəxsən eşitdiyi bu hadisəni şeirlərindən birində təsvir etmişdir [319, s.34-35]. Yuxarıda adı çəkilən kiçik bir yazıda nə qədər qeyri-dəqiqliklərin, uğursuz dəyişikliklərin olduğu göz qabağındadır. Görünür, elə buna görə də "redaksiyadan inciyən" F.Nepryaxin yuxarıda göstərilən qəzet məqaləsini öz şəxsi arxivində belə saxlamamışdır. Bu qəzet məqaləsinin varlığı haqqında məlumatı İ.Georgiyevnaya biz verdik və surətini təqdim etdik.

Beləliklə, yuxarıda qeyd olunan qəzet məqaləsində bir sıra xətaların olduğunu müşahidə etməklə, F.S.Nepryaxinin şəxsi arxivi və İrina Georgiyevnanın onun dilindən eşitdiyi və qələmə aldığı yazılı və şifahi xatirələri əsasında biz aşağıdakı mənzərəni bərpa etdik: 1925-ci ilin aprelində bir gün ədəbiyyat dərnəyinin məşğələlərində neft mədənlərinə getmək ideyası yaranır. O zamanlar təzə olan Bibi-Heybət mədənlərini seçirlər. Günəşli bir gündə azuqə götürüb faytonlarla Bibi-Heybətə gedirlər. Şairi müşayiət edənlər arasında F.S.Nepryaxin də olur. Fəallıq nümayiş etdirən Yesenin istehsal prosesi ilə tanış olur, fəhlələrlə uzun-uzadı söhbətlər edir. Axşama yaxın, Bakıda tez-tez olduğu kimi, dənizdən güclü külək qalxır və bu səbəbdən geriyə dönmək qərara alınır. Lakin birdən gözlənilməz hadisə baş verir. Yesenin neftlə ağzına qədər dolu açıq rezervuara tərəf qaçır, onun kənarında bir an dayanır və … özünü aşağı atır. Qısa çaşqınlıqdan sonra hamı şairə köməyə tələsir. Onu çıxarırlar, neftini dənizdə yumağa kömək edib, quru paltar geyindirirlər… Hadisə axşamçağı baş vermişdi. Bu zaman dənizdən sərt rütubətli külək əsdiyindən Yesenin xəstələnir və bir qədər sonra xəstəxanaya düşür. O vaxt Roqov adına olan həmin xəstəxana (Malakan bağının yanındakı indiki Travmatologiya və ortopediya

kliniki xəstəxanası (Ünvan: Ü.Hacıbəyov, 1) F.Nepryaxinin yaşadığı evin yaxınlığında yerləşirdi. Yesenin xəstəxanada müalicə olunarkən Nepryaxin bir neçə dəfə ona baş çəkmişdir. İrina Georgiyevnanın dediyiniə görə, F. Nepryaxin, Yeseninin xəstəxanada ona şəxsən dediyi aşağıdakı sözləri həmişə təkrar edərmiş: "Bu, mənim ikinci dəfə xaç suyuna çəkilməyimdir, amma neft ilə". Nepryaxin Yeseninin bu sözlərini və onun xəstəxanaya düşməsini xatirələrində belə təsvir edir:

Там он «второе крещенье»
Принял, погрузившись в нефть.
И это мог только Есенин
Проделать на виду у всех.

Но это не прошло бесследно,
Нефть не простила ему это
И процедура была вредной,
Что в постель уложила поэта.

И оказался он в больнице
Диагноз – воспаленье легких [280].

İrina Georgiyevna ilə növbəti görüşümüz zamanı o, Yeseninin M.Qorki, 11 ünvandakı mənzildə olması məsləsinə aydınlıq gətirdi:

"Mənim Yeseninin burada olması haqqında fikirlərim 3 mənbəyə əsaslanır. Bunlardan biri Fyodor Semyonoviçdən şəxsən eşitdiklərimdir. Fyodor Semyonoviç bu haqda başqaları ilə çox danışmazdı, amma mənə hər şeyi olduğu kimi demişdi. O, Yeseninin burada olması ilə bağlı yazılı bir xatirə saxlamasa da, onun şeirtipli yazıları – şəxsi memuarlarında bunun izlərini görmək olur. Nepryaxin mənə özünün bütün şəxsi arxivini, əlyazmalarını vermişdir. Onun mənə vəsiyyət olunmuş arxivindən baş çıxarmaq çətindir. O, dövrünün tarixi hadisələrini çox maraqlı və mürəkkəb şəkildə – şeir şəklində qələmə almışdır. Mən bu yazıların mənasını bütün incəliyi ilə bilirəm, çünki Fyodor Semyonoviç bunları mənə bir-bir danışıb. Bu yazıları diqqətlə oxuyanda Yeseninin burada olduğu bir fakt kimi aydın olur. Fyodor Semyonoviçin bizim bu evə (M.Qorki küçəsi, 11 – İ.İ.) həsr etdiyi bir şeir var və o şeirdə belə bir məqam var:

Дом по улице,
Что Горький сам именем своим назвал,
И только избранным друзьям
Адрес этот подсказал – Есенину [280].

Görürsünüzmü, Fyodor Semyonoviçin Yesenini by evə şəxsən dəvət etməsi haqqında da yazılı mənbə var, deyə bilərik. Fyodor Semyonoviçin səyləri nəticəsində bizim evimizdə şairi əhatə edən şərait 20-ci illərdən bu günə qədər dəyişməmiş qalmışdır".

Sonra İrina Georqiyevna Yeseninin burada olarkən əllərinin toxunduğu, istifadə etdiyi əşyaları göstərərək sözünə davam etdi: "İndi mən Sizə Yeseninin əllərinin toxunduğu, onun burada olarkən istifadə etdiyi əşyalardan söhbət açmaq istəyirəm. Bu böyük yemək stoluna diqqətlə baxın. "Бакинский рабочий" qəzeti nəzdindəki fəhlə şair və yazıçıların ədəbi dərnəyinin iclaslarından sonra F.S.Nepryaxin və onun dostları, o cümlədən Sergey Yesenin bu stolun arxasında yığışar, vaxt keçirərdilər. Fyodor Semyonoviç həmişə qeyd edirdi ki, bu məclislər adi məclislər deyildi. Burada söhbət, əsas etibarilə, ədəbiyyatdan, xüsusən də poeziyadan gedərdi. Bu məclislərdə Yesenin böyük həvəslə və xüsusi şövqlə şeirlər oxuyar, olduğu xarici ölkələrdən söhbət açar, ətrafdakıların çoxsaylı suallarına cavab verərdi.

Bu qrafinin Yeseninlə xüsusi bağlılığı var. Yesenin burada olarkən məclisdə heç bir qədəh, piyalə tanımaz, yalnız bu qrafindən içərmiş. Demək olar ki, bu, onun şəxsi qrafini idi, həmişə məclisdə onun qabağında durardı. Mənə nənəmdən yadigar qalmış bu güzgüdə isə Yesenin saçlarını darayarmış. Bu da onun siqaret çəkəndə istifadə etdiyi külqabıdır. Yesenin bu musiqi alətini – mandolinanı (udabənzər musiqi aləti – İ.İ.) çox sevərmiş. Burada bir gitara da olub. Amma Yesenin məhz mandolinada çalmağı sevərmiş.

Yeseninin əli dəymiş hər şeyi müqəddəs varlıq kimi qoruyan Fyodor Semyonoviç Nepryaxin 1987-ci ildə, 98 yaşında dünyadan köçdü. O, mənim qucağımda can verdi və ölüm ayağında mənə dedi: "İrina, heç nəyə dəymə, qoy hər şey olduğu kimi öz yerində qalsın". Fyodor Semyonoviçin vəsiyyətinə əməl edərək mən bu evdə heç nəyin yerini dəyişməmişəm. Elə o illərdə nə harada idisə, indi də olduğu kimidir. Bax, bir vaxtlar Yesenin bu evdə nəyi necə görmüşdüsə, indi Siz də eləcə görürsünüz".

İrina Georgiyevna ilə daha sonrakı görüşümüzdə o, söhbətini, əsasən, Nadejda İosifovnaya həsr etdi, onun Yeseninlə bağlı xatirələrindən danışdı.

“Yeseninin bu evdə olmasını söyləyərkən əsaslandığım digər mənbə Nadejda İosifovnadan eşitdiklərimdir. 50-ci illərdə hələ mən tələbə olarkən, Yeseninin, faktik olaraq, qadağan olunmasına baxmayaraq, gənclərdə Yesenin sevgisi, Yesenin məhəbbəti hədsiz idi. Mən Fyodor Semyonoviçdən Yesenin haqqında soruşanda o, barmağı ilə Nadejda İosifovnanın otağını göstərərək deyirdi: “Yesenin haqqında hər şeyi bilmək istəyirsənsə, ondan soruş”. Mən sonralar Fyodor Semyonoviçin əlyazmalarını oxuyanda bildim ki, cavanlıq illərində o, Nadejda İosifovnaya vurulubmuş və qız onu yox, onun qardaşını seçdiyinə görə ömrünün axırına kimi onlarla küsülü yaşamışdılar. Ona görə də o, Nadejda İosifovnanın adını belə çəkmirdi. Nadejda İosifovna Yesenin haqqında əvvəllər heç nə danışmaq istəməsə də, sonradan bütün bildiklərini mənə ətraflı danışdı. Mən ondan Yesenin haqqında çox maraqlı şeylər eşitmişəm. Nadejda İosifovna Volqaboyundandır, tacir nəslindəndir, hündürboylu, qədd-qamətli bir “Nekrasov qadını” idi. Nadejda İosifovnanın sözlərinə görə, Yesenin P.İ.Çaqinə çox vaxt zarafatla “Çaqa” və ya “Çaqane” də deyirmiş.

Nadejda İosifovna 1958-ci ildə, ölümündən 4 il əvvəl mənə belə bir hadisə danışmışdı və mən onun danışığını elə oradaca tələsik qələmə almışdım. “Yesenin bərk sərxoşdu. Pəncərənin lap önündə dayanmışdı. Onun duruşundan özünü pəncərədən atmaq istədiyi hiss olunurdu. Mən onun köynəyindən yapışıb var gücümlə geri çəkdim. Köynək cırıldı, amma buraxmadım. O çox güclü idi və onu saxlamaq çətin olsa da, mən onu qurtara bildim. Amma köynəyə heyfim gəldi, gözəl köynək idi, çalın-çarpaz naxışlarla tikilmişdi”. Bu hadisə burada, bizim evimizdə deyil, Mərdəkanda baş vermişdi. O vaxt Nadejda İosifovna, İ.M.Moskalenkonun arvadı kimi, tez-tez Mərdəkanda Yeseninin qaldığı bağ evində olurdu”.

İrina Qeorqiyevna Nadejda İosifovnadan eşitdiyi və onun Yeseninlə ilk görüşü ilə bağlı bir hadisə də danışdı: “Stol hazırdır, son hazırlıqlar gedir, ev sahibəsi qonaqların gəlişini gözləyir. Bu zaman “qaşqabaqlı” bir nəfər səndələyərək stola yaxınlaşır, süfrəni möhkəm çəkir və hər şey darmadağın olaraq döşəməyə tökülür... Növbəti gün sakit, nəzakətli, saçları səliqəli şəkildə geriyə daranmış “gülərüz” biri üzr istəyərək ev sahibəsinə – Nadejda İosifovnaya həmin illərə görə çox qiymətli sayılan bir hədiyyə – ingilis mahudundan parça hədiyyə edir”. Bu hadisə bax burada – bizim bu evdə baş

verib. Nadejda İosifovna o vaxt mənə bu məlumatları heç yerdə danışmamağı tapşırırdı və mən də danışmırdım. Yalnız 1995-ci ildən sonra (həmin il Yeseninin anadan olmasının 100 illiyi Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə rəsmi qeyd edildi – İ.İ.) biz bu haqda sərbəst danışmağa başladıq və evimizin qapıları hər kəsə açıldı. Artıq zaman keçmişdir, dövr dəyişmişdir, mən də yavaş-yavaş qocalıram. Odur ki, indi bunların hamısını ətraflı şəkildə Sizə danışıram. Amma onu deyim ki, bəzi yazılı faktlar var ki, mənim yanıma gələnlərdən heç kimə göstərməmişəm və onları ilk dəfə Sizə göstərirəm", – deyə İrina Qeorqiyevna anasının Yeseninlə ilk görüşünü özündə əks etdirən əlyazmalarını göstərdi və sözünə davam etdi:

"Mənim Yesenin haqqında bilgilərimin əsasında duran üçüncü mənbə anamın həm şifahi, həm də bax bu yazılı xatirələridir. Yesenin bura gələndə anam 12-13 yaşında olub. O, ilk dəfə Yesenini necə gördüyündən, həmin anda hansı hislər keçirdiyindən ürəkdolusu danışardı. Bütün bunlar barəsində anam öz xatirələrində yazıb. Buyurun, anamın Yesenin haqqında xatirələrini öz gözlərinizlə oxuyun, – deyə anası Yelena Anatoliyevna Trofimovanın, 1975-ci il avqustun 18-də qələmə aldığı, köhnəlib saralmış xatirə vərəqlərini mənə uzatdı:

"*... O vaxt mənim təxminən 12-13 yaşım olardı. Gündüz vaxtı otaqda tək idim. Bu zaman Fedya dayı* (F.Nepryaxin – İ.İ.) *təngnəfəs otağa daxil oldu: "Lenoçka, Lenoçka, tez ol bizə gedək", – deyə məni çağırdı. Biz onun yaşadığı böyük otağa qaçdıq və o, məni pəncərəyə tərəf çəkib dedi: "Bir bax, bir bax!".*

Günəşli bir gün idi. Günəş artıq tamamilə əks tərəfə keçmişdi və gürcü Sandronun çaxır dükanının girəcəyində söhbət edən iki kişinin surətini çox aydın şəkildə işıqlandırırdı. Oradakılardan birinin günəşin şüaları altında qızıl kimi yanan parlaq gur saçları məni, sözün əsl mənasında, heyrətə gətirdi. Fyodor Semyonoviç çox təntənəli şəkildə dedi: "Lena, bax və bütün həyatın boyu unutma: Sən indi dahi rus şairi Yesenini görürsən!". Bir qədər sonra isə aşağıdakı hadisə baş verdi: Mən təsadüfən dəhlizə çıxmışdım. Giriş qapısı taybatay açıq idi. Nepryaxinlərin böyük otağına adamlar daxil olurdu. Bu, məni təəccübləndirmirdi, çünki Nepryaxinlərin evində tez-tez qonaqlar olurdu. Amma bu dəfə otağa keçənlərin arasında həmin o, unudulmaz qızılı gur saçlar xüsusilə seçilirdi. Nepryaxingilin məclislərində, elə

olurdu ki, gecəyarıya qədər otururdular. Məni – divarın o tərəfində yatan balaca qızı tez-tez hay-küy, hündürdən danışıq, qarmon səsləri oyadırdı" [320].

İrina Qeorqiyevna söhbətinə davam etdi: "Bizim evimizdəki ən müqəddəs sənədlərdən biri də müharibə vaxtı Yeseninin, əsgərlərin əlləri ilə yazılmış və qan ləkələrinə bələnmiş şeirləridir. Axı həmin şeirləri əsgərlər əsasən qoyunlarında gəzdirirdilər. Əsgərlər bu şeirləri həlak olan dostlarının sinəsindən götürərək bir-birinə ötürürdülər. Bu baxımdan, demək olar ki, Yesenin əsgərlərlə bərabər "vuruş-muş", bütün müharibəni keçmişdir. Müharibə iştirakçıları bizim evimizdə Yeseninin xüsusi yerinin olduğunu bilir və bu qanlı müqəddəs kağız parçalarını bura gətirirdilər. Çox təəssüf ki, həmin kağızlar – bu unikal sənədlər itib-batmış, yoxa çıxmışdır. Amma onların varlığına heç şübhəniz olmasın, çünki mən həmin qanlı kağızları öz gözlərimlə görmüşəm".

İrina Georgiyevnanın S.Yeseninlə bağlı söylədikləri o qədər maraqlı, kədərli və eyni zamanda cəzbedicidir ki, onun söhbətlərindən ayrılmaq olmur. Söhbətlərinə qulaq asdıqca onun Yesenin yaradıcılığını dərindən bilməsi və Yeseninin Bakı həyatı ilə bağlı kifayət qədər məlumatlı olması da diqqətdən yayınmırdı. İrina Qeorqiyevna Yeseninin nə qədər həyat eşqi ilə dolu, eyni zamanda dərin yumor hissi olan bir şəxsiyyət olduğunu göstərən bir neçə hadisə danışdı. Bunlardan biri F.İ.Şalyapinin şagirdi, gözəl opera müğənnisi Fatma Muxtarovanın nəvəsi Svetlana Vladimirovna Kuroçkinanın xatirələrilə bağlıdır.

"1925-ci ildə Bakı Opera Teatrının səhnəsində Fatma Muxtarova fransız bəstəkarı Şarl-Kamil Sen-Sansın operasında Dalila rolunda böyük uğur qazanırdı. Bənzərsiz gözəlliyə malik səs, artistizm, son dərəcə füsunkar zahiri görünüş tamaşaçıları riqqətə gətirirdi. Adamlar hamısı operaya doluşurdular. 1925-ci il may ayının ikinci yarısında (daha dəqiq desək, mayın 17-də – İ.İ.) Yesenin xəstəxanadan çıxdı. Muxtarova haqqında çox eşitmiş şair operaya tələsir, buna baxmayaraq gecikir və yalnız tamaşaya onun qızğın vaxtında çatır: səhnədə Samsonu yolundan edən Dalıladır. Qızın ifası və gözəlliyi şairi özündən alır və bunun təsiri altında Yesenin az qalır ki, özünü səhnəyə atsın. Əlbəttə, onun tutub saxlayır, səhnəyə buraxmırlar. Şair səhnə arxasına keçib tamaşanın qurtarmasını gözləyir. Nəhayət ifaçı qız görünür.

Onun çiyninə adəti üzrə qırmızı ipək plaş atırlar. Elə bu andaca Yesenin gözlənilmədən ona sarı qaçaraq aktrisanı əllərində yuxarı qaldırır. Qırmızı plaş aşağı sürüşür... Sarışın göy gözlü şair əllərində qaraşın Şərq gözəlini tutub, elə beləcə də onu qrim otağına qədər aparır. Bu səhnə onu görənlər üçün yaddançıxmaz olur». Bax bu həmin aktrisanın şəklidir, bunu mənə Fatma xanımın nəvəsi bağışlayıb, – deyə İrina Georqiyevna mənə bir şəkil (Fatma Muxtarova Dalila rolunda) verdi. Qeyd edək ki, bu maraqlı hadisəni Svetlana Kuroçkina 2004-cü ildə Bakıda dərc etdirdiyi, Fatma Muxtarovaya həsr edilmiş "Aktrisa haqqında povest"ində də təsvir edir [240, s.67-68].

İrina Georgiyevna söhbətinə belə davam etdi: "Mənim yaxşı yadımdadır. 1952-ci ildə Yeseninin sonuncu arvadı Sofya Tolstaya-Yesenina buraya gəlmişdi. O, Nadejda İosifovnanın qonağı oldu, onlar bax bu otaqda, bu stolun arxasında uzun-uzadı söhbət etdilər. Amma Yesenini yaxşı tanıyan bu iki qadının danışdıqları eləcə də sirr olaraq qaldı".

İrina Georgiyevna böyük Azərbaycan şairi Səməd Vurğunun da bu evdə olduğunu qeyd etdi: "Sizə onu da deyim ki, vaxtilə Səməd Vurğun da bu evdə tez-tez olub. Səməd Vurğunu mən bu evdə yaxşı xatırlayıram. Fyodor Semyonoviç yaşca xeyli böyük olmasına baxmayaraq, Səməd Vurğunla dostluq edirdi, hətta ona bir şeir də həsr etmişdi. Səməd Vurğun dünyasını dəyişəndə "Səməd dünyadan çox tez köçdü" deyib ağlamışdı da. Fyodor Semyonoviç həmişə Yesenin, Mayakovski, Səməd Vurğun kimi şəxsiyyətlərin müasiri olması ilə fəxr edirdi".

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə [76] 1995-ci ildə Yeseninin anadan olmasının 100 illiyi Azərbaycanda dövlət səviyyəsində qeyd edildi və Yesenini, onun poeziyasını sevənlər üçün bütün qapılar taybatay açıldı. Elə həmin ildən başlayaraq, burada, İrina Georgiyevanın yaşadığı bu evdə tez-tez yerli və xarici qonaqlar, yeseninsevərlər, şairlər, yazıçılar, rəssamlar, mədəniyyət xadimləri yığışır, böyük şair haqqında söhbət açır, onun şeirlərini oxuyur, maraqlı müzakirələr aparırlar. Bu "Yesenin ədəbi məclisləri"ndə digər çoxsaylı insanlarla yanaşı, tanınmış şair və yazıçılar, o cümlədən Anar, Səyavuş Məmmədzadə, Mənsur Vəkilov, Vladimir Qafarov və s. şəxslər də iştirak etmişlər. Yesenin şeirlərinin Azərbaycan dilinə ən yaxşı tərcüməçilərindən biri Səyavuş Məmmədzadə və istedadlı şairə

Yelizaveta Qasımova Yeseninin də bir neçə dəfə olduğu bu evə şeirlər həsr etmişlər [233; 260].

Zaman keçdikcə, illər ötdükcə Yeseninin Bakı ünvanları ilə bağlı yeni məlumatlarin əldə edilməsi, təbii olaraq, çətinləşsə də, bu məsələ gələcək prinsipial tədqiqatçılar üçün bir tədqiqat mövzusu olaraq qalır.

Bakıya son iki səfəri zamanı (30 mart – 25 may və 28 iyul – 3 sentyabr 1925-ci il) Yesenin, əsasən, Mərdəkanda, P.İ.Çaqinin bağ evində yaşamışdır. Burada Yesenin üçün, onun məhsuldar yaradıcılıq fəaliyyəti üçün hər cür şərait yaradılmışdı. Onun, aprelin 8-də Q.A.Benislavskiyə yazdığı məktubunda oxuyuruq: "*Burada mənə çox böyük diqqət var. Çaqin məni öz qardaşı kimi qarşıladı. Onun evində qalıram. Mənə münasibət çox gözəldir*" [198, s.209].

Son səfəri zamanı Yeseninlə birlikdə Mərdəkanda yaşayan Sofya Tolstaya avqustun 13-də anasına yazdığı məktubunda Mərdəkanda onlar üçün yaradılmış şəraitdən, yaşadıqları evin və ümumilikdə Mərdəkanın inanılmaz gözəlliyindən, burada keçirdikləri unudulmaz günlərdən geniş söhbət açır, Mərdəkanı "səhralar arasında oazis" adlandırır.

Yeseninin buradakı yaşam tərzi haqqında P.İ.Çaqinin həyat yoldaşı K.E.Çaqina isə tanınmış rus yeseninşünası V.Q. Belausova məktubunda yazır: "*Pyotr İvanoviç gündüzlər işləyir, bağa yalnız axşama yaxın gəlirdi. Biz isə Yesenini şənləndirir, onun diqqətini gündəlik işlərdən yayındırırdıq. O, mənim bundan əvvəl təsvir etdiyim hövuzun* (mətnin əvvəlində K.E.Çaqina bağdakı hovuzları təsvir edir – İ.İ.) *yuxarısında oturmağı çox sevirdi, ya da xalçanın üstündə uzanıb xəyala dalırdı, çox vaxt da şeir yazır, sonra da bizə oxuyurdu. Onu tez-tez, şeir oxumaq üçün yaxınlıqda olan istirahət evlərinə dəvət edirdilər və o, heç vaxt imtina etmirdi, böyük həvəslə gedir, şeir oxuyur, adamlarla söhbət edirdi. Bağda həm də tennis və kroket meydançası vardı və Sergey Aleksandroviç böyük həvəslə orada vaxt keçirirdi. Çimərliyə də gedirdik. Axşamlar bağda dincələnlər pianino olan otaqda yığışırdılar. Sofya Andreevna çalır, hamı oxuyur, rəqs edirdi və əlbəttə ki, yenə Sergey Aleksandroviç şeir oxuyurdu*" [127, s.200]. Yesenin özü də "İran nəğmələri"ndə, könül rahatlığı tapdığı bu yerlərin gözəlliyini çox böyük şairanəliklə vəsf etmişdir.

P.İ.Çaqinin xatirələrindən aydın olur ki, Yeseninin burada yaşaması yalnız dost evində yaşamaq kimi başa düşünülməməlidir. Məsələ burasındadır ki, həmin vaxtlar İrana getmək, dahi Şərq şairlərinin – Hafizin, Xəyyamın, Sədinin, Firdovsinin qədim diyarını gəzmək arzusu Yesenini rahat buraxmırdı. Yesenini və onun yaradıcılığını çox sevən S.M.Kirov İran səfərinin Yeseninin həyatı üçün təhlükəli ola biləcəyini düşünürdü və bu səbəbdən də onun İrana getməsini istəmirdi. Odur ki, P.İ.Çaqinə tapşırıq vermişdi ki, burada – Bakıda Yesenin üçün "İran illüziyası" yaratsın. P.İ.Çaqinin bağ evi isə özünün bütün memarlıq üslubu və özünəməxsus gözəlliyi ilə bu ideyaya tam uyğun gəlirdi. Yeri gəlmişkən, S.M.Kirovun Yeseninə münasibəti haqqında müxtəlif fikirlər olsa da, onun Yeseninə, əsasən, müsbət münasibətdə olması şübhə doğurmamalıdır. S.M.Kirovun Yeseninə yaxşı münasibətdə olmasını bir sıra xatirələr də təsdiqləyir. P.İ.Çaqinin xatirələrindən aydın olur ki, S.M.Kirov Yesenin poeziyasını və şəxsiyyətini çox sevir və onun yaradıcılığına xüsusi diqqət yetirirdi. Yesenin Bakıda olduğu müddətdə də Kirov onunla bir neçə dəfə görüşmüşdü. Kirov, imkan olduqca, Yeseninin həyatı ilə maraqlanır, ona arxa durmağa çalışırdı: "*1925-ci il dekabrın sonlarında Moskvaya partiyanın 14-cü qurultayına gəlmişdim* (ÜK(b)P-nın 14-cü qurultayı 18-31 dekabr aralığında Moskvada olmuşdur – İ.İ.). *Tənəffüsdə Kirov məndən Moskvada Yesenini görüb-görmədiyimi soruşdu. Cavab verdim ki, məndə olan məlumata görə, o, Leninqrada gedib. "Lap yaxşı, onu qorumağa davam edəcəyik. Bir neçə gündən sonra oradayıq". Əvvəlcə mən anlamadım. Söhbətin sonrasından məlum oldu ki, MK-da S.M. Kirovun Leninqrada birinci katib, mənim də oraya – "Красная газета"ya baş redaktor göndərilməyim haqqında qərar qəbul edilib. Çox təəssüf ki, onu qorumaq mümkün olmadı. Sabahısı gün Sergey Yeseninin ölüm xəbəri yayıldı*" [355, s.164].

S.M.Kirovun Yeseninə münasibəti ilə bağlı V.A.Manuylovun Yesenin haqqında xatirələrində oxuyuruq: "*Bir dəfə, 1928-ci ilin yazında Leninqradda… S.M.Kirovla rastlaşdıq… Bakını, onun Leninqrad nəşriyyatlarında işə cəlb etdiyi dostu P.İ.Çaqini xatırladıq. Yesenindən söhbət düşdü. Sergey Mironoviç öz adaşını böyük məhəbbətlə xatırladı və kədərlə dedi ki, əgər biz onda – 1925-ci ilin sentyabrında Yesenini və Sofya Andreyevnanı payızda 2-3 ay Bakıda saxlaya bilsəydik, bəlkə də, dekabr faciəsi*

baş verməzdi" [267, s.190]. Düşünürük ki, S.M.Kirov burada Bakının yalnız məsafə baxımından Moskvadan və ya Leninqraddan uzaqlığını nəzərdə tutmur. Onun əsas vurğulamaq istədiyi fikir ondan ibarətdir ki, Bakıda Yeseninə, məhsuldar yardıcılıqla məşğul olması üçün, hər şərait yaradılmışdı, Bakı Yeseninin həyata baxışını dəyişdirmişdi, nikbin əhval-ruhiyyə ona hakim kəsilmişdi, Bakıda yaşadığı dövrdə Yesenin yaratmaq eşqi ilə yaşayırdı, ürəyi həyat eşqi ilə döyünürdü. Belə duyğularla yaşayan bir insan heç vaxt həyatla vidalaşmaq, intihar etmək fikrinə düşməzdi.

Yeseninin Mərdəkanda yaşaması ilə bağlı başqa bir versiya da mövcuddur. Bu haqda yazıçı Qılman İlkin müsahibələrindən birində demişdir: "*Atam 20-ci ildə vəfat edib. O, Murtuza Muxtarovun bağında tikinti işlərinə baxan əsas usta idi. Onun vəfatından sonra mən də yay tətillərində gedib orada işləyirdim... Həmin vaxtlarda Sergey Yesenin Muxtarovun bağında qalırdı. Onu tez-tez görürdüm. Şərq klassik şeirinə vurğun olan Yesenin İrana getmək istəyəndə Sergey Kirov – Azərbaycanın o vaxtkı birinci katibi onu aldadıb paroma oturtmuş və Xəzərə çıxardıb Zirə, Hövsan, Zığ sahilləri ilə gətirib çıxarmışdılar Mərdəkana ki, bura İrandır. Əvvəl inanmışdı. Sonra başa düşəndə o qədər də inciməmişdi. Çünki bura da onun ürəyincə idi*" [57, s.9]. Yeseninin Mərdəkanda yaşaması ilə bağlı digər bir mənbədə də maraqlı epizodlar təsvir edilir [316, s.13-14].

Yeseninin Azərbaycanla bağlılığı dövlət səviyyəsində də öz layiqli qiymətini almışdır. Belə ki, Azərbaycan KP MK Bürosunun 1 avqust 1974-cü il tarixli qərarı əsasında, Azərbaycan SSR EA Rəyasət heyətinin 1 aprel 1975-ci il tarixli, 22 saylı sərəncamı (bənd 9) ilə Mərdəkanda Yeseninin yaşadığı evdə onun xatirə muzeyi (otaq-muzey) yaradılmışdır. Muzeyin yerləşdiyi yer 1895-1920-ci illərdə neft milyonçusu Murtuza Muxtarovun şəxsi bağ evi olub. Muzey 1975-ci il oktyabrın 3-də Yeseninin anadan olmasının 80 illiyi münasibətilə fəaliyyətə başlamışdır. Muzeyin yerləşdiyi küçə də şairin adını daşıyır. Muzeyin ünvanı: Mərdəkan, S.Yesenin küçəsi, 89. "*Azərbaycan və Rusiya dövlətləri arasında mehriban dostluğun poetik rəmzi sayıla biləcək*" [29]. bu muzey Yeseninin Rusiyadan kənarda fəaliyyətə başlayan ilk rəsmi xatirə muzeyidir. Hər il oktyabrın 3-də, Yeseninin doğum günündə burada yeseninsevərlər yığışır, şairin şeirləri oxunur, onun Azərbaycanla əlaqələri haqqında

danışılır, böyük şair xoş sözlərlə anılır. Xatirə muzeyinin açılışında tanınmış rus yazıçısı V.Katayev Bakıda Yesenin bayramında iştirakından, Sergey Yeseninin vaxtı ilə gözəl Mərdəkan bağlarında keçirdiyi yerdə olmaqdan həyəcanlı olduğunu dilə gətirmiş, Yeseninin Bakıya bağlılığı ilə əlaqədar aşağıdakıları söyləmişdir: "*Yesenin Bakını sevirdi... O, həmişə mənə deyirdi ki, hər bir şair gərək mütləq Bakıya getsin, onun ətrafları həddindən artıq şairanədir*" [234]. Böyük məmnuniyyətlə onu da qeyd etmək istəyirik ki, tarixdə Yeseninin ilk poeziya bayramı, onun vətəni Rusiyada deyil, məhz Azərbaycanda, 1972-ci il oktyabrın 4-də Rusiya Federasiyası mədəniyyət günləri çərçivəsində, Mərdəkanda keçirilmişdir. Yalnız bundan sonra, böyük şairin poeziya bayramları, ölkənin digər yerlərində – o cümlədən Moskvada, Ryazanda, eləcə də şairin doğma kəndi Konstantinovada keçirilməyə başlamışdır [373].

Ümumiyyətlə, bu muzey xaricdən, xüsusən də Rusiyanın hər tərəfindən hər zaman Bakıya gələn çoxsaylı qonaqların mütləq görmək istədikləri, ziyarət etdikləri, mənəvi olaraq dincəldikləri məkanlardan biridir. Belə məqamlardan birinə Çapay Sultanovun "Mənim dahilərlə görüşlərim..." adlı kitabında [318, s.198] rast gəlirik. 1981-ci ildə SSRİ Pionerlər Evlərinin şahmat üzrə 6-cı turniri Bakıda keçirilirdi. Həmin turnirə fəxri qonaq kimi dəvət edilmiş məşhur Sovet şahmatçısı S.Flor 1942-ci ildə oynanmış S.Flor – V.Makoqonov matçı ilə bağlı ona verilən sualın cavabında deyir: "Bu matçla bağlı mənim xatirələrin heç ürəkaçan deyil. O vaxt mənimlə heç də yaxşı davranmadılar. Yaxşısı budur məni Yeseninin ev-muzeyinə aparın". Məşhur şahmatçını şairin ev-muzeyinə aparırlar. Muzeyi dolaşan şahmatçı, xatirə şəkli çəkdirir, muzeyin bələdçisi ona böyük şairin Bakıya həsr etdiyi məşhur "Əlvida, Bakı!" şeirini oxuyur. Burada gördüklərindən və eşitdiklərindən çox məmnun qalan qonaq bələdçidən arvadı üçün bir neçə söz yazmağı da xahiş edir. Qeyd edək ki, müəllifin yazdığı kimi, Yesenin S.Florun arvadının uzaq qohumu deyil, çox yaxın qohumudur. Belə ki, S.Florun arvadı Tatyana Petrovna Flor-Yesenina şairin kiçik bacısı Aleksandranın qızıdır, yəni Yesenin onun doğma dayısıdır.

Muzeyin girişində Yeseninin açıq kitab şəklində təsvir edilmiş barelyefi qoyulmuşdur. Əsərin müəllifi heykəltəraş Fuad Salayevdir. Bu barelyefin qoyulması tarixçəsilə bağlı 2005-ci ildə mərkəzi qəzetlərdən birində maraqlı bir məlumata rast

gəlirik: "*Barelyefin açılışından bir gün əvvəl, onun Moskvadan gətirilməli olduğu zavoddan* (Moskva Mıtışin zavodu – İ.İ.) *zəng edib dedilər ki, büründən tökülməsi zamanı tez-tez rast gəlinən hadisələrdən biri baş verib – çat aşkar edilib. Ona görə də barelyefi Bakıya yalnız oktyabrın 4-də çatdıra bilərlər. Bu hamı üçün gözlənilməz bir şey idi: qonaqlar artıq Bakıdadır, oktyabrın 3-ü saat 12:00-a açılış təyin edilib. Nə etməli? Heydər Əliyevə məruzə etməli olduq. O, soruşdu: "Nə təkliflər var?". Biz cavab verdik ki, müəllif, müvəqqəti olaraq, barelyefin, diqqətlə bürüncə boyanmış, gips modelini qoymağı və beləcə açılış mərasimini keçirməyi, 1-2 gündən sonra da, orijinal Moskvadan gələndə, onu gecəylə dəyişməyi təklif edir. Bir qədər düşündükdən sonra Heydər Əliyev dedi: "Bütün bunlar heç də yaxşı olmadı, amma nə etməli? Bizim süçümüz yoxdur... Biz hər şeyi vaxtında və düzgün etmişik. Bircə, çalışın, barelyefin qarşısına çoxlu gül-çiçək qoyun ki, heç kim yaxına getməsin". Belə də etdik. 1-2 gündən sonra da, gecəylə, gips modeli orijinalla əvəz etdik*" [363].

90-cı illərdə ölkədə baş verən ictimai-siyasi hadisələr zamanı muzeyin fəaliyyəti dayandırılmış və təxminən 8 il müddətində muzey fəaliyyət göstərməmişdir. Nəhayət, Azərbaycan EA Rəyasət heyətinin 24 iyul 1998-ci il tarixli, 71 saylı sərəncamı ilə muzeyin fəaliyyəti bərpa edilmişdir. Göstərilən sərəncama əsasən muzey üçün müvafiq sahə ayrılmaqla, onun gələcək fəaliyyəti üçün şərait yaradılmalı, yeni mövzu – ekspozisiya planı hazırlanmalı və uyğun bərpa işləri aparılmalı idi. Sərəncama uyğun olaraq müvafiq sahə ayrıldı, amma ayrılan sahənin nə həcm, nə də şərait baxımından böyük şairin adına layiq olmadığını qeyd etməliyik. Məsələ burasındadır ki, ilk yaradıldığı vaxt muzey məhz Yeseninin yaşadığı otaqda yaradılmışdı və buna görə də Yeseninin otaq-muzeyi adlanırdı. Muzey də əslində, elə bununla əlamətdar idi: Otağın hər yerində şairin nəfəsi duyulur, ayaq izləri "görünürdü". Uyğun sərəncamdan sonra muzey daha da zənginləşmək və gözəlləşmək əvəzinə, bağın uzaq, Yeseninlə əlaqəsi olmayan bir küncünə köçürüldü. Muzey əməkdaşlarının hər cür səylərinə baxmayaraq (Muzeydə olduğumuz zaman muzeyin əməkdaşı Nəzakət İbadova şəraitlərindən açıq şikayətlənməsə də, onun Yeseninə sevgi ilə alışıb-yandığının şahidi olduq və buradakı şəraitin, tezliklə, Yeseninin adına layiq bir hala gətiriləcəyinə

ümidini hiss etdik) həcm, şərait baxımından xeyli kasıb görünən bu zirzəmiyəbənzər otaqlarda nə isə əsaslı bir şey yaratmaq və qonaqları məmnun etmək mümkün deyil.

Bir məsələni də qeyd etmək istərdik. Hər hansı bir xatirə muzeyi, əsasən, onunla əlamətdar olur ki, orada adını daşıdığı şəxsə aid müəyyən əşyalar olsun. Təəssüf ki, Yeseninin bu xatirə muzeyində onunla birbaşa bağlı olan, onun əllərinin toxunduğu bir dənə də olsun əşya yoxdur. Ekspozisiyalara, əsas etibarilə, şairin əsərləri, onun haqqında yazılmış kitablar, qəzet məqalələri, fotoşəkillər, ona həsr edilmiş rəsm əsərləri, şairin büstləri və s. daxildir. Ümumilikdə, müzeyin eksponatlarla zənginləşdirilməsi, heç olmasa, şairin doğum günlərində keçirilən tədbirlərdə daha zəngin eksponatlar sərgisinə nail olmaq üçün S.Yeseninin Ryazanın Konstantinovo kəndindəki ev-muzeyi ilə, eləcə də Yeseninlə bağlı müxtəlif şəxsi muzeylərlə, o cümlədən, yuxarıda söhbət açdığımız, M.İbrahimov küçəsi 11 ünvanda yerləşən şəxsi muzeyin sahibi İrina Georgiyevna ilə yaxşı əlaqələr yaratmaq məqsədəuyğun olardı.

2015-ci ildə, Sergey Yeseninin anadan olmasının 120 illik yubileyi ərəfəsində, həyatının ən çətin günlərində Bakıya pənah gətirmiş, burada yaradıcılığının ən qaynar dövrünü yaşamış böyük rus şairinin xatirəsinə hörmət əlaməti olaraq, onun Mərdəkandakı, hazırda S. Yesenin adına Azərbaycan-Rusiya Ədəbi Əlaqələr Mərkəzi adlanan ev-muzeyində təmir işləri aparıldı, muzeyin sahəsi bir qədər də genişləndirildi.

1.4. **Sergey Yeseninin Bakı görüşləri**

Bundan əvvəlki paraqrafda, S.Yeseninin Bakı ünvanları ilə bağlı, diqqətə çatdırdığımız məlumatlar şairin Bakı həyatı haqqında yetərincə mənzərə yaradır. Bununla belə, Yeseninin Bakı ünvanları ilə yanaşı, ümumiyyətlə, onun Bakıda insanlarla ünsiyyətləri, keçirdiyi görüşlər, bu görüşlərin tarixçəsi və s., şairin Bakı dövrünün ətraflı öyrənilməsi baxımından, kifayət qədər maraqlı və vacibdir.

Yeseninin Bakı həyatına aid məlumatlara, əsasən, P.İ.Çaqin, onun qardaşı V.İ.Boldovkin, V.A.Manuylov və bir sıra başqa müəlliflərin xatirələrində rast gəlinir. Bununla belə bu müəlliflər arasında bir nəfər də azərbaycanlının olmaması təəccüb doğurur. Y.Quluzadə "Görəsən Yesenin Azərbaycanda olmuşdurmu?" («А был ли

Есенин в Азербайджане?») adlı məqaləsində bu cür görüşlərin baş tutmaması səbəblərini izah etməyə cəhd göstərmişdir. O, adıçəkilən məqaləsində soruşur: "*Nə üçün bir neçə dəfə Bakıda olsa da, Yesenin, bir dəfə də olsun, Azərbaycanın yaradıcı ziyalılarının nümayəndələri ilə görüşməmiş, onlardan heç birinə təqdim belə edilməmişdir. Necə ola bilərdi ki, həmişə rus mədəniyyəti, rus ədəbiyyatı ilə maraqlanan Azərbaycan yazıçıları, o cümlədən N.Vəzirov, Ə.Haqverdiyev, S.S.Axundov, C.Məmmədquluzadə, H.Cavid, Ü.Hacıbəyov, Ə.Cavad, C.Cabbarlı, A.Şaiq və başqaları böyük rus şairinə bu qədər biganə oldular və onunla görüşə can atmadılar*?" [148, s.32]. Sonra müəllif qoyduğu suala cavab verməyə çalışır. Həmin dövrün ictimai-siyasi mənzərəsini təhlil edən tədqiqatçı sonda belə nəticəyə gəlir: "*Bolşeviklərin gəlişi ilə Azərbaycan öz müstəqilliyini itirdi. Ziyalılar, təbii olaraq, yeni hakimiyyətə düşmən münasibəti bəsləyirdilər... Bolşeviklər onların öz vətənini azad və müstəqil görmək arzularını məhv etdi, onların fəal müdafiə etdikləri gənc Demokratik Respublikanı boğdular. Doğrudur, öndə gedən Azərbaycan ziyalılarının kütləvi repressiyaları və güllələnmələri bir qədər sonra başladı, amma həmin dövr – iyirminci illərin əvvəlləri Azərbaycanın bütün tarixi boyu onun mədəniyyəti üçün ən ağır dövrlərdən biridir. Yesenin Bakıya bax bu illərdə gəlmişdi. Özü də elə-belə deyil, Azərbaycanın yeni sahiblərinin – bolşevik hakimiyyətinin dəvəti ilə gəlmişdi. Təbii ki, Azərbaycan ziyalılarının da ona münasibəti uyğun şəkildə idi. Görüşlərin baş tutmamasının əsas səbəbini məhz bunda görürük*" [148, s.33].

Belə çıxır ki, Yeseninlə görüşməmək təşəbbüsü Azərbaycan ziyalılarından gəlmişdir. Tədqiqatçının təhlilləri ictimai-siyasi mənzərə baxımından məntiqli kimi görünsə də ziyalıların, şair və yazıçıların hamısının "sözü bir yerə qoyaraq, Yeseninlə görüşməyək" qərarı vermələri qətiyyən inandırıcı görünmür. Üstəlik, azərbaycanlı şair və yazıçıların təxminən elə həmin illərdə və sonrakı dövrlərdə Bakıya gəlmiş bir sıra rus şair və yazıçılarının, o cümlədən, M.Qorki, V.İvanov, V.Xlebnikov, S.Qorodetski, V.Mayakovski və başqalarının yaradıcılığına rəğbətlə yanaşmalarını nəzərə alsaq, onların Yeseninə, onun yaradıcılığına yuxarıda göstərilən səbəbdən etinasız münasibətinə inanmaq çətindir. Digər tərəfdən, Yesenin Bakıya gəldiyi dövrlərdə o, sıradan olan bir şair deyildi, onun adı artıq Rusiyanın sərhədlərindən uzaqlarda

məşhur idi. Bakıya "bolşevik hakimiyyətinin dəvəti ilə" gəlsə də, həmin hakimiyyətlə münasibətləri heç də yaxşı deyildi; o, hakimiyyəti və zəmanəsini tənqid etməkdən də çəkinmirdi. Hətta onun Bakıya səfərləri də yalnız dost dəvəti kimi qəbul edilməməlidir. Yuxarıda, 2-ci paraqrafda qeyd etdiyimiz kimi, şair Bakıda olarkən yazdığı "Stansı" şeirində (bu şeir P.İ.Çaqinə həsr edilmişdir) milislərlə yaşadığı problemlər üzündən Moskvadan qaçdığını yazırdı. Belə bir şəraitdə Bakını özünə yuva seçmiş şairin gəlişindən yararlanaraq, onunla ədəbi fikir mübadiləsi etmək sənət adamları üçün hər baxımdan maraqlı və hətta vacib hesab edilməli idi. Üstəlik, onun Şərq poeziyasına, Şərqin böyük şairlərinə xüsusi marağı da, müəyyən mənada, Azərbaycan şair və yazıçılarının marağına səbəb olmalıydı. Ona görə də, azərbaycanlı şair və yazıçıların onunla görüşə biganə qaldıqlarına inanmaq çətindir. Odur ki, görüşlərin baş tutmamasının əsas səbəbini ziyalılarımızın təşəbbüs göstərməməsində deyil, sadəcə, Yesenini onun dostları olan hökumət adamlarının belə görüşlərdən təcrid etməsində axtarmaq daha məntiqə uyğundur. Yeseninin məhz hökumət adamı olan P.Çaqinin bağ evində qalmasının səbəblərindən biri də, əslində, elə bu "təcridetmə planı" idi.

Bəs Yeseninin belə görüşlərdən, azərbaycanlı şair, yazıçı və ziyalılardan təcrid edilməsinin səbəbi nə idi, bu təcridetmə kimə lazım idi? Belə görüşlərin olmasının təhlükəsi nə idi? Bu kimi suallar da, təbii olaraq meydana çıxır və bununla bağlı fikir yürüdülməsini zəruri edir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda geniş milli oyanış prosesi baş qaldırmışdı. Yuxarıda Y.Quluzadənin məqaləsində adı çəkilən Azərbaycan ziyalılarının, şair və yazıçılarının, demək olar ki, hamısı, o cümlədən Əhməd Cavad, Abdulla Şaiq, Cəfər Cabbarlı, Hüseyn Cavid və digəriləri 1918-1920-ci illərdə poeziyada türkçülük, turançılıq (türk birliyi) ideyalarının əsas tərənnümçülərindən idilər. Məhz milli ideyalar carçısı kimi, Almas İldırım 20-30-cü illərdə vətəni tərk etmək, əvvəlcə İranda, sonra da Türkiyədə mühacir həyatı keçirmək məcburiyyətində qalmışdı. 1918-ci ildə Azərbaycan Demokratik Cumhuriyyətinin qurulması da məhz bu ideyalarla döyünən ürəklərin, bu ideyalarla yaşayan düşüncələrin qələbəsi idi. ADR-in boğulması və Azərbaycanın Rusiya tərəfindən işğalı, onun SSRİ-nin tərkibinə daxil edilməsi isə siyasi bir çevriliş olduğundan insanların düşüncəsini

dəyişdirə bilməzdi, əksinə onların düşüncələrində milli ideyalar, türkçülük, turançılıq ideyalarının kükrəyişi baş verirdi. Digər tərəfdən, Yesenin də Sovet hakimiyyətinin tərənnümçüsü deyildi. Əslində onun İrana getməsinə şərait yaradılmaması da, müəyyən mənada, hökumət dairələrində ona olan siyasi etibarsızlığın bir göstəricisi idi. Belə bir zamanda Azərbaycan ziyalıları, şair və yazıçıları ilə Yeseninin görüşləri, sərbəst fikir mübadiləsi aparmaları Yeseninin beynində, düşüncələrində Sovet hakimiyyətinə qarşı ciddi etiraz toxumları səpə bilər, onun hakimiyyətlə, onsuz da möhkəm olmayan münasibətlərində bir soyuqluq yarada bilər, onu tədricən sovet ideologiyasından tamamilə uzaqlaşdıra bilərdi. Hökumət adamları isə Yesenin kimi xalq tərəfindən sevilən şairləri, yazıçıları itirmək yox, onları öz tərəflərinə çəkmək, imkan daxilində öz hakimiyyətlərinin tərənnümçülərinə çevirməyə çalışırdılar. Yeseninin Azərbaycan ziyalılarından, şair və yazıçılarından təcrid olunması və onun Bakıda yalnız rus mühitində yaşaması, fikrimizcə, məhz bununla bağlı idi.

2016-cı ilin noyabr ayında "Azərbaycan-rus ədəbi əlaqələrindən fraqmentlər: Yeseninin Bakı görüşləri" adlı məqaləmi çap olunmaq üçün "Xəzər Humanitar və Sosial Elmlər" jurnalının redaksiyasına təqdim etdikdən bir qədər sonra, redaktorun rəyini aldım. Professor Hamlet İsaxanlı öz rəyində, məqalədə yer almış bir sıra məsələlərə münasibət bildirməklə yanaşı, Yeseninin Bakıda olduğu dövrdə Azərbaycanlı ziyalılar, şair və yazıçılarla münasibətləri məsələsinə də toxunur, onlar arasında təmasların olmamasını belə izah edir:

1. Yuxarıda adları çəkilən və çəkilməyən Azərbaycanlı şair və yazıçılar Yesenini yaxşı tanımırdılar, onunla xüsusi maraqlanmırdılar.
2. Yesenin də Azərbaycanlı şair və yazıçıları yaxşı tanımırdı və onlarla görüşməyin xüsusi marağında deyildi.
3. Yesenin bir şair kimi Azərbaycana deyil, İrana maraq göstərirdi və onu Azərbaycanlı şairlər yox, Şərq klassikləri (Sədi, Hafiz, Xəyyam və s), maraq-landırırdı.

Hər halda, hansı səbəb üzündən olmasına baxmayaraq, S.Yeseninin Azərbaycan şair və yazıçıları, ziyalıları ilə təmas və görüşlərinin olmamasını biz təəssüf hissi ilə qeyd etmək məcburiyyətindəyik. Belə görüşlərin və bu görüşlər haqqında xatirələrin

varlığı Yeseninin Bakı həyatı ilə yanaşı, onun ayrı-ayrı azərbaycanlı şairlər, yazıçılar, mədəniyyət xadimləri ilə şəxsi münasibətləri və ümumilikdə, onun Azərbaycan poeziyasına, mədəniyyətinə münasibəti haqqında məlumatlarin varlığı demək olacaqdı. Məsələn, Yeseninin Gürcüstan səfərləri haqqında yazmaq üçün hər bir araşdırıcının əlində Yeseninin müasirləri və dostları olan xeyli sayda gürcü şair və yazıçılarının xatirələri var. S.Yeseninin Gürcüstana olan səfərlərində biz onun bir sıra gürcü yazıçı və şairləri ilə – T.Y.Tabidze, N.A.Tabidze, Q.N.Leonidze, S.İ.Çikovani, Ş.N.Apxaidze, V.İ.Qaprindaşvili, S.İ.Şanşiaşvili, T.Q.Yaşvili, N.İ.Qudiaşvili ilə təmas və görüşlərinin olması haqqında və onların S.Yeseninlə bağlı xatirə və qeydlərində kifayət qədər maraqlı məqamlara rast gəlirik [121; 248; 311; 321; 322]. T.Y.Tabidzenin xatirələrində Yeseninin, iki xalq – rus və gürcü xalqları arasında ədəbi-mədəni əlaqələrin yaxınlaşması baxımından çox vacib bir işlə məşğul olmaq istəyi – Gürcü poeziyasından tərcümələr etmək arzusunda olması kimi çox maraqlı məlumata da rast gəlirik [322, s.194]. Bu faktla bağlı bir məlumat da xeyli maraq kəsb edir. O.İvinskayanın böyük rus şairi B.Pasternak haqqında xatirələrində [208, s.72] belə bir məqam var. Təxminən 1924-cü ilin sonuna yaxın və ya 1925-ci ilin əvvəllində İ.Stalin, o dövrün 3 ən böyük şairi hesab elədiyi, B.Pasternak, V.Mayakovski və S.Yesenini qəbul edir, hər biri ilə ayrı-ayrılıqda görüşərək, gürcü poeziyasından (görəsən, yalnız gürcü poeziyasındanmı, yoxsa, ümumilikdə Qafqaz xalqları poeziyasındanmı?!) rus dilinə tərcümə məsələlərini müzakirə edir və onların bu prosesdə fəal iştirak etmələrini istəyir. Əlbəttə, Yeseninin gürcü poeziyasından tərcümələr etmək arzusunun məhz bu görüşlə bağlılığını söyləmək doğru olmaz və bunun üçün əlimizdə heç bir əsas da yoxdur. Yesenin bir neçə dəfə Gürcüstanda olmuş, həmin dövrdə onun tanınmış gürcü şairləri, yazıçıları, ziyalıları ilə çox yaxın dostluq münasibətləri yaranmışdı və bu müstəvidən baxsaq, onun gürcü poeziyasına isti münasibəti və gürcü şairlərindən tərcümə etmək arzusu kifayət qədər təbii görünür. V.Mayakovski və S.Yesenin, talenin qədəri ilə, gürcü poeziyasından tərcümələr edə bilmədilər, B.Pasternak isə bu tərcümələri etdi və onun tərcümələri 1935-ci ildə "Gürcü lirikləri" adlı kitab [290] şəklində işıq üzü gördü.

Burada bir məqamı yada salmaq maraqlı olar. V.İ.Boldovkinin Yesenin haqqında xatirələrində belə bir məqam var. 1925-ci il may ayının 22-də V.İ.Boldovkin Tehrandan Bakıya qayıdır, onu Yesenin qarşılayır, 2-3 gün onlar bir yerdə olurlar və mayın 25-də birlikdə qatarla Moskvaya gedirlər. Həmin günlərdən birində Yesenin V.İ.Boldovkinə onun valideynləri ilə münasibətindən danışır, xəstəxanada olarkən onların ona tez-tez baş çəkməsindən söhbət açır. O, həm də V.İ.Boldovkinin atasına, artıq, əvvəlki kimi İvan İvanoviç deyə yox, Azərbaycan dilində - İvanzade (İvanzadə) deyərək müraciət etdiyini qeyd edir [131, s.87]. Indiyə qədər heç kimin diqqətini cəlb etməyən bu kiçik epizod, Yeseninin dilimizə marağı, diqqəti və hörmətindən xəbər verir. Bütün bunları bildikdən sonra, Yeseninin Bakıda olduğu dövrdə azərbaycanlı şairlər, yazıçılar, ziyalılarla görüşlərinin olmamasından, əlbəttə ki, təəssüflənməyə bilmərik. Yeri gəlmişkən onu da diqqətə çatdıraq ki, bəzi mənbələrdə, heç bir əsas olmadan, Bakıda olarkən Yeseninin yaradıcı ziyalılarla görüşdüyü haqda fikirlərə də rast gəlirik [239, s.117].

Əlimizdə Yeseninin müasirləri olan cəmi iki azərbaycanlı – o vaxt AzərTAC-da müxbir və "Бакинский рабочий" qəzetində ştatdankənar müxbir işləmiş, professor Ramazan Xəlilovun və Azərbaycanın əməkdar jurnalisti, publisist, salnaməçi Qulam Məmmədlinin xatirələri vardır. Ramazan Xəlilovun, S.Yeseninin 100 illik yubileyi ərəfəsində, "Günay" qəzetində dərc olunmuş xatirələrində, müəllif 1925-ci ilin aprel-may aylarında böyük şairlə olan görüşlərini təsvir edir [349]. Bu yazı müəllifin, demək olar ki, Yeseninlə birlikdə iştirak etdiyi bir ziyafət məclisinə həsr edilmişdir və faktik olaraq, məqalədə S.Yeseninin Bakı həyatı ilə bağlı hər hansı maraqlı fakt və hadisələr, demək olar ki, təqdim edilmir. Digər tərəfdən, bu xatirələrin Yeseninlə görüşdən, nə az, nə çox, düz 70 il sonra yazılması, özü də, 94 yaşlı müəllif tərəfindən qələmə alınması, göstərilən yazıda qeyri-dəqiqliklərin, müəyyən quraşdırmaların olmasına şübhə yeri qoymur. Ümumiyyətlə, bu xatirələri oxuduqca onun, xatirə müəllifinin böyük şairi necə xatırladığı deyil, daha çox, necə xatırlamaq istədiyi duyğularla yazıldığı hiss olunur.

Qulam Məmmədlinin xatirələri isə təxminən 70-ci illərdə qələmə alınsa da, yalnız 2016-cı ildə işıq üzü görmüşdür. Uzun illər əlyazma şəklində qalmış bu

xatirələrdə müəllif Yeseninlə bağlı epizodik görüşlərinə də qısaca toxunur, şairin 1924-25-ci illərdə Bakıda olduğu dövrdə tez-tez "Бакинский рабочий" qəzetinin redaksiyasına gəlməsi (çox vaxt da sərxoş halda), yenicə çapdan çıxacaq şeirlərini elə "canlı-canlı", müəllifin qeyd etdiyi kimi "qəzetin nabor səhifələrində" oxuması ilə bağlı məlumat verir [64, s.85-86]. Burada müəllifin Yeseninlə hər-hansı ədəbi ünsiyyətlərinin, yaradıcılıqla bağlı əlaqələrinin, münasibətlərinin olub-olmaması haqqında heç bir məlumat verilmir. Görünür, onların görüşü, elə qəzet redaksiyasında olan keçici epizodlarla məhdudlaşmışdır və buna görə də belə görüşləri yaradıcı ziyalıların görüşü kimi qəbul etmək məntiqli və doğru olmaz.

Yeseninin 1925-ci ilin may ayında daha bir azərbaycanlı – məşhur opera müğənnisi Fatma Muxtarova ilə bir epizodik görüşü haqqında da məlumatlar var və biz bu barədə yuxarıda söhbət açmışdıq (bax: s.57).

Yeseninin Bakı görüşlərindən söhbət açarkən, onun məşhur Azərbaycan xanəndəsi Cabbar Qaryağdıoğlu ilə görüşü haqqında xüsusi danışmaq lazım gəlir. Bu görüş haqqında məlumatla ilk dəfə A.K.Voronskinin bir yazısında [140, s.135-136] rastlaşırıq. Bundan sonra L.Polonski [299], L.Polonski-V.Portnov [300], F.Şuşinski [78, s.97-98] və Z.Yusifqızının [115, s.51-54] məqalə və kitablarında da bu görüşlə bağlı məlumat verilir. Amma bu yazıların heç birində həmin görüşün araşdırma tələb edən məqamları xüsusi öyrənilməmiş, sadəcə olaraq, görüş haqqında müəyyən ümumi məlumatlar verilmişdir. Odur ki, bu görüşün bəzi detalları ilə bağlı məqamlara aydınlıq gətirmək məqsədilə məsələyə yenidən qayıtmağı məqsəduyğun hesab etdik. Bunu nəzərə alaraq biz buarada həmin məqamlarla bağlı məsələlərə aydınlıq gətirməyə çalışacağıq.

Qeyd etdiyimiz kimi, Yeseninin C.Qaryağdıoğlu ilə görüşü haqqında ilk dəfə A.Voronski məlumat vermişdir: "*Ölümündən bir neçə ay əvvəl, bir dostluq gecəsində Yesenin İran şeirlərini* ("İran nəğmələri"ni – İ.İ.) *oxuyurdu. Onu dinləyənlər arasında xalq mahnılarını toplayan və ifa edən Cabbar adlı bir qoca Türk də var idi... O, rus dilində bir söz də bilmirdi. Sakitcə və soyuq bir halda şairə baxır, yalnız şeirin ritminə uyğun olaraq quru dodaqlarını tərpədirdi. Yesenin oxumağını qurtaranda Cabbar ayağa qalxdı, ata oğluna deyən kimi türkcə dedi: "Mən qocalmışam. Otuz*

beş ildir ki, xalqımın mahnılarını toplayır və oxuyuram. Mən peyğəmbərə səcdə edirəm, amma peyğəmbərdən də çox şairə səcdə edirəm: o, həmişə başqaları üçün əlçatmaz və sirli olan yeniliklər kəşf edir. Sənin bizə oxuduqlarını başa düşmürəm, amma hiss etdim və anladım ki, sən böyük, çox böyük şairsən! Bu fitri istedadın qarşısında mən qocanın hörmət və ehtiramını qəbul et" [140, s.135-136].

Bundan təxminən 40 il sonra, 1965-ci ildə L.Polonski "Бакинский рабочий" qəzetində "İki nəğməkar" («Два певца») adlı məqaləsində [299], 50 ilə yaxın sonra isə o, V.Portnovun həmmüəllifliyi ilə "Kitablar və illər" kitabında, eyni adlı yazıda bu görüşün bir sıra digər məqamlarına toxunmuşdur [300]. "*Nəğməkarın* (Cabbar Qaryağdıoğlunun-İ.İ.) *barmaqları qavala dəydikcə onun tarım çəkilmiş dərisi sanki cingildəyir. Barmaqların zərbəsi ara verdikcə, sakitlikdə yüksək və təmiz səs ətrafı bürüyür. Cabbar sol əlinin içini yanağına sıxır, başını azca aşağı əyir və səs daha da zilə qalxır. Yesenin onun mahnılarına qulaq asdıqca qarşısında xanəndə yox, dağ çeşmələrini, Qafqazın qarlı zirvələrini görür. Şair heç eşitməmişdi ki, xanəndə nəfəsini dərmədən belə uzun-uzadı oxuya bilər... Cabbarın, dizi üstə düşmüş qavaldan ayrılan barmaqları sanki dondu. Xanəndə oxuyub qurtardı. Hamı əl çalıb alqışladı. Yesenin isə, valeh olduğunu dilə gətirmədən, dinməz-söyləməz oturmuşdu. O, sanki xəyalında Moskvaya yazmağa başladığı məktubunu tamamlayırdı: "Müsəlmanlar heç də əbəs yerə demirlər: əgər o, oxumursa, deməli, Şuşalı deyil, əgər o, yazmırsa, deməli, Şirazlı deyil". Bəs şair şairə, nəğməkar nəğməkara minnətdarlığını necə bildirə bilər. Yalnız şeirlə, yalnız mahnıyla. Melodiya söz yaratdıqca, şeirlərdə mahnılar yaranırdı... Cabbar soyuq bir halda şairə baxır və yalnız şeirin ritmi altında quru dodaqlarını tərpədirdi... Yesenin oxuyub qurtaranda Cabbar ayağa durdu... O, Yeseninə yaxınlaşdı və onu qucaqladı. Yesenin isə ona ekspromtla cavab verdi və aydınca eşidilən bir misra xanəndənin yaddaşına həkk olundu: "Şərq musiqisinin peyğəmbərinə...*" [299; 300, s.42-45].

Firidun Şuşinski isə, Polonskinin həmin məqaləsinə əsaslanaraq, o görüşü belə təsvir edir: "*1924-cü ildə məşhur rus şairi Sergey Yesenin Bakıya gəlir. O, dəfələrlə Cabbar Qaryağdıoğlu olan məclislərdə iştirak edir. Məclislərdə lirik şair Azərbaycan xanəndəsinin gözəl səsini eşitməkdən doymazdı. Qoca sənətkarlar söyləyirlər ki, bir*

gün Əliheydər Qarayevin evində Serqey Yeseninin şərəfinə qonaqlıq verilir. Həmin qonaqlıqda Azərbaycan bolşevik firqəsinin Mərkəzi Komitəsinin birinci katibi S.M.Kirov, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlu və Ruhulla Axundov da iştirak edirmişlər... Məclis qızışdı. Qaryağdıoğlu oxumağa başladı. Yesenin heç çür inana bilmirdi ki, 64 yaşlı qocada belə zəngin və məlahətli səs ola bilər. Lakin Qaryağdıoğlunun zil, həm də təravətli səsi xüsusilə uzun və sürəkli zəngulələri şairi vəcdə gətirmiş, heyran etmişdi... Qaryağdıoğlu muğamın son guşələrini vurub qavalı yerə qoydu. Salonu alqış səsləri titrətdi. Lakin şair ovsunlanmışdı. O, sakit oturub nəyinsə xəyalında idi. Heç özü də bilmirdi ki, Qaryağdıoğlunu necə mükafatlandırsın. Doğrudan da, çox maraqlıdır. Şair şairi necə mükafatlandıra bilər? Yalnız şeir ilə! Yesenin Cabbarın şərəfinə bədahətən şeir deyir. Onu "Şərq musiqisinin peyğəmbəri" adlandırır. Yesenin şeiri oxuyub qurtaranda Qaryağdıoğlu ayağa durdu. O, şairə yaxınlaşıb gülümsər halda, özü də ata məhəbbəti ilə dedi:

– Oğul, artıq qocalmışam. Düz 50 ildir ki, xalqımın qədim mahnılarını toplayıb oxuyuram. Dünyada ən çox səcdə etdiyim şair tayfasıdır. Çünki şair çoxlarına məlum olmayan həyat sirlərindən xəbər verir. Oxuduğun şeirin sözlərinin çoxunu anlamadım. Lakin məm inanıram ki, sən çox böyük şairsən. Mən də qoca bir sənətkar kimi, sənin fitri istedadına baş əyirəm... Qaryağdıoğlu gözləri yaşarmış halda bu sözləri deyib Yeseninə yaxınlaşdı və onu ata məhəbbətilə qucaqlayıb bağrına basdı. Yesenin isə təzəcə yazdığı şeirini ona verib bir daha dedi: Şərq musiqisinin peyğəmbərinə" [78, s.97-98].

Zemfira Yusifqızı Cabbar Qaryağdıoğlunun həyat və yaradıcılığından bəhs edən "Şərq musiqisinin peyğəmbəri" adlandırdığı monoqrafiyasında L.Polonskinin yuxarıda adını çəkdiyimiz məqaləsinə istinad edərək Yeseninin Cabbar Qaryağdıoğlu ilə görüşündən bəhs edir və bu görüşlə bağlı daha bir yeni fikir ortaya qoyur: "*Sergey Yesenin Cabbar Qaryağdıoğlunun Varşavada çıxan valının üstündə həmin sözləri yazmışdır: "Şərq musiqisinin peyğəmbəri Cabbar Qaryağdıoğlu*" [115, s.54]. Onu da qeyd edək ki, əlimizdə Yeseninlə Cabbar Qaryağdıoğlunun yeganə bir görüşü haqqında məlumat olmasına baxmayaraq, F.Şuşinski və Z.Yusifqızı, heç bir əsas

olmadan, Yeseninin dəfələrlə Cabbar Qaryağdıoğlu olan məclislərdə iştirak etdiyini, müxtəlif musiqi məclislərində, konsertlərdə onun oxumağını dinlədiyini yazırlar.

Beləliklə, biz burada Yeseninin Cabbar Qaryağdıoğlu ilə bu tarixi görüşü ilə bağlı bəzi məqamlara – görüşün yeri, tarixi, iştirakçıları, Yeseninin Cabbar Qaryağdıoğluna şeir həsr etməsi, onu "Şərq musiqisinin peyğəmbəri" adlandırması kimi məsələlərə aydınlıq gətirməyə, bu haqda konkret fikir yürütməyə çalışacağıq. Bu məqsədlə mənbələrdə yer almış bəzi məsələlərin təfərrüatlarına nəzər salaq. Q.Şipulina görüşün Cabbar Qaryağdıoğlunun evində [367, s.145], F.Şuşinski isə Əliheydər Qarayevin evində olduğunu yazır [78, s.97]. Yəqin ki, konkret fikir yürütməkdə müəlliflər hansısa məlumata əsaslanıblar, lakin əlimizdə bu fikirlərin nə lehinə, nə də əleyhinə yazılı bir fakt yoxdur. Bununla yanaşı qeyd edək ki, Firidun Şuşinski yuxarıda göstərilən kitabını yazanda Cabbar Qaryağdıoğlunun məşhur triosunun üzvü tarzən Qurban Pirimov hələ sağ idi. Sözsüz ki, həmin görüşdə Cabbar Qaryağdıoğlunu tarzən kimi məhz Qurban Pirimov müşaiyət etmişdir. Və təxmin etmək olar ki, müəllif bu görüş haqqında yazarkən Qurban Pirimovla söhbət etmiş, məsləhətləşmiş və bu epizod məhz onunla söhbətdən sonra ortaya çıxmışdır. Buna görə də hesab edirik ki, görüş yeri ilə bağlı Firidun Şuşinskinin versiyası daha məntiqli və təbiidir. Onu da qeyd edək ki, həmin görüş, Firidun Şuşinskinin yazdığı kimi, Yeseninin şərəfinə deyil, Moskvadan gəlmiş yüksək vəzifəli qonaq – SSRİ İnqilabi Hərbi Şurasının sədri M.V.Frunzenin şərəfinə təşkil olunmuş ziyafətdə baş tutmuşdur. Bu ziyafətə S.Yesenin də dəvət olunmuşdu. Cabbar Qaryağdıoğlu isə, o vaxtlar, demək olar ki, belə yüksək səviyyəli görüşlərin, ziyafətlərin daimi fəxri iştirakçısı idi. Fikrimizcə, Sergey Yeseninin Cabbar Qaryağdıoğlu ilə, haqqında bəhs etdiyimiz tarixi görüşü elə həmin ziyafətdə baş tutmuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi, bu görüş haqqında ilk dəfə A.K.Voronski məlumat vermişdir. Məsələ burasındadır ki, aprelin 13-də M.V.Frunze Moskvadan Bakıya gəlir və cəmi bir neçə saat Bakıda qaldıqdan sonra o, Tiflisə yola düşür. M.V.Frunze ayın 17-də yenidən Bakıya qayıdır və 2 gün burada olduqdan sonra ayın 19-da Bakını tərk edir. A.K.Voronski də həmin səfər zamanı bir jurnalist kimi M.V.Frunzeni müşaiyət edənlər arasında olmuşdur. A.K.Voronskinin həmin görüşün

iştirakçısı olduğunu nəzərə alsaq, görüşün 17-18 apreldə baş tutduğu aydın olur. Biz yuxarıda, 19 aprel günü, Pasxa bayramında Yeseninin xəstəxanada olması haqqında məlumat vermişdik. Əlbəttə, nəzəri olaraq mümkün olsa da, çətin ki, Yesenin məhz Pasxa bayramı günü xəstəxanaya yatmağa razılıq versin. Odur ki, daha məntiqi görünür ki, Yeseninlə Cabbar Qaryağdıoğlunun görüşü aprelin 17-də (M.V.Frunzenin Bakıya gəldiyi gün!) baş tutmuş, Yesenin də növbəti gün, yəni aprelin 18-də xəstəxanaya yatmışdır. Amma, bütün bunlarla yanaşı, əlbəttə ki, onun məhz 19 apreldə xəstəxanaya yatması ehtimalını da istisna etmək olmaz.

Bu görüş haqqında məlumat verən ilk üç mənbədə [140, s.135-136; 299; 300] konkret yazılmasa da, Firidun Şuşinski və sonradan Zemfira Yusifqızı həmin "mənbələrə əsaslanaraq" görüşdə V.İ.Boldovkinin də iştirak etdiyini yazırlar. F.Şuşinski, üstəlik, Yesenini Cabbar Qaryağdıoğlu ilə məhz V.İ.Boldovkinin tanış etdiyini yazır. L.Polonskinin məqaləsində, eləcə də onun V.Portnovla həmmüəllif olduğu yazıda V.İ.Boldovkinin o görüşdə iştirak etdiyi yazılmır, sadəcə, məqalə müəllifinin, bu fikirləri V.İ.Boldovkindən eşitdiyi qeyd edilir. Bu isə V.İ.Boldovkinin həmin görüşün iştirakçısı olduğunu iddia etməyə əsas vermir. Digər tərəfdən, V.İ.Boldovkin həmin görüşdə iştirak etmiş olsaydı, Yeseninlə bağlı xatirələrində [131] bu haqda mütləq yazardı. Və nəhayət, ən vacibi, onu da qeyd edək ki, həmin görüşün baş tutduğu vaxt V.İ.Boldovkin Bakıda yox idi. O, İrandan Bakıya bu görüşdən təxminən 1 ay sonra – mayın 22-də qayıtmışdı. Bu onu göstərir ki, V.İ.Boldovkin həmin görüşdə iştirak edə bilməzdi.

Bu görüşlə bağlı mütəxəssislər arasında birmənalı qarşılanmayan məqamlardan biri də Yeseninin həmin görüşdə Cabbar Qaryağdıoğlu haqqında "Şərq musiqisinin peyğəmbəri" ifadəsini işlədib-işlətməməsidir. Qeyd edək ki, bu ifadə haqqında mətbuatda ilk dəfə L.Polonski 1965-ci ildə yuxarıda adı çəkilən məqaləsində məlumat vermişdir. Məqalənin giriş hissəsində L.Polonski söylədiyi fikirləri V.İ.Boldovkindən eşitdiyini yazır. V.İ.Boldovkin isə o görüşdə iştirak etməsə də, Bakıda olduğu günlərdə, demək olar ki, həmişə Yeseninlə bir yerdə olurdu. Hətta mayin 22-də İrandan Bakıya gələndə o, 2-3 gün, gecə-gündüz Yeseninlə bir yerdə olmuş, ayın 25-də də Moskvaya birlikdə getmişdilər. Ona görə də V.İ.Boldovkin

Yeseninin başına gələn hadisələr və onun görüşləri haqqında kifayət qədər məlumatlı idi. Odur ki, L.Polonskinin V.İ.Boldovkinin dilindən eşidərək adı çəkilən məqaləsində yazdığı bütün fikirləri əminliklə qəbul edə bilərik.

Amma Zemfira Yusifqızının "Sergey Yesenin Cabbar Qaryağdıoğlunun *Varşavada çıxan valının üstündə* (fərqləndirmə bizimdir – İ.İ.) həmin sözləri yazmışdır: "Şərq musiqisinin peyğəmbəri Cabbar Qaryağdıoğlu" fikri hələ ki, konkret yazılı bir fakta söykənmir. Məsələ burasındadır ki, Cabbar Qaryağdıoğlunun adı çəkilən valı bu günümüzə qədər saxlanılmamışdır və heç bir digər yazılı mənbədə də bu fikir qeyd edilməmişdir. Odur ki, bu kifayət qədər maraqlı məsələyə bir qədər də dəqiqlik gətirmək üçün, Z. Yusifqızı ilə telefon əlaqəsi saxladıqdan sonra, Cabbar Qaryağdıoğlunun sonbeşiyi - qızı Şəhla Xanım Qaryağdı-Kürçaylı (Şəhla xanım Yesenindən sevə-sevə tərcümələr etmiş mərhum şairimiz Əliağa Kürçaylının həyat yoldaşıdır) ilə görüşmək qərarına gəldik. Təəssüf ki, onunla üzbəüz görüşüb söhbət etməyə səhhəti imkan vermədi, amma telefonda ətraflı danışdıq, Şəhla xanım bu haqda xeyli maraqlı məlumatlar verdi. Şəhla xanımın dediklərindən: "O val bizim ailəmizdə olub, mən də onu görmüşəm, sonralar o val Qurban Pirimovda olub. Mən o vaxtlar balaca idim və valın üzərindəki o yazının heç fərqinə də varmırdım. Təəssüf ki, indi tarixi əhəmiyyət kəsb edən o val hələ də naməlum qalır".

Zemfiara Yusifqızının "Şərq musiqisinin peyğəmbəri" kitabının redaktoru professor Sevda xanım İbrahimova da həmin valı gördüyünü söyləyir (Bunu mənə Zemfira xanım telefon danışığımızda dedi). Sevda xanım Qurban Pirimovun nəvəsidir və söhbət gedən valın da bir vaxtlar Qurban Primovda olduğunu nəzərə alsaq, onun həmin valı görməsi də çox təbii və inandırıcı görünür. Beləliklə, hazırda o tarixi val əlimizdə olmadığı üçün Şəhla xanımın və onun arxasınca da Sevda xanımın "Mən o valı öz gözümlə görmüşəm" fikrini əsas kimi qəbul etməliyik. Son dövrlərdə ölkəmizdə muğama diqqət və qayğının dövlət səviyyəsində yüksək vüsət aldığını nəzərə alsaq, söhbət gedən valın tapıla biləcəyi ehtimalı da qalır.

Bu görüşlə bağlı mübahisəli məqamlardan biri də, Yeseninin Cabbar Qaryağdıoğluna şeir həsr edib-etməməsidir. A.K.Voronskinin yuxarıda adı çəkilən məqaləsində Yeseninin Cabbar Qaryağdıoğluna şeir həsr etməsi haqqında heç bir

məlumat yoxdur. Lakin L.Polonski bu haqda yazır. Müəllif öz məqaləsində «Отговорила роща золотая» şeirindən bir beyt (не обгорят рябиновые кисти/От желтизны не пропадет трава...) və «Цветы» şeirindən bir bənd (Я только тот люблю цветок / Который врос корнями в землю / Его люблю я и приемлю / Как северный наш василек) sitat gətirməklə, Yeseninin həmin görüşdə o şeirləri oxuduğunu qeyd edir. Məqalə müəllifi yazısının sonunda Yeseninin C.Qaryağdıoğluna bədahətən şeir dediyini də yazır. Təəssüf ki, həmin şeir haqqında əlavə məlumat verilmir və Yeseninin məlum ekspromtları arasında da bu şeir haqqında məlumat yoxdur. Bir faktı da qeyd edək ki, L.Polonski, Yeseninin məşhur "Şərq musiqisinin peyğəmbəri" ifadəsini də məhz bədahətən şeir söyləyərkən işlətdiyini yazır: "*O* (Cabbar Qaryağdıoğlu-İ.İ.), *Yeseninə yaxınlaşdı və onu qucaqladı. Yesenin isə ona ekspromtla cavab verdi və aydınca eşidilən bir misra xanəndənin yaddaşına həkk olundu: "Şərq musiqisinin peyğəmbərinə...*" [299].

L.Polonskinin məqaləsində belə bir fikir olmasa da, F.Şuşinski və Z.Yusifqızı onun məqaləsinə "əsaslanaraq" Yeseninin həmin görüşdə Cabbar Qaryağdıoğlunun şərəfinə nəinki bədahətən şeir dediyini, üstəlik, "kağızda yazdığı şeiri" Cabbar Qaryağdıoğluna təqdim etdiyini də yazırlar. Yesenin yaradıcılığının daha sistemli, dərin araşdırıcısı Q. Şipulina isə bu məsələdə A.K.Voronskinin məlumatını əsas götürür və buna görə də Yeseninin Cabbar Qaryağdıoğluna bədahətən şeir deməsi haqqında heç nə yazmır. Bununla belə Q. Şipulina bu görüşlə bağlı maraqlı bir fikir yazır. O, Yeseninin bu görüşdən sonrarı günlərdə yazdığı «Песня» şeirində bir məqamın məhz həmin görüşün təsiri altında yazıldığını ehtimal edir: "*Mümkündür ki, məhz Cabbar Qaryağdıoğlunun ifasında qədim Azərbaycan mahnıları ilə tanışlıqdan sonra Yesenin növbəti gün yazmışdır: «С теми же улыбками, радостью и муками / Что певалось дедами, то поется внуками»*" [367, s.146]. Tədqiqatçının kifayət qədər məntiqli görünən bu fikrinə biz də qatılırıq.

Bu görüşlə bağlı bir məsələni də qeyd etmək istəyirik. Bu görüş haqqında tədqiqatçılar arasında fikir ayrılığına səbəb olan əsas bir məqam var. Bu, A.K.Voronskinin məqaləsində Yeseninin Cabbar Qaryağdıoğlunu "Şərq musiqisinin peyğəmbəri" adlandırması və ona şeir həsr etməsi və ya ekspromt şeir deməsi

haqqında fikirlərin olmamasıdır. Məhz Yeseninlə Cabbar Qaryağdıoğlunun görüşü haqqında ilkin məlumatın verildiyi bu məqalədə deyilənlər haqqında məlumatların olmaması bir sıra tədqiqatçıları bu görüşün adı çəkilən detalları ilə bağlı bir qədər ehtiyatlı fikir yürütməyə sövq edir. Bəs, doğrudan da, bu vacib məqamların həmin məqalədə yer almamasını necə izah etmək olar? Fikrimizcə səbəb sadə və aydındır. Məsələ burasındadır ki, həmin məqalədə tədqiqat obyekti Cabbar Qaryağdıoğlu deyil, Yesenindir. Məhz buna görə də məqalə müəllifi, təbii olaraq, öz yazısında Yeseninin Cabbar Qaryağdıoğlu haqqında fikirlərini önə çəkməmiş, yalnız Cabbar Qaryağdıoğlunun Yeseninə dediklərini yazmışdır. L.Polonskinin məqaləsində isə tədqiqat obyekti hər iki şəxsiyyət olduğundan görüş daha ətraflı, hər iki müstəvidə təsvir edilmişdir. Odur ki, L.Polonskinin məqaləsinə əsaslanaraq Yeseninin Cabbar Qaryağdıoğlu ilə tarixi görüşü zamanı şairin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmasını və ona şeir həsr etməsini (bədahətən şeir deməsini) fakt kimi qəbul edə bilərik. Beləliklə, Yeseninlə Cabbar Qaryağdıoğlunun görüşü haqqında yuxarıda deyilənləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Yeseninlə C.Qaryağdıoğlunun görüşü Ə.Qarayevin evində baş tutmuşdur.
2. Görüş aprelin 17-si və ya 18-də (çox gümün ki, ayın 17-də) baş tutmuşdur.
3. V.Boldovkin həmin görüşdə iştirak etməmişdir.
4. Bu görüş Yeseninin yaradıcılığında öz izini qoymuşdur.
5. Həmin görüşdə Yesenin C.Qaryağdıoğlunun şərəfinə bədahətən şeir demiş və onu «Şərq musiqisinin peyğəmbəri» adlandırmışdır.

"*Beləliklə, bu gecədən sonra rus şairi Yesenin və Azərbaycan xanəndəsi Cabbar Qaryağdıoğlu bir-birini yaxından tanıdılar. Sergey Yesenin ilk şəxs idi ki, Cabbar Qaryağdıoğlunun sənətinin Azərbaycandan daha geniş miqyasda, bütün Şərq aləmi üçün əhəmiyyətini bildirdi. Onu "Şərq musiqisinin peyğəmbəri" adlandırdı*" [115, s.54]. Bu, Yeseninin böyük muğam ustasına, muğama, ümumilikdə Azərbaycan musiqi mədəniyyətinə verdiyi böyük qiymət idi. Məhz bunu nəzərə alaraq, böyük şairin adı 2008-ci ildə Azərbaycanda nəşr olumuş Muğam Ensiklopediyasına daxil edilmişdir [65, s.202].

Bununla belə, biz Yeseninin Cabbar Qaryağdıoğlu ilə görüşünə dair məsələyə nöqtə qoymaq fikrində deyilik. Tanınmış rus yeseninşünas S.Koşeçkinin "Cabbar Qaryağdının nəğmələri (Şairin Qafqaz görüşlərindən)" - «Песни Джаббара Карягды (Из кавказских встреч поэта)» adlı bir yazısı var [238]. Bu yazıda müəllif Yeseninin Cabbar Qaryağdıoğlu ilə başqa bir görüşündən bəhs edir. Konkret göstərilməsə də, məqalənin məzmunundan bu görüşün 1924-cü il sentyabr ayının 23-də baş verdiyi məlum olur. Müəllif Cabbar Qaryağdıoğlunun kiçik qızı Şəhla xanımla bir görüşünü təsvir edir, onun dilindən Yeseninin Cabbar Qaryağdıoğlu ilə görüşü barədə xatirələrini qələmə alır.

Biz Şəhla xanımla onun səhhətində olan problemlər ucbatından görüşə bilməsək də, oğlu Ülfət bəylə söhbətdən məlum oldu ki, doğrudan da Sergey Koşeçkin onların evində bir neçə dəfə olmuş və Şəhla xanımla Cabbar Qaryağdıoğlunun Yeseninlə görüşü barədə söhbət etmişlər. Ülfət bəy, öz növbəsində, Moskvada S.Koşeçkinin evində qonaq olmuş, onlar arasında ailəvi ünsiyyət yaranmışdır. Buna baxmayaraq, bu məqalədə bu iki böyük şəxsiyyətin görüşü ilə bağlı çoxsaylı yanlışlıqların yer almasını anlamaq çətindir. Bu görüşlə bağlı S.Koşeçkinin məqaləsində oxuyuruq: "*Cabbar Qaryağdının kiçik qızı Şəhla danışır ki, atam üçün bu çox böyük bir bayram idi. Biz onunla Sergey Yesenin onların evində olduğu vaxtdan yarım əsr sonra söhbət edirik. O vaxt onun yeddi yaşı vardı. O, şairi yadında saxlamışdırmı? Çox yaxşı yadında saxlamışdı.*

- Bizdə tez-tez qonaqlar olardı: atam olduqca ünsiyyətcil, dost məclislərini sevən insan idi, - Şəhla xatırlayır. – Mən oxumuşdum ki, Yesenini ilk dəfə görənlərin çoxunun gözünə ilk olaraq onun qızılı saçları dəyirdi. Mənim kimi kiçicik bir qızcığazı isə o vaxt hər şeydən əvvəl onun uşaq kimi sadəlövh, bir az dəcəl təbəssümü cəlb etmişdi.

Şəhla Yeseninin kitabını açır, onun portretinə baxır və davam edir:

- Mənə o bu şəkildəkindən gənc görünmüşdü. Yadımdadır: o mənə tərəf əyildi, bir neçə nəvazişli söz dedi. Sonra qarşımda çömələrək diqqətlə gözümün içinə baxdı. Bəlkə də, mən indi belə düşünürəm, onun yadına öz qızı düşmüşdü? Yəqin ki, bu belə idi: axı o onu çox sevir, ondan ötrü darıxırdı. Elə o andaca anam məni bacımla

birlikdə o biri otağa apardı" [238, s.188]. Qeyd edək ki, Cabbar Qaryağdıoğlunun kiçik qızı Şəhla xanım Yeseninin ölümündən üç il sonra, 1928-ci ildə doğulmuşdur. Məqalə müəllifi isə "7 yaşlı Şəhlanın Yeseninlə görüşü"ndən danışır. Yuxarıda gətirdiyimiz sitatdan başqa bir məqama da nəzər yetirək: "*Biz onunla Sergey Yesenin onların evində olduğu vaxtdan yarım əsr sonra söhbət edirdik*". Buradan aydın olur ki, müəllif Şəhla xanımla, 70-ci illərin ortalarında, onun 46-47 yaşı olanda görüşmüşdür. S.Koşeçkin daha sonra yazır: "*Mən Şəhlaya baxıram və onu Sergey Yeseninin gözlərnə baxdığı yeddi yaşlı qız kimi təsəvvür etmək istəyirəm. Lakin bu mümkün deyil. İllər öz işini görmüşdür: bir vaxtlar təravətlə nəfəs alan sifəti qırışlar basmış, saçları ağarmış, vaxtilə qızılı qığılcımlar saçan canlı gözlər saralıb-solmuşdur*" [238, s.189]. Göründüyü kimi, bu, 46-47 yaşlı bir qadının yox, təxminən 70-80 yaşlı qarının təsviridir. Bütün söylədiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, S.Koşeçkinin, Yeseninin Cabbar Qaryağdıoğlu ilə başqa bir görüşündən bəhs edən "Cabbar Qaryağdının nəğmələri (Şairin Qafqaz görüşlərindən)" adlı məqaləsi həqiqətdən daha çox müəllifin fantaziyasına söykənmişdir. Bu tipli quramalar nəinki S.Yeseninin Bakı həyatını zənginləşdirir, əksinə tarixi fakt, görüş və hadisələri əfsanəyə çevirə bilər. Belə görüşlər haqqında yazarkən, S.Yesenin və C.Qaryağdıoğlu kimi böyük sənətkarların təmas və əlaqələrindən danışarkən, son dərəcə həssas, diqqətli və ehtiyatlı olmalı, şübhələrə yol açа biəcək, əsassız fikirlər söylənilməməlidir.

S.Yeseninin Bakı görüşləri ilə bağlı mübahisəli məqamlardan biri də onun, hələ tam təsdiqini tapmamış, amma insanlar arasında, əsasən, fakt kimi qəbul edilən, məşhur Azərbaycan şairi Əliağa Vahidlə görüşü ilə əlaqədardır. Əlimizdə bu haqda heç bir yazılı fakt olmadığı halda, bir sıra müəlliflər, Yeseninin, Bakıda olduğu dövrdə Əliağa Vahidlə görüşməsindən yazırlar [120; 264; 270]. Bir şey maraqlıdır ki, Yeseninlə Əliağa Vahidin görüşü haqqında yazan müəlliflərin hamısı öz mülahizə və fikirlərini Hüseyn Nəcəfovun sənədli-bədii "Balaxanı mayı" povestinə əsaslanaraq söyləyirlər. Adı çəkilən povestdə Yesenin və Vahid 23 sentyabr 1924-cü ildə tanış olduqdan 2 gün sonra, yəni 25 sentyabrda birlikdə Mərdəkan yaxınlığındakı Şağan kəndinə, "Füzuli" poetik məclisində istirak etməyə gedirlər. Hüseyn Nəcəfovun bədii fantaziyasına söykənən bu povestdə biz həm bir sıra yerlərlə, adlarla, həm də

hadisələrlə tanış oluruq. Burada Kubinka, Türküstan, Şərq yeməkxanası, Şağan, Şiraz, Yetim Gürcü, Hacı Hüseyn, Novruz, Məmmədəli, Hafiz, Xəyyam, Füzuli, tar, muğam, kamança, xanəndə, bayatı, qəzəl, dolma, qutab, urus, Abşeron və bu kimi çoxlu etnik-milli koloritli ifadələrlə rastlaşırıq. Sənətkarlıq baxımından kifayət qədər ustalıqla işlənmiş bu povestdə Əliağa Vahidlə Yeseninin bir stol arxasında yeyib-içməsi, şeir, şair, poeziya haqqında söhbətləri, məclisdə iştirak edənlərin qonağa münasibəti və bir sıra digər hadisələr, səhnələr kifayət qədər maraqlı, inandırıcı və dolğun şəkildə təsvir olunur [276, s.102-105, s.137-142]. Amma istənilən halda, Yeseninin Bakı görüşlərinin bir sıra məqamlarını əks etdirsə də, Yeseninlə Əliağa Vahidin görüşü haqqında yazan tədqiqatçılar bu əsərin konkret tarixi-faktlara söykənmiş bir əsər deyil, bədii-sənədli əsər olduğunu nəzərə almalıydılar. Povestdə yer almış görüşlərin tarixi sənəd və materiallarda faktik təsdiqini axtarsaq da, təəssüf ki, heç bir belə sənədə rast gələ bilmədik. Bundan başqa iki şairin "Füzuli" məclisində görüşünü təsvir edən rəssam R.Mehdiyev də, "Əliağa Vahid və Yesenin" tablolarını yaradarkən, sözsüz ki, bu sənədli-bədii informasiyadan istifadə etmişdir. Yeri gəlmişkən, R.Mehdiyevin bu əsərləri, Yeseninə həsr edilmiş digər çoxsaylı əsərlərlə yanaşı, S.Yeseninin Mərdəkandakı Memorial-Ev-Muzeyində saxlanılmaqdadır.

Xalq arasında da Yeseninin Ə.Vahidlə görüşləri haqqında rəvayətlər söylənilir. Nizami adına Milli Ədəbiyyat Muzeyinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Kəmalə Zeynalovanın verdiyi məlumata görə, hətta Yesenin dostu P.Çaqinin vasitəsilə Ə.Vahidə mənzil verilməsinə də nail olub. Tanınmış şair-qəzəlxan Həkim Qəni də Yeseninin Ə.Vahidlə görüşləri haqqında həvəslə danışarmış. Təəssüf ki, 2008-ci ildə dünyasını dəyişmiş Həkim Qəninin bu söhbətlərini qələmə alan olmamışdır. Bütün bu deyilənlər nə qədər inandırıcı səslənsə də, nə arxiv materiallarında, nə onların müasirlərinin hər-hansı xatirə və memuarlarda, nə S.Yeseninin özünün yaradıcılığında, nə də Ə.Vahidin yaradıcılığında bu iki böyük şairin görüşünə həsr olunmuş və ya həmin görüşə işarə olunmuş bir ifadə, bir misra, bir şeir, və digər nümunələrə rast gələ bilmədik. Amma onu da qeyd edək ki, Yeseninlə Ə.Vahidin görüşməsi haqqında fikirlərin, versiyaların, elə-belə, göydən götürülməsi də məntiqə uyğun gəlmir. Bir xalq məsəlində deyildiyi kimi, "Od olmayan yerdən tüstü çıxmaz". Bunun

bir fakt kimi qəbul edilməsinə mane olan isə bu görüş haqqında heç bir tarixi sənədin, heç bir yazılı faktın olmamasıdır. Əlbəttə, hər-hansı bir görüş haqqında yazılı faktların olmaması hələ bu görüşün ümumiyyətlə olmamasını iddia etməyə əsas vermir. Mümkündür ki, bu iki böyük şairin bəhs edilən görüşü doğrudan da baş tutmuşdur. Onların xarakterində, təbiətində olan oxşarlıqlar, həyat tərzləri, yeyib-içmə məclislərinə aludəlikləri, Yeseninin uzun müddət Mərdəkanda yaşaması, Şərq poeziyasına vurğunluğu, müasirlərinin xatirələrində qeyd edildiyi kimi, Mərdəkanda yaşayarkən asudə vaxtının bir hissəsini çayxanalarda keçirməsi və bir sıra digər məsələlər belə bir görüşün baş tuta bilməsi ehtimalını xeyli artırır. Amma, bununla yanaşı, belə bir görüşün olmasını iddia etmək üçün əlimizdə kifayət qədər əsaslı fakt olmalıdır. Hər halda, Yeseninlə Ə.Vahidin görüşü haqqında yazan bütün müəlliflərin əsaslandığı, Hüseyn Nəcəfovun sənədli-bədii "Balaxanı mayı" povesti, bu görüşü fakt kimi qəbul etmək üçün, əsas vermir. Bu məsələ və ümumiyyətlə, Yeseninin Bakı görüşlərinin təfsilatları yenə də Azərbaycan yeseninşünaslarının, Yesenin tədqiqatçılarının boynuna düşür. Biz isə, imkanımız daxilində, Yeseninin Bakı görüşləri ilə bağlı ən xırda məqamların belə, obyektiv, tarixi fakt və reallıqlara söykənərək, ümumi mənzərəsini yaratmağa çalışdıq.

II FƏSİL. SERGEY YESENİN YARADICILIĞINDA ŞƏRQ MÖVZUSU

2.1. “İran nəğmələri” silsiləsi və onun yazılma tarixçəsi

Serqey Yeseninin yaradıcılığının ən zəngin və maraqlı səhifələrindən birini onun Qafqazda, o cümlədən, 1924-cü ilin sentyabrından 1925-ci ilin sentyabrına qədər, fasilələrlə, 3 dəfə Azərbaycanda olduğu dövrdə yaratdığı “İran nəğmələri” silsiləsi təşkil edir.

Yesenin tədqiqatçılarının fikrincə şairin Şərq poeziyasına, Şərq mədəniyyətinə və incəsənətinə marağı heç də təsadüfi hesab edilməməlidir. Çünki müdrik Şərq poeziyası, dünya poeziyasında Şərq mövzusu həmişə diqqət mərkəzində olmuş, nəinki rus sənətkarlarını, həm də Qərb şairlərini və tədqiqatçılarını özünə cəlb etmiş, müxtəlif dövrlərdə müxtəlif xalqların sənət adamları bu mövzuda maraqlı əsərlər yaratmışlar. A.Puşkinin “Qurana nəzirə”si (1825) və digər əsərləri, M.Lermontovun “Aşıq Qərib”i (1837) və s., A.Mitskeviçin “Krım sonetləri” (1825), İ.Hötenin “Qərb-Şərq divanı” (1819), C.Bayronun “Korsar”ı (1814), V.Hüqonun “Şərq motivləri” (1828) və bir sıra digər nümunələr bu qəbildəndir. Ümumiyyətlə, Şərq poeziyasının XIX əsr rus və Avropa sənətkarlarının yaradıcılığındakı, Avropa oxucusunun dünyagörüşünün formalaşmasındakı, avropalının, Puşkinin sözlərilə desək, özünün «Avropa zövqünü və baxışını» qoruyub saxlaya bilməsində rolu böyükdür. XX əsrdə də Şərq poeziyası rus şairlərinin diqqət mərkəzində olmuşdur. V.Bryusov, V.İvanov, V.Kuzmin və s. kimi şairlər, öz yaradıcılıqlarında Şərq mövzusuna müraciət etmişlər. Digər tərəfdən də müxtəlif vaxtlarda müxtəlif rus və Avropa şairləri, tanınmış qələm sahibləri Şərq poeziyasından (orijinaldan və ya ikinci dildən) öz dillərinə çoxsaylı tərcümələr etmişlər. Bütün bunlar bir daha müxtəlif xalqların sənət adamlarının müxtəlif zamanlarada Şərq poeziayasından, Şərq poetik məktəbindən qidalanmasının bariz göstəricisidir ki, bunun da ən parlaq nümunələrindən biri də XX əsrin ən lirik şairlərindən hesab edilən Sergey Yeseninin “İran nəğmələri” silsiləsidir.

Yesenin Şərq poeziyası ilə, onun nəhəng nümayəndələri – Firdovsi, Xəyyam, Hafiz, Sədi və digərilərinin yaradıcılığı ilə tanış idi. Adını çəkdiyimiz və çəkmədiyimiz bir sıra şairlərin yaradıcılığı həmin dövrə qədər, qismən də olsa, rus dilinə tərcümə edilmişdi. Belə ki, Xəyyamın rübailəri bir neçə dəfə rus dilinə tərcümə olunub. Şairin 1894-də ilk dəfə rus dilində işıq üzü görən rübailəri, sonralar da bir neçə dəfə (1901, 1911, 1922) daha geniş şəkildə rus oxucularının diqqətinə çatdırılıb. 1882-1922-ci illərdə Sədinin "Gülüstan"ı, 1905-1915-ci illərdə Firdovsinin "Şahnamə"si rus dilində işıq üzü görmüşdü. Bundan bir qədər əvvəl, XIX əsrin 60-cı illərində Hafiz və Sədi poeziyasından nümunələr A.A.Fetin tərcüməsində rus oxucusuna çatdırılmışdı. 1916-cı ildə "Персидские лирики" adlı kitabda səkkiz Şərq şairi, o cümlədən Ömər Xəyyam, Xaqani, Sədi, Cəlaləddin Rumi və Hafiz kimi ustad Şərq liriklərinin yaradıcılığından nümumələr (bəziləri kifayət qədər geniş, bəziləri çox qısaca) rus dilində təqdim edilmişdi [292].

Yesenin də bu əsərlərlə və bu kitabla tanış idi. N.K.Verjbitskinin Yeseninlə bağlı xatirələrində oxuyuruq: "*…Akademik Korşun tərcüməsində "Персидские лирики" kitabı əlimə düşdü. Mən onu oxumaq üçün evə götürdüm. Sonra kitab Yesenin əlinə keçdi. O, artıq kitabdan ayrılmaq istəmirdi. Bu şeirlərdə nələrsə, şairi dərindən heyrətləndirirdi. O, otaqda gəzişir və Ömər Xəyyamı ifadəli şəkildə oxuyur, deklamasiya deyirdi*" [136, s. 221; 137, s.51].

M.D.Royzman da Yeseninin yuxarıda adını çəkdiyimiz kitabla yaxından tanış olduğunu, bu kitabın hər zaman, o cümlədən Yeseninin Qafqazda olduğu dövrdə onun əlinin altında olduğunu, kitabı, demək olar ki, əzbərdən bildiyini, ümumiyyətlə, Şərq mövzusuna müraciət etməzdən, "İran nəğmələri" silsiləsini yazmazdan xeyli əvvəl və o illərdə şairin Şərqlə, Şərq poeziyası ilə dərindən maraqlandığını, Şərq həyatını yaxşı bilən insanlarla, Şərqin bilicilərilə söhbətlər etdiyini, yuxarıda adı çəkilən kitabda olan və digər Şərq şairlərinin əsərlərini ərəb, fars dillərindən tərcümədə oxuduğunu yazır. O, həmçinin qeyd edir ki, Yesenin, ümumiyyətlə nə haqda yazırdısa o haqda çox oxuyur və mövzunu dərindən öyrənirdi [305, s.74-75]. Burada bir maraqlı məqamı da qeyd edək ki, V.Devitt 1975-ci ildə dərc edilmiş "İran nəğmələri üzərində düşünərkən" adlı məqaləsində [156, s.107] yazır ki, Yeseninin

“Puqaçov” poeması da daxil olmaqla, hələ 1918-1921-ci illərdə yazdığı bir sıra şeirlərində onun Şərqin həm klassik, həm də şifahi xalq poeziyası ilə tanış olduğu aydın hiss edilirdi. Yesenini Şərqə çəkən, Şərq poeziyasını ona sevdirən məqamlardan söhbət açan Ə.Xəlilov da, bir sıra mənbələrlə yanaşı, A.Y.Krımskinin 1903-cü ildə Moskvada buraxılmış “İran tarixi və ədəbiyyatı” kitabına diqqət yetirir, Yeseninin Şərq şairlərinin yaradıcılığı ilə həm də bu kitab vasitəsilə tanış olduğunu yazır, “İran nəğmələrinin” yaranmasında Firdovsinin, Xəyyamın, Sədinin, Nizaminin, Hafizin, Caminin, Ruminin və başqa nəhəng Şərq ustadlarının poeziyasının təsirini qeyd edir [26, s.41-63].

Bu məsələlərlə bağlı bir məqama da nəzər yetirmək lazımdır. Belə ki, bu illərdə, şair bədbin “Kabak Moskvası” dövründən uzaqlaşdıqca, “qəlbinin yaralarını sağaltmaq üçün” sanki bir könül rahatlığı axtarır, sərbəst yaradıcılıq üçün xüsusi meydan arayırdı. Şair bu axtardığını Şərqdə - Azərbaycanda tapmışdı. Bu fikrimiz Y.Qurviçin (“R.B.” imzası ilə - “Raboçiy bolşevik”) “Бакинский рабочий” qəzetinin 10 aprel sayında dərc edilmiş bir yazısında öz təsdiqini tapır. Müəllif yazır: “*Sonuncu olaraq Yesenin öz şeirlərini oxudu... Onu, demək olar ki, nəfəsimizi dərmədən dinləyirdik. Hiss olunurdu ki, şair ürəkdən, bütün qəlbi ilə oxuyurdu. Yesenin nə oxudu? Auditoriyanın xahişinə baxmayaraq, “Kabak Moskvası”nı oxumaq istəmədi. O, dedi: “Mən artıq o dövrdən uzaqlaşmışam”. Əvəzində o, böyük şövqlə özünün lirik nəğmələrini oxudu...*” [304]. Yeseninin, auditoriyanın xahişinə baxmayaraq, “Kabak Moskvası”nı oxumaq istəməməsində onun keçmiş səfil həyatına son vermə arzusu özünü göstərir. Təsadüfi deyil ki, şair, əsasən, Bakıda yazdığı məşhur “İran nəğmələr” silsiləsini məhz aşağıdakı misralarla başlamışdı: «Улеглась моя былая рана / Пьяный бред не гложет сердце мне». Həmin “İran nəğmələr”nin “Bosforda heç zaman olmamışam mən” şeirində “Mən bura darıxdığım üçün gəlməmişəm, mən çoxdan taleyimdə rahatlıq axtarıram” («Я сюда приехал не от скуки / Я давно ищу в судьбе покоя») deyən, “çox ölkələr gəzən, hər yerdə xoşbəxtlik arayan” şair, silsilənin sonuna yaxın, “Dəli könül, gəl çırpınma bu qədər” şeirində “bundan sonra arzuladığı taleyi bir daha axtarmayacağını” qətiyyətlə yazır: «Многие видел я страны / Счастья искал повсюду / только удел желанный / Больше искать не

буду». Yuxarıda qeyd etdiyimiz kimi, Yesenin arzuladığı taleyi, yaradıcılıq üçün çox vacib olan könül rahatlığını məhz Bakıda tapmışdı və bu misralar Yeseninin Bakı həyatının onun ümumi həyat və yaradıcılığında tutduğu yeri və rolu bariz şəkildə nümayiş etdirir.

Silsilənin "İran nəğmələri" adlanmasına baxmayaraq şair heç vaxt İranda olmamışdır və bu şeirlər onun, Qafqaz, xüsusən də Bakı təəssüratları əsasında yazılmış, əsasən də burada – Bakıda nəşr edilmişdir və bu mənada bu şeirlər həm də "Azərbaycan nəğmələri"dir. Ə.Xəlilov coğrafiyanı bir qədər də konkretləşdirir, "Şirazda yaratmaq istədiklərini o, Mərdəkanda həyata keçirdi" deyir və "İran nəğmələri"ni "Mərdəkan nəğmələri" adlandırır [23, s.75-76].

"İran nəğmələri" silsiləsinin meydana gəlməsində, şairin bütün varlığı ilə İrana – "sirli poeziya adasına" (Zinin S.İ.) can atmasında, Şərqə xüsusi rəğbət və sevgisinin onun yaradıcılığına öz uğur möhürünü vurmasında, bütün yuxarıda deyilənlərlə yanaşı, Yeseninin hələ 1921-ci ilin mayında Türküstanda – Daşkənddə, Səmərqənddə olduğu dövrdə, ilk dəfə Şərq həyatı, Şərq memarlıq sənəti, Şərq ənənələri, Şərq mədəniyyəti ilə yaxından tanış olmasının rolunu da qeyd etməmək olmaz. Bu haqda fikirlər P.İ.Tartakovski [325; 326] və digərilərinin məqalə və monoqrafiyalarında yer almış, sübuta yetirilmişdir.

Yeseninin, təxminən, Türküstanda olduğu dövrdə, 1921-ci ildə şairin yaxın dostu, müəyyən müddət Bakıda yaşayıb-yaratmış V.Xlebnikov bir neçə ay İranda olmuşdu. Sözsüz ki, o da Yeseninə İran haqqında, Şərq həyatının gözəllikləri, Şərq ənənələri, Şərq mədəniyyəti ilə bağlı danışmışdı və mümkündü ki, Yeseninin İran sevgisinə onun da fikirləri müəyyən dərəcədə təsir etmişdir.

Amma bütün bunlarla yanaşı, Yeseninin İran sevgisinin alışıb-yanmasında və deməli, "İran nəğmələri" silsiləsinin yaranmasında, heç şübhəsiz, P.İ.Çaqinin kiçik qardaşı V.İ.Boldovkinin də rolu böyük olmuşdur. Biz bu haqda tədqiqatımızın birinci fəslində xeyli danışmışıq. Burada isə yalnız onu qeyd etməklə kifayətlənək ki, bir tərəfdən, Yeseninin özünün Şərq poeziyasına məhəbbəti, digər tərəfdən də Bakıda birlikdə keçirdikləri günlərdə V.İ.Boldovkinin ona İran haqqında danışdığı müxtəlif əfsanələr, onun Şərq bazarları, çadralı qadınlar, çayxanalar və s. haqda şirin

söhbətləri şairin İran arzularını alovlandırır, onu bir an belə rahat buraxmırdı: "*Gecə yarı olmuşdu, Serqey isə məni sual atəşinə tutmuşdu. Biz yatmağa gedəndə artıq işıqlaşırdı. Mən ayılanda Serqey geyinib-gecinib masa arxasında oturmuşdu. Səhər yeməyində o, bizə «Улеглась моя былая рана...» şeirini* ("İran nəğmələri" silsiləsinə daxil olan ilk şeir – İ.İ.) *oxudu və dedi: "Bilirsən, Vasya, mən Şərq haqqında, İran haqqında tam bir şeirlər silsiləsi yazmaq istəyirəm. Köhnə, qədim İran, yeni İran haqqında necə varsa elə! Mən vəzifəli yoldaşlarla danışmışam, bəlkə, elə sənlə birlikdə getdik". Hər gün onun qələmindən bir neçə şeir süzülürdü. Bax, məşhur "İran nəğmələri" belə yarandı*" [131, s.85, s.86].

Beləliklə, Sergey Yesenin "*Qafqazda, məhz Azərbaycanda olarkən (əsasən 1924-1925-ci illərdə) Şərqə öz lirik hədiyyəsini vermək qərarına gəlmişdi. Firdovsi, Xəyyam, Sədi, Hafiz və başqa bu kimi dahi şairlərin vətəni Yesenini çoxdan özünə çəkirdi. Onu şeirlərdəki incə naxışlar və obrazların rəngarəngliyi, sözün nəcib sehrli səsi cəlb edirdi*" [266, s.51].

Yesenin lirikasının mərkəzində yer alan, şairin sevgi himni hesab edilə biləcək "İran nəğmələri" silsiləsinə 15 şeir daxildir. Əvvəlcə Yeseninin buraya 20 şeir daxil etmək planı olsa da [198, s.193], bu reallaşmamışdır. Bakıda son dəfə olduğu zaman (28 iyul - 3 sentyabr 1925-ci il) Yesenin silsilə üzərində yenidən işləmiş, onu tamamlamış və şeirlərin sıralanmasını müəyyənləşdirmişdir. Ümumiyyətlə, Yesenin "İran nəğmələri"ndə şeirlərin sıralanmasına xüsusi fikir verirdi. Onun hələ sağlığında çapa hazırladığı üçcildlik "Şeirlər külliyatı" (bu kitab şairin ölümündən sonra, 1926-1927-ci illərdə işıq üzü gördü) üçün hazırladığı "İran nəğmələri" silsiləsində şeirlər aşağıdakı ardıcıllıqla verilmişdi: «Улеглась моя былая рана…» [188], «Я спросил сегодня у менялы…» [188], «Шаганэ, ты моя Шаганэ…» [191], «Ты сказала, что Саади**…»** [191]**,** «Никогда я не был на Босфоре» [174], «Свет вечерний шафранного края…» [174], «Воздух прозрачный и синий…» [165], «Золото холодное луны…» [165], «В Хороссане есть такие двери…» [163], «Голубая родина Фирдуси…» [163], «Быть поэтом – это значит то же» [162], «Руки милой – пора лебедей…» [180], «Отчего луна так светит тускло…» [175], «Глупое сердце, не бейся…» [162], «Голубая да веселая страна…» [180].

Göründüyü kimi, şeirlərin sıralanmasında xüsusi bir meyar (yazılma tarixi, ilk dəfə dərc edilmə tarixi, ilk dəfə dərc edildiyi yer, əlifba sırası və s.) yoxdur. Əlbəttə, bu ardıcıllıqda xüsusi bir prinsip nəzərə çarpmasa da, belə yanaşma müəllifin öz fərdi prinsipinə əsaslanır. Yesenin Q.A.Benislavskayaya göndərdiyi 11 may 1925-ci il tarixli məktubunda yazır: "*Bu iki yeni İran şeirini* («Воздух прозрачный и синий...»; «Золото холодное луны...» – İ. İ.) *sizə evdə verdiyim iki sonuncu şeirdən əvvələ yerləşdirin – «Пери» və «Голубая родина Фирдуси...» - dən əvvələ*" [198, s.214]. Elə bununla da, Yesenin sıralamadakı tək meyarı (ilk dəfə dərc edilmə tarixi) özü pozmuşdur. Daha sonra son iki şeirdə də bu meyar pozulmuşdur. Beləliklə, "İran nəğmələri" şeirlərinin düzülüşündə yeganə bir meyar var – Yeseninin öz istəyi! Yeri gəlmişkən qeyd edək ki, Yesenin yalnız "İran nəğmələri"ndə deyil, ümumilikdə onun sağlığında buraxılmış kitabların hamısında şeirlərin düzülüşünə xüsusi fikir verirdi: "*Yeseninin tərtib etdiyi hər bir kitab – bu, sadəcə olaraq, müəyyən bir dövrdə yazılmış şeirlər toplusu deyil, özünəməxsus bir şəkildə və hər dəfə xüsusi, yeni qayda ilə hazırlanmış bir kitabdır. Yesenin yalnız öz yaradıcılığında deyil, kitablarının tərtibində də əsl şair idi. Şeirlərin çox diqqətlə düşünülmüş, onların daxili, emosional zəncirvari reaksiyasına uyğun düzülüşü Yeseninin kitablarını orijinal poetik bir gündəliyə çevirir, onları vahid, bitkin bir əsər halına salırdı*" [201, s.394].

1925-ci ilin may-iyun aylarında Moskvada Yeseninin "İran nəğmələri" kitabı çapdan çıxır [194]. Hələ kitab nəşr olunana qədər – 1924-cü ilin dekabr ayının 21-də Yesenin Batumdan Çaqinə yazmışdı: "*İran haqqında şeirləri mən çoxdan sənə həsr etmişəm. Amma kitab çıxana qədər mən ya heç nə qeyd etməyəcəm, ya da yalnız "P.Ç." yazacam. Bütün bunlar tam halda kitabda olacaq. O, ayrıca çıxacaq*" [198, s.195-196]. Şair həqiqətən də sözünə əməl etdi, kitab çıxdı və "sevgi və dostluq nişanəsi" olaraq P.İ.Çaqinə həsr edildi. Bu kitaba 10 şeirdən ibarət "İran nəğmələri"ndən başqa, 1 poema («Мой путь») və 4 şeir («Отговорила роща золотая...», «Сукин сын», «Этой грусти теперь не рассыпать...», «Низкий дом с голубыми ставнями...») də daxil edilmişdi. Həmin kitabda silsiləyə daxil olan şeirlərin ardıcıllığı bir qədər fərqli idi – yuxarıdakı sıralanmadakı 9-cu və 10-cu şeirlərin yeri dəyişdirilmişdi. Bu kitab Yeseninin sağlığında buraxılmış son kitab oldu.

Ümumiyyətlə, Yeseninin sağlığında, təkrar nəşrlər də nəzərə alınmaqla, 32 kitabı nəşr olunmuşdur. İlk kitab – "Radunitsa" (1916), son kitab – "İran nəğmələri" (1925). Bunlardan əlavə, şairin sağlığında müxtəlif mənbələrdə daha 61 kitabın çapa hazırlanması haqqında məlumatlara rast gəlinsə də [200, s.72-101]. naməlum səbəblərdən onlar çap olunmamış qalmışdır. Maraqlıdır ki, həmin kitablardan biri "Ryazan və İran" adlanırdı. O da maraqlıdır ki, bu məlumat Yeseninin özü tərəfindən, «Голубая родина Фирдуси...» şeirinin yazı makinasında yığılmış mətninin sonunda qeyd olunmuşdur. Bu, həmin kitabın "İran nəğmələri" ilə birbaşa əlaqəli olmasına ciddi işarədir. Lakin bu kitabın məzmunu haqqında heç bir məlumat yoxdur. Bununla bağlı belə bir versiya da irəli sürülür ki, bəlkə də bu, ayrıca kitab deyil, elə "İran nəğmələri" kitabının ilkin adı belə nəzərdə tutulmuşdur [200, s.100-101]. Kitaba "İran nəğmələri"ndən başqa daxil edilmiş 1 poema və 4 şeirin məzmununun birbaşa şairin doğma kəndi ilə, daha geniş mənada, Ryazanla bağlı olması da bu versiyanın ağlabatan olduğunu göstərir.

Yeseninin ölümündən sonra çıxan bir sıra nəşrlərdə silsiləyə daxil olunan şeirlərin sayı və sıralanmaları kitabı buraxan məsul şəxslərin istəyi ilə müxtəlif şəkillərdə verilmişdir. Təxminən 70-ci illərdən başlayaraq, buraxılan çoxcildliklərdə isə "İran nəğmələri" klassik 15 şeirdən ibarət və yuxarıda göstərilən Yesenin sıralanmasında verilir. Lakin Əliağa Kürçaylının tərcümələrinin son nəşrində [114], nədənsə, bu düzülüş dəyişdirilmiş, şeirlərin ardıcıllığı pozulmuşdur. Klassik sıralanmada 5-ci yerdə olan «Никогда я не был на Босфоре...» şeiri 3-cü yerə, 8 və 9-cu yerlərdə olan «Золото холодное луны...» və «В Хорассане есть такие двери...» şeirləri isə, uyğun olaraq, 10 və 11-ci yerlərə qoyulmuşdur. Əliağa Kürçaylının sağlığında buraxılmış son kitabda [113] sıralanmanın klassik düzülüş üzrə aparıldığını nəzərə alsaq, bu nəşrdə sıralanmanın pozulmasını yalnız kitabın buraxılışına məsul şəxsin diqqətsizliyi kimi qiymətləndirmək olar. Yeri gəlmişkən onu da qeyd edək ki, bu dəyişiklik adı çəkilən kitabda yeganə dəyişiklik deyil. Məsul şəxslər, heç bir ciddi səbəb olmadan, yəqin ki, siyasi motivlər baxımından, 1975-ci ildə buraxılmış kitabdakı "26-lar haqqında ballada"nı [113, s.213] 2006-cı il nəşrinə [114] daxil etməmişlər.

Biz yuxarıda S.Yeseninin son dəfə Bakıda 28 iyul – 3 sentyabr 1925-ci ildə olduğunu qeyd etmişdik. S.A.Tolstaya – Yeseninanın yazdığına görə, bu son Bakı səfərində Yesenin, əsasən, "İran nəğmələri" silsiləsinin tamamlanması üzərində işləmişdir. Yuxarıda silsiləyə daxil olan 15 şeirin siyahısını təqdim edərkən onlardan beşinin məhz bu dövrdə yazıldığını bir daha göstərməklə, həmin şeirlərin mətbuat səhifələrində nəşr olduğunu da ardıcıllıqla vermişik.

Silsilədəki son şeir – «Голубая да веселая страна...» şeiri P.İ. Çaqinin qızı Rozaya (tam adı Rozaliya) həsr olunmuşdur. Bu şeir silsilədə sonuncu yerə qoyulsa da, əslində, şeir bir az əvvəl – aprelin 8-də yazılmışdır. Görünür, şeirin üzərində yenidən işləmək fikri olduğundan, Yesenin onu bir az gec dərc etdirmişdir. Bu şeirlə bağlı bir məsələni də qeyd etmək maraqlı olar ki, şeirin Konstantinovoda yerləşən Yesenin muzeyində saxlanan avtoqrafında (bu şeirin 3 avtoqrafı mövcuddur) onun adı "Ömər Xəyyama nəzirə" kimi qeyd edilmişdir.

"İran nəğmələri" silsiləsinə daxil olan şeirlərlə bağlı araşdırmalar apararkən digər bir məqam da meydana çıxdı. Bəzi mənbələrdə [23, s.73; 26, s.9, s.12, s.15; 133, s.186, s.193; 339, s.100; 364, s.111]. "İran nəğmələri"nin 15 deyil, 16 şeirdən ibarət olduğu göstərilir. Məsələ burasındadır ki, Yeseninin doğrudan da silsiləyə daha bir şeir əlavə etmək fikri olub, amma bu fikir realizə olunmamışdır. Bu haqda S.A. Tolstaya – Yesenina xatirələrində yazır: "*1925-ci ilin avqustunda Yesenin Bakı yaxınlığında Mərdəkanda, Çaqinin bağ evində yaşayırdı. Yeseninin otağının pəncərələrindən biri bağa açılırdı və çox vaxt səhərlər onu quşların səsi oyadırdı. Belə səhərlərin birində o bu şeiri* («Море голосов воробьиных» şeiri «Бакинский рабочий» qəzetinin 10 avqust 1925-ci il tarixli 179-cu sayında, özü də "İran nəğmələri" adı altında, «Руки милой–пара лебедей...» və «Голубая да веселая страна...» şeirləri ilə birlikdə dərc edilmişdir – İ.İ.) *yazmışdı. Payızda "Şeirlər külliyatını"nı hazılayanda o, yenidən bu şeirə qayıtdı, onu "İran nəğmələri"nə daxil etmək istəyirdi və bu məqsədlə şeirin üzərində yenidən işləməyə başlamışdı. Lakin onu başa çatdıra bilmədiyindən həmin şeiri "İran nəğmələri"nə daxil etmədi*» [328, s.261]. Qeyd edək ki, "İran nəğmələri" silsiləsini ilk dəfə Azərbaycan dilinə çevirən Əliağa Kürçaylı da əvvəlcə bu silsiləyə 16 şeirin tərcüməsini daxil etmiş [112; 109],

sonradan həmin şeirlərdən birini («Море голосов воробьиных» şeiri) çıxardaraq, 15 şeirin tərcüməsini saxlamışdır [113]. Sözsüz ki, Ə.Xəlilov M.Vaynşteyn, S.Turabov və T.Şərifli də məhz həmin şeiri nəzərdə tutaraq "İran nəğmələri"nin 16 şeirdən ibarət olduğunu yazmışlar [23, s.73; 26, s.9, s.12, s.15; 133, s.186, s.193; 339, s.100; 364, s.111].Onu da qeyd edək ki, S.Turabovun yuxarıda göstərilən məqaləsində "İran nəğmələri" ilə bağlı bəzi başqa qeyri-dəqiq məlumatlara da rast gəlirik. Müəllif yazır: "*Burada* ("İran nəğmələri"ndə –İ.İ.) *16 şeir var ki, onlar 1924-1925-ci illərdə "Бакинский рабочий" qəzetində dərc olunmuş və 1925-ci ildə Moskvada ayrıca kitab şəklində çıxmışdır*" [339, s.100].

Bununla bağlı 2 məsələni qeyd etmək istəyirik. Birincisi, göstərilən 16 şeirdən heç də hamısı yox, yalnız 12-si "Бакинский рабочий" qəzetində dərc olunmuşdur. Qalan 4 şeirdən 2-si 1924-cü ildə Batumda, "Трудовой Батум" qəzetində, digər ikisi isə 1925-ci ildə Tiflisdə "Заря Востока" qəzetində dərc edilmişdir. İkincisi, 1925-ci ildə Moskvada çıxan "İran nəğmələri" kitabına silsilədən cəmi 10 şeir daxil edilmişdi. Səbəb isə aydındır. Qalan 5 şeir həmin kitab işıq üzü gördükdən sonrakı müddətdə yazılmış və 1925-ci ilin 7-14 avqust aralığında "Бакинский рабочий" qəzetində dərc olunmuşdu.

1967-cı ildə Leninqradda dərc edilmiş bir məqalədə "İran nəğmələri" silsiləsinə aid olan 17-ci şeirin varlığı haqqında da məlumata rast gəlirik [202, s.376; 258, s.366]. Bu, 1925-ci ilin iyul ayında Bakıda yazılmış «Тихий ветер. Вечер сине-хмурый...» şeiridir. Şeir ilk dəfə mətbuatda Yeseninin ölümündən sonra – 1926-cı ilin martında Leninqradda çıxan "Красная газета"da dərc edilmişdi [187]. Şeirin yazıldığı günlərdə Bakı mətbuatında dərc edilməməsinin səbəbi isə, yəqin ki, Yeseninin şeir üzərində yenidən işləmək arzusu ilə bağlı olmuşdur. A.P. Loman bu şeirin "İran nəğmələri"nə aid olduğunu yazsa da, Yeseninin bundan sonra buraxılmış çoxcildliklərində həmin şeir silsiləyə daxil edilməmişdir. Qeyd edək ki, V.Belausov adı çəkilən bu şeirin haqlı olaraq silsiləyə daxil edilmədiyini və ümumiyyətlə, onun "İran nəğmələri"nə heç bir aidiyyəti olmadığını sübut etmişdir [127, s.354-355].

Göründüyü kimi, biz "Persidskiye motivı" ifadəsinin Azərbaycan dilində "İran nəğmələri" kimi işlədilməsinə üstünlük vermişik. «Persidskiye motivı» ifadəsini

müxtəlif müəlliflər müxtəlif şəkildə - "İran motivləri", "Fars motivləri", "Şərq motivləri", "Fars təranələri", "İran nəğmələri", "İran xəyalları", "Fars havaları" kimi tərcümə etmişlər. Bununla belə, biz "İran nəğmələri"nə üstünlük verdik. Aydındır ki, "motiv" tərcümədə "nəğmə" demək deyil. Lakin "motiv" sözünü Azərbaycan dilində elə "motiv" kimi işlətdiyimiz zaman onun rus dilindəki mənasında olan genuş əhatəlilik hiss edilmir, sözün rus dilində daşıdığı semantik yük və çalar Azərbaycan dilində eyni semantik yük və çaları ifadə edə bilmir. Başqa sözlə, bu söz Azərbaycan dilində, xüsusən də poeziya kontekstində, rus dilində verdiyi incə, genişəhatəli mənanı verə bilmir və bir qədər quru səslənir. "Nəğmə" sözü "motiv"ə nisbətən poetik dildə daha cəzbedici səsləndiyindən biz ona üstünlük verdik. Lakin buna baxmayaraq, hesab edirik ki, "motiv" sözünün dilimizdə daha uyğun ifadə çalarının tapılması üzərində düşünməyə dəyər.

2.2. "İran nəğmələri"ndə qadın obrazları və silsilənin baş qəhrəmanı

Yeseninin "İran nəğmələri"ndə dörd qadın adı çəkilir: Lalə (Lala), Şaqane, Şəhrizad və Qeliya. Bu obrazlardan bəzilərinin kimliyi məlum olsa da, bəziləri haqqında fikirlər mütəxəssislər arasında da birqiymətli deyil. Hətta mütəxəssislər tərəfindən əsasən fakt kimi qəbul edilən bəzi məsələlərə də digər yanaşmalar mövcuddur. Burada məqsədimiz bu qadın obrazları haqqında fikir yürütmək, bəzi məsələlərlə bağlı konkret mülahizələr ortaya qoymaqdan ibarətdir.

"İran nəğmələri"ndə rast gəlinən ilk qadın adı Lalədir. Silsilənin 3 şeirində - «Я спросил сегодня у менялы...», «Отчего луна так светит тускло...», «Глупое сердце, не бейся!...» şeirlərində Lalə adı çəkilir. «Я спросил сегодня у менялы» şeirində Yesenin Laləyə öz məhəbbətini necə açmaq haqqında sərrafdan məsləhət istəyir, «Отчего луна так светит тускло» şeirində isə şair Şaqanenin xəyanətindən Laləyə şikayətlənir. Mütəxəssislər Lalə adının uydurulmuş bir ad olduğunu bir fakt kimi qəbul etsələr də, nədənsə, bu versiyanı qəbul etmək o qədər də asan deyil. Axı elə həmin mütəxəssislərin fikrincə, Yesenin şeirlərində heç vaxt aldatmır. Doğrudur, Şaqane Lalə adının uydurma olduğunu Yeseninin özündən şəxsən eşitdiyini yazır

[126, s.36]. Bu ola bilər. Bir kişinin yenicə tanış olduğu bir qızla söhbətdə başqa bir qızla münasibətlərinin olduğunu gizlətməyə çalışması çox təbiidir. Yesenin sözdə aldada bilər, amma şeirdə yox: "*Yesenin şeirlərində heç vaxt aldatmırdı. O, ölmüş kanarya haqqında danışır – deməli, ölmüş kanaryanı xatırlayır, tutuquşunun fala baxmasından danışır – deməli, bu falabaxma doğrudan da olmuşdur, qatarla yarışan daylaqdan danışır – deməli, əziz və səfeh daylaqla bağlı hadisə olmuşdur... mehriban fars qızı Şaqanedən danışır – deməli, Şaqane faktdır*" [145, s.353; 146, s.496]. Bu baxımdan düşünürük ki, Lalənin uydurma bir obraz olduğunu fakta çevirmək hələ tezdir. Bəlkə, Ə.Xəlilov da elə bu məntiq, bu duyğu və intuisiya ilə Lalənin real olduğunu yazır [23, s.89].

Mümkündür ki, Lalənin proobrazı Yeseninin Bakıda tanış olduğu Yelena Yukeldir. O, Rusiyada anadan olsa da, uşaqlıq dövrünü İranda yaşamışdı və onu Şərq üslubunda Leyla deyə çağırırdılar. Qeyd edək ki, Yelena Yukelin musiqi bəstələməyi də var idi və o, ilk dəfə «Шаганэ, ты моя, Шаганэ!» və «Я спросил сегодня у менялы...» şeirlərinə musiqi bəstələmişdi. Bu fakt onunla maraqlıdır ki, «Я спросил сегодня у менялы...» şeiri Lalənin adı çəkilən şeirlərdən biri, hətta birincisidir.

Konkret olaraq, Lalənin proobrazı ilə bağlı olmasa da, maraqlı bir məqamı da qeyd edək ki, Svetlana Kuroçkina özünün "Aktrisa haqqında povest"ində "İran nəğmələri" silsiləsini yazarkən Yeseninin Bakı təəssüratlarının formalaşmasında məşhur opera müğənnisi Fatma Muxtarovanın da müəyyən rolunun ola biləcəyi fikrini irəli sürür [240, s.68].

"İran nəğmələri"ndə rast gəlinən qadın adlarından biri də Şaqanedir. Şaqane (və ya qısaldılmış şəkildə Şaqa) adına "İran nəğmələri"nin altı şeirində - «Шаганэ, ты моя, Шаганэ... », «Ты сказала, что Саади...», «В Хорассане есть такие двери...», «Голубая родина Фирдуси», «Руки милой – пара лебедей», «Отчего луна так светит тускло...» şeirlərində rast gəlirik.

Müxtəlif vaxtlarda silsilənin baş qəhrəmanının kimliyi ilə bağlı müxtəlif versiyalar irəli sürülmüşdür. Bunu daha aydın görmək üçün məsələnin tarixçəsinə nəzər salaq.

Şaqanenin kimliyi haqqında ilk yazılı məlumatı V.İ.Kaçalov 1927-ci ildə - Yeseninin ölümündən dərhal sonra qələmə aldığı "Встречи с Есениным" adlı xatirələrində vermişdir. V.İ.Kaçalovun xatirələrindən belə aydın olur ki, Şaqane Bakıda yaşayan fars qızıdır (azərbaycanlıdır – İ.İ.) [235, s.19]. Bu xatirələr 1985-ci ildə Azərbaycan mətbuatında da dərc edilmişdir [77]. Amma bundan sonrakı dövrdə heç bir digər mənbə bu fikirləri təsdiq etmədi və V.İ.Kaçalovun Şaqanenin kimliyi ilə bağlı bu fikirləri mövcud versiyalar arasından, faktik olaraq, silindi.

Keçən əsrin 40-50-ci illərində qələmə aldığı "Sergey Yesenin həyatda və yaradıcılıqda" adlı xatirələrində L.Povitski də bu məsələyə toxunmuş, Şaqanenin erməni əsilli Batum müəlliməsi olduğunu yazmışdır [296, s.249-250]. Onu da qeyd edək ki, V.Belausovun bir qeydinə görə [126, s.72], onun Şaqanenin kimliyi ilə bağlı geniş araşdırmalarından sonra L.Povitski öz xatirələrində müəyyən dəyişikliklər etmişdir.

Azərbaycan mətbuatında Şaqanenin kimliyi ilə bağlı ilk məlumat 1958-ci ildə verilmişdir. Həmin ilin dekabr ayının 10-da A.Loqvinenko "Молодежь Азербайджана" qəzetində Şaqanenin şəxsiyyəti ilə bağlı məlumatı özündə əks etdirən bir yazı dərc etdirir [257]. Həmin yazı Yerevan Dövlət Universitetinin filologiya fakültəsinin tələbələrinin Yerevanda yaşayan Şaqane Talyanla – "İran nəğmələri"nin baş qəhrəmanı ilə görüşündən bəhs edir.

S.Turabov, 1959-cu ildə dərc etdirdiyi bir məqaləsində, bu məsələyə toxunaraq yazır: "*Yeseninin məşhur «Шаганэ, ты моя, Шаганэ!» şeirini kim bilmir ki. Bu şeirin qəhrəmanı ilə bağlı çox versiyalar mövcuddur. Bəziləri Şaqanenin prototipinin P.Çaqinin qızı Roza Çaqina olduğunu bildirirlər, Kaçalov isə Şaqanenin fars qızı olduğunu yazır... Danışırlar ki, vaxtilə Moskva jurnallarının redaksiyasına tez-tez özünü Şaqane kimi qələmə verən qadınlardan məktublar daxil olurmuş*" [339, s.100].

Bununla belə 60-cı illərə qədər Şaqane adının Çaqin adından götürüldüyü əsas versiya kimi qəbul edilirdi. Burada, dissertasiya üzərində işlədiyimiz dövrdə bir neçə dəfə görüşüb söhbət etdiyimiz Bakı sakini İrina Georqiyevna ilə söhbətimizdən bir məqamı xatırlatmağı məqsədəuyğun hesab edirik. İrina Georqiyevna demişdi: "Nadejda İosifovna (P.İ.Çaqinin dostu İ.M.Moskalenkonun həyat yoldaşı – İ.İ.) deyirdi ki, Yesenin P.İ.Çaqinə çox vaxt zarafatla "Çaqa" və ya "Çaqane" də deyərdi"

(bax: s.54). İrina Georqiyevna ilə söhbətimiz zamanı bu məqam çox da diqqətimizi cəlb etməsə də, indi onun nə qədər maraqlı bir fakt olduğu üzə çıxır. Bircə məsələ var ki, buradan görünür ki, Şaqane adı Çaqin adından əmələ gəlməmişdir, əksinə Yesenin dostu P.İ.Çaqinə, dostcasına sataşmaq üçün, onu "İran nəğmələri"nin qadın qəhrəmanının adına uyğunlaşdıraraq - Çaqane deyə çağırırmış. Bu fikir ədəbiyyat aləmində dolaşan "Şaqane adı Çaqin adından götürülmüşdür" fikrinin heç də göydən düşmədiyini göstərsə də, V.Belausovun məlum araşdırmaları bu məsələyə daha əsaslı baxış ortaya qoydu.

Beləliklə, göründüyü kimi, keçən əsrin 60-cı illərinə qədər "İran nəğmələri"nin baş qəhrəmanının kimliyi ilə bağlı xeyli fərqli versiyalar mövcud idi və silsilənin baş qəhrəmanının real kimliyi naməlum olaraq qalırdı.

Bu məsələdə əsas söz V.Q.Belausova məxsusdur və o, Şaqanenin kimliyi ilə bağlı məsələyə tam aydınlıq gətirir [124; 125; 126; 128]: "*Çox-çox əvvəl Yesenin arxivini araşdırarkən Dövlət ədəbiyyat muzeyində (Moskva) naməlum bir qız şəkli əlimə keçdi. Şəklin arxa tərəfində bir yazı vardı: "Şaqane". Elə o vaxt şəklin surətini çıxartdım və o naməlum qızın soyadının aydınlaşdırılmasına xeyli səy göstərdim... V.İ.Kaçalov və L.O.Povitskinin, Yeseninin Şaqane adlı bir qadınla görüşməsi haqqında qısa məlumatların yer aldığı, xatirələri mənə məlum idi... 1959-cu ilin fevral ayının 3-də Ş.N.Talyan mənə özünün tərcümeyi-halını və 1918-1926-cı illərdə çəkilmiş 4 şəklini göndərdi. Yeseninin arxivində saxlanılan naməlum qadın şəkli və Ş.N.Talyanın göndərdiyi şəkillərdən biri, çəkilmə tarixinin 1921-ci il qeyd edildiyi şəkil üst-üstə düşdü... Bu, yalnız Yeseninin Ş.Talyanla Batumda görüşməsinin deyil, eləcə də şairin Batum müəlliməsi ilə görüşləri haqqında xatirələrə dönə-dönə qayıtmasının şəksiz sübutu idi*" [126, s.25, s.28, s.72].

Budur, Şaqanenin kimliyi məsələsinə, sanki, tam aydınlıq gətirildi. Amma 1992-ci ilin əvvəllərində, gözlənilmədən, tanınmış Bakı yeseninşünası, Bakı Slavyan Universitetinin dosenti Q.Şipulinanın maraqlı bir məqaləsi işıq üzü görür [372, s.121-126]. Bu məqalədə müəllif V.Q.Belausovun Şaqanenin kimliyi ilə bağlı gətirdiyi bütün sübutları ciddi şübhə altına alır. Müəllif yazır: "*V.Belausov "İran nəğmələri" poetik silsiləsinin ilham mənbəyinin Batum müəlliməsi olmasını sübut etmək üçün*

massajist və ev xadimələri tapmış, onların fikirlərini yazmış, "İran nəğmələri"nin 1924-cü ildə Batumda, o qızla tanışlığı dövründə və onun üçün yazıldığını" təsdiq edən, şairin 8 müasirinin axtarıb tapılması prosesini uzun-uzadı təsvir etmişdir. Sübut üçün gətirdiyi xatirələr onun qoyduğu məqsədə tam uyğun gəlir, amma onun tapdığı şahidlərdən birinin tamamilə başqa xatirələri mövcuddur. Bu xatirələr, aydın səbəblərdən, V.Belausovun tədqiqatında yer almayıb və başqa tədqiqatçılar tərəfindən də heç vaxt istifadə edilməyib. Digər tərəfdən, V.Belausov və onun düzəltdiyi versiyanın tərəfdarları, Şaqane Terteryanın Yeseninin ilham mənbəyi olması versiyası ilə heç uzlaşmayan, Sergey Yeseninin Batumdan yazdığı məktublarını, heç bir şübhə altına alına bilməz bu ən vacib sənədləri diqqətlə oxumağı ağıllarına gətirməyiblər" [372, s.121].

Bu məqalənin özünəməxsus cəhəti ondan ibarətdir ki, müəllif hər cəhdlə məhz Ş.Talyanın xatirələrində yer alan əsas məqamları təkzib etməyə çalışır və bunun üçün onun özü təkzibedilməz sənədlərdən – Yeseninin həmin dövrdə Batumdan müxtəlif ünvanlara yazdığı məktublarından, o dövr Gürcüstan mətbuatında dərc olunmuş müxtəlif materiallardan, o cümlədən hava haqqında məlumatlardan, eləcə də V.Belausovun araşdırmalarına qədərki dövrdə mövcud olan memuarlardan və s. materiallardan istifadə edir və sonda belə nəticəyə gəlir: "*Beləliklə, Ş.Terteryanın öz xatirələrində dediyi heç bir şey nə Yeseninin məktublarında, nə onu yaxından tanıyan insanların xatirələrində, nə də həmin günlərdə Batumda olan hava haqqında rəsmi məlumatlarda öz təsdiqini tapmır*" [372, s.123]. Sonra müəllif, A.A.Lappa-Starjenetskaya, V.Şapavalov və V.İ.Kaçalovun Şaqane haqqında fikirlərini yada salaraq, Şaqane adının Mərdəkan yaxınlığında yerləşən Şaqan kəndinin adı ilə bağlı ola bilməsi ehtimalını da istisna etmir, amma, bununla yanışı, Şaqane adının Çaqin soyadından yaranması ehtimalının daha inandırıcı olduğunu da qeyd edir: "*Bizə elə gəlir ki, Şaqane adının yaranması ilə bağlı ən inandırıcı versiya, V.Belausovun araşdırmalarına qədər olan versiyadır: Şaqane – bu, P.İ.Çaqinin dəyişdirilmiş soyadıdır*" [372, s.124]. Daha sonra müəllif, A.Şteynberqin "Çaqin və Şaqane" məqaləsindən [381, s.214-215] sitatlar gətirərək bu versiyanı daha da möhkəmləndirməyə çalışır və fikrini belə tamamlayır: "*Şairin, onunla* (Şaqane ilə -

İ.İ.) *tanışlıqdan bir neçə ay əvvəl düşünülmüş və yaradılmış gözəl bir silsilənin heç bir vəchlə qəhrəmanı ola bilməz, təsadüfi tanışının ilahiləşdirilməsindən əl çəkmək lazımdır*" [372, s.124].

Bundan sonra, Q.Şipulinanın adı çəkilən məqaləsinin təsiri altında 90-cı illərin sonuna yaxın, Bakı mətbuatında "İran nəğmələri"ndəki bir sıra şeirlərin Batumlu müəlliməyə deyil, Mərdəkan yaxınlığında yerləşən Şağan (rusca Şaqan) kəndindən olan naməlum bir qıza həsr edilməsi versiyası ortaya çıxdı. Bu məsələnin tarixçəsi isə kifayət qədər maraqlıdır.

Tədqiqatımız üzərində işlədiyimiz dövrdə bu məsələ ətrafında çoxsaylı insanlarla – şairlərlə, tərcüməçilərlə, tədqiqatçılarla, kitabxana işçiləri ilə, muzey əməkdaşları ilə və bir sıra digər, sadəcə, Yeseninin Bakı həyatına aidiyyəti ola biləcək insanlarla görüşüb söhbət etdik. Onlardan bəziləri ilə əyani şəkildə görüşür, bizi maraqlandıran məsələlər haqqında fikir mübadiləsi edir, bəziləri ilə telefon vasitəsilə ünsiyyətdə olurduq. Yeseninin Mədəkanda xatirə muzeyinin əməkdaşı Nəzakət İbadova ilə söhbətimiz zamanı diqqətimiz muzeydə olan eksponatlardan biri üzərində – ilk baxışda çox qədimi görünən "tarixin yadigarı bir sərnic" üzərində cəmləşdi. Sərnicin diqqətimizi çəkdiyini görən Nəzakət xanım söhbətə başladı: "Bu sərnicdə Şağan kəndindən olan çadralı bir qız hər səhər Yeseninə süd gətirirmiş. Şairin "İran nəğmələri" silsiləsində vəsf etdiyi məşhur Şahanə həmin o qızdır". Əlbəttə, bu məsələ ilə bağlı, həmin dövrdə artıq bizim öz fikrimiz formalaşmışdı və üstəlik, tələbəlik illərində (1979-1984) adı çəkilən muzeydə olduğumuz zaman orada heç bir sərnic yox idi və belə bir versiya da mövcud deyildi. Əlbətdə, nəzəri olaraq bu mümkündür – sərnic sonralar da tapıla bilərdi. Amma istənilən halda, gözümüz önündə duran sərnic fikirlərimizi tamamilə dolaşdırır, bu məsələ ilə bağlı şübhələrimizi artırırdı. Nəzakət xanımdan "bu mövzuda daha kimlərlə söhbət etmək olar" – deyə sorduğumuzda, o, "Kəmalə xanımla görüşün, o, Sizə daha maraqlı məlumatlar verə bilər, əvvəllər burada işləyib, bu məsələlərlə bağlı çox məlumatlıdır" – deyə, AMEA-nın Nizami adına Milli Ədəbiyyat Muzeyinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, Kəmalə Zeynalovanın telefonunu verdi. Kəmalə Zeynalova ilə telefon danışığımız zamanı o, muzeyin fəaliyyəti ilə bağlı xeyli maraqlı məlumatlar

verdi. “Doxsanıncı illərin ortaları idi. Bir dəfə muzeyin direktoru Arif Hacıyev bizi – muzeyin əməkdaşlarını yanına çağırıb bir toplantı keçirdi: “Ermənilər bizim torpaqlarımıza, əsərlərimizə, musiqimizə, ümumilikdə mədəniyyətimizə şər ataraq sahib çıxırlar və bunun qarşısını almaq mümkün olmur. Bəs biz niyə sakit oturmuşuq? Bilirsiniz ki, Yeseninin “İran nəğmələri” silsiləsinin qəhrəmanı Şahanə adlı bir qızdır. Ermənilər onu da ermənileşdirib Şaqane ediblər. Biz də sakitcə durub baxırıq. Mənim bir təklifim var. Bu gündən etibarən muzeyimizə gələn bütün insanlara Şahanənin Şağan kəndindən olan bir azərbaycanlı qız olduğunu deməliyik və bununla bağlı ortalığa “əsaslı” bir dəlil də qoymalıyıq. Bir qədimi sərnic tapıb muzeyə qoyaq və “Şahanənin hər səhər Yeseninə sud gətirdiyi bu sərnici” hər kəs gəlib gözləri ilə görsün və bilsinlər ki, Yeseninin vəsf etdiyi o qız erməni yox, azərbaycanlıdır. Bundan sonra Arif müəllim mərkəzi qəzetlərdən birində [361], bu məsələ ilə bağlı məlumat xarakterli kiçik bir yazı da dərc etdirdi və beləcə, Siz soruşduğununz o sərnic tarixə düşdü. Amma, əslində, o sərnicin Yeseninlə heç bir əlaqəsi yoxdur”. Qeyd edək ki, bu sərnicin şəkli 2015-ci ildə Ryazanda, Yesenin muzeyinin mətbu orqanı olan “Есенинискый вестник” jurnalında da verilmişdir [312, s.96].

Bəlkə də bu faktı ortaya qoyduğumuza görə bizi qınamağa çalışanlar da olacaq. Amma istənilən halda, tarixin, bilə-bilə, gözlərimiz önündə saxtalaşdırıldığını görə-görə, buna göz yummaq mümkün deyil. Xalq sevgisinə rəğbət və erməni fitnəsinə nifrəti göstərmək üçün heç də tarixi fakt və hadisələrin saxtalaşdırılmasına göz yummaq olmaz və bu, tədqiqatçı obyektivliyi və müəllif məsuliyyəti ilə birbaşa bağlı məsələdir. “Ermənilər bizim torpaqlarımıza, əsərlərimizə, musiqimizə, ümumilikdə mədəniyyətimizə şər ataraq sahib çıxmaq istəyirlər” – deyə, bizim də nəyisə saxtalaşdırmağa ehtiyacımız varmı? Saxta iddiaların qarşısını almaq üçün saxtalıqmı etmək lazımdır? Özü də ilk baxışdan guya vacib görünən, əslində isə dərin bir mənası olmayan bir məsələ ilə bağlı! Heç nəyə əsaslanmayan, sensasiya xarakterli belə versiyaların ortaya atılmasına nə Azərbaycan xalqının, nə Azərbaycan ədəbiyyatının, nə də Azərbaycan mədəniyyətinin ehtiyacı var.

Qeyd edək ki, yuxarıda işarə olunan informasiya xarakterli o kiçik yazı 1999-cu ildə "Зеркало" qəzetində dərc edilmişdi. Həmin yazıda deyilir: "*Ümumiyyətlə, Şaqane proobrazı roluna namizədlərin sayı Leytenant Şmitin uşaqları və Rusiya taxt-tacına varislərin uşaqlarının cəmi sayından az deyil. Məsələn, tənqidçilərdən biri hesab edir ki, Şaqanenin proobrazı Batumlu müəllimə Şaqane Talyandır. Bakı redaksiyalarına Yeseninin çoxlu sayda müasirləri – Şaqane adında qızlar gələrək bu şeirlərin şəxsən onlara həsr edildiyini iddia edirdilər. Amma Mərdəkanın özünün sakinləri əmindirlər ki, Şaqane – Mərdəkan yaxınlığındakı Şaqan kəndindən olan, Yeseninə hər gün süd gətirən bir qızdır. Yeri gəlmişkən, bu kəndin qızları xüsusi gözəlliklərilə seçilirlər*" [361].

Y.Quluzadə isə 2000-ci ildə dərc etdirdiyi "Шаганская Шаганэ" məqaləsində Şaqanenin "azərbaycanlaşdırılması" məsələsinə, haqlı olaraq, kifayət qədər tənqidi, hətta bir qədər də lağla yanaşaraq yazır: "*Nədənsə, bizim alimləri hər şeydən çox Şaqanenin şöhrəti maraqlandırır. Yəni ki, yaxşı deyil, belə çıxır ki, "mehriban urus"* (Yesenin – İ.İ.) *Bakıda yaşadı, bizim çörəyimizi yedi, amma Batum müəlliməsini unuda bilmədi. Və yeni bir burma prosesi – "müsəlmanlaşdırma" başladı. Belə bir utandırıcı versiyanın əmələ gəlməsinə başqa cür nə ad vermək olar: Səndemə Şaqane heç də bizim düşündüyümüz kimi deyilmiş, şair bu ad altında, bizim illərlə, sadəlövhcəsinə, hesab etdiyimiz kimi, bir qadını deyil... özünün Mərdəkandakı rezidensiyasının iki addımlığında yerləşən Şaqan kəndini vəsf etmişdir. Bu «kəşf» artıq məktəb dərsliklərinə düşüb... "Başqasıyla gəzir sənin Şahanən / Başqa birisini öpdü Şahanə". Ehtimal ki, dünyada heç bir başqa yaşayış məntəqəsi belə bir zərif təcəssüm ifadəsinə layiq görülməyib*" [149, s.79].

Buna baxmayaraq, yalnız şifahi söhbətlərdə qalmayıb, mətbuatda da yer almaqla bu versiya artıq, müəyyən mənada, həyata vəsiqə qazanmışdı. Artıq Yeseninin Mərdəkandakı Memorial ev-muzeyinə gələn hər kəsə bu versiya çatdırılırdı. Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Tatyana Karatıqina da Bakıda olarkən Yeseninin ev-muzeyində olmuş, öz təəssüratlarını qələmə almış və məhz bu versiyanı bir qədər geniş təsvir etmişdir [232].

2005-ci ildə bu versiya mətbuat səhifələrində yenidən canlanır. Bu haqda "Зеркало" qəzetində dərc olunmuş bir məqalədə oxuyuruq: "*Bir halda ki, söhbət Şaqan kəndindən düşdü, bununla bağlı bir hadisəni danışmaq istəyirəm. Yesenin evin həyətində olan hovuzda çiməndən sonra axşamlar, kəndə gözəl mənzərənin açıldığı terrasda oturmağı sevirdi. Görünür, məşhur «Шаганэ, ты моя, Шаганэ» şeirinin yazılma ideyası elə burdan gəlmişdi. Erməni saxtakarlarının yozumlarına görə, bu obrazın prototipi şairin aşiq olduğu "gözəl erməni qızı" olmuşdur. Bakı Slavyan universitetinin dosenti Qalina Şipulina isə bu versiyanı təkzib edir. "Bir dəfə Mərdəkan yaxınlığında yerləşən Şaqan kəndində keçirilən "Füzuli" məclisində iştirak edərkən Ə.Vahidin qohumlarından birinin evində Yesenin qonaqlara çay verən çox qəşəng bir qız görür. Rus şairi ona nəzər salaraq soruşur: "Bu qızın adı nədir?". Məlumdur ki, elə indinin özündə də Bakı kəndlərində belə suallar bir qədər yersiz hesab olunur, amma ev sahibləri hörmətli qonağın yanlışlığa yol verdiyini üzünə vurmayaraq, sadəcə deyirlər: "Şaqan qızı", yəni Şaqan kəndindən olan qız. Mümkündür ki, bu artıq mənim versiyamdır, axşamlar Şaqan kəndinə mənzərənin açıldığı terrasda oturarkən şair, həmin qızı yada salmış, və bu təəssüratla da özünün, "İran nəğmələri" silsiləsinə daxil olan məşhur «Шаганэ, ты моя, Шаганэ» şeirini yazmışdır*" [363].

Budur, bu da bir versiya. Biri Şaqanenin Yeseninə "süd gətirən qız", biri məclisdəkilərə "çay verən qız" olduğunu söyləyir. Hərə öz mülahizələrinə görə bir versiya irəli sürür. Əslində burada qeyri-təbii bir şey yoxdur, əlbəttə, hər bir tədqiqatçı özünün düşüncələri əsasında, öz məntiqinə uyğun mülahizələr irəli sürə bilər. Hətta, onilliklər ərzində Şaqanenin, "Batumlu qız", "Şaqanlı qız" versiyaları ilə yanaşı, onun "Bakılı qız" olması haqqında da müxtəlif versiyalar mövcud olmuşdur [235; 243; 362]. Əlbəttə, bu versiyaların hansının reallığa tam uyğun olduğunu demək, sübut etmək, zaman keçdikcə bir qədər də çətinləşir. Amma, fikrimizcə, həmin dövrdə bir azərbaycanlı qızının qonaq qarşısına (üstəlik əgər qonaq başqa dinin nümayəndəsidirsə) çıxmasına, onun kiməsə "süd aparmasına", yaxud "çay verməsinə" izn verməzdilər. V.Q.Belausovun, "İran nəğmələri"nin baş qəhrəmanının Batumlu müəllimə olması ilə bağlı araşdırmaları, müxtəlif tənqidi fikirlərə

baxmayaraq, daha məntiqli və həqiqətə daha uyğun görünür. Buna baxmayaraq, göründüyü kimi, bu məsələ üzərində mübahisələr bu gün də davam edir.

"İran nəğmələri"ndə rast gəlinən digər bur qadın adı da Qeliyadır. Bu adın proobrazının kimiliyi də xeyli maraqlıdır. Silsilədəki son şeir – «Голубая да веселая страна...» şeiri P.İ. Çaqinin qızı balaca Rozaya (tam adı Rozaliya) həsr olunmuşdur. Balaca Roza özünü aktrisa kimi göstərməyi çox sevir, nədənsə, özünü "Qeliya Nikolayevna" adlandırırdı. Tanınmış yeseninşünas V.Belausova yazdığı 13 yanvar 1967-ci il tarixli məktubunda Roza bu adı haradan götürdüyünü və özünü nə üçün belə adlandırdığını özü də xatırlamadığını yazır [127, s.182]. Yesenin də onun xatirinə Rozanı həmin adla çağırırdı, hətta P.İ. Çaqinə yazdığı məktublarda belə, qızı həmin adla anırdı. "Qeliya Nikolayevna"ya həsr edilmiş «Голубая да веселая страна...» şeirinin üç avtoqrafı mövcuddur. Avtoqraflardan birində Yeseninin aşağıdakı qeydi vardır: "Əziz Qeliya Nikolayevna, bu, həddindən artıq qiymətlidir. Nə vaxt mənim qızımı görsəniz, bunu ona verin. S.E.". Şairin bu arzusunu Yesenin haqqında "Balaxanı mayı" povestinin müəllifi Hüseyn Nəcəfov həyata keçirmişdir. O, «История рукописи Есенина» adlı bir məqaləsində həmin avtoqrafı Yeseninin o vaxt Daşkənddə yaşayan qızı Tatyana Sergeyevnaya necə çatdırmasından söhbət açır [277]. Yeri gəlmişkən, Qeliya adı ilə bağlı bir məsələni də qeyd edək. Əliağa Kürçaylı öz tərcüməsində [113, s.125] bu adı tamamilə azərbaycanlaşdıraraq "Гелия" yerinə, "Güliya" yazır ki, bu da yanlış yanaşmadır. Qeyd edək ki, müəyyən məqamlarda bəzi tədqiqatçılar da "Qeliya" yerinə, "Güliya", hətta "Gülnarə" yazaraq qeyri-dəqiqliyə yol verirlər [23, s.88-89; 347, s.32, s.34, s.36].

Səyavuş Məmmədzadə isə öz tərcüməsində [104, s.342] "Qeliya" adını "Heliya" kimi vermişdir. Həmin məntiqlə "Qalina" adını da "Halina" kimi tərcümə etmək lazımdır. Hesab edirik ki, adı tərcümə etmədən, olduğu kimi saxlamaq daha doğrudur. Düşünürük ki, adını çəkdiyimiz tədqiqatçılar «Голубая да веселая страна...» şeirinin konkret olaraq kimə həsr edildiyini və onun özünü Qeliya adlandırması faktını bilmədikləri üçün tərcümədə belə yanlışlıqlara yol vermişlər.

Beləliklə, "İran nəğmələri"ndə rast gəldiyimiz və konkret adların göstərildiyi qadın obrazlarından ikisi – Şaqane və Qeliya real obrazlardır. Şəhrizadın isə məşhur

“1001 gecə”nin qəhrəmanı olduğu hamıya məlumdur. Hələlik Lalənin real obraz olmadığı qəbul edilsə də, konkret olaraq ad çəkilməsi müstəvisindən baxsaq o da müəyyən mənada, “realdır”. Bütün bunlarla yanaşı “İran nəğmələri”ndə adı çəkilməyən, lakin konkret olaraq kiminsə nəzərdə tutuldyğu “xəyali-real” qadın obrazları da vəsf edilmişdir. Bu ilk növbədə «Шаганэ ты моя, Шаганэ...» şeirində («Там, на севере, девушка тоже / На тебя она страшно похожа...») və «Никогда я не был на Босфоре...» şeirində («Чтобы я о дальней северянке / Не вздыхал, не думал, не скучал») rast gəlinən «şimallı qız» obrazıdır. “Şimallı qız” obrazı ilə bağlı müxtəlif versiyalar mövcuddur.

Q.Bebutovun bir məqaləsində bu “şimallı qız”ın Q.Benislavskaya olduğu qeyd olunur [121, s.91-92]. Məqalənin müəllifi bu versiyanı ona tanınmış gürcü ədəbiyyatşünas N.Çxeidzenin söylədiyini də qeyd edir. Digər bir tədqiqatçı M.Royzman hesab edir ki, bu şeirlərdə şairin vəsf etdiyi “şimallı qız” N.Volpindir [305, s.247-249]. İ.Kozlovun araşdırmalarına görə isə “şimallı qız” Yeseninin rəsmi ailə qurduğu ikinci arvadı Zinaida Rayxdır [236, s.93]. Elə həmin mütəxəssisin fikrincə, «Быть поэтом – это значит то же...» şeirində də («И когда поэт идет к любимой / А любимая с другим лежит на ложе») şair Zinaida Rayxı nəzərdə tutur [236, s.91].

Biz isə yuxarıdakı üç versiyadan M. Royzmanın versiyasını daha ağlabatan və məntiqi hesab edirik. Əvvəla, ona görə ki, müəllifin yazdığına görə o, bu versiyanı Yeseninin özündən eşidib. Doğrudur, xatirələrdən də görünür ki, Yesenin xatirələrin müəllifi ilə aralarında olan söhbət zamanı konkret olaraq heç bir ad çəkməmiş, yalnız “Bu şimallı qız mənə oğul bəxş edib” demişdir. Əlbəttə, təkcə buna əsaslanaraq “şimallı qız”ın Nadejda Volpin olduğunu iddia etmək doğru olmaz. Məlumdur ki, Nadejda Volpindən başqa daha iki qadın – Anna İzryadnova və Zinaida Rayx da Yeseninə oğul bəxş etmişlər. Amma bir sıra məqamlar “şimallı qız”ın məhz Nadejda Volpin olması versiyasını daha da reallığa yaxınlaşdırır. Bir tərəfdən, M.Royzman Nadejda Volpinlə Şaqanenin bir-birinə çox bənzədiklərini yazır: “*Nadyanı gənclik yaşında görən onun Şaqaneyə nə qədər bənzəməsindən təəccüblənməyə bilməzdi*” [305, s.249]. Digər tərəfdən, “şimallı qız” obrazına rast gəldiyimiz hər iki şeir («Шаганэ ты моя, Шаганэ...» və «Никогда я не был на Босфоре...») 1924-cü ilin

dekabrında yazılıb. Elə həmin ilin may ayının 12-də isə Nadejda Volpinin Yesenindən olan oğlu Aleksandr dünyaya gəlmişdi. Beləliklə, həmin şeirlərin yazıldığı günlərdə Yeseninin oğlu təxminən 7 aylıq idi. Və çox təbiidir ki, Yesenin həmin günlərdə 7 aylıq oğlunu və onun anasını – Nadejda Volpini düşünür və eyni zamanda, onun da Yesenini düşündüyünü xəyal edir və bu hisslərlə də «Шаганэ ты моя, Шаганэ...» şeirində yazır: «Может, думает обо мне...». «Может» şübhəsi isə, yəqin onunla bağlıdır ki, uşaqlarının dünyaya gəlməsinə baxmayaraq onlar Nadejda Volpinlə ayrılıqda yaşayırdılar.

2.3. "İran nəğmələri"nin bədii-estetik xüsusiyyətləri və onların tərcümədə saxlanılması

"İran nəğmələri" silsiləsi Yeseninə bir lirik kimi böyük şöhrət qazandırmışdır. Buna baxmayaraq silsiləyə münasibət heç də birqiymətli olmamış, ayrı-ayrı vaxtlarda silsilə ilə bağlı müxtəlif səpkili, ziddiyyətli fikirlər söylənilmişdir. V.Mayakovski isə "Anadangəlmə paytaxtlar" («Рожденные столицы») məqaləsində bu şeirləri, istehza ilə, "Şərq şirniyyatı" adlandırır [271, s.712]. Fikrimizcə, sevən könüllərə sığal çəkən "İran nəğmələri" silsiləsinə belə səthi münasibət, ona verilən bu "qiymət" həqiqətdən çox, bu iki böyük şairin şəxsi münasibətlərinin məhsuludur. Rus tənqidindən fərqli olaraq Azərbaycanda silsiləyə münasibət, demək olar ki, birmənalı şəkildə müsbət olmuş, silsilə Yesenin yaradıcılığının şah əsərlərindən hesab edilmişdir. Burada Yesenin yaradıcılığının "Bakı dövrü"nün əsas araşdırıcılarından olan Ə.Xəlilovun "İran nəğmələri" ilə bağlı bir fikrini yada salmaq yerinə düşər: "*Şahnamə" Firdovsini, "Xəmsə" Nizamini, "Gülüstan" və "Bustan" Sədini, rübai Xəyyamı və Məhsətini, qəzəl Nəsimini, Hafizi, Füzulini necə yaşatmışsa, "İran nəğmələri" də Yesenini o cür yaşadır və yaşadacaq... Yesenin yaradıcılığı boyu yalnız "İran nəğmələri"ni yazmış olsaydı belə yenə də indiki şöhrətini saxlayacaqdı. Çünki bu şeirlər "bədrlənmiş on dörd gecəlik ay" libasındadır... "İran nəğmələri" Şərq lirikasının bütün incəliklərini, şirin notlarını və əlvan ranglərini özündə cəmləşdirən nəğmələr çələngidir... Yesenin poeziyasının "şah beytidir*" [23, s.29-30].

Silsiləyə daxil olan şeirlərin Azərbaycan dilinə tərcüməsi də hər zaman şairlərimizin maraq dairəsində olmuşdur. Azərbaycan ədəbiyyatşünaslığında Yesenin poeziyasından tərcümə işi də elə "İran nəğmələri"nə müraciətlə başlamışdır. Məlum olduğu kimi, 1928-ci ildə Süleyman Rüstəm Yeseninin məhz "İran nəğmələri" silsiləsindən olan «В Хорассане есть такие двери...» şeirini dilimizə çevirmiş, şeir əski əlifba ilə çıxan "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuşdur [102]. Bu, Yeseninin Azərbaycan dilinə tərcümə olunan ilk şeiri idi. Ümumiyyətlə, həmin dövrdən bu günə qədər Yesenin yaradıcılığına müraciət etmiş 31 tərcüməçidən 10-u (Süleyman Rüstəm, Əliağa Kürçaylı, Səyavuş Məmmədzadə, Eyvaz Borçalı, Qoca Xalid, Firuz Mustafa, Günel Mövlud, Rüfət İsayev, Teymur Kərimli, İsaxan İsaxanlı) Yeseninin "İran nəğmələri" silsiləsindən tərcümələr etmişlər. Qeyd olunan tərcümələr, bu sətirlərin müəllifinin 2015-ci ildə işıq üzü görmüş, Yeseninin anadan olmasının 120 illiyinə həsr edilmiş, "Serqey Yesenin. İran nəğmələri" adlı kitabında [41] kompakt şəkildə Azərbaycan oxucularına təqdim edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, tərcümələrlə yanaşı kitaba "İran nəğmələri: İrana və Bakıya əbədi sevgi heykəli", "İran nəğmələrində qadın obrazları" və "Ən tərcüməolunmaz şairdən tərcümələr" adlı üç məqalə də daxil edilmişdir. Məqalələrdə "İran nəğmələri" ilə bağlı, eləcə də, ümumilikdə Yesenin poeziyasının Azərbaycan dilinə tərcüməsi, tərcüməçilər, tərcümə olunmuş şeirlər haqqında geniş məlumat verilmişdir. Ümumilikdə isə kitaba silsiləyə daxil olan 15 şeirin, həmin vaxta Azərbaycan dilinə məlum olan, bütün tərcümə variantları (9 tərcüməçi, 61 tərcümə) daxil edilmiş, hər şeirin orijinal mətninin arxasınca onun tərcümələri, dərc olunma tarixlərinə uyğun olaraq, ardıcıllıqla verilmişdir. Eyni zamanda kitabda "İran nəğmələri" silsiləsinə daxil olan şeirlərin Azərbaycan dilinə tərcümələri haqqında həm tərcüməçilər üzrə, həm də konkret şeirlər üzrə ayrıca məlumat verilmiş, uyğun siyahılar təqdim edilmişir. Bütün bunlar, orijinal mətnlə birlikdə mövcud olan bütün tərcümə variantlarını qarşılıqlı müqayisə etməyi xeyli asanlaşdırır və müəyyən mənada, tədqiqata yol açır.

Azərbaycan ədəbiyyatşünaslığında "İran nəğmələri" silsiləsinin dilimizə tərcümələrindən bəhs edən müxtəlif səpkili yazılarda – məqalə, məcmuə, monoqrafiyalarda [20; 21, s.464-535; 23, s.66-69, s.100-120; 25; 26, s.63-78; 282, s.292-311]

silsilənin ayrı-ayrılıqda cəmi bir neçə şeirinin tərcümələri (bunlardan da bəziləri xeyli səthi şəkildə) təhlil edilmişdir. Üstəlik, onu da qeyd edək ki, göstərilən yazıların hamısında, əsasən, eyni şeirlərin tərcümələri təhlil edilmişdir. Silsiləyə daxil olan şeirlərin nisbətən geniş təhlili isə P.Məmmədova tərəfindən aparılmışdır [266, s.51-67]. Lakin onu da qeyd etmək lazımdır ki, araşdırmalar zamanı silsiləyə daxil olan 15 şeirin yarısından çoxu, ümumiyyətlə, təhlildən kənarda qalmış, tərcümələrin uğuru və uğursuzluğu ilə bağlı nəzəri bazaya yetərincə müraciət edilməmiş, fundamental fikir və mülahizələr ortaya qoyulmamışdır. Əlbəttə, silsiləyə daxil edilmiş şeirlərdən hər birinə və onların hər bəndinə aid təhlillərin aparılması bizim də tədqiqat işimizin nə həcmi, nə də məqsədi baxımından səmərəli hesab edilə bilməz. Üstəlik, qeyd edək ki, silsiləyə daxil olan şeirlərin hər birinin təhlilinə bu sətirlərin müəllifinin 2010-cu ildə işıq üzü görmüş "Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Serqey Yesenin" adlı monoqrafiyasında [42, s.117-238] cəhd göstərilmişdir. Bununla yanaşı, burada bu şeirlərin tərcümələrinin adekvat alınıb, alınmaması ilə bağlı müəyyən fikir yürütməyə də ehtiyac duyulur. Lakin tərcümələrin orijinalla müqayisələrinə başlamazdan əvvəl "İran nəğmələri" silsiləsinin dilimizdə səsləndirilməsinin ümumi mənzərəsini yaratsaq, aşağıdakı vəziyyətin şahidi olarıq.

Yuxarıda qeyd etdiyimiz kimi, ümumilikdə Azərbaycanda Yesenin poeziyasından tərcümə işi məhz "İran nəğmələri" silsiləsinə müraciətlə başlamış, 1928-ci ildə şairin «В Хорассане есть такие двери...» şeiri Süleyman Rüstəm tərəfindən dilimizə çevrilmişdir. Bundan sonra, uzun bir müddət, təxminən 35 il Azərbaycan şair-mütərcimlərindən heç kim Yeseninin "İran nəğmələri" silsiləsinə müraciət etməmişdir. Nəhayət, 60-cı illərdə, şairin anadan olmasının 65 illiyi ərəfəsində istedadlı şair-tərcüməçi Əliağa Kürçaylı "İran nəğmələri" silsiləsini ilk dəfə bütünlükdə Azərbaycan dilinə çevirmiş və onu Yesenindən tərcümə etdiyi şeirlər toplusuna "İran nəğmələri" adı altında daxil etmişdir [112, s.95-125]. Sonralar Əliağa Kürçaylı tərcümələri üzərində yenidən işləyərək, digər tərcümələri də əlavə olunmaqla, həmin kitabı daha iki dəfə nəşr etdirmişdir. Əliağa Kürçaylıdan sonra 80-ci illərdə Səyavuş Məmmədzadə də silsiləni həmin ad altında Azərbaycan oxucularının ixtiyarına vermişdir [104; 105]. 2010-cu ildə isə Eyvaz Borçalı silsiləni

tam şəkildə “Fars havaları” adı ilə Azərbaycan oxucularına təqdim etmişdir [108, s.3-31]. Müxtəlif vaxtlarda silsiləyə müraciət etmiş digər 7 tərcüməçi isə silsilənin bəzi şeirlərini dilimizə çevirmişlər. Belə ki, Süleyman Rüstəm 1 şeir («В Хорассане есть такие двери...»), Qoca Xalid 3 şeir («Улеглась моя былая рана...», «Свет вечерний шафранного края...», «В Хороссане есть такие двери...»), Firuz Mustafa 4 şeir («Улеглась моя былая рана...», «Я спросил сегодня у менялы…», «Шаганэ, ты моя, Шаганэ...», «Ты сказала, что Саади...») Günel Mövlud 1 şeir («Никогда я не был на Босфоре...»), Rüfət İsayev 1 şeir («Ты сказала, что Саади...»), Teymur Kərimli 2 şeir («Я спросил сегодня у менялы…», «Шаганэ, ты моя, Шаганэ...») və bu sətirlərin müəllifi 6 şeiri («Улеглась моя былая рана...», «Я спросил сегодня у менялы…», «Ты сказала, что Саади...», «В Хороссане есть такие двери...», «Руки милой – пара лебедей...», «Отчего луна так светит тускло...») dilimizə çevirmişlər.

Şübhəsiz ki, Yesenindən tərcümə edən hər bir tərcüməçinin başlıca məqsədi onun şeirlərini dilimizdə adekvat şəkildə, poetik səsləndirməklə, Azərbaycan poeziyasevərlərinə çatdırmaqdır. Tərcüməçinin məqsədinə nə dərəcədə nail olması isə artıq onun bu sahədəki səriştəsindən, təcrübəsindən, tərcümə nəzəriyyəsinə hansı səviyyədə bələd olmasından, yeri gəldikcə, tərcümə prosesində meydana çıxan konkret çətinliklərin həllində müxtəlif tərcümə priyomlarından istifadə etmək bacarığından, şairlik ilhamından, poeziya duyumundan, geniş mənada, tərcümə edənin tərcüməçilik ustalığından asılıdır. Nəsr tərcüməsindən fərqli olaraq, poetik tərcümənin xeyli çətinlikləri, özünəməxsus xüsusiyyətləri vardır ki, bu məqamları mütərcim öz dilində orijinala uyğun yaratmağa borcludur. Poetik tərcümədə, hər şeydən öncə, “… *mütərcimin ən böyük missiyası ondan ibarətdir ki, o, şairin döyünən qəlbinin çırpıntılarını onun şeirlərindən eşitməli və şairin qəlbinin bu döyüntüsünü öz xalqının dilində (ifadə etməyi bacarmalı), mümkün olmayanı mümkün etməlidir...poeziyanın tərcüməsi zamanı ritm, ölçü, qafiyə və s. ifadə formaları auditoriyaya məlumatın ruhunu çatdırmaqda mühüm amillərdən biridir*”[62, s.75].

Bəs “İran nəğmələri” silsiləsinin mütərcimlərinin poetik tərcümənin belə köklü məsələlərini Azərbaycan tərcümələrində saxlaya bilmələri ilə bağlı suala birmənalı

cavab vermək olarmı? Fikrimizcə, yox. Yesenin poeziyasından tərcümə etmiş mütərcümlərimizin əksəriyyətinin, o cümlədən, "İran nəğmələri"ni tam şəkildə tərcümə etmiş Ə.Kürçaylı, S.Məmmədzadə və E.Borçalının kifayət qədər orijinal söz ustası və tərcüməçi olmalarına baxmayaraq, onların da çevirmələri diqqətlə nəzərdən keçirildikdə, tərcümələrdə xeyli çatışmamazlıqların olduğunun, müəyyən məqamlarda orijinalda olan vacib söz və ifadələrin tərcümədə ya tamamilə verilmədiyinin, ya da təhrif olunmuş şəkildə verildiyinin, orijinalın ruhuna və məzmununa uyğun olmayan ifadələrdən istifadə edildiyinin, yersiz hərfi tərcüməyə meyl, zaman-zaman forma, məzmun, ritm, qafiyə pozuntularının, eləcə də bir sıra digər mübahisəli məqamların yer aldığının şahidi oluruq. Lakin bu məqamlar heç də mütərcimlərin zəhmətinə kölgə salmır.

"İran nəğmələri" silsiləsinin birinci şeiri olan «Улеглась моя былая рана…» şeiri «До свиданья, друг мой, до свиданья» və «Прощай, Баку!» şeirlərindən sonra Yeseninin dilimizə ən çox tərcümə olunan şeirlərindən biridir. İndi şeirdən eyni fraqmentlərin orijinal və müxtəlif tərcümələrinə nəzər salaq:

Улеглась моя былая рана –
Пьяный бред не гложет сердце мне.
Синими цветами Тегерана
Я лечу их нынче в чайхане.

Сам чайханщик с круглыми плечами,
Чтобы славилась пред русским, чайхана,
Угощает меня красным чаем
Вместо крепкой водки и вина [195, s.248].

Ə.Kürçaylının tərcüməsi:

Mənim köhnə yaram qövr etmir hələ,
Sərxoş qızdırmalar keçmir qəlbimdən.
Tehranın bu mavi çiçəklərilə
Onu çayxanada sağaldaram mən.

Çayxana ruslara xoş gəlsin deyə,
O enlikürəkli çayçı durmadan –
Al şərab yerinə, araq yerinə
Süzür mənim üçün məxməri çaydan.
[113, s.98]

S.Məmməzadənin tərcüməsi:

Ovundu qəlbinin köhnə yarası,
Sərxoş mərəkələr geridə qaldı.
Tehran güllərinin mavi röyası,
Çayxana dəmləri könlümü aldı.

Çayçı da can-başla yarayır mənə,
"Urus"a çayxana xoş gəlsin deyə.
Araq əvəzinə, mey əvəzinə
Məxməri çay süzür göy piyaləyə.
[104, s.331]

Q.Xalidin tərcüməsi:

Köhnə yaralarım çətin qanaya, Ruslar çayxanaya dadansın deyə
Daha sona yetdi səfil həyatım. Yekəpər çayçı da canını üzür.
Girdim Tehrandakı bir çayxanaya Dodaq büzə-büzə arağa, meyə
Ki, mavi güllərlə başımı qatım. Mənə qıpqırmızı qaynar çay süzür.

[100, s.38]

F.Mustafanın tərcüməsi:

Köhnə ağrılarım səngiyib hələ, Çayçı rus qonağa, yəni ki, mənə
Könlümü didməyir dərdlər, duyuram. Çayı tərif edir yaxınlaşaraq:
Tehranın masmavi gülləri ilə Tünd araq yerinə, şərab yerinə
Mən bir çayxanada məlhəm qoyuram. Məni tünd çayına eləyir qonaq.

[91]

E.Borçalının tərcüməsi:

Səngiyib sinəmin yara böhranı, Çayxana sahibi bayaqdan bəri,
Gəmirmir içimi o sərxoş qada. Rusun qabağında şan həvəsinə
Mavi çiçəkləri güllü Tehranın Özü çay daşıyır məndən ötəri,
Canıma dərmandı bu çayxanada. Tünd araq yerinə, mey əvəzinə.

[108, s.3]

Orijinal və onun beş müxtəlif duyumlu interpretasiyası.

İlk olaraq onu qeyd edək ki, orijinal on hecalıqla yazıldığı halda mütərcimlərdən hər biri onu onbir hecalıqla tərcümə etmiş və bu, ədalət naminə qeyd edək ki, Azərbaycan şeirində geniş yayılmış forma kimi əsərin ruhunu, səslənməsini və şeirdəki məna çalarlarını vermək baxımından uyğun seçimdir.

Şeirin ilk tərcüməçisi Əliağa Kürçaylı bu şeiri özünəməxsus ilhamla tərcümə etmiş, onun Azərbaycan dilində gözəl səslənməsinə nail olmuşdur. Bununla belə, tərcümədə bəzi məqamları qeyd etmək lazım gəlir. Şeirin birinci bəndində tərcüməçi «Пьяный бред не гложет сердце мне» misrasını "Sərxoş qızdırmalar keçmir qəlbimdən" kimi tərcümə etmişdir. Bu tərcümə orijinaldakı fikrin hərfi tərcüməsidir və Azərbaycan dilində səslənməsi zəifdir. Həmin bəndin son misrasının tərcüməsində də müəyyən qeyri-dəqiqlik var. Belə ki, orijinalda məna indiki zamanda təsvir edilsə də («Я лечу»), tərcümədə gələcək zamanda verilmişdir ("sağaldaram mən"). Biz bu misrada "sağaldıram" sözünün əvəzinə, mexaniki olaraq "sağaldaram" sözünün getdiyini düşünərək, tərcümənin Əliağa Kürçaylının sağlığında dərc edilmiş hər üç

variantını müqayisə etdik. Lakin həmin variantlarda da bu misra "Onu çayxanada sağaldaram mən" kimi verilmişdir.

İkinci bənd kifayət qədər uğurlu tərcümə edilsə də, bir məqama nəzər salaq: Orijinalda ikinci bənd belə bir misra ilə başlayır: «Сам чайханщик с круглыми плечами». Bu misranın tərcüməsinə diqqət yetirək: "O enlikürəkli çayçı durmadan". Bu bəndin məzmunundan açıq-aydın görünür ki, rus qonağın – məşhur şairin qulluğunda çayxana sahibi özü durur ki, çayxanası məşhurlaşsın. Odur ki, bu misrada əsas məqam da çayçının enlikürəkli, yoxsa nazikkürəkli olması deyil, məhz çayxana sahibinin özünün qonağa qulluq etməsidir. Bu fikrin təsdiqi kimi onu da qeyd edək ki, şeirin üçüncü və altıncı bəndlərində müəllif çayçıya birbaşa elə «хозяин» deyə müraciət edir: Üçüncü bənddə «Угощай, хозяин, да не очень», altıncı bəndə «Наливай, хозяин, крепче чаю». Əlbəttə, buradakı «хозяин» sözü mütləq şəkildə şairin çayxana sahibinə müraciətinin sübutu kimi qəbul edilməməlidir. Çünki, ruslar həmişə girdikləri yerdə onlara xidmət göstərən şəxsə (Məsələn: mağazada satıcıya, yeməkxanada, restoranda ofisianta və s.), şirin dillə «хозяин» deyə müraciət edə bilirlər. Amma, istənilən halda, bu şeirin ümumi məzmunu və ruhundan məhz çayxana sahibinin özünün şairə qulluq etdiyi hiss edilir. Buna baxmayaraq orijinalın ruhunun dəqiq verilməsi baxımından vacib olan bu fikir tərcümədə öz əksini tapmamışdır. Qeyd edək ki, tərcüməçilərdən yalnız Eyvaz Borçalı bu məqamı tuta bilmişdir ("Çayxana sahibi bayaqdan bəri"). Amma Firuz Mustafanın da altıncı bənddə "Çayxana sahibi" ifadəsi işlətdiyini qeyd etmək lazımdır. Onu da qeyd edək ki, bu bənddə, misraların Yesenin ardıcıllığını saxlamağa heç nə mane olmadığı halda, Ə.Kürçaylı nədənsə, birinci və ikinci, üçüncü və dördüncü misraların yerini dəyişdirməklə orijinalın formasına lazımsız müdaxilə etmişdir.

Səyavuş Məmmədzadənin tərcüməsində birinci iki misra ustalıqla verilmişdir və orijinaldakı fikri dəqiq əks etdirməklə yanaşı, Azərbaycan dilində də xeyli şirin və təbii səslənir. Ümumiyyətlə, S.Məmmədzadənin bu bəndlərə, əgər belə demək mümkündürsə, öz möhürünü vurmaq istəyi açıq hiss edilir. Lakin orijinalda şair «Синими цветами Тегерана» dedikdə, sadəcə olaraq, çay otunu və çayın dəmlənməsində istifadə edilən bəzi ədviyyələri nəzərdə tutsa da tərcümədə, nədənsə, "Teh-

ran güllərinin mavi röyası” kimi qarışıq bir misra meydana çıxmışdır. Fikrimizcə, birinci bəndin kifayət qədər maraqlı və orilinal tərcüməsinə məhz bu misra bir qədər kölgə salır. Bununla yanaşı mütərcim ikinci bənddə mətnə orijinalda olmayan digər “urus”a, “göy piyaləyə” kimi sözlər də əlavə edir.

Q.Xalid də orijinala öz meyarları ilə yanaşır: Birinci bənddə tərcüməçi orijinaldakı ruhu tuta bilsə də, məna və məzmun baxımından orijinaldan xeyli uzaqlaşmışdır. Belə ki, şair Tehrana getməyib, Tehrandakı çayxanada oturmayıb. O, sadəcə olaraq, “Tehran gülləri” ilə dəmlənmiş çay içir. Digər tərəfdən, orijinalda şair çayxanada “yaralarını sağaldırsa”, tərcümədə, sadəcə, “başını qatır”. Mütərcim bundan sonra rəngləri daha da qatılaşdırır və tərcümədə “dadansın”, “yekəpər çayçı”, “dodaq büzə-büzə” kimi yersiz ifadələr işlətməklə, fikrimizcə, tərcüməyə-şeirə “ucuzluq” gətirmişdir. Rusları çayxanaya “dadandırmaq” üçün “canını üzən” “yekəpər çayçı”, əslində, dodaq büzməməli, gülərüzlü, xoşsifətli olmalıdır.

F.Mustafa da öz tərcüməsində orijinalda olmayan və məzmunla uzlaşmayan “duyuram”, “masmavi”, “yəni ki, mənə”, “Çayı tərif edir yaxınlaşaraq” kimi ifadələr işlətdikdən sonra (bütün bunlar şeirə şeiriyyət əvəzinə bir danışıq ruhu gətirir) ikinci bənddə üçüncü və dördüncü sətirləri inversiyaya məruz qoyur və bütün bunlar, şübhəsiz ki, tərcümənin keyfiyyətinə öz mənfi təsirini göstərir.

E.Borçalı birinci bənddə bir qədər yersiz kimi görünən “yara böhranı” kimi ifadə ilə yanaşı, “Gəmirmir içimi o sərxoş qada” kimi qeyri-poetik və eyni zamanda Azərbaycan dilində çox qarışıq səslənən bir fikir işlədir ki, bu da şübhəsiz arzuolunan hal deyil, bəndin son iki misrasının gözəlliyi fonunda kölgədə qalır və bəndin ümumi tərcüməsinə xələl gətirir.

Tərcümə praktikləri və nəzəriyyəçiləri bunun yaradıcı iş prosesi olduğunu söyləyirlər. Lakin yaradıcılıq orijinaldan yersiz kənarlaşma kimi başa düşülməməlidir, orijinal mətndəki söz və ifadələr tərcümədə daha ucuz və bəsitləri ilə əvəz olunmamalıdır. Məsələn, yuxarıda qeyd etdiyimiz kimi, Q.Xalid orijinala yaradıcı yanaşmaq əvəzinə, “dadansın”, “yekəpər çayçı”, “dodaq büzə-büzə” kimi yersiz ifadələrlə onu daha çox zədələyir. Eləcə də F.Mustafa “duyuram”, “masmavi”, “çayçı

rus qonağa, yəni ki mənə", "yaxınlaşaraq", S.Məmmədzadə "mavi röya" işlətməklə, orijinaldan gələn effekti gözəgörünəcək dərəcədə aşağı salırlar.

Bu şeirin dördüncü bəndinin tərcüməsi də ayrı-ayrı mütərcimlərdə birmənalı qəbul edilə bilməz. Orijinalda:

Мы в России девушек весенних
На цепи не держим, как собак,
Поцелуям учимся без денег,
Без кинжальных хитростей и драк [195, s.248].

Ə.Kürçaylı:

Bahar təravətli gözəlləri biz
Rusiyada it kimi zəncirləmirik.
Davasız, məkrsiz, pulsuz, xəncərsiz
Öpürük onları, əzizləyirik [113, s.98].

S.Məmmədzadə:

Bizim Rusiyada əzəldən bəri
Qız nədi, qəfəsdə saxlamaq nədi.
Satın da almırıq ilk öpüşləri,
Xəncərə güvənib çağlamaq nədi… [104, s.331]

Q.Xalid:

Bizdə qızlar saymır çadranı, zadı,
Gözəllər dünyanı almır vecinə.
Satın da almırıq öpüşü, satın,
Sevib-sevilmirik xançal gücünə [100, s.38].

F.Mustafa:

Nazənin qızları Rusiyada, bil,
Zəncirdə it kimi saxlamırıq biz.
Öpüşlə onlara veririk təlim
Hiyləsiz, davasız, xəncər-nizəsiz [91].

E.Borçalı:

Bizim tərəflərdə, ruslar elində
Zəncirdə saxlanmır yaz ətirli qız.
Öpüş öyrənirik busə dilində
Xəncərsiz, bıçaqsız, pulsuz, davasız [108, s.3].

Əliağa Kürçaylı bəndin tərcüməsində orijinala tam sadiqliyini saxlayaraq, bəndi olduğu kimi tərcümə etmişdirsə, Səyavuş Məmmədzadə, əksinə, bəndi xeyli "azərbaycanlaşdırmışdır". Bu bənddə diqqəti cəlb edən əsas misra bəndin ikinci misrasıdır: «На цепи не держим, как собак». S.Məmmədzadə Şərqli qızın orijinaldakı "təhqirini" qəbul etmir və bu məqsədlə misranı, ilk baxışda bayağı və solğun təsir bağışlamaqla qəbuledilməz kimi görünən, "Qız nədi, qəfəsdə saxlamaq nədi" şəklində təqdim edir. Misranın belə tərcüməsi Y.Quluzadənin bir məqaləsində xüsusi tənqid obyektinə çevrilmiş və mütərcimin yüngül qafiyələrdən istifadə etmək istəyinin özünü uğursuzluğa düçar etdiyi vurğulanmışdır. Müəllif məqalədə nəticə olaraq yazır: "*Səyavuş Məmmədzadədə estetik konsepsiya üstünlük təşkil edir – onun üçün bütün silsilənin, əsərin bütünlükdə əhvali-ruhiyyəsinin verilməsi, ümumi səslənməsi vacibdir. Doğrudur, bu halda Səyavuş Məmmədzadə bir qədər həddi aşmışdır – qafiyəli misralar yüngül səslənir: "Qız nədi, qəfəsdə saxlamaq nədi"; "Xəncərə güvənib çağlamaq nədi". Məşhur bir şeirin sözləri qulaqlarda cingildəyir: "Çay nədi, say nədi...*" [147, s.28].

Tədqiqatçının bu fikrini təkzib etmirik. Amma, bununla yanaşı, qeyd etmək istəyirik ki, "Qız nədi, qəfəsdə saxlamaq nədi" misrası orijinaldakı uyğun fikrin tərcüməsi kimi kifayət qədər orijinal tapıntıdır. Azərbaycan dilində çox gözəl və təbii səslənir. Təəssüf ki, son misra ("Xəncərə güvənib çağlamaq nədi...") bu gözəlliyə mane olur, Y.Quluzadənin yazdığı kimi yüngül səslənir. Amma bütün bunlarla yanaşı, onu da qeyd etmək istəyirik ki, tərcümədə hər şeyi olduğu kimi, maksimum dərəcədə müəllifin istifadə etdiyi ifadə vasitələrinə adekvat şəkildə verməyə çalışmaq daha doğru yoldur. Yuxarıda bəhs etdiyimiz misranı kimsə təhqir kimi qəbul edə bilər, amma, istənilən halda, bu fikir, orijinal müəllifinin gerilik ənənəsi kimi qəbul etdiyi bir köklü problemə - Şərq aləmində qızların çadrada saxlanması məsələsinə başqa bir milli mədəniyyət daşıyıcısının şair etirazıdır. Tərcüməçinin əsas işi isə orijinal müəllifinin demək istədiyini öz ifadələri ilə açmağa çalışmaq yox, onun nə dediyini, üstəlik də necə dediyini olduğu kimi, orijinala maksimum sədaqətlə verməkdir.

Q.Xalid də misradakı “təhqiri” kifayətqədər yumşaltmağa çalışır, lakin misraya geniş müdaxilə onun koloritini azaldır və misra “Gözəllər dünyanı almır vecinə” kimi oxucuya təqdim edilir. F.Mustafa isə həmin misranı orijinala tam uyğun şəkildə - “Zəncirdə it kimi saxlamırıq biz” formasında ortaya qoyur. E.Borçalı da öz tərcüməsində S.Məmmədzadə və Q.Xalid kimi «собака» sözündən “qaçır”, amma onlardan fərqli olaraq misranı rahat və hədəfə dəyən şəkildə - «Zəncirdə saxlanmır yaz ətirli qız» kimi verir və fikrimizcə, mütərcimin bu yanaşması özünü doğruldur. Amma bənddəki, üçüncü misra – «Öpüş öyrənirik busə dilində» elə S.Məmmədzadənin «Xəncərə güvənib çağlamaq nədi...» misrası kimi lazımsız söz oyunu təsiri bağışlayır.

Bu şeirdə əsas məqamlardan biri üçüncü və sonuncu bəndlərdə son iki misranın təkrarlanmasıdır: «Незадаром мне мигнули очи / Приоткинув черную чадру». Təəssüf ki, bu formanın saxlanmasının vacibliyinə baxmayaraq, Ə.Kürçaylı onu çox rahatca pozmuşdur. Belə ki, üçüncü bəndin son misrasında (“Qara çadrasını atıb bir anda”) “atıb” əvəzinə, şeirin son misrasında olduğu kimi, “çəkib” işlətməklə, formanı qorumaq mümkün və vacib idi. Qeyd edək ki, şeirin tərcüməsinin ilkin variantında [112, s.95-96] həm üçüncü, həm də sonuncu bənddə bu misra, bizim qeyd etdiyimiz kimi, eyni şəkildə – “Qara çadrasını çəkib bir anda” kimi verilmişdir. Lakin sonrakı iki variantın hər ikisində [109, s.77; 113, s.98] üçüncü bənddə “çəkib” ifadəsi “atıb”la əvəz edilmişdir. Bu əvəzləmənin məntiqini başa düşmək olmur. Bəlkə də bu məqam müəllifin özünün də gözündən qaçmış mexaniki səhvdir.

Ə.Kürçaylıda olduğu kimi, S.Məmmədzadənin tərcüməsində də bu hal saxlanılmamışdır. Qeyd etmək istəyirik ki, bu üsul Yeseninin şeirlərində tez-tez istifadə etdiyi, sevdiyi üsullardandır. Ən azı, bu səbəbdən və təbii ki, formanın saxlanması baxımından da həmin misralar hər iki halda eyni cür ifadə edilməlidir. Burada formanın pozulması ilə yanaşı onu da qeyd edək ki, orijinaldakı «приоткинув» sözünün qarşılığı olaraq tərcüməçi 3-cü bənddə “çadranı açıb”, son bəndə isə “açıb üzünü” kimi qeyri-poetik ifadələrə üstünlük vermişdir. Burada mütləq başqa bir ifadə tapılmalıydı. Çünki, göz vurmaq üçün üzü açmağa, çadranı açmağa ehtiyac yoxdur, çadranı çəkmək kifayətdir. Əslində, göz vurmanın gözəlliyi və intimliyi də elə bundadır.

Qeyd olunan bu sabitlik Q.Xalid (“Bir qara çadralı üzünü açıb / Bayaq ordan mənə göz vurdu axı”), F.Mustafa (“Çadradan boylanan o gözlər hələ / Yadımdan çıxmayır gör bir haçandı”) və E.Borçalının («Havayı göz vurmur mənə o gözlər / Qara çadrasını çəkib xəlvəti”) tərcümələrində saxlanılsa da, tərcüməçilərin heç biri bu məqamlarda sabitliyi saxlamaqla yanaşı poeziyanı qorumağa müvəffəq ola bilməmişdir. İlk iki tərcümə ilə bağlı əlavə şərhə heç bir ehtiyac duymasaq da, E.Borçalının tərcüməsində ikinci misranın kifayət qədər dəqiq, gözəl və poetik səslənməsinə baxmayaraq, birinci misradakı “Havayı” ifadəsi və bu misrada iki dəfə “göz” sözünün işlədilməsinin beytin ümumi poeziyasına xələl gətirdiyini qeyd etməyi lazım bilirik. Üstəlik, orijinalda olduğu kimi, burada da göz vurmanın İndiki zamanda deyil, keçmiş zamanda verilməsi (orijinalda - «мигнули», tərcümədə - “göz vurmur”) daha yaxşı olardı.

Şekspir, Bayron, Höte və digər poeziya nəhənglərindən nümunələri ruscaya çevirmiş, tanınmış rus şair-tərcüməçi V.Levikin fikrincə, tərcümə zamanı mütərcim üçün ən başlıca xüsusiyyətlərdən biri və hətta birincisi, onun orijinala sadiqliyi ilə, poetik ilhamının sintezidir [244]. Digər tərəfdən, tərcüməşünaslıqda tərcümənin dəqiqliyindən çox danışılır, bu məsələ ətrafında çox diskussiyalar aparılır. Adını çəkdiyimiz mütəxəssisin fikrincə, məhz bu prinsip, tərcümə praktikasında, zaman-zaman müəyyən uyğunsuzluqlara və hətta yanlışlıqlara gətirib çıxarır və tərcümənin dəqiqliyi, ümumiyyətlə, onun bədiilik ölçüsü ola bilməz [245, s.358-359].

Ümumiyyətlə, orijinala sədaqət, dəqiqlik, adekvatlıq kimi məfhumlar bir-birinə çox yaxın səsləndiyi qədər də fərqli anlayışlardır. Digər tərəfdən də, bu məsələlər fərqli olduqları qədər də bir-biri ilə vəhdətdədir. Odur ki, nəzəriyyədən fərqli olaraq, praktik tərcümədə qarşıya bu prinsiplərin hər birinə ayrı-ayrılıqda əməl etmək kimi məqsəd qoyularsa, alınan mətn orijinal mətnin quru, rəngsiz surətinin çıxarılmasından başqa bir şey olmayacaq və burada poeziyadan, ürəyəyatımlıqdan, oxucu ilə şirin ünsiyyətdən danışmaq mümkün olmaz. Buna görə də hesab edirik ki, orijinaldakı hər bir sətirlə tərcümənin hər bir sətrinin tam üst-üstə düşməsi, söz və ifadələrin mütləq orijinaldakı ardıcıllıqda verilməsi kimi quru dəqiqlik vacib deyildir. Daha doğrusu, quru, bəsit, dəqiqlik tərcümənin gözəlliyi hesab edilə bilməz, orijinala sadiqlik isə

tərcümənin uğuru hesab edilməlidir. Əlbəttə, əgər mütərcim, orijinala sadiq qalmaqla, eyni zamanda həm də dəqiqliyi tam qoruya bilirsə və üstəlik, orijinalın ruhunu, orijinal müəllifinin təəssüratını oxucuya çatdıra bilirsə, bu, onun tam uğuru kimi qiymətləndirilməlidir. A.Tolstoy, alman dilindən tərcümələri haqqında danışarkən, yazır: "*Mən, mümkün olduğu qədər, orijinala sadiq olmağa çalışıram, amma o yerdə ki, harda sadiqlik və ya dəqiqlik bədii təəssürata zərər vermir və bir dəqiqə belə tərəddüd etmədən, əgər bu rus dilində, alman dilində olduğundan fərqli təəssürat bağışlayırsa, sətrilikdən uzaqlaşıram. Mən düşünürəm ki, sözləri və hətta bəzən mənanı da tərcümə etmək lazım deyil – təəssüratı vermək lazımdır*" [329, s.321].

Digər tərəfdən də "*tərcümə mətninin başlıca, "ilkin elementi" (M.Qorki) olan söz özünün rəngarəngliyi, çoxmənalılığı, sinonimlik potensialı ilə xarakterizə olunduğundan mütərcim qarşısında bir sıra şərtlər qoyur. Hər bir konkret dilin lüğət tərkibinin böyük bir qismini elə sözlər təşkil edir ki, onlar müstəqim, birbaşa mənaları ilə yanaşı məcazi mənalar daşıyır. Tərcümə prosesində bu mənalar arasında sözün konkret semantik mahiyyətini müəyyənləşdirmək ikiqat çətinlik yaradır... Bu mühüm amilin tərcüməçi tərəfindən düzgün qavranması, nəhayət ikinci dildə verilməsi son dərəcə məsuliyyətli və vacib problemdir*" [4, s.86].

Beləliklə, yuxarıda apardığımız müqayisələrə, müraciət etdiyimiz nəzəri müddəalara əsaslanaraq, belə nəticəyə gəlirik ki, təhlil obyekti kimi öyrəndiyimiz şeirin mütərcimlərindən hər biri Yesenin orijinalına öz "açarını" salmağa çalışsa da, bəzən özlərinin yad elementləri ilə orijinala yersiz müdaxilələr etmiş, onun məzmununa müəyyən dərəcədə oxunaqsızlıq gətirmişlər. Yesenin isə elə bir sənətkardır ki, onun şeir mətni yad elementləri qəbul etmir. Bununla belə qeyd etmək istəyirik ki, tərcümələrin hər birində müəyyən çatışmamazlıqlar olsa da (belə çatışmamazlıqlara bizim burada təhlil etmədiyimiz bəndlərdə də rast gəlinir) Q.Xalid və F.Mustafanın çevirmələri Ə.Kürçaylı S.Məmmədzadə və E.Borçalı tərcümələrinə nisbətən xeyli zəif təsir bağışlayır. Xüsusən də, Ə.Kürçaylı özgə dildən tərcümənin xarakterinə, söz və ifadələrin daha çox hədəfə tuşlanması vacibliyinə xüsusi fikir verdiyindən, onun mətni digər tərcümələrlə müqayisədə daha yaxşı alınmışdır. O, orijinala sadiq olduğu qədər də, ana dilinin imkanlarından geniş istifadə etməklə

şeirin tərcüməsinə özünəməxsus naxışlarını vura bilmişdir. "*Əliağa Kürçaylının tərcüməsində poetik əhatə gözlənilib, fikirlər Yesenin ruhunun diqtəsi kimi təzahür edir...və bu yanaşmada bir könül-ürək sızıltısı var; burada hətta obraz və mövzu əhatəsi də həsrətə, hicrana bulaşmış şəkildədir*" [63].

"İran nəğmələri" silsiləsində yer almış digər bir şeirin «Шаганэ ты моя Шаганэ» şeirinin bəzi fraqmentlərinin tərcümələrini orijinalla müqayisə edək. Bu şeiri ilk dəfə Ə.Kürçaylı, ondan sonra S.Məmmədzadə, F.Mustafa, E.Borçalı və 2016-cı ildə isə Teymur Kərimli tərcümə etmişlər. Orijinal:

Шаганэ ты моя, Шаганэ!
Потому, что я с севера, что ли,
Я готов рассказать тебе поле,
Про волнистую рожь при луне.
Шаганэ ты моя, Шаганэ.

Потому, что я с севера, что ли,
Что луна там огромней в сто раз,
Как бы ни был красив Шираз
Он не лучше рязанских раздолий.
Потому, что я с севера, что ли. [195, s.252]

Ə.Kürçaylı:

Sevimli Şahanə, gözəl Şahanə!
Ona görəmi ki, şimaldanam mən,
İstərəm söz açam sonsuz çöllərdən,
Dalğalı çovdardan söz açım sənə,
Sevimli Şahanə, gözəl Şahanə.

Ona görəmi ki, şimaldanam mən,
Elə bil böyükdür orda ay bir az.
Nə qədər füsunkar olsa da Şiraz,
O, yaxşı deyildir Ryazan çölündən,
Ona görəmi ki, şimaldanam mən?[113, s.102]

S.Məmmədzadə:

Mehriban Şahanə, gözəl Şahanə,
Şimal həsrətimi göynətdi məni?
Qoy ayın nurunda çimən zəmini
Nağıla çevirib söyləyib sənə,
Mehriban Şahanə, gözəl Şahanə!

Şimal həsrətimi göynətdi məni?
Orda ay doğanda göylərə sığmaz...
Nə qədər səfalı olsa da Şiraz,
Mənə unutdurmaz Ryazan elini…
Vətən həsrətimi göynətdi məni? [104, s.333]

F.Mustafa:

Şahanə, Şahanə, mənim Şahanəm!
Bəlkə də şimaldan olduğum üçün
Sənə düzənlərdən söz açım bu gün,
Gecə dalğalanan zəmi bir aləm,
Şahanə, Şahanə, mənim Şahanəm!

Bəlkə də şimaldan olduğum üçün
Ay böyük görünür yüz dəfə azı.
Nə qədər sevsəm də gözəl Şirazı,
Ryazan tək geniş görünmür bu gün
Bəlkə də şimaldan olduğum üçün [107].

E.Borçalı:

A mənim Şahanəm, mənim Şahanəm! Şimallı olmağım olsun bəhanəm,
Şimallı olmağım olsun bəhanəm, Ay orda iridir yüz dəfə azı
Sənə söhbət açım çovdar çölündən, Nə qədər sevsəm də sizin Şirazı,
Dalğalı zəmidə ayın selindən; Ryazan çölündən artıq bilmərəm,
A mənim Şahanəm, mənim Şahanəm! Şimallı olmağım olsun bəhanəm.[108, s.7]

T.Kərimli:

Şahanəm, Şahanəm, mənim Şahanəm, Şimaldan gəlmişəm, bəlkə bu üzdən,
Şimaldan gəlmişəm, bəlkə bu üzdən? Orda ay yüz dəfə böyükdü burdan.
Sənə tarlalardan danışaram mən, Şiraz necə gözəl olsa da, inan:
Ay nurunda çovdar ləpələrindən, Gözəl deyil Ryazan çöllərindən,
Şahanəm, Şahanəm, mənim Şahanəm! Şimaldan gəlmişəm, bəlkə bu üzdən? [111]

Mütərcimlərin hər biri «Шаганэ ты моя, Шаганэ!» misrasını özünəməxsus şəkildə - Ə.Kürçaylı "Sevimli Şahanə, gözəl Şahanə!", S.Məmmədzadə "Mehriban Şahanə, gözəl Şahanə", F.Mustafa "Şahanə, Şahanə, mənim Şahanəm!", E.Borçalı "A mənim Şahanəm, mənim Şahanəm!", Teymur Kərimli "Şahanəm, Şahanəm, mənim Şahanəm" kimi tərcümə edirlər. İlk iki tərcümədən (Ə.Kürçaylı, S.Məmmədzadə) heç biri orijinaldakı orijinal effekti əks etdirmir, misradakı gözəllik adilik dərəcəsinə qədər zəifləyir. Üstəlik, S.Məmmədzadə misranın vurğulu, nidalı xüsusiyyətinə də diqqət yetirməmişdir. F.Mustafa və E.Borçalının tərcümələri bunlarla müqayisədə xeyli maraqlı görünür. F.Mustafa orijinaldakı «Шаганэ ты моя, Шаганэ!» xüsusi isminin və müraciət formasının, orijinaldan fərqli olaraq, üç dəfə təkrarlanmasına – misranın "Şahanə, Şahanə, mənim Şahanəm!" kimi tərcüməsinə üstünlük verməklə, fikrimizcə, misradakı ekspressivliyi bir qədər də qaldırmaqla sətrin təsir gücünü də, müəyyən mənada, artırmağa nail olmuşdur. Ə.Kürçaylı və S.Məmmədzadənin tərcümələri ilə müqayisədə, F.Mustafanın tərcüməsi ilə yanaşı, E.Borçalının tərcüməsi də («A mənim Şahanəm, mənim Şahanəm!»), fikrimizcə, xeyli maraqlı və orijinala yaxın görünür.

Bu şeirin bu günə məlum olan son tərcüməsi T.Kərimliyə məxsusdur. S.Məmmədzadədə olduğu kimi burada da misranın vurğulu, nidalı xüsusiyyətinə diqqət verilməməsinə baxmayaraq, fikrimizcə, göstərilən misranın T.Kərimli

tərcüməsi (“Şahanəm, Şahanəm, mənim Şahanəm”), digər tərcümələrlə müqayisədə, kifayət qədər maraqlı, orijinal və ürəyəyatımlı səslənir, orijinaldakı səmimi müraciəti eyni səmimiliklə oxucuya çatdıra bilir.

Bu sətirlərin müəllifinin 2010-cu ildə işıq üzü görmüş “Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Serqey Yesenin” adlı kitabında bu misranın təhlili ilə bağlı belə bir fikir yer almışdı: “*Fikrimizcə, Firuz Mustafa «Шаганэ ты моя, Шаганэ!» misrasının daha orijinal və uğurlu tərcüməsinə xeyli yaxınlaşmışdır. Düşünürük ki, əgər o, öz tərcüməsində “m” hərfinə bir qədər “xəsislik” etməsəydi, həmin misra daha gözəl və şairanə səslənərdi: “Şahanəm, Şahanəm, mənim Şahanəm*!” [42, s.144]. T.Kərimili, F.Mustafanın tərcüməsindəki bu çatışmazlığı məharətlə aradan qaldırmış və uyğun misranın, zənnimizcə, bu günə ən yaxşı tərcüməsini yaratmağa müvəffəq olmuşdur.

Həmin bəndin dördüncü misrasına nəzər salaq. Orijinaldakı «волнистая рожь при луне» fikri Ə.Kürçaylıda “dalğalı çovdar” kimi tərcümə edilmişdir. Orijinalı oxuduqda göz önündə gözəl bir mənzərə canlanır: Aylı gecə, balaca meh var və ay işığı altında dalğalanan çovdar zəmisi. Tərcümədə isə sadəcə, quru “dalğalı çovdar”. Burada nə gecə var, nə də ay. Çovdar zəmisi gündüz də dalğalana bilər. Bununla da orijinaldakı gözəl mənzərənin Yesenin vəsfi tərcümədə tamamilə itirilmişdir. Qeyd edək ki, mütərcim dördüncü bənddə eyni «Про волнистую рожь при луне» misrasını “Ay işığındakı dalğalı çovdar” kimi verməklə, birinci bənddəki uğursuz, quru “dalğalı çovdar”ı xeyli şairanə şəkildə orijinala yaxınlaşdırmağa nail olmuşdur.

S.Məmmədzadə də bu misranı iki müxtəlif şəkildə təqdim etmişdir. Birinci bənddəki tərcümədən (“Qoy ayın nurunda çimən zəmini”) bir qədər fərqli olaraq dördüncü bənddəki “Gecə ay nurunda çimən çovdarı” kimi şairanə, obrazlı tərcüməni qeyd etmək lazımdır. Zənnimizcə, burada tərcüməçi Yeseninin orijinaldakı mənzərə ilə bağlı kövrək hiss və duyğularını poetik dildə oxucuya çatdıra bilmişdir.

F.Mustafa «Про волнистую рожь при луне» misrasını “Gecə dalğalanan zəmi bir aləm” kimi maraqlı tərcümə etməklə yanaşı, əvvəlki iki tərcüməçidən fərqli olaraq, bu misranı orijinala uyğun şəkildə, hər iki bənddə (birinci və dördüncü) dəyişməz saxlamağı bacarmışdır ki, bu da şeirin özünəməxsus formasının saxlanması

baxımından vacibdir. Amma, təəssüf ki, burada da gecənin "aylı gecə" olduğu görünmür və bu da gözəl bir mənzərənin eyni gözəlliklə vəsfinə mane olur.

E.Borçalının tərcüməsində, birinci bənddə orijinaldakı qafiyələnmənin pozulduğu dərhal gözə çarpır. Belə ki, orijinalda hər bənddə 1-4-5-ci misralar və 2-3-cü misralar öz aralarında qafiyələdiyi halda, tərcümənin birinci bəndində 1-2-5 və 3-4-cü misralar qafiyələnir. Digər bəndlərdə isə tərcüməçi orijinaldakı qafiyələnməni saxlamışdır. Birinci bənddəki ilk iki misra arasındakı bağlılıq bir qədər yüngül səslənsə də, tərcüməçi aylı gecədə dalğalanlan çovdar zəmisinin gözəlliyini, sanki, maraqlı ifadə edə bilmişdir: "Sənə söhbət açım çovdar çölündən / Dalğalı zəmidə ayın selindən". Onu da qeyd edək ki, tərcüməçi şeirin 1-ci və 4-cü bəndlərində 3 dəfə təkrarlanan «Про волнистую рожь при луне» misrasını həm də, orijinala uyğun olaraq, bütün hallarda sabit saxlamağa müvəffəq olmuşdur.

T.Kərimilinin tərcüməsinə gəlincə, qeyd edək ki, mütərcim «Про волнистую рожь при луне» misrasını "Ay nurunda çovdar ləpələrindən" kimi maraqlı ifadə etməklə yanaşı, həm də bu misranı həm 1-ci, həm də 4-cü bənddə 3 dəfə sabit sağlamağa müvəffəq olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, bu sabitliyi F.Mustafa və E.Borçalı da qoruya bilmişlər. Burada onu da qeyd etmək yerinə düşər ki, tərcüməçilərdən yalnız 3-ü – S.Məmmədzadə, E.Borçalı və T.Kərimli bu mənzərədə sadəcə gecəni deyil, aylı gecəni vəsf edə bilmişlər.

Bütün yuxarıda deyilənləri nəzərə almaqla, fikrimizcə, «Про волнистую рожь при луне» misrasınının S.Məmmədzadə tərəfindən təqdim edilmiş "Gecə ay nurunda çimən çovdarı" kimi tərcüməsi, digər tərcümələrlə müqayisədə, daha maraqlı, daha ürəyəyatan görünür.

Təhlilə cəlb etdiyimiz ilk iki bənddə, eləcə də ümumilikdə şeirin tərcümələrinin hər birində digər bir sıra zəif məqamlar və ya çatışmamazlıqlar da var.

İkinci bəndin ikinci misrası orijinalda belədir: «Что луна там огромней в сто раз». Şimalda şairə "yüz dəfə böyük" görünən ayı Ə.Kürçaylı yalnız "bir az böyük" kimi, üstəlik bir az da şübhəli şəkildə təsvir etməklə kifayətlənmişdir: "Elə bil böyükdür orda ay bir az". İkinci bənddəki «Он не лучше рязанских раздолий» misrasının "O, yaxşı deyildir Ryazan çölündən" kimi tərcüməsi də poeziya

baxımından zəif səslənir, zənnimizcə, “yaxşı deyildir” yazmaqla tərcüməçi misradakı fikir dolğunluğunu və şeiriyyəti zəiflətmişdir.

S.Məmmədzadənin tərcüməsində ikinci bəndin birinci misrasındakı («Потому, что я с севера, что ли») fikir, müəyyən mənada, təhrif edilmişdir – “Şimal həsrətimi göynətdi məni?”. Əslində, bu bənddə mərkəzi fikir o deyil ki, şair vətəni üçün darıxır. Mərkəzi fikir odur ki, özü şimal ölkəsindən olduğu üçün şair oranın bütün gözəlliklərini sevdiyinə anlatmaq, həmin gözəllikləri xəyalən ona göstərmək istəyir. Tərcümədə isə “Şimal həsrətimi göynətdi məni?” deyə şair vətəni üçün darıxır. «Что луна там огромней в сто раз» misrasının “Orda ay doğanda göylərə sığmaz...” kimi tərcüməsi isə dilimizdə gözəl səslənir, orijinaldakı mənanı və ruhu çox dəqiq və şairanə ifadə edir. Burada səmimilik, güclü ekspressiya və emosionallıq var, orijinala sadiqlik göz qabağındadır. Bu misranın tərcüməsi bu şeirdəki ən uğurlu tərcümə edilmiş məqamlardan biridir desək, yanılmarıq. Bu bənddəki «рязанских раздолий» ifadəsinin “Ryazan eli” kimi tərcüməsi isə yanlışdır. Söhbət Yeseninin həmişə xüsusi ilhamla vəsf etdiyi Ryazan düzənliklərindən, Ryazan çöllüklərindən gedir, bunu “Ryazan eli” ifadəsi altında birləşdirməyə ehtiyac yox idi. Ümumilikdə isə bu şeirin S.Məmmədzadə tərəfindən tərcüməsi, bütün çatışmamazlıqları və zəif məqamları ilə yanaşı, digər tərcümələrlə müqayisədə, daha yaxşı təsir bağışlayır, dilimizdə səslənməsi daha şirin və səmimidir.

«Что луна там огромней в сто раз» misrasının F.Mustafa tərəfindən “Ay böyük görünür yüz dəfə azı” kimi tərcüməsi nə qədər dəqiq olsa da tərcümədə ayın harada – şimalda, yoxsa Şərqdə “yüz dəfə böyük” göründüyü aydın olmur, fikir qaranlıq qalır. Halbuki orijinalda bu açıq-aydın ifadə edilmişdir. Digər tərəfdən, orijinaldakı «рязанских раздолий» ifadəsinin quru “Ryazan” şəklində, «лучше» sözünün “geniş” kimi tərcüməsi də uğurlu tərcümə hesab edilə bilməz. Bundan başqa, üçüncü bəndin tərcüməsindəki “Bundan isti-soyuq olammaz mənə” misrası da çox yüngül səslənir və tərcümədəki şeiriyyəti zəiflədən məqamlardandır.

Eyvaz Borçalının tərcüməsində ikinci bəndin 3-cü və 4-cü misralarına nəzər salaq: “Nə qədər sevsəm də sizin Şirazı / Ryazan çölündən artıq bilmərəm”. Buradakı 2-ci misra bir qədər natamam kimi səslənir. 4-cü bənddəki “Gülümsə, ərk elə, gülüş

saç barı / Təki ün çıxmasın yaddaş gölündən” misraları da ağır səslənir, xüsusən ikinci misra orijinalda aydınca ifadə edilmiş bir fikri («Не буди только память во мне») nə qədər mürəkkəbləşdirir.

Teymur Kərimlinin tərcüməsində ikinci bəndə bütün misralar kifayət qədər adekvat tərcümə olunsa da, 4-cü misrada heca çatışmazlığı diqqətdən qaçmışdır. Belə ki, bütün misralar 11 hecalı olsa da, bu misra 10 hecalı alınmışdır və təbii ki, bəndin səslənməsini xeyli zəiflətmişdir. 4-cü bənddəki “şımar” ifadəsi də ürəyə yatmır. Bununla yanaşı, 5-ci bənddəki, «На тебя она страшно похожа» misrasının “Elə bil almatək bənzəyir sana” kimi, kifayət qədər uğurlu, tərcüməsini də qeyd etmək lazımdır.

Bu şeirin tərcüməsi ilə bağlı bir məqamı da qeyd edək: “Kədərli seçmələr” kitabının “Esselər” bölməsində [1, s.166-168] Kamal Abdulla bir vaxtlar «Шаганэ ты моя, Шаганэ!» şeirini tərcümə etdiyini qeyd edir, yazıda bu şeiri hansı hislər altında tərcümə etdiyini qələmə alır. Müəllifin “Yeseninə olan bütün gənclik duyğuları və məhəbbəti” kimi qiymətləndirdiyi bu tərcümə əvvəllər heç bir yerdə dərc edilməmişdir, eləcə də yuxarıda adı çəkilən yazıdan göründüyü kimi, müəllif həmin tərcüməni bitmiş əsər hesab etmir. Bu səbəbdən də o, tərcüməni göstərilən kitabın “Tərcümələr” bölməsinə də daxil etməmişdir. Bunu nəzərə alaraq, biz də burada həmin tərcümə haqqında hər-hansı bir əlavə şərh verməyi lazım bilmədik.

“İran nəğmələri” silsiləsindəki digər nümunə kimi Yeseninin «Никогда я не был на Босфоре…» şeirinin tərcümələrinə nəzər salaq. Bu şeir Ə.Kürçaylı, S. Məmmədzadə, G.Mövlud və E.Borçalı tərəfindən dilimizə çevrilmişdir.

Şeirdən yalnız iki bəndi, orijinalla tərcümələri tutuşdurmaqla, təsvir etməyə çalışacağıq. Orijinal:

Не ходил в Багдад я с караваном,
Не возил я шелк туда и хну.
Наклонись своим красивым станом,
На коленях дай мне отдохнуть.

У меня в душе звенит тальянка,
При луне собачий слышу лай.
Разве ты не хочешь, персиянка,
Увидать далекий синий край? [195, s.255]

Ə.Kürçaylının tərcüməsi:

Məni aparmadı Bağdada karvan,
Ora daşımadım xınayla ipək.
Gözəl qamətinlə sən otur bir an,
Qoy dizin üstündə dincəlim görək.

Qəlbimdə səslənir şimal yelləri,
Budur, it də hürür ay işığında.
Məgər, a fars qızı, bizim elləri
Görmək istəmirsən, söylə bir an da? [113, s.105]

S.Məmmədzadənin tərcüməsi:

Bağdada karvanla getməyib malım,
Sən məndən nə ipək, nə xına istə.
Yaxın gəl, gözəlim, dincimi alım
O ipək əllərin, dizlərin üstə.

Qəlbimdə qarmonun səsi közərir,
Ayın işığında çimir çöl, çəmən.
De, istəməzdinmi, Şərqin gözəli,
O mavi diyarı gedib görəsən? [104, s.334]

Günel Mövludun tərcüməsi:

Xınadan, ipəkdən yükümü tutub,
Bağdada karvanla səfər etmədim.
Qoy əyilsin sənin gözəl qamətin,
Mən də dizlərində yatım-dincəlim…

İndi ürəyimdə talyanka səsi,
İt hürüşü gəlir qulaqlarıma.
Baxmaq istəmirsən, ey fars pərisi,
Mavi vətənimin uzaqlarına? [101]

E.Borçalının tərcüməsi:

Olmayıb karvanlı Bağdad səfərim,
İpəkdə, xınada gəzməyib əlim;
Gözəl qamətinlə əyil ki, bəri,
Dizinə baş qoyub bir az dincəlim.

Diddikcə içimi qarmon avazı,
Hürüşür itlər də göydəki aya.
Getmək istəməzmi, görən, fars qızı
Uzaq məkandakı mavi dünyaya?! [108, s.10]

Burada orijinaldan nümunə gətirdiyimiz bəndlərin sətri tərcüməsini də verib ondan sonra hər bir tərcümənin əslə yaxınlığına nəzər salaq:

Getməmişəm Bağdada mən karvanla,
Aparmamışam ora ipək və xına.
Əyil özünün gözəl qamətinlə,
Dizlərin üstündə izn ver dincəlim.

Mənim qəlbimdə səslənir qarmon,
Ay işığında it hürüşü eşidirəm.
Məgər istəmirsən, a fars qızı,
Görmək uzaq göy diyarı?

Ə.Kürçaylı ikinci bənddə, demək olar ki, orijinala məxsus əksər detalları saxlamağa çalışmaqla, Yesenin şeirinin forma, məna, məzmun mənzərəsini yarada bilir. Tərcümədə istifadə edilən əksər sözlər və ifadələr orijinalın ruhunu əks etdirir, orijinaldan ciddi kənarlaşmalar nəzərə çarpmır. Mütərcim, yalnız orijinaldakı «Наклонись» felini "otur", «слышу» felini "budur" kimi işarə əvəzliyi ilə dəyişib təqdim edir və belə dəyişiklik, ümumiyyətlə, tərcümənin ruhuna xələl gətirmir. Lakin

ikinci bənddən fərqli olaraq dördüncü bənddəki «У меня в душе звенит тальянка» misrasını tərcüməçi "Qəlbimdə səslənir şimal yelləri" kimi verməklə, orijinaldakı konkret bir fikri – rus qəlbinin klassik "qarmon həsrətini" qeyri-müəyyən "şimal yelləri" həsrəti ilə əvəz etmişdir ki, bu da Yesenin dəsti-xəttinə yad bir elementdir. Burada qeyd etmək yerinə düşər ki, yeddinci bənddə şair qarmon həsrətini yenidən dilə gətirsə də («Заглуши в душе тоску тальянки»), tərcüməçi yenə buna məhəl qoymur və misranı "Kədəri, qüssəni qov ürəyimdən" kimi tərcümə edərək fikri uğursuz şəkildə standartlaşdırır.

S.Məmmədzadənin tərcüməsi haqqında nə demək olar? Mütərcim orijinaldakı «Не ходил в Багдад я с караваном», - "Bağdada karvanla getməyib malım" kimi tərcümə edir və misranın məna çalarını dəyişdirir. Növbəti sətir də, demək olar ki, tamamilə alınmayıb: «Не возил я шелк туда и хну» - "Sən məndən nə ipək, nə xına istə" kimi ortaya çıxır. Orijinalda heç kim heç kimdən nə ipək, nə də xına istəmir; misra tamamilə yad elementlərlə doldurulur. Üçüncü və dördüncü sətirlərdə orijinaldakı «Наклонись своим красивым станом / На коленях дай мне отдохнуть» tərcüməçi tərəfindən "Yaxın gəl, gözəlim, dincimi alım / O ipək əllərin, dizlərin üstə" kimi verilir. Orijinalda «əllərin» ifadələri yoxdur, orijinal müəllifi gözəlin dizləri üstə dincəlməkdən danışır.

Tərcüməçinin qarşısında duran əsas məsələlərdən biri də onun tərcümə etdiyi dilin özünəmənsub koloritindən istifadə edə bilməsidir. Səyavuş Məmmədzadənin tərcümələrində bu məqam, bəzən tamamilə unudulur. «Никогда я не был на Босфоре» şeirinin tərcüməsi buna bariz nümunədir. Əlbəttə, tərcüməçi tərcümə etdiyi şeiri, müəyyən mənada, "özününküləşdirə" bilər, lakin onu tərcümə etdiyi şairin əlindən ala bilməz. Başqa sözlə, tərcümədə müəllifin dilinin koloritini itirməyə, onun fərdi-poetik üslubundan və şeirin məzmunundan ciddi uzaqlaşmağa tərcüməçinin haqqı yoxdur. Tərcümədə məhz orijinal müəllifinin fərdi-poetik üslubunun, müəllif möhürünün, orijinalın "sifəti"nin saxlanılması vacibliyi, Belinskinin aşağıdakı fikrində bir daha aydın şəkildə təzahür edir: "*Hötedən tərcümələrdə biz Höteni görmək istəyirik, onun tərcüməçisini yox. Əgər Puşkinin özü də Hötedən tərcümə*

etməyə girişsəydi, biz ondan da tələb edərdik ki, bizə Höteni göstərsin, özünü yox" [122, s.277; 123, s.210].

Dördüncü bənddə istifadə edilmiş bəzi ifadələr də – "qarmonun səsi közərir", "çimir çöl, çəmən" poetik səslənsə də, orijinal mətninə yersiz müdaxilələr kimi qiymətləndirilməlidir. Buradakı «При луне собачий слышу лай» misrasının "Ayın işığında çimir çöl, çəmən" kimi tərcüməsi isə tamamilə qəbuledilməzdir. Müəllifin nə üçün «собака» sözünü heç vaxt "it" kimi tərcümə etməməsi suala çevrilir. Bu məqamda, yuxarıda təhlilə cəlb etdiyimiz «Улеглась моя былая рана» şeirində uyğun bir misranın («На цепи не держим, как собак») tərcüməsində də mütərcimin «собака» sözünün "it" kimi tərcüməsindən qaçdığını ("Qız nədi, qəfəsdə saxlamaq nədi") yada salmaq maraqlıdır. Əgər bu halda tərcüməçinin "it" sözündən bilərəkdən imtina etməsini, müəyyən mənada (Şərq gözəlini itlə müqayisə etməmək mənasında), qəbul etmək olarsa, «При луне собачий слышу лай» misrasının tərcüməsində bunu qəbul etmək mümkün deyil. Misra həddindən artıq mənalı və şairanə səslənir, insanın gözləri önündə gözəl bir mənzərə canlanır: Sakit, aylı bir gecə və ay işığı altında it hürüşləri. Möcüzə bir gecə! Bu, Yeseninin sevimli mənzərəsidir. Ömrünün axırına yaxın yazdığı «Русская зима» silsiləsindən olan «Эх вы, сани! А кони, кони!» şeirində Yesenin, «Ни луны, ни собачьего лая» ("Nə ay var, nə də ki it hürüşləri") deyə bu mənzərə üçün darıxır [195, s.277]. Hətta şeirlərindən birində it hürüşləri altında dəfn olunmaq arzusunu dilə gətirir: «Седые вербы у плетня / Нежнее головы наклонят / И необмытого меня / Под лай собачий похоронят» [195, s.140].

Fikrimizcə, S.Məmmədzadə «При луне собачий слышу лай» misrasının olduğu kimi təsvir etməməklə xeyli uduzmuşdur. Görünür, tərcüməçi bu məqamı həmin bənddəki dördüncü – "O mavi diyarı gedib görəsən?" misrasındakı qafiyəyə (çəmən - görəsən; əslində, bu qafiyələnmə özü də zəif səslənir) qurban vermişdir. Amma bir qafiyə üçün bu gözəlliyi itirməyə dəyərdimi?! Fikrimizcə, «При луне собачий слышу лай!» misrasını orijinala sadiq qalaraq tərcümə etməklə, son misrada ona uyğun qafiyə axtarmaq daha doğru olardı.

Günel Mövludun tərcüməsinə gəlincə, ümumilikdə şeirin tərcüməsində qafiyələnmənin xeyli dağınıq olması diqqəti cəlb edir. Tərcüməçi qafiyələnməni *abab* sis-

temi ilə başlasa da, sonradan bu məsələdə xeyli müxtəliflik meydana gəlmişdir. Belə ki, mütərcim, birinci və dördüncü bəndlərdə tək və cüt misraları, son iki bənddə isə yalnız cüt misraları öz aralarında qafiyələndirməyə səy göstərmişdir. Bununla yanaşı ikinci, üçüncü, beşinci və altıncı bəndlərdə qafiyələnmənin nəinki zəif olduğunu, bu bəndlərdə ümumiyyətlə qafiyələnmə olmadığını da qeyd etməliyik. Bununla yanaşı, Günel Mövludda da, digər tərcümələrdə olduğu kimi, kənarlaşmalara rast gəlinir və bu, özünü "talyanka səsi", "qulaqlarıma" kimi ifadələrdə aydın büruzə verir, tərcümənin effektinə mənfi təsir göstərir. «У меня в душе звенит тальянка» misrasının tərcüməsində tərcüməçi «тальянка» sözünü olduğu kimi saxlamağa üstünlük vermişdir. Bu üsuldan müəyyən məqamlarda istifadə etməyin üstünlükləri olsa da, bu məqamda, ifadənin mənası Azərbaycan oxucusu üçün aydın olmadığına görə, fikrimizcə, həmin sözün "qarmon" kimi tərcümə edilməsi daha doğru olardı. Qeyd edək ki, yeddinci bənddəki «Заглуши в душе тоску тальянки» misrasının tərcüməsində də, dördüncü bənddə olduğu kimi, «тальянка» sözünü tərcümə etməyərək saxlamışdır. Digər tərəfdən, həmin misranın tərcüməsində müəyyən bir qeyri-dəqiqlik də var: "Susdur könlümdəki talyanka səsin". Orijinalda söhbət talyanka səsini susdurmaqdan deyil, şairin qəlbindəki talyanka həsrətini, talyanka kədərini ovutmaqdan gedir. Onu da qeyd edək ki, «При луне собачий слышу лай» misrasının G.Mövlud tərəfindən "İt hürüşü gəlir qulaqlarıma" kimi tərcüməsi də uğursuz hesab edilməlidir. Tərcümədə orijinaldakı aylı gecənin vəsfi tamamilə itirilmişdir.

Eyvaz Borçalı da orijinala sadiqliyini bütün hallarda nümayiş etdirə bilmir. Ümumiyyətlə, tərcümə orijinalda olmayan, dəqiqlikdən uzaq qeyri-müəyyən "dumanlı, çənli" bir fikir-təsvirlə başlayır: "Haçan görmüşəm ki, yaxından baxam / Qala yaddaşımda duman, çən izi". Bu misralar yalnız bənddəki üçüncü və dördüncü misralarla qafiyə xətrinə yazılmış kimi görünür və bu ruh tərcümənin ikinci bəndinə də hakim kəsilmişdir. Orijinalda aydın, səlis şəkildə ifadə edilmiş «Не ходил в Багдад я с караваном / Не возил я шелк туда и хну» misraları "Olmayıb karvanlı Bağdad səfərim / İpəkdə, xınada gəzməyib əlim" kimi təqdim edilməklə bir qədər mürəkkəbləşdirilir. Dördüncü bənddə, orijinaldakı «При луне собачий слышу лай» misrasını E.Borçalı, "Hürüşür itlər də göydəki aya" şəklində verir. Orijinalda, it

göydəki aya hürmür, sadəcə, ay işığı altında hürür, aylı bir gecədə it hürüşü eşidilir. Tərcümələrdəki bu tipli çatışmazlıqlar mütərcimlərin orijinalın hər bir sözünə, ifadəsinə, söz birləşmələrinə heç də həmişə diqqətlə yanaşmadıqlarını təsdiqləyir. Bununla yanaşı, misranın "Hürüşür itlər də göydəki aya" kimi təqdimatının kifayət qədər maraqlı və şairanə bir mənzərə təsiri bağışladığını da qeyd etmək istəyirik. Onu da qeyd edək ki, tərcümədə bəndin birinci iki misrası arasında lazımsız bir şərti bağlılıq (diddikcə-hürüşür) yaradılmışdır. Belə çıxır ki, "İçimi qarmon avazı didməsəydi, itlər də göydəki aya hürüşməzdi". Tərcümədə "diddikcə" ifadəsi əvəzinə bir başqa ifadə (məsələn, "sizlayır") işlənsəydi, bu iki misra arasında daha maraqlı və uğurlu bir bağlılıq alınardı: "Sızlayır içimdə qarmon avazı / Hürüşür itlər də göydəki aya".

«Никогда я не был на Босфоре» şeirinin tərcüməsi ilə bağlı bir məqamı da qeyd etmək istəyirik. Son bənd belə başlayır: «И хотя я не был на Босфоре / Я тебе придумаю о нем». Buradakı ikinci misranın bəzi tərcümələri təəssüf doğurur. G.Mövlud misranı "Nəsə uyduraram yalan-yanlışdan", E.Borçalı isə "Uydura bilərəm səninçün bir şey" kimi təqdim etmişlər. «Придумать» ifadəsinin "uydurmaq" kimi tərcüməsi qrammatik olaraq doğru olsa da şeirin mənasına, məzmununa, ruhuna, şeiriyyətinə gəldikdə, bu cür tərcüməni qəbul etmək çətindir: Uydurmaq sözündəki sünilik, şeiriyyət baxımından köbudluq könül bulandırır. Belə məqamlarda "bir şey uydurmaq" deyil, "nəğmə qoşmaq" lazımdır. Göstərilən misranın tərcümələri arasında Səyavuş Məmmədzadənin tərcüməsi – "Oradan nəğmələr qoşa bilərəm" daha maraqlı görünür.

Ümumilikdə, Yesenin poeziyasında, o cümlədən "İran nəğmələri" silsiləsində qafiyələr mühüm rol oynayır. Bəzi mütərcimlər isə, sözün əsl mənasında, qafiyə xəzinəsi olan Yesenin poeziyasının belə mühüm elementini bir sıra hallarda, nədənsə, tərcümədə saxlamağı mühüm hesab etməmişlər, ya da, sadəcə olaraq, bunu bacarmamışlar. Yuxarıda qeyd etdiyimiz kimi, bu məqam G.Mövludun tərcüməsində xüsusilə nəzərə çarpır. Bunun daha aydın hiss ediməsi üçün burada biz Yeseninin «Никогда я не был на Босфоре…» şeirinin orijinalda və Günel Mövlud tərcüməsində, bütün bəndlərindəki misraların son ifadələrini olduğu kimi, heç bir şərhsiz, verməyi məqsədəuyğun hesab etdik. Beləliklə, S.Yesenində «Босфоре, о нем, море,

огнем; G.Mövludda “mən, soruşma, görmüşəm, alışan”; Yesenin «Караваном, ну, станом, отдохнуть», G.Mövlud “tutub, etmədim, qamətin, dincəlim”; Yesenin «я, нет, Россия, поэт»; G.Mövlud “söylədim, nəçiyəm, vətənimdə, şairiyəm”; Yesenin «тальянка, лай, персиянка, край»; G.Mövlud “səsi, qulaqlarıma, pərisi, uzaqlarına”; Yesenin «скуки, звала, руки, крыла»; G.Mövlud “gəlməmişəm ki, çağırmısan, qanadlarını, qucaqlamısan”; Yesenin «покоя, не кляну, такое, страну»; G.Mövlud “axtarır, demirəm, danış, vətənindən”; Yesenin «тальянки, чар, северянке, не скучал»; G.Mövlud “səsin, nəfəsiylə, çəkməyə, xatirəsiylə”; Yesenin «Босфоре, о нем, море, огнем», G.Mövlud “mən, yanlışdan, kimi, alışan”. Mütərcimin qafiyələndirmə bacarığı göz qabağındadır. Ədalət naminə deyək ki, bu şeirin digər tərcümələrində biz qafiyəyə belə səthi münasibətin şahidi olmuruq.

Şeirdə qafiyə şeirin musiqisidir, şair, tərcüməçi bu musiqini nə qədər dərindən duyarsa, ona nə qədər səmimi, nə qədər vurğunluqla qulaq asa bilərsə, şeir də bir o qədər oxunaqlı olar, oxucu qəlbinə yol tapar. Şairə L.Vasilyevanın fikrincə, qafiyə şair üçün onun nəfəs aldığı hava kimidir. Qafiyə axtarılmır, öz-özündən yaranır. Qafiyə şairə yox, şair qafiyəyə diktə etməlidir [134]. Bu məqamda bolqar ədəbiyyatşünası Lüben Lübenovun qafiyə ilə bağlı suallarına cavab verərkən tanınmış rus şairi Viktor Bokovun dediyi aşağıdakı fikir də yerinə düşür: “*Qafiyənin təzə tərliyi nədən asılıdır? Şairin istedadından, onun təzə tər qafiyə tapmaq ehtiyacından, həm qədim, həm yeni poeziyanı gözəl duymasından. Bilə-bilə yaxşı qafiyəyə nail olmaq olmaz. Hər şey ilhamın səviyyəsindən asılıdır. Şair formada olanda ondan hər şey təzə gəlir – həm söz, həm obraz, həm qafiyə, həm musiqi. Şair formada olmayanda və çılpaq texnikaya söykənəndə, mən o dəqiqəcə görürəm ki, bu şeirlər “düzəldilib”, onlar narahat etmir, belə şeirlərdə canlı bəbək əvəzinə süni bəbəkcikdir, gözlər dünyanı görmür. Şablon qafiyələr şeiri sona qədər oxumaq həvəsini öldürür*” [130, s.143]. Bu fikirlər, G.Mövludun tərcüməsindəki qafiyəsizliyin tərcümənin keyfiyyətinə necə təsir etməsinin bir daha əyani təsdiqidir. G.Mövlud S.Yeseninin nə qafiyəsini, nə də fərdi poetik üslubunu, İ.Podqaetskayanın təbirincə desək, “*söz rəssamının öz əsərlərində qoyduğu xüsusi işarəni*” [297, s.145] nə tuta, nə də duya bilmişdir.

Fikrimizcə, Yeseninin şeirlərində qafiyə, ritm, intonasiya, harmoniya kimi elementlər bir-birilə üzvü şəkildə elə bağlı olur ki, tərcümədə bunları verə bilməyən mütərcim mütləq uğursuzluğa məhkumdur. Yesenin poeziyasından tərcümələr edən mütərcimlər bütün bunları tərcümə zamanı göz özünə gətirməli, onların adekvat səslənməsinə maksimum səy göstərməlidir.

Hesab edirik ki, Yesenindən əksər tərcümələrində olduğu kimi, bu şeirin tərcüməsində də, yuxarıda qeyd etdiyimiz bir sıra zəif məqamlara baxmayaraq, şairin fərdi poetik üslubunu mütərcimlər arasında Ə.Kürçaylı daha yaxşı duymuş, qafiyələrində rus şairinin poetik üslubunu maksimum yaratmağa səy göstərmişdir.

Müşahidələrimizi digər bir şeirin tərcümələri üzərində davam etdirək. "İran nəğmələri" silsiləsinə daxil olan yeddinci şeiri – «Воздух прозрачный и синий…» şeirini cəmi üç mütərcim - Ə.Kürçaylı, S. Məmmədzadə və E.Borçalı tərcümə etsə də, şeirin son dərəcə orijinallığı və tərcümələrdəki rəngarənglik xeyli maraqlı paralellər və müqayisələr aparmağa imkan verir. Orijinalla tərcümələri müqayisə edək:

Лугом пройдешь, как садом,
Садом – в цветенье диком,
Ты не удержишься взглядом,
Чтоб не припасть к гвоздикам.
Лугом пройдешь, как садом.

Шепот ли, шорох иль шелест -
Нежность, как песни Саади.
Вмиг отразиться во взгляде
Месяца желтая прелесть,
Нежность, как песни Саади. [195, s.259]

Ə.Kürçaylının tərcüməsi:

Getsən çəmənliklə, sanarsan bağdır,
Getsən bağ içiylə, hər yan çiçəkdir.
Mixək güllərinə baxmasan bir-bir,
Seyrinə dalmasan, vallah, günahdır,
Getsən çəmənliklə, sanarsan bağdır.

Gələn pıçıltıdır, yoxsa xışıltı?
İncədir Sədinin nəğmələritək.
Ay öz camalıyla əks elərəyək
Görürsən bir anlıq gözlərdə qaldı,
İncədir Sədinin nəğmələritək.[113, s.109]

S.Məmmədzadənin tərcüməsi:

Bağ deyil, bir gülüstan,
Gülüstan başdan-başa,
Qərənfillər tamaşa.
Ha baxırsan, doymursan,
Bağ deyil, bir gülüstan.

Bu nə səs, bu nə pıçıltı?..
Sədi səsdən söz aldı,
Qızıl qəmər sozaldı,
Baxışından saçıldı,
Sədi səsdən söz aldı. [104, s.336]

E.Borçalının tərcüməsi:

Çəmən keçsən – bağ bilərsən, Gələn səsdi, xışıltıdı?
Bağ adlasan – vəhşi çəmən. Zərif Sədi nəğməsitək.
Baş əyərsən gülə-gülə Göydəki ay – sarı mələk
Gözün doymaz qərənfilə, Gözə dəyən işıltıdı
Çəmən keçsən – bağ bilərsən. Zərif Sədi nəğməsitək. [108, s.14]

Bu isə orijinaldan nümunə gətirdiyimiz həmin bəndlərin sətri tərcüməsidir:

Çəmənlə gedərsən, sanki bağ ilə Pıçıltıdır, yoxsa xışıltı -
Bağ ilə - vəhşi çəmənliklə, İncəlik, Sədinin nəğmələri tək.
Sən baxışını saxlaya bilməzsən, Bir anlıq baxışda əks olunar
Qərənfillərə əyilməməkçün Ayın sarı gözəlliyi,
Çəmənlə gedərsən, sanki bağ ilə. İncəlik, Sədinin nəğmələri tək.

Gətirdiyimiz nümunələr sübut edir ki, mütərcimlərdən hər biri orijinal mətnə, özünəməxsus şəkildə, öz şairlik üslubuna uyğun yanaşır. Ə.Kürçaylı 7-8 hecalıqla qələmə alınmış orijinalı on bir hecalıqla və əsasən də (bəzi məqamları nəzərə al-masaq) uğurlu verməyə müvəffəq olur. Orijinalın oxucuya təsir qüvvəsi qədər tərcümədə də təbii ritm, səlis və aydın intonasiya diqqəti cəlb edir. Hətta bəzi hallarda bir sıra uğurlu tapıntıların hesabına şeirə xüsusi ruh, gözəllik gətirilir. Belə ifadələrin sırasında «не припасть» - "dalmasan", «месяца желтая прелесть» - "Ay öz camalıyla əks eyləyərək", «Пью я сухими устами» - "Quru dodaqlarım su kimi udur" və s. göstərmək olar. Ə.Kürçaylı sanki qafiyəni, ritmi, intonasiyanı seçmir, bütün bunlar orijinal mətndən təbii olaraq süzülüb gəlir. Ona görə də mətn oxucunu yormur, öz axıcılığı ilə birnəfəsə, orijinal kimi oxunur.

S.Məmmədzadə yeddi-səkkiz hecalığı yeddi-səkkiz hecalıqla da verməyə çalışır. Formal baxımdan belə ölçü orijinalın özünə uyğundur. E.Borçalı da yeddi-səkkiz hecalığı səkkiz hecalıqla çevirir. Tərcümələrdə sanki artıq söz və ifadə israfçılığı da yoxdur. Lakin hər iki tərcümənin ruhunda, ritmində, intonasiyasında nə isə bir çatışmazlıq hiss olunmaqdadır. S.Məmmədzadədə "Sədi səsdən söz aldı", "Qızıl qəmər sozaldı", "Baxışından saçıldı" kimi, fikrimizcə, çox qarışıq, bəndlərin semantikasına xələl gətirən, ekspressiyanı azaldan ifadələr mətndən uzaq səslənir.

S.Məmmədzadə şeiri Yesenin üslubundan, Yesenin dəst-xəttindən uzaq bayatı üslubunda "yaratmış" və müəyyən məqamlarda bu, sanki orijinalın tərcüməsi deyil, sadəcə, müstəqil bir şeirdir. Orijinaldakı hədəfə dəyən aydın ifadələr, tərcümədə fikir dolaşıqlığı yaradır. Adicə olaraq, «Нежность, как песни Саади» misrasını "Sədi səsdən söz aldı" kimi tərcümə etməklə, tərcüməçi orijinalda aydın ifadə edilmiş bir fikri nə qədər dolaşıq şəklə salmışdır. Mütərcim, əsərin reallığından kənarlaşıb, öz fərdi bədii-fəlsəfi ifadələrinə yer verməsi, əsər boyu yersiz fəlsəfiliyə dalmaq arzusu ilə tərcümənin poetik vüsətini ciddi şəkildə aşağı salmışdır. Tərcüməçi orijinalla o qədər sərbəst davranmışdır ki, hətta şeirin dördüncü bəndindəki "Həsən"ə də məhəl qoymamış, orijinaldakı «Голос раздастся пери / Тихий, как флейта Гассана» misralarını "Bir pəri səsi uçar / Nəğmələnər ney kimi" şəklində təqdim etmişdir.

Xəlil İbrahim "Tərcümə keyfiyyəti haqqında" məqaləsində tərcümənin adekvatlığından söhbət açarkən müəllif üslubunun saxlanması vacibliyini xüsusi qeyd edir: "*Döğrudur, tam mənası ilə adekvat tərcümə hələlik bir ideal olub qalır, doğrudur dillərin xüsusiyyətlərindən dolayı bir dildə olan kəlmələrin hamısını o biri dildə eynən vermək mümkün deyildir, lakin bununla bərabər mənanı maksimum dürüst vermək, üslubu maksimum saxlamaq hər tərcüməçinin borcudur*" [30]. Hesab edirik ki, S.Məmmədzadə bu şeirin tərcüməsində qeyd edilən bu mütərcim borcunu yerinə yetirə bilməmişdir.

E.Borçalı da orijinalın heca və ritmikasını ilk baxışda saxlaya bilmişdir. Lakin bu zahiri yaxınlıqdır. Bununla belə onun tərcüməsində gözəl alınmış misralar da az deyildir. Orijinaldakı «Ты не удержишься взглядом / Чтоб не припасть к гвоздикам» tərcümədə "Baş əyərsən gülə-gülə / Gözün doymaz qərənfilə" kimi (orijinalda "gülə-gülə" olmasa da), «Месяца желтая прелесть» "Göydəki ay – sarı mələk" kimi verilir və belə çevirmə maraqlı mənzərə yaradır. Bununla belə, bəzi məqamlarda hərfilik, quru dəqiqliyə, konkret sözlərin lüğəti adekvatlığına süni meyl göstərilməsi sanki tərcümənin bütövlüyünü pozmuş, mətnin oxunaqlılığına xələl gətirmiş, poeziyaya mənfi təsirsiz ötüşməmişdir. Misal üçün, ikinci bənddəki «в цветенье диком» ifadəsinin "vəhşi çəmən" kimi verilməsi ürək açmır, qrammatik doğru tərcümə olsa da "vəhşi çəmən" ifadəsi gobud səslənir, təsvir olunan çəmənin,

çiçəkliyin qeyri-adiliyini, gözəlliyini, ordan göz çəkmənin mümkünsüzlüyünü açа bilmir, burada mütləq başqa bir ifadə axtarmaq lazım idi. Eləcə də sonuncu bənddəki «Пью я сухими устами» misrasının "Yel sümürür təşnə dodaq" şəklində tərcüməsi (Əliağa Kürçaylıda "Quru dodaqlarım su kimi udur") aydın bir fikrin mürəkkəb qarşılığı kimi xeyli zəif təsir bağışlayır. Elə təsəvvür yaranır ki, tərcümə mətni bütünlükdə bir şeirin tərcüməsi deyil, ayrı-ayrı bəndlərin, hətta ayrı-ayrı misraların tərcüməsindən ibarətdir. Gürcü tərcüməşünaslığının, bütünlükdə Sovet tərcümə məktəbinin ən nəhəng nəzəriyyəçilərindən biri Qivi Qaçeçiladze yazır: "*Bədii reallıq orijinalın forma və məzmununun vəhdətindədir və mütərcim müəllifin yalnız nə dediyini deyil, həm də onun necə dediyini görməlidir. O, ona təqdim olunmuş bədii reallığı bir rəssam kimi əks etdirməlidir, yoxsa, sözlərin uyğunluğunun arxasınca qaçmamalıdır, əks halda sözlər-ağaclar arxasında o, heç vaxt meşəni, başqa sözlə, tam əsəri görməyəcək. O, öz dilində bütöv meşənin tam mənzərəsini yaratmalıdır, ayrıca sözlərin-ağacların şəklini çəkməli deyil*" [142, s.158].

Tərcümə sənəti, digər dildən tərcümələr milli ədəbiyyata yeni mövzu, forma, məzmun və digər elementlərlə müdaxilə etdiyindən onun inkişafında olduqca mühüm rol oynayır. Amma bir sıra hallarda tərcümə yenidən düzəldilən əsər, düzəltmə əsər (sözün əsl mənasında tərcümə yox) təsiri bağışlayır, bu ondan irəli gəlir ki, özgə dildə olan əsərin məzmununu və formasını mütərcim öz duyumuna görə dəyişir və bunun əvəzində, uğur qazanacağına ümid edərək, oxucuya orijinaldakı deyil, sanki özünün yeniləşmiş forma və məzmununu diqtə edir. Təhlilə cəlb etdiyimiz şeirlə bağlı S.Məmmədzadə və E.Borçalı tərcümələri məhz belə təəssürat yaradır. Bu tərcümələri oxuduqca zahiri şirinlik hiss edilsə də, məna və məzmun baxımından çatışmazlıq, natamamlıq, qarışıqlıq ön plana çıxır, ümumi tərcümədən, müəyyən mənada, qulaq razı qalsa da, könül narazı qalır. Bu isə, heç şübhəsiz, tərcümənin uğurlu alınmadığının bariz göstəricisidir.

Ə.Kürçaylı isə orijinal ritmini Azərbaycan dilinin qanunauyğunluqları hesabına saxlamaq üçün ölçünü bir qədər böyüdür, qafiyə, harmoniya, forma və məzmun orijinala adekvat şəkildə dilimizdə səsləndirilir. Orijinaldakı əksər ifadə vasitələrinin dildə oxşarları tapılır, tərcümə orijinalın ruhunu qoruya bilir. Hətta bəzi yerlərdə

şeirdən gələn ekspressiya dilimizdə xüsusi gözəllik yaradır: məsələn, bu sətirlərdəki kimi: “Mixək güllərinə baxmasan bir-bir / Seyrinə dalmasan, vallah, günahdır”. Mütərcim orijinal mətni tərcümədə bir az uzatsa da, tərcümə mətninə orijinalda olmayan bəzi sözlər əlavə etsə də, «гвоздика» sözünü daha təbii səslənən və daha geniş yayılmış “qərənfil” kimi deyil, “mixək” kimi tərcümə etsə də, bundan poetik vüsətə ciddi xələl gəlmir.

Beləliklə, S.Yeseninin «Воздух прозрачный и синий….» şeirinin Ə.Kürçaylı tərəfindən tərcüməsində, bir sıra söz və ifadələrin quru, cansız, obrazlılıqdan kənar verilməsinə baxmayaraq, digər tərcümələrlə müqayisədə, mütərcimin əksər məqamlarda orijinal müəllifinin fərdi poetik üslubuna sadiqliyi saxladığının şahidi oluruq. Bu şeirin tərcüməsində Ə.Kürçaylının şairlik istedadı ilə mütərcimlik məsuliyyətinin bir-birini nə qədər tamamladığı özünü qabarıq şəkildə biruzə verir. Ə.Kürçaylı öz tərcüməsində orijinalın ruhunu, məzmun və formasını, dilimizdə gözəl, poetik səslənməsini maksimum səviyyədə canlandıra bilmişdir ki, bu da tərcümə sənətinin birbaşa məqsədinə xidmət edən məqamlardır.

İndi də «В Хороссане есть такие двери…» şeirinin dilimizə mövcud tərcümələrinə diqqət yetirək: Əvvəl orijinaldan iki bəndi təqdim edək:

Ни к чему в любви моей отвага. Мне пора обратно ехать в Русь.
И зачем? Кому мне песни петь? – Персия! Тебя ли покидаю?
Если стала неревнивой Шага, Навсегда ль с тобою расстаюсь
Коль дверей не смог я отпереть, Из любви к родимому мне краю?
Ни к чему в любви моей отвага. Мне пора обратно ехать в Русь.

[195, s.263-264]

S.Rüstəmin tərcüməsi:

Yox ikən eşqimdə qüvvət, cəsarət, Yurduma dönməyin gəlmiş zamanı,
Kiminçün eyləyim bəs mən tərgənni?! Sənimi, sənimi atıram, İran?!
O, buraxmışsa da qısqanclığını, Ədəbimidir bu ayrılıq anı?
Açammaz qapını bu gənc müğənni. Eşq ilə yurduma atmalıyam can,
Yox ikən eşqimdə qüvvət, cəsarət. Yurduma dönməyin gəlmiş zamanı. [102]

Ə.Kürçaylının tərcüməsi:

Sevgidə igidlik yarayan deyil, Vaxtdır, Rusiyaya dönməliyəm mən,
Mən kimə söyləyim nəğməmi, kimə? Səni tərk edirəm deməli, İran?
Madam ki, Şahanə qısqanan deyil. Yoxsa ayrılıram ömürlük səndən?

Qapı açmasam da, gülüm, qəm yemə, Vətən məhəbbəti oyanıb yaman,
Sevgidə igidlik yarayan deyil. Vaxtdır, Rusiyaya dönməliyəm mən.

[113, s.113]

S. Məmmədzadənin tərcüməsi:

Nə hünərdi boş-boşuna coşasan, Rusiyaya, dönməliyəm, dönməli…
Ün yetmədi, kimə nəğmə qoşasan? İran eli! Ayrılırıq deməli,
Şahanə ki, vec vermədi sözümə, Bəlkə, səni indən belə görmədim,
Qapılar ki bağlı qaldı üzümə, Aramıza düşdü vətən həsrətim,
Hünərdimi, boş-boşuna coşasan? Rusiyaya dönməliyəm, dönməli. [104, s.337]

Q.Xalidin tərcüməsi:

Nə qaldı ki, əl atmayım daha nə? Zara gəldim bir qapının əlindən -
Məhəbbətdə hünərəmi tapınım? Ta başımı vətən eşqi qatıbdı.
Bəhanə də tapammıram, bəhanə Gözəl pəri, ayrılıram elindən,
Deyəm, niyə açammıram qapını, Doğma yurda dönmək vaxtım çatıbdır,
Məhəbbətdə hünərəmi tapınım? Ta başımı vətən eşqi qatıbdı. [100, s.38]

E.Borçalının tərcüməsi:

Sevgidə yersizdi cəsarət, hünər, Vaxtdır, Rusiyaya qayıdım gərək
Açа bilmirəmsə o qapını mən, Ey İran, sənimi tərk edirəm mən?
Şaqa da biganə olubsa əgər, Səndən ömürlük ha ayrılmır ürək
Kimiçün oxuyum, deyim ürəkdən? Vətən sevgisidir çağırıb çəkən;
Sevgidə yersizdi cəsarət, hünər. Vaxtdır, Rusiyaya qayıdım gərək. [108, s.18]

Orijinaldakı eyni bəndlərin sətri tərcüməsi belədir:

Nəyə lazım sevgimdə mənim hünər Vaxtdır, mən Rusiyaya qayıtmalıyam.
Nə üçün? Kimə mən nəğmə oxuyum? – İran! Sənimi tərk edirəm?
Əgər Şaqa qısqanmayan olubsa, Səndən ömürlükmü ayrılıram
Əgər qapıları açа bilmədimsə, Doğma diyarıma olan məhəbbətimdən?
Nəyə lazım sevgimdə mənim hünər. Vaxtdır, mən Rusiyaya qayıtmalıyam.

«В Хороссане есть такие двери…» şeirinin tərcümələrinin təhlilində biz nəyin şahidi oluruq? Birinci, S.Rüstəmin tərcüməsindən başlayaq. “S.Rüstəm orijinalı dilimizdə uyğun səsləndirməyi bacarmışdırmı” sualına çox asanca “yox” cavabını verə bilərik. Təhlilə cəlb etdiyimiz bəndlər bunu daha yaxşı sübut edir və bəndlərdə yer almış çoxsaylı sözlərin orijinalla müqayisəsi mübahisəyə səbəb olur. Şair-mütərcim S.Yeseninin «Ни к чему в любви моей отвага / И зачем? Кому мне

песни петь?» misralarını “Yox ikən eşqimdə qüvvət, cəsarət / Kiminçün eyləyim bəs mən təğənni?!” kimi tərcümə etməklə, heç şübhəsiz, orijinaldan əsassız şəkildə uzaqlaşmış, oxucu üçün lazımsız mürəkkəblik və anlaşılmazlıq yaratmışdır. Birinci misra qeyri-adekvat tərcümə edilmiş, ikinci misradakı ərəb sözü olan “təğənni” sözü dördüncü misrada yersiz “müğənni” sözünün meydana gəlməsinə səbəb olmuşdur. Orijinaldakı «Навсегда ль с тобою расстаюсь / Из любви к родимому мне краю?» misraları da S.Rüstəm tərəfindən “Əbədimidir bu ayrılıq anı / Eşq ilə yurduma atmalıyam can” kimi sönük, ifadəsiz şəkildə tərcümə olunmuşdur (xüsusən də son misra). Burada misralar arsındakı poetik bağlılıq düzgün verilməmişdir. Orijinalda şair: “Ana yurda olan məhəbbətim üzündən mən sənin lə əbədilikmi ayrılıram?” – deyə sual edir və ikinci misra birinci misra üçün səbəb rolunu oynayır. Tərcümədə isə bu misralar arasındakı bağlılıq yox olmuş, “Əbədimidir bu ayrılıq anı?” misrası “Sənimi, sənimi atıram, İran?!” misrasının davamı kimi verilmiş, “Eşq ilə yurduma atmalıyam can” misrası isə ayrıca, sərbəst bir misra şəklini almışdır.

Tərcümədə digər uyğunsuzluqlar və çatışmamazlıqlar da çoxdur. Məsələn, mütərcim, nədənsə, orijinaldakı digər çoxsaylı ifadələr kimi, “Şaqa” şəxs adını tərcümədə verməyi yaddan çıxarır, ya da bunu vacib hesab etmir və nəticədə “Şaqa”nın qeyri-müəyyən “o” şəxs əvəzliyi ilə verilməsi tərcüməyə kölgə salır, tərcümənin oxucunun estetik zövqünə təsiri və orijinaldan gələn vüsət kifayət qədər zəifləyir.

Şeirin son bəndində şair gözəl pərinin ürəyinə yol tapa bilməsə də, ona “xoş əzab” verən, unudulmaz pəri ilə böyük sevgi və səmimiyyətlə vidalaşır. Mütərcim isə bu bəndi aşağıdakı kimi tərcümə etmişdir:

До свиданья, пери, до свиданья,	Əlvida, əlvida, pəri, əlvida!
Пусть не смог я двери отпереть,	Mən bu qapıları açammadımsa,
Ты дала красивое страданье,	Sən mənə göstərdin elə bir mənbə,
Про тебя на родине мне петь.	Ki, sənin haqqında mən sübhi-məca
До свиданья, пери, до свиданья.	Ötərəm, əlvida, pəri, əlvida!

Buradakı «Ты дала красивое страданье» kimi mənalı və həddindən artıq poetik bir misranı tərcüməçi “Sən mənə göstərdin elə bir mənbə” kimi quru, cansız bir şəklə salmışdır. Burada “sübhi-məca” kimi ərəb tərkiblərindən istifadə edilməsi də, sözsüz ki, tərcümədə arzu olunan hal deyil və şübhəsiz, mətnin qavrayışına mənfi təsir

göstərir. Amma, həqiqət naminə onu da qeyd edək ki, bu şeirin tərcümə edildiyi vaxtı (1928-ci il) nəzərə alsaq, ərəb tərkiblərindən (“təğənni”, “sübhi-məca”) istifadə edilməsini, müəyyən mənada, qəbul etmək olar.

Bütün bunlarla yanaşı, bu şeirin tərcüməsində bəzi maraqlı, xeyli uğurlu məqamlara da rast gəlirik. Buna misal olaraq tərcümənin ilk iki bəndini göstərmək olar. Doğrudur, ilk misra – “Xorasanda elə qapılar var ki” fikri orijinaldakı «В Хороссане есть такие двери» fikrindən bir qədər fərqli məna kəsb edir. Diqqət versək görərik ki, tərcümədə həmin qapının konkretliyi itmişdir. Belə çıxır ki, Xorasanda bir neçə belə qapı var. Bu misranı çıxmaqla, bəndin qalan hissəsini tərcüməçi çox ustalıqla dilimizə çevirmişdir. Xüsusilə də, ikinci misranın “Çiçəklər səpilmiş astanasına” kimi tərcüməsi canlılığı ilə diqqəti cəlb edir, olduqca gözəl və şairanə səslənir. Yeri gəlmişkən, qeyd edək ki, bu misranın tərcüməsi digər heç bir mütərcimdə bu qədər dəqiq, səmimi və ürəyəyatımlı alınmamışdır. Əliağa Kürçaylı bu misranı “Güllərlə bəzənmiş bütün kandarı”, Səyavuş Məmmədzadə “Kandarına gül ələnər, nur saçar”, Qoca Xalid “Gülə batıb Xorasanda bir qapı”, Eyvaz Borçalı isə “Həyəti boyunca həşəmdi güllər” kimi təqdim etmişlər. Göründüyü kimi, bu tərcümələrdən heç biri S.Rüstəmin tərcüməsi ilə müqayisəyə gəlmir.

Ümumilikdə isə, nəticə olaraq qeyd etmək istəyirik ki, bu tərcümənin hərtərəfli təhlili zamanı belə təəssürat yaranır ki, həmin illərdə gənc S.Rüstəm şairlik, xüsusən də tərcümə sənətinin sirlərinə yaxından bələd olmaması üzündən bu şeirdə orijinaldan gələn ideyanı və şeirin ruhunu dərindən duya bilməmişdir.

S.Rüstəmdən sonra bu şeiri Ə.Kürçaylı tərcümə etmişdir. Biz yuxarıda Ə.Kürçaylının mütərcimlik məsuliyyətindən söhbət açmışdıq. Qeyd edək ki, Ə.Kürçaylı, əksər hallarda, orijinala sadiqliyini burada da nümayiş etdirməkdədir. Lakin burada da bəzi məqamları qeyd etmək lazım gəlir. S.Rüstəmin tərcüməsindən fərqli olaraq, ikinci misrada «порог» sözünün “kandar” kimi şeiriyyətdən uzaq bir sözlə verilməsi (“Güllərlə bəzənmiş bütün kandarı”) bəndin ümumi səslənməsini xeyli zəiflətmişdir. Sözsüz ki, Ə.Kürçaylı kimi ilhamlı, lirik bir şair “kandar” sözünü burada sevdiyindən işlətməmişdir. Şübhəsiz, «порог» dedikdə, adamın ağlına gələn ilk söz “astana” olur. Lakin, fikrimizcə, həmin sözü əvvəlcə S.Rüstəmin işlətdiyini

bilən tərcüməçi təkrardan qaçmaq üçün başqa söz axtarmışdır. Amma, prinsipcə, həmin mənanı versə də, "kandar" sözü uğursuz "tapıntıdır". İkinci bəndin tərcüməsinə aid xüsusi bir irad olmasa da, kifayət qədər ilhamla tərcümə edilmiş üçüncü bəndin üçüncü misrası bir qədər sönüklüyü ilə diqqəti cəlb edir. Mütərcim «Если стала неревнивой Шага» misrasını "Madam ki Şahanə qısqanan deyil" kimi vermişdir. Birincisi, "Şaqa" şəxs adının "Şahanə" kimi verilməsini doğru hesab etmirik. İkincisi, fikrimizcə, misradakı məna dəqiq ifadə edilsə də, hətta danışıq dilində də tez-tez rastlaşmadığımız "madam ki" ifadəsi şeir üçün yaramır, şeirdəki poeziyanı kifayət qədər zəiflədir. Bu məqamda Əmir Ünsürül-məali Keykavus ibn Ziyarın (1021-1082) oğluna nəsihəti zamanı şeir haqqında dediyi bir fikri yada salmaq yerinə düşər: "*Nəsrdə işlənən sözləri şeirdə işlətmə, nəsr rəiyyətdir, şeir - şah. Rəiyyətə yaraşmayan şey şaha heç yaraşmaz*" [55, s.147].

Bəndin dördüncü, «Коль дверей не смог я отпереть» misrasının "Qapı açma-sam da, gülüm, qəm yemə" kimi tərcüməsi isə, kiçik qeyri-dəqiqliyə baxmayaraq, ümumilikdə, ürək açır, "gülüm" müraciəti bəndə xüsusi ekspressiya gətirir.

Bu tərcümədəki iradlardan biri də son bəndlə bağlıdır. Mütərcim orijinaldakı «Ты дала красивое страданье» misrasını, təxminən eyni gözəlliklə, "Mənə xoş əzablar çəkdirdin burda" kimi ifadə etsə də, heç bir ehtiyac olmadan, «Про тебя на родине мне петь» misrasını iki misrada vermişdir: "Elə ki qayıtdım o dogma yurda / Mən sənə nəğmələr qoşaydım barı". Əslində, "Mən sənə nəğmələr qoşaydım barı" misrası ayrılıqda tərcüməçiyə lazım olan misra idi və "Elə ki qayıtdım o doğma yurda" misrası olmadan belə, bənd orijinala tam uyğun səslənəcəkdi.

«В Хороссане есть такие двери» şeirinin dilimizə üçüncü tərcüməsi S.Məmmədzadəyə məxsusdur. S.Məmmədzadə şeiri Ə.Kürçaylıdan xeyli sonra tərcümə etsə də, bizə belə gəlir ki, orijinaldan gələn effekti xeyli dərəcədə zəiflət-mişdir. Orijinalın birinci bəndini oxuduqca adama elə gəlir ki, şair öz oxucusuna gözəl, maraqlı bir nağıl danışır. Özü də bu nağılın dili o qədər sadə və aydındır ki, onu hətta balaca uşaq da anlamaqda çətinlik çəkməz. Şairin bu dili oxucunu məftun edir, nağılın arxasını eşitməyə tələsirsən. Tərcümədə isə orijinaldakı bu şirinlikdən, bu axıcılıqdan əsər-əlamət belə yoxdur, şairin orijinal "nağıl dili" yersiz "qoşma dili"

ilə əvəz edilmişdir. Bu, şeirə yalnız sünilik gətirir. Üstəlik, birinci misrada "qapı" və "pəri" sözlərinin yan-yana işlədilməsi birinci iki misra arasındakı əlaqəni pozur, ikinci misranın qapıya, yoxsa Pəriyə aid olması məsələsini xeyli çətinləşdirir. Qeyd edək ki, bu şeirdəki "nağıl dilini" əvvəlki tərcüməçilərin hər ikisi – həm S.Rüstəm, həm də Ə.Kürçaylı öz tərcümələrində müəyyən qədər saxlamağa nail olmuşdur. İkinci bəndin üçüncü misrasına nəzər salaq: «Голос пери нежный и красивый». Sadə və aydın dildə verilmiş bu misranın tərcüməsində də tərcüməçi yenə söz oyununa meydan vermiş, misranı aşıq şeiri ruhunda "sözü gözəl, özü gözəl, gül pərim" kimi tərcümə etmiş və bu ruh bütün tərcümə boyu tərcüməçiyə hakim kəsilmişdir.

Maraqlıdır ki, Ə.Xəlilov «В Хороссане есть такие двери» şeirini təhlil edərkən [23, s.66-69, s.114-120] S.Məmmədzadənin tərcüməsini təhlilə belə cəlb etməmiş və təhlilini yalnız S.Rüstəmin və Ə.Kürçaylının tərcümələri üzərində aparmışdır. Əlbəttə, əslində, bu da arzu olunan hal deyil. Lakin tədqiqatçını, müəyyən mənada, başa düşmək də olar. S.Məmmədzadənin tərcüməsi orijinalla qəti səsləşmir və o biri tərcümələrlə paralel müqayisə aparmaq da çətin olur.

Bu şeirdə, bütün bəndlərdən fərqli olaraq, son bəndin tərcüməsini isə mütərcimin aktivinə yazmaq olar. Bənd kifayət qədər ilhamla tərcümə edilmiş, gözəl pəri ilə, sevgi və xoş əzab dolu, ayrılıq mənzərəsini və bu zaman şairin yaşadığı hisləri səmimi şəkildə verə bilir:

Salamat qal, nazlı pəri, salamat,
Çox da qapın bağlı qaldı üzümə.
Xoş əzabın qanad verər sözümə,
Söz qoşum ki, bütün aləm qala mat,
Salamat qal, nazlı pəri, salamat.

Bəs Q.Xalidin tərcüməsi haqqında nə demək olar? Bəri başdan deyək ki, Q.Xalid tərcümənin nə praktik, nə nəzəri, nə də estetik vəzifələrinə əməl etmədiyindən onun çevirməsində elə bir "sərbəstlik" vardır ki, uyğun məqamlarda Yesenin orijinalından əsər-əlamət belə qalmamışdır. Bu tərcümədə nə orijinalın dilinə, nə ruhuna uyğun gəlməyən üslub və intonasiya açıq-aydındır. Tərcümə boyu misralar arasındakı ardıcıllıq və bağlılıq pozulmuş, məzmun xeyli zəifləmiş, yuxarıda qeyd etdiyimiz kimi, orijinaldakı "nağıl dili" itirilmişdir. Ümumiyyətlə, bu tərcüməni

oxuduqca ilk gözədəyən məqamlardan biri, bütün tərcümə boyu misraların orijinaldakı məntiqi ardıcıllığına əməl edilməməsidir. Məsələn, ikinci bənddə yalnız son misradan başqa, bütün misraların yeri dəyişdirilmişdir. Məhz bunun nəticəsidir ki, orijinaldakı formanın pozulması ilə yanaşı, bir sıra məqamlarda orijinaldakı məna da başqalaşmışdır. Fikrimizi təsdiqləmək üçün şeirin üçüncü bəndinə bir də diqqət yetirək. Bəndin məzmunu belədir: "Sevgidə hünərə, qəhrəmanlığa, igidliyə yer yoxdur. Bir tərəfdən, artıq Şahanə də məni qısqanmırsa (qısqanmırsa, demək sevmir!), mən nə üçün, kimin üçün şeir yazım, kimə nəğmə qoşum? Digər tərəfdən, pərinin qapısını da açа bilmirəmsə (Şərq poeziyasında "qapının bağlı qalması" "qadının ürəyinə yol tapılmaması" mənası verir), deməli, sevgidə hünərdən danışmağa dəyməz". Bəs tərcümədə necədir? Orijinaldakı məna tərcümədə tamamilə başqa məzmun almışdır. Orijinaldakı "məhəbbət", "hünər" və "qapı" ifadələrindən başqa Q.Xalidin tərcüməsində heç bir söz yer almamışdır, 2-ci və 3-cü misralar isə ümumiyyətlə, tərcümə edilməmişdir. Tərcümədə şair orijinalda olmayan lazımsız bir suala cavab arayır, qapını nə üçün açа bilmədiyini izah etməkdən ötrü «bəhanə axtarır», "hər şeyə əl atır". Belə uğursuz "kəşflər" onun söz və ifadə arsenalından məqamında istifadə edə bilmədiyini sübut edir. Mütərcim növbəti bəndi çevirərkən, belə demək mümkünsə, rəngləri daha da qarışdırır. Burada mütərcimin "zara gəlməsi", "onun başını vətən eşqinin qatması" orijinaldan ciddi kənarlaşmaları sübut edir. Orijinalda şair pərinin vətənini tərk etdiyi üçün təəssüflənirsə («Персия! Тебя ли покидаю?»), tərcümədə, əksinə, pərinin vətənini "Zara gəldim bir qapının əlindən" deyə, bezikmiş şəklidə tərk edir. Mütərcim, orijinal müəllifindən fərqli olaraq, ayrılıqdan nəinki təəssüflənmir, hətta bir rahatlıq hissi keçirir. Onu da qeyd edək ki, tərcümədə orijinalda yer alan «Шага», «Русь», «Персия» kimi ifadələr ümumiyyətlə diqqətdən kənar qalmışdır ki, elə bu da yersiz sərbəstliyin bariz nümunəsidir.

Son bəndin tərcüməsində isə aşağıdakı misralar, ümumiyyətlə, qəbuledilməzdir və orijinalın tam əksi olan bir fikri ifadə edir: "Görmürsənmi qapın salıb nə kökə? / Bir sümüyəm, bir də dəri – salamat...". "Bir qapının əlindən zara gəlmiş, pis kökə düşmüş, bir dəri, bir sümük qalmış" mütərcim, əslində, orijinal müəllifinin heç cür ayrılmaq istəmədiyi bir məmləkətdən, sanki sevinərək, zorla başını götürüb qaçır.

Təsəvvür etmək mümkün deyil ki, bu fikir orijinaldakı çox zərif, şairanə, oxucunun qəlbinə sığal çəkən bir fikrin – «Ты дала красивое страданье» fikrinin "tərcüməsi" kimi verilmişdir. «Красивое страданье» hara, şikayət dolu bu yersiz misralar, giley-güzar hara?!

Anna Axmatovanın şeirlərinin Azərbaycan dilinə tərcümələrinə toxunan Ramiz Rövşən yazır: "*Məncə, tərcümələrin ən əsas qüsuru budur ki, tərcüməçilər dilimizə çevirmək istədikləri poetik mətni içdən yaşamayıblar, qıraqdan, misra-misra baxıb tərcümə ediblər... Tərcümə etdiyi şeiri içdən yaşamayan, indi dəbdə olan sözlə desək, özəlləşdirə bilməyən tərcüməçinin ortaya qoyduğu mətnin ana dilimizdə təbii səslənməsi, yaşaması çox çətindir*" [8]. Fikrimizcə, dövrümüzün ən maraqlı şairlərindən biri, istedadlı tərcüməçi R.Rövşənin bu fikri, bütünlükdə Q.Xalidin bu tərcüməsinə də şamil edilə bilər.

Tərcümədə mütərcim məsuliyyəti məsələsinə xüsusi önəm verən Abdulla Şərif bir məqaləsində yazırdı: "*Bir ədəbi əsərin başqa bir dilə tərcüməsi elə böyük bir operasiyadır ki, ondan sonra əsər ya ölür, ya şikəst olur, çox az ehtimal da sağ qalır*" [2]. Bu fikir 80 il bundan qabaq deyilsə də, adama elə gəlir ki, sanki, bu sözləri, müəllif yuxarıda təhlilə cəlb etdiyimiz tərcüməni oxuduqdan sönra söyləmişdir.

«В Хороссане есть такие двери» şeirinin təhlilə cəlb etdiyimiz digər tərcüməsi Eyvaz Borçalıya məxsusdur. Yuxarıda qeyd etdiyimiz kimi, S.Yeseninin "İran nəğmələri" silsiləsinin tərcüməsini E.Borçalı 2010-cu ildə nəşr etdirmişdir. Bu zaman S.Rüstəm tərcüməsindən təxminən 80 il, Ə.Kürçaylı - 40 il, S.Məmmədzadə - 30, Q.Xalid - 15 ilə yaxın bir müddət keçmişdi. E.Borçalı, fikrimizcə, tərcümənin necə bir sənət olduğunu və mütərcim funksiyasını lazımınca dərk etmiş sənətkarlardandır. Digər rus şairlərindən etdiyi çevirmələrində olduğu kimi, Yesenindən tərcümələrində də onun mütərcim məsuliyyətini yaxşı dərk etdiyi özünü büruzə verir. Bununla belə bu şeirin tərcüməsilə bağlı bəzi məqamları qeyd etməyi vacib hesab edirik.

Nəzərə alsaq ki, oxucuların hamısı dilçi və ya ədəbiyyatçı deyil, onda birinci bənddəki, "həşəm" və "mükəddər" sözləri bir qədər düşündürür və şeiri oxumağa davam etmək əvəzinə lüğətə müraciət etməli olursan. "Mükəddər" sözü mənaca orijinaldakı «задумчивая» sözünə uyğun gəlsə də, misradakı və ümumilikdə

bənddəki şeriyyəti xeyli zəiflədir. Dediklərimiz ikinci misradakı "Həşəm" sözünə də aiddir. Ümumiyyətlə, orijinal şeir olsun və ya tərcümə olsun, (tərcümə də, müəyyən mənada, orijinal şeirdir) istənilən halda, hamının başa düşdüyü, hamının anladığı ifadələrdən istifadə etmək lazımdır və bu, yazdığını, xüsusən də bu yazdığın şeirdirsə, oxunaqlı etməyin ən sadə yoludur. Əlbəttə, tərcüməçi belə qəliz ifadələrdən istifadə etməklə, başqa tərcüməçiləri təkrar etməmək məsələsini, müəyyən mənada, həll etmiş olur. Amma unutmaq lazım deyil ki, bu halda itirilən (sadəlik, şeiriyyət, oxunaqlılıq) qazanılandan (təkrardan qaçma) daha çox olur. Şeirin 2-ci bəndi maraqlı tərcümə edilsə də, 3-cü bəndlə bağlı bir məqamı qeyd edək. Bəndin son iki misrası belədir: «Коль дверей не смог я отпереть, /Ни к чему в любви моей отвага». Tərcümədə isə, "Açа bilmirəmsə o qapını mən" misrasının yeri dəyişilməklə, son iki misra arasındakı şərti və poetik bağlılıq itirilmişdir. Həmin misra, orijinalda olduğu kimi, bəndin 2-ci misrası olaraq verilmiş olsaydı, tərcümə daha uğurlu səslənərdi.

Bu məqamda bir məsələni qeyd etmək yerinə düşər. Məsələ burasındadır ki, tərcümə prosesində zaman-zaman mütərcimlər misraların orijinaldakı məntiqi ardıcıllığına laqeyd yanaşır və ya bu məsələdə həddindən artıq sərbəstlik göstərirlər. Biz bu məsələyə şeirin Q.Xalid tərcüməsini təhlil edərkən qısaca toxunmuşduq. Onu da deyək ki, belə məqamlara Yesenin poeziyasından tərcümələr etmiş bütün mütərcimlərdə rast gəlirik. E.Borçalının indi təhlilə cəlb etdiyimiz tərcüməsi də bundan xali deyil. Bu, əsasən, yuxarıda qeyd etdiyimiz kimi, üçüncü bənddə özünü büruzə verir. Orijinalda 2-ci və 3-cü, 4-cü və 5-ci misralar bir-birilə əlaqəlidir, bir-birini tamamlayır. Tərcümədə isə bu əlaqə və bağlılıq orijinaldakından fərqlidir. Bu bir tərəfdən orijinalın formasının pozulmasıdırsa, digər tərəfdən də şeirin poeziyasına da təsirsiz ötüşmür. Çünki, şeirdə (deməli, tərcümədə də) misraların ardıcıllığı və bir-birinə bağlılığı yalnız bənddaxili əlaqələri müəyyənləşdirmir, həm də bəndlərarası əlaqələrə təsir edir, hətta bu əlaqələri formalaşdırır. Bu baxımdan özünəməxsusluğu ilə seçilən «В Хороссане есть такие двери» şeirinin tərcüməsinə həssaslıqla yanaşılması vacibdir. Bu məsələyə lazımınca diqqət verilməməsi tərcümə zamanı orijinalın poetikliyinin dəyişilməsinə, daha doğrusu, zəifləməsinə gətirib çıxaran səbəblərdən biridir.

Dördüncü bənddə də bir məqamı qeyd etmək lazım gəlir. Orijinalda şair gözəl Pərinin vətənindən – İrandan əbədilik ayrılıb-ayrılmadığını özü də bilmədiyi halda («Навсегда ль с тобою расстаюсь»), tərcüməçi bunu əminliklə söyləyir ("Səndən ömürlük ha ayrılmır ürək") və orijinaldakı sual intonasiyası itirilir. Belə məqamlarla yanaşı, bir sıra hallarda, mütərcimin "Vətən sevgisidir çağırıb çəkən", "Bir gözəl iztirab bəxş elədin sən", "Eşqinlə ötəcək könlüm vətəndə" və s. kimi tərcüməyə xüsusi təravət verən, dilimizdə yaxşı səslənən, rahat yadda qalan, sadə, aydın misralar yaratdığını da söyləməliyik.

Beləliklə, «В Хороссане есть такие двери» şeirinə müxtəlif mütərcim yanaşmalarının şahidi oluruq. Təhlilə cəlb etdiyimiz tərcümələrdə hər mütərcim tərcümə prosesinə öz prizmasından yanaşır və bu yanaşma tərzindən asılı olaraq öz bacarığı, təcrübəsi və ustalığı müqabilində uğura nail olur və ya uğursuzluğa düçar olur. Bolqar nəzəriyyəçisi A.Lilova yazır: "*Hər bir yaxşı mütərcimdən analitik tərcümə, subyektiv izah, əsərin kompozisiyasına, üslubuna, müəllifin ifadə üsullarına və s. kobud və sərbəst müdaxilə edilməməsi və s. tələb olunur, çünki, həmmüəllif müdaxiləsi ilə tərcümə – tamamilə müxtəlif şeylərdir, həmmüəllif müdaxiləsi tərcüməyə olan əsas tələbin – onun obyektinin muxtariyyətinin, başqa sözlə orijinalın qorunmasının pozulması deməkdir*" [255, s.52].

Tərcüməçilik, ümumilikdə, çətin və məsuliyyətli bir peşədir. "*Hər bir əsərin müəllifi öz qarşısında ikiqat məsələ qoyur: forma vasitəsilə öz ideyasını həyata keçirmək və onu elə ifadə etmək ki, insanların hisslərinə və şüuruna təsir etmək mümkün olsun. Tərcüməçi isə, maksimum adekvatlığa səy göstərməklə, milyonlarla yeni insanların hisslərinə və şüuruna təsir etmək üçün həmin ideyanı, başqa dildə, yenidən həyata keçirir və ifadə edir. Bax bu ikinci məqam və formanın bu ikinci funksiyası həm məqsəd, həm proses olaraq həm müəllif, həm də mütərcim üçün, demək olar ki, eyni dərəcədə çətindir*" [255, s.51]. Lakin bu çətinlik, "*kainatı birləşdirən, bütövləşdirən işlərin ən vaciblərindən və ən layiqlilərindən*" [143, s.412] hesab olunan bu sənətlə məşğul olanları, olmaq istəyənləri qorxutmamalı, sadəcə olaraq, onlarda məsuliyyət hissini gücləndirməlidir. Burada mütərcimin orijinal dilin daşıyıcısı olan xalqın milli xarakteri və mədəniyyəti ilə nə dərəcədə yaxından tanış

olması, onu nə dərəcədə başa düşməsi də az rol oynamır: E.Q.Etkindin fikrincə, "*Başqa xalqın poeziyasını başa düşmək – başqa milli xarakteri, başqa mədəniyyətin emosianal dünyasını başa düşmək deməkdir*" [383, s.3]. Tanınmış Vyetnam tərcüməçisi Dao Tuan An da Yesenin poeziyasının Vyetnam dilinə tərcüməsi prosesində qarşıya çıxan problemlərdən danışarkən, təxminən bu məsələlərə toxunur [155].

Tərcüməçilik sənəti ümumilikdə çətin peşə olsa da, "*öz orijinal palitrası, öz rəngləri ilə diqqəti cəlb edən*" [23, s.25] Yesenin poeziyasından tərcümə etmək xüsusilə çətindir. Məhz bu Yesenin rənglərini daha yaxşı hiss edən, görən mütərcimlər Yesenin poeziyasının tərcüməsində uğur qazana bilərlər. «В Хороссане есть такие двери» şeirinin tərcüməsində biz S.Rüstəm, S.Məmmədzadə və Q.Xalidin bəhs edilən bu Yesenin rəngləri və naxışlarına, eləcə də iş prosesinə başlamazdan əvvəl mətni dərindən təhlil edib onun ruhuna nüfuz edə bilməmələrinin şahidi oluruq. P.Skosırev mütərcimin orijinalın ruhuna nüfuz etməsinin vacibliyini belə ifadə edir: "*Mütərcim – oxucu ilə əcnəbidilli şair arasında vasitəçidir. Mütərcim orijinalın, yalnız texniki deyil, həm də, biz deyərdik ki, ən mənəvi "sirlər"ini dərindən mənimsəməlidir – axı tərcümənin formasının qeydinə qalmazdan əvvəl, orijinalın ruhunu büsbütün anlamaq lazımdır*" [314, s.268].

Fikrimizcə, «В Хороссане есть такие двери» şeirinin tərcüməsində, digər mütərcimlərdən fərqli olaraq, E.Borçalı və xüsusən də Ə.Kürçaylı, yuxarıda qeyd etdiyimiz bir sıra məqamlar istisna olmaqla, ümumilikdə, Yesenin rənglərini dilimizdə daha canlı verməyə nail ola bilmişlər. Onların tərcümələrində, digərilərilə müqayisədə, orijinala daha çox sadiqlik göstərilməsilə yanaşı, həm də müəllif üslubunun, ifadə üsullarının, orijinalın ruhunun, forma-məzmun bütövlüyünün dilimizdə, nisbətən, daha uyğun şəkildə yaradıldığının şahidi oluruq.

Indi də "İran nəğmələri" silsiləsinə daxil edilmiş «Отчего луна так светит тускло» şeirinin Əliağa Kürçaylı, Səyavuş Məmmədzadə və Eyvaz Borçalı tərcümələrini təhlilə cəlb edək. Orijinal:

«Отчего луна так светит тускло
На сады и стены Хороссана?
«Отчего луна так светит грустно?» -
У цветов спросил я в тихой чаще,

Словно я хожу равниной русской
Под шуршащим пологом тумана», -

Так спросил я, дорогая Лала,
У молчащих ночью кипарисов,
Но их рать ни слова не сказала,
К небу гордо головы завысив.

И цветы сказали: «Ты почувствуй
По печали розы шелестящей».

Лепестками роза расплескалась,
Лепестками тайно мне сказала:
«Шаганэ твоя с другим ласкалась,
Шаганэ другого целовала.

[195, s.271]

Ə.Kürçaylının tərcüməsi:

“Xorasan bağları, evləri üstə
Nə üçün solğundur ayın ziyası?
Elə bil gedirəm rus çöllərivlə,
Başımın üstündə duman cunası”.

Soruşdum mehriban, əziz Lalədən
Gecə sərvlərin kölgəsində mən.
O cavab vermədi bir kəlmə mənə,
Başını qürurla şax tutdu yenə.

“Nə üçün qəmlidir ayın ziyası?” -
Ləkdə çiçəklərdən xəbər aldım mən.
Çiçəklər söylədi: “Soruş bu sirri
Qəmli qızılgülün titrəməsindən”.

Qızılgül titrədi ləçəklərilə,
Ləçək dodağıyla söylədi mənə:
“Başqasıyla gəzir sənin Şahanən,
Başqa birisini öpdü, Şahanə”.

[113, s.121]

S.Məmmədzadənin tərcüməsi:

“Nədəndir, ay belə sönük görünür
Xorasan bağları, gülləri üstə?
Elə bil yol boyu duman sürünür
Bizim Rusiyanın çölləri üstə”.

“Beləcə soruşdum, əzizim Lalə,
Beləcə dinlədim susan sərvləri,
Bu aylı gecədə gəlmədi dilə
Göylərə baş vuran uca səfləri”.

“Nədəndir, ay belə qəmli görünür?” -
Soruşdum güllərdən yol qırağında.
Dedilər: “Qızılgül nəmli görünür…
Cavabın gizlənir hıçqırığında”.

Qönçələr öz qızıl saçını yoldu,
Ləçəklər dil açıb söylədi mənə:
“Şahanə yad ilə qol-boyun oldu,
Öpüşdü, sevişdi yadla Şahanə”.

[104, s.340]

E.Borçalı tərcüməsi:

“Nədən Xorasanda bağça-bağ üstə
Belə sönük olur ayın şöləsi?
Sanki xışıltılı, dumanlı düzdə
Könlüm Rusiyanı dolaşıb gəzir”.

Beləcə soruşdum, a Lalə, bunu
Sükuta qərq olan göy sərvlərdən.
Vüqarla boy verib, dikəlib yerdən
Susdu onların da qatar qoşunu.

“Nədən ayın üzü qəmlidir belə?”
Çiçəkli çəməndən soruşanda mən,
Çiçəklər dil açdı: “Özün hiss elə
Gülün çöhrəsində həzin qüssədən!”.

Ləçəklər titrədi, ləpələndi gül,
Ləçəklər gizlicə söylədi mənə:
“Gedib özgəsinə bağlayıb könül,
İndi özgəsini öpür Şəhanə!”.

[108, s.26]

Sətri tərcümə:

“Nədən ay işığı belə tutqundur
Xorasan bağları, sədləri üstə?

“Nədən ay işığı belə qəmgindir?” -
Sakit çəmənlikdəki çiçəklərdən soruşdum,

Sanki mən rus düzənliyi ilə gedirəm	Və güllər dedi: “Sən bunu hiss et
Xışıltılı duman örtüyü altında”,-	Xışıldayan qızılgüllərin kədərindən”.
Beləcə soruşdum, əzizim Lalə,	Ləçəklərilə qızılgül çırpındı,
Gecələr susmuş sərvlərdən,	Ləçəklərilə gizlicə mənə dedi:
Amma onların qoşunu heç nə demədi,	“Şahanən sənin başqası ilə sevişir,
Səmaya qaldırıb məğrur başını.	Şahanə başqa birini öpdü”.

Hər üç tərcümədə orijinalın fərqli intonasiyaları göz qabağındadır. Bunu biz poetik tərcümələrin sətri tərcümə ilə tutuşdurulmasında da kifayət qədər hiss edə bilərik. Ə.Kürçaylının tərcüməsilə bağlı əvvəlcə onu qeyd edək ki, tərcümədə birinci və ikinci misraların yerdəyişməsi formanı pozmaqla yanaşı, səslənməyə də xələl gətirmişdir. İkinci misranın “Nə üçün solğundur ayın ziyası?” kimi tərcüməsi normal səslənsə də, üçüncü bənddəki «Отчего луна так светит грустно?» misrasının “Nə üçün qəmlidir ayın ziyası?” kimi tərcümə edilməsi, fikrimizcə, uğurlu tərcümə deyil. Ayın ziyası solğun ola bilər, amma qəmli ola bilməz. Qəmli olan ay özüdür, onun ziyası yox! Məhz ay qəmli olduğu üçün onun ziyası solğundur. Şeirin ikinci bəndində də məzmundan kənarlaşma göz qabağındadır; şair orijinalda Laləyə gecə dinməz sərv ağaclarını necə sorğu-suala tutduğundan danışır, tərcümədə isə hər şey sərvlərdən deyil, Lalənin özündən soruşulur.

Üçüncü bənddə orijinaldakı «ты почувствуй» ifadəsi tərcümədə “soruş” kimi verilmişdir. Həmin bəndin son misrasında səbəb olaraq “Qəmli qızılgülün titrəməsi” göstərilir. Artıq səbəb məlumdursa, soruşmağa ehtiyac yoxdur, sadəcə, onu duymaq lazımdır. Orijinalda şair bu incə məqamı vermiş, ancaq tərcüməçi onu hiss etməmişdir. “Soruş” sözü əvəzinə, “anla”, “hiss et”, “duy” kimi sözlərdən biri işlənsə, daha doğru olardı.

Şeirin beşinci bəndində isə mütərcim, «Русский не заметит» fikrini “rus qəlbi anlamaz” kimi verməklə, orijinaldakı fikri tamamilə fərqli şəkildə ifadə etmiş, üstəlik, dördüncü və beşinci bəndlər arasında əlaqə itirilmişdir.

Ümumiyyətlə, Ə.Kürçaylı tərcümələrində, bir qayda olaraq, biz Yesenin sətirlərinin döyünən ürəyini duyuruq, mütərcim öz çevirmələrində Yeseninsayağı təsvirlər yarada bilir. Amma bu şeirin son beytindəki «сиреневые ночи» ifadəsinin “çıraqban

gecələr” kimi verilməsi Yesenin dəsti-xəttinə, dediyimiz yeseninsayağı təsvirə yaddır. Yeseninin böyük bənzətmə ustası olduğu, onun poeziyasında rus təbiətinin rənglərindən necə geniş və rəngarəng şəkildə istifadə edildiyi hər kəsə məlumdur. Düzdür, Yesenin rənglər içərisində daha çox «синий» və «голубой» rənglərə yer versə də, «Сиреневые ночи», «сиреневый дым» kimi bənzətmələr Yeseninin sevdiyi istiarələrdəndir və onun poeziyasında maraqlı və orijinal rənglərin ifadəsidir. Belə ifadələrin Yesenin yaradıcılığında nə qədər böyük və spesifik rol oynadığını mütərcim bilməli və onu tərcümədə saxlamağa borclu idi. Tərcümələrində həmişə orijinala sadiqliyi ilə seçilən Ə.Kürçaylı, fikrimizcə, bu şeirin tərcüməsində sərbəstliyini bir qədər artırmışdır ki, bu da tərcümənin ümumi keyfiyyətinə mənfi təsir göstərmişdir.

S.Məmmədzadə Ə.Kürçaylıdan fərqli olaraq şeirin birinci və ikinci misralarını daha adekvat çevirməyə müvəffəq olur və leksik baxımdan da uyğunluqlar yaradır. «Отчего луна так светит тускло» misrasını “Nədəndir, ay belə sönük görünür”, «Отчего луна так светит грустно?» misrasını isə “Nədəndir, ay belə qəmli görünür?” kimi ustalıqla tərcümə etməklə mütərcim şeirdə gözəl səslənməyə nail olmuşdur. O, həmçinin ikinci bənddə «Так спросил я, дорогая Лала / У молчащих кипарисов» - misralarını da “Beləcə soruşdum, əzizim Lalə / Beləcə dinlədim susan sərvləri” kimi maraqlı tərcümə edir. Amma, Ə.Kürçaylıda olduğu kimi, burada da dördüncü bənddəki “Şahanə yad ilə qol-boyun oldu / Öpüşdü, sevişdi yadla Şahanə» ilə növbəti bənddəki “Nəğməyə bu canım qurbandı, dedi…” misrası arasında rabitə, əlaqə pozulmuşdur. Orijinalda beşinci bəndin birinci beyti ilə Şahanənin şairə xəyanəti tamamlandığı kimi, beytin özündəki misralar da bir-birini tamamlayır, tərcümədə isə bu hiss edilmir. Son bənddəki «Слез и мук, кто ждал их, кто не хочет» misrasının “Vədə yox sitəmə, əlac – əcələ...” kimi tərcüməsi də bir qədər anlaşılmazlıq yaradır, bənddə “dünya” ifadəsinin iki dəfə işlədilməsi yersiz təkrarçılıq kimi görünür.

E.Borçalı da orijinala öz “açarı”nı salmaq istəyir. Şeirin birinci bəndini orijinaldan və S.Məmmədzadədən fərqli olaraq inversiya yolu ilə tərcümə etməyə üstünlük verir. Burada ikinci-dördüncü misralarda zəif qafiyələnmə də (“şöləsi-

gəzir") dərhal gözə çarpır. Digər tərəfdən, müxtəlif bəndlərdə də misraların öz aralarında qafiyələnmə sistemində xeyli müxtəlifliklər var. Belə ki, 1-3-4-5-ci bəndlərdə tək və cüt misralar qafiyələndiyi halda, 2-ci və 6-cı bəndlərdə bu sistem iki müxtəlif formada verilmişdir.

Birinci bənddə "elə sönük olur ayın şöləsi?" deməklə, tərcüməçi məsələni bir qədər ümumiləşdirmişdir. Hesab edirik ki, bu uğursuz ümumiləşdirməni yaradan səbəb misradakı "olur" sözüdür. Burdan belə çıxır ki, elə həmişə Xorasanın bağça-bağları üzərində ayın şöləsi sönük olur. Amma orijinalda bu sönüklüyün mənası başqadır. Sevgilisi şairə xəyanət edir, başqasına könül verir. Məhz bunun üçün ay qəmə batıb və onun şöləsi sönük görünür. Bu məqam mütərcim tərəfindən hiss edil-məmişdir.

İkinci bənddəki «дорогоя Лала» xitabının qarşılığı olaraq "a Lalə" kimi müra-ciət də xeyli quru və gobud səslənir, orijinal müəllifindən fərqli olaraq, mütərcim sanki tanımadığı birinə müraciət edir. Bu bənddəki «ночью кипарисов» ifadəsi E.Borçalıda "göy sərvlərdən" kimi tərcümə olunmaqla "gecə" sözü buraxılır, yerinə "göy" rəng ortaya çıxır, yəni ismin sifətlə əvəzlənməsi baş verir. Lakin, bununla yanaşı orijinaldakı «их рать» ifadəsinin mütərcim tərəfindən "qatar qoşunu" kimi tərcüməsi ürək açır.

Beşinci bəndin son iki misrasının («Оттого луна так тускло светит / Оттого печально побледнела») "Qaçıb açıq rəngi gizli öpüşdən / Odur ki, çilənir ay belə boyat") kimi tərcüməsi də xeyli zəif təsir bağışlayır. Orijinalda məhz bu beytlə birinci və üçüncü bəndlərdə qoyulmuş sualın cavabı verilir. Məna baxımından tərcümədəki bu cavab qaneedici olsa da, şeriyyət baxımından bunu söyləmək çətindir. Hesab edirik ki, bu cavabı, digər tərcüməçilərlə müqayisədə, S.Məmmədzadə daha aydın və şairanə şəkildə verə bilmişdir: "Odur ki, ayın da könlü açılmaz / Odur ki, üzü də tutqundur indi...". Bu bəndin ilk iki misrası isə E.Borçalı tərəfindən yetərincə poetik yaradılıb; «Сердцу – песнь, а песне – жизнь и тело…» fikrinin "Ürək nəğmə istər, nəğmə də – həyat…" kimi tərcüməsi Ə.Kürçaylının "Ürəkdə mahnı var, mahnıda həyat", S.Məmmədzadənin "Nəğməyə bu canım qurbandı, dedi" misralarından xeyli üstündür. Bununla yanaşı, şeirin sonuncu bəndindəki «сиреневые ночи» ifadəsini

E.Borçalı “Yasəmən gecə” (orijinaldan fərqli olaraq tək halda) kimi verir və bu, fikrimizcə, S.Məmmədzadənin “Yasəmən donlu gecələr”i ilə müqayisədə (orijinalda “don” sözü olmasa da) xeyli cansız görünür.

Nəticə olaraq qeyd edək ki, seirin tərcümələri ilə bağlı yuxarıda irəli sürdüyümüz mühakimələr, müqayisələr belə deməyə imkan verir ki, Ə.Kürçaylı və E.Borçalıdan fərqli olaraq, bu şeiri S.Məmmədzadə xüsusi bir ilhamla tərcümə etmiş, orijinalın ruhunu tam tuta bilmiş, əsl yeseninsayağı təsvirlər yarada bilmişdir. Fikrimizcə, bu tərcümə onun “İran nəğmələri”ndəki ən uğurlu tərcüməsi hesab edilə bilər və şeirin digər tərcümələri ilə müqayisədə də kifayət qədər canlı və xoş təsir bağışlayır. Tanınmış rus tərcümə nəzəriyyəçisi Y.Ryaşentsev tərcümənin keyfiyyətindən söhbət açarkən belə bir fikir deyir: “*İdeal tərcümə, başqa dildə, orijinalın oxucuda oyatdığı təəssürata maksimum yaxın təsir oyada biləcək şeir yaratmaq deməkdir*” [307]. Biz, S.Məmmədzadənin bu tərcüməsini ideallaşdırmırıq, yuxarıda təhlilimiz zamanı da burada bəzi zəif məqamların və çatışmamazlıqların olduğunu qeyd etmişdik. Amma, bununla yanaşı, onu da qeyd etmək istəyirik ki, mütərcim burada məhz, yuxarıda qeyd etdiyimiz kimi, əsl yeseninsayağı təsvirlər yaratmaqla, fikrimizcə, Y.Ryaşentsevin dediyi kimi, orijinalın oxucuda oyatdığı təəssürata maksimum yaxın təsir oyada biləcək tərcümə nümunəsi yarada bilmişdir.

Beləliklə, biz bu paraqrafda Yeseninin “İran nəğmələri” silsiləsinə daxil edilmiş, özünün xüsusi forma və məzmunu ilə digərilərindən seçilən, diqqəti daha çox cəlb edən, eyni zamanda daha çox mütərcimlər tərəfindən dilimizə çevrilmiş altı şeirin Azərbaycan dilinə tərcümələrini təhlilə cəlb etdik. Əlbəttə, yuxarıda qeyd etdiyimiz kimi, silsiləyə daxil edilmiş şeirlərdən hər birinə və onların hər bəndinə aid təhlillərin aparılması tədqiqat işimizin nə həcmi, nə də məqsədi baxımından səmərəli hesab edilə bilməz. Üstəlik, bu sətirlərin müəllifinin 2010-cu ildə işıq üzü görmüş “Şeir gülüstanının təkrarolunmaz çiçəyi – Serqey Yesenin” adlı monoqrafiyasında [42, s.117-238] silsiləyə daxil olan şeirlərin hər birinin geniş təhlilinə cəhd göstərilmişdir. Bununla yanaşı, burada, bu şeirlərin tərcümələrində Yesenin poeziyasında xüsusi çəkiyə malik xitablardan necə istifadə edilməsi, onların mütərcimlər tərəfindən

tərcümələrdə necə verilməsi haqqında bir qədər danışmağı məqsədəuyğun hesab edirik.

Məlumdur ki, ədəbiyyatda insanlara müraciətlə işlədilən adi xitablarla yanaşı, müəyyən üslubi xarakterli, emosional hisləri özündə ehtiva edən xitablar da vardır. Dilçilikdə bunlar bədii xitab [3, s.316], yaxud ritorik xitablar adlanır [14, s.247]. S.Yeseninin "İran nəğmələri" silsiləsində də bir sıra, müxtəlif məqsədlərlə, o cümlədən, əsas diqqəti müraciət olunana cəlb etmək məqsədilə işlənmiş xitablara rast gəlirik. Bu, xüsusilə də adlı xitablar vasitəsilə həyata keçirilir. Digər tərəfdən də müəllifin fikirləri, yeri gəldikcə, xitabların təkrarlanması və ya xüsusi fərqləndirilmiş intonasiya vasitəsilə daha da gücləndirilir. Göründüyü kimi, müxtəlif xitabların işlədilməsində əsas məqsəd, bir qayda olaraq, şeirin ruhunun gücləndirilməsi, onun oxucuya təsir gücünün daha da artırılmasına nail olmaqdır.

Bəs tərcümə prosesində mütərcimlər bütün bunlara nə dərəcədə nail ola bilirlər? Tərcümə zamanı mütərcimlərdən hər biri bu xitabları ya orijinal müəllifinə uyğun olaraq intonasiyanı olduğu kimi saxlamaqla çevirir, ya onu gücləndirir, ya da, təbii ki, istəmədiyi halda onu zəiflətmiş olur.

«Улеглась моя былая рана» şeirində iki müxtəlif bənddə (üçüncü və altıncı) xitablı «Угощай, хозяин, да не очень» və «Наливай, хозяин, крепче чаю» misraları Ə.Kürçaylı tərəfindən birinci halda "Bəsdir bir stəkan, a çayçı, yetər", ikinci halda "Bir az da tünd elə, çayçı, çayçı, sən" kimi çevirməklə, doğrudan da xitabın poetik vüsətini daha da artırır. S.Məmmədzadə həmin misraları, uyğun olaraq, "Çox da əl-ayağa düşmə, a çayçı", "Süz, çayçı, çayını bir az tünd elə" kimi verməklə şeirin emosional yükünü orijinalda olduğu kimi saxlamağa çalışır. Q.Xalid üçüncü bəndin birinci misrasını "Bəsdi, bəs... hələlik süzmə, a çayçı" şəklində versə də altıncı bənddəki xitabın tərcüməsindən kənarlaşaraq, bu xitabı hansı məqsədləsə sonuncu bəndə keçirir, orijinalda heç bir xitabın yer almadığı «И на дверь ты взглядывай не очень» misrasını "Qapıya boylanıb durma, a çayçı" kimi verir. F.Mustafa bu şeirin birinci haldakı misrasını "Çayçı, gəl başımı çox qatma çayla" versə də, ikinci bənddəki «хозяин» ifadəsi "çayxana sahibi" söz birləşməsi ilə əvəz olunur və misra "Çayxana sahibi, süz tünd çayından" kimi, bir qədər də poeziya cəhətdən zəif şəkildə

ifadə edilir. Burada tərcümə hərfi mənada uyğun gəlsə də onunla müqayisədə “çayçı” xitabının daha ekspressiv səsləndiyini qeyd etməliyik. E.Borçalının tərcüməsində isə «хозяин» ifadəsi yeni bir biçim alır və onun qarşılığı kimi “Ağa” ifadəsi meydana gəlir. O, birinci misranı “Ağa, bir ara ver, bir azca gözlə”, ikinci misranı isə “Çay süz, ağa çayçı, bir az tünd elə” kimi təqdim edir. Heç şübhəsiz, bu məqamda “İran nəğmələri” silsiləsinin İranla bağlılığı xüsusi rol oynamışdır. Belə ki, “Ağa” müraciəti hal-hazırda da İranda insanlar arasında müraciət forması kimi geniş yayılmışdır. Bu məqam, əslində “İran nəğmələri” silsiləsini Azərbaycandan uzaqlaşdırır.

Xitab və intonasiya ilə dolu «Шаганэ ты моя, Шаганэ!» misrasının tərcümələrinə nəzər salaq: Bu misra Ə.Kürçaylıda “Sevimli Şahanə, gözəl Şahanə!”, S.Məmmədzadədə “Mehriban Şahanə, gözəl Şahanə”, F.Mustafada “Şahanə, Şahanə, mənim Şahanəm!”, E.Borçalıda “A mənim Şahanəm, mənim Şahanəm!”, T.Kərimlidə “Şahanəm, Şahanəm, mənim Şahanəm” kimi tərcümə edilir. Birinci və dördüncü mütərcimlər xitabı təxminən orijinaldakı kimi saxlayır, ikinci nida işarəsi qoymamaqla intonasiyanı zəiflədir, üçüncü və beşinci (nida işarəsi qoyulmasa da) isə xitab orijinalda iki dəfə təkrarlandığı halda, tərcümədə onu üç dəfə təkrarlayır və xitabın ekspressiyası bir qədər də gücləndirilir. Qeyd edək ki, F.Mustafadan fərqli olaraq T.Kərimli, yuxarıda bu şeirin təhlili zamanı söylədiyimiz kimi, misranı daha dolğun – “Şahanəm, Şahanəm, mənim Şahanəm!” kimi təqdim etməklə, daha böyük uğur qazanmışdır. Onu Qeyd etməyi zəruri hesab edirik ki, xitabların kor-koranə bir neçə dəfə təkrarlanması heç də həmişə qarşıya qoyulan məqsədə nail olunmasına xidmət etmir. Bəzi hallarda bu, aldadıcı təsir bağışlamaqla hər şeyin əksinə olaraq şeirdəki poeziyanı zəiflədir və beləliklə də tərcümənin mükəmməlliyinə mənfi təsir göstərir. Odur ki, bu məsələyə hər dəfə xüsusi yanaşılmalı, həssaslıq nümayiş etdirilməlidir.

Onu da qeyd edək ki, şeirin dördüncü bəndindəki «Дорогая» xitabı Ə.Kürçaylı və S.Məmmədzadə tərəfindən uyğun şəkildə “Əzizim” kimi verilsə də, F.Mustafa bir qədər fərqli “Gülüm” sözünə üstünlük verir, E.Borçalı və T.Kərimli isə bu xitabı, ümumiyyətlə, diqqətdən kənar qoymuşlar.

«Свет вечерний шафранног края» şeirində üç yerdə - birinci bəndin üçüncü misrasında «моя дорогая», dördüncü bəndin birinci misrasında və sonuncu, altıncı bəndin üçüncü misrasında xitab kimi «дорогая» müraciət formasından istifadə edilmişdir. Ə.Kürçaylının tərcüməsində olduğu kimi S.Məmmədzadə də bu xitabların oxucuya çatdırılmasında tamamilə eyni ifadələrə üstünlük vermişdir. Xitablar birici halda "Gülüm", ikinci halda "Əzizim" kimi verilmiş, üçüncü məqam isə hər iki tərcüməçidə diqqətdən kənar qalmışdır. Q.Xalid isə məsələyə daha dəqiq yanaşmaqla hər üç məqamda xitabları "Əzizim" kimi verməyə nail olmuşdur ki, bunu tərcümənin müsbət məqamlarından biri kimi dəyərləndirmək olar. E.Borçalı bu dəfə də, «Улеглась моя былая рана» şeirində olduğu kimi, tamamilə fərqli bir ifadəyə üstünlük vermişdir. Belə ki, o, «дорогая» xitabının qarşılığı olaraq Azərbaycan dilində gözəl səslənən maraqlı bir ifadə - "dilbər" ifadəsini seçmişdir. Amma, birinci və üçüncü halda xitabı "a dilbər" kimi canlandırsa da, ikinci halda Ə.Kürçaylı və S.Məmmədzadə kimi o da "Gülüm" ifadəsinə üstünlük vermişdir. Qeyd edək ki, əslində bu müxtəlifliyə heç bir lüzum yox idi. Belə ki, əgər uyğun xitabın qarşılığı olaraq "a dilbər"ə üstünlük verilmişdisə, dördüncü bəndi də "Gülüm, o çadrayla dostluğu at da" əvəzinə, uyğun ifadəni saxlamaqla, "Dilbər, o çadrayla dostluğu at da" və ya "A dilbər, çadrayla dostluğu at da" kimi tərcümə etmək olardı.

«Воздух прозрачный и синий» şeirində birinci bəndin üçüncü misrasında rast gəlinən «Путник» xitabını Ə.Kürçaylı "yolçu sən" kimi, S.Məmmədzadə "Qərib" kimi tərcümə etmiş, E.Borçalı isə xitabın verildiyi beyti ümumilkdə "Göy üfüqə üz tutan kəs / səhrayacan gedə bilməz" kimi tərcümə etməklə fikrin xitab xarakterini itirmişdir. «Путник» xitabına «Золото холодное луны» şeirində də (üçüncü bəndin üçüncü misrası) rast gəlinir. Amma bu xitabı Ə.Kürçaylı və E.Borçalı "yolçu" kimi versə də, bu dəfə S.Məmmədzadənin tərcüməsində xitab öz əksini tapmamışdır.

«В Хороссане есть такие двери…» şeirindəki xitabların oxucuya necə çatdırılması da maraq doğurur. Bu şeirin son bəndindəki birinci və beşinci misralardakı «До свиданья, пери, до свиданья!» xitabı Ə.Rüstəm tərəfindən birici halda "Əlvida, əlvida, pəri, əlvida!", ikinci halda "Ötərəm, əlvida, pəri, əlvida" şəklində oxuculara çatdırılır. Bu xitabları, Ə.Kürçaylı hər iki halda "Əlvida, ey pəri, artıq, əlvida!";

S.Məmmədzadə hər iki halda “Salamat qal, nazlı pəri, salamat”; Q.Xalid hər iki halda “Salamat qal, sən ey pəri, salamat”; E.Borçalı hər iki halda “Sağ ol, salamat qal, ey pəri, sən də” kimi oxuculara çatdırırlar. Qeyd edək ki, E.Borçalının tərcüməsindəki “sən də” vurğusu bir qədər artıq və yersiz görünür. Üstəlik, Q.Xalid və E.Borçalı “ey pəri” vurğusu ilə müraciətə sanki bir qədər quruluq gətirmişlər. Burada şeirin müəllifilə gözəl Pəri arasındakı ülvi məhəbbət hisləri qırılmışdır. Ə.Kürçaylıda isə ifadə forması o qədər uğursuzdur ki (buradakı “artıq” ifadəsi, sözün əsl mənasında artıqdır), sanki şeirin müəllifi gözəl Pəridən canını qurtardığına görə sevinir. Tərcümələr arasında S.Məmmədzadənin tərcüməsi, heç bir şübhəsiz, daha təsiredici, daha nəvazişli, daha ürəyəyatımlıdır.

S.Yesenin insanlarla yanaşı, öz lirikasında həm də təbiətə, konkret ölkəyə, şəhərə yetərincə müraciətlər etmişdir. Belə xitablar edilərkən, müraciət edilən obyekt sanki canlılaşdırılır. “*Şəxsə müraciət olunmayan (əşya və yaxud mücərrəd isimlə ifadə olunan) xitab canlandırma – canlı varlığın əlamətlərini cansızların üzərinə köçürən məcaz yaradır*” [360, s.146]. Məsələn, «В Хороссане есть такие двери…» şeirindəki dördüncü bəndin ikinci misrasında «Персия! Тебя ли покидаю?» xitabını S.Rüstəm “Sənimi, sənimi atıram, İran?!”; Ə.Kürçaylı “Səni tərk edirəm deməli, İran?” (burada xitabın intonasiyası zəiflədilməklə, durğu işarələrinin də qoyulması ilə bağlı xətalara yol verilir); S.Məmmədzadə “İran eli! Ayrılırıq, deməli” (yenə zəif ekspressiyalı), Q.Xalid bu misranı, ümumiyyətlə, başqa şəkildə «Персия» və «пери» xitabları birləşdirərək “Gözəl pəri, ayrılıram elindən” kimi orijinaldakı sonuncu bəndin birinci misrasına uyğun formada verir ki, bu da fikrimizcə, tamamilə yersiz və əsassız görünür. E.Borçalı bu misranı “Ey İran, sənimi tərk edirəm mən?” kimi tərcümə etməklə, özündən əvvəlki mütərcimlərlə müqayisədə daha uğurlu ifadə forması tapmağa nail olmuşdur. Amma, fikrimizcə, mütərcim misradakı kobud rəsmiyyət təsiri bağışlayan “Ey İran” əvəzinə, məsələn, “Ah İran” yazsaydı, ayrılıq kədərini bir qədər də dərinləşdirmiş və bununla da xitabın təsir güçünü də artırmış olardı.

S.Yeseninin lirik şeirlərində xitablar heç də həmişə müəllifin sevgi hisslərinin ifadəçisi kimi çıxış etmir, onlar həm də şairin qəm, kədər, üzüntü, ayrılıq hisslərini

ifadə edir. «Голубая родина Фирдуси….» şeirində «Хороша ты, Персия, я знаю» (ikinci bəndin birinci və beşinci misralarında) və üçüncü bəndin üçüncü misrasındakı «дорогая Шага» xitabları şairin İranla və mehriban sevgilisi Şaqane ilə ayrılıq kədəri üzərində yaradılmışdır. «Хороша ты, Персия, я знаю» Ə.Kürçaylıda "Bilirəm, nə qədər gözəlsən, İran" (orijinala uyğun intonasiya ilə), «дорогая Шага» xitabı isə quru "Şahanə" kimi (bunu ən azı "Şahanəm" kimi vermək olardı) verilir, S.Məmmədzadə, bunları uyğun olaraq, "Səfalısan, İran eli", "ey Şahanə" şəklində verir ki, bu da xitabın intonasiyasına mənfi təsir göstərməklə, kifayət qədər də, sönük təsir bağışlayır. E.Borçalı bu xitabları, birici halda, "Bilirəm, gözəlsən, qəşəngsən, İran", ikinci halda "ey Şaqa" kimi təqdim edir. Göründüyü kimi, şeirdəki «дорогая Шага» xitabı heç bir mütərcim tərəfindən, eyni səmimilik və nəvazişlə ifadə edilə bilməmişdir. Ümimiyyətlə, S.Məmmədzadədə "ey Şahanə", E.Borçalıda "ey Şaqa" müraciətləri şairin səmimi məhəbbət bəslədiyi segilisinə münasibətə lazımsız rəsmiliklə bərabər, qeyri-səmimiyyət gətirmişdir.

«Отчего луна так светит тускло...» şeirində də ikinci bəndin birinci misrasında Laləyə «дорогая Лала» kimi səmimi bir müraciət var. Bu xitab Ə.Kürçaylıda, mütərcimin misranı səhv başa düşərək tərcümə etməsi nəticəsində, ümumiyyətlə itirilmişdir. Yuxarıda həmin şeirin Ə.Kürçaylıya məxsus tərcüməsini təhlil edərkən qeyd etdiyimiz kimi, şair orijinalda Laləyə ürəyini açaraq gecə dinməz sərv ağaclarını necə sorğu-suala tutduğundan danışır, tərcümədə isə hər şey sərvlərdən deyil, Lalənin özündən soruşulur. E.Borçalı bu müraciəti də təxminən «Голубая родина Фирдуси….» şeirində olduğu kimi, nəvazişdən uzaq, gobud şəkildə "a Lalə" kimi vermişdir. Şeirdəki «дорогая Лала» xitabını üç mütərcimdən yalnız S.Məmmədzadə "əzizim, Lalə" kimi, orijinaldakına uyğun, eyni mehribanlıq və səmimilklə verə bilmişdir.

Beləliklə, Yeseninin "İran nəğmələri" silsiləsinə daxil olan bir sıra şeirlərin tərcümələri üzərində apardığımız təhlil və müşahidələr hansı nəticəyə gəlməyə əsas verir? Ümumilikdə Yesenin poeziyasında olduğu kimi, "İran nəğmələri" silsiləsinə daxil edilmiş nümunələrdə də saf məhəbbət motivləri daha çox diqqəti cəlb edir və müəllif, bütün bunlara, bir tərəfdən, Şərq eqzotikası naxışları vurmaqla, digər

tərəfdən də, öz ana yurdu - "uzaq mavi diyar" haqqında vətən həsrətli xatirələri ilə, oxucuda incə, zərif hislər yaradır, onun qəlbini, ruhunu oxşayır. Ə.Xəlilovun qeyd etdiyi kimi, "İran nəğmələri" silsiləsində "*şair Şərq poetikasına xas olan bir cəhəti – gözəlin surətini, mənəvi, ruhi aləmini ənənəvi gül, bülbül, günəş, ay, sərv obrazları ilə qarşılaşdırmaq və bununla da aydınlıq yaratmaq cəhətini öz müəllimlərindən yaradıcı surətdə əxz eyləyərək lirikasına tətbiq edir. Şair məhəbbət, qısqanclıq duyğularını… şeirində incə zövq və həssaslıqla, Şərq poetikasından gələn bədii üsulla, maraqlı təzadlar, epitetlərlə ifadə etməyə çalışmışdır*" [23, s.19].

Biz də öz tədqiqatımızda, təhlillərimizdə bütün bu və digər məsələləri diqqət mərkəzində saxlamaqla, onların tərcümələrdə necə verilməsi haqqında, yeri gəldikcə, nəzəri müddəalara əsaslanaraq, fikirlər yürütmüşük.

Beləliklə, Yesenin yaradıcılığında xüsusi yer tutan "İran nəğmələri" müxtəlif zaman kəsiyində (1928-2016) 10 müəllif tərəfindən tərcümə edilmişdir. Daha dəqiq desək, 3 tərcüməçi – Əliağa Kürçaylı, Səyavuş Məmmədzadə və Eyvaz Borçalı silsiləni bütünlükdə, 7 tərcüməçi – Süleyman Rüstəm (1 şeir), Firuz Mustafa (4 şeir), Qoca Xalid (3 şeir), Teymur Kərimli (2 şeir), Günel Mövlud (1 şeir), Rüfət İsayev (1 şeir) və İsaxan İsaxanlı (6 şeir) qismən tərcümə etmişdir. Bu paraqrafda biz həmin tərcümələri, imkan dairəsində, təhlil etməyə, paralellər və müqayisələrlə, tərcümələrdəki məziyyət və qüsurları üzə çıxarmağa çalışdıq.

F.Mustafanın tərcümə etdiyi 4 şeir arasında «Шаганэ ты моя, Шаганэ!» şeirinin tərcüməsi xüsusilə seçilir. Qeyd etmək lazımdır ki, F.Mustafa bu şeiri poetik bir dildə çevirməklə yanaşı, orijinal formanı da tam saxlamağa çox yaxın olsa da, bircə məqamda forma pozulmuşdur. Belə ki, 3-cü bəndi "Çovdar zəmisindən söz açım sənə" misrası ilə deyil, 1-ci bəndin 3-cü misrası ilə, başqa sözlə, "Sənə düzənlərdən söz açım bu gün" kimi başlasaydı və yaxud, 1-ci bəndin 3-cü misrasını, demək olar ki, heç nə itirmədən "Sənə düzənlərdən söz açım bu gün" kimi deyil, "Çovdar zəmisindən söz açım sənə" kimi verməklə, tərcüməçi şeirdəki orijinal formanı olduğu kimi saxlamağa nail olacaqdı. Təəssüf ki, tərcüməçi bu məqamdan yan keçmişdir.

Q.Xalidin tərcümələrində ara-sıra maraqlı məqamlara rast gəlinsə də, bütünlükdə, tərcümələrdə poeziyanın zəifliyi gözdən qaçmır. Tərcüməçi, eləcə də orijinala sadiqlik məsələsində, xüsusilə də formanı saxlamaq baxımından, həddindən artıq sərbəstliyə yol vermişdir. Tərcümələrdə poetik nöqteyi-nəzərdən zəif səslənən və daha çox sadə danışıq dilində rast gəldiyimiz "dadansın", "yekəpər", "dodaq büzə-büzə", "acığım tutur ki", "əşi", "gəlsənə" kimi ifadələrin işlədilməsi də Q.Xalidin tərcümələrində zəif məqamlar kimi qeyd edilməlidir.

"İran nəğmələri"ni bütünlükdə tərcümə etmiş Ə.Kürçaylı, S.Məmmədzadə və E.Borçalının tərcümələrinə gəldikdə, qeyd etməliyik ki, bəzi məqamlarda Ə.Kürçaylı, bəzi məqamlarda S.Məmmədzadə, bəzi məqamlarda da E.Borçalı uğurlu ifadə formaları tapsalar da, bir sıra şeirlərdə forma baxımından müəyyən xüsusi özəlliklər var ki, tərcüməçilər çox vaxt onları olduğu kimi saxlamağa nail ola bilməmişlər. Bu da sonucda, formanın pozulması ilə yanaşı, həm də tərcümələrdə poeziyanın da xeyli dərəcədə, zəifləməsinə gətirib çıxarmışdır. Çünki, struktur-forma-məzmun-şeiriyyət arasında əlaqə, poetik bağlılıq Yesenin poeziyasında xüsusi əhəmiyyət daşıyır. "*Bu silsilədə, Yesenin, dairəvi quruluşun müxtəlif mürəkkəb formalarını verərək, təkraretmənin melodik-kompozisiya üsullarından istifadə olunmasında, ən ali gözəlliyə nail olur. Bu formaların incə, zərif qapalılığı və "İran nəğmələri"ndəki fövqəladə ahəngdarlıq, onlardakı əqzotik-eşq mövzusunun intimliyinə tam uyğun gəlir"* [256, s.88]. Odur ki, "İran nəğmələri"nin tərcümələrində orijinalın forma özəlliklərinin saxlanılması xüsusilə vacibdir.

Müşahidələrimizi davam etdirək. «Улеглась моя былая рана» şeirindəki formanı (3-cü və sonuncu bəndlərdə son iki misra dəyişmir) yalnız E.Borçalı, «Свет вечерний шафранного края» şeirindəki formanı (1-ci və 4-cü bəndlərdə 2-ci və 5-ci misralar, 2-ci və 6-cı bəndlərdə isə 1-ci və 5-ci misralar dəyişmir) Ə.Kürçaylı və S.Məmmədzadə, «Воздух прозрачный и синий» şeirindəki formanı (birinci iki bənddə 1-ci və 5-ci misralar, 3-cü bənddə 2-ci və 5-ci misralar, 5-ci bənddə isə 3-cü və 5-ci misralar dəyişmir) və «В Хороссане есть такие двери» şeirindəki formanı (birinci iki bənddə 1-ci və 4-cü misralar, sonrakı üç bənddə isə 1-ci və 5-ci misralar dəyişmir) E.Borçalı, «Голубая родина Фирдуси» şeirindəki formanı (birinci iki

bənddə 1-ci və 5-ci misralar dəyişmir) hər üç tərcüməçi, «Руки милой - пара лебедей» şeirində forma baxımından poetik bağlılığı (şeirin ilk misrasında şair sevgilisinin əllərini bir cüt qu quşuna bənzədir və son misrada da məhz bir cüt qu quşunun qurbanı olur) S.Məmmədzadə və E.Borçalı, «Глупое сердце, не бейся!» şeirindəki formanı (5-ci bənddən başqa, bütün bəndlərdə son misra dəyişmir; 5-ci bənddə isə 1-ci və 5-ci misralar dəyişmir) S.Məmmədzadə və E.Borçalı, «Голубая да веселая страна» şeirindəki formanı (1-ci, 2-ci, 3-cü və 5-ci bəndlərdə ikinci beyt dəyişmir) hər üç tərcüməçi olduğu kimi saxlaya bilsələr də, «Я спросил сегодня у менялы» şeirində 1-ci, 2-ci, 3-cü bəndlərdəki «Как сказать мне для прекрасной Лалы» misrası dəyişməz qaldığı halda (2-ci bənddə «сказать» yerinə verilən «назвать» ciddi bir dəyişiklik deyildir), tərcüməçilərin heç biri həmin misranı saxlaya bilməmişdir.

«Шаганэ ты моя, Шаганэ!» şeirinin forması haqqında isə xüsusi danışmaq lazım gəlir. Bu şeirdə "İran nəğmələri"nə daxil olan heç bir şeirdə olmayan, ümumiyyətlə, öz-özlüyündə də çox orijinal bir formaya rast gəlirik. Burada iki məqamı diqqətə çatdırırıq: Birincisi, hər bəndin birinci və sonuncu misraları dəyişmir. Bu formanı Ə.Kürçaylı və E.Borçalı saxlasa da, S.Məmmədzadə ikinci bəndin son misrasında "şimal" əvəzinə, "Vətən" yazmaqla (əslində, bu dəyişikliyə heç bir ehtiyac yox idi) formanı pozmuşdur. İkincisi və ən əsas özəllik ondan ibarətdir ki, 2-ci bənddən başlayaraq, şeirin hər bəndi öz başlanğıcını birinci bənddəki uyğun saylı misradan götürür. Daha dəqiq desək, 2-ci bənd birinci bəndin 2-ci misrası ilə, 3-cü bənd birinci bəndin 3-cü misrası ilə, 4-cü bənd birinci bəndin 4-cü misrası ilə, 5-ci bənd birinci bəndin 5-ci misrası ilə başlayır və həmin misra ilə də bitir. Şeirdəki poeziyaya da hopmuş bu orijinal forma və poetik bağlılığı, təəssüf ki, bu 3 tərcüməçidən yalnız E.Borçalı saxlaya bilmişdir. Ə.Kürçaylı bu məqamı, əsasən, dördüncü bənddə pozmuşdur. Eləcə də, birinci bənddəki "İstərəm söz açam sonsuz çöllərdən" və üçüncü bənddəki "İstərəm söz açam sənə çöllərdən" misralarında "sonsuz" və "sənə" sözlərinin dəyişilməsinə heç bir ehtiyac yox idi. Misraların hər ikisində bu sözlər eyni uğurla işlədilə bilərdi və bununla da forma saxlanılacaqdı. Tərcüməçinin uyğun formanı belə asanlıqla pozması yalnız təəssüf doğurur.

S.Məmmədzadə isə, ümumiyyətlə, bu şeirdəki forma özəlliklərini saxlamağı belə düşünməmişdir. İkinci, üçüncü və dördüncü bəndlərin hamısında formanın kobud şəkildə pozulmasının başqa izahı yoxdur. Bu şeirlə bağlı, son olaraq, onu da qeyd edək ki, şeiri tərcümə etmiş 5 mütərcimdən yalnız ikisi – E.Borçalı və T.Kərimli bu şeirin bütün forma özəlliklərini saxlamağa müyəssər olmuşlar.

Göründüyü kimi, "İran nəğmələri"nə daxil olan 15 şeirdən 10-da müəyyən xüsusi forma özəllikləri var ki, bunların qorunub saxlanması baxımından, Ə.Kürçaylı və S.Məmmədzadə ilə müqayisədə, E.Borçalının tərcümələri orijinala daha yaxındır. E.Borçalı «Я спросил сегодня у менялы» və «Свет вечерний шафранного края» şeirləri istisna olmaqla, digər bütün şeirlərdəki formanı saxlamağa müvəffəq olduğu halda, Ə.Kürçaylı 3, S.Məmmədzadə isə 5 şeirdə uyğun formanı olduğu kimi saxlaya bilmişdir.

"İran nəğmələri"nin mövcud tərcümələri və bizim təhlillərimiz göstərir ki, hər bir şeirdə poeziyaya xələl gətirmədən, hətta ən çətin formanı belə saxlamaq mümkündür. Əlbəttə, bunun asan məsələ olmadığını qəbul etməklə yanaşı, qeyd edək ki, tərcüməçinin ustalığı və tərcüməçilik məharəti də məhz belə məqamlarda özünü daha çox göstərir. Amma bununla yanaşı, onu da qeyd etməliyik ki, şeirdəki formanın tərcümədə saxlanılması nə qədər vacib olsa da, orijinaldakı poeziyanın tərcümədə saxlanılması, dilimizdə gözəl və təbii səslənmə, tərcümənin uğur qazanmasında ən əsas məqamlardandır.

S.Yeseninin "İran nəğmələri" silsiləsinin tərcümələri üzərində apardığımız təhlil və müşahidələr belə nəticələrə gətirib çıxarır ki, bu nümunələri tərcümə edən şairlərimizdən hər biri öz bilik, bacarıq və istedadı daxilndə onları dilimizdə səsləndirməyə səy göstərmiş, "*onların hər biri Yesenin tarının pərdəsi üstə onun havasını çalmağa çalışıblar*" [16]. Ayrı-ayrı mütərcimlər silsilənin bəzi şeirlərini tərcümə etsələr də, silsilənin tərcüməsinin ümumi səviyyəsindən danışdıqda əsas fikrimizi məhz silsiləni bütünlükdə dilimizə çevirmiş üç mütərcimin – Ə.Kürçaylı, S.Məmmədzadə və E.Borçalının tərcümələri əsasında ümumiləşdirməyi məqsədəuyğun hesab etdik.

Beləliklə, silsiləni bütünlükdə tərcümə etmiş üç mütərcimin tərcümələri haqqında aşağıdakı qənaətə gəlirik: Ə.Kürçaylı, ümumilikdə, tərcümələrində orijinal şeirin ruhunun və məzmununun verilməsi, orijinaldakı poeziyanın saxlanması ilə yanaşı, xüsusi halda, şeirlərdə yer almış sözlərin əksəriyyətinin dilimizdə ürəyəyatan adekvat qarşılığının tapılması və tərcümədə verilməsini vacib bir məsələ kimi qarşısına qoymuş və bunun hesabına tərcümələrində dəqiqliyi, mümkün olduğu qədər, qorumağa diqqət yetirmişdir. S.Məmmədzadədə bu məqam, demək olar ki, diqqətdən kənarda qalmışdır. Onun üçün əsas məsələ orijinalın ruhunun tərcüməyə çökməsidir və bu yolda mütərcim istədiyi kimi sərbəst hərəkət edir, şeirdəki müəyyən ifadələrdən, sözlərdən, bu sözlər açar sözlər olsa belə, asanlıqla vaz keçə bilir. E.Borçalı isə tərcümələrində qeyd etdiyimiz bu məqamların, demək olar ki, hamısını diqqət mərkəzində saxlamağa çalışsa da və zahirən, buna nail olmuş kimi görünsə də sonucda, istər orijinal şeir, istər tərcümə üçün (tərcümə mətni də, tərcümə prosesi başa çatdıqdan sonra, orijinal bir şeir olur) fikrimizcə, ən vacib olan məsələdə - tərcümənin dilimizdə təbii və axıcı səslənməsilə orjinaldakı poeziyanın, orijinalın musuqisinin oxucuya çatdırılmasında uğur qazana bilmir. "*Həqiqi poeziyanın gözəlliyi – mənanı canlandıran ahəngində əks edilir. Buna görə Volter poeziyanı musiqi növü kimi anladırdı. Onu qiymətləndirməkdən ötrü musiqisini eşitməyi zəruri meyar sayırdı*" [67, s.27]. Bununla yanaşı, E.Borçalının, fikrimizcə, istədiyi uğuru qazana bilməməsinə təsir edən məqamlardan biri kimi onun tərcümələrində, poeziya kontekstində effekt verməyən, dilimizdə geniş yayılmamış, müəyyən mənada arxaikləşmiş, oxucunun asanlıqla anlaya bilmədiyi "qaranlıq", R.Rövşənin sözlərilə desək, "dil büdrədən" sözlərə, ifadələrə, misralara (Məsələn, "yara böhranı", "sərxoş qada", "ün çıxmasın", "öyüdü təpirəm", "Şəbbu", "axşam əyyamı", "heyranlı çağlar", "təşnə dodaq", "gərək pozulmaya haqqın gülləri", "ilğım sehir", "təzim göstərəndə", "həşəmdi güllər", "mükəddər", "korşalıb", "bərayi ehtiyat", "abi-kövsər", "xiffət edimmi?" və s) yer verməsini də göstərmək olar. Oxuduğu şeirdən zövq almaq əvəzinə, oxucu, nümunə kimi gətirdiyimiz bu sözlərin əksəriyyətini başa düşmək üçün düşünməli olur, çox vaxt da izahlı lüğətə baxmalı olur ki, bu da şeirlə oxucu arasında olan ən ali hissi – estetik ünsiyyəti tamamilə pozur.

Ayrı-ayrı şeirlərin və ya şeirlərdəki müxtəlif məqamların tərcüməsində, zaman--zaman müxtəlif tərcüməçilər fərqlənsələr də, hesab edirik ki, sadaladığımız bu məqamları öz tərcümələrində daha yaxşı çulğalaşdırmaq tərcüməçilər arasında məhz Ə.Kürçaylıya müyəssər olmuşdur və onun ümumilikdə silsilənin tərcüməsində daha çox uğur qazanmasının əsas göstəricisi də elə budur. "*Ümumiyyətlə demək lazımdır ki, Ə.Kürçaylı tərcümələri mütərcimin incə hiss və duyğularının rus şairinin emosiya və mənəvi aləmi ilə birləşdiyini göstərir ki, bunun nəticəsində Yesenin şeirləri elə səslənir ki, onlar sanki Azərbaycan dilində yazılmışdır… "İran nəğmələri" silsiləsi üzərində işləyərkən Ə.Kürçaylı daim əslə sadiq olmağa can atır. Müəllif hislərinin dəqiq və bütünlükdə verilməsi, S.Yeseninin daxili səsinin əks etdirilməsi üçün bəzən o, ikinci dərəcəli detalları qurban verməkdən də çəkinmir*" [263, s.9].

Ə.Kürçaylının tərcümələri onun özünün lirik şeirləri qədər şirindir, oxunaqlıdır, ürəyəyatımlıdır, həm məzmun, həm mahiyyət baxımından orijinalın ruhunu daha səmimi şəkildə əks etdirir.

III FƏSİL. SERGEY YESENİNİN ƏDƏBİ ŞƏXSİYYƏTİ VƏ YARADICILIĞI AZƏRBAYCAN ƏDƏBİYYATŞÜNASLIĞINDA

3.1. Sergey Yesenin Bakı mətbuatında

Sergey Yeseninin həyat və yaradıcılığının Bakı dövrü, şairin əsərlərinin Bakı mətbuatında dərc olunması, ümumilikdə, onun Bakı həyatı haqqında dissertasiyanın ilk fəslində geniş söhbət açmışdıq. Burada isə biz, Yeseninin ölümündən sonra onun haqqında Bakı mətbuatında dərc olunan, böyük şairin ölümünün Bakı mətbuatında doğurduğu əks-sədalar haqqında söhbət açacağıq.

Sergey Yeseninin 1925-ci il dekabrın 28-də yayılan facəli ölüm xəbəri bütün ədəbiyyat dünyasını silkələyir, onu yaxından tanıyanları, qələm dostlarını, poezi-yasevərləri möhkəm sarsıdır. Türk dünyasının böyük şairi Nazim Hikmətin sözləri ilə desək, "*dünyanın ən böyük və ən səmimi şairlərindən biri*" [246, s.102] əbədiyyətə qovuşdu. Yeseninin ölüm xəbərindən sarsılan böyük rus yazıçısı Aleksey Tolstoy yazırdı: "*Dahi milli şair öldü. Onun ölüm günü ədəbiyyatda matəm kimi qeyd edilməlidir*" [288].

Yeseninin ölümü haqqında verilən rəsmi məlumata görə, 1925-ci il dekabrın 27-dən 28-nə keçən gecə o, Leninqradın "Anqleter" otelində özünü asaraq intihar etmişdir. Uzun illər Yeseninin intihar etməsi fakt kimi qəbul edilsə də, 80-ci illərin sonuna yaxın şairin ölümü ilə bağlı yeni, müəmmalı fikirlər ortaya çıxmağa başladı, Yeseninin ölümünün yeni versiyası – onun əvvəlcə qətlə yetirilməsi və sonradan asılması haqda çoxsaylı fikirlər ildırım sürəti ilə yayıldı. Artıq Rusiyada ən çox müzakirə olunan mövzulardan biri Yeseninin ölümü ilə bağlı idi. Bir-birinin ardınca bu mövzuya həsr edilmiş müəllif araşdırmaları aparılır, məqalələr dərc etdirilirdi. Məsələ o yerə çatmışdı ki, fikirlərini tam isbat etməyə hazır olduqlarını hesab edən bir sıra müəlliflər ölkə prezidentinə müraciət edərək, bu məsələnin ciddi araşdırılmasını xahiş və tələb edirdilər.

Bütün bu şübhələrə son qoymaq məqsədilə 1989-cu ildə SSRİ Yazıçılar İttifaqının təşəbbüsü ilə SSRİ EA-nın M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu

nəzdində xüsusi komitə – Ümumittifaq Yesenin Komitəsi və komitə nəzdində Yeseninin ölümünün səbəblərini araşdıran komissiya yaradılır. Komitənin və komissiyanın sədri Yesenin irsinin araşdırılmasında fövqəladə rolu olan Y.L.Prokuşev idi. Komissiyaya bir sıra yazıçılar, yeseninşünaslar, Yeseninin yaxın qohumları, Yeseninin ölümünün hər iki versiyası tərəfdarı olan müəlliflərdən bir neçəsi, kriminalistlər, Rusiyanın Baş Prokurorluğunun nümayəndələri və başqa mütəxəssislər daxil idilər. Komissiyanın verdiyi son qərar sensasiyaların heç bir əsasının olmadığını göstərsə də, hələ indi də əks fikirlər səngimək bilmir.

Yeseninin ölümü ilə bağlı hər iki mövqe tərəfdarlarının dəlilləri əsaslı kimi görünürdü. Yeseninin qətlə yetirilməsi fikrini xülya sayan A.V.Maslov [269] bir tərəfdən, "Yesenin komissiyası"nın rəsmi qərarına əsaslanır, digər tərəfdən, isbat etməyə çalışır ki, Yeseninin intihar etməsi çox təbiidir. O, Yeseninin lap gənclik illərindən başlayaraq, müxtəlif vaxtlarda yazdığı şeirlərə və oradakı ölüm motivlərinə istinad edərək belə qənaətə gəlir ki, Yesenin elə "ölüm axtarırdı". Doğrudan da, Yeseninin şeirlərini diqqətlə oxuyan oxucular onun yaradıcılığında gənc yaşına uyğun olmayacaq sayda "ölüm axtaran" məqamlara rast gələr. Doğrudan da Yeseninin əsərlərində 400-ə qədər "ölüm məqamları"na rast gəlmək olar ki, onların da bir çoxunda şair intihardan, özü də məhz özünü asma yolu ilə intihardan bəhs edir. Bu haqda daha ətraflı məlumatı 1990-cı ildə Bakı mətbuatında dərc olunmuş bir məqalədən alırıq [374, s.107-118]. Yeseninin 1925-ci ilin noyabrında tamamladığı "Qara adam" poeması isə isə artıq ölümün lap yaxında olduğundan xəbər verirdi. Əslində, bu poemanı Yesenin xaricdə olduğu dövrdə (10 may 1922 - 3 avqust 1923) yazmışdı. 1925-ci ilin sonuna yaxın isə 2 gün ərzində (12-13 noyabr) poema üzərində yenidən işləyərək onu tamamlamış və dərc edilmək üçün "Новый мир" jurnalına təqdim etmişdi. Poema Yeseninin ölümündən sonra, 1926-cı ilin yanvarında jurnalın 1-ci sayında çap olunmuşdur.

Əks fikrin tərəfdarları E.A.Xlıstalov [350], İ.P.Kozlov [236], V.K.Fomin [346] və başqaları isə əksinə, həmişə olduğu kimi, həyatının son dövründə də Yeseninin yazıb-yaratmaq eşqi ilə dolu olduğunu isbat etməyə çalışır, bu motivlərlə dolu şeirləri misal gətirir, hətta onun xaricə – İngiltərəyə getmək kimi real planlarının olduğu

fikrini irəli sürürdülər. Doğrudan da Yeseninin 1925-ci il noyabrın 27-də P.İ.Çaqinə yazdığı məktubunda belə bir məqam var: "*Hər şeyi yoluna qoyandan sonra, canımı qurtarıb, çox güman ki, xaricə gedəcəm. Orda ölü şirlər* (İngiltərənin gerbinə işarədir – İ.İ.) *də bizim canlı tibb köpəklərindən gözəldir*" [198, s.228]. Yeseninin intihar etməsi versiyasını qəbul etməyənlər «belə olan halda o, niyə intihar etməli idi və bunun üçün mütləq Leninqradamı getmək lazım idi?» – deyə sual edirlər (Məlumdur ki, Yesenin ölümündən cəmi 4 gün qabaq – dekabrın 23-də gecə Moskvadan Leninqrada getmişdi). Digər tərəfdən, müəlliflər Yeseninin həyatında həmişə mərkəzdə duran üç qadının (Qalina Benislavskaya, Aysedora Dunkan, Zinaida Rayx) da ölüm faktorunu müəmmalı hesab edir və bunların Yeseninin ölümü ilə bağlı olduğu iddiasını irəli sürürlər. Son dövrdə qətl versiyası tərəfdarları Yeseninin qəbrinin açılmasını və məhkəmə-tibbi ekspert tərəfindən müayinə edilməsini tələb edirlər. 1993-cü ildə komissiya uzun illər keçdikdən sonra bunun heç bir nəticə verməyəcəyini və Yeseninin bacısı qızı N.V.Yesenina-Nasedkinanın fikrini əsas götürərək, qəbrin açılmasına ehtiyac görməmişdi [269, s.77]. Qeyd edək ki, Yeseninin doğmalarından yalnız onun oğlu, həmin illərdə Amerikada yaşayan A.S.Yesenin-Volpin qəbrin açılmasının tərəfdarı olmuş və bunu, az qala, həqiqəti açmaq üçün yeganə yol hesab etmişdir [315, s.365-366]. Maraqlıdır ki, Yeseninin digər bacısı qızı – T.P.Flor-Yesenina da həmin dövrdə qəbrin açılmasının tərəfdarı olmasa da, bunu 21-ci əsrin öhdəsinə buraxmağı xahiş etmişdi [315, s.46].

Yeseninin ölümü ilə bağlı Rusiya mətbuatında işıq üzü görmüş çoxsaylı materiallar haqqında Gordon Mc Vay 1998-ci ildə dərc etdirdiyi bir məqaləsində icmal şəklində geniş məlumat vermişdir [390, s.507-524].

Ümumittifaq Yesenin Komitəsinin yaranmasından 30 il keçsə də, böyük şairin müəmmalı ölümü ətrafında gedən fikirlər səngimək bilmir. Belə görünür ki, bu mübahisə hələ uzun illər mətbuatın və ictimaiyyətin diqqət mərkəzində olacaq. Hətta 2007-ci ildə Yeseninin qətlə yetirilməsi versiyasına həsr edilmiş 2 seriyalı film televiziya ekranlarında göstərildi və bundan sonar Yeseninin öldürülməsi versiyasına inananların sayı sürətlə artmağa başaladı.

Bəs Yeseninin həyatı ilə bağlı Bakı mətbuatında nələr yazılır, hansı fikirlər irəli sürülürdü. Mənzərəni tam dərk etmək üçün şairin ölümündən dərhal sonrakı günlərdən bu günümüzə qədər Bakı mətbuatında yer alan yazıları araşdıracaq və Yeseninin ölümü ilə bağlı fikirləri ümumiləşdirməyə çalışacağıq.

Yesenin dünyasını dəyişəndən sonra Bakı mətbuatında, onun həyatı ilə bağlı ilk yazı dekabr ayının 30-da dərc edilmişdi. Həmin gün "Бакинский рабочий" qəzetində 3 yazı [293; 330; 386], "Труд" qəzetində isə bir yazı dərc edilmişdi [228]. "Бакинский рабочий" qəzetində dərc edilmiş yazılardan biri – "Sergey Yeseninin faciəvi ölümü" yazısı bir nekroloq xarakteri daşıyır [330]. Digər 2 materialda da müəlliflər şairin ölümü ilə bağlı konkret fikirlər söyləmirlər. Əlbəttə, həmin dövrdə kiminsə Yeseninin ölümü ilə bağlı sensasiyalı bir fikir söyləyə biləcəyi haqqında düşünmək və buna ümid etmək bir az sadəlövlük olardı. Yazıların hamısında şairin ölümü rəsmi yayılmış versiyaya uyğun bir fakt kimi qəbul edilir və yalnız bundan sonra onun faciəli ölümünün səbəbləri haqqında müəyyən fikirlər irəli sürülür.

A.Yakovlev yazır: "*Və budur, Yesenin özünü asdı. Leninqradda. Mehmanxananın boş nömrəsində, öz qanı ilə yazılmış bir məktub qoyaraq, özünün cırmacırıq etdiyi əlyazmalar arasında... Yesenin özünün ən dəhşətli vədlərindən birinə əməl etdi*" [386].

Pessimist Yeseninin ədəbiyyata gəldiyi illərdən ömrünün sonuna qədər olan bütün yaradıcılığına nəzər salır, onu "*Ryazan bülbülü" adlandırır, "20-ci əsrin kəndli Puşkini*" kimi xarakterizə edir [293].

"Труд" qəzetinin 30 dekabr sayında rast gəldiyimiz kiçik həcmli bir yazıdakı fikir isə daha maraqlı məqamları ilə seçilir. Yesenini dövrünün ən böyük şairi kimi qiymətləndirən müəllif onun ölümü ilə bağlı fikrini belə ifadə edir: "*Sergey Yesenin daha yoxdur… Qızılı ağcaqayın yarpağının, xəfif kənd qürubu və üfüqlərinin nəğməkarı şair daha yoxdu. Qaytanın bərk ilgəyi şairin cingiltili simlərini birdəfəlik boğdu.*

Yesenin özünü asdı…

Sergey Yesenin şəxsində biz dövrümüzün ən böyük şairini itirdik. Yesenin şeirin maskaradlı sətirləri ilə qışqırmırdı, o, öz içi və genişsinəli azğın çöllərin səsi ilə səmimi oxuyurdu.

Şairi sui-qəsdə nə vadar etdi?...

- "Doğma ölkədə mən sanki əcnəbiyəm"...

- Şairin ölümünün başlıca səbəbi də bu idi. O, fəhlə və kəndlilər ölkəsində özünü "əcnəbi" hiss edirdi, o, bizim həyatımızın yeniliyinə daxil ola bilmədi, o, özünün həqiqi, möcüzəli lirasını nə qədər çalışsa da, fəhlə pərdəsinə kökləyə bilmədi – məhz bu onun faciəsi idi" [228].

Qeyd edilən bu yazılardan başqa həmin günlərdə Bakı mətbuatında daha bir neçə yazıya rast gəlirik. M.Danilov [153], A.Lejnev [247], K.Xmurıy [352], L.Trotski [333], Karandaş [230] öz yazılarında, eləcə də şairin ölümü ilə bağlı keçirilən tədbirlərdə çıxış edən bir sıra digər müəlliflər şairin faciəli ölümü ilə bağlı fikirlərini söyləyir, təəssüflərini dilə gətirir, böyük şairin poeziyasının təkrarolunmazlığından söhbət açır, onu müasir dövrün ən nəhəng şairlərindən biri kimi qiymətləndirir, onun ölümünün rus poeziyası, ümumilikdə poetik söz sənəti üçün yeri doldurula bilməyəcək bir itki olduğunu əminliklə qeyd edirlər. Şairin müasirlərindən biri – professor Selixanoviç onun ölümünün səbəbi ilə bağlı daha cürətli fikir irəli sürür, şairin ölümündə hakimiyyəti və ictimaiyyəti qınayır, onlar tərəfindən gənc ədəbiyyat nümayəndələrinə kifayət qədər diqqətin olmamasından şikayətlənir [289; 331].

Göründüyü kimi, Bakı mətbuatında böyük şairin ölümü ilə bağlı yer alan fikirlərdə müxtəlif baxışlar ortaya qoyulur, onun həyat faciəsinin səbəbləri müxtəlif müstəvilərdən izah edilir. Bu fikirləri qiymətləndirərkən Q.Şipulina yazır: "*Sözsüz ki, şairin Bakılı dostlarının faciəni izah etmək cəhdləri çox vaxt sadəlövh, lazım olandan artıq dərəcədə trivialdır, amma onların layiqli qiymətini verməmək də mümkün deyil; onlar şair haqqında səmimi məhəbbətlə danışır, onun vaxtsız ölümü ilə bağlı səmimi kədərlənirdilər*" [370, s.318].

Bəli, Yesenin dünyasını dəyişdi. Amma bir qaraçı qadının ona söylədiyi "*sudan və aydan qorx, səni dəhşətli ölüm gözləyir*" [267, s.179] fikirlərini kifayət qədər ciddi

qəbul edən, qulaqlarında sırğa kimi saxlayan böyük şair nə suda boğuldu, nə də ay işığı altında dünyaya vəda etdi. Onu falabaxanın dediklərindən daha dəhşətli bir ölüm yaxaladı.

Yeseninin faciəvi ölümü şairin yaradıcılığını sevənlər və ümumiyyətlə, ədəbiyyat aləmi üçün böyük zərbə olduğu kimi, əsərlərinin ən çox dərc olunduğu mənbə olan, şairi öz doğma əməkdaşı hesab edən (ona "Бакинский рабочий" qəzetinin redaksiya vəsiqəsi verilmişdi [249] "Бакинский рабочий" qəzetinin işçiləri üçün də əvəzsiz itki idi. Yuxarıda qeyd etdiyimiz kimi, qəzetin 30 dekabr tarixli sayında şairin ölümü ilə bağlı nekroloq çap olunur, 1 yanvar 1926-cı ildə qəzetin redaksiyasında hüzn mərasimi təşkil olunur.

Yanvarın 4-də "Бакинский рабочий" qəzeti kollektivinin təşəbbüsü ilə Bakı İşçi Teatrında (indiki S.Vurğun adına Rus Dram Teatrı) Yeseninin xatirəsinə həsr olunmuş matəm gecəsi keçirilir. Rəyasət heyətində fəxri sədr akad. Oldenburq, alman professoru Mentsel, prof. Samoyloviç, prof. Qulyayev, prof. Vaqri, prof. Fridolin, prof. Selixanoviç, mətbuat nümayəndələri və yerli ədəbi qüvvələr təmsil olunurlar. Matəm gecəsini akad. Oldenburq açır. Yesenin yaradıcılığı haqqında məruzəni Mixail Danilov edir. Bundan başqa gecədə prof. Selixanoviç, Pir (Pirverdiyev – "Труд" qəzetinin jurnalisti) və Pessimist (Vladimir Şveytser) çıxış edərək onun haqqında yüksək fikirlər söyləyirlər. Prof. Selixanoviç Yesenini "müasir Puşkin" kimi qiymətləndirir. Bakılı şairlər Muran, Qellerşteyn və Debua Yeseninə həsr olunmuş şeirlərini oxuyurlar, opera artisti Braqin bir neçə matəm romansı ifa edir. Matəm gecəsində çıxış edən Pir yazır: "*Biz əsrin ən böyük şairlərindən birini itirdik. Yeseninin ölümü faciəvi ölümdür. Amma Yeseninin faciəsi ayrıca bir şəxsin faciəsi deyil, cəmiyyətin müəyyən təbəqəsinin, müəyyən ziyalılar qrupunun faciəsidir...*" [289].

Yanvarın 29-da "Бакинский рабочий" qəzetində Yeseninin "Qara adam" poeması dərc olunur. Qəzetin həmin sayında 1925-ci il iyul ayının 20-də dərc olunmuş iki şeir – «Спит ковыль. Равнина дорогая...» və «Вижу сон. Дорога черная...» şeirləri də təkrarən dərc edilir. Şeirlərin sonunda redaktorun belə bir qeydi var: "*Redaksiyanın portfelində Sergey Yeseninin indiyə qədər çap olunmamış bir*

neçə şeiri var. Bu şeirlər, şairin faciəvi sonluğa gətirən əhval-ruhiyyəsini aydın şəkildə göstərir. Bu mənada "Qara adam" poeması xüsusilə xarakterikdir. Şeirlər 1925-ci ilin payızında yazılmışdır" [190].

İki həftə sonra, 1926-cı ilin 12 fevralında "Бакинский рабочий" qəzetində «Посмертные стихи Сергея Есенина» (Sergey Yeseninin ölümündən sonra nəşr edilmiş şeirləri) başlığı altında şairin 4 şeiri – «Какая ночь! Я не могу...», «Не гляди на меня с упреком....», «Ты меня не любишь, не жалеешь...», «Может, поздно, может, слишком рано...» şeirləri dərc edilmişdir. Şeirləri qəzetdə verərkən P.İ.Çaqin belə bir qeyd etmişdir: "*Bu şeirləri Yesenin Leninqrada getməzdən əvvəl klinikada yazmışdır. Son illər xeyli müddət Bakıda olmuş Serqey Yesenin bu şeirləri "Бакинский рабочий" qəzetində çap etməyi xahiş etmişdi*" [301].

Qəzetin bu sayında biz həmçinin "Paytaxtdan məktublar" məqaləsini oxuyuruq. Məqalənin müəllifi Moskvanın ədəbiyyat dairələrində Yeseninin ölümü haqqında fikirlərdən danışır, elə indidən, təzə-təzə, şairin avtobioqrafiyasının yazılması vacibliyindən söhbət açır [274].

1926-cı ilin 1 martında Maarif Evində Yeseninin yaradıcılığı ilə bağlı disput keçirilir. Bu haqda "Труд" qəzetində əvvəlcədən elan da verilir [157]. Disputun əsas məruzəçisi, Yesenin yaradıcılığına yaxından bələd olan Mixail Danilov deyir: "*Yesenin xüsusi nəğməkarlıq istedadı olan quşa bənzəyir. Onun nəğməsi sərbəst şəkildə qəlbin lap içindən süzülüb gəlir… Müasir dövrün heç bir şairi belə bədii mükəmməllik və ustalıq səviyyəsinə çata bilməmişdir. Biz onu göz bəbəyi kimi qorumalıydıq. Amma kobud tənqid və şərait onu zəhərlədi. Biz elə edə bilmədik ki, bu dahi nəğməkar aramızda yaşayıb yaratmağa davam etsin*" [230]. Disputda Pir, prof. Vaqri, Y.Qurviç və digər iştirakçılar da çıxış edir, Yeseninə həsr olunmuş şeirlər və onun öz şeirləri oxunur.

1926-cı il sentyabrın 24-də "Труд" qəzetində S.Mazyavıy adlı müəllifin A.Kruçyonıxın Moskvada öz nəşriyyatında çapdan çıxan bir kitabına resenziyası dərc olunur. Müəllif bu yazısında A.Kruçyonıxın Yeseninlə, onun yaradıcılığı ilə bağlı fikirlərinə etiraz edir, Yeseninə, onun yaradıcılığına kölgə salmaq cəhdlərinin heç bir nəticə verməyəcəyini vurğulayır, Yesenin kimi böyük bir şairə, böhtan və

uydurmalardan uzaq, ciddi, obyektiv münasibətin olması vacibliyini dilə gətirir, yalnız A.Kruçyonıx kimi, səthi, allahından qorxmayan, ədəbsiz bir tənqidçinin Yeseninə belə böhtan ata biləcəyini qeyd edir və bu, obyektivlikdən çox-çox uzaq olan, qərəzli, əsassız, yersiz, boş fikirləri qətiyyətlə rədd edir [260].

Bundan sonra, uzun illər, demək olar ki, SSRİ-nin dağılmasına qədər olan uzun bir müddətdə Bakı mətbuatında Yeseninin ölümü ilə əlaqədər heç bir yazıya rast gəlmirik. Yalnız 80-ci illərin sonuna yaxın, Rusiya mətbuatında Yeseninin ölümünün yeni versiyaları haqqında fikirlər yayıldıqdan sonra Bakı mətbuatında da bu mövzu ətrafında mübahisələr başlayır, şairin ölümü ilə bağlı bir-birini diametral şəkildə təkzib edən fikirlər səsləndirilir. Bu mübahisə, Yeseninin ölümünün rəsmi versiyası ilə razılaşmayanların cəbhəsinə başçşlıq edən E.Xlıstalovun 1989-cu ildə "Бакинский рабочий" qəzetində dərc etdirdiyi bir məqaləsi ilə başlayır. Bu yazıda müəllif Yeseninin özünü asması fikrini qətiyyətlə rədd edərək, onun öldürüldüyünü və sonra izi itirmək məqsədilə asıldığını iddia edir və bu məsələyə aydınlıq gətirilməsi məqsədilə Yeseninin Bakı dövrünün diqqətlə araşdırılması vacibliyini yazır: "*Məlumdur ki, şair 4 dəfə Azərbaycana gəlib, burada özünün ən məşhur əsərlərini yazıb. Amma yalnız indi məlum olur ki, 2 dəfə Yesenin Moskvada ona qarşı hazırlanan məhkəmə və həbs edilmək təhlükəsindən qaçmaq üçün Bakıya gəlmişdir. Məhz buna görə də, şübhəsiz, şairin Azərbaycan həyatının bütün məqamlarının bərpa olunması böyük maraq kəsb edir... Mən şübhə etmirəm ki, Azərbaycanda S.A.Yesenini şəxsən tanıyan və ya onun Bakıda fəaliyyəti haqqında öz valideynlərindən, qohum-əqrəbalarından və tanışlarından eşitmiş çoxlu insanlar yaşayır. Onların xatirələri böyük rus şairi haqqında çoxlu yeni şeylərin açılmasına kömək edər*" [351].

E.Xlıstalovun bu məqaləsi Bakı mətbuatında dərc ediləndən sonra, onu maraqlandıran məsələ ilə bağlı müəllifə ümid etdiyi yeniliklər haqqında bakılılar tərəfindən hər-hansı bir məlumatın verilib-verilmədiyini demək çətindir. Çünki, müəllifin sonrakı dövrdə Moskvada yazdığı məqalə və kitablarında bu haqda heç bir məlumata rast gəlinmir. Amma onu qeyd edə bilərik ki, məhz bu yazıdan sonra Bakı mətbuatında böyük şairin ölümü mövzusu ətrafında bir real canlanma baş verir. Yeseninin Bakı həyatının araşdırıcılarından biri, Q.Şipulina E.Xlıstalovun bu

məqaləsinə özünün "Özəl tədqiqata lüzum varmı?" adlı məqaləsi ilə cavab verir. Q.Şipulina yazır: "*Müəllif* (E.Xlıstalov – İ.İ.) *özünəməxsus özəl tədqiqat aparır, 20-ci illərin ədəbi və siyasi mənzərəsindən, Yeseninin bioqrafiyasından və onun haqqında xatirələrdən özünə uyğun gələnləri seçib götürür*" [380]. Bundan sonra müəllif, E.Xlıstalovun qaldırdığı bütün məsələlərə öz münasibətini bildirir, onun tərəfindən qoyulan bütün məqamların əsassız olduğunu sübut etməyə çalışır.

Həmin dövrdə Q.Şipulinanın göstərilən məqaləsindən başqa mətbuatda, bu məsələ ilə bağlı, heç bir digər yazıya rast gəlmirik. Təxminən 10 ay sonra Q.Şipulina yenidən bu məsələyə qayıdır və "Литературный Азербайджан" jurnalında "S.A.Yeseninin ölümü haqqında miflər" adlı məqalə [374] ilə çıxış edir. Məqalədə Yeseninin ölümündən dərhal sonra işıq üzü görmüş xatirələrə istinad edilir və şairin ölümünün, daha doğrusu, özünü öldürməsinin çox təbii olduğuna əminlik ifadə edilir. "*Sergey Yeseninin poetik yaradıcılığı çox işıqlı, sevindirici və həyatı təsdiqləyici bir yaradıcılıqdır, amma, hər halda, onun yaradıcılığından keçən əsas qırmızı xətt, gənc şairin ilk şeirlərindən başlayan faciəvi mövzu – ölüm mövzusu, solğunluq mövzusudur... Bizim tərəfimizdən Yeseninin yaradıcılında ölümü yada salan 400-ə yaxın məqam ayırd edilmişdir. Onların üçdə birindən çoxu son 2 ilin payına düşür (uyğun olaraq, 296 və 101), özü də bu son şeirlərin yarısında şair özünün ölümü haqqında, intihar haqqında danışır ... Bu da azmış kimi, şeirlərin çoxunda elə-belə ölüm, intihar mövzusu deyil, məhz özünüasma, boğulmadan söhbət gedir*" [374, s.108].

Müəllif, Yeseninin müxtəlif vaxtlarda yazılmış şeirlərindəki özünüasma, boğulma ilə bağlı məqamları misal gətirir, V.Polonskinin sözlərini yada salır: "*O* (Yesenin – İ.İ.), *intihardan çox-çox əvvəl ölməyə başlamışdı, ona görə də onun son 2 ildə yazdığı şeirlərində çoxlu ölüm motivləri var. Elə buna görə də onun intihar etməsi onu anlamadan ittiham ediləbiləcək bir dəcəllik deyil*" [374, s.108].

Bundan sonra müəllif, şairin intihar etməsinin sübutu kimi, onun ölümünü birmənalı, intihar olaraq qəbul edən Avropa və Amerikada yaşayan mühacir ədəbiyyatçıların fikirlərindən sitatlar gətirir, E.Xlıstalovun irəli sürdüyü qətl versiyasını addım-addım təkzib edir. Məqalə belə qurtarır: "*Biz, Yeseninin öldürülməsi*

versiyasının tərəfdarı olan müəlliflərin böyük əks-səda doğurmuş məqalələrinin yalnız bir sıra məqamlarına toxuna bildik. Amma, elə bu deyilənlər də onların irəli sürdükləri fikirlərin qeyri-ciddiliyinə əmin olmaq üçün kifayətdir. Yalnız təəssüf etmək olar ki, şairin faciəsini müzakirəyə çevirənlər arasında, baş verənləri başa düşmək fikrindən uzaq olan, kütləvi informasiya vasitələrinin hesabına, sensasiyalı materiallar vasitəsilə özünə ad qazanmaq istəyənlər var" [374, s.118].

Bununla Bakı mətbuatında Yeseninin ölümü ilə bağlı mübahisələr, demək olar ki, tamamilə səngiyir. Yalnız 2010-cu ildə bu sətirlərin müəllifinin "Şeir gülüstanının təkarolunmaz çiçəyi – Serqey Yesenin" kitabı [42] işıq üzü gördükdən sonra, bu kitaba həsr edilmiş məqalələrdən birində yenidən bu mövzuya toxunulur. Məqalə müəllifi intihar məsələsinə şübhə ilə yanaşır, Yeseninin ölümü ilə bağlı öz fikrini belə ifadə edir: "*Biz bu mübahisələrdə Yeseninin intihar etməsinin əleyhdarlarının tərəfindəyik. Onun avtobioqrafiyasının sonluğunda yazdığı bu sözlərinin üzərində düşünərək: "Budur mənim tərcümeyi-halıma aid olan qısa, sxematik məlumatlar. Burada hər şey deyilməyib. Lakin düşünürəm ki, özümə hansısa yekun vurmaq üçün hələ tezdir. Mənim həyatım və yaradıcılığım hələ qabaqdadır». Hələ yaşayıb yaradacağına, özünün gələcəyinə ümidlə baxan insanın intihar etməsi inandırıcı görünmür*" [67, s.27].

Beləliklə, Serqey Yeseninin ölümündən dərhal sonra, 1925-ci ilin sonu və 1926-cı ildə Bakı mətbuatında dərc olunmuş yazılarda, istisnasız olaraq, şairin intihar etməsi fakt olaraq qəbul edilirdi. Yuxarıda qeyd etdiyimiz kimi, həmin dövrdə Yeseninin ölümü ilə bağlı hər hansı bir sensasiyalı fikrin söylənə bilməsi ağlabatan da deyil. Odur ki, yazıların hamısında şairin ölümü rəsmi yayılmış versiyaya uyğun qəbul edilir və yalnız bundan sonra onun intihar etməsinin səbəbləri haqqında müəyyən fikirlər irəli sürülürdü. Yalnız 80-ci illərin sonuna yaxın Rusiya mətbuatında intihara alternativ versiyalar irəli sürüldükdən sonra Azərbaycan mətbuatında da müxtəlif araşdırmalar aparılmağa başladı. Azərbaycan yeseninşünasları arasında Q.Şipulina intihar versiyasının qatı tərəfdarı kimi çıxış etsə də, digər versiyanı – Yeseninin öldürülməsi versiyasını beyinlərdən silmək mümkün olmadı və bu versiyanın yeni müdafiəçiləri meydana çıxdı [58; 67].

Yeseninin intihar etməsi, yoxsa öldürülməsi məsələsinə bizim münasibətimizə gəlincə, qeyd etmək istəyirik ki, şairin qətlə yetirilməsi tərəfdarlarının fikir və mülahizələrinin kifayət qədər maraqlı və cəlbedici səslənməsinə baxmayaraq, Yeseninin Bakıdan Moskvaya qayıtdıqdan sonra üzləşdiyi ciddi problemlər – ailə məsələləri, sərgərdən həyat, yenidən içkiyə qurşanması, həyatının lap sonuna yaxın xeyli müddət (26 noyabr-21 dekabr) ruhi xəstəxanada yatması və s. kimi məsələlər, hər halda, böyük şairin intihar etməsi versiyasının daha inandırıcı olduğunu göstərir. Yeseninin ruhi xəstəxanaya yerləşdirilməsinin onun xəstəliyi ilə heç bir əlaqəsinin olmadığını iddia edənlər unutmamalıdırlar ki, sağlam bir insanın ruhi xəstəxanaya yatmağa razılıq verməsinin özü onun sağlam olmadığının və ağır sarsıntılar içində yaşadığının bariz göstəricisidir.

Azərbaycanda Yesenin poeziyasına və onun şəxsiyyətinə böyük marağın olduğunu nəzərə alsaq, bu mövzunun bundan sonra da mətbuatın diqqətində olacağını söyləyə bilərik. Burada bir faktı da qeyd edək ki, Yeseninin yaradıcılığına və şəxsiyyətinə olan maraq Azərbaycan ədəbiyyatı ilə yanaşı, ədəbiyyatımızın mühüm qolu hesab olunan Azərbaycan mühacirət ədəbiyyatında da özünə yer almışdı. Mirzə Bala Məmmədzadənin 1976-cı ildə Ankarada dərc olunmuş "Kommunist şairlər" adlı məqaləsində iki böyük rus şairi – Yesenin və Mayakovskinin həyat yoluna qısa nəzər salınır, onları intihara sürükləyən səbəblərdən söhbət açılır. "*Yesenin Bolşevik inqilabından sonra Çarlığın hüdudsuz özbaşınalıq və zorakılığına tam zidd bir rejim arzulamış və əbədi azadlıq havası içində "Azad insan" xəyal etmişdir. Fəqət, Çarlığa rəhmət oxudan vəhşət bir rejimlə qarşılaşdığında xəyal sükutuna uğradı və daha 30 yaşında ikən, 1925-ci ildə intihar edərək həyatına son verdi*" [116, s.10].

Bu paraqrafda azərbaycanlı müəlliflər tərəfindən Yeseninə həsr edilmiş şeirlər haqqında ayrıca məlumat verməyi məqsədəuyğun hesab edirik. Yeseninin hələ sağlığında rus şairləri ona şeirlər həsr etmişlər. Amma Azərbaycan şair və yazıçılarının, Yesenin poeziyasına, onun şəxsiyyətinə böyük sevgi və hörmətlə yanaşan azərbaycanlıların böyük şairə şeirlər həsr etməsi onun ölümündən sonrakı illərə təsadüf edir.

2010-cu ilə qədər Azərbaycan ədəbiyyatında Yeseninə şeir həsr etmiş ilk azərbaycanlı şairin Süleyman Rüstəm olduğu qəbul edilirdi [338, s.107]. Belə ki, S.Rüstəm Yeseninin ölümündən sonra ona "Yeseninə" adlı şeir həsr etmiş və müəllifin bir qeydində [75], bu şeirin 1926-cı ilin yanvarında yazıldığı göstərilsə də, ilk dəfə 1927-ci ildə əski əlifba ilə çapdan çıxmış "Ələmdən nəşəyə" adlı şeirlər kitabına daxil edilmişdir [74]. Tədqiqatımız üzərində işlədiyimiz dövrdə Yesenin poeziyasının dilimizə ilk tərcümələri ilə bağlı məsələləri araşdırarkən S.Rüstəmin bir fikri diqqətimizi çəkdi: "*Elə həmin illərdə* (iyirminci illərdə – İ.İ.) *rus lirikinin* (S.Yeseninin – İ.İ.) *bəzi əsərlərinin Azərbaycan dilində tərcümələri Bakı jurnallarının səhifələrində görünməyə başlamışdı. Onların arasında mənim tərcüməm də – məşhur "İran nəğmələri" silsiləsinə aid olan «В Хорассане есть такие двери...» şeirinin tərcüməsi də var idi*" [306, s.3].

Məlumdur ki, S.Rüstəm 1928-ci ildə Yeseninin "İran nəğmələri" silsiləsindən olan «В Хорассане есть такие двери...» şeirini Azərbaycan dilinə çevirmişdir. Həmin şeir əski əlifba ilə çıxan "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuş [102] və iki il sonra ayrıca kitab şəklində çıxan "Addımlar" şeirlər toplusuna daxil edilmişdir [103]. Lakin nə həmin jurnalda, nə də o illərdə dərc olunan başqa jurnallarda ("Maarif və mədəniyyət", "Maarif işçisi" və s.) digər heç bir müəllifin Yesenin poeziyasından tərcüməsinə rast gəlmədik.

Bu araşdırmalar zamanı Yesenin poeziyasından yeni tərcümələr üzə çıxara bilməsək də, Yeseninlə bağlı bir neçə maraqlı yazıya rast gəldik və "Maarif və mədəniyyət" jurnalının 1926-cı ildə çıxan ilk, yanvar nömrəsində (jurnal ayda bir dəfə çıxırdı) "Gənc qələmlər" rubrikası altında dərc edilmiş bir şeir xüsusilə diqqqətimizi çəkdi. Bu, həmin dövrün istedadlı, gənc şairlərindən biri Əli Nazimin "Sergey Yesenin" adlı şeiri idi [68]. Onu da qeyd edək ki, şeirin dərc olunduğu jurnalda onun Leninqradda yazıldığı da qeyd edilmişdir. Yeseninin də həyata məhz Leninqradda göz yummasını nəzərə alsaq, müəllifin bu şeiri Yeseninin ölümündən ciddi təsirlənərək, hadisədən dərhal sonra, mümkündür ki, elə həmin günlərdə, yazdığını təxmin etmək olar. S.Rüstəmin Yeseninə həsr edilmiş şeirindən fərqli olaraq məzmun və poeziya baxımından xeyli yüksək qiyməyləndirilə biləcək bu

şeirin "Yesenin və Azərbaycan" mövzusunda, tarixi bir fakt kimi, xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq onun məzmununu (həm orijinalda, həm də latın əlifbası ilə) təqdim edirik (bax: səh.171). Şeirin məzmunundan şeir müəllifinin Yeseninin həyat yoluna, şairin bu yolda keçirdiyi sarsıntılara, üzləşdiyi problemlərə yaxşı bələd olduğunu da söyləyə bilərik.

Beləliklə, Azərbaycan ədəbiyyatşünaslığında Yeseninə həsr edilmiş ilk şeirin müəllifi S.Rüstəm yox, Ə.Nazimdir. Onun "Sergey Yesenin" adlı şeiri, yuxarıda qeyd etdiyimiz kimi, şairin ölümündən dərhal sonra, "Maarif və mədəniyyət" jurnalının 1926-cı il yanvar nömrəsində dərc edilmişdi. Bundan sonra, uzun bir müddət – təxminən 40 il Azərbaycanda heç kim Yeseninə şeir həsr etməmiş və bu susqunluq 1965-ci ildə, Yeseninin anadan olmasının 70 illiyi ərəfəsində, Yesenin şəxsiyyətini və yaradıcılığını dərindən sevən, böyük şairi özünün "poeziya müəllimi" adlandıran istedadlı şair Əliağa Kürçaylı ilə pozulmuşdur [54; 241]. Yeri gəlmişkən, qeyd edək ki, Ə.Kürçaylı Yeseninin Azərbaycan dilinə ən papulyar tərcüməçisi kimi də şöhrət qazanmışdır və heç bir şübhəsiz, Yesenin poeziyasının Azərbaycan oxucuları tərəfindən bu qədər səmimiyyətlə sevilməsində Ə.Kürçaylının rolu danılmazdır.

Əli Nazim və Süleyman Rüstəmdən sonra daha bir sıra şair – Əliağa Kürçaylı, Əli Saləddin, Məmməd Rahim, Mənsur Vəkilov, Mustafa İskəndərzadə, Yusif Həsənbəy, Nəbi Xəzri, Mahir Qarayev, Vilayət Rüstəmzadə, Rəfiq Zəka, Fikrət Qoca, Eldar Baxış, Rauf Səfərov, Oqtay Rza, Səyavuş Məmmədzadə, Sevinc Heydərova, Nüsrət Qurbanov, Ramiz Rövşən, Günel Mövlud, Zaur Mehdiyev, Ağamehdi Mehdiəliyev, Fuad Əliyev, İbrahim İmaməliyev, Adil Şamilov, Məmməd İsmayıl, Musa Ələkbərli, Teymur Qılmanov, Faiq Orucəliyev, Aliyə İsmayılova, Samir Hacıyev, Tamerlan Kəngərli, Nəsib Nəbioğlu, Elmira Əliyeva, Cavid İmamverdiyev, Ələddin Yaqubov, Alina Talıbova, Əkrəm Məlikov, Ülviyyə Axundova, Solmaz Süleymanlı, Flora Naci, Nigar Xəlilova, Nazir Rüstəm, İsgəndər Qədimov, Emiliya Abdullayeva, Səlim Babullaoğlu, Səidə Sübhi, Azər Əfəndi və bu sətirlərin müəllifi Yeseninə, ümumilikdə, 77 şeir (Azərbaycan dilində 33 şeir, rus dilində 44 şeir) həsr etmişlər. Adı çəkilən müəlliflərdən bəziləri böyük şairə bir deyil, bir neçə şeir həsr etmişlər. O cümlədən, Ə.Kürçaylı Yeseninə 3 şeir (hamısı Azərbaycan dilində),

Sergey Yesenin

Ölürkən son sözü bu olmuşdu:
"Ölmək yeni deyil, bu dirilikdə
Yaşamaq da yeni deyildir heç də".

Bən görmədim, sarişin bir çocuqdi, deyürlər
Gök gözləri dənizlər qadar durğun-dalğalı;
Onda pək az görünür datlı nəşə, sürurlar,
Çünki şübhə, kədərlə könli imiş yarali.

⁂

Əvət gəncdi, çocuqdi, böylə gəldi oynə,
Zəhərləndi diriliyin şu "canlı gülüşindən".
Yeni şölə girmədi onun sisli könlünə,
İncə ruhi üzüldi dəmir quş ötüşündən.

⁂

Bən bir yeni deyiləm; o deyürdi, bən neçin
Gizlətəyim? Keçmişdə qalmışəm bir ayaqla:
Varub "dəmir əskərə" bən qoşub yetmək için
Can atarkən düşərəm digərilə qaymaqla.

⁂

Əski devrin ruhilə, yeni əsrin qafası
Onda hər an çarpişir, qavğalar doğururdi.
İlham vermədi ona, yeni dirilik laylasi,
Küsər, kəndi qəmini şərabla yoğururdi.

⁂

Bən görmədim, deyürlər, oni son görüşdə
Boğazından ip ilə sarqar ikən bulmişlar;
Bir qaç qanlı sətrla siritan bir gülüşdə
"Bir zaman görüşürüz" mənasini duymışlar.

⁂

Bir günəşdi, pək çabuq çiqdi, parladi, söndi,
Nəğmələri çinləyür hələ duyan yürəkçin;
Həyat seli önündə, aciz qaldi və dondi,
Rübabini qıraraq getdi şair Yesenin.

Ə.Nazim
Leninqrad

سەرگەی يەسەنين.

ئولوركن صوڭ سوزی بواولەشدی:
«ئولمەك يكی دەگيل بودیریلیكده
ياشاماقدا يكی دگيلدر هيچ ده»

بن گورمەديم ساريشين بيرچوجوقدی ديیورلار
كوك گوزلەری دە گيزلەر قادار دورغون ــ دالغالی؛
اوندا پەك آز گورونور، داتلی نشئه، سرورلار
چونكه شبهه، كدرله كوگلی ايميش يارالی.

⁂

ئەومت گنجدی، چوجوقدی، بويله قالدی اوينه
زهرلەندی ديرليگيك شو «جانلی گولوشندن»
يكی شعله گيرمەدی اونيك سيسلی كوگلنه
اينجه روحی ئوزولدی دمير قوش ئوتوشندن.»

⁂

«بن بير يكی دە گيلم؛ اوديوردی، بن نيچين
گيزلەتەيم؟ كيچميشده قالميشم بير آياقلا؛
واروب «دمير عسكره» بن قوشوب يتمەك ايچين
جان آتاركن دوشەرم ديگريله قايماقلا »

⁂

اسكی دوريڭ روحيله، يكی عصريڭ قافاسی
اوندا هرآن چاريشير، قاوغالار دوغورودی؛
الهام ويرمەدی اونا، يكی ديرليك لايلاسی؛
كوسەر، كندی غمنی شرابلا يوغورودی.

⁂

بن گورمەديم، ديیورلار، اونی صوڭ گوروشده
بوغازيندان ايپ ايله صارقار ايكن بولميشلار؛
بير قاچ قانلی سطرلا صيريتان بير گولوشده
«بير زامان گوروشورز» معناسينی دويميشلار.

⁂

بير گونشدی، پەك چابوقچيقدی، پارلادی، سوندی؛
نغمەلەری چينليور هله دويان يوره كچين؛
حيات سيلی ئوكنده عاجز قالدی و دوندی؛
ربابنی قيرارق گيتدی شاعر يەسەنين.

ع. ناظم.
لەنينغراد.

M.Vəkilov 4 şeir (hamısı rus dilində), Ə.Yaqubov 3 şeir (hamısı rus dilində), T.Qılmanov 3 şeir (hamısı rus dilində), Ə.Məlikov 4 şeir (hamısı rus dilində), N.Nəbioğlu isə 8 şeir (hamısı Azərbaycan dilində) həsr etmişdir. Bəzi mənbələrdə Məmməd Araz, Əhəd Muxtar, Ramiz Heydər, Ələkbər Salahzadə, Rüfət Zəbioğlu və bir sıra başqa şəxslərin də Yeseninə şeir həsr etmələri haqqında məlumatlar var. Amma nə adı çəkilən şairlərin kitablarında, nə də mətbuat səhifələrində belə şeirlərə rast gəlmədik. Görünür, bu şeirlər Yeseninə həsr edilmiş müəyyən tədbirlərdə səslənsə də, mətbuatda dərc edilməmişdir. Dissertasiyanın həcminə qoyulan tələbləri nəzərə alaraq burada Azərbaycanlı müəlliflər tərəfindən Yeseninə həsr edilmiş şeirlər, onların müəllifləri və dərc edildikləri mənbələr haqqında geniş məlumat verə bilmirik və bu səbəbdən də həmin mənbələri ədəbiyyat siyahısına da daxil etmədik. Bütün bunlar haqqında bizim bir məqaləmizdə [210] və monoqrafiyalarımızda [42, s.302-349; 219, s.262-312] ətraflı məlumat verilmişdir.

Yeseninə həsr edilmiş şeirlərlə bağlı bir məqamı da qeyd etmək istəyirik. Mahir Qarayev "Tənhalıq" şeirinin tarixçəsi ilə bağlı yazır: "*Bir nüansı da qeyd edim ki, TƏNHALIQ ilk dəfə dərc edilərkən çapı asanlaşdırmaq xatirinə redaktor incə bir fənd işlədib, yazının üstünə Yeseninin xatirəsinə* (şeirdə: Sergey Yeseninə – İ.İsaxanlı) *sözlərini yazmalı olmuşdu. Çox sevdiyim şair olsa da, o yazı Yeseninə həsr olunmadığından kitaba daxil edərkən həmin qeydə ehtiyac duymadım*" [56]. Biz isə həmin şeirin ilk dəfə məhz "Sergey Yeseninə*"* yazısının köməyi ilə dərc edildiyini nəzərə alaraq, hesab edirik ki, kitabda da həmin qeydin saxlanması daha ədalətli olardı. Elə bu məntiqlə də biz şeir ilk dəfə dərc edilərkən yazılmış fakta əsaslanaraq, müəllifin də razılığı ilə, bu şeiri Yeseninə həsr edilmiş şeirlər sırasına daxil etdik.

Ümumilikdə isə, Yeseninə həsr edilmiş şeirlərin sayının burada göstərildiyindən xeyli çox olmasına şübhə yoxdur. Müxtəlif illərdə, o cümlədən 1998-ci ildən başlayaraq hər il Mərdəkanda – Yeseninin ev-muzeyində və digər yerlərdə şairin doğum günü (3 oktyabr) ərəfəsində təntənəli tədbirlər keçirilir, bu tədbirlərdə, təbii olaraq, şairə həsr edilmiş şeirlər də oxunur. Amma təəssüf ki, bu şeirlərin bir hissəsi nəinki dərc olunmur, bəzən heç tədbirin təşkilatçılarına da təqdim olunmur və nəticədə naməlum qalır. Biz burada yalnız mətbuatda dərc olunmuş, eləcə də bizə,

bizim tanıdığımız insanlara və Yeseninin Mərdəkandakı ev muzeyinə hədiyyə edilmiş şeirlər haqqında məlumat verə bildik.

Bir məqamı da qeyd edək. Şeirlərdən bəziləri dərc edilərkən onların konkret olaraq Yeseninə həsr edildiyi yazılır, bəzilərinin adı birbaşa Yeseninlə bağlıdır, bir qisminin isə məzmunundan onun Yeseninə həsr edildiyi açıq-aydın görünür. Bununla yanaşı, bəzən Yeseninlə heç bir əlaqəsi olmayan şeirlərin ona həsr edilməsi kimi məlumatlara da rast gəlirik.

İlk dəfə Yeseninə həsr edilmiş şeirləri bir yerə yığmağa Əmirxan Xəlilov cəhd etmişdir. Onun "Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı" kitabında bölmələrdən biri belə adlanır: "Yesenin haqqında yadigar söz və şeirlər". Bu bölmədə müəllif Cabbar Qaryağdıoğlu və Məmməd Rahimin Yesenin haqqında fikirləri ilə yanaşı, ona həsr edilmiş 6 şeir də vermişdir. Bu şeirlərin arasında Ramiz Rövşənin "Uzaqlardan gələn qatar" və Vaqif Cəbrayılzadənin (Vaqif Bayatlı Önər) "Dənizin üstündə bir xəyal" şeirləri də var [23, s.135-136]. Məsələ burasındadır ki, həmin şeirlərin dərc edildiyi heç bir mənbədə onların Yeseninə həsr edilməsi haqqında qeyd yoxdur. Bu şeirlərdə Yeseninin adı belə çəkilmir və şeirlərin məzmunundan da onların Yeseninə həsr edildiyini iddia etmək mümkün deyil. Məsələyə aydınlıq gətirmək üçün şeirlərin müəllifləri ilə əlaqə saxladıq. Hər iki müəllif bu şeirlərin Yeseninə həsr edilmədiyini bildirdi.

Qalina Şipulina da 1997-ci ildə çap etdirdiyi "Bakı yeseninşünaslığı" məqaləsində [370, s.314-326], ümumilikdə, Azərbaycan ədəbiyyatında Yeseninə həsr edilmiş bir sıra şeirlər haqqında məlumat vermişdir.

Bir məqamı da qeyd etməyi vacib hesab edirik. Azərbaycan şairlərinin çoxsaylı şeirləri də var ki, onlar Yeseninə həsr edilməsə də burada şairin adı çəkilir, bəzən bir misrada, bir beyt və ya bənddə onunla bağlı müəyyən mənzərə təsvir edilir. Biz belə şeirləri, təbii olaraq, Yeseninə həsr edilmiş şeirlər sırasına daxil etmədik.

3.2. Sergey Yesenin yaradıcılığının Azərbaycan tədqiqatçıları

Sergey Yesenin irsinin öyrənilməsində kifayət qədər xidməti olan tanınmış rus tədqiqatçısı P.F.Yuşin yazır ki, Yesenin ən çox oxunan rus şairi olmasına baxmayaraq, təəssüf ki, ən az öyrənilən şairlərdəndir [385, s.9]. Bu fikir Yeseninin ümumi yaradıcılığına aid edilə bilərsə, onun yaradıcılığının Bakı dövrü haqqında ayrılıqda bunu iddia etmək olmaz. Yeseninin yaradıcılığının Bakı dövrünün bir sıra məqamlarına rus tədqiqatçılarının əsərlərində aydınlıq gətirilməsinə baxmayaraq, şairin yaradıcılığının Bakı dövrü rus tədqiqatçıları ilə müqayisədə Azərbaycan tədqiqatçıları tərəfindən daha ətraflı şəkildə öyrənilmişdir. Yeseninin həyat və yaradıcılıq salnaməsini əks etdirən beş cildliyin beşinci cildində [252] Bakı dövrü ilə əlaqədar məlumatların verilməsində Azərbaycan tədqiqatçılarının araşdırmalarından geniş istifadə edilmişdir.

Yesenin yaradıcılığının Azərbaycan araşdırıcılarından biri, şairin poeziyasının Azərbaycan dilinə tərcümələri ilə bağlı dissertasiya işi müdafiə etmiş P.Məmmədova yazır: "*Azərbaycan ədəbiyyatçıları şairin Bakıda olduğu ilk illərindən bu günə qədər onun yaradıcılığını Azərbaycan-rus ədəbi əlaqələrinin ən müxtəlif aspektlərindən diqqətlə öyrənmiş və öyrənməkdədirlər. Azərbaycan ədəbiyyatşünasları tərəfindən S.Yeseninin həyat və yaradıcılığının müxtəlif tərəfləri öyrənilmiş, şairin yaradıcılıq yolu izlənilmişdir. Bununla belə bu da başa düşüləndir ki, burada xüsusi diqqət onun Bakıda olduğu dövrə, eləcə də onun yaradıcılığında Azərbaycan mövzusuna yönəldilmişdir*" [266, s.6-7].

Amma bunu qəti surətdə Yeseninin yaradıcılığının Bakı dövrünün tam dəqiqliyi ilə araşdırılması, burada heç bir qaranlıq məqamların qalmaması fikri ilə eyniləşdirmək olmaz. Yeseninin Azərbaycana ilk gəlişindən bir əsr ötməsinə baxmayaraq, bu gün də onun Bakı həyatı ilə bağlı yeni məlumatlar, yeni faktlar, yeni xatirələr tapılmaqdadır, bu böyük rus şairinin yaradıcılığı ilə bağlı yeni-yeni araşdırmalar aparılır, monoqrafiyalar nəşr etdirilir, onun şeirləri şairlərimiz tərəfindən sevə-sevə dilimizə çevrilir, bəstəkarlarımız tərəfindən onun şeirlərinə musiqilər bəstələnir, böyük şairə yeni-yeni şeirlər həsr edilir, rəssamlarımız, heykəltəraşlarımız, xalça

ustalarımız və digər sənət adamlarımız müxtəlif janrlarda öz əsərlərində şairin unudulmaz obrazını yaradırlar. Bütün bunlar Azərbaycan ictimaiyyətinin, poeziyasevərlərin, Azərbaycan yaradıcı şəxslərinin, şair və yazıçılarının böyük rus şairinə, onun yaradıcılığına və şəxsiyyətinə böyük sevgisinin bariz nümunəsidir. "*Azərbaycana o, dəfələrlə gəlmiş, neftçilərlə, fəhlələrlə görüşmüş, bütün qəlbi ilə bu diyarı sevmiş, onun dostluq və beynəlmiləlçilik nəbzini dərindən hiss etmişdir. Onun Bakıda yazdığı şeirlər sanki Azərbaycan torpağının nəfəsi ilə doludor və elə buna görə də Yeseninin şeir və poemaları Azərbaycanda bu qədər sevilir*" [323, s.18].

Bununla belə, şairin Bakı həyatı və yaradıcılığı ilə bağlı kifayət qədər qaranlıq, şübhə doğuran, aydınlaşdırılması vacib olan məqamlar hələ də var və bunlar həm ictimaiyyət arasında, həm də ədəbiyyatşünaslığımızda geniş müzakirə mövzusudur. Əlbəttə, hər-hansı bir böyük şəxsiyyətin, şairin həyat və yaradıcılığının nə vaxtsa tam araşdırılacağını, nə vaxtsa onun haqqında tədqiqatlara son nöqtənin qoyulacağını düşünmək fikrindən uzağıq. Böyük şəxsiyyətlərin, böyük şairlərin böyüklüyü məhz onların yaradıcılığının daimi gündəmdə olmasında, öz əsərlərilə oxucularının qəlbində əbədi yaşamasındadır. Yesenin yaradıcılığının məhz bu xüsusiyyətlərini nəzərə alan N.Tağısoy onun yaradıcılığını oxucular və tədqiqatçılar üçün "tükənməz mənbə" adlandırır [324, s.11-12]. Qalina Şipulina isə Yeseninin xalq tərəfindən sonsuz sevilməsi fikrini belə ifadə edir: "*S.Yesenin, yəqin ki, dünyada yeganə şairdir ki, onun yaradıcılığı xalq tərəfindən, sadəcə olaraq, sevilmir, həm də müxtəlif ölkələrin və millətlərin müxtəlif yaşda olan insanları və ayrı-ayrı sənət adamları tərəfindən toplanır, araşdırılır və təbliğ olunur. Boş yerə deyil ki, hələ 80-ci illərdə vüsət alan "Xalq yeseninşünaslığı" bu gün də möhkəmlənməkdə və zənginləşməkdə davam edir – müxtəlif şəhərlərdə və müxtəlif ölkələrdə məktəblərdə, kitabxanalarda, şəxsi mənzillərdə S.Yeseninin ictimai muzeyləri yaradılır*" [373, s.26].

Azərbaycanda Yeseninə, onun şəxsiyyətinə, yaradıcılığına olan böyük marağı, nəzərə alsaq bu mövzunun daimi araşdırma obyekti olacağını əminliklə söyləyə bilərik. Burada bir müddət əvvəl Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyinin baş müşaviri vəzifəsində çalışmış diplomat, rus şairi A.Y.Qladkovun mənə şəxsən dediyi bir fikri yada salmaq istəyirəm: "Əgər,

ümumilikdə, bütün rus xalqı üçün ən böyük rus şairi A.S.Puşkindirsə, Azərbaycan xalqı üçün ən böyük və ən sevimli rus şairi, yəqin ki, S.A.Yesenindir". Əlbəttə, bu fikir həddindən artıq iddialı bir fikir olsa da, azərbaycanlılar üçün Serqey Yeseninin ən sevimli rus şairlərindən biri olması şübhəsizdir.

"Kredo" qəzetinin baş redaktoru, istedadlı qələm sahibi, şair-tərcüməçi Əlirza Xələfli Azərbaycan xalqı ilə Yesenin ruhunun doğmalığını belə ifadə edir: "*Elə mövzular var ki, ruhunda baş tərpədib, xəyalında canlanan kimi bir həyəcan dalğası sözə çevrilən duyğularla özünü diqtə edir. Kimsəyə sirr deyil ki, Azərbaycan ədəbiyyatında Müşfiqdən söz açan kimi kədər ovqatı ilə süslənmiş həyəcanlı duyğular dilimizi, ağzımızı sarsır... Mübahisəsiz rus ədəbiyyatında da əbədi həyəcan daşıyıcısı olan simalar az deyil. Və bəlkə də, bu sırada Sergey Yesenin faciənə səmimiyyətilə bizə ən yaxın olanıdır. Ruslar üçün Sergey Yesenin nə qədər doğma və əziz, kədərli və dərdlidirsə, ruslar üçün onun həyəcanları nə qədər canlı və diridirsə, elə bizim üçün də bir o qədər yaxındır, ovqatımıza sirayətedicilik gücü ilə yadlığı bir mahiyyət kimi rədd edir... Zaman onu bizdən uzaqlaşdırdıqca, ruhumuz onu daha böyük cazibə ilə özünə tərəf çəkir*" [17].

Yeseninin Bakı dövrü onun yaradıcılığının ən məhsuldar, ən maraqlı dövrü olmuşdur. Onun yaradıcılığını Bakısız təsəvvür etmək mümkün deyil və Bakı dövrü olmadan, ümumilikdə, kifayət qədər zəngin olan, Yesenin yaradıcılığı bir qədər kasıb görünərdi. Təsadüfi deyil ki, yeseninşünaslar Bakı dövrünü şairin yaradıcılığının "qızıl dövrü" adlandırır, onu Puşkin yaradıcılığının "Boldino payızı" ilə müqayisə edirlər.

Yeseninin hələ sağlığında onun bir sıra müasirləri, tədqiqatçılar – M.Danilov, Pessimist, Y.Qurviç, A.Selixanoviç, Tsiklop və M.Kamski şairin yaradıcılığı ilə bağlı Bakı mətbuatı səhifələrində yazılarla çıxış etmişlər. Bunlar, əsasən, "Бакинский рабочий" qəzetində [152; 154; 294; 295; 303; 304; 309), qismən də "Труд" qəzetində [227; 354] dərc edilmiş yazılardır. Yesenin dünyasını dəyişəndən dərhal sonra, 1925-ci ilin dekabr ayının 30-da Pessimist [293], A.Yakovlev [386], M.Kamskiy [228], ayın 31-də M.Danilov [153], eləcə də 1926-cı ilin yanvarında A.Lejnev [247], K.Xmurıy [352], L.Trotskiy [333], mart ayında Karandaş [230],

sentyabr ayında S.Mazyavıy [260] Yeseninin yaradıcılığı ilə bağlı, xüsusən də şairin ölüm səbəblərini önə çəkən bir sıra məqalələrini yenə də "Бакинский рабочий" və "Труд" qəzetləri səhifələrində dərc etdirmişlər.

Bundan sonra, uzun bir müddət, təxminən 30 il Bakı mətbuatında Yeseninlə bağlı heç bir yazıya rast gəlinmir. Bu susqunluq 50-ci illərin ortalarında pozulur. 1956-cı ildə "Бакинский рабочий" qəzetində Yeseninə həsr edilmiş bir tədbir haqqında məlumat verilir [139], 2 il sonra A.Loqvinenko "Молодежь Азербайджана" qəzetində şairin "İran nəğmələri" silsiləsinin əsas qəhrəmanı Şaqanenin şəxsiyyəti ilə bağlı məlumatı özündə əks etdirən bir yazı dərc etdirir [257]. Bundan bir il sonra, 1959-cu ildə, Yeseninin Bakı dövrünün araşdırılmasında özünəməxsus yeri olan S.Turabov Yeseninlə bağlı, onun Bakı həyatı ilə bağlı ilk məqaləsini dərc etdirir və bununla da, Yeseninə məqalə həsr etmiş ilk azərbaycanlı tədqiqatçı kimi tarixə düşür [339]. 1960-cı ildə S.Turabovun digər bir məqaləsi "Бакинский рабочий" qəzetində [340] dərc olunur.

60-cı illərdə, Yeseninin anadan olmasının 70 illiyi ərəfəsində və ondan sonra Azərbaycan tədqiqatçılarının, bu və ya digər mənada, böyük şairin həyat və yaradıcılığına həsr edilmiş xeyli sayda yazılarına rast gəlirik. Bunlar, əsasən, Yeseninin bəzi müasirlərinin xatirələri, eləcə də, həm Azərbaycanda, həm də Rusiya mətbuatında, Azərbaycan və rus dillərində dərc olunmuş müxtəlif qəzet və jurnal məqalələrindən ibarətdir.

1995-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Yeseninin anadan olmasının 100 illiyi Azərbaycanda rəsmən, təntənəli şəkildə qeyd edildi [76] və bu böyük ədəbi bayram münasibəti ilə müxtəlif tədbirlər həyata keçirilməyə başladı. Azərbaycan Slavyan Mədəniyyəti Mərkəzi tərəfindən "Burada sənin haqqında "bizimki" dedilər" («Здесь о тебе сказали, наш») məcmuəsi nəşrə hazırlansa da, kitab nədənsə işıq üzü görmədi. Lakin buna baxmayaraq, həmin ildən Yeseninlə bağlı araşdırmalar, onun poeziyasından tərcümələr daha geniş vüsət almağa başladı. Yubiley ərəfəsində keçirilən çoxsaylı tədbirlər haqqında Q.Şipulinanın bir məqaləsində ətraflı məlumat verilir [371].

Elə həmin il M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və ədəbiyyatı institutunda (indiki Bakı Slavyan Universiteti) Yeseninin anadan olmasının 100 illiyi münasibətilə elmi konfrans keçirildi və məqalələr toplusu çap olundu. Burada Yeseninin Bakı dövrü də daxil olmaqla, onun ümumi yaradıcılığına həsr edilmiş 10 məqalə işıq üzü gördü [327]. Bu məqalələrdə Yesenin yaradıcılığının bir sıra maraqlı məqamlarına toxunulur, ciddi tədqiqatçı marağına səbəb ola biləcək bir sıra məlumatlarla rastlaşırıq.

Ümumiyyətlə, Azərbaycan tədqiqatçıları müxtəlif dövrlərdə Yeseninin yaradıcılığı, xüsusən də onun yaradıcılığının Bakı dövrü ilə bağlı çoxsaylı qəzet və jurnallarda məqalələrlə çıxış etmiş, şairlə bağlı xatirələrini qələmə almış, kitablar, toplular, monoqrafiyalar ərsəyə gətirmişlər. Yeseninin yaradıcılığının Bakı dövründən bəhs edən çoxsaylı elə qəzet məqalələri var ki, orda nəinki Yeseninin Bakı həyatı, onun yaradıcılığının Bakı dövrü ilə bağlı, hətta onun ümumi yaraıcılığı ilə bağlı bəzi çoxsəhifəli məqalələrdə olduğundan daha çox, vacib, maraqlı məlumatlarla rastlaşırıq. Belə yazılar müxtəlif illərdə, əsas etibarilə, böyük şairin yubiley günləri ərəfəsində dərc olunurdu. Məsələn, 1965-ci il oktyabrın 2-də Y.Qurviçin "Баку" qəzetində dərc edilmiş iki kiçik həcmli yazısında Yeseninin "Бакинский рабочий" qəzeti nəzdindəki fəhlə şair və yazıçıların dərnəyində iştirakı ilə bağlı, eləcə də onun Bakıda yazdığı bir şeirin – «Пускай я порою от спирта вымок...» şeirinin yazılma tarixçəsi ilə bağlı maraqlı məlumatlar alırıq [150]. Bundan bir gün sonra, oktyabrın 3-də L.Polonski "Бакинский рабочий" qəzetində "İki nəğməkar" («Два певца») adlı məqaləsində [299] Yeseninin məşhur Azərbaycan xanəndəsi Cabbar Qaryağdıoğlu ilə görüşünü təsvir edir, Yeseninin həmin görüşdə Cabbar Qaryağdıoğlunun şərəfinə bədahətən şeir deməsi və onu "Şərq musiqisinin peyğəmbəri" adlandırması haqqında ilk dəfə məlumat verir.

Elə həmin gün, oktyabrın 3-də K.Xromovun "Коммунист Сумгаита" qəzetində dərc edilmiş kiçik bir məqaləsində Yeseninin Azərbaycan aşıq sənətinə münasibəti ilə bağlı bir məlumat verilir: "*Bir dəfə Yesenin aşıq poeziyası gecəsinə dəvət olunmuşdu. O, oxuyan improvizatorların çıxışlarını diqqətlə dinlədikdən sonra dedi: Burada o qədər müdriklik var ki, bütün Şərqə, bütün Rusiyaya yetər*" [353]. Bu, Yeseninin

bizim milli musuqi mədəniyyətimizə verdiyi layiqli qiymətdir. Bu məqamda qeyd etmək maraqlı olar ki, Azərbaycan aşıq poeziyasına böyük qiymət verən Yesenini tədqiqatçı V.Devitt "rus poeziyasının aşığı" adlandırır [156, s.111]. Yuxarıda qeyd olunan məqaləsində K.Xromov Yeseninin Bakını, dənizkənarı bulvarı çox sevdiyini, eqzotik xalçalarımızı çox bəyəndiyini, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Nizaminin və Vaqifin şeirlərini yüksək qiymətləndirdiyini də yazır. Yeseninin Azərbaycan şairlərinə, Azərbaycan poeziyasına münasibəti haqqında əlimizdə heç bir məlumat olmadığını nəzərə alsaq, bir qəzet məqaləsindəki bu fikrin nə qədər önəmli olduğu aydın olur. Lakin burada bir məqamı qeyd etmək lazım gəlir. Məsələ burasındadır ki, Vaqifin əsərləri Azərbaycanda 1925-ci ildən sonrakı dövrdə çap olunmağa başlamışdır və təbii ki, Yeseninin sağlığında Vaqifin şeirlərinin rus dilinə tərcüməsi də yox idi. Belə olan halda Yesenin Vaqifi necə başa düşə bilərdi? Doğrudur, ədəbiyyatşünas-alim Firudin bəy Köçərlinin 1903-cü ildə Tiflisdə nəşr etdirdiyi bir məqaləsində [237] müəllif digər şairlərlə yanaşı Vaqifdən də söz açır, onun bəzi şeirlərindən nümunələr də gətirir. Amma yuxarıda qeyd etdiyimiz kimi, Bakıda olduğu dövrdə Yeseninin heç bir azərbaycanlı şair, yazıçı, ziyalılarla əlaqəsinin olmaması onun Firudin bəy Köçərlinin göstərilən məqaləsi ilə tanış ola biləcəyini də bir qədər şübhə altına alır. Yeseninin əhatəsində olan digər millətlərin nümayəndələrinin də həmin məqalə ilə tanış olması inandırıcı görünmür. Digər tərəfdən, hətta Yesenin Firudin bəy Köçərlinin göstərilən məqaləsi ilə tanış olmuş olsaydı belə, bu ötəri məlumatın bir şairi sevmək üçün kifayət etmədiyi qənaətindəyik. Buna görə də K.Xromovun Yeseninin Vaqifin şeirlərini yüksək qiymətləndirməsi fikri o qədər də inandırıcı görünmür.

1965-ci il fevral ayının 24-də "Молодежь Азербайджана" qəzerində dərc olunmuş bir yazıda 1925-ci ilin aprel ayında Yeseninin Dənizçilik Texnikumunun (indiki Azərbaycan Dəniz Akademiyası) akt zalında gələcək dənizçilərlə görüşü haqqında ilk dəfə məlumat verilir [273].

Yeseninin dostu, "Бакинский рабочий" qəzeti nəzdindəki fəhlə şair və yazıçıların ədəbi dərnəyinin üzvü olmuş F.Nepryaxinin 1965-ci il sentyabrın 17-də

“Бакy” qəzetində dərc etdirdiyi bir məqaləsində də şairin Bakı həyatı ilə bağlı maraqlı hadisələr haqqında danışılır [279].

K.Aslanın 1995-ci ildə dərc etdirdiyi bir qəzet məqaləsində Yeseninlə Əliağa Vahidin görüşü ilə bağlı məlumatlar verilir. Əlbəttə, bu iki böyük şairin görüşünün baş tutması hələlik tarixi sənədlərlə təsdiqlənməsə də, bu məlumat öz-özlüyündə, xeyli əhəmiyyət kəsb edir [120].

Yesenin yaradıcılığının ən ardıcıl tədqiqatçılarından biri Q.Şipulinanın bir sıra qəzet məqalələrində Yeseninlə, onun Bakı həyatı və yaradıcılığı ilə bağlı ilk dəfə verilən bir çox məlumatlara rast gəlirik ki, bütün bunlar da, öz növbəsində, böyük şairin yaradıcılığında Bakı dövrünün yerinin və rolunun müəyyənləşdirilməsində kifayət qədər əhəmiyyət kəsb edir. Aşağıda biz Q.Şipulinanın Yeseninlə bağlı araşdırmaları haqqında bir qədər geniş söhbət açacağıq.

Belə misalların sayını kifayət qədər artırmaq olar. Bütün bunlar, eləcə də, daha geniş mənada, Yeseninin Bakı dövrü haqqında bizim, 2010 və 2012-ci illərdə işıq üzü görmüş, iki monoqrafiyamızda [42; 219] ətraflı məlumat verilmişdir.

Bu günə qədər Bakı mətbuatı səhifələrində rus və Azərbaycan dillərində S.Yeseninə həsr olunmuş 300-dən çox qəzet materiallarından 100-ə yaxını “Бакинский рабочий” qəzetində işıq üzü görmüşdür. Görünür, Yeseninin özünün bu qəzetə olan sevgisi onun haqqında yazan müəlliflərə də sirayət etmişdir. Qeyd edək ki, “Бакинский рабочий”dəki bu materiallardan 16-sı Yeseninin sağlığında, qalanları isə onun ölümündən sonra dərc edilmiş yazılardır. Ümumilikdə, Yeseninin sağlığında Bakı mətbuatında onun haqqında 24 material (13 məqalə və 11 elan) dərc olunmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, bunlardan 16-sı (8 məqalə, 8 elan) “Бакинский рабочий” qəzetində, 8-i isə (5 məqalə, 3 elan) “Труд” qəzetində yer almışdır.

“Бакинский рабочий” qəzetindən fərqli olaraq “Труд” qəzetində dərc edilmiş materiallarda Yeseninə, onun yaradıcılığına münasibət birqiymətli olmamışdır. Qəzetin bəzi əməkdaşları, o cümlədən, M.Kamski və Tsiklop bəzi hallarda Yeseninin yardıcılığı, onun şəxsiyyəti haqqında gobud ifadələrlə dolu, qərəzli mövqe ortaya qoymuş, yazılar dərc etdirmişlər [227; 354].

“Бакинский рабочий” qəzetindən sonra Yesenin yaradıcılığına geniş yer verən mətbu orqan “Bakı” (“Баку”) qəzetidir. Burada nəşr olunmuş 70-ə yaxın materialdan təxminən 50-si rus, digəriləri Azərbaycan dilində yazılardır. S.Yeseninə həsr olunmuş Azərbaycan dilində materiallar isə ən çox “Ədəbiyyat və incəsənət” qəzetində verilmişdir (təxminən 50 yazı). Yeseninə həsr edilmiş Bakı mətbuatındakı yazılar yuxarıda adı çəkilən qəzetlərdən başqa həm də “Azərbaycan”, “Xalq”, “Kommunist”, “Elm”, “Ədəbiyyat”, “Bizim lider”, “Bizim fakt”, “Yeni dövr”, “Yeni Azərbaycan”, “Alma”, “Vətən fədailəri”, “Kredo”, “Bütöv Azərbaycan”, “525-ci qəzet”, “Günay”, “Azərbaycan müəllimi”, “Elimiz-Günümüz”, “Azərbaycan gəncləri”, “Şərq qapısı”, “Азербайджанские известия”, “Вестник”, “Вышка” və bir sıra digər qəzetlərdə də çap edilmişdir.

Yeseninin yaradıcılığı ilə bağlı Bakı mətbuatında işıq üzü görmüş çoxsaylı qəzet məqalələrinin müəllifləri arasında M.Araz, N.Həsənzadə, N.Xəzri, Ə.Kürçaylı, C.Novruz, N.Kəsəmənli və bir sıra digər tanınmış Azərbaycan şair və yazıçılarının adlarını göstərmək olar. Heç şübhəsiz, Yesenin şəxsiyyətinə və yaradıcılığına olan böyük maraq və sevgini nəzərə alsaq, Azərbaycanda bundan sonra da dərc olunan qəzetlərdə ona həsr edilmiş yazıların sayı gündən-günə artacaqdır.

Yeseninin yaradıcılığının Bakı dövrü ilə bağlı maraqlı məlumatlarla biz həm də böyük şairin müasirlərinin - V.Boldovkin, Y.Qurviç, V.Manuylov, L.Faynşteyn, P.İ.Çaqin, M.A.Çaqina, V.Şveytser və digərilərinin [131; 150; 151; 267; 345; 355-359; 365; 366] xatirələrində rastlaşırıq. Xatirələr tədqiqat əsərləri hesab olunmasa da, bunlar öz növbəsində ciddi tədqiqat əsərləri üçün ən yaxşı, vacib mənbələrdəndir. Bu xatirələrin müəllifləri şairi yaxşı tanıyan, onunla birlikdə günlər keçirmiş, onun həyat və yaradıcılığının müxtəlif aspektlərinə yaxşı bələd olan insanlar olduqları üçün bu tipli məlumatlarda, bir qayda olaraq, tədqiqatçılar üçün vacib, maraqlı məqamlara rast gəlinə bilir. Bu xatirələr, faktik olaraq, Yeseninin Bakıda olduğu dövrdə keçirdiyi görüşlər, onun iştirakı ilə keçirilmiş şeir gecələri, şairin yaşam tərzi, həmin dövrdə onun poeziyasına olan münasibətin öyrənilməsində xüsusi rolu olan, çox vacib məlumatları özündə ehtiva edən yazılardır. Məhz ilk növbədə bu tipli yazılar Yeseninin Bakı həyatının, onun yaradıcılığının Bakı dövrünün xəritəsinin yaradılmasında

əvəzolunmaz tarixi sənədlər kimi qiymətləndirilə bilər. Məsələn, P.İ.Çaqinin xatirələrinin, Yeseninin Bakıya gəldiyi tarixlərin müəyyənləşdirilməsində, onun bir sıra tədbirlərdə iştirakı ilə bağlı məlumatların əldə olunmasında böyük əhəmiyyət kəsb etdiyi kimi, Y. Qurviçin yazılarında şairin "Бакинский рабочий" qəzeti nəzdindəki fəhlə şair və yazıçıların dərnəyində iştirakı ilə bağlı, hətta onun bu dərnəyin məşğələlərinin keçirilməsində və dərnəyin idarə olunmasında Y.Qurviçə böyük köməklik göstərməsi kimi məlumatlar alırıq. V.Manuylovun, P.İ.Boldovkinin xatirələrində Yeseninin Bakıya olan sevgisi, onun Bakı küçələrini, Bakının tarixi yerlərini gəzməsi, Azərbaycanın tarixi mədəniyyət abidələrinə fövqəladə marağı haqqında fikirlərlə rastlaşırıq. Yeseninin Mərdəkandakı yaşam tərzi haqqında K.E.Çaqinanın xatirələrində ətraflı məlumat alırıq. M.A.Çaqinanın xatirələrində isə Yeseninin 1924-cü ildə P.İ.Çaqinlə birlikdə çəkdirdiyi bir şəklin tarixçəsilə bağlı maraqlı məlumatlar verilir və belə misalların sayını kifayət qədər artırmaq olar.

Sergey Yesenin yaradıcılığı, onun həyatının Bakı dövrü, yuxarıda adları çəkilən müəlliflərlə yanaşı, bir sıra digər Azərbaycan tədqiqatçıları - H.Babayev, M.Arif, S.Lukyanova, B.Nəbiyev, V.Devitt, S.Solojenkina, S.Turabov, Ə.Xəlilov, S.Əsədullayev, Ş.Qurbanov, T.Şərifli, N.Tağısoy, P.Məmmədova, Y.Quluzadə, R.Novruzov, Y.Qasımova, S.Məmmədov, A.Tağıyeva, Z.Vəliyeva, K.Mahmudova, A.Fərziyeva, H.Orucov, E.Rəhimova, Q.Şipulina, Ş.Mahmudova, G.Qurbanova və başqaları tərəfindən öyrənilmişdir. Bu və digər müəlliflər böyük şairin yaradıcılığının yalnız Bakı dövrü deyil, ümumilikdə, onun yaradıcılığı haqqında məqalələr dərc etdirmiş, kitablar, monoqrafiyalar yazmış, dissertasiya işləri müdafiə etmişlər. Bununla yanaşı, yuxarıda göstərilən müəlliflərdən S.Turabov, P.Məmmədova, Ə.Xəlilov və xüsusən də Q.Şipulinanın Yesenin yaradıcılığını daha geniş və daha sistemli şəkildə araşdırdıqlarını qeyd etməliyik.

Yeseninin yaradıcılığı ilə bağlı elmi məqalə dərc etdirən ilk azərbaycanlı tədqiqatçı S.Turabovdur. Yuxarıda qeyd etdiyimiz kimi o, 1959-cu ildə "Литературный Азербайджан" jurnalında Yeseninin yaradıcılığının Bakı dövrü ilə bağlı ilk məqaləsini dərc etdirmişdir [339]. Bundan sonra S.Turabov tez-tez Yesenin yaradıcı-

lığına müraciət edir, müxtəlif qəzet və jurnal məqalələrində şairin yaradıcılığının bu və ya digər aspektlərini işıqlandırır [335; 336; 338; 340; 341; 342].

1964-cü ildə S.Turabovun "Азербайджан в русской поэзии" adlı monoqrafiyası işıq üzü görür. Bu əsərində, müəllif Yesenin yaradıcılığına xeyli yer ayırır, Bakı həyatının onun ümumi yaradıcılığına təsiri ilə bağlı maraqlı fikirlər irəli sürür, ümumilikdə Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafında Yesenin yaradıcılığının rolunu yüksək qiymətləndirir [337, s.92-101].

Yesenin yaradıcılığında fövqəladə vətən sevgisi ilə bağlı S.Turabov yazır: "*Şairin ən böyük məhəbbəti – vətənə olan məhəbbətidir. Bu məhəbbəti şair elə təsirli, elə valehedici ifadə edib ki, Puşkinin özü belə, onun şeirlərinin altında öz imzasını qoyardı*" [342, s.19].

Yesenin yaradıcılığını ardıcıl şəkildə araşdıran Azərbaycan tədqiqatçılarından biri də Ə.Xəlilovdur. O, bir sıra məqalələrlə [20; 22; 24; 25; 27; 347] yanaşı, Yesenin haqqında iki kitabın müəllifidir [23; 26]. Heç şübhəsiz, Azərbaycanda Yeseninlə bağlı ilk iri həcmli tədqiqat əsəri kimi Ə.Xəlilovun "Yesenin və Azərbaycan" kitabı [26] diqqət çəkir. 1977-ci ildə işıq üzü görmüş bu kitabda müəllif, özünün yazdığı kimi, "Şərq mühiti və poeziyası, xüsusilə Azərbaycan Yeseninə nə vermişdir? Şərqdən nəyi və necə öyrənmişdir? Nə üçün o bu dövr yaradıcılığını (1924-25) həyatının ən işıqlı, mənalı və möcüzəli dövrü adlandırmışdır?" kimi suallara cavab verməyə çalışmışdır. "Yeseninin "Boldino payızı", "Yesenin yaradıcılığında Şərq motivləri", "Yesenin Azərbaycan dilində" və "Şairin taleyi" adlı dörd fəsildən ibarət bu kitabda müəllif qarşısına qoyduğu suallara ətraflı və dolğun cavab verə bilmişdir. Sairin yaradıcılığının birinci (1910-1917) və ikinci dövrü (1918-1923) ilə müqayisədə üçüncü Qafqaz dövrünü (1924-1925) xüsusi fərqləndirən müəllif, bu dövrü Yesenin poeziyasının zirvəsi adlandırır [26, s.20]. Ə.Xəlilovun bu kitabına professor Şamil Qurbanov "Bakı" qəzetində dərc etdirdiyi "Yesenin və Azərbaycan" məqaləsində [59] yüksək qiymət vermişdir. Sonralar Ə.Xəlilov, şairin yaradıcılığının Bakı dövrü ilə bağlı araşdırmalarını bir qədər də dərinləşdirərək, 1996-cı ildə, "Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı" adlı ikinci kitabını [23] dərc etdirir. Burada tədqiqatçı, ümumilikdə, Bakı dövrünün Yeseninin ümumi yardıcılığında yeri və rolu

haqqında fikir yürüdür, onun müxtəlif şeirlərinin Azərbaycan dilinə tərcümələri ilə bağlı təhlillər aparır, Yesenin poeziyasının bir sıra Azərbaycan şairlərinin yaradıcılığına müsbət təsirini qeyd edir, eləcə də "İran nəğmələri" timsalında Şərq poeziyasının Yesenin yaradıcılığına ümumi təsirindən söhbət açmaqla, şairin yaradıcılığının müxtəlif aspektlərinə ətraflı şəkildə nəzər salır.

Ə.Xəlilov, özünün "Dünya ədəbiyyatı" monoqrafiyasında da [21] Yesenin yaradıcılığı haqqında geniş məlumat verir. Burada, bir sıra maraqlı məlumatlarla yanaşı, müəllif, A.İmanquliyevanın "Yeni ərəb ədəbiyyatı korifeyləri" monoqrafiyasına istinadən S.Yesenin və mənşəcə Livanlı olan ərəb yazıçısı, şairi, "Qərb və ərəb mədəniyyətinin varisi və daşıyıcısı", "Suriya-Amerika məktəbi"nin görkəmli nümayəndələrindən biri" [32, s.71] kimi təqdim edilən Cübran Xəlil Cübranın (1883-1931) yaradıcılığı, şəxsiyyəti, dünyaya baxışı arasında çöx maraqlı paralellər aparır, bu "ruhi mənəvi yaxınlığın" daha geniş tədqiqat mövzusu olduğunu qeyd edir [21; s.521-527].

Ə.Xəiliov 1987-ci ildə müdafiə etdiyi "Rus və Azərbaycan sovet poeziyası qarşılıqlı əlaqələrinin inkişaf mərhələləri" adlı doktorluq dissertasiyasında da Yesenin mövzusuna yer vermiş, birinci fəslin ikinci paraqrafını "Yesenin və Azərbaycan" adlandırmış və bu mövzu ətrafında müxtəlif məsələlərə toxunmuşdur [348, s.46-111].

Bu günə qədər Azərbaycanda Yesenin yaradıcılığına iki dissertasiya işi həsr edilmişdir. Bunlar, G.Qurbanovanın 1996-ci ildə S.Yesenin və S.Rüstəm poeziyasının materialları əsasında yazdığı "Poetik yaradıcılıqda folklor motivləri və ənənələri" («Фольклорные мотивы и традиции в поэтическом творчестве») və P. Məmmədovanın 1998-ci ildə "S.Yeseninin əsərlərinin azərbaycanca tərcümələri və onların tədqiqi" («Азербайджанские переводы произведений С.Есенина и их исследование») mövzusunda yazdığı fililoqiya elmləri üzrə namizədlik dissertasiyalarıdır [239; 265].

G.Qurbanovanın tədqiqatının birinci fəsli bütünlükdə Yeseninə, onun poetik yaradıcılığı timsalında, rus poeziyasında folklorun yerinin və rolunun araşdırılmasına, poetik yaradıcılıqda ənənə və yenilikçiliyin qarşılıqlı əlaqədə öyrənilməsinə həsr edilmişdir. Müəllif yazır: "*Yeseninin yaradıcılıq yolu çətin və qeyri-hamar olub. Bu*

yolda həm başgicəlləndirən yüksəlişlər, həm də üzüntülü enişlər olub. Amma, hətta ən çətin vaxtlarında da şair xalq-poetik ənənələrdən ayrı düşməyib" [239, s.80]. Tədqiqatçı bu fikrini bütün fəsil boyu Yeseninin müxtəlif şeirlərindən canlı misallar gətirməklə, onun poeziyasının sevilməsində, ürəklərə yol tapmasında, məhz folklorun böyük rolunun olmasını önə çəkir.

Dissertasiyanın üçüncü fəslində də müəllif Yesenin yaradıcılığında folklor ənənələrindən söhbət açır, amma bu dəfə şairin yaradıcılığında milli folklor deyil, xarici milli folklorun tutduğu yerdən, Yeseninin öz yaradıcılığında Azərbaycan folklorundan necə məharətlə istifadə etməsindən danışır. Müəllif, öz yaradıcılığında rus milli folklorundan geniş istifadə edən şairin, bir ölkə içində digər bir qonşu, dost xalqın, Azərbaycan xalqının zəngin və möhtəşəm şifahi xalq yaradıcılığına da laqeyd qala bilmədiyini qeyd edir və Yeseninin, öz düşüncəsində Azərbaycan şifahi xalq yaradıcılığını, ümumilikdə Şərq folkloru ilə qırılmaz əlaqədə qəbul etdiyini yazır. Daha sonra müəllif, Yeseninin Azərbaycana səfərləri zamanı bizim milli folklorumuzla dərindən maraqlandığını və bir sıra milli folklor nümunələrimizdən öz yaradıcılığında birbaşa istifadə etdiyini, şeirlərində Azərbaycanın milli xalq musiqi alətlərinə (tar, zurna) də laqeyd qalmadığını, eləcə də öz əsərlərində, xüsusən də "İran nəğmələri" silsiləsində, geniş mənada Şərq folklorundan bəhrələndiyini yazır [239, s.114-135].

Yeseninin öz yaradıcılığında Azərbaycan milli folklorundan daha geniş miqyasda bəhrələnəbilmə imkanlarını qeyd edən tədqiqatçı daha sonra yazır: "*Yeseninin, Şərqlə (və Azərbaycanla) yalnız həyatının son iki ilində, 1924-25-ci illərdə, bir neçə dəfə buraya gəldiyi vaxtlar sıx əlaqədə olduğunu nəzərə alsaq* (Yesenin Şərqdə, o cümlədən Azərbaycanda, 1924-25-ci illərdən əvvəl də olmuşdu – İ.İ.), *hesab etmək olar ki, şair 1925-ci il dekabrin 28-də faciəvi şəkildə dünyasını dəyişməsəydi, bu yaradıcılıq prosesi* (Azərbaycan folklorundan bəhrələnmə - İ.İ.) *davam etdiriləcəkdi*" [239, s.126].

P.Məmmədovanın dissertasiyası, adından da göründüyü kimi, Yesenin poeziyasının Azərbaycan dilinə tərcümələrinə həsr edilmişdir. Tədqiqatçı, Yeseninin bir sıra şeirlərinin, bəzi poemalarınının dilimizə tərcümələrini araşdırır, Yesenin

poeziyasının Azərbaycan tərcüməçilik məktəbinə müsbət təsirini qeyd edir, bu işdə bir sıra tərcüməçilərin, xüsusən də Əliağa Kürçaylının böyük xidmətinin olduğunu önə çəkir. Yeseninin əsərlərinin Azərbaycan dilinə tərcümələri, onların təhlili məsələsi müxtəlif vaxtlarda müxtəlif tədqiqatçıların məqalə və yazılarında bu və ya digər səviyyədə öz əksini tapsa da, bu məsələ ilk dəfə məhz P.Məmmədovanın göstərilən dissertasiyasında əsəs tədqiqat mövzusu kimi qoyulmuş, nisbətən geniş tədqiq edilmişdir.

Əsərin birinci fəsli "Yeseninin lirikası Azərbaycan dilində" adlanır. Müəllif yazır: "*Azərbaycanlı şair-tərcüməçilər S.Yeseninin yaradıcılığına ilk dəfə 20-ci illərin sonlarında müraciət etmişlər. Məlum səbəblərdən, 30-40-cı illərdə, başqa milli respublikaların şair-tərcüməçiləri kimi onlar da* (Azərbaycanlı şair-tərcüməçilər – İ.İ.) *şairin yaradıcılığına nadir hallarda müraciət etmişlər*" [265, s.11]. Bu fikirdə bir qədər qeyri-dəqiqlik özünü göstərir. Məsələ burasındadır ki, 30-40-cı illərdə, ümumiyyətlə, heç bir Azərbaycanlı tərcüməçi Yesenin yaradıcılığına müraciət etməmiş və həmin illərdə Yeseninin bir şeiri belə dilimizə çevrilməmişdir. Süleyman Rüstəmin 1928-ci ildəki tərcüməsindən [102] sonra Azərbaycan şair-tərcüməçiləri ilk dəfə 1955-ci ildə Yesenin yaradıcılığına müraciət etmişlər. Həmin il İsmayıl Soltan və Ələkbər Ziyatay, uyğun olaraq, Yeseninin "26-lar haqqında ballada"sını [73, s.30-34] və "Əlvida, Bakı!" şeirini [73, s.34-35] dilimizə çevirmişlər. Sonra tədqiqatçı tərəfindən Yeseninin bir sıra şeirlərinin, o cümlədən, «Выткался на озере алый свет зари…» (Ə. Kürçaylı və S.Məmmədzadənin tərcümələri), «Не жалею, не зову, не плачу…» (Anar və S.Məmmədzadənin tərcümələri), «До свиданья, друг мой, до свиданья» (Ş.Sadiq, N.Kəsəmənli, Anar və Ə.Kürçaylının tərcümələri), «Письмо к женщине» (Ə.Kürçaylı və S.Məmmədzadənin tərcümələri) şeirlərinin tərcümələri orijinalla və eyni zamanda bir-biri ilə müqayisəli şəkildə təhlilə cəlb edilir, tərcümələrin müsbət və mənfi tərəfləri haqqında fikirlər irəli sürülür.

«Persidskie motivı» və onların azərbaycanca tərcümələri» adlanan 2-ci fəsil Yeseninin sevgi poeziyasında mərkəzi yer tutan "İran nəğmələri" silsiləsinin Azərbaycan dilinə tərcümələrinə həsr edilmişdir. Qeyd edək ki, burada silsilənin yalnız 8 şeirinin – «В Хорассане есть такие двери…» (S.Rüstəm, Ə.Kürçaylı və

S.Məmmədzadənin tərcümələri), «Улеглась моя былая рана…», «Голубая родина Фирдуси…», «Глупое сердце, не бейся…», «Золото холодное луны…», «Свет вечерний шафранного края…», «Быть поэтом это значит то же…», «Голубая да веселая страна…» şeirlərinin Azərbaycan dilinə tərcümələri (Ə.Kürçaylı və S.Məmmədzadənin tərcümələri) təhlilə cəlb edilir. Sonda tədqiqatçı belə nətəcəyə gəlir: "*Beləliklə, demək olar ki, "İran nəğmələri"nin tərcüməçiləri əsərlərin məzmununu Azərbaycan dilində verməyə nail olmuşlar, onların işində çoxlu tərcümə uğurları var, amma bir sıra səhvlər bu gözəl əsərlərin ümumilikdə qəbul olunmasına mane olur*" [265, s.69].

Qeyd edək ki, dissertasiyada 8 şeirdən yalnız ilk dörd şeirin tərcümələri nisbətən geniş şəkildə təhlil olunduğu halda, digər dörd tərcümənin təhlili tamamilə səthi xarakter daşıyır. Onu da qeyd edək ki, silsiləyə daxil olan 15 şeirin 7-si ümumiyyətlə təhlildən kənarda qalmışdır ki, onların tərcümələrini təhlil etmədən ümumi silsilənin tərcüməsinin uğurlu və ya uğursuz olması haqqında fikir yürütmək doğru olmaz. Elə bu səbəbdən də "İran nəğmələri" silsiləsinə daxil olan şeirlərin dilimizə tərcümələrinin daha ətraflı şəkildə araşdırılmasına, təhlil olunmasına və beləliklə də silsilənin Azərbaycan dilinə tərcüməsinin ümumi vəziyyəti haqda fikir söyləməyə ehtiyac vardır. "İran nəğmələri silsiləsinə daxil olan şeirlərin tərcümələrinin bütünlükdə təhlil edilməsinə ilk cəhd bu sətirlərin müəllifi tərəfindən göstərilmişdir [42, s.117-238].

Xeyli paradoksal görünsə də, "İran nəğmələri şeirlərinin təhlilinə həsr edilmiş bu 2-ci fəsildə, tədqiqatçı həm də "Əlvida, Bakı" şeirinin dilimizə tərcümələrini (Ə.Ziyatay, R.Zəka, Ə.Cəmil və Ə.Kürçaylının tərcümələri) təhlil edir. Tərcümələrin təhlilinin məhz bu fəslə daxil edilməsi bir qədər uğursuz seçim olsa da, qeyd etməliyik ki, tərcümələr kifayət qədər əsaslı, geniş təhlil edilmiş, dörd tərcümə arasında haqlı olaraq ikisi – Ə.Cəmil və Ə.Kürçaylının tərcümələri daha yüksək qiymətləndirilmişdir.

Yeseninin poemalarının Azərbaycan dilinə tərcümələrinə həsr edilmiş 3-cü fəsildə tədqiqatçı yalnız şairin 2 poemasının – "Anna Sneqina" və "Qara adam" poemalarının dilimizə tərcümələrini təhlil edir, "26-lar haqqında ballada"nı isə təhlilə

cəlb etmir. Eyni zamanda müəllif hər 3 poemanın yalnız Ə.Kürçaylı tərəfindən tərcümə olunduğunu qeyd edir [265, s.83]. Amma, həmin dövrdə "Anna Sneqina" və "Qara adam" yalnız Ə.Kürçaylı tərəfindən tərcümə edilmişdisə, "26-lar haqqında ballada"nın 3 tərcümə versiyası – Ə.Kürçaylı [113, s.213], İ.Soltan [73, s.30] və T.Bayramın tərcüməsi [84, s.3] mövcud idi. Odur ki, "26-lar haqqında ballada"nın da təhlilə cəlb edilməsi daha doğru və qarşılıqlı müqayisə baxımından, daha maraqlı olardı.

Adı çəkilən dissertasiyanın 3-cü fəslinin 3-cü paraqrafı "S.Yesenin yaradıcılığının Azərbaycanda tədqiqi" adlanır. Burada tədqiqatçı Yeseninin ölümündən sonrakı, xüsusən də 1970-ci ildən sonrakı dövrdə şairin yaradıcılığı ilə bağlı araşdırmalar haqqında məlumat verir. Müəllif Ə.Ağayev, S.Əsədullayev, S.Turabov, Ə.Xəlilov, B.Nəbiyev, Ş.Qurbanov, R.Novruzov və bir sıra digər tədqiqatçıların araşdırmalarından sitatlar gətirir, Yesenin yaradıcılığının müxtəlif aspektlərinin Azərbaycan tədqiqatçıları tərəfindən geniş şəkildə araşdırıldığını qeyd edir. Sonra tədqiqatçı, haqlı olaraq, Azərbaycan yeseninşünaslığının inkişafında Yesenin poeziyasından tərcümələr etmiş azərbaycanlı mütərcimlər haqqında danışır, bu məsələdə S.Rüstəm, Ə.Kürçaylı, S.Məmmədzadə və başqalarının rolunu yüksək qiymətləndirir.

Bu iki dissertasiyadan başqa bəzi dissertasiyalar da var ki, burada konkret bir paraqraf Yesenin yaradıcılığına həsr edilmişdir. Belə dissertasiyalardan biri olaraq yuxarıda Ə.Xəlilovun doktorluq dissertasiyasını [348] qeyd etmişdik. Bununla yanaşı, R.Novruzovun doktorluq dissertasiyası [281] və Ş.Mahmudovanın namizədlik dissertasiyası da [61] belə tədqiqat işlərindəndir.

R.Novruzov "Bədii tərcümə və ədəbiyyatların qarşılıqlı əlaqəsi, zənginləşməsi problemi (Rus-Azərbaycan ədəbi əlaqələri materialları əsasında)" adlı dissertasiya işində 3-cü fəslin 3-cü paraqrafını "S.Yesenin poeziyası Ə.Kürçaylının tərcümələrində" adlandırmış [281, s.309-327], poetik tərcümənin problemlərini Nizaminin əsərlərinin çex dilinə, H.Cavidin əsərlərinin rus dilinə tərcümələri ilə yanaşı, Yesenin poeziyasının Ə.Kürçaylı tərəfindən Azərbaycan dilinə tərcümələri timsalında tədqiq etmişdir. Tədqiqatçının gəldiyi qənaətə görə, Ə.Kürçaylının Yesenin poeziyasından

tərcümələrinin uğur qazanmasında əsas məqamlardan biri ondan ibarətdir ki, Ə.Kürçaylı bu işlə ötəri məşğul olmamışdır, əksinə, Yesenin poeziyasından tərcümə işi onun tərcüməçilik fəaliyyətinin müəyyən bir dövrünü əhatə etmişdir. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, Yesenindən tərcümə işi Ə.Kürçaylı üçün bir yaradıcılıq məktəbi olmaqla yanaşı, həm də onun öz orijinal yaradıcılığını və deməli, ümumilikdə, Azərbaycan poeziyasını zənginləşdirmişdir.

Ş.Mahmudova da "Əliağa Kürçaylı və poetik tərcümə məsələləri" adlı dissertasiya işində, təbii olaraq, Ə.Kürçaylının Yesenin poeziyasından tərcümələrinə geniş yer vermişdir. Dissertasiyanın 2-ci fəslinin 2-ci paraqrafı "Ə.Kürçaylı və S.Yesenin" adlanır [61, s.84-104]. Dissertasiyada, Yeseninin, Ə.Kürçaylının tərcümə yaradıcılığında ən mühüm yer tutan şairlərdən biri olduğu qeyd edilir, Ə.Kürçaylının Yesenin poeziyasından bir sıra tərcümələri təhlil edilir, onun bir tərcüməçi kimi böyük hörmət, nüfuz və şöhrət qazanmasında, bir sıra digər şairlərlə yanaşı, Yesenin poeziyasının da danılmaz rolu vurğulanır.

Bütün yuxarıda deyilənlərlə yanaşı, qeyd etməliyik ki, Bakı Slavyan Universitetinin dosenti Q.Şipulinanın S.Yeseninin həyatının Bakı dövrü ilə bağlı nəşr etdirdiyi bir sıra məqalələr öz informativliyi və bir sıra məsələlərə aydınlıq gətirməsi baxımından daha çox maraq doğurur.

Q.Şipulina Yeseninlə bağlı ilk məqaləsini 1982-ci ildə "Бакy" qəzetində dərc etdirir [376]. Bundan sonra, o mütəmadi olaraq həm Bakı mətbuatında, həm də Rusiya mətbuatında müxtəlif qəzet və jurnallarda Yeseninin yaradıcılığı, xüsusən də onun yaradıcılığının Bakı dövrü ilə bağlı maraqlı məqalələr dərc etdirir, müxtəlif konfrans və simpoziumlarda məruzələr edir və bu gün də bu fəaliyyətini uğurla və böyük enerji ilə davam etdirir. Ümumilikdə, Q.Şipulina Yeseninlə bağlı 50-dən çox məqalə və bir neçə kitabın müəllifidir. Bu məqalələr Yeseninin Bakı həyatı ilə bağlı çoxsaylı maraqlı, ictimaiyyətin diqqətinə ilk dəfə çatdırılan bir sıra məlumatlarla zəngindir. Burada, ümumilikdə Bakı həyatının Yesenin yaradıcılığına təsiri araşdırılır, Yeseninin Bakı yaradıcılığında onun bakılı dostları, xüsusən də P.İ.Çaqinin rolu önə çəkilir, şairin "Бакинский рабочий" qəzeti ilə əlaqələri araşdırılır, onun Bakıda olduğu dövrdə bir sıra tədbirlərdə iştirakı ilə bağlı yeni infor-

masiyalar təqdim olunur, Yesenin və Azərbaycanda rusdilli poeziya mövzusu tədqiq edilir, Yeseninin şeirlərinə Azərbaycanda bəstələnən musiqilər haqqında məlumatlar verilir, "İran nəğmələri"nin yazılma tarixçəsi haqqında, eləcə də silsilənin baş qəhrəmanı Şaqanenin kimliyi ilə bağlı maraqlı fikirlər irəli sürülür, S.Yesenin – Ə.Kürçaylı yaradıcılığı birliyinin Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafında rolu qeyd edilir, Yeseninin ölümü ilə bağlı müstəqil tədqiqatçı mövqeyi ortaya qoyulur, Yesenin yaradıcılığının Azərbaycandakı rus məktəblərində tədrisi və bir sıra digər məsələlər araşdırılır. Q.Şipulinanın Yesenin yaradıcılığı ilə bağlı məqalələri haqqında daha geniş məlumat bu sətirlərin müəllifinin "Yeseninin Azərbaycan araşdırıcıları" adlı məqaləsində [49, s.340-342] verilmişdir.

1997-ci ildə Moskvada Yeseninin anadan olmasının 100 illiyi münasibətilə çapdan çıxan elmi məqalələr toplusunda Q.Şipulinanın "Bakı Yeseninşünaslığı" məqaləsi dərc olunur [370]. Bu məqaləni Yesenin yaradıcılığının Bakı dövrünün öyrənilməsində Azərbaycan tədqiqatçılarının rolunun araşdırılması baxımından ilk cəhd kimi qəbul etmək olar. Məqalədə Yesenin yaradıcılığının Azərbaycanda tədqiqi prosesi 3 dövrə ayrılır: Yeseninin sağlığında dərc olunmuş yazılar; onun ölümündən dərhal sonra işıq üzü görmüş yazılar və Yesenin yaradıcılığının öyrənilməsində 60-cı illərdən başlayan tədqiqat dalğası. Məqalədə Yeseninin sağlığında, eləcə də onun ölümündən dərhal sonra Bakı mətbuatında şairin yaradıcılığı ilə bağlı dərc olunmuş yazılar haqqında bir qədər geniş məlumat verilsə də (Yeseninin sağlığında Bakı mətbuatında dərc olunmuş yazılar müəllifin digər bir məqaləsində [377] daha geniş şərh edilmişdir), sonrakı dövrdə onun yaradıcılığının Azərbaycan tədqiqatçılarının əsərlərində tədqiq edilməsi məsələsinə səthi toxunulur. Belə tədqiqat əsərlərindən yalnız Ə.Xəlilovun "Yesenin və Azərbaycan" kitabı [26] haqqında məlumat verilir, bu kitabın Azərbaycan Yeseninşünaslığı baxımında rolu yüksək qiymətləndirilir. Bundan sonra məqalədə Yeseninin anadan olmasının 80 illiyi ərəfəsində Moskvada keçirilən təntənəli gecədə tanınmış Azərbaycan yazıçısı İmran Qasımovun Yesenin haqqında dediyi sözlərdən, Yesenin poeziyasının ən populyar mütərcimi Əliağa Kürçaylının Yesenin poeziyası ilə bağlı fikirlərindən sitat gətirilir və xalq şairi Nəbi Xəzrinin Yeseninin bir misrasına – «Тихо розы бегут по полям» misrasına həsr

etdiyi bi məqalə haqqında, eləcə də Yesenin poeziyasından Azərbaycan dilinə tərcümələr etmiş və Yeseninə şeirlər həsr etmiş şair və mütərcimlər haqqında məlumatlar verilir. Göstərilən məqalədə, bu qeyd olunan məqamlardan başqa, Yesenin yaradıcılığının Azərbaycan araşdırıcıları tərəfindən tədqiq edilməsi ilə bağlı digər heç bir əlavə məlumatla qarşılaşmırıq. Bütün bunlarla yanaşı, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan Yeseninşünaslığının öyrənilməsinə ilk cəhd kimi, heç bir şübhəsiz, bu məqalənin müsbət rolu qeyd edilməlidir. Müəllif adı çəkilən məqalədə Yesenin yaradıcılığının öyrənilməsində Azərbaycan tədqiqatçılarının rolunu yüksək qiymətləndirir, Azərbaycan xalqının qəlbində böyük rus şairinə, onun poeziyasına səmimi bir məhəbbətin olduğunu yazır: "*60-cı illərin ortasından başlayaraq, Sergey Yeseninin anadan olmasının 70 illiyinin qeyd edilməsi ərəfəsində onun həyat yolu və yaradıcılığının öyrənilməsində yeni mərhələ başlayır. Tamamilə təbiidir ki, Azərbaycan tədqiqatçılarını, hər şeydən çox, onun yaradıcılığının Bakı dövrü cəlb edir. Bütün tədqiqatlarda – həm monoqrafiyalarda, həm də həcmcə böyük olmayan yazılarda, azərbaycanlıları və onun üçün ikinci vətən olmuş gözəl Bakı şəhərini bütün qəlbi ilə sevən rus şairinə Azərbaycan xalqının saxta olmayan məhəbbəti qeyd edilir*" [370, s.319].

Onu da qeyd edək ki, Q.Şipulina həm də rus dili leksikologiyası üzrə mütəxəssis olduğundan S.Yesenin dilinin leksik strukturu ilə bağlı araşdırmalara da yaradıcılığında geniş yer vermişdir. Onun 7 cildlik "Yesenin dilinin lüğəti" («Словарь языка Есенина») əsəri bu baxımdan böyük əhəmiyyət kəsb edir [378; 379]. "*Hər bir yazıçının və ya şairin dilinin lüğəti həmin müəllifin dili ilə bağlı tam, dəqiq və obyektiv məlumatları özündə birləşdirir. Bu, hər-hansı bir sözün bir və ya bir neçə mənasının müəyyən edilməsinə, onun necə, hansı poetik janrlarda, hansı kontekstdə və hansı tezliklə işlənməsi məsələsinə ayrınlıq gətirilməsinə kömək edir*" [378, c.5, s.6]. Q.Şipulinanın 2013-2015-ci illərdə işıq üzü görmüş bu 7 cildlik fundamental əsərində, Yeseninin poetik yaradıcılığı 5 cilddə, nəsr əsərləri isə 2 cilddə geniş tədqiq edilir. Bu, Yesenin yaradıcılığının tam leksik təsvirini özündə birləşdirən ilk tədqiqat əsəridir. Əsərin uğurlarından biri kimi onu da qeyd etməyə dəyər ki, bütün cildlərin sonunda araşdırılan məsələlərlə bağlı müxtəlif aspektləri əhatə edən

bir sıra cədvəllər verilir və bu da tədqiq edilən məsələlərin daha yaxşı, daha əyani şəkildə qavranılmasına kömək edir.

Bütün yuxarıda deyilənlərlə yanaşı, heç şübhəsiz Yesenin yaradıcılığının Azərbaycan araşdırıcıları haqqında danışarkən, şairin yaradıcılığından tərcümələr etmiş azərbaycan mütərcimlərinin və müxtəlif dövrlərdə Yeseninə çoxsaylı şeirlər həsr etmiş azərbaycan şairlərinin rolu da qeyd edilməlidir. Bütün bunlar haqqında bundan əvvəlki paraqrafda, eləcə də 2-ci və 4-cü fəsillərdə geniş söhbət açmışıq.

Beləliklə, biz bu paraqrafda sağlığından bu günə qədər Yesenin yaradıcılığına müraciət etmiş, onun həyat və yaradıcılığının müxtəlif aspektlərini tədqiq etmiş Azərbaycan araşdırıcıları haqqında ümumi məlumat verməyə çalışdıq. Yesenin yaradıcılığının Azərbaycan araşdırıcıları müxtəlif vaxtlarda şairin həyat və yaradıcılığı ilə bağlı, xüsusən də onun yaradıcılığının Bakı dövrü ilə bağlı çoxsaylı tədqiqat əsərləri, müxtəlif məqalələr, kitablar yazmış, bir neçə dissertasiya işi müdafiə edərək, ümumilikdə, Yesenin yaradıcılığının geniş şəkildə tədqiq edilməsinə öz töhfələrini vermiş və bu gün də verməkdədirlər.

IV FƏSİL. SERGEY YESENİN POEZİYASI VƏ AZƏRBAYCAN TƏRCÜMƏÇILIK MƏKTƏBİ

4.1. Sergey Yeseninin əsərlərinin Azərbaycan tərcümələri: tarixi, nəzəri və praktik aspektlər

"XX əsrin Puşkini" - Sergey Yeseninin şeirləri, hələ onun sağlığında bir sıra dünya xalqlarının dillərinə tərcümə edilmişdi. Rusiya Dövlət Kitabxanasının verdiyi məlumata görə, hazırda, Yeseninin əsərləri dünyanın 160 dilinə çevrilmişdir [313]. Yeseninin şeirlərinin geniş həcmdə tərcümə olunduğu dillərdən biri də Azərbaycan dilidir.

Tərcüməçi kimi, Azərbaycanda ilk dəfə Yesenin yaradıcılığına Süleyman Rüstəm müraciət etmişdir. O, 1928-ci ildə, "İran nəğmələri" silsiləsindən olan «В Хорассане есть такие двери...» şeirini Azərbaycan dilinə çevirmişdir. Həmin şeir əski əlifba ilə çıxan "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuş [102] və iki il sonra ayrıca kitab şəklində çıxan "Addımlar" şeirlər toplusuna daxil edilmişdir [103]. Maraqlıdır ki, ilk variantdan fərqli olaraq, "Addımlar" şeirlər toplusunda şeirin beşinci bəndi ixtisara salınmışdır. Bunun bir çap xətası olduğunu düşünürük.

Süleyman Rüstəmdən sonra daha 30 tərcüməçi – Ələkbər Ziyatay, İsmayıl Soltan, Ş.Sadiq, Rəfiq Zəka, Əliağa Kürçaylı, Anar, Əhməd Cəmil, Murad Qudyalçaylı, Nüsrət Kəsəmənli, Tofiq Bayram, Səyavuş Məmmədzadə, Mahir Qarayev, Qoca Xalid, Kamal Abdulla, Ramiz Rövşən, Hamlet İsaxanlı, Knyaz Aslan, Səlim Babullaoğlu, Zahir Əzəmət, Firuz Mustafa, Eldar Nəsibli Sibirel, Eyvaz Borçalı, Günel Mövlud, Qiya Paçxataşvili, Fikrət Qoca, Əli Rza Xələfli, Rüfət İsayev, Teymur Kərimli, Əlizadə Nuri və bu sətirlərin müəllifi müxtəlif vaxtlarda öz qələmlərini Yeseninin şeirlərinin azərbaycancaya tərcüməsi üzərində sınamışlar. Bəzi yazılı mənbələrdə və şifahi söhbətlərdə Əli Nazim, Mikayıl Rzaquluzadə, Cabir Novruz, Rəfiqə Nuray, Vilayət Rüstəmzadə, İsa İsmayılzadə və daha bir neçə nəfərin də Yesenindən tərcümələr etdiyinə dair məlumatlar verilsə də, təəssüf ki, nə adı

çəkilən şairlərin kitablarında, nə də mətbuat səhifələrində bu məlumatların real fakt kimi təsdiqini tapa bilmədik.

Yesenin yaradıcılığının azərbaycanlı araşdırıcılarından biri G.Qurbanova yazır: "*Demək olar ki, bu şairin* (S.A.Yeseninin – İ.İ.) *bütün əsərləri müxtəlif illərdə Azərbaycan dilinə tərcümə edilmiş, Azərbaycan ədəbiyyatşünaslığında dəfələrlə, Yesenin poeziyasının müxtəlif nəsil Azərbaycan şairlərinə müsbət təsiri qeyd edilmişdir*" [239, s.7]. Bu fikrin ikinci hissəsinə aid heç bir iradımız olmasa da, birinci hissənin həqiqətə uyğun olmadığını və hətta həqiqətdən uzaq olduğunu qeyd etməliyik. Məsələ burasındadır ki, bu günə qədər Yeseninin Azərbaycan dilinə cəmi 124 əsəri tərcümə edilmişdir ki, bu da, ümumilikdə, Yeseninin poetik yaradıcılığının, təxminən 20-25 faizini təşkil edir. Üstəlik, G.Qurbanovanın adı çəkilən tədqiqatının işıq üzü gördüyü vaxta qədər (1996-cı il) Yesenin poeziyasından tərcümələrin sayı bir qədər də az idi. Yeseninin dilimizə tərcümə edilmiş şeirləri haqqında geniş məlumat (şeirlərin xronoloji ardıcıllıqla siyahısı, onların tərcüməçiləri, tərcümələrin ilk dəfə dərc edildiyi mənbə və s.) bizim S.Yesenin yaradıcılığına həsr olunmuş monoqrafiyalarımızda [42, s.350-356; 219, s.313-339] verilmişdir. Azərbaycanda hər zaman Yesenin poeziyasına böyük sevginin olduğunu nəzərə alsaq onun şeirlərinin dilimizə yeni-yeni tərcümə versiyalarının uzə çıxacağına da heç şübhə yoxdur.

S.Yesenin yaradıcılığı neçə onilliklərdir ki, ədəbiyyatşünaslığımızın, ədəbi əlaqələrimizin və tərcüməşünaslığımızın prioritet obyekti kimi diqqət mərkəzində dayanmaqdadır. Şairin əsərləri müxtəlif illərdə, yuxarıda qeyd etdiyimiz kimi, hələ 20-ci illərdən başlyaraq bu günə qədər dilimizə tərcümə edilmiş və tərcümə edilməkdədir. Məhz onun yaradıcılığına və şəxsiyyətinə olan müsbət münasibət, sevgi və maraq şairin çoxsaylı şeirlərinin tərcüməsi, bəzən də bir şeirinin çoxsaylı mütərcümlər tərəfindən dilimizə çevrilməsi ilə nəticələnmişdir.

Müxtəlif müəlliflər tərəfindən tərcümə edilmiş bir şeiri yenidən tərcümə etmək istəyi. Nədir bu istək? Əvvəlki tərcümələrə etiraz, yoxsa şeirə, onun müəllifinə olan sevgi hisləri, duyğularıdır? Şübhəsiz, ilk növbədə, konkret şeirə, şairə olan məhəbbət duyğularıdır bu. Hər şairin yaradıcılığında elə şeirlər var ki, onları mütləq tərcümə etmək istəyirsən. Yesenin də belə şairlərdəndir. «Письмо матери» şeirini tərcümə

etmək, anaya olan o ülvi hisləri öz qəlbindən süzdürmək istəyi, böyük şairin həyata vida nəğməsi olan «До свиданья, друг мой, до свиданья» şeirini, doğma Bakımıza dərin və sonsuz sevgi hislərinin ifadə edildiyi «Прощай, Баку!» şeirini, Yeseninin sevgi himni sayıla biləcək "İran nəğmələri"ni və neçə-neçə başqa şeirləri tərcümə etmək istəyi nə qədər təbiidir! Bununla belə, bir neçə müəllif tərəfindən tərcümə edilmiş bir şeirin yeni tərcüməsinə girişmək istəyinin, müəyyən mənada, mövcud tərcümələrə etirazdan güc alması da şübhəsizdir.

Biz tərcüməyə daha yaxşı yatan və ya daha çətin yatan şeirlərin varlığı fikrini qəbul etsək də, "tərcüməyə yatmayan, sadəcə, çevrilməyən" şeirlərin varlığı haqqında fikirlərə qəti qatılmırıq. Şeirin tərcüməsinin çətinliyi və böyük məsuliyyəti ilə bağlı S.Y.Marşakın fikri maraqlıdır: "*Şeirlərin tərcüməsi mümkün deyil*". İkinci addımda o, fikrini bir qədər yumşaldır: "*Hər dəfə bu, istisnadır. Əgər tərcüməçi öz işinə məhz belə yanaşarsa – onda bir şey alına bilər*" [268, s.373]. Məhz bu son nida ilə S.Y.Marşak, əslində, yaxşı tərcümənin mümkünlüyünü qeyd etmiş olur. Tərcüməşünaslıqda, o cümlədən Azərbaycan tərcüməşünaslığında da bu fikrin xeyli tərəfdarları var. Amma müasir tərcüməşünaslıqda şeirin tərcümə olunmazlığı ilə bağlı daha kəskin fikirlərə də rast gəlirik. Məsələn, nasir və tərcüməçi Etimad Başkeçid bir müsahibəsində deyir: "*Hara çəksən də, poetik tərcümədə zövqlə yazılmış şeirdən əsər-əlamət qalmır... pis şeiri yaxşı şeir kimi tərcümə eləmək olar, amma yüksək bədii meyarlara cavab verən şeiri adekvat tərcümə etmək mümkün deyil, onu yalnız korlamaq olar*" [11]. Sözsüz ki, elə bu qəti, kifayət qədər də ziddiyyətli fikrin nəticəsi olaraq, mütərcim, poetik mətnləri, ümumiyyətlə tərcümə etmədiyini yazır. Əlbəttə, hər-hansı bir sənətkar – yazıçı, şair, mütərcim ortaya dəyərli bir əsər qoya bilməyəcəyini əvvəlcədən bilirsə, onun bu işlə məşğul olmamasını sənətə ən sadiq xidmət kimi qiymətləndirmək lazımdır. Şeirin tərcüməolunmazlığı ilə bağlı yuxarıda deyilən fikirlər ətrafında bir xəyalpərəst kimi fəlsəfiliyə dalsaq, burada, müəyyən mənada, həqiqətin elementləri olduğunu qəbul etmək olar. Amma göydən yerə ensək, reallığa qayıtsaq, əlbəttə, hər hansı bir şeir tərcüməyə asan yatmaya bilər, lakin onu (üstəlik, ümumiyyətlə şeiri!) "çevrilməyən şeirə" çevirmək qərarı tələsik qərardır. Əgər hər hansı bir şeiri bir dildə (şeirin orijinal dilində) gözəl səsləndirmək mümkün

olmuşdursa, onu eyni gözəlliklə istənilən dilə çevirmək olar. Çünki, istənilən əsərin, ö cümlədən orijinal şeirin özü də, müəyyən mənada, bir tərcümədir – şairin düşüncəsinin, onun mövzuya baxışının, münasibətinin, dünya görüşünün, onun yalnız ona məxsus "xəyal dünyasının qələmi" vasitəsilə ağ kağıza köçürülmüş tərcüməsi. Fikrimizcə, şeirin tərcüməolunmazlığını, orijinalı eyni gözəlliklə hər-hansı bir ikinci dilə çevirmənin mümkünsüzlüyünü iddia edənlərə ən təbii, ən sadə və eyni zamanda ən tutarlı cavabı tanınmış rus yazıçısı, tərcüməçi N.A.Polevoy vermişdir: "*Deyəcəklər: "Orijinalın bütün gücünü vermək mümkün deyil". Müəyyən mənada bununla razılaşıram; amma Jukovski ki, bacardı, "Şilyon əsiri"ni* (C.Bayronun 1816-cı ildə yazdığı romantik poema - İ.İ.) *tərcümə edərək bunu mümkün etdi. Onun işini tərcümələr nümunəsi olaraq təqdim edirəm və deməli, deməyə hüququm var ki: Bayronu onun bütün gücü, gözəlliyi və böyüklüyü ilə tərcümə etmək mümkündür, yalnız çətindir; igidliyin şöhrəti də elə bundadır*" [298, s.179].

Beləliklə, əgər bu gün bir şeiri dilimizdə orijinala uyğun gözəlliklə vermək mümkün olmamışdırsa, bu, o demək deyildir ki, həmin şeir tərcüməolunmazdır, sadəcə, həmin gözəlliyi verə biləcək tərcüməçinin yoxluğudur əsas səbəb. Öz tərcüməçisi ilə birlikdə doğulacaq o gözəl tərcümə də!

"*Öz doğma dilində orijinalın ruhuna, ahənginə uyğun gələn poetik ifadə tərzini tapmaq*" [33, s.337], başqa sözlə, orijinala mümkün qədər yaxın olmaqla, orijinaldakı şeiriyyəti saxlamaq bacarığı tərcümədə ən mühüm faktorlardandır. Tərcümədə orijinala sadiqlik çox vacib olsa da, şeirin çevrildiyi dildə – azərbaycan dilində nə qədər təbii alınması (bu, müəyyən mənada, tərcümə mətninin tərcümə edildiyi dildə ömrünün üzünluğu deməkdir) ondan az vacib deyil və hətta, daha çox vacibdir. Orijinal şair, istedadlı tərcüməçi Ramiz Rövşən də, "*şeiri tərcümə eləmək hansısa bir bədən üzvünü bir canlı orqanizmdən başqasına köçürmək kimidir. Əgər sənin köçürdüyün bədən üzvü başqa orqanizmdə - dildə yaşamayacaqsa, istəyirsən onu qızıl sapla tik, xeyri yoxdur*" [72] deyərkən, yəqin ki, tərcümənin elə bu xüsusiyyətini nəzərdə tutmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, Ramiz Rövşən, Yeseninin şəxsiyyətinə və poeziyasına xüsusi rəğbəti olan şairlərimizdəndir və o, böyük rus

şairinə “Günah içində” adlı şeir [71] həsr etməklə yanaşı, onun “Qara adam” poemasını da böyük ustalıqla dilimizə çevirmişdir [106].

Tərcümədə digər faktorlar da unudulmamalıdır: Tərcüməçənin şeirin orijinal dilini yaxşı bilib-bilməməsi və ya tərcümə vaxtı orijinala səthi münasibət. Xalq yazıçısı Mirzə İbrahimov tərcüməçinin orijinalın dilini yaxşı bilib-bilməməsi ilə bağlı yazır: “*Əlbəttə, orijinalın dilini bilmək yaxşıdır, gözəl keyfiyyətdir. O zaman yaxşıdır və gözəldir ki, tərcümə edən həm orijinalın dilini bilir, həm də yaradıcıdır, bədii keyfiyyətlərə obrazlı təfəkkürə malikdir. O, bədii sözlə, bədii ifadə ilə adi söz, adi ifadə arasındakı fərqi duymaq qabiliyyətinə malikdir... Bir sözlə tərcümə mexaniki iş deyil, yaradıcılıqdır. Orijinalın dilini bildi-bilmədi, tərcüməçi gərək bədii gözəlliyi dərindən duyan olsun, ürəyinin qanını, hərarətini, ehtiraslarının gücünü, fikrinin işığını (əgər bunlar onda varsa!) tərcümənin yaxşı çıxmasına həsr etsin*” [31, s.9]. Əlbəttə, rus dilini bilməyən birinin həmin dildən tərcümə etməyə girişməsi real görünməsə də, Yesenindən tərcümələrdə orijinala səthi münasibət faktlarına çox rast gəlirik. Orijinaldakı fikirlərin tərcümədə yanlş ifadə edilməsi də, fikrimizcə, mütərcimin rus dilini bilməməsindən deyil, əsasən, orijinala və ümumilkdə, bir qədər kəskin desək, məşğul olduğu sənətə səthi münasibətdən qaynaqlanır. Bəzən müəlliflər bir sözü əsas götürərək onun “başına fırlanır”, hər hansı bir mənanı ifadə edir, lakin həmin məna orijinaldakından tamamilə fərqli olur, onun ümumi məzmununa və ruhuna qətiyyən uyğun gəlmir. Bir neçə misal göstərək: “İran nəğmələri”nə daxil olan «Отчего луна так светит тускло» şeirinin ikinci bəndi belə başlaylr: «Так спросил я, дорогая Лала / У молчащих ночью кипарисов» [195, s.271]. Əliağa Kürçaylı həmin misraları belə tərcümə etmişdir: “Soruşdum mehriban, əziz Lalədən / Gecə sərvlərin kölgəsində mən” [113, s.121]. Göründüyü kimi, orijinalda şair Laləyə gecə dinməz sərv ağaclarını necə sorğu-suala tutduğundan danışır, tərcümədə isə hər şey sərvlərdən deyil, Lalənin özündən soruşulur.

«Ты сказала, что Саади...» şeirinin birinci bəndinin ikinci beytinə nəzər yetirək: «Подожди ты, бога ради / Обучусь когда-нибудь!» [195, s.254]. Bu fikrin Səyavuş Məmmədzadə tərəfindən aşağıdakı tərcüməsini də qəbul etmək mümkün deyil: “Busə elə busədi / Nə öyrənən, öyrədən?” [104, s.333]. Elə həmin şeirin ikinci

bəndi belə başlayır: «Ты пропела: «За Ефратом / Розы лучше смертных дев». Firuz Mustafanın tərcüməsinə nəzər salaq: "Nəğmə dedin: "Fərat" üçün / Qızılgül divdən doğmadır» [85]. Birincisi, orijinalda söhbət "Fərat"ın özündən deyil, "Fəratın o tayındakı" məmləkətdən gedir. Ona görə də, "Fərat üçün" ifadəsi yanlışdır. İkincisi, "Fərat" çay adıdır. Belə çıxır ki, "Fərat çayı üçün qızılgül divdən doğmadır". Bunun nə demək olduğunu anlamaq mümkün deyil. Digər tərəfdən, tərcümədə tamamilə yersiz "div" sözü peyda olmuşdur. Orijinaldakı «смертных дев» ifadəsindəki «дев» sözü "div" deyil, "qız" deməkdir. Məhz "Fəratdan o yanda qızılgüllər qızdan gözəldir" deyildiyinə görə şair üçüncü bənddə "həmin qızılgülləri kəsib atmaq istəyir ki, dünyada onun Şahanəsindən gözəl bir şey olmasın". Göründüyü kimi, orijinaldakı fikir mütərcim tərəfindən yanlış başa düşülmüş və beyt orijinalla əlaqəsi olmayan qarışıq bir məzmun almışdır.

Daha bir misal: «Руки милой – пара лебедей» şeiri Yeseninin son Bakı səfəri zamanı (28 iyul – 3 sentyabr 1925), avqustun əvvəllərində yazılmış və ayın 10-da "Бакинский рабочий"də dərc olunmuşdu. Həmin dövrdə Yesenin artıq İran xəyallarından məcburi əl çəkmişdi, artıq İrana gedə bilməyəcəyini bilirdi, o, əmindi ki, artıq "Tehran ayı onun nəğmələrini qızdırmayacaq". Məhz buna görə şair, həmin şeirin üçüncü bəndində yazırdı: «Только тегеранская луна / Не согреет песни теплотою». Diqqət yetirək: «не греет» deyil, məhz gələcək zamanda (Yeseninə görə artıq "gəlməyəcək zaman"da) «не согреет». Bu məqam bu şeiri tərcümə etmiş mütərcimlərin heç biri tərəfindən hiss edilməmiş, onların hər üçünün tərcümələrində məna başqalaşmışdır: Ə.Kürçaylı ("Ancaq *qızdırmayır* Tehran qəməri / Ürəyimdən qopan bu nəğmələri"), S.Məmmədzadə tamamilə anlaşılmaz, qarışıq şəkildə ("Tehran qəmərinin üzü qış olsa / Nəğmələr isinməz, alışıb – sönər"), E.Borçalı ("Amma ki, Tehranın ayı, ülkəri / İsitməz nəğməmi *öz ürəyimtək*"). Göründüyü kimi, E.Borçalı orijinala yaxınlaşsa da, son məqamda "öz ürəyimtək" yazmaqla, lazımsız müqayisə təsviri yaratmış, müəllif fikrinin nəbzini əldən buraxmışdır.

Yeseninin «Вот уж вечер. Роса» şeirində birinci bəndin son iki misrası belədir: «Я стою у дороги / Прислонившись к иве». Nə qədər sadə və aydın fikir! Amma bu misraları Əlizadə Nuri aşağıdakı kimi tərcümə etmişdir: "Söyüd ağacına söykənən

/ Yol üstə dayanmışam” [93]. Orijinalda söyüd ağacına söykənən şairdir, tərcümədə isə, nə qədər inanılmaz olsa da, söyüd ağacına şair yox, yol söykənib!? Ümumiyyətlə, Yesenindən tərcümələrdə belə misalların sayı kifayət qədərdir. Bunları aradan qaldırmaq üçün tərcümə zamanı orijinalın ruhuna sadiqlik və orijinaldakı məzmuna, mənaya həssaslıq göstərilməsi vacibdir.

Yeseninin Azəbaycan dilinə tərcümələri ilə bağlı Azərbaycan tədqiqatçılarının apardıqları işlərin təqdirəlayiq olduğunu qeyd etməklə, həm də bəzən onların araşdırmalarında müəyyən qüsurlara yol verildiyini də vurğulamağa ehtiyac vardır. Məsələn, tədqiqatçılardan biri yazır: “*... 5 ildən sonra – 1971-ci ildə Əliağa Kürçaylı Yeseninin şeir və poemalarının tərcüməsindən ibarət ikinci kitabını ana dilində “Anna Sneqina” adı altında nəşr etdirir*” [283, s.13]. Əvvəla, onu qeyd edək ki, Əliağa Kürçaylı Yesenin poeziyasından tərcümələrinə aid ikinci kitabını 1971-ci ildə deyil, 1970-ci ildə şairin anadan olmasının 75 illiyi münasibətilə dərc etdirmişdir. İkincisi, həmin kitab “Anna Sneqina” adı altında deyil “Qadına məktub” adı ilə nəşr olunmuşdur [109]. Yesenin haqqında araşdırmalarda belə misalların sayını xeyli artırmaq olar. Nə üçün biz bu məqamlara xüsusi diqqət verərək qeyd etdik. Məsələ burasındadır ki, hər hansı bir mənbədə verilmiş məlumat sonrakı tədqiqatçılar üçün istinad mənbəyidir. Bir sıra tədqiqatçılar isə ümumiyyətlə, hər-hansı bir məqalə və ya kitabın üzünü görmədən, özündən əvvəlki müəyyən bir müəllif tərəfindən yanlış verilmiş istinadları təkrar edirlər və beləliklə də bu, daha da genişlənir və kütləviləşir və nəticədə zəncirvari, yanlış istinadlar əmələ gəlir ki, bu da faktların ciddi təhrif edilməsinə səbəb olur. Biz bu fikirləri nəzəriyyə olaraq söyləmədik. Dissertasiya üzərində işlədiyimiz dövrdə bir dənə də yazını gözümüzlə görməmiş, diqqətlə oxumamış həmin mənbəyə istinad etməmişik. Bu prosesdə yuxarıda dediyimiz məsələ ilə bağlı xeyli neqativ məqamlara da rast gəlmişik. Yenə sadə bir misal: Şamil Qurbanovun “Yesenin və Azərbaycan” adlı məqaləsinə həm Əmirxan Xəlilov, həm də Pərvanə Məmmədova istinad etmişlər. Əmirxan Xəlilov mənbəni “Bakı” qəzeti, 4 dekabr 1977-ci il kimi [23, s.137], Pərvanə Məmmədova isə “Bakı” qəzeti, 1 dekabr 1974-cü il kimi [266, s.12] göstərmişdir. Müəlliflərin hər ikisində mənbə səhv verilmişdir. Məqalənin dərc edildiyi doğru mənbə isə belədir: “Bakı” qəzeti, 1 dekabr,

1977-ci il. Yeri gəlmişkən, elə həmin səhifədə Pərvanə Məmmədova Bəkir Nəbiyevin "Söz ürəkdən gələndə" məqaləsinin mənbəyini də yanlış göstərmişdir. Ümumiyyətlə, belə səhvlərin sayı həddindən artıqdır. Yuxarıda qeyd edildiyi kimi, istənilən mənbə sonrakı tədqiqatçılar üçün istinad mənbəyi olduğundan, araşdırıcılar tədqiqatçı məsuliyyətini yetərincə dərk etməli, yanlışlıqlara yol verməməli, bu məsələlərdə həddindən artıq diqqətli, həssas və dəqiq olmalıdırlar.

S.Yeseninin şeirləri arasında Azərbaycan dilinə ən çox tərcümə olunanları «До свиданья, друг мой, до свиданья» və «Прощай, Баку!.. » şeirləridir. «До свиданья, друг мой, до свиданья …» şeiri 16 mütərcim, «Прощай, Баку!..» şeiri isə 13 mütərcim tərəfindən dilimizə tərcümə edilmişdir. «До свиданья, друг мой, до свиданья» şeirinin ilk tərcüməsini Ş.Sadiq 1959-cu ildə, «Прощай, Баку!..» şeirini isə Ə.Ziyatay 1955-ci ildə dilimizdə səsləndirmişlər. Bundan sonra ən çox tərcümə olunan şeirlər sırasında «İran nəğmələri» silsiləsindən olan «Улеглась моя былая рана...», «Я спросил сегодня у менялы...», «Ты сказала, что Саади...», «В Хороссане есть такие двери...» və «Письмо матери» şeirləri gəlir. Bu şeirlərin hər biri 6 mütərcim tərəfindən dilimizə çevrilmişdir.

Yuxarıda adları çəkilən tərcüməçilər arasında Yesenin yaradıcılığına ən çox müraciət edən Əliağa Kürçaylıdır. O, ilk dəfə 1965-ci ildə Yeseninin anadan olmasının 70 illiyi münasibətilə onun şeirlərini Azərbaycan dilinə tərcümə edərək, ayrıca kitab şəklində nəşr etdirmişdir [112]. Sonralar həmin kitab, başqa tərcümələr də əlavə edilməklə, Əliağa Kürçaylının sağlığında yenidən 2 dəfə işıq üzü görmüş [109; 113], onun ölümündən sonra isə bir dəfə də 2006-cı ildə çap olunmuşdur [114]. Qeyd edək ki, Əliağa Kürçaylı Yeseninin Azərbaycan dilinə tərcümə olunmuş yuxarıda göstərilən 124 əsərindən 108-ni tərcümə etmişdir. Eyni zamanda o, bu 108 şeirdən 61-nin yeganə tərcüməçisidir. Əliağa Kürçüylının tərcümə etmədiyi 16 şeir isə aşağıdakı müəlliflər tərəfindən tərcümə edilmişdir: Murad Qudyalçaylı – 1 şeir, Firuz Mustafa – 1 şeir, Eyvaz Borçalı – 3 şeir, Qoca Xalid – 3 şeir, İsaxan İsaxanlı – 3 şeir, Rüfət İsayev – 1 şeir, Əlizadə Nuri – 3 şeir və yerdə qalan 1 şeir isə 3 müəllif – Anar, Səyavuş Məmmədzadə və Eyvaz Borçalı tərəfindən tərcümə edilmişdir. Əlbəttə, Yesenin yaradıcılığı kökündə rus milli mədəniyyətinə, fəlsəfəsinə, və ədəbi

ənənələrinə söykəndiyindən onu tərcümə etmək də asan deyildir. Bunu Yesenindən tərcümə etmiş tərcüməçilərin əksəriyyəti qeyd etmişlər. Məhz Yesenin poeziyasının bu incəliklərini nəzərdə tutan böyük avar şairi Rəsul Həmzətov onu "ən tərcüməolunmaz şair" adlandırmışdır [246, s.199].

Azərbaycanda Yesenin poeziyasının ən populyar mütərcimi Ə.Kürçaylı da Yesenin poeziyasının tərcüməyə çətin yatdığından danışmışdır: "*Yesenin ən çox oxunan, həm də məhəbbətlə oxunan şairlərdəndir. O, həm də ən çətin tərcümə olunan şairlərdəndir. Bu, məncə, Yeseninin çox koloritli, özünəməxsus poeziyaya malik olmasından irəli gəlir. Mən onun azəri dilində çıxan ilk kitabının tərcüməçisi kimi, bu çətinliyi tərcümə prosesində, demək olar ki, hər misrada, hər sözdə və fikirdə hiss etmişəm*" [112, s.8]. Bütün bu çətinliklərə baxmayaraq Yesenin əsərlərinin mütərcimlərindən ən çox tərifli sözə layiq olan da məhz Ə.Kürçaylıdır. Onun Yesenindən çevirmələrinə yüksək dəyər vermiş akad. B.Nəbiyev yazmışdır ki, Ə.Kürçaylı hər Yesenin tərcümələrində öz ustalığını mükəmməlləşdirir. Orijinalın ideya-bədii xüsusiyyətlərini oxucuya çatdırmaq üçün böyük yaradıcı gərginliklə işləməklə, bu sahədə uğurlar əldə edir [70]. Təxminən eyni fikirləri Şamil Qurbanov da Ə.Kürçaylı tərcümələri ilə bağlı söyləməklə, onun tərcümələrinin yüksək poetik keyfiyyət və orijinala yaxınlığı ilə seçildiyini qeyd etmişdir [59].

Ə.Kürçaylının tərcümə yaradıcılığına ayrıca dissertasiya işi həsr etmiş Ş.Mahmudova yazır: "*Ə.Kürçaylı ... poetik tərcümə ustası kimi şöhrət qazanmış sənətkardır. O, gözəl tərcümələri ilə Azərbaycan ədəbiyyatında tərcüməçilik işini qüvvətləndirmişdir... Onun tərcüməçilik işini öyrənmək Azərbaycan tərcümə sənətinin çox vacib problemlərinin həllini vermək deməkdir*" [60, s.4-5].

Azərbaycan tərcümə nəzəriyyəsi məktəbinin tanınmış nümayəndəsi, bu sahədə bir sıra nəzəri, tarixi və praktik problemlərə monoqrafiyalar həsr etmiş prof. F.Vəlixanova da Ə.Kürçaylının S.Yesenin əsərlərinin tərcümələrinə böyük dəyər verməklə aşağıdakıları qeyd etmişdir: "*Sergey Yesenin və Əliağa Kürçaylı kimi iki şairin yaradıcılığındakı ruh yaxınlığı və lirik başlanğıc tərcüməçi – Kürçaylıya şeirin Azərbaycan dilində Yeseninsayağı səslənməsini yaratmağa kömək etdi... onun Yesenindən etdiyi tərcümələr Azərbaycan ədəbiyyatını nəzərəçarpacaq dərəcədə*

zənginləşdirmişdir" [135, s.45]. Əlbəttə, Ə.Kürçaylı tərcümələri haqqında belə tərifli fikirlərin söylənilməsi bizim də nəzəri konsepsiyamızın xarakter və mahiyyətinə uyğundur. Prof. N.Məmmədov qeyd etdiyi kimi "*Bədii tərcümənin mühüm şərti adekvatlığın əldə olunmasıdır və mütərcim bu keyfiyyəti tərcümə prosesində daim orijinala orientasiyalı olduqda əldə edə bilər*" [262, s.7].

Beləliklə, tərcüməçilik fəaliyyətini, əsasən, Yesenin poeziyası üstündə kökləyən Ə.Kürçaylı, A.Tolstoyun "böyük qəlb xəzinəsi" adlandırdığı bu sehirli poeziyadan tərcümələr edə-edə nəinki tərcüməçilk ustalığını artırır, həm də onun özü bir lirik şair kimi püxtələşirdi. Xalq şairi N.Həsənzadə yazır: "*Böyük şairlər, yazıçılar olur ki, onlar tərcümə elədikcə sanki poetika təhsili alırlar, yetişirlər, zənginləşirlər və yeni bir ilhamla öz əsərlərini yazırlar. B.Pasternak, S.Marşak – Şekspir məktəbini; Puşkin, Lermontov – Bayron məktəbini; S.Vurğun – Nizami və Puşkin məktəbini; Ə.Cavad – Şekspir və Ş.Rustaveli məktəbini keçdikləri kimi*" [16]. Bu mənada, Yesenin poeziyasının bir sıra şairlərimizin orijinal yaradıcılığına müsbət təsirindən də danışa bilərik və xüsusi halda, əminliklə deyə bilərik ki, Əliağa Kürçaylı Yesenin məktəbi keçmişdir. Təsadüfi deyil ki, o, məhz Yesenini özünün "poeziya müəllimi" adlandırırdı.

S.Yesenin poeziyasının Ə.Kürçaylı tərcümələrində orijinalın Azərbaycan oxucularına adekvat çatdırılmasından danışdıqda, biz heç də digər mütərcimlərin bu sahədəki işlərinin rolunu azaltmaq fikrində deyilik və qeyd etmək istəyirik ki, bəzən ayrı-ayrı şeirlərin tərcüməsində müxtəlif mütərcimlər orijinala daha yaxın olmağı bacarmış, şeirlərin dilimizdə daha poetik səslənməsinə nail olmuşlar. Heç şübhəsiz, burada tərcümə üçün nəzərdə tutulan əsərlə mütərcimin fərdi hazırlığı, tərcümə etdiyi mədəniyyətə bələdliyi, həm tərcümə olunan, həm də orijinal dilin sirlərinə dərindən yiyələnmə kimi məsələlər həmişə diqqət mərkəzinə çəkilməli və tərcümələrin uğur qazanmasında əsas məqamlar kimi qiymətləndirilməlidir. Əlbəttə, tərcümə yaradıcı sənətdir və mütərcim də bu işə yaradıcı yanaşır. Amma bu yaradıcılıq orijinal müəllifi ilə mütərcim arasında daxili, mənəvi, ruhi yaxınlığa söykənməsə, arzu olunan nəticənin əldə olunması çox çətin olar. Ə.Kürçaylı tərcümələrinin yuxarıdakı təhlilləri bizi məhz belə bir fikir ortaya qoymağa sövq etdi.

Hələ XX əsrin 60-cı illərində V.Oqnev yazırdı: "*Özgə" "özününkü" olmadan mənimsənilə bilməz. Mənim içimə özgədən o şey dərindən daxil olur ki, mənim daxilimdə məlum analogiya tapmış, o, məndə əvvəl məlum olan vərdişə, mənimkinə, bizimkinə oxşayır. Bu da məhz tərcümə sənətinin mühüm cəhətlərindən biridir. Tərcümə "ümumi dil"in mövcudluğu zamanı mümkündür*" [285, s.206].

Ə.Kürçaylı Yesenindən tərcümələrində məhz V.Oqnevin dediyi "ümumi dil"i tapa bilmışdır. O, bir tərəfdən, istedadlı mütərcim kimi orijinala sadiqlik nümayiş etdirirsə, digər tərəfdən, tərcümə etdiyi dilin xüsusiyyətlərini maksimum nəzərə almaqla çevirməyə üstünlük verir və nəticədə, uğurlu yaradıcı tərcümə əsəri yaratmağa müvəffəq olur.

S.Yesenin poeziyasının çətin tərcümə olunan bir poeziya olması ilə bağlı fikirləri araşdırarkən R.Novruzovun da belə bir mülahizəsi diqqətimizi cəlb etdi: "*Orijinalın mətni zəngin olduqca, arzu olunan nəticəni əldə etmək də çətindir. Tərcümə olunan şairin bütün mükəmməlliyinin yaradılmasında, şübhəsiz, çətinlik törədən bədii obrazlar və poetik rənglərlə zəngin S.Yesenin poeziyası məhz bu kateqoriyaya aiddir*" [281, s.12].

S.Yeseninin orijinal poetik fikir sahibi olduğunu böyük şairimiz S.Vurğun da daxil olmaqla, müxtəlif dövrlərdə bir sıra tanınmış şair və yazıçılarımız da qeyd etmişlər. Bunlara misal olaraq S.Rüstəm, M.Araz, N.Həsənzadə, İ.İsmayılzadə, M.Rahim, N.Xəzri, Ə.Kürçaylı, S.Məmmədzadə, C.Novruz, N.Kəsəmənli, A.Vəfalı, K.Abdulla və başqalarının adlarını göstərmək olar. Xalq şairi Nəbi Xəzri Yeseninin "sirli olduğu qədər aydın, aydın olduğu qədər möcüzəli" bir misrasına – «Тихо розы бегут по полям» misrasına bütöv bir məqalə həsr etmişdir [28]. Təsadüfi deyildir ki, S.Vurğun 1955-ci ildə Sovet Yazıçılarının İkinci Ümumittifaq Qurultayında etdiyi məruzəsində o dövrün ən böyük şairləri – D.Bednı, V.Bryusov, V.Mayakovski və A.Blokla yanaşı Yeseninin də adını çəkmişdir [83, s.319]. S.Vurğun Yesenin şeirlərini çox sevirdi. Bununla bağlı Mustafa Topçubaşovun xatirələrindən bir məqamı diqqət mərkəzinə çəkək: "*Səmədin operasiya xəbərini eşidən kimi təcili Moskvaya uçdum... Səmədin yanında olmağım ona yaxşı təsir göstərirdi... Ən əsas vəzifəm Səmədə qiraətçiliyim idi. Onun xahişi ilə Füzulidən, Firdovsidən, Puşkindən,*

Hötedən, Lermontovdan, Yesenindən, aşıq yaradıcılığından şeirlər oxuyurdum... Bir dəfə Yesenindən oxudum. Maraqla qulaq asdı və yuxuya getdi. Qalxanda belə bir yuxu danışdı: "Yesenin yatağa düşdüyümü eşidib, mənə baş çəkməyə gəlmişdi. Xeyli oturdu, şeir oxudu. Deyəsən, "Əlvida, Bakı!" şeirini. Söhbətinin çoxunu unutmuşam. Gedəndə dedi ki, dəfələrlə Moskvaya gəlmisiniz, burada, heç olmasa, bir ağcaqayın basdırmısınızmı? Rusiyanın ağcaqayın meşələri onsuz da çoxdur. Bəs "Vurğun ağcaqayını"?.. Hər gələndə təxirə salırsınız. Ömrə çox da bel bağlamayın, bu dəfə mütləq əkin" [80, s.129]. Yeri gəlmişkən, X.R.Ulutürk bir xatirəsində Adelina Adalisin, həyata baxış məsələlərində, S.Vurğunu Yeseninə bənzətdiyini yazır [81, s.153].

Bütün bu qeyd etdiklərimiz bir daha təsdiqləyir ki, S.Yeseninin şəxsiyyəti və yaradıcılığı həm onu tərcümə edən mütərcimlərin, həm də şair, yazıçı, alim və tədqiqatçıların köməyi ilə Azərbaycan oxucularına, Azərbaycan ədəbi ictimaiyyətinə yaxından tanıdılmış və bu, Azərbaycan-rus ədəbi-mədəni əlaqələrinin inkişafına nəzərəçarpacaq dərəcədə təsir göstərmişdir. Bu əlaqələrin müxtəlif tərəfləri S.Turabovun, Ə.Xəlilovun, P.Məmmədovanın, R.Novruzovun, G.Qurbanovanın, Y.Quluzadənin və digər çoxsaylı tədqiqatçıların dissertasiya, monoqrafiya və məqalələrində işıqlandırıldığından burada məsələnin üzərində geniş dayanmayacağıq. Bununla belə, dissertasiyanın sonrakı səhifələrində, yeri gəldikcə, Yesenindən tərcümələrin ədəbi əlaqələrimizin inkişafına, Azərbaycan tərcüməçilik məktəbinin formalaşmasına necə təsir etdiyindən danışacaq, bu əlaqələrin bəzi maraqlı məqamları haqqında mülahizələr irəli sürəcəyik.

4.2. "Əlvida, Bakı!" şeiri və onun Azərbaycan dilinə tərcümələrində milli və yerli koloritin saxlanılması

Yeseninin V.Boldovkinə həsr etdiyi məşhur «Əlvida, Bakı!» şeiri onun Bakını tərk etdiyi gün – "Бакинский рабочий" qəzetinin 25 may 1925-ci il tarixli 115-ci sayında dərc edilmişdir [172]. V.Boldovkin həmin günü belə xatırlayır: "*Serqey "Əlvida, Bakı!"nı oxumağa başladı və məni möhkəm-möhkəm öpdü.*

– *Yaxşı, mən bunu* (“Əlvida, Bakı!” şeirini – İ.İ.) *sənə həsr edirəm. Amma heyif ki, Moskvaya birlikdə getmirik. Həmin gecə Serqey hamını heyran etmişdi. Gecəni işıqlaşana kimi dördümüz* (Yesenin, Çaqin, Boldovkin və mətbəə işçisi Kaçurin – İ.İ.) *bir yerdə olduq. Və mən bütün işlərimi atıb Serqeylə Moskvaya getmək qərarına gəldim… O gecə Serqey müstəsna bir əhvali-ruhiyyədə idi. Dilindən bədahətən çoxlu şeirlər süzülürdü. O, çox sevinirdi ki, məni özü ilə birlikdə Moskvaya getməyə razı salmışdı...*

1925-ci il, may ayının 25-i, səhər. Bakı – Moskva qatarı saat 13-00-da yola düşür... Xüsusi bir rahatlıq hiss edirəm – vaqondayıq, baş bələdçinin fiti eşidilir, parovoz uğuldayır, qatar yavaş-yavaş perrondan uzaqlaşır. Serqey əl eyləyənlərə cavab verir:

– *“Əlvida, Bakı*!” [131, s.89-90].

Əslində, bu şeir V.İ. Boldovkinə həsr edilsə də, şeirdə təsvir edilən “dost” obrazı V.Boldovkin yox, P.Çaqindir. Şeirin axırdan ikinci misrası («Чтоб голова его, как роза золотая») buna bariz sübutdur. Həyatda V.Boldovkinin yox, məhz P.Çaqinin saçları sarışın, daha doğrusu, qızılı rəngə çalmışdır.

“Əlvida, Bakı!” şeiri “Əlvida, ey dostum, əlvida artıq” şeirindən sonra Yeseninin Azərbaycan dilinə sayca ən çox tərcümə edilən ikinci şeiridir. Bu şeir 13 müəllif tərəfindən tərcümə edilmişdir. “Əlvida, Bakı!” şeirinə Azərbaycan mütərcimlərinin çoxsaylı müraciəti yalnız bu şeirin populyarlığından deyil, həm də şeirdəki səmimilikdən, axıcılıqdan, müəllifin buradakı saxta olmayan qəlb çırpıntılarından, onun Bakı ilə bağlı emosional halından və təbii ki, böyük rus şairinin doğma şəhərimizə olan sevgi dolu münasibətindən irəli gəlir. Şeirin Azərbaycan dilinə tərcüməsindən bəhs edən ilk yazılı mənbələrdə [23, s.69; 282, s.306] şeiri birinci dəfə Rəfiq Zəkanın tərcümə etdiyi qeyd edilir. Lakin tədqiqatçılar bu şeirin Rəfiq Zəkadan 9 il əvvəl Ələkbər Ziyatay tərəfindən tərcüməsinin varlığını unutmuşlar. Ələkbər Ziyatay 1955-ci ildə Yeseninin anadan olmasının 60 illiyi münasibətilə “Əlvida, Bakı!” şeirini tərcümə etmiş və həmin şeir “Rus şairləri Azərbaycan haqqında” adlı tərcümələr toplusunda çap olunmuşdur [73, s.34-35].

“Əlvida, Bakı!” şeirinin ilk tərcüməsinin Ələkbər Ziyataya məxsus olduğunu birinci dəfə Pərvanə Məmmədova qeyd etmişdir [266, s.70-71].

“Əlvida, Bakı!” şeirinin Azərbaycan dilinə tərcümələri ilə bağlı bir məqamı da diqqətə çatdırmaq istəyirik. “Bakı yeseninşünaslığı” məqaləsində Q.Şipulina yazır. “*Azərbaycan tənqidində Sergey Yeseninin əsərlərinin Azərbaycan dilinə tərcümələrinin tədqiq olunduğu bir neçə iş var. Sonunculardan biri B.Pərvanənin* (Pərvanə Məmmədova – İ.İ.) *«Прощай, Баку!..» Azərbaycan dilində»* [291] *məqaləsidir ki, burada şeirin dörd tərcüməsi təhlil olunur. Doğrudur, qeyd etmək lazımdır ki, şeirin dörd yox, beş tərcüməsi nəşr olunmuşdur, amma zaman etibarı ilə ikinci olan Fikrət Sadığın 1959-cu ildə etdiyi tərcümə, nədənsə, məqalə müəllifinin diqqətindən yayınmışdır*” [370, s.321].

Burada bir dəqiqləşməyə ehtiyac var. Məsələ burasındadır ki, Fikrət Sadıq “Əlvida, Bakı!” şeirini tərcümə etməmişdir. 1959-cu ildəki tərcüməyə gəlincə isə qeyd edək ki, bu, Fikrət Sadıq yox, Ş.Sadiqin tərcüməsidir. Üstəlik, həmin tərcümə “Əlvida, Bakı!” şeirinin yox, “Əlvida, ey dostum, əlvida artıq” şeirinin tərcüməsidir. Sadəcə olaraq, müəllif həmin tərcüməni “Əlvida” adı altında oxuculara təqdim etmişdir [99]. Görünür, məhz şeirin adı məqalə müəllifini bir qədər çaşdırdığından o, “Əlvida, ey dostum, əlvida artıq” şeirinin tərcüməsini “Əlvida, Bakı!” şeirinin tərcüməsi kimi başa düşmüş və nəticədə, belə bir yanlış fikir irəli sürülmüşdür.

“Əlvida, Bakı!” şeiri 13 müəllif – Ələkbər Ziyatay (1955), Rəfiq Zəka (1964), Əhməd Cəmil (1974), Əliağa Kürçaylı (1975), Səlim Babullaoğlu (1991) Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eldar Nəsibli Sibirel (2006), İsaxan İsaxanlı (2009), Hamlet İsaxanlı (2010), Eyvaz Borçalı (2010), Rüfət İsayev (2013) və Əlizadə Nuri (2016) tərəfindən tərcümə edilmişdir.

Beləliklə, “Əlvida, Bakı!” şeiri Azərbaycan oxucularına müxtəlif vaxtlarda müxtəlif mütərcimlər tərəfindən müxtəlif interpretasiyalarda təqdim edilmişdir. İndi şeirin orijinalını müxtəlif tərcümələrlə tutuşdurub, onların ən adekvatını müəyyənləşdirməyə çalışaq. Orijinal:

Прощай, Баку! Тебя я не увижу.
Теперь в душе печаль, теперь в душе испуг.

И сердце под рукой теперь, больней и ближе,
И чувствую сильней простое слово: друг.

Прощай, Баку! Синь тюркская, прощай!
Хладеет кровь, ослабевают силы.
Но донесу, как счастье, до могилы
И волны Каспия, и балаханский май.

Прощай, Баку! Прощай, как песнь простая!
В последний раз я друга обниму…
Чтоб голова его, как роза золотая,
Кивала нежно мне в сиреневом дыму [195, s.223].

Şeirin ilk tərcüməsi Ə.Ziyataya məxsusdur:

Əziz Bakı, əlvida! Son görüşdür, əlvida!
Bir həyəcan, bir kədər könlümü etmiş vətən.
Ürəyim narahatdır bu ayrılıq çağında,
Adi dostluq sözünü hiss edirəm dərindən.

Ey Azər övladının yurd-yuvası, əlvida!
Damarımda qan donur, gücdən düşür qollarım.
Ən xoş anlarım kimi çıxmaz yadımdan amma,
Xəzər dalğalarıyla, Balaxanı baharı.

Salamat qal, ey Bakı! Sən sadə bir nəğməsən,
Son dəfə öz dostumu qoy bağrıma basım, qoy!
İstərəm yasəməni tüstülərin içindən
Qızıl gül tək başını üzümə tərpətsin o! [73, s.34-35].

Ə.Ziyatayın tərcüməsini, müəyyən mənada, uğurlu hesab etmək olar. Tərcüməçi şeirin ruhunu düzgün tuta bilmiş, ayrılıq anında müəllifin keçirdiyi hisləri tərcüməyə hopdura bilmiş, hətta bəzən bu hisləri xeyli gücləndirməyə də nail olmuşdur. Məsələn, birinci bəndin ikinci və üçüncü misralarının Azərbaycan oxucusuna "Bir həyəcan, bir kədər könlümü etmiş vətən / Ürəyim narahatdır bu ayrılıq çağında" kimi çatdırılmasında, orijinaldakı söz və ifadələrlə sətri uyğunluq olmasa da, fikrimizcə, bu ifadə forması, ümumilikdə, orijinal müəllifinin içini göynədən ayrılıq kədərinin daha da gücləndirilməsinə xidmət etmişdir. Üçüncü bəndin birinci və ikinci misraları

da (“Salamat qal, ey Bakı! Sən sadə bir nəğməsən / Son dəfə öz dostumu qoy bağrıma basım, qoy!”), ümumilkdə Yeseninin poetik əhval-ruhiyyəsinə uyğundur.

Bəs tərcümənin bütünlükdə uğurlu olmasına nə mane olur?!

Orijinalda hər bənd vahid “Əlvida, Bakı!” ifadəsi ilə başlasa da, tərcümədə bu, hər dəfə başqa cür – “Əziz Bakı, əlvida!”, “Ey Azər övladının yurd-yuvası əlvida!”, “Salamat qal, ey Bakı!” verilir. Bu, orijinalla tərcümə arasında uyğunsuzluq yaradır, şeirin özünəməxsus formasını ciddi şəkildə pozur və səslənməsinə xələl gətirir. Qeyd edək ki, Ə.Ziyatay, Ə.Cəmil və Ə.Nuridən başqa bütün tərcüməçilər bu formanı, bu və ya digər şəkildə, saxlamağa nail olmuşlar.

Yesenin birinci bəndin dördüncü misrasında «друг» ifadəsini işlətdiyi halda, mütərcim həmin sözü “dostluq” ilə əvəzləyir.

Tərcüməçi orijinaldakı «Прощай, Баку! Синь тюркская, прощай!» misrasını “Ey Azər övladının yurd-yuvası, əlvida!” kimi tərcümə etmişdir. Öz-özlüyündə bunu müstəqil misra kimi uğursuz hesab etmək olmaz. Lakin bunun tərcümə olduğunu nəzərə alsaq, qeyd etməliyik ki, tərcümədə əks etdirilməsi vacib olan “Türk” ifadəsi, eləcə də “səma”, “göy”, “üfüq” kimi təbii bir ifadənin yer almaması uğursuzluq hesab edilməlidir. Yeseninin Bakını türklərin vətəni, Bakı səmasını türk səması kimi təsvir etməsi kifayət qədər cəsur bir addımdır və mütərcim də bu məqamı adekvat yaratmağa çalışmalı idi. Düşünürük ki, bu məqam bilərəkdən, siyasi düşüncələr baxımından, mütərcimin diqqətindən kənar qalmışdır. Bəndin ikinci misrasındakı «ослабевают силы» fikrinin “gücdən düşür qollarım” kimi verilməsi də uğursuz ifadə formasıdır. Şair, «ослабевают силы» yazmaqla, qollarının gücdən düşməsini ifadə etməmişdir, o, burada ümumilikdə, ayrılıq kədərindən halsızlaşdığını dilə gətirmişdir. Bənddəki «Но донесу, как счастье до могилы» misrasının tərcüməsində də nəinki kənarlaşma, hətta orijinala bir laqeydlik nəzərə çarpır. Yesenin faktik olaraq açıq-aydın şəkildə Bakıdan ayrılarkən olduqca bədbin hisslərə qapıldığını dilə gətirir və buradan aldığı təəssüratları məzara qədər aparacağını etiraf etdiyi halda, Ə.Ziyatay onu “Ən xoş anlarım kimi çıxmaz yadımdan amma” kim təsirsiz şəkildə verir.

İkinci bəndin son misrasında olan «балаханский май» ifadəsinin "Balaxanı baharı" kimi verilməsi də qənaətbəxş hesab edilə bilməz. Bahar ilin bir fəslidir, şeirdə isə söhbət, konkret olaraq may ayından, daha dəqiq desək, may ayının 1-dən gedir. Yuxarıda qeyd edildiyi kimi, "Əlvida, Bakı!" şeiri "Бакинский рабочий" qəzetinin 25 may 1925-ci il tarixli 115-ci sayında dərc edilmişdir. Artıq Yesenin iki aya yaxın idi ki, Bakıdaydı (O, Bakıya martın 30-da gəlmişdi). Yesenin Bakıda şox mehribanlıqla qarşılanmış, onun iştirakı ilə bir neçə şeir gecəsi keçirilmiş, şairlə müxtəlif görüşlər təşkil edilmişdi. Həmin səfərin ən yaddaqalan günlərindən biri 1 May günü idi. 1925-ci il mayın 1-də Yesenin bütün günü Balaxanı neftçiləri və onların ailə üzvləri arasında olmuş, onlara şeirlər oxumuş, onlarla birlikdə şənlənmişdir. Həmin gün sənədli film çəkilsə də, təəssüf ki, film saxlanmamışdır. Şeirdə «балаханский май» dedikdə, şair o günü nəzərdə tutur. Bir az irəliyə gedərək qeyd edək ki, ümumiyyətlə, yuxarıda adı çəkilən tərcüməçilərdən heç biri şairin «балаханский май» ifadəsini yazarkən məhz "1 May" gününü nəzərdə tutduğunu "kəşf edə" bilməmişdir. Qeyd etmək istəyirik ki, biz bu fikri, yeri gəlmişkən söylədik, bunu mütərcimlərə irad tutmaq fikrindən uzağıq. Tanınmış amerikalı şair-tərcüməçi H.Longfellow qeyd edir ki, "*Tərcüməçinin işi müəllifin dediyini çatdırmaqdır, onun nə demək istədiyini izah etmək deyil. Bu, şərh edənin işidir. Müəllif nə deyir və necə deyir, tərcüməçinin əsas problemi budur*" [387, s.76]. Amma, istənilən halda, belə məqamların açılması, bunun tərcümədə verilməsi halı da, öz növbəsində, məzmuna lazımsız müdaxilə kimi deyil, əksinə mütərcimin orijinalın məzmununa daha dərindən nüfuz etməsi kimi qəbul edilməli, müsbət hal kimi qarşılanmalıdır. Hətta, tanınmış argentinalı publisist, şair, tərcüməçi Luis Borxes Asevedo öz tərcüməçilərinə deyirdi: "*Dediyimi yox, demək istədiyimi tərcümə edin*" [79].

Yuxarıda qeyd etdiyimiz kimi, üçüncü bəndin ilk iki misrası xeyli uğurlu tərcümə edilsə də, 3-4-cü misraların tərcüməsini uğurlu hesab etmək çətindir. Orijinal müəllifinin kifayət qədər dəqiq «Чтоб голова его, как роза золотая / Кивала нежно мне в сиреневом дыму» arzusu mütərcimdə "İstərəm yasəməni tüstülərin içindən / Qızıl gül tək başını üzümə tərpətsin o!" kimi bir qədər qarışıq şəkildə təqdim olunur. "Qızıl gül tək başını üzümə tərpətsin o!" misrası sintaktik-üslubi baxımdan da

qüsurludur, mətnlə heç bir uyarlığı yoxdur və Azərbaycan dilində də kifayət qədər qeyri-təbii səslənir. Belə tərcümə bir tərəfdən, az da olsa, orijinalın mənasını dəyişdirir, digər tərəfdən, orijinala əlavə məna gətirir ki, buna isə Yesenin orijinalının heç bir ehtiyacı yoxdur.

Ə.Ziyataydan sonra şeiri R.Zəka tərcümə etmişdir:

Əlvida, ey Bakı, vəfalı şəhər!
Səni mən bir də görmədim, bəlkə!
Qəlbim eşqinlə çırpınar, döyünər,
Ey mənə mehriban olan ölkə!

Əlvida, ey Bakı, günəşli şəhər!
Ey şüalandıran fikirlərimi!
Mənə ilham verən səmavi Xəzər
Məni tərk eyləməz məzara kimi!

Əlvida, ey Bakı, gözəl mahnı!
Susuram səndən ayrılarkən mən.
Bir qızıl gül tək əy qızıl başını,
«Əlvida! Əıvida!» deyək sən, mən... [87].

R.Zəkanın tərcüməsində orijinalın birinci misrası iki misrada ifadə edilmiş, orijinaldakı digər üç misradan isə əsər-əlamət yoxdur. Belə ki, mütərcim orijinaldakı «Теперь в душе печаль, теперь в душе испуг / И сердце под рукой теперь, больней и ближе / И чувствую сильней простое слово: друг» kimi açıq şəkildə, böyük ürək yanğısı ilə ifadə edilmiş kədərli ayrılıq notunu "Qəlbim eşqinlə çırpınar, döyünər / Ey mənə mehriban olan ölkə!" kimi quru, poetiklikdən uzaq, orijinala yad bir şəkildə təqdim etmişdir. Buradan açıq-aşkar görünür ki, tərcüməçi orijinaldakı ruhu tuta bilməmiş, şairin ayrılıq anında hiss etdiyi o dərin kədəri və ürək döyüntülərini duya bilməmişdir. Yuxarıda biz Ə.Ziyatay tərcüməsindən danışarkən mütərcimin Yeseninin Bakı və dostu ilə ayrılıq anındakı dərin kədəri və ürək ağrılarını necə uğurla çevirdiyindən danışmışdıq. R.Zəka isə orijinalı tamamilə bayağılaşdırmışdır.

Tərcümədə sonrakı bənddə də yanlışlıqlara meydan verilir və orijinaldakı «Прощай, Баку! Синь тюркская, прощай!» / Хладеет кровь, ослабевают силы»

misraları yenə qeyri-dəqiq, sönük, saxta intonasiyalarla "Əlvida, ey Bakı, günəşli şəhər! / Ey şüalandıran fikirlərimi!" şəklində verilir ki, bunun da kimi isə razı salacağı ağılasığmazdır. Buradakı "Ey şüalandıran fikirlərimi!" misrasının haradan meydana gəlməsi xeyli düşündürür. Görünür, tərcüməçi orijinaldakı «синь» sözünü «сияние» ("nur saçma", "işıq saçma", "şölə") sözü ilə qarışdırmış və ona görə də fikir qeyri-dəqiq tərcümə edilmişdir. Bəs "günəşli şəhər" ifadəsi haradan götürülmüşdür və onun mətnə nə aidiyyəti var?! Həmin misraların hər ikisinin sonunda mütərcim nida işarəsi qoymaqla, misralara xüsusi şövq, intonasiya gətirmək istəsə də, orijinal mətndən gələn məna və vüsət tamamilə təhrif olunmuşdur. Digər tərəfdən, ikinci bənddə orijinaldakı «балаханский май» ifadəsi də tərcümə zamanı tamamilə diqqətdən kənarda qalmışdır.

Şeirin sonuncu bəndinin tərcüməsi isə, ümumiyyətlə, təəssüf doğurur. Orijinaldakı «В последний раз я друга обниму / Чтоб голова его, как роза золотая / Кивала нежно мне в сиреневом дыму» misralarını mütərcim "Susaram səndən ayrılarkən mən / Bir qızıl gül tək əy qızıl başını / "Əlvida! Əlvida!" deyək sən, mən…" kimi bəsit və cansız şəkildə çevirir.

Tərcümə mətni üzərində apardığımız müşahidələrə əsaslanaraq, belə bir fikir irəli sürmək olar ki, əgər bu tərcümədən "Əlvida, ey Bakı!" ifadəsini götürsək, onun Yeseninin məşhur şeirinin tərcüməsi olduğunu anlamaq son dərəcə çətin olar. Əlbəttə, tərcümə işi həm də yaradıcılıqdır, burada da müəyyən dərəcədə sərbəstliyə meydan var. Bu məqamda, hətta, İ.Semenkonun böyük tərcümə ustası V.Jukovski haqqında dediyi bir fikri yada salmaq maraqlı olar: "*Jukovskinin əlavələri çox vaxt o qədər gözəl olur ki, təəssüf edirsən ki, nə üçün bu, orijinalda yoxdur*" [310, s.15]. Amma, hər şeyin bir ölçüsü, sərhəddi olmalıdır. Sərbəstlik ölçüdən çıxanda, özbaşnalığa keçəndə, üstəlik, bü süni yaradıcılıq orijinaldakı özünəməxsusluğu, gözəlliyi, poeziyanı məhv edəndə, tərcüməşünaslıq sahəsində tanınmış gürcü mütəxəssis A.Abuaşvilinin dediyi kimi, "üsyan qaldırmaq" lazımdır [118, s.75].

"Əlvida, Bakı!" şeirinin R.Zəka, Ə.Cəmil və Ə.Kürçaylı tərcümələrini qısaca dəyərləndirən R.Novruzov yazır: "*O* (R.Zəka – İ.İ.), *tez-tez orijinaldan kənarlaşır, onun tərcüməsində hər yerdə müəllifin deyil, tərcüməçinin özünün üslubu görünür.*

Burda V.Q.Belinskinin sözlərini xatırlamaq yerinə düşür: "Tərcümədə biz əsərin tərcüməçisini yox, müəllifini görməliyik" [282, s.307] .

R.Zəkanın bu tərcüməsi haqqında Ə.Xəlilov haqlı olaraq yazır: "*Orijinaldakı "ürək sancması" isə R.Zəkada tamam əks mənada, həm də qeyri-poetik tərcümə olunmuşdur: "Qəlbim eşqinlə çırpınar, döyünər". Buradan göründüyü kimi, "ürəyin sancması" hara, "eşqlə döyünməsi" hara? Bu cür təhriflər isə R.Zəkanın tərcüməsində çoxdur. Bu tərcümədə şeir heç bir ehtiyac olmadan "sən, mən, səni məni" sözləri ilə yüklənmişdir. Başlıcası isə budur ki, burada Yesenin duyulmamış, onun fikirləri, qəlb çırpıntıları çox saxta ifadə olunmuşdur. Bu tərcümənin zəifliyi digər tərcümələrlə müqayisədə daha aşkar görünür. Burada "şimal fırçasının" rəsm etdiyi Şərq boyaları öz ruhu, paklığı və təbiiliyi ilə ifadə olunmamışdır. Tərcümə ən mühüm yaradıcılıq sahəsidir. Bu, hər hansı müəllifdən daha böyük yaradıcılıq məsuliyyəti tələb edir. Çünki bu, orijinalda yazan sənətkarın öz naməlum tərcüməçisinə əmanətidir. Əmanətə isə xəyanət olmamalıdır*" [23, s.71].

P.Məmmədova isə öz əsərində R.Zəkanın tərcüməsini yenidən, sətri olaraq rus dilinə tərcümə edir və belə nəticəyə gəlir: "*Hətta tərcümənin orijinalla səthi tutuşdurulması onun qeyri-qənaətbəxş olduğunu göstərir. Tərcümədə bir misra, bir beyt belə yoxdur ki, orijinalda onun analoqunu tapıb deyə biləsən: «Bəli, bu, müəllifdən gəlir, şeirin əslindən gəlir... Nəticə olaraq qeyd edək ki, ümumilikdə bu tərcümə istər forma, istər məzmun, istərsə də müəllif üslubunun verilməsi baxımından qeyri-qənaətbəxşdir*" [266, s.74]. Tərcümə məsələsinə, mütərcim vəzifələrinə məhz bu müstəvidən baxan Y.Mineralov mütərcim qarşısında xüsusi tələblər qoyurdu: "… *mətni öz milli ədəbiyyatının canlı obrazları və bədii assosiasiyalarının köməyi ilə danışmağa məcbur etmək. Əks təqdirdə oxucu ilə estetik "ünsiyyət" baş tutmayacaqdır*" [272, s.253]. Hesab edirik ki, R.Zəkanın bu tərcüməsində, yuxarıda adını çəkdiyimiz mütəxəssisin nəzərdə tutduğu "estetik ünsiyyət", ümumiyyətlə, alınmamışdır.

Şeirin üçüncü tərcüməsi Ə.Cəmilə məxsusdur:

Əlvida, Bakı! Daha çətin bir də görüşək...
İndi könlümə dolan qorxudur, qəm-qüssədir.

İndi əlimin altda daha bərk sancır ürək,
İndi daha dərindən duyuram ki, dost nədir.

Əlvida, Bakı! Ey Şərq üfüqləri, əlvida!
İnan, qanım soyusa, taqətdən düşsəm də mən,
Apararam, gedəcək mənimlə ta qəbrəcən
Balaxanı mayı da, Xəzər dalğaları da.

Əlvida! Salamat qal nəğməli könül kimi!
Qoy mən son dəfə öpüm barı dostu, yoldaşı...
Bənövşəyi tüstüdə əyilsin qoy gül kimi
Dostun ugur diləyən, "yaxşı yol!" deyən başı [86].

Ə.Cəmil bu şeiri 1974-cü ildə tərcümə etnişdir. Göründüyü kimi, bu tərcümə ilə Ə.Ziyatayın tərcüməsi arasında 19 il, R.Zəkanın tərcüməsi arasında 10 illik zaman fərqi vardır. Əlbəttə, tərcümələrin hansı zaman kəsiyində yerinə yetirilməsindən asılı olaraq, ümumilikdə sonrakı tərcümənin heç də daim əvvəlkilərdən daha mükəmməl olduğu fikrini müdafiə etməsək də, bu halda Ə.Cəmil tərcüməsinin ilk iki tərcümədən (Ə.Ziyatay və R.Zəka) daha keyfiyyətli olduğunu qeyd etməyə ehtiyac duyuruq. Tərcüməçi orijinaldakı ruhu dərindən duya bilmiş, orijinala maksimum sadiqlik nümayiş etdirmiş, orijinaldakı poeziyanı, şeiriyyəti oxuculara tam çatdırmağa, orijinaldan gələn poetik vüsəti saxlamağa müvəffəq olmuş, şeirdə əsas məqamlar kimi, hər üç bəndin son beytlərini dəqiq və şairanə ifadə etmişdir.

R.Novruzov R.Zəka, Ə.Cəmil və Ə.Kürçaylının tərcümələrindən danışarkən, qeyd edir: "*Ə.Cəmilin tərcüməsi oxucu tərəfindən məhz tərcümə kimi qəbul edilir, çünki o, özünü şair kimi* (bu şeirin tərcüməsində - İ.İ.) *tam açа bilməmişdir. Hərfi dəqiqliyə yönəliklik müəllif poeziyasını zəiflətmişdir. Ə.Kürçaylı isə tərcümədə, özünü "şüşə altında" saxlamaqla, bizə Yesenin poeziyasını açır*" [282, s.307].

Ə. Xəlilov isə Ə.Cəmil və Ə.Kürçaylının tərcümələrini qısaca dəyərləndirərkən yazır: "*Ə.Cəmil göründüyü kimi, daha ilhamla və orijinalı daxilən duyaraq, yaşayaraq tərcümə etmişdir. Bizcə, burda hər hansı sözü yersiz və ya artıq hesab etmək mümkün deyil. Ə.Cəmil həm şeirin mənasını, həm də forma və sənətkarlıq cəhətlərini gözəl, canlı və təbii ifadə etmişdir. Xüsusən orijinalın ilk bəndinin son misraları Ə.Cəmildə olduqca səmimi və poetik verilmişdir*" [23, s.70-71].

Göründüyü kimi, adını çəkdiyimiz iki araşdırıcı "Əlvida, Bakı!" şeirinin tərcümələri haqqında tam bir-birinə əks fikirlər söyləyir. Bu da təbiidir. Çünki, hər araşdırıcı məsələyə öz daxili dünyasından baxır, qarşısındakı əsəri, ümumilikdə, özünün poeziyaya, tərcüməçilik sənətinə baxışı, münasibəti müstəvisində qiymətləndirir. Belə olan halda, baxışlar, münasibətlər müxtəlif olduğu kimi, dəyərləndirmələrin də müxtəlif olması təbii qarşılanmalıdır.

Biz isə öz növbəmizdə, nə Ə.Xəlilov, nə də R.Novruzovun fikirləri ilə tam razılaşmırıq. Yuxarıda da qeyd etdiyimiz kimi, hesab edirik ki, Ə.Cəmil öz tərcüməsində, R.Novruzovun fikirlərinin əksinə olaraq, orijinaldakı poeziyanı ustalıqla verməyə nail olmuşdur. Digər tərəfdən də, Ə.Xəlilovun fikirlərinin əksinə olaraq, bu tərcümədə də çatışmazlıqlar və ya zəif məqamlar var. Məsələn, ilk iki bənddə tərcüməçi "Əlvida, Bakı!" ifadəsini saxlasa da, üçüncü bənddə təkrardan imtina etməklə, orijinalın özünəməxsus forma və intonasiyasını pozmuşdur. İkinci bəndin birinci misrasındakı «Синь тюркская» ifadəsinin "Şərq üfüqləri" kimi çevrilməsinin hansısa bir poetik zərurətdən irəli gəldiyini söyləmək də çətindir. Biz orijinaldakı "Türk" ifadəsinin tərcümədə öz əksini tapmamasını, Ə.Ziyatayda olduğu kimi, mütərcimin siyasi baxışı və məsələyə siyasi cəhətdən ehtiyatla yanaşması ilə əlaqələndiririk. Bu məsələ ilə bağlı onu da qeyd edək ki, "Əlvida, Bakı!" şeirinin ilk 3 tərcüməsi (Ə.Ziyatay, R.Zəka, Ə.Cəmil) istisna olmaqla sonrakı bütün tərcümələrdə bu məqam, bu və ya digər formada "Türk" ifadəsi saxlanılmaqla verilmişdir: Ə.Kürçaylı "Əlvida, Bakı! Mavi türk səması, əlvida!"; S.Babullaoğlu "Əlvida, Bakı! Əlvida, ey türk məbədi, əlvida!"; K.Aslan "Əlvida, ey Bakı! Ey türk səması!"; F.Mustafa "Əlvida, türk göyü – əlvida, Bakı!"; E.N.Sibirel "Əlvida, Bakı! Doğma türk göyləri, əlvida!"; İ.İsaxanlı "Əlvida, Bakı! Sən ey mavi Türk səması, əlvida!"; H.İsaxanlı "Salamat qal, can Bakı! Göy türk yurdu, əlvida!"; E.Borçalı "Əlvida, Bakı! Mavi Türk diyarı, əlvida!"; R.İsayev "Əlvida, ey Bakı! Türkün səması!"; Ə.Nuri "Mavi türk səmalı Bakı, əlvida!".

İkinci bəndin son misrasında da heç bir yerdəyişməyə xüsusi ehtiyac yox idi. «И волны Каспия, и балаханский май» misrası orijinaldakı söz düzümü saxlanılmaqla, "Xəzər dalğaları da, Balaxanı mayı da" kimi verilə bilərdi. Üçüncü bəndin

birinci misrasında “əlvida” və “salamat qal” ifadələrinin bir yerdə verilməsi də, müəyyən mənada, arzu edilən hal deyil. Şeirin son misrasındakı «сиреневый дым» ifadəsini rahatca, özü də orijinala tam uyğun şəkildə, “yasəməni tüstü” kimi çevirmək mümkün olduğu halda, mütərcimin bunu “bənövşəyi tüstü” kimi verməsi də çətin başa düşülür.

Burada bir məsələni qeyd etmək istəyirik. P.Məmmədova Ə.Cəmilin tərcüməsinin son bəndini təhlil edərkən yazır: “*Orijinaldan görünür ki, söhbət Bakı mayından – yasəmənlərin çiçək açdığı dövrdən gedir. Beləliklə, aydındır ki, «сиреневый дым» rəngdən başqa, müəyyən metoforik və konkret astronomik zaman mənası da kəsb edir. Və belə transformasiya* (orijinaldakı «сиреневый дым» ifadəsinin tərcümədə «фиалковый дым» kimi verilməsi – İ. İ.) *yolverilməzdir, çünki yazın sonu (may ayı) bir az əvvəlki dövrlə (mart ayı), bənövşələrin çiçək açdığı dövrlə əvəz edilir*” [266, s.77]. Buradan açıq-aşkar görünür ki, P.Məmmədova «сиреневый дым» ifadəsini birbaşa yasəmən gülü ilə bağlayır. Bizim fikrimizcə, bu fikir nə qədər maraqlı olsa da, yanlışdır. Belə olan halda «сиреневый дым» ifadəsindəki «дым – tüstü» sözü, ifadəyə “metaforik don” geyindilrilsə belə, anlaşılmaz qalır. Fikrimizcə, Yesenin «сиреневый дым» yazarkən yasəmən güllərini deyil, neftin istehsalı zamanı borulardan çıxan, o zamankı Bakının (elə indiki Bakının da) rəmzi olan və sanki yasəmən rəngə çalan neft tüstüsünü və bunun nəticəsində əmələ gələn “dumanlı” havanı nəzərdə tutur. Dərin bənzətmə ustalığına qadir olan Yesenin Bakı ilə vida mənzərəsini məhz Bakının rəmzi olan neftin “yasəməni tüstüsü” fonunda təsvir edir.

Qeyd edək ki, bu məqam tərcümələrdə də müxtəlifliyin yaranmasına səbəb olmuşdur. Ə.Ziyatay və Ə.Cəmil «сиреневый дым» ifadəsini “yasəmən”ə deyil, məhz “tüstü”yə vurğu edərək tərcümə etmişlər, başqa sözlə, diqqəti yasəmənə deyil, tüstüyə yönəltmişlər. Onların tərcümələrindəki “yasəmən” və “bənövşə” isə yalnız tüstünün rənginə işarədir. Burada bir faktı qeyd etmək yerinə düşər ki, “İran nəğmələri” silsiləsinə daxil olan «Отчего луна так светит тускло» şeirində də Yesenin gecəni yasəmən rəngində təsvir edərək buna uyğun bir ifadə – «сиреневые ночи» ifadəsi işlətmişdir.

“Əlvida, Bakı!” şeirini Ə.Cəmildən sonra Ə.Kürçaylı dilimizə çevirmişdir:

Əlvida, Bakı! Səni mən bir daha görmərəm,
İndi mənim qəlbimdə kədər, qorxu səsi var.
Ürəyim daha yaxın, xəstəhal vurur bu dəm,
Daha möhkəm duyuram - sadə dost kəlməsi var.

Əlvida, Bakı! Mavi türk səması, əlvida!
Qüvvədən düşürəm mən, damarımda donur qan.
Mən bir səadət kimi aparram məzaracan
Balaxanı mayını, Xəzər dalğasını da.

Əlvida, Bakı! Sadə nəğmə kimi, əlvida!
Son dəfədir sıxıram sinəmə dostumu mən...
Onun başı qoy qızılgül kimi bu son anda
Yellənsin vida deyə yasəmənlər içindən [113, s.154].

Birinci bəndə ilk baxışda elə ciddi irad görünməsə də, diqqətlə nəzər saldıqda müəyyən uyğunsuzluqlar hiss olunur. Məsələn, orijinalda ilk iki bənddə cəmi bir dəfə “mən” sözü işlədildiyi halda (birinci misrada), tərcümənin ilk iki bəndində bu söz dörd dəfə yer alır (birinci bəndin ilk iki misrası və ikinci bəndin ikinci və üçüncü misraları) və heç şübhəsiz, bu, şeirdəki poeziyaya mənfi təsir göstərir. Digər tərəfdən, bu bənddə ikinci və dördüncü misralarda iki dəfə “var” ifadəsinin işlədilməsi də arzuolunan hal deyil. Qeyd edək ki, orijinalda, ümumiyyətlə, “var” kəlməsi işlədilməmişdir. Birinci bəndin ikinci misrasında (“İndi mənim qəlbimdə kədər, qorxu səsi var”) “səsi” əvəzinə, “hissi” sözünün işlədilməsi daha doğru olardı. Çünki insan kədəri, qorxunu, əsasən, eşitmir, hiss edir. Bəndin 3-cü misrasının («И сердце под рукой теперь, больней и ближе») “Ürəyim daha yaxın, xəstəhal vurur bu dəm” kimi tərcüməsi isə, ümumiyyətlə, uğurlu tapıntı hesab oluna bilməz. Belə ki, orijinaldakı «ближе» sözünün “yaxın” kimi hərfi tərcümə edilməsi misradakı şeiriyyəti öldürür. Əslində, şair, «ближе» deməklə, ürəyinin həyəcandan çırpındığını, şiddətlə vurduğunu, döyündüyünü ifadə etmişdir. Ümumiyyətlə, bu misra orijinaldakı kədəri ifadə etməkdə aciz görünür. Qeyd etdiyimiz bütün bu məqamlar bəndin, ümumilikdə, uğurlu alınmadığının göstəricisidir.

Yuxarıda qeyd etdiyimiz kimi, ikinci bəndin ikinci və üçüncü misralarında dalbadal "mən" sözünün işlədilməsi də (Qüvvədən düşürəm mən, damarımda donur qan" / Mən bir səadət kimi aparram məzaracan) bənddəki səslənməni xeyli zəiflətmişdir.

Bir məqamı da qeyd edək. Üçüncü bəndin üçüncü misrası – «Чтоб голова его, как роза золотая» Ə.Kürçaylı tərəfindən "Onun başı qoy qızılgül kimi bu son anda" şəklində çevrilir. Orijinalda «в последний раз» ifadəsinin üçüncü bəndin ikinci misrasında olduğunu («В последний раз я друга обниму…») və mütərcimin də bunu eyni yerdə, özü də kifayət qədər uğurla verdiyini ("Son dəfədir sıxıram sinəmə dostumu mən...") nəzərə alsaq, üçüncü misradakı "bu son anda" ifadəsinin qafiyə xatirinə təkrarçılıq olduğunu və süni şəkildə yenidən tərcümə mətninə pərçimləndiyini görməmək mümkün deyil və şeirin bu hissəsində mütərcimin uğursuzluğa uğradığını qəbul etməliyik. Buradakı "son dəfədir" və "bu son anda" ifadələri heç bir məntiqi əlaqələrlə birləşməmişdir və bu, orijinal bənddən gələn hissi-emosional mahiyyətə də mənfi təsir göstərir. Bəhs etdiyimiz bu bəndin dördüncü misrasında da müəllif uğur qazana bilməmişdir. Orijinaldakı «сиреневый дым» ifadəsi mütərcim tərəfindən yanlış anlaşılmış, uğursuz şəkildə "yasəmənlər"lə əvəzlənmiş, müəllifin "yasəməni tüstüsü" tərcümədə itirilmiş və beləliklə də şairin öz dostu ilə, Bakı ilə ayrılıq mənzərəsi "yasəməni tüstü" fonunda deyil, orijinaldan kənar, yasəmən gülü fonunda təsvir edilmişdir.

Bütün bunlarla yanaşı, Ə.Kürçaylının tərcüməsini əvvəlki üç tərcümədən fərqləndirən bir məqamı xüsusi qeyd etmək istəyirik. Əvvəlki tərcüməçilərdən fərqli olaraq Ə.Kürçaylı orijinaldakı «синь тюркская» ifadəsinin tərcüməsində "Azər övladının yurd-yuvası" (Ə.Ziyatay), "günəşli şəhər" (R.Zəka), "Şərq üfüqləri" (Ə.Cəmil) kimi ümumiləşdirilmiş ifadələrdən imtina etmiş və bu ifadəni, orijinala tam uyğun olaraq, cəsarətlə "mavi türk səması" kimi verə bilmişdir.

P.Məmmədova "Əlvida, Bakı!" şeirinin Ə.Kürçaylı tərcüməsinə yüksək qiymət verərək yazır: "*Ə.Kürçaylı tərcüməsi bəzi kiçik məqamlar nəzərə alınmazsa, bütün səviyyələrdə orijinalla müqayisələrə gəlir… Ə.Kürçaylı tərcüməsi sətirbəsətir orijinalla müqayisə oluna bilər. Müəllif tərəfindən orijinala qoyulmuş nə varsa, bu*

tərcümədə öz bədii əksini tapır. Xarakterik Yesenin intonasiyası, rus şairinin Bakıya müraciət etdiyi vida həyəcanı və onun poetik səmimiliyi – bütün bunların hamısı Ə.Kürçaylı tərcüməsində var. Bu, yüksək tərcümə sənəti nümunəsidir..." [266, s.78-79].

Biz isə, öz növbəmizdə, Ə.Kürçaylının "Əlvida, Bakı!" şeirinin tərcüməsi ilə bağlı adı çəkilən tədqiqatçı qədər optimist fikirdə olmasaq da, onun, ümumilikdə, şeirin ruhunu yaxşı duyaraq tərcümə etdiyini vurğulamaq istəyirik. Mütərcim şeiri müəllifin ayrılıq anında keçirdiyi hisləri dərindən duyaraq tərcümə etmiş, müəllifin ürək döyüntülərini, ayrılıq kədərini orijinala xeyli yaxın şəkildə verə bilmişdir. Bununla belə, yuxarıda qeyd etdiyimiz bir sıra məqamlar bu tərcümənin böyük uğur qazandığını söyləməyə, fikrimizcə, bir qədər mane olur.

"Əlvida, Bakı!" şeirinin sayca 5-ci tərcüməsi K.Aslana məxsusudur.

Əlvida, ey Bakı! Ayrılaq gərək,
Kədər var, qorxu var qəlbimdə indi.
Əlimin altında ağrıyır ürək,
Dostu qoyub getmək yaman çətindi.

Əlvida, ey Bakı! Ey türk səması!
Tükənir qüvvətim, buzlayır qanım.
Mənimlə məzara gedir, inanın,
Balaxanı mayı, Xəzər dalğası.

Əlvida, ey Bakı! Sadə nəğmə tək!
Son dəfə dostyana qoy qucum səni…
Qoy qızıl gülləri yelləsin külək,
Yasəmən baş əyib ötürsün məni [89, s.123].

K.Aslan Ə.Ziyatay, Ə.Cəmil və Ə.Kürçaylıdan fərqli olaraq, tərcüməni 14 hecalıqla yox, 11 hecalıqla etmişdir. İlk baxışda formal yaxınlığa imza atsa da, məzmun baxımdan K.Aslan orijinalın ruhundan uzaq düşmüşdür. Orijinalda – birinci bənddə Bakıdan ayrıldığı və bir də onu görməyəcəyi üçün şairin qəlbində bir kədər, bir qorxu var. Tərcümədə isə şair Bakı ilə sadəcə olaraq ayrılır, orijinaldakı bir də görüşməmək fikri burada öz əksini tapmır. Mütərcim "ey Bakı!" müraciəti ilə fikri

gücləndirməyə səy göstərsə də, nəticə istənilən kimi olmamışdır. Birinci bəndin son misrasında da tərcüməçi orijinaldakı fikri xeyli fərqli ifadə etmişdir.

İkinci bənddə tərcüməçi orijinaldakı mənanı və poeziyanı, müəyyən dərəcədə, saxlamağa müvəffəq olsa da burada da bizi qane etməyən bir məqamı qeyd edək. Bəndin üçüncü misrası ("Mənimlə məzara gedir, inanın") qeyri-dəqiq tərcümə edilməklə yanaşı, misradakı məna da xeyli dəyişmişdir. Tərcümədə, şair, sanki, ölməyə hazırlaşır. Burada "gedir" əvəzinə "gedər" yazmaqla bu uyğunsuzluğu sakitcə aradan qaldırmaq və misradakı poeziyanı xeyli gücləndirmək olardı: "Mənimlə məzara gedər, inanın".

Üçüncü bəndin tərcüməsini də, ümumilikdə, uğurlu hesab etmək mümkün deyil. Həmin bəndin ikinci misrasındakı «друг» sözünün "dostyana" kimi verilməsi bir az uğursuz seçimdir. Aydındır ki, burada tərcüməçi "dostyana" ifadəsini "dostcasına", "dost kimi" mənasında işlətmişdir, lakin "dostyana" sözü bu sözlərlə müqayisədə bir qədər zəif məna daşıyır. Bəndin son iki misrasının "Qoy qızıl gülləri yelləsin külək / Yasəmən baş əyib ötürsün məni" kimi tərcüməsi də tələbkar tədqiqatçını razı sala bilməz. Bu misralar, orijinaldakından tamamilə fərqli məna kəsb edir. Şairin arzusu məhz dostunun başını astaca, aramla tərpədərək onu yola salmasıdır. Amma tərcümədə onu baş əyib yola salan dostu yox, yasəmən gülüdür. Həqiqət naminə deyək ki, bu iki misra ayr-ayrılıqda kifayət qədər şairanə səslənir, oxucunun qəlbinə sarı yağ kimi yaxılır. Əgər bu beyt tərcümə deyil, orijinal bir beyt olsaydı, buradakı poeziyanı yalnız alqışlamaq olardı. Amma Yesenin belə deməyib. Üstəlik, son misradakı "ötürsün" ifadəsi də, fikrimizcə, vidalaşmaq mənasında bir qədər zəif təsir bağışlayır. Sanki şair çox uzaq məsafəyə - Moskvaya deyil, harasa yaxın bir yerə gedir.

K.Aslandan sonra bu şeiri F.Mustafa tərcümə etmişdir:

Səni görməyəcəm, əlvida, Bakı!
Qəlbimi sarıbdı kədər, qüssə-qəm.
Ürəyim köksümdən çıxacaq sanki,
Dostumsan – bu sözlər çıxır dilimdən.

Əlvida, türk göyü – əlvida, Bakı!
Ürəyim sonuncu anları sayır.

Qəbrəcən könlümdə qalacaq bil ki,
Xəzər ləpələri, Balaxan mayı.

Nəğmə tək, əlvida! Əlvida, Bakı!
Öpürəm mən gözü yaşlı dostumu.
Yasəmən tozunda qızıl gül kimi
Əyilir köksünə başı dostumun [107].

Tərcüməçi "Əlvida, Bakı!"nı, orijinalda olduğu kimi, hər bəndin birinci misrasının əvvəlində deyil, sonunda verməklə, şeirə özünəməxsus forma verməyə çalışsa da, şeirin intonasiyasına və ümumi səslənməsinə xələl gətirmişdir. Çünki bu tipli inversiyalar mətnin ekspressiyasını qətiyyən gücləndirmir, əksinə orijinaldan gələn təsiri aşağı salır. Bəndin ilk üç misrası kifayət qədər şairanə ifadə edilsə də, son misra ("Dostumsan – bu sözlər çıxır dilimdən") haqqında bunu demək olmaz. Misra xeyli fərqli mənada ifadə edilmişdir.

İkinci bənddəki «Хладеет кровь, ослабевают силы» misrasının "Ürəyim sonuncu anları sayır" kimi tərcümə edilməsi, fikrimizcə, həm məna, həm məzmun, həm də şeiriyyət baxımından zəifdir. K.Aslanın tərcüməsində ikinci bəndin üçüncü misrasında olduğu kumu ("Mənimlə məzara gedir, inanın"), bu misrada da ayrılıq deyil, ölüm qoxusu var. Bu misra orijinaldakı sözlərin hərfi tərcüməsi ilə daha təsirli verilə bilərdi. Orijinalın son misrasındakı «волна» sözü dilimizdə "dalğa" və "ləpə" mənalarına gəlsə də, onun "dalğa" kimi tərcüməsi daha effektiv təsir bağışlayır. Üstəlik, buradakı "Balaxanı" sözü, misradakı heca sayını pozmamaq xatirinə, "Balaxan" kimi verilmişdir ki, bu da qəbul edilə bilməz. "Balaxanı" konkret bir məkan adı, "Balaxan" isə adam adıdır.

Şeirin son misrasındakı «сиреневый дым» ifadəsinin tərcümədə, ümumiyyətlə, qeyri-müəyyən "yasəmən tozu" kimi verilməsi də anlaşılmazdır. Üstəlik, orijinalda şair, dostunun başını astaca tərpətməklə onu yola salmasını istəyir, arzulayır, tərcümədə isə bu istək arzu deyil, baş vermiş bir mənzərə kimi, "Əyilir köksünə başı dostumun" şəklində təqdim edilir.

V.Belinski, tərcümədə orijinal əsərin ruhunun mütərcim tərəfindən hiss edilməsini, tutulmasını tərcümənin uğur qazanmasında əsas şərt hesab edir: "*Bədii əsərlərin*

tərcüməsi üçün bircə qayda var – tərcümə olunan əsərin ruhunu vermək" [123, s.197]. Fikrimizcə, F.Mustafa "Əlvida, Bakı!" şeirinin tərcüməsində, V. Belinskinin dediyi bu ruhu verə bilməmişdir.

"Əlvida, Bakı!" şeirinin sayca 7-ci tərcüməsi E.N.Sibirel tərəfindən edilmişdir:

Əlvida, Bakı! Səni, bəlkə, görmədim yenə,
İndi könlüm kədərli, qəlbim səksəkəlidir.
Ürəyim də əlaltda xəstə olsa da, sənə
Sadəcə, dostum desəm, hər şeydən irəlidir.

Əlvida, Bakı! Doğma türk göyləri, əlvida!
Daha qanım soyuyur, daha gücüm yayınır.
Xoşbəxtlik tək aparram özümlə məzara da
Xəzərin dalğasını, Balaxanı mayını.

Əlvida, Bakı! Sadə nəğmə kimi, əlvida!
Sonuncu dəfə səni gəl, sıxım köksümə mən.
Dostum, qızılgül kimi qoy yellənsin başın da
Mənimlə vidalaşan yasəmənlər içindən [88].

Şeirin lap ilk misrasında mütərcim orijinal müəllifinin fikrini, məram və məqsədini doğru-dürüst qavramadığını nümayiş etdirir. Yesenin «Прощай, Баку! Тебя я не увижу» deməklə, Bakını bir daha görməyəcəyi haqqında qəti fikir yürütdüyü halda, mütərcim şairin bu fikrinə bir qədər şübhə ilə yanaşır və misranı "Əlvida, Bakı! Səni, bəlkə, görmədim yenə" kimi tərcümə edir. Orijinal mətndən gələn fikri nəzərə almasaq, mütərcimin "şübhə"sini əsaslı hesab etmək olar. Çünki Yesenin "Əlvida, Bakı!" yazsa da, Bakıdan ayrıla bilmir, iyul ayının 28-də nişanlısı S.A.Tolstaya ilə yenidən Bakıya gəlir və sentyabrın 3-nə qədər Bakıda olur. Bununla belə, tərcüməçi şeirin ikinci misrasındakı poetik kədəri («Теперь в душе печаль, теперь в душе испуг») xeyli maraqlı, "İndi könlüm kədərli, qəlbim səksəkəlidir" şəklində, şairanə ifadə etməyə müvəffəq olmuşdur. Orijinaldakı «И сердце под рукой теперь, больней и ближе» misrasının "Ürəyim də əlaltda xəstə olsa da" kimi tərcüməsi isə bizi qane etmir. Şairin ürəyi xəstə deyil, o, bu misrada, sadəcə, Bakıdan ayrılıq kədərini ifadə edir. Mütərcim isə tərcümədə mətnin səmərəsini zəiflədir, "əlaltda" ifadəsi «под рукой» ifadəsindən götürülsə də, özünün ifadə ekspressiyası

ilə poetikliyə xidmət etmir və orijinaldan gələn təsirlə müqayisədə aciz görünür. Bəndin dördüncü misrası da (“Sadəcə, dostum desəm, hər şeydən irəlidir”) tələbkar tədqiqatçını razı sala bilməz.

İkinci bəndin ikinci misrası (“Daha qanım soyuyur, daha gücüm yayınır”) da şeiriyyət baxımından xeyli zəifdir. Buradakı “daha gücüm yayınır” ifadısində bir qeyri-dəqiqlik özünü büruzə verir. Bəndin son misrasındakı «волны Каспия» orijinalda cəm halda işləndiyi halda mütərcim onu “Xəzərin dalğasını” kimi tərcümə edərək tək halda verir.

E.N.Sibirel də R.Zəka, Ə.Kürçaylı, K.Aslan, F.Mustafa kimi sonuncu bəndin üçüncü, dördüncü misralarını adekvat tərcümə etməyə müvəffəq ola bilmir. Burada «в сиреневом дыму» ifadəsi qeyri-adekvat “yasəmənlər içindən” kimi tərcümə olunmaqla, məna baxımından da qeyri-dəqiqliyə yol verilmişdir.

Şeirin növbəti tərcüməsi H.İsaxanlıya məxsusdur:

Salamat qal, can Bakı! Duydum hicran səsini,
Ruhumu sardı kədər, ruhumu sardı tələş.
Yaxşı duyuram indi sadə dost kəlməsini
Əlim ürəyimdədir, ağrı qəlbimə sirdaş.

Salamat qal, can Bakı! Göy türk yurdu, əlvida!
Qanım donur içimdə, indi gücüm bitəcək.
Xəzərin dalğası da, Balaxanı mayı da -
O sevdalar mənimlə ta qəbrədək gedəcək.

Salamat qal, can Bakı! Əlvida, saf nəğmətək!
Öpüb bağrıma basım dostumu qoy son anda.
Qızılgültək başını astaca tərpədərək
O, məni yola salsın yasəməni dumanda [42, s.82].

Biz, obyektiv səbəblərdən, burada H.İsaxanlının tərcüməsini təhlilə cəlb etmirik və bu işi digər mütəxəssislərin öhdəsinə buraxmağı daha məqbul hesab etdik.

Bundan sonra şeiri E.Borçalı tərcümə etmişdir:

Əlvida, Bakı! Daha görməyəcəm səni mən.
Kədər çöküb könlümə, qorxu keçir içimdən;
Əlim altda ürəyim didib tökür özünü
Daha bərk hiss edirəm mən indi dost sözünü.

Əlvida, Bakı! Mavi Türk diyarı, əlvida!
Tükənir canda taqət, soyuyur damarda qan.
Amma mənlə gedəcək mənə səadət olan
Xəzərin dalğası da, Balaxanı mayı da!

Əlvida, Bakı! Sadə bir nəğmətək əlvida!
Son dəfə can dostumu basaram bağrıma mən
Qızılgültək boy verib başını sallar o da
Yasəməni çalarlı tüstü-duman içindən [108, s.33].

Birinci bənd xeyli maraqlı tərcümə edilsə də, üçüncü misra bir qədər qeyri-təbii səslənir, çünki, "didib tökür özünü", ümumilikdə başa düşülən bir ifadə forması olsa da, bu ifadə dilimizdə ürəklə bağlı, demək olar ki, işlənmir. Onu da qeyd edək ki, bu bəndin tərcüməsində həm də orijinalın qafiyələnmə sistemi də pozulmuşdur. Belə ki, orijinalda "abab" sistemindən istifadə edilsə də, tərcümədə "aabb" sisteminə üstünlük verilmişdir. Bununla yanaşı, «Теперь в душе печаль, теперь в душе испуг» misrasını "Kədər çöküb könlümə, qorxu keçir içimdən" kimi tərcümə etməklə, mütərcim müvəffəqiyyət qazanır.

İkinci bəndin birinci misrasındakı "Türk diyarı" da uğurlu seçim deyil, burada orijinala yaxın "Türk səması" işlətməklə mütərcim daha böyük uğur qazanmış olardı. Buradakı «Хладеет кровь, ослабевают силы» misrasının "Tükənir canda taqət, soyuyur damarda qan" kimi tərcüməsini isə kifayəq qədər uğurlu hesab edirik. Amma üçüncü misranın uğursuz alınması şübhəsizdir. Burada "mənlə" və "mən" sözlərinin bir misraya "yerləşmədiyi" açıq-aydın görünür.

Üçüncü bəndin ilk iki misrası, "Əlvida, Bakı! Sadə bir nəğmətək əlvida! / Son dəfə can dostumu basaram bağrıma mən" kimi tərcüməsində, heç şübhəsiz, müəllifin kədərli, sarsıntılı ayrılıq anının möhürü yaxşı görünür. Amma bəndin üçüncü misrasında bir qeyri-təbiilik var. Orijinalda bu misranın məzmunu kifayət qədər aydın şəkildə ifadə edilsə də, tərcümədə misra xeyli ağır və qarışıq şəkildə verilmişdir. Digər tərcüməçilərlə müqayisədə orijinaldakı «сиреневый дым» ifadəsinin maraqlı şəkildə "Yasəməni çalarlı tüstü-duman" kimi ifadə edilməsinə baxmayaraq, məhz üçüncü misranın mənfi təsiri hesabına, ümumilkdə son bəndin tərcüməsinin o qədər də uğurlu alınmadığını qeyd etmək istəyirik.

Şeirin bir tərcüməsi də R.İsayev tərəfindən edilmişdir:

Əlvida, ey Bakı! Ayrılım gərək
Kədərdi, qorxudu qəlbimdə mənim.
Ayrılıq dərdindən sızlayır ürək,
İndi dost sözünün gücünü bildim.

Əlvida, ey Bakı! Türkün səması!
Donur qanım, azalır gücüm indi.
Məzara aparram özümlə sizi –
Balaxanı mayı, Xəzər dalğası.

Əlvida, ey Bakı! Həzin nəğmə kimi,
Dostum, qucaqlayım son dəfə səni.
Yellə sən başını qızılgül təki,
Yasəməni çəndə yola sal məni [50, s.91].

Şeir 11 hecalı misralarla, 6+5 ölçülü daxili tərkib-vurğu ilə tərcümə edilmişdir. Amma, bununla yanaşı, ikinci bəndin ikinci misrasında («Donur qanım, azalır gücüm indi») bu sistem pozulmuş, 6+5 ölçülü daxili tərkib-vurğu 4+7 daxili tərkib-vurğu ilə əvəz edilmişdir ki, bu da ritm, səslənmə baxımından bəndin tərcüməsini kifayət qədər zəiflətmişdir. Bütün bunlarla yanaşı, birinci bəndin son iki misrasının kifayət qədər maraqlı tərcümə olunduğunu da qeyd etməliyik: "Ayrılıq dərdindən sızlayır ürək / İndi dost sözünün gücünü bildim". Son bəndin birinci misrasında da ("Əlvida, ey Bakı! Həzin nəğmə kimi") ümumi sistemdən kənarlaşma var. Belə ki, tərcümədə misralar ümumilikdə 11 hecalıq olsa da, burada müəllif vəzni pozmuş, bu misrada 11 əvəzinə 12 heca əmələ gəlmiş və nəticədə səslənmə də xeyli zəifləmişdir. Burada heca sayını heç olmasa "kimi" əvəzinə "tək" sözü işlətməklə saxlamaq olardı. Yəqin ki, mütərcim bu halda birinci və üçüncü misrada "tək" və "təki" ifadələrinin əmələ gəməsini qafiyə baxımından məqbul hesab etməmişdir. Amma tərcümədə üstünlük verilmiş "kimi" və "təki" də həmqafiyə deyil. Hər halda bu məqam üzərində ciddi düşünülməliydi. Onu da qeyd edək ki, orijinalda şair, dostunun onu yola salmasını arzuladığı halda, tərcümədə bu, müəyyən bir əmr intonasiyası almışdır: "Yellə sən başını qızılgül təki / Yasəməni çəndə yola sal məni". Burada «дым» sözünün də qeyri-dəqiq "çən" kimi ifadə edilməsinə heç bir lüzum yox idi. Tərcümə prosesində

əvvəlki tərcümələrdə işlədilmiş ifadələrdən qaçmağa çalışmaq yox, ən uyğun sözü seçməyə çalışmaq daha doğru yoldur.

"Əlvida, Bakı!" şeirinin bu günə olan son tərcüməsi Ə.Nuriyə məxsusdur:

Əlvida, ey Bakı, bu da son görüş,
Könlümdə qorxu var, bir az da kədər.
Əlimin altında ağrıyan ürək
Səni hiss edirəm sadə, dost qədər.

Mavi türk səmalı Bakı, əlvida,
Qan donur damarda, ürək bayılır.
Məzara aparram xoşbəxtlik kimi,
Xəzər ləpəsini, Balaxanı mayını.

Sadə bir nəğməylə vidalaşantək,
Son dəfə sinəmə sıxıram səni.
Əyil qızılgültək köksümə sarı
Çəkim tüstüsünü o yasəmənin... [93]

Orijinalda hər bənd dəyişməz «Əlvida, Bakı!» kimi başlasa da tərcümədə bu forma ciddi şəkildə pozulmuşdur. Belə ki, ilk iki bənddə fərqli "Əlvida, ey Bakı" və "Mavi türk səmalı Bakı, əlvida" kimi ifadələrə rast gəlsək də üçüncü bənddə, ümumiyyətlə, Bakı ifadəsi işlədilmir.

Birinci bənd ümumilikdə qənaətbəxş tərcümə edilsə də, bəndin 3-cü misrası ("Əlimin altında ağrıyan ürək") ümumi ahəngi pozur, məna dəyişikliyinə səbəb olur. Orijinalda şair Bakıdan ayrılarkən sanki ən əziz dostundan ayrılır və buna görə də, ürəyi həyəcandan şiddətlə vurur, ağrıyır, tərcümədə isə şair Bakıya deyil, öz ürəyinə müraciət edir: Əlimin altında ağrıyan ürək / səni hiss edirəm sadə dost kimi. Halbuki, bu uyğunsuzluğu çox sadə yolla – üçüncü misrada "ağrıyan" əvəzinə "ağrıyır" yazmaqla aradan qaldırmaq olardı.

İkinci bəndin ikinci misrasındakı "ürək bayılır" ifadəsi poeziyadan çox uzaq səslənir və ümumiyyətlə, "bayılır" sözü poeziya kontekstində qətiyyən gözlənilən effekti vermir, şeirə bir danışıq ruhu gətirir. Üçüncü bəndin son iki misrası isə ümumiyyətlə, orijinaldan tamamilə fərqli məna kəsb edir. Üstəlik, burada da bir sıra tərcümələrdə olduğu kimi, «в сиреневом дыму» ifadəsi "Yasəmən tüstüsü" kimi

yanlış çalar almışdır. Onu da qeyd edək ki, bundan əvvəlki tərcümədə olduğu kimi şeir 11 hecalı misralarla, 6+5 ölçülü daxili tərkib-vurğu ilə tərcümə edilsə də, ikinci bəndin son misrasında (“Xəzər ləpəsini, Balaxanı mayını”) 13 heca alınmış, nəticədə 6+7 daxili tərkib vurğu şeirdəki səslənməni kifayət qədər zəiflətmişdir.

Beləliklə təhlilə cəlb etdiyimiz bəzi tərcümələrdə, o cümlədən R.Zəka, Ə.Kürçaylı, K.Aslan, F.Mustafa, E.N.Sibirel, Ə.Nurinin tərcümələrində biz mütərcimlərin bilərəkdən və ya bilməyərəkdən mətnə müdaxilə etdiklərinin və orijinalda təsvir olunanlara öz fərdi münasibətlərinin uğursuz nümayişinin şahidi oluruq. Bu, R.Zəkanın tərcüməsində, demək olar ki, bütünlükdə, digər tərcümələrdə isə bəzi məqamlarda, xüsusən də son bəndin son misralarında özünü daha açıq şəkildə büruzə verir.

Yeseninindən tərcümələrin oxucuya bütün incəliyilə çatdırılmsında əsas məqamlardan biri də orijinaldakı xitabların tərcümələrdə uyğun, adekvat şəkildə verilməsidir. Ümumiyyətlə, Yesenin poeziyasında müxtəlif xitablardan istifadə edilməsi haqda bundan əvvəlki paraqraflarda söhbət açmışdıq. Yeseninin şeirlərində insana müraciətlə bağlı xitablarla yanaşı olkələrə, şəhərlərə xitablar da geniş yer alır. Məsələn, şeirlərində Yesenin «О Русь, взмахни крылами» [195, s.109], «О Русь, малиновое поле» [195, s.83], «Гой ты, Русь, моя родная» [195, s.50] deyərək ana vətəni Rusiyaya müraciət edirsə, Bakıda olduğu müddətdə «Персия! Тебя ли покидаю?» [195, s.264], «Хороша ты, Персия, я знаю» [195, s.265] deyərək İrana, «Прощай, Баку!» [195, s.223] yazaraq, onu doğma Rusiya qədər bağrına basan, Bakıya müraciət edir.

“Əlvida, Bakı!” xitabı Ə.Ziyatayda üç müxtəlif şəkildə “Əziz Bakı, əlvida!”, “Ey Azər övladının yurd-yuvası, əlvida!”, “Salamat qal, ey Bakı!”; R.Zəkada hər üç halda “Əlvida, ey Bakı”; Ə.Cəmildə iki dəfə “Əlvida, Bakı!”, bir dəfə sadəcə “Əlvida!”; Ə.Kürçaylıda hər üç halda “Əlvida, Bakı!”; K.Aslanda hər üç halda “Əlvida, ey Bakı!”; F.Mustafada xitab hər üç halda misranın sonuna atılmaqla “əlvida, Bakı!”; E.N.Sibireldə hər üç halda “Əlvida, Bakı!”; H.İsaxanlıda hər üç halda “Salamat qal, can Bakı!”; E.Borçalıda hər üç halda “Əlvida, Bakı!”; R.İsayevdə hər üç halda “Əlvida, ey Bakı!”, Ə.Nuridə isə ilk iki bənddə fərqli (“Əlvida, ey Bakı”

və “Mavi türk səmalı Bakı, əlvida”) kimi verilsə də üçüncü bənddə ümumiyyətlə itirilmişdir.

Orijinalda hər üç halda “Əlvida, Bakı!” deyilsə də, ikinci və üçüncü bənddə “Əlvida” sözü bir də təkrarlanmaqla xitabdakı emosionallıq artır, ekspressivlik daha da güçlənir. Tərcümələrdə isə bu imkanlardan yalnız Ə.Ziyatay bir dəfə (“Əziz Bakı, əlvida! Son görüşdür, əlvida!”), Ə.Cəmil bir dəfə (“Əlvida, Bakı! Ey Şərq üfüqləri, əlvida!”), Ə.Kürçaylı iki dəfə (“Əlvida, Bakı! Mavi türk səması, əlvida!” və “Əlvida, Bakı! Sadə nəğmə kimi, əlvida!”); F. Mustafa iki dəfə (“Əlvida, türk göyü – əlvida, Bakı!” və “Nəğmə tək, əlvida! Əlvida, Bakı!”); E.N.Sibirel iki dəfə (“Əlvida, Bakı! Doğma türk göyləri, əlvida!” və “Əlvida, Bakı! Sadə nəğmə kimi, əlvida!”); H.İsaxanl iki dəfə (“Salamat qal, can Bakı! Göy türk yurdu, əlvida!” və “Salamat qal, can Bakı! Əlvida, saf nəğmətək!”); E.Borçalı iki dəfə (“Əlvida, Bakı! Mavi Türk diyarı, əlvida!” və “Əlvida, Bakı! Sadə bir nəğmətək əlvida!”) istifadə etmişlər. Digər tərcüməçilər (R.Zəka, K.Aslan, R.İsayev, Ə.Nuri) öz tərcümələrində bu məqamları nəzərə almamışlar. Əlbəttə, xitabların yerli-yersiz təkrar edilməsi heç də həmişə şeirdə emosionallığın artmasına, ekspressivliyin güclənməsinə xidmət etmir. Lakin yuxarıda qeyd etdiyimiz bütün hallarda xitabların təkrar edilməsi məhz buna xidmət etmişdir və mütərcimlərdən hər biri öz istəyinə müxtəlif səviyyədə nail ola bilmişlər.

Göründüyü kimi, “Əlvida, Bakı!” şeirinin tərcümələri zaman kəsiyi baxımından təxminən 60 illik bir dövrü (ilk tərcümə – 1955, son tərcümə – 2016) əhatə edir. İlk 4 tərcümə 20 il müddətində (1955-1975) edilsə də, bundan sonra 30 illik bir dövrdə (1975-2005), yalnız bir mütərcim – S.Babullaoğlu istisna olmaqla, bu şeirə müraciət edən olmamışdır. Qeyd etmək istəyirik ki, S.Babullaoğlunun özünün verdiyi məlumata görə o, bu şeiri 1991-ci ildə tərcümə etmişdir (“İşıq” qəzeti, Əli Bayramlı, 1991, 1 may). Lakin, həm Bakıda, həm də Əli Bayramlıda axtarışlarımıza baxmayaraq, adı çəkilən mənbəni, müəllifin özünün köməyi ilə də, əldə etmək mümkün olmadı və məhz bu səbəbdən də, tərcümənin mətni əlimizdə olsa da, biz həmin tərcüməni təhlilə cəlb etmədik və mənbəni də ədəbiyyat siyahısına daxil etmədik. Nəhayət, 2005-ci ildən etibarən, şairin anadan olmasının 110, 115 və 120 illiyi ərəfəsində Yesenin poeziyasına böyük həvəs göstərən bir sıra şair-tərcüməçilər

onun çoxsaylı şeirlərini, o cümlədən "Əlvida, Bakı!" şeirini tərcümə etmişlər. Şeirin mövcud 13 tərcüməsindən 6-sı (Ə.Ziyatay, Ə.Cəmil, Ə.Kürçaylı, E.N.Sibirel, H.İsaxanlı, E.Borçalı) 14 hecalı, 4-ü (K.Aslan, F.Mustafa, R.İsayev, Ə.Nuri) 11 hecalı, 1-i (İ.İsaxanlı) 16 hecalı misralarla, 1-i (R.Zəka) əruz, 1-i isə (S.Babullaoğlu) sərbəst vəzndə tərcümə edilmişdir. Yuxarıda apardığımız təhlillər və bu tərcümələrlə bağlı digər mütəxəssislərin fikri onu deməyə əsas verir ki, "Əlvida, Bakı!" şeirinin tərcüməsində 14 hecalı (və ya daha çox hecalı) misralar daha düzgün seçimdir, şeirin ruhuna daha uyğundur. Məhz bu halda şeirdəki ürək yanğısı, ayrılıq kədəri daha dəqiq, daha təsirli və daha şairanə verilə bilir. 11 hecalı tərcümələrdə isə bütün bu məqamları vermək üçün sanki bir "darlıq" hiss olunur, "heca çatışmazlığı", "söz çatışmazlığı" problemi yaranır. Biz bu fikri, ən azı, şeirin bu günə məlum olan tərcümə variantlarına dayanaraq söyləyirik. Burada təhlilə cəlb edilən tərcümələrin hər birində güclü və zəif məqamlara rast gəlinsə də, hesab edirik ki, 14 hecalı tərcümələrdən Ə.Ziyatay, Ə.Cəmil və Ə.Kürçaylının tərcümələri, 11 hecalı tərcümələrdən isə K.Aslanın tərcüməsi daha ürəyəyatımlıdır. Fərqləndirdiyimiz bu tərcümələrdən üçü (Ə.Ziyatay, Ə.Cəmil, Ə.Kürçaylı) müxtəlif vaxtlarda müxtəlif tədqiqatçılar tərəfindən təhlillərə cəlb edilmiş, onların səviyyəsi, müsbət və mənfi cəhətəri haqda fikirlər irəli sürülmüşdür. Yuxarıda qeyd etdiyimiz kimi, Ə.Cəmil və Ə.Kürçaylının tərcümələrini təhlil edən Ə.Xəlilov üstünlüyü Ə.Cəmilə, R.Novruzov isə Ə.Kürçaylıya vermişdir. P.Məmmədova isə Ə.Ziyatay, R.Zəka, Ə.Cəmil və Ə.Kürçaylının tərcümələrini əvvəlkilərlə müqayisədə daha geniş təhlil edərək dörd tərcümə arasında ikisini – Ə.Cəmil və Ə.Kürçaylının tərcümələrini fərqləndirir [266, s.79]. Bütün bunlarla yanaşı, yuxarıda apardığımız təhlil və müşahidələrə əsaslanaraq biz fərqləndirdiyimiz dörd tərcümə arasında da ən yaxşı hesab etdiyimiz birini seçmək niyyətindəyik.

Tərcümədə şeirin ayrı-ayrı elementlərinə, orijinal dilin xüsusiyyətlərinə, müəllifin üslubuna, şeirdə istifadə olunan bədii gücləndirmə vasitələrinə və bir sıra digər məqamlara əməl edilməsi, orijinala sadiqlik çox vacib olsa da, şeirin çevrildiyi dildə – azərbaycan dilində nə qədər təbii alınması ondan az vacib deyil və son məqamda məhz axıcılıq, şeiriyyət, poeziya, alınan şeirin öz ritmi, ahəngi, musiqisi ilə oxucunun

qəlbinə girə bilməsi, onun zövqünə sığal çəkməsi keyfiyyəti hər şeydən önə çəkilməlidir. Digər tərəfdən də tərcümə məhz Azərbaycan oxucusu üçün nəzərdə tutulduğundan, mütərcim bu dilin xüsusiyyətlərini, kaloritini qəti unutmamalı, onun imkanlarından geniş istifadə etməklə, mətnin dilimizdə axıcılığını, ürəyəyatımlılığını, onun, sanki orijinal dildə orijinal mətn kimi oxunmasını təmin etməlidir. Səməd Vurğun, Adalisin "Azərbaycan" şeirinin rus dilinə tərcüməsini yüksək qiymətləndirərkən yazırdı: "*...tərcümədə elə bir xüsusiyyət vardır ki, bu, mənim şeirimi rus şeiri kimi səsləndirir*" [82, s.272].

Müxtəlif dünya xalqlarının poeziyasından, xüsusən də gürcü dilindən çoxsaylı şairlər, o cümlədən, F.Çavçavadze, A.Tsereteli, V.Pşavela və başqalarının əsərlərini rus dilinə tərcümə etmiş, Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərini böyük ustalıqla ana dilinə çevirmiş şair, tərcüməçi Nikolay Zabolotski də bu məsələlərə böyük önəm verərək deyir: "*Tərcüməçi qarşısında tərəzinin iki gözü durur: birincisi orijinalın müəllifinə aiddir, ikincisi tərcümənin oxucusuna. Tərcümə o halda yaxşı olacaq ki, gözlərin tarazılığı pozulmayacaq*" [207, s.251]. Buraya onu da əlavə edək ki, mütərcim həmişə tərcümə etdiyi anda orijinal müəllifinin şeiri yazdığı andakı ruhunda olmalıdır, onun həmin anda keçirdiyi hissləri bütün varlığı ilə yaşamalıdır. Məsələn, Yeseninin "Anama məktub" şeirini tərcümə edərkən "gözlərin yaşarmazsa", uğursuzluğa məhkumsan.

Beləliklə, yuxarıda qeyd etdiyimiz əsas məqamlar baxımdan fərqləndirdiyimiz dörd tərcümə arasında Ə.Cəmilin tərcüməsini daha üstün, daha ürəyəyatımlı, daha poetik hesab edirik. Fikrimizcə, mütərcim orijinalın forma və məzmun əlaqələrini kifayət qədər yaxşı qoruyub saxlaya bilmiş, tərcümədəki ritm, intonasiya və harmoniya, ümumilikdə, oxucunun qəlbini, ruhunu oxşayır. Ə.Cəmil Yeseninin «ürəyinin qanı» ilə yazdığı bu şeiri oxşar ürək yanğısı ilə, orijinalın ümumi ruhunu, orijinaldakı ayrılıq kədərini dərindən duyaraq ustalıqla tərcümə etmiş, ekspressiv-bədii ifadə vasitələrinin köməyi ilə şeirdəki poeziyanı maksimum dərəcədə saxlamağa nail olmuş və nəticədə, Yesenin və Bakı adına layiq orijinal bir tərcümə nümunəsi yaratmağa müvəffəq olmuşdur.

4.3. “Əlvida, ey dostum, əlvida artıq!” şeiri və onun Azərbaycan dilinə tərcümə variantlarının müqayisəli təhlili

“Əlvida, ey dostum, əlvida artıq” şeiri Yeseninin qələmindən çıxan son poetik şedevr olaraq öz müxtəsərliyi və həyatla vidalaşmaqda olan bir insanın son kədər hisslərini ifadə edən bir şeir kimi diqqəti cəlb edir. Yeseninin əsərlərindən az qala hər birinin öz taleyi, öz tarixçəsi olduğu, hər bir şeirin onun həyatının bir epizodu olduğu məlumdur. Təsadüfi deyil ki, 1925-ci ilin oktyabrında yazdığı tərcümeyi-halında öz həyat tarixçəsini təsvir edən şair sonda deyir: “*Avtobioqrafik məlumatların qalanına gəlincə, onlar mənim şeirlərimdədir*” [199, s.20].

“Əlvida, ey dostum, əlvida artıq” şeiri də bu baxımdan parlaq nümunədir. Şeirin yazılma tarixçəsi belədir: 1925-ci il dekabrın 23-də Yesenin Moskvadan Leninqrada gedir və “Anqleter” otelində yerləşir. Burada o, vaxtını, əsasən, Leninqradlı dostlarının (V.İ.Erlix, Q.F.Ustinov, E.A.Ustinova, N.Klyuyev və s.) əhatəsində keçirir. E.A.Ustinova xatırlayır: “*27-də* (dekabr ayının 27-də – İ.İ.) *onun yanına getdim. O, mənə sol əlini göstərdi. Biləyində üç dərin olmayan kəsik vardı. Serqey Aleksandroviç şikayət etdi ki, bu yaramaz oteldə mürəkkəb də yoxdur və mən bu gün səhər qanla yazmalı oldum. Tezliklə şair Erlix gəldi. Serqey Aleksandroviç stola yaxınlaşdı, səhər qanla yazdığı şeiri bloknotdan cırdı və Erlixin pencəyinin iç cibinə qoydu. Erlix əlini cibinə salmaq istədi, amma Yesenin onu dayandırdı: “Sonra oxuyarsan, lazım deyil*” [344, s.357].

Həmin mənzərəni V.İ.Erlix belə təsvir edir**:** “*Yazı stolunun yanında dururuq. Yesenin, Ustinova və mən... O dedi: – Həə, Liza xala, bir qulaq as, bu, biabırçılıqdır. Belə də şey olar, oteldə mürəkkəb olmasın? Başa düşürsən? Şeir yazmaq istəyirəm, mürəkkəb yoxdur. Axtardım, axtardım, elə də tapa bilmədim. Bax gör nə etmişəm. O, köynəyinin qolunu yuxarı çəkdi və əlini göstərdi: Kəsik. Hay-küy qalxdı. Ustinova əməlli-başlı hirsləndi: – Serqunka! Sənə son dəfə deyirəm. Bir də belə zarafatı təkrar etsən, artiq biz tanış deyilik.*

– Liza xala, mən də sənə deyirəm, əgər mənim mürəkkəbim olmasa, yenə əlimi kəsəcəyəm. Mən mühasib deyiləm ki, işi sabaha saxlayım... Yesenin stola sarı əyilir,

bloknotdan bir vərəq cırır və uzaqdan göstərir: Şeirdir. Kağızı dörd yerə bükür və mənim pencəyimin cibinə qoyur: – Sənə. Ustinova oxumaq istəyir.

– Yox, gözlə, tək qalar, oxuyar" [382, s.352].

Beləliklə, Yesenin gözünü dünyaya əbədi yumduğu gün səhər bu şeiri öz qanı ilə yazır. Şeir Yeseninin ölümünün səhəri gün – dekabrın 29-da Leninqradda çıxan "Красная газета"nın axşam buraxılışında dərc edilmişdi [343]. Şeirin orijinal əlyazması hazırda Moskvada A.S.Puşkin adına Rus Ədəbiyyatı İnstitutunun arxivində saxlanılır. Bəzi araşdırıcılar bu şeirin qanla yazılması faktını şübhə altına alsalar da, Yeseninin qanla yazmaq kimi bir adətinin olduğunu qəbul etmək məcburiyyətindəyik. N.A.Tabidzenin xatirələrinə nəzər salaq: "*Yeseninin "Strana sovetskaya" kitabı çıxanda* (Bu kitab 1925-ci ilin yanvarında Tiflisdə çıxmışdır – İ.İ,) *o, kitabın üzərində öz qanı ilə "məni və mavi buynuzları sev"* ("Mavi buynuzlar" – «голубые роги» Gürcüstan şairlərinin 1916-1930-cu illərdə fəaliyyət göstərmiş ədəbi qruplaşmasının adıdır. Bu qruplaşmaya P.Yaşvili, T.Tabidze, Q.Leonidze və s. gürcü şairləri daxil idi - İ.İ.) *sözlərini yazaraq kitabı mənə hədiyyə etdi. Təəssüf ki, bu kitabı məndən oğurladılar*" [321, s.198]. Yeseninin bu şeiri qanla yazdığını qəbul etmək istəməyənlər, görünür, N.Tabidzenin xatirələrindəki bu məqamı diqqətdən qaçırmışlar. Digər tərəfdən, bu şeirin məhz Yesenin tərəfindən, özü də qanla yazılması faktını ekspertiza sübuta yetirmişdir [315, s.59, s.159].

Ümumiyyətlə, bu şeirlə, onun ünvanının kimliyi ilə bağlı müxtəlif vaxtlarda fərqli fikirlər yaranmışdır. Bəzi iddialara görə, şeirin müəllifi Yesenin deyil, şeirdə Yeseninin xətti saxtalaşdırılmışdır. Bəziləri şeirin qanla yazılmasını uydurma hesab edirlər. Şairin "dost" deyə müraciət etdiyi şəxsin kimliyi isə bu şeirdə kifayət qədər suallar doğuran məqamlardandır. Şeirin Yeseninin dostları hesab edilən V.İ.Erlix, N.Klyuyev, V.Manuylov və V.Katayevə həsr edilməsi kimi versiyalar mövcuddur. Eyni zamanda, bu şeirin şairin həyatında mühüm rol oynayan Z.Rayx və Q.Benislavskayaya, eləcə də Yeseninin uşaqlıq dostu Panfilova həsr edildiyini yazanlar var. Bütün bunlarla yanaşı, bu şeirin konkret olaraq kiməsə həsr edilmədiyi, şeirdəki dost obrazının ümumiləşdirilmiş bir obraz olması versiyası da irəli sürül-

müşdür. Bütün bunlar və şeir haqqında digər maraqlı məlumatlarla 2015-ci ildə buraxılmış «Yesenin ensiklopediyası» kitabında tanış oluruq [206, s.212-218].

Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, pedaqoji elmlər doktoru T.Karatıqina yeni və maraqlı bir versiya irəli sürmüşdür. Onun fikrinə görə, bu şeir nə V.İ.Erlixə, nə də Yeseninin sevdiyi hər hansı bir qadına deyil, şairin bakılı dostu P.İ.Çaqinə həsr edilmişdir. "*... Belə fikir yürütmək olar ki, Yesenin həyatının son saatlarında özünün "Əlvida, ey dostum, əlvida artıq" şeirində də məhz bakılı dostuna* (P.Çaqin – İ.İ.) *müraciət etmişdir. Ona* (Yeseninə – İ.İ.) *"Anqleter" otelində baş çəkən və indi ədəbiyyatşünaslar tərəfindən onun ölümündə vasitəçilər kimi qəbul edilən, digər şəxslərlə bərabər, Erlix də onun yaxın dostları sırasına daxil deyildi. Qadınlara isə Yesenin öz əsərlərində çox nadir hallarda "dost" sözü ilə müraciət etmişdir. O, qadınlara, əsasən, ya "əzizim", "sevgilim" deyə, ya da öz adları ilə müraciət edirdi*" [231, s.33]. Daha sonra tədqiqatçı Yeseninin "Əlvida, Bakı!" və "Əlvida, ey dostum, əlvida artıq" şeirlərinin birinci bəndini müqayisə edərək, onlar arasında bağlılığın və üslüb yaxınlığının olduğunu qeyd edir. Əlbəttə, maraqlı və xüsusən də, Azərbaycan müstəvisindən baxanda, cəzbedici versiyadır. Lakin hansı versiyanın doğru, hansının səhv olduğunu isbat etmək mümkün deyil və burada yalnız "məntiqi ehtimallara" söykənmək qalır. Odur ki, bu şeirin kimə həsr edilməsi məsələsi bu gün də mütəxəssislər arasında müzakirə mövzusudur.

Cəmi iki bənddən ibarət olan, ilk baxışda sadə bir şeir təsiri bağışlayan, amma əslində kifayət qədər mürəkkəb hislərin ifadəçisi olan "Əlvida, ey dostum, əlvida artıq" şeiri öz orijinallığı, sənətkarlıq səviyyəsi, insanın həyata vida hisslərinin son dərəcə ustalıqla ifadə edilməsi və özünün lirik təsiri baxımından Azərbaycan mütərcimlərinin maraq dairəsinə düşmüş, digər şeirlərlə müqayisədə, onların diqqətini daha çox cəlb etmişdir.

"Əlvida, ey dostum, əlvida artıq" şeiri orijinalda belədir:

До свиданья, друг мой, до свиданья.
Милый мой, ты у меня в груди.
Предназначенное расставанье
Обещает встречу впереди.

До свиданья, друг мой, без руки, без слова,
Не грусти и не печаль бровей, —
В этой жизни умирать не ново,
Но и жить, конечно, не новей [197, s.244].

Bu şeir Yeseninin Azərbaycan dilinə ən çox tərcümə edilən şeiridir. Şeir 16 müəllif – Ş.Sadiq (1959), Ə.Kürçaylı (1965, 1970, 1975), Anar (1973), N.Kəsəmənli (1974), M.Qarayev (1994, 2008), K.Aslan (2005), F.Mustafa (2005), E.N.Sibirel (2006), E.Borçalı (2006, 2010), İ.İsaxanlı (2009), Q.Paçxataşvili (2010), F.Qoca (2010), H.İsaxanlı (2010), Ə.R.Xələfli (2010), R.İsayev (2013), T.Kərimli (2017) tərəfindən tərcümə edilmişdir.

Yeseninin poetik dilinin sadəliyi, xəlqiliyi, milli ruhu, öz poeziyasında poetik ifadə vasitələrindən, bənzətmələrdən, metaforalardan geniş istifadə etməsi onun poeziyasının oxucular tərəfindən sevilməsində nə qədər böyük rol oynayırsa, şeirlərinin başqa dilə çevrilməsində, bu zaman şeiriyyətin və şeirin ruhunun saxlanılmasında bir o qədər çətinliklər yaradır.

Professor A.Hacıyev sənətkar dilinin zənginliyini nəzərdə tutarkən aşağıdakıları qeyd etmişdir: "*Dil zənginliyi yazıçının elmi-nəzəri hazırlığından, bədii-estetik zövqünün genişliyindən, onun təcrübəsindən, dünyagörüşündən və xalq həyatına nə dərəcədə yaxın olmasından asılıdır*" [12, s.169]. Doğrudan da, S.Yeseninin poetik sistemində ritm, qafiyə, intonasiyanın aparıcı rol oynaması, eləcə də, şairin yaradıcılığına məxsus, yuxarıda qeyd etdiyimiz xüsusiyyətlər, onun əsərlərinin digər dillərə tərcümələrində bir sıra real çətinliklər yaradır. Burada heç də yalnız sadaladığımız elementləri yox, həm də ümumilikdə poetik mətnin məzmun və formasını, onun bütün poetikasını saxlamaq, daha doğrusu, tərcümə olunan ikinci dildə bütün bunları ustalıqla yaratmaq zəruridir. Əlbəttə, nəzəriyyəçilər çoxdan sübut etmişlər ki, orijinala daha yaxın tərcümələr yaxşı səslənir və səslənmə ürəyəyatımlıdırsa, bu da orijinala yaxınlıqdan irəli gəlir. Lakin tərcümə nəzəriyyəsində bu da mövcuddur ki, orijinala həddindən artıq yaxınlaşma istəyi, müəyyən mənada, tərcüməni poetiklikdən uzaqlaşdıra bilir. Bu, sözsüz ki, arzuedilməz haldır və tərcüməçinin orijinaldakı ruhu, şeiriyyəti tuta bilməməsindən və bütün bunları quru söz

oyununa qurban verməsindən irəli gəlir. Üstəlik, tərcümə prosesində nəinki tərcümə edilən şeirin ruhunun nəzərə alınması, eləcə də onun müəllifinin də ruhunun, xarakterinin nəzərə alınması kimi məsələlər də tərcümənin uğurlu alınmasına təsir edə biləcək faktorlardan hesab edilməlidir. Bu, xüsusən də eyni mütərcimin müxtəlif şairlərdən tərcümələri zamanı özünü bariz şəkildə göstərə bilər. Bütün bunlar, güclü milli ruh daşıyıcısı kimi şöhrət qazanmış S.Yeseninin şeirlərinin, xüsusi halda, onun "Əlvida, ey dostum, əlvida artıq" şeirinin tərcüməsinə həddindən artıq həssaslıqla yanaşmaqla, tərcüməçidən böyük ustalıq tələb edir.

İlk dəfə bu şeirin tərcümələrinin təhlilinə R.Novruzov cəhd göstərmişdir [282, s.301-304]. Lakin tədqiqatçı təhlilə ötəri toxunmuş, adını çəksə də, Ş.Sadiqin tərcüməsi haqqında heç bir fikir söyləmədən ümumi nəticə çıxarmışdır. Bundan sonra Ə.Xəlilov şeirin tərcümələrini təhlil etmişdir [23, s.71-72]. Tədqiqatçı həmin dövrə məlum olan beş tərcümədən yalnız ikisini (Ş.Sadiq və Ə.Kürçaylının tərcümələri) təhlilə cəlb etməklə kifayətlənmiş, Anar [90], N.Kəsəmənli [97] və M.Qarayevin [96] tərcümələrinin adı belə çəkilməmişdir. Üstəlik, təhlillər nəticəsində, tədqiqatçı heç bir praktik və ya nəzəri ümumiləşdirmələr etməyə də səy göstərməmişdir. Bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, Ə.Xəlilovun adını çəkdiyimiz monoqrafiyası öz layiqli qiymətini almış, A.Hacıyev tərəfindən, Yeseninin Bakı dövrü yaradıcılığının mühüm konturlarını yaradan əsər kimi, yüksək qiymətləndirilmişdir [13].

Tərcümələrin nisbətən geniş təhlilini P.Məmmədova vermişdir [266, s.37-45]. Bununla belə, P.Məmmədova da şeirin həmin dövrə məlum olan beş tərcümə variantından dördünü təhlil etsə də, M.Qarayevin tərcüməsi [96] unudulmuşdur. Qeyd edək ki, P.Məmmədovanın təhlilinin özündə də toxunulmamış və fikrimizcə, yanlış bir sıra məqamlar var ki, yeri gəldikcə, həmin məqamlara da münasibət bildirəcək, tərcümələrin orijinalla müqayisəli təhlili zamanı həmin məqamları obyektiv şəkildə işıqlandırmağa çalışacağıq.

Şeir cəmi iki bənddir və şeirin əsas məqamları hər bəndin son beytləridir. Şübhəsiz ki, bu məqamları oxucuya daha yaxşı çatdıran tərcümələr daha uğurlu hesab edilməlidir. Digər tərəfdən, hər şeyi iki beytin yedəyinə bağlamaq da doğru olmaz. Odur ki, bütün tərcümə boyu orijinala yaxın olmaqla, poetik səslənməyə nail olmaq

və son beytlərdəki fikri daha dəqiq və şairanə ifadə etmək bacarığı bu şeirin tərcüməsində uğurun açarıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, "Əlvida, ey dostum, əlvida artıq" şeirinin ilk tərcüməsi Ş.Sadiqə məxsusdur (bizə qədərki digər müəlliflər kimi, təəssüf ki, biz də bu istedadlı mütərcimin adını dəqiqləşdirə bilmədik).

İndi isə mövcud tərcümələrin təhlilinə keçək və ilk olaraq, Ş.Sadiqin tərcüməsinə nəzər salaq:

Əlvida, ey dostum, bir də əlvida,
Səni gəzdirərəm ürəyimdə mən.
İnan, qarşıdakı bu ayrılıq da
Görüş vəd eləyir bizə yenidən.

Əlvida, nə danış, nə də ki, əl ver,
Nə qaşlarını çat, nə gözün dolsun.
Ölüm bu dunyada yenilikmidir...
Yaşamaq özü də yenilik olsun? [99]

Əvvəla onu qeyd edək ki, «до свиданья» ifadəsinin "salamat qal" kimi tərcüməsi daha doğru, daha cəzbedici, daha ürəyəyatımlı və poetik səslənsə də, fikrimizcə, adı çəkilən şeirin ruhən və faktik olaraq, müəllifin həyata vida nəğməsi olması tərcümələrin əksəriyyətində «до свиданья» ifadəsinin "salamat qal" kimi deyil, "əlvida" kimi verilməsinin əsas səbəbidir. Lakin bu hal da «до свиданья» ifadəsinin "əlvida" kimi tərcümə edilməsinə "bəraət qazandıra" bilməz. Digər tərəfdən, birinci bəndin son misrasında («Обещает встречу впереди») müəllif açıq-aydın qarşıdakı görüşdən bəhs edir. Həmin misrada nəzərdə tutulan görüşün "bu dünyada", yoxsa "o dünyada" baş tutacağından asılı olmayaraq «до свиданья» ifadəsinin daha məntiqli "salamat qal" kimi tərcümə edilməsi əvəzinə tərcüməçilər arasındakı "əsassız yekdillik" təəssüf doğurur. Elə buna görədir ki, tərcüməçilərin əksəriyyəti birinci misranın cox təbii görünən tərcüməsindən ("Salamat qal, dostum mənim, salamat") yan keçmişlər.

Orijinalda «до свиданья» ifadəsinin bir misrada iki dəfə təkrarlanması ilə tərcümədəki "əlvida" ifadəsinin bir misrada iki dəfə təkrarlanması arasında xeyli fərq var. Birinci versiyada bu təkrarlanma poeziyanı, axıcılığı və ayrılıq kədərini kifayət qədər gücləndirdiyi halda, tərcümədəki təkrarlanma bu hissi yarada bilmir. Bunun əsas səbəbi, fikrimizcə, misrada lazımsız və bir qədər də ağır yük kimi görünən "bir də" ifadəsinin peyda olmasıdır ki, bunu, tərcümələrin əksəriyyətində olduğu kimi, əsas zəif məqamlardan biri kimi qəbul edirik. Qeyd edək ki, bu məqamı

P.Məmmədova da, müəyyən mənada, hiss etmiş və haqlı olaraq bunu birinci misrada "bir də" ifadəsini işlətmiş tərcüməçilərin hamısına (Ş.Sadiq, Ə.Kürçaylı, Anar, N.Kəsəmənli) irad olaraq qeyd etmişdir.

Doğrusu, Ş.Sadiq şeirin ilk tərcüməsinin müəllifi olduğu üçün orijinaldakı «Милый мой, ты у меня в груди» misrasını çox aydın, təbii və canlı şəkildə, sanki gəl-gəl deyən "Əzizim, sən mənim ürəyimdəsən" kimi tərcümə edə bilərdi. Ancaq Ş.Sadiq bunun əvəzinə "Səni gəzdirərəm ürəyimdə mən" variantına üstünlük vermişdir. Bu misranın özü ayrılıqda kifayət qədər poetik səslənsə də, burada orijinaldakı "милый мой» ifadəsinin itirilməsi orijinaldan kənarlaşma olmaqla yanaşı, tərcümədəki şeiriyyəti də, fikrikizcə, bir qədər zəiflətmişdir. Bir anlığa birinci bəndi belə təsəvvür edək:

Əlvida, ey dostum, bir də əlvida,
Əzizim, sən mənim ürəyimdəsən.
İnan, qarşıdakı bu ayrılıq da
Görüş vəd eləyir bizə yenidən.

Heç şübhəsiz, bu bənd, məhz ikinci misranın hesabına, faktik tərcümədən daha yaxşı, daha təsirli səslənir.

Ş.Sadiqin tərcüməsindəki üçüncü – "İnan, qarşıdakı bu ayrılıq da" misrasını təhlil edərkən P.Məmmədova yazır: "*Ş.Sadiqdə qeyri-dəqiqlik daha çoxdur. Və bu qeyri-dəqiqlik heç də açar söz olan «предназначенное» sözünün itirilməsində yox, tərcümədə "bu" işarə əvəzliyinin meydana gəlməsindədir. Belə çıxır ki, şairin müraciət etdiyi ünvanın qarşıdakı bir neçə ayrılıq haqqında məlumatı var. Bu, xüsusən, bağışlanılmaz xətadır*" [266, s.43]. Əslində, tədqiqatçının bu fikirlərinin özü kifayət qədər xətalıdır. Misraya bir də diqqət yetirək: "İnan, qarşıdakı bu ayrılıq da". Şeirin intonasiyasından və ruhundan açıq-aşkar görünür ki, misrada məntiqi vurğu, P.Məmmədovanın iddia etdiyi kimi, "bu" işarə əvəzliyinin üzərinə deyil, "ayrılıq" sözünün üzərinə düşür. Şeirdə söhbət "o ayrılıq"dan və ya "bu ayrılıq"dan getmir, sadəcə, ayrılıqdan gedir. Bu, onu göstərir ki, tədqiqatçının "*Belə çıxır ki, şairin müraciət etdiyi ünvanın qarşıdakı bir neçə ayrılıq haqqında məlumatı var*" fikrinin heç bir əsası yoxdur. Beləliklə, Ş.Sadiq birinci bəndin son iki misrasını,

orijinala sadiqliyi saxlamaqla, kifayət qədər şairanə tərcümə etməyə müvəffəq olmuşdur.

Şeirin ikinci bəndi də, bütünlükdə, ustalıqla tərcümə edilmişdir. Xüsusilə də orijinaldakı «Не грусти и не печаль бровей» misrası Ş.Sadiq tərəfindən, ustalıqla, "Nə qaşlarını çat, nə gözün dolsun" kimi gözəl və poetik tərcümə edilmişdir. Açığını söyləmək lazımdır ki, «не грусти» ifadəsinin ekvivalenti kimi işlədilmiş "nə gözün dolsun", «не грусти»nin daha ekspressiv halı kimi, nəinki orijinaldakından az təsirli görünmür, əksinə, bəlkə də, təsvir olunan ayrılıq səhnəsinə və şeirin ruhuna daha çox uyğun gəlir.

Bu bəndin tərcüməsi ilə bağlı yeganə irad olaraq onu qeyd etmək olar ki, şeirin son beytində müəllifin sanki fakt olaraq bildirdiyi fikir («В этой жизни умирать не ново / но и жить, конечно, не новей») tərcümədə bir az qeyri-müəyyən, sual formasında öz əksini tapır.

Şeirin sayca 2-ci tərcüməsi Ə.Kürçaylıya məxsusdur:

Əlvida, ey dostum, əlvida artıq,
Əzizim, sən mənim ürəyimdəsən.
Taleyə yazılan hökmü-ayrılıq
Görüş vəd eləyir bizə yenidən.

Boşla söz-söhbəti, dostum, əlvida,
Qəlbinin qəmini, qüssəsini sil.
Nə ölüm təzədir qoca dünyada,
Nə də ki, yaşamaq təzə şey deyil!

[113, s.210]

Ümumilikdə, Ə.Kürçaylının bu tərcüməsi, orijinalın ruhuna yaxındır, söz, ifadə və misralar olduqca poetik düzümə malikdir. Ə.Kürçaylı, birinci misranı çıxmaqla, birinci bəndin qalan üç misrasını orijinala daha uyğun və daha şairanə ifadə etmiş, misraların ana dilində daha canlı səslənməsinə nail olmuşdur.

İkinci bəndin birinci misrasının tərcüməsinə gəlincə, qeyd etməliyik ki, burada Ə.Kürçaylı onun tərcümələrində çox az rast gəldiyimiz tərzdə orijinaldan və eyni zamanda poeziyadan xeyli uzaqlaşmışdır. Mütərcim buna heç bir ehtiyac olmadan, həddindən artıq yersiz görünən "boşla söz-söhbəti" ifadəsinə üstünlük verir, onu orijinaldakı kifayət qədər poetik səslənən «До свиданья, друг мой,… » əvəzinə işlədir, amma bundan orijinala nə axıcılıq, nə ifadəlilik, nə də ki, musiqi gəlmir. Başqa sözlə desək, «До свиданья, друг мой,… » ifadəsinin "boşla söz-söhbəti" kimi

tərcüməsi orijinlda təsvir olunan ayrılıq səhnəsinin üzücü mənzərəsini yarada bilmir, ifadə tamamilə yerində deyil, fikirdə ayrılıq səhnəsinə yaraşmayan müəyyən laqeydlik notları hiss edilir. Bəs ikinci misranın "qəlbinin qəmini, qüssəsini sil" kimi tərcüməsini nə qədər uğurlu və orijinala nə dərəcədə uyğun hesab etmək olar? Fikrimizcə, bu da, orijinaldan xeyli uzaq səslənmədir. Bunu orijinalla və eləcə də Ş.Sadiqin tərcüməsi ilə müqayisə etdikdə daha yaxşı müşahidə edə bilərik. Orijinaldakı «Не грусти и не печаль бровей», Ş.Sadiqdə «Nə qaşlarını çat, nə gözün dolsun» şəklində necə də gözəl və poetik tərcümə edilmişdir. Ə.Kürçaylı isə «не грусти» və «не печаль бровей» ifadələri vasitəsilə orijinal bir tərzdə, sanki iki mərhələdə verilən fikri həddindən artıq sadələşdirərək, sinonimlər vasitəsilə bir tonda vermişdir ki, bu da ayrılıqda normal səslənsə də orijinalla, Yesenin axıcılığı ilə müqayisədə xeyli zəif təsir bağışlayır və ayrılıq kədərini də xeyli azaldır.

Yuxarıda qeyd etdiyimiz kimi, bu şeirdə və deməli, onun tərcüməsində əsas açar məqamlar hər bəndin son beytləridir. Fikrimizcə, Ə.Kürçaylı məhz bu məqamları böyük ustalıqla tərcümə etmişdir. Hər iki beyt, xüsusilə də son bəndin son beyti sanki bir zərb-məsəl kimi səslənir:

Nə ölüm təzədir qoca dünyada,
Nə də ki yaşamaq təzə şey deyil!

Sözsüz ki, məhz bu məqamlar, Ə.Kürçaylının tərcüməsini şeirin hazırda mövcud olan və gələcəkdə ola biləcək bütün tərcümələri arasında ən yaxşılardan biri kimi sığortalayır. Onu da qeyd etmək lazımdır ki, tərcüməçi bu tərcüməsinə bir dəfəyə yox, addım-addım gəlmişdir. O, ilk variantda şeirin ikinci bəndini aşağıdakı kimi tərcümə etmişdi:

Əlvida, ey dostum, nə söz, nə söhbət,
Qəm yeyib qaşını çatmağın nədir?
Nə qoca dünyada ölüm təzədir,
Nə də ömr eləmək təzədir, əlbət! [112, s.92]

Sonradan tərcüməçi bu bənd üzərində yenidən işləmişdir:

Boşla söz-söhbəti, dostum, əlvida,
Qəlbini nə kədər, nə qüssə alsın.

Ölüm təzədir ki, qoca dünyada
Yaşamaq özü də təzəlik olsun! [109, s.61]

Göründüyü kimi, burada son beytdəki fikir, müəyyən mənada, sual formasında öz təsdiqini tapmışdır. Bu məqam və ikinci misra bütünlükdə tərcüməçini qane etmir, o, axtarışlarını davam etdirərək, tərcüməsini daha da təkmilləşdirir:

Boşla söz-söhbəti, dostum, əlvida,
Qəlbinin qəmini, qüssəsini sil.
Nə ölüm təzədir qoca dünyada,
Nə də ki yaşamaq təzə şey deyil! [113, s.210]

Mütərcimin bu şeirin tərcüməsinə dönə-dönə qayıtması onun, ümumilikdə, böyük tərcüməçilik məsuliyyətindən xəbər verir.

Bu bəndin addım-addım dəyişən üç variantını öz aralarında müqayisə etmək də maraqlıdır. Məsələ burasındadır ki, ilkin variantın birinci beyti son variantın birinci beyti ilə müqayisədə daha yaxşı səslənir və orijinala daha yaxındır. İkinci beytdə isə səslənmə, gözəllik, axıcılıq, şairanəlik, sözsüz ki, son variantın xeyrinədir. Bir anlığa ilkin variantın birinci beyti ilə son variantın ikinci beytini birləşdirək:

Əlvida, ey dostum, nə söz, nə söhbət,
Qəm yeyib qaşını çatmağın nədir?
Nə ölüm təzədir qoca dünyada,
Nə də ki yaşamaq təzə şey deyil!

Yəqin ki, Ə.Kürçaylı özü də bu versiya üzərində düşünmüşdür. Lakin hər iki beyti olduğu kimi saxlamaqla, qafiyələndirmədə alınan uyğunsuzluğu aradan qaldırmaq mümkün olmayınca, birinci beytdəki orijinala yaxınlığı, bilərəkdən ikinci beytdəki şairanəliyə və axıcılığa qurban vermişdir. Fikrimizcə, tərcüməçinin qəbul etdiyi bu qərar özünü tam doğrultmuşdur.

Ə.Kürçaylıdan sonra şeiri Anar tərcümə etmişdir:

Əlvida, ey dostum, bir də əlvida,
Əzizim, sən mənim ürəyimdəsən.
Müəyyən olunmuş ayrılıq günü
Vəd verir gələcək görüşümüzdən.

Əlvida, nə gərək əl vermək, ya söz,
Çatma qaşlarını, eyləmə kədər.
Ölüm bu dünyada təzə şey deyil,
Amma təzə şeydir yaşamaq məgər? [90]

Anarın tərcüməsi özünəməxsusdur. Birinci bəndin tərcüməsində Anar orijinala maksimum sadiqlik göstərməyə çalışsa da, fikrimizcə, üçüncü misradakı "Müəyyən olunmuş" ifadəsi və dördüncü misra bütünlükdə ürəyə yatmır. Xüsusən də orijinaldakı «Предназначенное» ifadəsinin çox bəsit və qeyri-poetik qarşılığı olan "Müəyyən olunmuş" ifadəsi, ümumilikdə, yaxşı hesab oluna biləcək bir tərcüməni xeyli zəiflətmiş, şeirdəki axıcılığı öldürmüşdür.

Şeirin ikinci bəndində Anar orijinala kifayət qədər sadiqlik göstərməyə nail olmuşdur. Xüsusən də «Не грусти и не печаль бровей» misrasının "Çatma qaşlarını, eyləmə kədər" kimi dəqiq və şairanə ifadəsi ürək açır. Bu misranın tərcüməsi Ş.Sadiqin tərcüməsindən də ("Nə qaşlarını çat, nə gözün dolsun") dəqiq və şairanə səslənir. Son beytin tərcüməsində də tərcüməçiyə qarşı tutula biləcək ciddi irad yoxdur. Yeganə olaraq onu qeyd etmək olar ki, Ş.Sadiqdə olduğu kimi, burada da son fikir sual intonasiyası almışdır. Ümumilikdə, bu tərcüməni nasir kimi şöhrət qazanmış Anarın tərcümə uğuru kimi dəyərləndirmək daha düzgün olardı.

Anardan sonra şeiri N.Kəsəmənli tərcümə etmişdir:

Əlvida, əziz dost, əlvida, bir də...	Əlvida, əziz dost!.. Niyə öpüşək?
Artıq söz nə lazım qəlbi təmizə.	Qəm yemə, heç indi qəm yeri deyil.
Bizim bu vədəli ayrılığımız	Bu dünyada təzə deyil ki, ölmək;
Neçə görüşləri vəd edir bizə.	Lakin yaşamaq da heç yeni deyil [97].

Nüsrət Kəsəmənlinin tərcüməsində orijinaldan kənarlaşma və poetik cəhətdən zəif məqamlar kifayət qədərdir. Elə ikinci misra buna parlaq misaldır – "Artıq söz nə lazım qəlbi təmizə". Adama elə gəlir ki, bu misra başqa bir şeirə aiddir və buraya təsadüfən düşüb. Əks halda, tərcüməni, daha doğrusu, tərcüməçini anlamaq çox çətindir. Düşünürük ki, tərcüməçi dördüncü misradakı "bizə" sözünə uyğun qafiyə tapmaqda çətinlik çəkmiş və nəticədə, orijinaldakı «Милый мой, ты у меня в груди» misrası tamamilə fərqli, orijinalla heç bir əlaqəsi olmayan bir misra ilə əvəzlənmiş, daha doğrusu, bu misra bütünlükdə ikinci misradakı "təmizə" sözünə qurban verilmişdir. Tərcüməçinin «предназначенное» sözünü "vədəli" kimi tərcümə etməsi də uğursuz seçimdir. Dördüncü misrada da orijinaldan lazımsız kənarlaşma

var. Orijinalda söhbət qarşıdakı bir görüşdən getdiyi halda («Обещает встречу впереди»), tərcümədə “neçə görüşlər” deyə bir neçə görüş vəd edilir.

Şeirin ikinci bəndinin tərcüməsini də uğurlu hesab etmək mümkün deyil. Birinci misrasındakı «без руки, без слова» əvəzinə, tərcümədə məsələyə heç dəxli olmayan “niyə öpüşək” fikri meydana çıxmışdır. Bir anlığa ikinci bəndin ikinci misrasına qulaq verək: «Не грусти и не печаль бровей». Qəribədir. Şair dostunu qəmlənməməyə çağırsa da, bu çağırışın özünün ruhunda bir qəm-kədər hissi duyulur. Tərcümədə isə qeyd etdiyimiz bu qəm-kədər hissi tamamilə itmiş, əksinə, müraciət zarafatyana bir ton almışdır: “Qəm yemə, heç indi qəm yeri deyil”.

Şeirin son beytinə diqqət verək:

Bu dünyada təzə deyil ki, ölmək;
Lakin yaşamaq da heç yeni deyil.

Orijinalın son beytindəki eyni sözün («ново», «новей») tərcümədə birinci misrada “təzə”, ikinci misrada isə “yeni” kimi verilməsi də beyti səslənmə baxımından kifayət qədər zəiflətmişdir. Onu da qeyd edək ki, bu məqam qalan bütün tərcümələrdə həssaslıqla hiss edilmiş, misraların hər ikisində ya “təzə”, ya da “yeni” sözü işlədilmişdir. Onu da qeyd edək ki, Ə.R.Xələflinin və H.İsaxanlının tərcümələrində bu ifadələrin hər ikisi son misrada cəmləşmişdir.

Heç şübhəsiz, N.Kəsəmənlinin tərcüməsi sənətkarlıq və bədiilik nöqteyi-nəzərdən indiyədək təhlillərə cəlb etdiyimiz bütün tərcümələrə uduzur. Bunun əsas səbəbi müəllifin şeirdəki kədər hissi, qəm intonasiyasının mütərcimin diqqət mərkəzindən tamamilə kənarda qalması, onun orijinalın nə ruhunu, nə də hərfini saxlaya bilməməsidir.

N.Kəsəmənlidən sonra şeiri M.Qarayev tərcümə etmişdir. M.Qarayev bu şeiri 1994-cü ildə də tərcümə etmişdi. Lakin mütərcim sonradan öz tərcüməsini təkmilləşdirərək onu 2008-ci ildə yenidən oxucuların ixtiyarına vermişdir. Biz də, təbii olaraq, mütərcimin son tərcümə variantını təhlilə cəlb edirik:

Əlvida, əziz dost, əlvida,	Əlvida, ey dostum, nə gərək –
Biz yenə bir qəlbdə bir canıq.	Nə söz de, nə qəm ye, əlvida;

Görüş də vəd edir qarşıda	Təzə şey deyildir – nə ölmək,
Qismətə yazılmış ayrılıq.	Nə də ki, yaşamaq dünyada [98, s.297].

M.Qarayevin tərcüməsi forma baxımından digər tərcümələrdən fərqlənir. Lakin məzmun, mahiyyət və ruh baxımından, sanki başqa tərcüməçilərin seçdiyi 11 hecalıq misralar daha uyğun gəlir. Şeiri 9 hecalı misralarla tərcümə etməklə, tərcüməçi, bir tərəfdən, digər tərcüməçilərin yol verdikləri müəyyən söz artıqlığından uğurla qaçmağı bacarmış, digər tərəfdən isə, bir sıra məqamlarda heca və söz çatışmazlığı problemi ilə üzləşmişdir. Belə ki, orijinalda ikinci bəndin birinci beytindəki dörd ifadə («без руки», «без слова», «не грусти», «не печаль бровей») tərcümədə cəmi iki ifadə vasitəsilə (“nə söz de”, “nə qəm ye”) verilmişdir ki, bu da məhz heca azlığından doğan məqam kimi qiymətləndirilməlidir. Üstəlik, orijinaldakı “qaşlar” burada ümumiyyətlə diqqətə alınmamışdır. Qeyd edək ki, bu məqamı tərcüməçilər arasında yalnız Ş.Sadiq (Əlvida, nə danış, nə də ki əl ver / Nə qaşlarını çat, nə gözün dolsun), Anar (Əlvida, nə gərək əl vermək, ya söz / Çatma qaşlarını, eyləmə kədər), H.İsaxanlı (Nə əl et, nə danış, sağ-salamat qal / Nə qəm ye, əzizim, nə qaşını çat) və T.Kərimli (Di sağ ol! Nə əl ver, nə danış, nə din / Üzülmə, qaşını gəl çatma belə) dolğun şəkildə, maraqlı verə bilmişlər.

Bəs mütərcimin «Милый мой, ты у меня в груди» misrasını “Biz yenə bir qəlbdə bir canıq» kimi tərcüməsini necə dəyərləndirmək olar? İlk baxışda misra maraqlı görünsə də, məzmun baxımından bir qədər fərqlidir və orijinaldakı ruhla müqayisədə xeyli sönük təsir bağışlayır. Orijinalda müəllif dostuna müraciət edərək birmənalı şəkildə, “Əzizim, sən mənim ürəyimdəsən, qəlbimdəsən” deyir və burada müəllifin özünün də dostunun qəlbində yeri olmasına heç bir işarə yoxdur. Tərcüməçi isə bir ümumiləşdirmə apararaq, dostunun onun üçün çox qiymətli, əziz olması ilə yanaşı, onun özünün də dostunun ürəyində, qəlbində yeri olduğunu ifadə edir: “Biz yenə bir qəlbdə bir canıq”. Həmin misranın digər mütərcimlərdə necə səslənməsini müqayisə üçün diqqət mərkəzinə çəkək: Ş.Sadiq: “Səni gəzdirirəm ürəyimdə mən”, Ə.Kürçaylı: “Əzizim, sən mənim ürəyimdəsən”; Anar: “Əzizim, sən mənim ürəyimdəsən”; N.Kəsəmənli: “Artıq söz nə lazım qəlbi təmizə”; K.Aslan:

“Əzizimsən, qəlbimdəsən həmişə”; F.Mustafa: “Vuran qəlbimdəsən mənim hər zaman”; E.N.Sibirel: “Qəlbimdə yerin var, dostum, əbədi”; E.Borçalı “Yerin var, əzizim, bağrım başında”; G.Paçxataşvili: “Qəlbimdə yurd saldın, mənim əzizim”; F.Qoca: “Sən mənim daima ürəyimdəsən”; Ə.Xələfli: “Səni ürəyimdə aparıram mən”, H.İsaxanlı: “Qəlbimdə, əzizim, yuva salmısan”, R.İsayev: “Əzizimsən, qəlbimdəsən mənim sən”, T.Kərimli: “Canım, sinəmdə sən salmısan məskən”. M.Qarayevin tərcüməsindəki bu məqam, bütün tərcümələrdən kifayət qədər fərqlidir. Hesab edirik ki, mütərcim, sadəcə olaraq, həmin misranın tərcüməsində əvvəlki tərcümələrdəki təkrarlardan qaçmaq üçün yeni bir ifadə tərzi axtarmış və əslində, onu tapmışdır. Amma bu tapıntı, fikrimizcə, istənilən qədər uğurlu alınmamışdır. Tərcümədə bu göstərdiyimiz məqamlardan başqa, ciddi iradlar tutmağa heç bir əsas yoxdur.

Yuxarıda qeyd etdiyimiz kimi, M.Qarayev bu şeiri 1994-cü ildə də tərcümə etmişdi. Heç bir əlavə şərh vermədən həmin tərcüməni diqqətə çatdırırıq:

Əlvida, dostum, əlvida.
Qəlbimdəsən, canım-gözüm.
Ayrılığı yazan xuda
Görüşdürər orda bizi.

Dərd çəkmək də gərək deyil,
Əlvida, dostum, əlvida.
Nə ölmək təzə şey deyil,
Nə yaşamaq bu dünyada [96].

M.Qarayevin özünün verdiyi məlumata görə o, bu şeiri daha əvvəl, təxminən 1991-ci ildə, 11-hecalı misralarla da tərcümə edib. Tərcümənin dərc edildiyi mənbəni, mütərcimin özünün köməyi ilə də, əldə edə bilməsək də, həmin mətni də burada, heç bir şərhsiz, veməyi məqsədəuyğun hesab etdik:

Əlvida, ey gözəl dostum, əlvida,
Vaxtımız-vədəmiz yetişdi artıq.
Görüş də vəd edir bizə qarşıda
Qismətə yazılmış məlum ayrılıq.

Nə bircə kəlmə söz, nə dərd, nə giley...
Nə gərək?! Əlvida dostum, əlvida.
Nə ölmək, əlbəttə, təzə şey deyil,
Nə də ki, yaşamaq qoca dünyada.

Şeirin sayca 6-cı tərcüməsi K.Aslana məxsusdur:

Salamat qal, əziz dostum, salamat,
Əzizimsən, qəlbimdəsən həmişə.

Salamat qal, nə söz söylə, nə əyil,
Nə ağırmış qəm yükünü daşımaq.

Alnımıza yazılıbmış bu həsrət,
Səsləyəcək bizi bir gün görüşə.

Bu dünyada ölmək təzə şey deyil,
Nə də dostum, təzəlikdir yaşamaq
[89, s.125].

K.Aslan bütün əvvəlki tərcüməçilərdən fərqli olaraq, «До свиданья, друг мой, до свиданья» misrasını orijinalda olduğu kimi tərcümə etməyə çalışsa da, buna tam nail ola bilməmişdir. Belə ki, misradakı «друг мой» ifadəsinin "əziz dostum" kimi verilməsi birinci iki misranın hər ikisində "əzız" sözünün işlədilməsi ilə nəticələnmişdir ki, bu da arzuolunan deyil. Müəllif «друг мой» ifadəsinin tərcüməsini "əziz dostum" deyil, çox dəqiq, təbii və poetik səslənən "dostum mənim" kimi verməklə, bütün məsələlərin öhdəsindən gələ bilərdi. Əslində də, "dostum mənim" müraciəti "əziz dostum"dan daha doğma, daha əziz, daha intonasiyalı, daha nidalı səslənmirmi?!

Birinci bəndin ikinci beyti ayrılıqda gözəl səslənir, lakin, əvvəlkilərdən fərqli mütərcim ifadələri olsa da, Ş.Sadiq ("İnan, qarşıdakı bu ayrılıq da / Görüş vəd eləyir bizə yenidən") və xüsusilə də Ə.Kürçaylının tərcüməsi ilə ("Taleyə yazılan hökmü-ayrılıq / Görüş vəd eləyir bizə yenidən") müqayisədə bir qədər zəif təsir bağışlayır. Burada başqa bir məqam da var: Orijinalda indiki zamanda işlənən fikir («обещает») tərcümədə gələcək zamanda ("səsləyəcək") verilir.

İkinci bəndin birinci misrasındakı "nə əyil" ifadəsi bir qədər yersiz görünür. Yəqin ki, burada söhbət "dərdə əyilmək"dən gedir. İstənilən halda təsvir uğurlu deyil. Fikrimizcə, "əyil" ifadəsi bəndin üçüncü misrasındakı "deyil" ifadəsinə qafiyə kimi işlədilməsinə baxmayaraq, tərcüməyə uyğun rəng qata bilməmişdir. Bəs bu bənddəki «Не грусти, не печаль бровей» misrasının "Nə ağırmış qəm yükünü daşımaq" kimi tərcüməsi adekvatlıq baxımından özünü doğruldurmu?! Əsla yox. Orijinaldakı orijinal ifadə olan «не печаль бровей» ümumiyyətlə, diqqətdən kənarda qalmaqla yanaşı, müəllifin fikri ciddi təhrif edilmişdir: "Nə ağırmış qəm yükünü daşımaq". Burada şair sanki dostunun yerinə danışır. Orijinalda qəmlənəcək, kədərlənəcək ünvan şairin özü deyil, onun dostudur, şair dostuna müraciət edərək deyir: «Не грусти и не печаль бровей». Odur ki, "Nə ağırmış qəm yükünü daşımaq" fikri də

şairin öz dilindən deyil, dostunun dilindən işlənə bilər, başqa sözlə, bu yükün – ayrılıq yükünün ağır olub-olmadığını dostu deyə bilər.

Şeirin son beyti isə uğurlu hesab edilə bilər:

Bu dünyada ölmək təzə şey deyil,
Nə də dostum, təzəlikdir yaşamaq.

K.Aslanfan sonra şeiri F.Mustafa tərcümə etmişdir:

Əlvida, ey dostum, daha ayrılaq,
Vuran qəlbimdəsən mənim hər zaman.
Əzəldən gözlənən bu cür ayrılıq
Yeni görüşlər də vəd edir, inan.

Əlvida, əzizim, göz yaşını sil,
Bu kədər, bu qüssə yaraşmır bizə.
Bu həyatda ölmək təzə şey deyil,
Elə yaşamaq da deyildir təzə [91].

F.Mustafa "Əlvida, ey dostum, əlvida artıq" şeirinə öz tərcümə rənglərini, emosional çalarlarını qatmağa çalışmışdır. Lakin burada bir sıra məqamlar qeyd edilməlidir. Tərcümədə orijinaldakı «милый мой» ifadəsi öz əksini tapmamışdır. Halbuki, bu şeirdə «друг мой», «милый мой» kimi xitabların böyük ekspressiv yük daşıması önəmlidir. Hesab edirik ki, tərcümədə bu ifadələrin yer almaması, bu iki xitabın yalnız "ey dostum" vasitəsilə ifadə edilməsi şeirə doğmalıqdan, şirinlikdən uzaq bir rəsmilik gətirmişdir. Hətta ikinci misrada "vuran qəlbimdəsən" deməklə də orijinaldakı o doğmalığı ifadə etmək mümkün olmamışdır. Orijinalın birinci misrasındakı «друг мой» ifadəsini F.Mustafa "ey dostum" şəkilində verdiyi halda, ikinci bəndin birinci misrasında həmin ifadə "əzizim" formasında təqdim edilir. Orijinaldakı «предназначенное расставанье» fikrinin də "əzəldən gözlənən bu cür ayrılıq" kimi tərcüməsi ürəyə yatmır, şeiriyyət və səslənmə cəhətdən xeyli zəif görünür.

Birinci bəndin son misrasında da qeyri-dəqiqlik var. Orijinalda söhbət qarşıdakı bir görüşdən getdiyi halda («Обещает встречу впереди»), bu tərcümədə də, N.Kəsəmənlinin tərcüməsində olduğu kimi, "yeni görüşlər" deyə bir neçə görüş vəd edilir. İkinci bəndin ikinci misrası da ("Bu kədər, bu qüssə yaraşmır bizə") original-dakı qəm-kədər dolu müraciəti («Не грусти и не печаль бровей») əvəz etməkdə xeyli aciz görünür. Ümumiyyətlə, bu tərcümədə əlavə olaraq "hər zaman", "inan",

“göz yaşını sil”, “yaraşmır bizə” kimi orijinaldan kənar köməkçi ifadələrin meydana çıxmasına baxmayaraq, bunlar da Yeseninin şeirdə canlandırdığı qəm, kədər, qüssə notlarının tərcümədə uyğun şəkildə ifadə olunmasını təmin edə bilməmişdir.

Qeyd etdiyimiz çatışmazlıqlarla yanaşı, F.Mustafa ikinci bəndin üçüncü və dördüncü misralarını poetik baxımdan oxunaqlı, intonasiyalı yaratmağa müvəffəq olmuş, şeirin sonluğundakı mənanı dəqiq və dolğun verə bilmişdir:

Bu həyatda ölmək təzə şey deyil,
Elə yaşamaq da deyildir təzə.

Şeirin sayca 8-ci tərcüməsi E.N.Sibirel tərəfindən edilmişdir:

Əlvida, əzizim, əlvida daha,
Qəlbimdə yerin var, dostum, əbədi.
Bugünkü ayrılıq, bəlkə, sabaha
Taleyin verdiyi görüş vədidi.

Əlvida, nə əl ver, nə də ki, dillən,
Nə də qəm, kədərlə məni sal yada.
Nə ölmək yenidir, bilirəm ki, mən,
Nə də ki, yaşamaq qoca dünyada
[88].

E.N.Sibirelin birinci misradakı «друг мой» ifadəsini “əzizim” kimi tərcümə etməsi, ikinci misrada “əbədi” sözünü işlətməsi, üçüncü misrada orijinaldakı «Предназначенное расставанье» fikrini “Bugünkü ayrılıq, bəlkə, sabaha” kimi verməsi, “tale” sözünü dördüncü misraya əlavə etməsi, eləcə də ikinci bəndin ikinci misrasında işlədilmiş “məni sal yada” ifadəsi uğursuz mütərcim müdaxiləsindən başqa bir şey deyildir. Üstəlik, birinci bənddə orijinalda vaxt baxımından, müəyyən mənada, qeyri-müəyyən olan ayrılıq günü («предназначенное расставанье») tərcümədə “bugünkü ayrılıq” kimi lazımsız şəkildə dəqiqləşdirilmişdir.

İkinci bəndin ikinci misrası da qeyri-dəqiq tərcümə edilmişdir: “Nə də qəm, kədərlə məni sal yada”. Dostlar yenicə ayrılır, söhbət də ayrılıqdan doğan kədərdən gedir, daha tərcümədə olduğu kimi, sonralar yada salmaqdan yox. Bu məqamı tərcüməçi tuta bilməmişdir. Eyni zamanda, onu da qeyd edək ki, ikinci bənddə 5 dəfə “nə” bağlayıcısı işlədilmişdir. Bunun misraları gücləndirmək naminə işlədilməsinə baxmayaraq, fikrimizcə, bunlar arzu olunmayan təkrarlar təsiri bağışlayır. Bununla belə mütərcimin şeirin son iki misrasının tərcüməsini onun uğuru kimi dəyərləndirmək olar. Amma burada da bizi qane etməyən bir məqam var. Orijinalda şair dostuna müraciət edir, “Bu həyatda nə ölmək, nə də yaşamaq təzə şey deyil”, –

deyərək ona təsəlli verir. Tərcümədə isə, üçüncü misrada "bilirəm ki mən" deməklə, tərcüməçi dostuna deyil, özünə təsəlli verir.

E.N.Sibireldən sonra bu şeiri E.Borçalı tərcümə etmişdir:

Ay dost, salamat qal, gedirəm artıq,
Yerin var, əzizim, bağrım başında;
Əzəl təyinatlı məşum ayrılıq
Görüş də vəd edir bizə qarşıda.

Sağ ol, salamat qal! Əlsiz, diləksiz.
Çatıb qaşlarını qəm yemə, toxda;
Ölmək təzə deyil həyatda, şəksiz,
Ondan təzə deyil heç yaşamaq da
[108, s.32].

E.Borçalı bu şeiri iki dəfə tərcümə etmişdir. Son variantda birinci ilə müqayisədə xeyli dəyişikliklər var. Birinci bənddə 1-ci və 3-cü misralar, 2-ci bənd isə bütünlükdə dəyişilmişdir. Tərcüməçi bu dəfə birinci misradakı "əlvida" ifadəsindən imtina edərək "salamat qal" ifadəsinə üstünlük vermişdir ki, bunu uğurlu dəyişiklik hesab edirik. Üstəlik, birinci misrada, ilk baxışda, orijinala lazımsız əlavə kimi görünən "gedirəm artıq", əslində orijinaldakı üzüntü səhnəsini kifayət qədər dərindən əks etdirir. Amma buradakı "Ay dost" müraciəti bir qədər zəif səslənir. Tərcüməçi burada "Ay dost" əvəzinə, sadəcə olaraq, "Dostum" işlətməklə, birinci misranın "Dostum, salamat qal, gedirəm artıq" kimi gözəl və poetik səslənməsinə nail ola bilərdi. Tərcümədə 3-cü misra da heç könül oxşamır: "Əzəl təyinatlı məşum ayrılıq". Əlbəttə, orijinalda olmasa da, ölüm gətirən ayrılıq haqqında "məşum" ifadəsi işlədilə bilər, amma bu ifadə "əzəl təyinatlı" ifadəsi ilə (bu ifadənin özü də uğurlu seçim sayıla bilməz) birləşincə misra çox ağırlaşır, tələffüz çətinləşir, şeiriyyət isə əməlli-başlı zəifləyir. Üstəlik, "məşum" sözü dilimizdə gündəlik işlənən söz olmadığından sadə dildə yazılmış mətnin mənimsənilməsini xeyli çətinləşdirir. Qeyd etmək istəyirik ki, E.Borçalıda olduğu kimi, birinci bəndin üçüncü misrasını («предназначенное расставанье») hərfi tərcümə etməyə çalışan digər müəlliflərin də heç birində bu misra uğurlu alınmamışdır: "Müəyyən olunmuş ayrılıq günü" (Anar), "Bizim bu vədəli ayrılığımız" (Nüsrət Kəsəmənli), "Əzəldən gözlənən bu cür ayrılıq" (Firuz Mustafa). Görünür, bu ifadənin tərcüməsində hərfi tərcüməyə meyl etmək yox, sadəcə olaraq, onun dilimizdə işlənən daha uyğun, adekvat qarşılığını tapmağa çalışmaq daha doğru yoldur.

Ikinci bəndin birinci misrasındakı “diləksiz” ifadəsi də yerində deyil. “Diləksiz” sözü 3-cü misradakı “şəksiz” sözünə qafiyə olaraq işlədilsə də orijinaldakı misranın mənasına qətiyyən uyğun gəlmir. Burada tərcümənin ilkin variantındakı “kəlməsiz” ifadəsi müqayisədə daha uyğun görünür. İkinci misradakı “toxda” da bizi qane etmir. Əlbəttə, dosta təsəlli verərkən, danışıq dilində “toxda” demək olar. Amma bu, poeziyadan tamamilə uzaq bir ifadədir və orijinaldakı qəm, kədər hislərini ifadə etməkdə aciz qalır. İkinci bəndin son beyti də, orijinaldakı mənanı, müəyyən mənada, açа bilsə də, şeiriyyət baxımından xeyli zəif təsir bağışlayır.

Sonda E.Borçalının 2006-cı ildə tərcümə etdiyi variantı da, əlavə şərh vermədən, diqqətə çatdırırıq:

Əlvida, ey dostum, əlvida artıq!
Yerin var, əzizim, bağrım başında.
Taleyin cızdığı qəfil ayrılıq
Görüş də vəd edir bizə qarşıda.

Əlvida! Hələlik! Əlsiz, kəlməsiz
Nə qaşlarını çat, nə dərdə əyil.
Yeni ha görmürük ölümləri biz,
Yaşamaq özü də yenilik deyil [94].

Bu şeir Q.Paçxataşvili tərəfindən də tərcümə edilmişdir:

Əlvida, ey dostum, görüşənədək,
Qəlbimdə yurd saldın, mənim əzizim.
Ayrılığı yazan amansız fələk
Yeni bir görüşlə şad eylər bizi.

Əlvida, ey dostum, əl, söz nə lazım,
Üzülüb qəm vermə sən qaşlarına.
Ölmək yeni deyil bu gün, ən azı,
Var olmaq da yeni deyildir amma [95].

Tərcümələrin əksəriyyətində olduğu kimi, bu tərcümənin müəllifi də «прощай» sözünün tərcüməsi kimi “əlvida” ifadəsinə üstünlük vermişdir. Digər tərəfdən, birinci bəndin birinci misrasında “əlvida” («прощай») və “görüşənədək” («до встречи») sözləri bir yerdə işlədilmişdir ki, bu da arzuolunan deyil. Aşıq-aydın hiss edilir ki, bu iki söz bir misraya “yerləşmir”. Eyni cərgədən olan bu sözlərin hər ikisinin poetik mətndə bir misrada işlədilməsi leksik, semantik və üslubi baxımdan da özünü doğrultmur və səmərəli deyildir. İkinci bənddəki ikinci misra – «Не грусти и не печаль бровей» orijinalda daha təsirli olduğu halda tərcümədə səslənmə və təsirlilik baxımından zəif şəkildə, “Üzülüb qəm vermə sən qaşlarına” kimi oxucuya çatdırılır

və belə hal orijinala xidmət etmədiyi kimi, heç yaxşı tərcüməyə də xidmət etmir. Azərbaycan dilində "qaşlara qəm vermək" kimi ifadə işlənilmir, uyğun fikir, əsasən, "qaşları çatmaq" kimi ifadə olunur ki, bunun da bariz nümunəsini biz Ş.Sadiq ("Nə qaşlarını çat, nə gözün dolsun"), Anar ("Çatma qaşlarını, eyləmə kədər"), H.İsaxanlı ("Nə qəm ye, əzizim, nə qaşını çat"), T.Kərimli ("Üzülmə, qaşını gəl çatma belə"), qismən də E.Borçalı ("Çatıb qaşlarını qəm yemə, toxda") və R.İsayevin ("Qaşın çatıb kədərlənmə, qəmi sil") tərcüməsində görürük.

İkinci bəndin üçüncü misrasında "ən azı" ifadəsi də yerində işlədilməmişdir. Misradan belə çıxır ki, ölmək bu gün yeni bir şey, yenilik olmasa da, nə vaxtsa yenilik ola bilər. Ümumiyyətlə, son beytdə tərcüməçi orijinaldakı mənanı tam açа bilməmiş, aydın ifadələr seçməkdə çətinlik çəkmişdir, poetik tərcümə isə yox dərəcəsindədir. Fikrimizcə, Q.Paçxataşvili, ümumilikdə, bu şeirin tərcüməsində öz yüksək mütərcimlik keyfiyyətlərini yetərincə nümayiş etdirə bilməmişdir.

Bu şeirin Q.Paçxataşvilidən sonrakı tərcüməsi F.Qocaya məxsusdur:

Əlvida, ey dostum, dostum əlvida,
Sən mənim daima ürəyimdəsən.
Həmişə adamlar deyəndə vida
Deyir, görüşərik bir də yenidən.

Əl vermə, söz demə, susaq, əlvida...
Qəm çəkmə qaşından dərd yağa-yağa.
Ölüm təzə deyil, köhnə dünyada
Yaşamaq özü də təzə deyil ha... [92].

F.Qocanın orijinal şair və istedadlı mütərcim kimi bu şeiri daha keyfiyyətli tərcümə etməsini gözləmək olardı. Təəssüf ki, onun tərcüməsində ikinci misrada lüzum olmayan "daima" ifadəsi artıq və poetiklikdən kənar şəkildə tərcümə mətninə gətirilir, «Предназначенное расставанье» isə nə üçünsə mətndəki misraya heç bir aidiyyatı olmayan "Həmişə adamlar deyəndə vida" kimi verilir. Onu da qeyd edək ki, tərcüməçinin yazdığı kimi adamlar ayrılarkən vida demir, vida edirlər, vidalaşırlar. Hesab edirik ki, bu məqam tərcüməçinin, sadəcə, diqqətsizliyindən irəli gələn bir xətadır. Ümumiyyətlə, birinci bəndin son iki misrası şairanəlikdən uzaq kimi görünür, poeziya baxımından xeyli zəif təsir bağışlayır.

F.Qocanın şeirin birinci misrasında «друг мой» ifadəsini "ey dostum, dostum" şəklində verməsi isə, fikrimizcə, ilk növbədə lazımsız təkrar təsiri bağışlasa da,

əslində orijinalın ruhuna tam uyğun gəlir və orijinaldakı qəm dolu müraciəti bir qədər də səmimiləşdirir. Mütərcim ikinci bənddə «До свиданья, друг мой, без руки, без слова» misrasını "Əl vermə, söz demə, susaq, əlvida…" kimi sanki əmr formasında, quru şəkildə təqdim edir. Buradakı "əl vermə, söz demə" ifadələri həzin, həlim ifadələr deyil, gobud səslənir, ürəyə yatmır, onları, ən azı, "nə əl ver, nə söz de" kimi daha poetik bir şəkildə vermək olardı. Daha sonra S.Yesenin dostuna «Не грусти и не печаль бровей» kimi həddindən artıq konkret şəkildə müraciət edərək, onu kədərdən, qüssədən çəkindirdiyi halda, mütərcim dostuna "Qəm çəkmə qaşından dərd yağa-yağa" deyə birnəfəsə və bir qədər də təsirsiz müraciət edir. Üçüncü misrada tərcüməçi fikri oxucuya daha qabarıq şəkildə çatdırmaq məqsədilə antonimlərdən – "təzə" və "köhnə" sözlərindən istifadə etsə də, fikrimizcə, bu misra və ümumilikdə son beyt də arzuolunan səviyyədə alınmamışdır. "Köhnə dünya" bir qədər qeyri-təbii səslənir. Burada "köhnə" əvəzinə bəzi tərcümələrdə (Ə.Kürçaylı və E.N.Sibirel) olduğu kimi "qoca" və ya hamıdan fərqli şəkildə "fani" sözü işlədilsə misra daha təbii və uğurlu alınardı.

Bizə belə gəlir ki, F.Qocanın bu şeirin əvvəlki tərcümələrilə tanışlığı, mövcud tərcümələrdəki söz və ifadələrdən qaçmaq arzusu, onun tərcüməsinin poetik vüsətinə mənfi təsir göstərmişdir. Təkrarlardan qaçmaq arzusu, ümumilikdə, təqdirəlayiq hal olsa da, müəyyən məqamlarda ciddi qeyri-təbiiliklərin əmələ gəlməsinə gətirib çıxarmış və bütün bunlar tərcümədə arzu olunan nəticənin əldə edilməsinə mane olmuşdur. Digər tərəfdən, səsin, vurğunun, intonasiyanın Yesenin poeziyasındakı rolu, uğur qazanmaq istəyən, hər bir mütərcimin diqqət mərkəzində olmalıdır. Yeseninin, onsuz da tərcüməni çətinləşdirən xəlqilik elementləri ilə zəngin olan səmimi nitqi, dili bir sıra məqamlarda müəyyən ritmik-sintaktik gedişlərlə də xeyli zənginləşir. Fikrimizcə, Yesenin poeziyasında mühüm ritm yaradan elementlərin misralarda əvəzlənməsi, uğurlu səslənmə, vurğu və intonasiya, bir sıra digər tərcüməçilərdə olduğu kimi F.Qocanın tərcüməsində də adekvat şəkildə yaradıla bilməmişdir.

F.Qocadan sonra şeiri H.İsaxanlı tərəfindən tərcümə edilmişdir:

Salamat qal, dostum, sağ-salamat qal,
Qəlbimdə, əzizim, yuva salmısan.
Ayrılıq qismətdir, qarşıda vüsal -
Görüş də vəd edir bizə bu hicran.

Nə əl et, nə danış, sağ-salamat qal,
Nə qəm ye, əzizim, nə qaşını çat.
Ölümə çarə yox, uçsa da xəyal -
Nə ölüm yenidir, nə də ki... həyat

[42, s.104].

Biz burada da, "Əlvida, Bakı!" şeirində olduğu kimi, H.İsaxanlının tərcüməsini təhlilə cəlb etmirik və tərcüməni, heç bir əlavə şərh vermədən, diqqətə çatdırmaqla kifayətlənirik.

Şeirin sayca 13-cü tərcüməsi Ə.R.Xələfliyə aiddir:

Əlvida, ey dostum, əlvida dedim,
Bu dərdi kökündən qoparıram mən.
Bəxtimə yazılan kədəri yedim,
Səni ürəyimdə aparıram mən.

Əlvida, ey dostum, yenə əlvida,
Sükutun önündə təzim et, əyil.
Ölümün nəfəsi gəzir havada,
Nə ölüm, nə həyat təzəlik deyil! [19]

Tərcümə, ümumilikdə, ayrıca bir şeir kimi, kifayət qədər poetik səslənir. Amma bununla belə bu, orijinal şeir deyil, tərcümə olduğundan bəzi məqamları qeyd etməyi vacib hesab edirik. Orijinaldakı «Обещает встречу впереди» fikri tərcümədə tamamilə unudulmuş, əvəzində ayrılığa köməkçi bir təsvir – əslində orijinalla ciddi əlaqəsi olmayan "Bu dərdi kökündən qoparıram mən" misrası əmələ gəlmişdir. Digər tərəfdən, orijinalda ikinci bəndin birinci iki misrasındakı dörd ifadə («без руки», «без слова», «не грусти», «не печаль бровей») tərcümədə bircə misra vasitəsilə ("Sükutun önündə təzim et, əyil") verilmişdir ki, bunu da uğurlu ümumiləşdirmə hesab etmək olmaz. Belə ki, «без руки», «без слова» ifadələri bu misrada, müəyyən mənada, hiss edilsə də, «не грусти», və xüsusən də «не печаль бровей» ifadələri həmin misraya yerləşmir. Hesab edirik ki, bu ifadələrin ayrıca təsvir edilməsi tərcümənin yalnız xeyrinə olardı. İkinci bəndin birinci misrasının "Əlvida, ey dostum, yenə əlvida" kimi verilməsi də orijinaldakı ayrılıq səhnəsinin qəmini, kədərini, sakit və səssiz ayrılıq səhnəsini təsvir edə bilmir, ayrılıq səhnəsinə sanki bir lazımsız intonasiya, ruh gətirir.

Şeirin növbəti tərcüməsi R.İsayevə məxsusdur:

Salamat qal, dostum mənim, salamat,
Əzizimsən, qəlbimdəsən mənim sən,
Ayrılmaq vədəsi, bugünkü həyat
Vəd eləyir, görüşərik yenidən.

Salamat qal, nə görüş, nə əl verək,
Qaşın çatıb kədərlənmə, qəmi sil.
Yenilik deyildir həyatda ölmək,
Yaşamaq özü də yeni şey deyil [50, s.93].

Bundan əvvəl şeirin 14 mütərcim tərəfindən tərcümə edilməsinə baxmayaraq yenidən bu şeirə müraciət edilməsi, əlbəttə ki, Yesenin yaradıcılığına, Yesenin şəxsiyyətinə böyük marağın bir daha təcəssümüdür.

Birinci misra tamamilə orijinala uyğundur və bunu tərcüməçinin uğuru kimi qeyd etmək doğru olar. Amma ikinci misrdakı ("Əzizimsən, qəlbimdəsən mənim sən") "sən"lər misranı kifayət qədər ağırlaşdırır, şeriyyəti xeyli zəiflədir. Bəndin üçüncü misrası isə, bəlkə də bu tərcümədə ən zəif məqamdır. Orijinaldakı «пред-назначенное расставанье» ifadəsi "Ayrılmaq vədəsi, bugünkü həyat" kimi qarmaqarışıq bir şəkildə verilmişdir ki, bu, fikrimizcə, orijinala, ordakı məna və məzmuna qeyri-həssas, bir qədər də laqeyd münasibətdən doğur. İkinci bəndin birinci misrasındakı «без руки, без слова» fikrinin, "nə görüş, nə əl verək" kimi ifadə olunması da uğurlu hesab edilə bilməz. Orijinaldakı "əl vermədən", "səssiz-səmirsiz" bir ayrılıq mənzərəsi, tərcümədə uğursuz şəkildə sadələşdirilmişdir. Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, tərcüməçi son iki misradakı fikri dəqiq və məzmunlu şəkildə ifadə etməyə nail olmuşdur.

Yeseninin qələmindən çıxmış son şeirin bu günə məlum olan son tərcüməsi akademik T.Kərimli tərəfindən edilmişdir:

Daha salamat qal! Dostum, di sağ ol!
Canım, sinəmdə sən salmısan məskən.
Ayrılığa gedən bu amansız yol
Görüş ümidini verir yenidən.

Di sağ ol! Nə əl ver, nə danış, nə din,
Üzülmə, qaşını gəl çatma belə.
Yeni bir şey deyil ölüm dediyin,
Ondan yeni deyil həyat da elə... [110]

Təhlilə keçməzdən əvvəl qeyd etmək istəyirik ki, müəllifin bizə şəxsən təqdim etdiyi mətndə birinci bəndin dördüncü misrasında "ümidini" deyil, ürəyə daha yaxşı yatan "umudunu" yazılmışdı. Bu dəyişikliyin redaksiya tərəfindən edildiyi qənaətindəyik. T.Kərimlinin akademik İsa Həbibbəyliyə ithaf etdiyi bu tərcümə özündən əvvəlki tərcümələrdən xeyli fərqlənir. Əvvəlki müxtəlif tərcümələrdə eyni ifadələrin

işlədilməsi nəticəsində müəyyən təkrarlara rast gəldiyimiz halda, bu tərcümənin hər misrasında, demək olar ki, yeni ifadələr, yeni ifadə tərzinin şahidi oluruq. Yeri gəlmişkən, qeyd edək ki, T.Kərimlinin Yesenin poeziyasından digər tərcümələrində də [53; 111] bu xüsusiyyətlər aydınca görünür. Əlbəttə, özündən əvvəlki tərcümələrdə işlənilmiş ifadələrdən qaçılması hələ uğur qazanmaq demək deyildir. Amma, istənilən halda, bu tərcümədəki "yeniliklər" xeyli maraqlı görünür.

Şerin birinci misrası, əvvəlki tərcümələrdən tam fərqli şəkildə, özü də xeyli maraqlı ifadə olunsa da, ikinci misradakı "ağırlıq" dərhal gözə dəyir. Belə ki, misradakı beş sözdən dördünün "s" ağırlıqlı olması, misranın səslənməsini, tələffüzünü ağırlaşdırmış, misradakı poeziyanı xeyli zəiflətmişdir. Buradakı "canım" ifadəsi də, əzizləmə mənası daşımasına baxmayaraq, sanki, yerində deyil, ürəyə yatmır. Bəndin son iki misrasının orijinaldakı uyğun fikri maraqlı ifadə etdiyini də qeyd etmək istəyirik. İkinci bəndin ikinci misrasını ("Üzülmə, qaşını gəl çatma belə") xüsusi qeyd etmək lazım gəlir. Fikrimizcə, bu misranın tərcüməsi əvvəlki tərcümələrdən Ş.Sadiqin ("Nə qaşlarını çat, nə gözün dolsun"), Anarın ("Çatma qaşlarını, eyləmə kədər") və H.İsaxanlının ("Nə qəm ye, əzizim, nə qaşını çat") tərcümələri qədər ürəyəyatandır, orijinaldakı qəm-kədər səhnəsini eyni dərəcədə oxucuya çatdıra bilir.

Tərcümənin son beyti də, ümumilkdə, maraqlı hesab edilməlidir. Amma burada orijinaldakı «жить» ("yaşamaq") yerinə ümumiləşdirilmiş "həyat" ifadəsinin işlədilməsi, bu misralarda "ölüm-həyat" kontrastının gerçəkləşməsinə baxmayaraq, fikrimizcə, uğurlu seçim deyil. Amma bütün qeyd etdiyimiz çatışmazlıqları ilə bərabər şeirin T.Kərimli tərcüməsini uğurlu tərcümə variantlarından biri kimi qəbul edirik.

"Əlvida, ey dostum, əlvida artıq" şeirinin tərcüməsi ilə bağlı bir məqamı da qeyd edək. 1965-ci ildə "Sovet Gürcüstanı" qəzetində çap olunmuş bir məqalədə [66] şeirin birinci bəndinin tərcüməsi verilmişdir. Qeyd edək ki, həmin dövrdə şeirin yalnız bir tərcüməsi - Ş.Sadiqin tərcüməsi (1959) mövcud idi. Doğrudur, 1965-ci ildə Ə.Kürçaylı da şeiri tərcümə etmişdi. Lakin adı çəkilən məqalənin dərc olunduğu dövrdə Ə.Kürçaylının tərcümələr toplusu hələ çapdan çıxmamışdı. Tərcümələr

arasında birinci və üçüncü misralarda kiçik fərqlər olsa da, ikinci və dördüncü misralar Ş.Sadiqin tərcüməsi ilə üst-üstə düşür. Tərcümə tam olmadığı üçün heç bir əlavə şərh vermədən onu olduğu kimi diqqətə çatdırırq:

Əlvida, əlvida, dostum, əlvida,
Səni gəzdirərəm ürəyimdə mən.
Bax, təyin edilmiş bu ayrılıq da
Görüş vəd eləyir bizə yenidən.

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, S.Yeseninin öz yaradıcılığında müxtəlif çalarlı xitablardan geniş və intensiv surətdə istifadə etməsi onun şeirlərinin başqa dillərə tərcüməsi prosesində xeyli özünəməxsusluqlar və bununla da, təbii ki, müəyyən çətinliklər yaradan məqamlardandır. Yeseninin şeirlərində insana, təbiətə, heyvanlara və s. yetərincə müraciət, xitab edilmişdir. Xitab bu və ya digər şəxsə, canlılara, cansız əşyalara, konkret və mücərrəd anlayışlara müraciəti nəzərdə tutur. Q.Kazımov belə bir mövqedən çıxış edərək xitabları aşağıdakı 3 qrupa bölür: insana müraciətlə işlədilənlər; başqa canlı varlıqlara (heyvanlara, quşlara) müraciətlə işlədilənlər və cansız varlıqlara müraciətlə işlədilənlər [51, s.245].

Yesenin poeziyasında xitablar yalnız ad, çağırış bildirməklə bağlı olmayıb, şairin obrazlara münasibətini əks etdirməklə yanaşı, həm də müəllifin ustalıqla istifadə etdiyi bədii gücləndirmə vasitəsi kimi diqqəti cəlb edir. Yesenin yaradıcılığında xitabların ifadə tərzi, onların cümlədə yeri, ahəngi, işlənmə metodları, ilk növbədə, şairin öz poeziyasında intonasiyaya verdiyi xüsusi önəmlə əlaqədardır ki, bu da xüsusi halda misraya, ümumilikdə də şeirin özünə xüsusi məzmun və rəng verir. Buna görə də poetikliyin mükəmməlliyinə xidmət edən bu xitabların Azərbaycan tərcümələrində maksimim adekvat şəkildə saxlanılması məsələsi ayrılıqda mütərcimlərin, ümumilikdə milli tərcüməşünaslığımızın qarşısında duran mühüm problemlərdəndir. Odur ki, Yesenin poeziyasından tərcümələr edən hər bir mütərcim bu məqamı həmişə diqqət mərkəzində saxlamalıdır. Bəs Yesenin poeziyasında tez-tez rast gəlinən və şairin ən mühüm bədii gücləndirmə vasitələrindən biri kimi işlətdiyi xitabların Azərbaycan tərcümələrində saxlanılması, onların poetik rolunun qiymətləndirilməsi ilə bağlı mənzərə reallıqda necədir? Əlbəttə, bu suala ətraflı cavab

vermək üçün Yeseninin ümumi yaradıcılığında xitabların rolunu onun Azərbaycan tərcümələrində bütünlükdə nəzərdən keçirmək daha yaxşı olardı. Biz isə bu tədqiqatımızın xarakterini nəzərə alaraq yalnız geniş təhlilə cəlb etdiyimiz "İran nəğmələri", "Əlvida, Bakı!" və "Əlvida, ey dostum, əlvida artıq" şeirlərinin tərcümələri üzərində məsələyə münasibət bildirməyi zəruri heçab etdik.

"Əlvida, ey dostum, əlvida artıq" şeiri müəllifin, xitabların yer aldığı çoxsaylı şeirlərindən biridir. Cəmi iki bənddən ibarət bu şeirdə biz birinci misrada «друг мой» («dostum mənim»), ikinci misrada «милый мой» («əzizim mənim») və ikinci bəndin birinci misrasında təkrar olunan «друг мой» kimi insana müraciət edilmiş xitablarla rastlaşırıq. Şeirin birinci misrasında müəllif «друг мой» xitabından istifadə edirsə, ikinci misrada o, onun qəlbində xüsusi yeri olan, çox sevdiyi dostunun əlamət və keyfiyyətini önə çəkir, ona «милый мой» xitabı ilə müraciət edir. Əlbəttə, belə müraciət, bir tərəfdən, müraciət olunan şəxsin insani keyfiyyətlərindən xəbər verirsə, digər tərəfdən də müraciət edənlə müraciət olunan şəxslər arasında isti, doğma münasibətin göstəricisi kimi çıxış edir. İkinci bəndə isə «друг мой» xitabı bir də təkrarlanır ki, bu, ümumilkdə Yesenin poeziyasına xas olan bir xüsusiyyətdir və şair bundan, yeri gəldikcə və böyük ustalıqla fikrin bədii gücləndirilmə vasitəsi kimi istifadə edir. A.Bəylərova "Bədii dildə üslubi fiqurlar" kitabında yazır: "*İfadənin qüvvətləndirilməsi, nitqin təsir qüvvəsinin artırılması üçün xitabların müxtəlif şəkildə təkrarlanması üsulundan da istifadə edilir. Müəllif xitabların təkrarı vasitəsilə onların emosionallığını artırır və bununla da yüksək dərəcəli ekspressivlik yaradır. Belə təkrarlar nəzm əsərlərində ritm yaradılmasına da kömək edir*" [7, s.173-174].

Şübhəsiz ki, ritm, intonasiya, şəxsi emosional hislərin canlı ifadəsi hər bir yaradıcılıq əsərində, həm nəsr, həm də nəzm əsərlərdə, qarşıya qoyulan məqsədin oxucuya daha yaxşı çatdırılmasında mühüm rol oynayan elementlərdəndir. Poeziyada isə bu, xüsusilə özünü biruzə verir. Bu məqam "Əlvida, ey dostum, əlvida artıq" şeiri üçün də keçərlidir. Burada xitablardan istifadə edilməsi ilə yanaşı, bir xitabın iki müxtəlif misrada təkrarlanmsı şeirin ritminə, intonasiyasına, ahənginə xüsusi rəng qatır. Təəssüf ki, bu şeirin bəzi Azərbaycan tərcümələrində təkrar xitablar unudulmaqla, onların orijinala verdiyi güc, bunun vasitəsilə müəllifin emosional

hislərinin ifadəsi, eləcə də bunun ayrılıq səhnəsinin təsvirində oynadığı fövqəladə rol diqqətdən kənar qalmışdır. Şeirin dilimizə tərcümələrinin təhlili göstərir ki, orijinaldakı Yesenin xitablarının Azərbaycan mütərcimləri tərəfindən verilməsi, müəyyən mənada, uyğun olsa da, burada bir sıra hallarda xeyli uyğunsuzluqlar nəzərə çarpır. Belə ki, bəzən xitablar düzgün tərcümə edilmir və ya tərcümədə xitabın intonasiyası itirilməklə, ümumiyyətlə, xitablıq funksiyası itirilmiş olur, bəzən hər-hansı bir xitab tərcümədən kənar qalır, bəzən də bir xitab tərcümə edilir, amma onun təkrarı diqqətdən kənar qalır. Əlbəttə, mütərcimlərin bunları bilərəkdən etməsi fikri ilə müqayisədə, bunun onların tərcümə prosesində qarşılaşdığı çətinliklərlə bağlı olduğunu söyləmək daha məntiqəuyğun görünür. Çünki, xitabların poeziyada, xüsusi halda Yesenin poeziyasındakı rolu, əlbbəttə ki, bütün mütərcimlərə məlumdur. Amma tərcümə prosesində əmələ gələn müəyyən praktik çətinliklər bəzən tərcüməçini reallıqla üz-üzə qoyduğundan, mütərcim istəmədən də bəzi qurbanlar verməli olur. Dediklərimizi konkret nümunələr üzərində əsaslandırmaq olar. Məsələn, Ş.Sadiq birinci misradakı «друг мой» xitabını “ey dostum” şəklində versə də, nə ikinci misradakı «милый мой», nə də ikinci bəndin birinci misrasındakı «друг мой» xitabını saxlamağa müvəffəq olmamışdır. Ə.Kürçaylı isə xitabların hər üçünü, uyğun olaraq, “ey dostum”, “əzizim” və “dostum” şəklində saxlamışdır. Anar birinci və ikinci misralarda “ey dostum”, “əzizim” xitablarını işlətsə də, nədənsə üçüncü halda «друг мой» xitabını tərcümə etməyi lüzumsuz saymışdır. N.Kəsəmənli «друг мой» xitabını hər iki halda “əziz dost” kimi vermiş, «милый мой» xitabına isə önəm verməmişdir. Görünür, tərcüməçi “əziz” sözündən artıq iki dəfə istifadə etdiyinə görə «милый мой» müraciətinin verilməsinə lüzum olmadığı qənaətinə gəlmişdir. K.Aslan başqa mütərcimlərdən fərqli olaraq «До свиданья, друг мой, до свиданья!» misrasını “Salamat qal, əziz dostum, salamat” kimi çevirməklə, birinci misradakı «друг мой» əvəzinə “əziz dostum”a üstünlük vermiş, «милый мой» xitabını “əzizimsən” kimi çevirmiş, digər «друг мой» ifadəsini isə ümumiyyətlə tərcümə etməmişdir. F.Mustafa «друг мой» xitabını birinci halda “ey dostum”, ikinci halda “əzizim” kimi vermiş, ikinci misradakı «милый мой» xitabını isə ümumiyyətlə tərcümə etməmişdir. E.N.Sibirel «друг мой» xitabını “əzizim”, «милый мой» xitabını

“dostum” kimi verməklə, bir qədər müəmmalı yerdəyişməyə yol vermiş, ikinci bənddəki «друг мой» xitabını isə nəzərdən qaçırmışdır. E.Borçalı «друг мой» xitabını “Ay dost”, «милый мой» xitabını “əzizim” kimi ifadə etmiş, amma təkrar xitab kimi ikinci bəddəki «друг мой» ifadəsini ümumiyyətlə diqqətə almamışdır. M.Qarayev, «друг мой» ifadəsini birinci halda “əziz dost”, ikinci halda isə “ey dostum” kimi verməklə yanaşı, «милый мой» xitabını tərcümə etməmişdir. G.Paçxataşvilinin tərcüməsində «друг мой» xitabı hər iki halda “ey dostum” kimi təqdim edilmiş, «милый мой» isə “mənim əzizim” kimi verilmişdir. F.Qoca isə şeirdəki üç xitabdan yalnız birini tərcümə etmiş, «друг мой» xitabını “ey dostum” kimi vermiş, digər iki məqam isə tərcümədə ümumiyyətlə diqqətdən kənar qalmışdır. H.İsaxanlının tərcüməsində ikinci misradakı «милый мой» xitabı “əzizim” kimi verilməklə, «друг мой» müraciəti birinci halda “dostum” kimi verilsə də, ikinci halda, bəndin ikinci misrasına atılmaqla, o da “əzizim” kimi ifadə edilmişdir. Ə.Xələfli «друг мой» xitabını hər iki halda “ey dostum” kimi vermiş, lakin «милый мой» müraciətinə əhəmiyyət verməmişdir. R.İsayev «друг мой» ifadəsini birinci halda, bütün digər mütərcimlərlə müqayisədə, daha adekvat şəkildə “dostum mənim” kimi vermiş, «милый мой» xitabını “əzizimsən” şəklində təqdim etmiş, «друг мой» xitabının təkrarı isə diqqətdən kənar qalmışdır. Şeirin bu günə məlum olan son tərcüməsində T.Kərimli birinci misradakı «друг мой» müraciətini “dostum”, ikinci misradakı «милый мой» xitabını “canım” kimi vermiş, ikinci bəndin birinci misrasındakı «друг мой» müraciəti isə tərcümədə yer almamışdır. Burada onu da qeyd etməyi lazım bilirik ki, şeirin ikinci misrasındakı «милый мой» xitabı K.Aslanda və R.İsayevdə “əzizimsən” şəklində təqdim edilməklə, xitab funksiyasını, xitab intonasiyasını itirmiş, adi xarakter almışdır.

Göründüyü kimi, “Əlvida, ey dostum, əlvida artıq” şeirini dilimizə çevirmiş mütərcimlərdən yalnız üçü – Ə.Kürçaylı, G.Paçxataşvili və H.İsaxanlı orijinalda yer alan hər üç xitabı tərcümədə saxlamaqla, bu və ya digər mənada xitabların bədii gücləndirmə xüsusiyyətlərini nəzərə almış, müəllif xitablarının həm məna-məzmun, həm də emosional çalarlarını hər mütərcim, bu və ya digər səviyyədə, özünəməxsus rənglərlə oxuculara çatdıra bilmişdir. Digər bütün mütərcimlər, bu və ya digər

xitabları tərcümə etməməklə, ümumilikdə xitabların müxtəlif şəkildə təkrarlanması yolu ilə əldə edilə biləcək bir sıra üstünlüklərin, o cümlədən yuxarıda qeyd etdiyimiz "ifadənin qüvvətləndirilməsi, nitqin təsir qüvvəsinin, onların emosionallığının artırılması və yüksək dərəcəli ekspressivlik yaradılması" imkanından yetərincə istifadə edə bilməmişlər. Lakin burada onu da qeyd etməyi özümüzə borc bilirik ki, bütün xitabların tərcümədə, bu və ya digər səviyyədə, diqqətə alınması, şübhəsiz tərcümənin ümumi səviyyəsinə öz təsirini göstərsə də, heç də tərcümənin ümumilikdə uğurlu alınmasının qarantı kimi qəbul edilə bilməz. Bunlar yalnız tərcümənin digər funksiyaları ilə vəhdət şəklində olduqda tərcümədəki ümumi uğurdan danışmaq olar. Bu, "İran nəğmələri", "Əlvida, Bakı!" və "Əlvida, ey dostum, əlvida artıq" şeirlərinin tərcümələrini təhlillərə cəlb etdiyimiz uyğun paraqraflarda söylədiyimiz fikirlərlə bir daha öz sübutunu tapmışdır.

Beləliklə, "Əlvida, ey dostum, əlvida artıq" şeirini 16 tərcüməçi dilimizə çevirmişdir. İlk 4 tərcümə (Ş.Sadiq, Ə.Kürçaylı, Anar və N.Kəsəmənli) 15 illik bir zaman kəsiyində (1959-1974) edilsə də, sonra uzun bir müddət – 20 il müddətində bu şeirə müraciət edən olmamışdır. Nəhayət, 1994-cü ildə M.Qarayev Yeseninin bu şeirini Azərbaycan dilinə tərcümə etmişdir. 2005-2006-cı illərdə – Yeseninin anadan olmasının 110 illiyi ərəfəsində şeir dörd tərcüməçi tərəfindən (K.Aslan, F.Mustafa, E.N.Sibirel, E.Borçalı) yenidən tərcümə edilmiş, 2008-ci ildə M.Qarayev, 2010-cu ildə isə E.Borçalı əvvəlki tərcüməsini təkmilləşdirərək, şeirin yeni tərcümə variantını təqdim etmişlər. 2009-cu ildə İ.İsaxanlı, 2010-cu ildə Q.Paçxataşvili, F.Qoca, H.İsaxanlı və Ə.R.Xələfli, 2013-cü ildə R.İsayev şeiri ana dilimizə çeviriblər. Şeirin bu günə məlum olan son tərcüməsi isə 2017-ci ildə T.Kərimli tərəfindən edilmişdir.

Şeirin Azərbaycan tərcümələri üzərində apardığımız müşahidələr onu sübut edir ki, əsərin 16 mütərcim tərəfindən dilimizdə səsləndirilməsinə baxmayaraq, birinci tərcümə ilə (1959) sonuncu tərcümə (2017) arasındakı, təxminən, 60 illik zaman da, ümumilikdə, sonrakı tərcümələrin səviyyəsinin yüksəldilməsinə xidmət edə bilməmişdir. Mütərcimlərin əksəriyyəti Ş.Sadiq, Ə.Kürçaylı estafetini nəinki layiqincə davam etdirə bilməmiş, əksinə, müəyyən məqamlarda şeirin tərcüməsi ilə bağlı əldə edilmiş uğurları qoruyub saxlamağa belə müvəffəq olmamışdır. Bəzən geniş, bəzən

lokal itkilərə yol verməklə, onlar əvvəlki tərcümələrə nisbətən yeni tərcümələrin ümumi bədii-poetik səviyyəsini, demək olar ki, yüksəldə bilməmişlər. Tərcümələrin əksəriyyətində orijinalın təbii intonasiyası gah söz qıtlığı, gah da söz israfçılığı hesabına monoton intonasiya ilə əvəzlənmişdir ki, bunu da tərcümələrin oxucu tərəfindən qəbul edilməsinə mane olan məqamlar kimi qiymətləndiririk.

Yuxarıda qeyd olunanlarla yanaşı onu da qeyd edək ki, şeirə müraciət etmiş hər bir mütərcim öz poetik arsenalında olan lüğət fondunun köməyi ilə həm orijinala mümkün qədər sadiq qalmağa çalışmış, həm də bəzən adekvat ifadə, fikir tapmayıb, ondan kənarlaşmaq təhlükəsi və hətta reallığı qarşısında qalmışlar. Amma ümumilikdə, tərcümələr arasında beş tərcümə – Ş.Sadiq, Ə.Kürçaylı, Anar, T.Kərimli və M.Qarayevin tərcümələri diqqəti daha çox cəlb edir. Adını çəkdiyimiz tərcümələrin hər birində də müəyyən kənarlaşmalar və çatışmazlıqlar olsa da, bu tərcümələrdə Yesenin şeirinin əksər elementləri və xüsusiyyətləri doğru-dürüst canlandırılmışdır. Tərcümələrin dili axıcı, sadə, rəvan və ritmikdir. Adı çəkilən tərcüməçilər, digəriləri ilə müqayisədə, hər bir bəndin orijinalda yer almış mahiyyətini aydın şəkildə yaratmağa müvəffəq olmuşlar. Bu tərcümələrdən hər biri Azərbaycan tərcümələk məktəbinin inkişafına, mütərcimlik sənətinin formalaşmasına öz müsbət təsirini göstərə biləcək səviyyədədir.

Fərqləndirdiyimiz beş tərcümə arasında isə, ürəyimiz Ş.Sadiq və Ə.Kürçaylının tərcümələri arasında çırpınsa da, Ə.Kürçaylının tərcüməsini daha uğurlu hesab edirik və bu seçimimiz əsassız deyildir. Əslində, yuxarıda Ə.Kürçaylının tərcüməsini təhlilə cəlb edərkən, burada da bir sıra mənfi məqamların olduğunu qeyd etmişdik. Bəs bu qədər "çatışmamazlıqların" olduğu halda, Ə.Kürçaylının tərcüməsini xüsusi fərqləndirməyimizin səbəbi nədir?

Şeir cəmi iki bənddən ibarətdir və buna görə də ilk baxışda asan tərcümə olunan şeir kimi görünə bilər. Amma alman yazıçısı və tərcüməçisi Hartmut Löffelin yazdığı kimi, "*kiçik şeirlər tərcümə zamanı çox vaxt böyük çətinliklər doğurur*" [253, s.16] və şübhəsiz, "Əlvida, ey dostum, əlvida artıq" şeiri də belə nümunələrdəndir. Şeirin, yuxarıda qeyd etdiyimiz kimi, faktik olaraq, şairin həyata vida nəğməsi olması, buradakı hiss və həyəcanın sadə göründüyü qədər də mürəkkəb məzmunu, qeyri-adi intona-

siyası, şairin həmin an keçirdiyi hislərin həyəcanlı ifadəsi, bununla yanaşı, müəllifin bu ayrılıq anındakı inanılmaz "sakitliyi", vaxtsız ölümü bu qədər səbrlə və təbii qarşılaması və üstəlik, bütün bunların Yesenin səmimiyyəti ilə verilməsi – budur bu şeirin tərcüməsində, onun məzmununun və xüsusən də, ruhunun oxuculara çatdırılmasında mütərcimi kifayət qədər çətinlik qarşısında qoyan məqamlar. Tədqiqatçı P.Məmmədova "Əlvida, ey dostum, əlvida artıq" şeirinin ilk dörd tərcüməsini (Ş.Sadiq, Ə.Kürçaylı, Anar, N.Kəsəmənli) təhlil edərkən bu şeirin tərcüməsində uğur qazanmanın yollarını belə ümumiləşdirir: "*Şeirin dörd tərcüməsinin müqayisəli təhlili göstərir ki, hətta ən gözəl özünəməxsus poetik əsəri də başqa bir dilin bədii vasitələri ilə yenidən yaratmaq olar. Bunun üçün mütərcim tərcümə etdiyi şeirin bütün incəliklərinə dərindən bələd olmalı, orijinal müəllifinin poetik dünyasına dərindən nüfuz etməli, nəyin öz oxucusuna çatdırılmasını və nəyi qurban verməyin mümkünlüyünü bilmək məqsədilə özü üçün orijinaldakı əsas və ikinci dərəcəli məqamları müəyyənləşdirməli və yalnız bundan sonra əsəri öz dilində yenidən yaratmalıdır*" [266, s.45].

Ə.Kürçaylının tərcüməsinə gəlincə, qeyd edək ki, mütərcim şeirin tərcüməsilə bağlı yuxarıda sadalanan məqamların əksəriyyətini dərindən duymuş, gözəl, yaddaqalan bir tərcümə əsəri yaratmağa müvəffəq olmuşdur.

Tanınmış rus tənqidçisi L.Ozerovun fikrincə, yaxşı sənətkarın şəxsi möhürü yalnız şairin orijinal şeirində deyil, tərcümədə də hiss olunmalıdır. Mütərcim şeiri elə çevirə bilməlidir ki, çətinlik çəkmədən, şeirin, konkret olaraq bir şairə, məsələn, Pasternaka və ya Svetayevaya məxsus olduğunu duya biləsən [286, s.103]. Hesab edirik ki, Ə.Kürçaylı "Əlvida, ey dostum, əlvida artıq" şeirinin tərcüməsinə məhz, bu mənada, öz mütərcim möhürünü vura bilmişdir. Ə.Kürçaylının nəinki "Əlvida, ey dostum, əlvida artıq" şeirinin, ümumilikdə, Yesenin poeziyasının ən yaxşı tərcüməçilərindən biri və hətta birincisi olması həddindən artıq təbiidir. Bu, Ə.Kürçaylının yüksək şairlik və tərcüməçilik istedadı ilə yanaşı, onun böyük rus şairinə olan hədsiz sevgisindən, vurğunluğundan və yuxarıda qeyd etdiyimiz kimi, bu iki şair arasındakı ruh qohumluğundan qaynaqlanır. Yesenini özünün "poeziya müəllimi» adlandıran mütərcim yazır: "*Yesenin poeziyası – mükəmməllik poeziyasıdır. Fikrin vasitəsizliyi və səmimiliyi, reallıq, demokratizm – budur Yesenin poeziyasının canı. Məni cəlb*

edən, Yesenin poeziyası ilə möhkəm iplərlə bağlayan da elə budur. Bütün bunlarla o, mənim üçün bir müəllimdir. Mənim poeziya müəllimim!"... Onun şeirlərini oxuduqca, şam ağacları və ağcaqayınların qoxusunu hiss edirsən, onları başqalarıyla qarışdırmaq mümkün deyil və onların aramatı mənə çatınca, bu şeirlərin Yeseninə aid olmasına heç bir şübhəm qalmır" [242].

Ə.Kürçaylının Yesenindən tərcümələrinin böyük uğur qazanmasında onun rus şairinə vurğunluğunun xüsusi rolunu, Azərbaycan dilində bədii tərcümələrin vəziyyəti və vəzifələri haqqında danışarkən, akademik B.Nəbiyev belə ifadə etmişdir: "*Kürçaylının Yeseninə vurğunluğu keçici hal olmadı, rus sənətkarını, onun bakir yaradıcılığını bütün incəlikləri ilə qavramasına gətirib çıxartdı... Onun tərcümələri üçün hər iki dili əla bilməyin və poetik həssaslığın vəhdətindən doğan məna dəqiqliyi, səmimiyyət səciyyəvidir*" [69, s.78].

Beləliklə, "Əlvida, ey dostum, əlvida artıq" şeirinin, təhlilə cəlb etdiyimiz, bütün tərcümələri arasında Ə.Kürçaylının tərcüməsini daha poetik, daha təsirli, daha ürəyəyatımlı, daha uğurlu hesab edirik. Tərcümənin dili kifayət qədər rahat və axıcıdır. Mütərcim şeirin dilimizdə gözəl və canlı səslənməsinə müvəffəq olmuş, hər iki bənddə fikir tam, aydın verilmiş, son beytlər sanki bir zərbi-məsəl kimi səslənir. Bütün bunlar tərcümədəki bəzi mövcud nöqsanları unutdurur və nəticədə, orijinal müəllifinin bütün ürək çırpıntılarını dolğun şəkildə ifadə etməyə nail olmuş mütərcimin dilimizdə Yesenin şeiriyyətinə, Yesenin ruhuna uyğun bir tərcümə nümunəsi yaratdığını bir daha sübut edir.

NƏTİCƏ

Beləliklə, Azərbaycan-rus ədəbi əlaqələrini "Sergey Yesenin və Azərbaycan" mövzusu kontekstində nəzərdən keçirərkən gəldiyimiz qənaətləri aşağıdakı kimi ümumiləşdirmək olar.

Sergey Yeseninin Azərbaycanla əlaqələrinin yeni müstəvidə tədqiqi, şairin ümumi ədəbi-poetik irsində "Bakı dövrü"nün yerinin və rolunun müəyyənləşdirməsinə həsr edilmiş bu tədqiqat işi millətlərarası ədəbi əlaqələr və münasibətlərin son onilliklərdə Azərbaycan ədəbiyyatşünaslığında tədqiqat və araşdırmalar səviyyəsində aktuallaşması prosesinin davamı olaraq həyata keçirilmişdir. Dissertasiyada, Azərbaycan ədəbiyyatşünaslığında uyğun mövzu ilə bağlı indiyə qədər mövcud olan tədqiqatlarla müqayisədə, daha çox ilkin mənbələrə, tarixi fakt və materiallara söykənilmiş, əsərdə səsləndirilən hər bir fikir və ifadə yalnız birinci mənbəyə istinad edilərək verilmiş, tədqiqatda S.Yeseninlə bağlı heç nə ikinci əldən götürülməmiş və ikinci mənbədən heç bir fikir səsləndirilməmişdir.

Dissertasiyanın, S.Yeseninin həyat və yaradıcılığının Bakı dövrünün onun umumi yaradıcılığında tutduğu yeri və rolunun müəyyənləşdirilməsinə həsr edilmiş birinci fəslində şairin Bakıda olduğu dövrdə ədəbi fəaliyyəti, dərc edilmiş şeirləri, onun iştirakı ilə keçirilmiş ədəbi-bədii gecələr, haqqında Bakı mətbuatında dərc edilmiş məqalələr, böyük rus şairinin Azərbaycan ədəbi-mədəni mühiti ilə bağlılığı və s. məsələlər ətraflı şəkildə araşdırılmışdır.


Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Yeseninin həyat və yaradıcılığının Bakı dövrü onun yaradıcılığının ən məhsuldar və ən maraqlı dövrü olmaqla, şairin ümumi yaradıcılığında xüsusi yer tutur və ümumilikdə kifayət qədər zəngin olan Yesenin yaradıcılığı, şairin Bakı dövrü olmadan, bir qədər kasıb görünərdi. Ümumiyyətlə, Yeseninin həyatının kənddə keçən illəri (əsasən, uşaqlıq və bir az da yeniyetməlik dövrü) şairin həyatında nə qədər dərin izlər buraxmışdırsa, Bakı dövrü də onun həm həyatında, həm də yaradıcılığında ən az elə o miqyasda iz buraxmışdır və bu mənada, bu dövr Yeseninin həyat və yaradıcılığının heç bir digər dövrü ilə müqayisəyə gəlmir. İrəli sürülən bu fikrin əsaslandırılması üçün geniş spektrdə mənbələrdən – arxiv ma-

terialları, şairin avtoqrafları, məktubları, əsərləri və onların tərcümələri, müasirlərinin dərc edilmiş, eləcə də bu tədqiqat işinə qədər işıq üzü görməmiş xatirələri, Yeseninlə bağlı Azərbaycanda və Rusiyada nəşr edilmiş tədqiqat əsərləri, ona həsr edilmiş şeirlər, bədii və müxtəlif incəsənət əsərləri və bir sıra çoxsaylı digər mənbələrdən istifadə edilmişdir (bax: cədvəl 1). Dissertasiya üzərində işlədiyimiz dövrdə təhlilə cəlb etdiyimiz mənbələr arasında Sergey Yeseninin orijinal yaradıcılığı, o cümlədən şairin Bakıda olduğu dövrdə yazdığı şeirlər, onların yazılma tarixçəsi, məzmunu kimi məsələlər əsas yer tutmuşdur.

Azərbaycan-rus ədəbi əlaqələrini "Sergey Yesenin və Azərbaycan" mövzusu kontekstində nəzərdən keçirərkən, Yeseninin həyat və yaradıcılığını, Azərbaycan milli mühiti ilə əlaqələrini səhifələdikcə bir sıra maraqlı və dəqiq məlumatlarla yanaşı, həm də müəyyən anlaşılmazlıqlarla, qeyri-dəqiqliklərlə, ziddiyyətlərlə dolu, bəzən də ümumiyyətlə bir-birini diametral şəkildə təkzib edən məqamlarla rastlaşdıq. Uyğun mənbələrdə, şairin Bakı görüşləri, Azərbaycan şair və yazıçıları, ziyalıları, o cümlədən C.Qaryağdıoğlu, Ə.Vahid kimi Azərbaycan sənətkarları ilə münasibətləri, Bakı ictimaiyyəti qarşısındakı çıxışları, Bakı mətbuatında şeirlərinin nəşri, burada olduğu dövrdə səhhətində yaranmış problemlər və s. ilə bağlı ziddiyyətli informasiyalar dolaşdığının şahidi olduq.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Yesenin Bakıda olduğu dövrdə Azərbaycan ziyalıları, şair və yazıçıları, sənət adamlarından yalnız C.Qaryağdıoğlu ilə, özü də bəzi tədqiqatçıların yazdığı kimi, bir neçə dəfə deyil, cəmi bir dəfə görüşmüşdür. Belə nəticəyə gəlinmişdir ki, böyük rus şairinin Azərbaycan ziyalıları, şair və yazıçıları ilə görüşlərinin baş tutmamasının əsas səbəbi ziyalılarımızın buna təşəbbüs göstərməməsi deyil, dostları olan hökumət adamlarının şairi belə görüşlərdən təcrid etməsi və burada olarkən onun, əsasən, rus mühitində yaşamasına çalışılması olmuşdur. Yeseninin məhz hökumət adamı olan P.İ. Çaqinin bağ evində qalması da, əslində, elə bu "təcridetmə planı"nın bir hissəsi idi.

Cədvəl 1. Yeseninin həyat və yaradıcılığının
Bakı dövrünün araşdırılmasında əsas mənbələr



Tədqiqat işinin ikinci fəslində şairin yaradıcılığında mərkəzi yer tutan Şərq mövzusu, o cümlədən "İran nəğmələri" şeirlər silsiləsinin yazılma tarixçəsi, silsilədəki qadın obrazları və silsilənin baş qəhrəmanının kimliyi, silsiləyə daxil olan şeirlərin Azərbaycan dilində mövcud olan müxtəlif tərcümə variantları, onun sənətkara böyük poetik söz ustası kimi şöhrət qazandırması, bu nümunələrdə Şərq gözəllərinin tərənnümü, Şərq adət-ənənələrinə münasibət, Şərq landşaftı, koloriti ilə zənginləşmə və eyni zamanda, silsiləyə daxil edilmiş şeirlərdə vətən həsrəti və vətən sevgisinin tərənnümü və s. məsələlər hərtərəfli öyrənilmişdir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, "İran nəğmələri" silsiləsinin qələmə alınmasına qədər "Kabak Moskvası" dövrünü yaşayan S.Yeseninin həmin illərdə keçirdiyi ağır mənəvi böhran tədricən dəyişməyə başlamış, onun poeziyası həmin dövrdə məhəbbət mövzusuna vurulmuş faciəvi möhürdən tədricən azad olmuş, yeni ruhla yazıb-yaratmaq eşqi, könül rahatlığı, nikbin poetik əhval-ruhiyyə şairin Qafqaz, xüsusilə də Bakı səfərləri zamanı yazıb-yaratdığı "İran nəğmələri" silsiləsində özünü daha çox biruzə vermişdir. Sisiləyə daxil olan şeirlərin müxtəlif Azərbaycan mütərcimləri tərəfindən tərcümələrini həm orijinalla, həm də bir-biri ilə tutuşdurmaqla, silsiləyə daha adekvat yanaşma ortaya qoymağa müvəffəq olunmuşdur. Bu məsələlərlə bağlı praktik fikirlərimizin təsdiqində bizə milli və digər xalqlara məxsus ədəbiyyatın tərcümə nəzəriyyəçiləri, o cümlədən, F.Vəlixanova, R.Novruzov, N.Tağısoy, Ə.Xəlilov, P.Məmmədova, V.Bokov, V.Vasilyeva, V.Levik, A.Lilova, Y.Mineralov, İ.Podqaetskaya, A.Çijik-Poleyko, E.Etkind, V.Oqnev, L.Ozerov, S.Marşak, P.Skosırev, Y.Ryaşentsev və başqalarının nəzər-nöqtəsi əsaslı şəkildə yardımçı oldu. Silsilə üzərində apardığımız müşahidələr bir daha təsdiq etdi ki, "İran nəğmələri" silsiləsindən tərcümələr etmiş mütərcimlərimizin hər biri öz istedad və bacarığı daxilində bu nümunələri dilimizdə maksimum poetik səsləndirməyə səy göstərmişlər.

Belə nəticəyə gəlinmişdir ki, silsiləyə daxil olan müəyyən şeirlərin müəyyən məqamlarında müxtəlif mütərcimlər müxtəlif maraqlı ifadə vasitələri tapsalar da, əksər nümunələri, digər mütərcimlərlə müqayisədə, daha adekvat səsləndirmək S.Yesenin yaradıcılığını bir toplu halında ilk dəfə Azərbaycan oxucularına tanıtdıran istedadlı şair-tərcüməçi Ə.Kürçaylıya müyəssər olmuşdur. Ə.Kürçaylının tərcümələri,

“İran nəğmələri” şeirlərini bütünlükdə və ya qismən dilimizə çevirmiş S.Rüstəm, S.Məmmədzadə, E.Borçalı, F.Mustafa, Q.Xalid və digərilərinin interpretasiyalarından, əsasən, yüksəkdə dayanır. Biz bu qənaətə yalnız tərcümələrin müqayisəli-tipoloji tədqiqinə görə deyil, həm də Azərbaycan, rus və digər ədəbiyyatlara məxsus tanınmış tərcümə nəzəriyyəçilərinin tərcümə sənəti ilə bağlı fikirlərinə, nəzəri-metodoloji arqumentasiyalarına əsaslanaraq gəlmişik.

Dissertasiyanın üçüncü fəslində Yeseninin ölümündən dərhal sonra Bakı mətbuatında onun haqqında yazılan məqalələr geniş şəkildə tədqiq edilmiş, Azərbaycan şair və yazıçıları tərəfindən bu böyük rus şairinə həsr edilmiş şeirlər haqqında, eləcə də ümumilikdə, Yesenin yaradıcılığının Azərbaycan tədqiqatçıları haqqında ətraflı araşdırma aparılmışdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan ədəbiyyatşünaslığında Yeseninə həsr edilmiş ilk şeirin müəllifi, indiyə qədər qəbul edildiyi kimi, S.Rüstəm yox, Ə.Nazimdir. Onun əski əlifba ilə yazılan “Sergey Yesenin” adlı şeiri, şairin ölümündən dərhal sonra, “Maarif və mədəniyyət” jurnalının 1926-cı il yanvar nömrəsində dərc edilmişdi. Tədqiqat nəticəsində o da müəyyən edildi ki, indiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında heç bir rus şairinə bu qədər müxtəlif şairlər, yazıçılar, sadə poeziyasevərlər tərəfindən şeirlər həsr edilməmişdir. Belə ki, 1926-cı ildə Ə.Nazim və S.Rüstəmdən başlayaraq sonrakı illər ərzində tanınmış Azərbaycan şairləri M.Rahim, R.Zəka, F.Qoca, Ə.Kürçaylı, N.Xəzri, R.Rövşən, S.Məmmədzadə də daxil olmaqla, 50-ə yaxın şair Yeseninə Azərbaycan və rus dillərində şeirlər həsr etmişlər.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Yesenin yaradıcılığının Azərbaycan araşdırıcıları şairin həyat və yaradıcılığı ilə bağlı, xüsusən də onun yaradıcılığının Bakı dövrü ilə bağlı çoxsaylı tədqiqat əsərləri, müxtəlif məqalələr, kitablar yazmış, bir neçə dissertasiya işi müdafiə edərək, ümumilikdə, Yesenin yaradıcılığının geniş şəkildə tədqiq edilməsinə, şairin ümumi yaradıcılığında Bakı dövrünün yerinin və rolunun müəyyənləşdirilməsinə öz töhfələrini vermiş və bu gün də verməkdədirlər. Belə nəticəyə gəlirik ki, Yeseninin ümumi yaradıcılığını onun Bakı dövrü olmadan təsəvvür etmək mümkün olmadığı kimi, şairin yaradıcılığının ətraflı öyrənilməsi pro-

sesini də Azərbaycan tədqiqatçılarının əsərləri olmadan təsəvvür etmək mümkün deyil. Elə buna görə də bu böyük rus şairinin yaradıcılığının ən məhsuldar və maraqlı dövrü olan Bakı dövrü onun ədəbi-poetik irsində öz yeni və dolğun əksini tapmalıdır və buna nail olunması bu gün Azərbaycan yeseninşünaslığı qarşısında duran ən mühüm vəzifələrdəndir.

Tədqiqatın Yesenin poeziyası və Azərbaycan tərcüməçilik məktəbinə həsr olunmuş son fəslində şairin əsərlərinin Azərbaycan tərcümələrinin tarixinə, nəzəri və praktik aspektlərinə geniş nəzər salınmaqla, "Əlvida, Bakı!" şeirinin və onun Azərbaycan dilinə tərcümələrində milli və yerli koloritin saxlanılması, "Əlvida, ey dostum, əlvida artıq!" şeiri və onun Azərbaycan dilində mövcud müxtəlif variantları müqayisəli zəmində araşdırılmış və təhlilə cəlb edilmişdir. Fəsildə nəzərdən keçirdiyimiz nümunələr üzərində təhlillər aparılarkən biz nəinki qarşılaşdırıcı – müqayisəli üsuldan, həm də dünya, avropa, rus və digər xalqların tərcümə nəzəriyyəçilərinin əsərlərinə müraciət etmiş, onların fikrindən hər bir konkret əsərin tərcüməsinin təhlili prosesində bəhrələnməyə çalışmışıq. Tərcümələr təhlil olunarkən onlarda orijinalda yer almış yerli və milli kolorit, fərdi üslub, poetik vüsət, milli özünəməxsusluq, tərcümədə "ümumi dilin tapılması", söz və ifadə, məzmun, sətri uyğunluq, mahiyyət uyğunluğu və s. kimi məsələlər diqqət mərkəzində dayanmışdır.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, hələ heç bir əcnəbi poetik-bədii söz sahibinin əsərləri Azərbaycan mütərcimləri tərəfindən dilimizdə bu qədər davamlı və intensiv surətdə səsləndirilməmişdir. Belə ki, XX əsrin 20-ci illərində S.Rüstəmdən başlayaraq sonrakı illər ərzində Ə.Ziyatay, R.Zəka, Ə.Kürçaylı, Anar, Ə.Cəmil, N.Kəsəmənli, T.Bayram, S.Məmmədzadə, R.Rövşən, H.İsaxanlı, K.Aslan, E.Borçalı, F.Qoca, T.Kərimli kimi peşəkar söz adamları da daxil olmaqla bir sıra ədəbiyyat adamlarının, şair-mütərcimlərin müxtəlif vaxtlarda bu rus lirikinin yaradıcılığına və şəxsiyyətinə böyük məhəbbətinin şahidi olduq. Təhlillər göstərdi ki, S.Yeseninin elə şeirləri vardır ki, onlar dilimizə nəinki iki, üç, beş, hətta on üç, on altı mütərcim tərəfindən tərcümə olunmuşdur və belə tərcümələrin sayı ildən-ilə artmaqdadır.

Tədqiqat nəticəsində o da müəyyən edilmişdir ki, bu günə qədər, ümumilikdə, 31 poetik fikir sahiblərimizin mütərcim kimi Yesenin yaradıcılığına müraciəti heç də

təsadüfi xarakter daşımamışdır. Əksinə, onun yaradıcılığı şairlərimizin nəinki tərcümə sənətinə yiyələnməsində, həm də onların orijinal yaradıcılığının inkişafında, ümumilikdə, Azərbaycan tərcümə məktəbinin formalaşmasında və inkişafında nəzərəçarpacaq dərəcədə rol oynamışdır. Böyük rus şairinin 124 əsərinin bu günə 248 tərcümə variantının mövcud olması Yesenin poeziyasına Azərbaycanda marağın kifayətqədər aktual və yüksək olduğunu sübut etməkdədir. Bununla belə Yesenin poeziyasından elə tərcümələr də mövcuddur ki, bu tərcümələrdə orijinala uyğun səviyyədə poetik effekt yaradıla bilmədiyinin şahidi oluruq və bu da, öz növbəsində, orijinaldan fikir və məzmun kənarlaşmaları, forma və üslub pozuntularına gətirib çıxartmışdır.

Beləliklə, iki xalqa məxsus ədəbiyyatın qarşılıqlı münasibətlərinin, onların birbirinə qarşılıqlı təsirinin, ümumilikdə Azərbaycan-rus ədəbi əlaqələrinin dərindən öyrənilməsi, sistemli şəkildə tədqiq edilməsi prosesinin çox mühüm bir həlqəsi olan Sergey Yesenin poeziyasının dilimizə tərcümə edilmiş bir sıra nümunələrinin təhlili, bu sahədə əldə edilmiş uğurlarla yanaşı, xeyli çatışmazlıqların mövcudluğunu da üzə çıxartmışdır. Məhz elə buna görə də gələcək tərcümələrdə bu boşluğun doldurulması mütləq nəzərdə tutulmalı, bu böyük rus şairinin əsərlərinin daha mükəmməl tərcümələri ortaya qoyulmalıdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Abdulla, K. Kədərli seçmələr / K. Abdulla. – Bakı: Mütərcim, – 2002. – 548 s.
2. Abdulla Ş. Bədii tərcümə məsələləri ətrafında // Ədəbiyyat qəzeti. – 1935, 6 fevral. – s. 4.
3. Abdullayev, Ə. Müasir Azərbaycan dili / Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. – Bakı: Maarif, – 1972. – 476 s.
4. Ağakərimov, İ. Tərcümədə leksik vahidlərin qismən uyğunluğu və çoxmənalılıq məsələsi // – Bakı: BSU-nun Elmi əsərləri: Dil və Ədəbiyyat seriyası, – 2013. №1, – s. 85-91.
5. Araz, M. Yesenin rəngləri // Ədəbiyyat və incəsənət. – 1974, 6 oktyabr. – s. 8.
6. Arzumanlı, V. Ön söz əvəzi. Bədii tərcümənin incəlikləri və uğurlarını əks etdirən monoqrafiya // Nağıyeva-İsmayılova, O. Azərbaycan ədəbi nümunələrinin rus dilinə tərcüməsi: (1990-2005-ci illər). – Bakı: Mütərcim. – 2012, s. 3-6.
7. Bəylərova, A. Bədii dildə üslubi fiqurlar / A.Bəylərova. – Bakı: Nurlan, – 2008. – 212 s.
8. Bir şeirin dörd tərcüməsi. Ramiz Rövşənin rəyi // Aydın yol. – 2014, 24 oktyabr. – s. 18.
9. Çagin, P. Sergey Yesenin Bakıda // Bakı: Azərbaycan, – 1965. №11, – s. 114-117.
10. Çagina, M. Yeseninlə görüşlər. Xatirələr // Ədəbiyyat və incəsənət. – 1980, 17 oktyabr. – s. 3.
11. Fədai, S. "Tərcümə mərkəzində bir nəfər də olsun təsadüfi adam yoxdur". Qəzetimizin suallarına tanınmış nasir və tərcüməçi Etimad Başkeçid cavab verir // Aydın yol. – 2015, 13 fevral. – s. 9.
12. Hacıyev, A. Ədəbiyyat nəzəriyyəsi / A.Hacıyev. – Bakı: Mütərcim, – 1996. – 376 s.

13. Hacıyev, A. Yesenin və Mərdəkanın qızıl payızı // Azərbaycan. – 1997, 28 fevral. – s. 3.
14. Həsənov, H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları / H.Həsənov. – Bakı: Bakı Dövlət Universiteti, – 1999. – 278 s.
15. Həsənzadə, N. Şairə, şeirə xalq ehtiramı // Ədəbiyyat və İncəsənət. – 1974, 6 oktyabr. – s. 8.
16. Həsənzadə, N. Yesenin – Puşkindən sonrakı Rusiyadır // 525-ci qəzet. – 2010, 28 sentyabr. – s. 7.
17. Xələfli, Ə. Məni söz çağırdı // Kredo. – 2015, 16 oktyabr. – s. 8-9.
18. Xələfli, Ə. Sergey Yesenin – Böyük ədəbi körpü. Bizim «İran nəğmələri»..., bizim Sergey Yesenin... və bizim İsaxanlı... // Kredo. – 2015, 5 iyun. – s. 1.
19. Xələfli, Ə. Şeirin bənzərsiz çiçəyi // Kredo. – 2010, 2 oktyabr. – s. 16.
20. Xəlilov, Ə. Bir şeirin iki tərcüməsi // Azərbaycan müəllimi. – 1985, 9 oktyabr. – s. 4.
21. Xəlilov, Ə. Dünya ədəbiyyatı: [7 cilddə] / Ə.Xəlilov; elmi red. Bəkir Nəbiyev. – Bakı: Araz, – c. 4. – 2012. – 566 s.
22. Xəlilov, Ə. Rusiyanın ağcaqayını // Kommunist. – 1985, 2 oktyabr. – s. 4.
23. Xəlilov, Ə. Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı / Ə.Xəlilov. –Bakı: Azərbaycan, – 1996. – 160 s.
24. Xəlilov, Ə. Şairin "Mərdəkan payızı" // Ədəbiyyat və incəsənət. – 1985, 27 sentyabr. – s. 3.
25. Xəlilov, Ə. Yesenin Azərbaycan dilində // – Bakı: ADU-nun elmi əsərləri. Dil və ədəbiyyat seriyası, – 1975. № 5, – s. 17-19.
26. Xəlilov, Ə. Yesenin və Azərbaycan / Ə.Xəlilov. – Bakı: Gənclik, – 1977. – 87 s.
27. Xəlilov, Ə. Yeseninin "Boldin payızı" // Azərbaycan müəllimi. – 1975, 3 oktyabr. – s. 3.
28. Xəzri, N. Bir misranın sirri // Ədəbiyyat və incəsənət. – 1976, 24 aprel. – s. 3.
29. İbadova, N. Mərdəkanda bir muzey var // Xalq qəzeti. – 2002, 18 may. – s. 6.
30. İbrahim, X. Tərcümə keyfiyyəti haqqında // Ədəbiyyat qəzeti. – 1935, 27 oktyabr. – s. 3.

31. İbrahimov, M. Müqəddimə // Tərcümə sənəti: məqalələr məcmuəsi. – Bakı: Elm, – 1990. – s. 5-10.
32. İmanquliyeva, A. Yeni ərəb ədəbiyyatı korifeyləri / A.İmanquliyeva. – Bakı: Elm, – 2003. – 400 s.
33. İsaxanlı, H. Poetik tərcümə: Məhdud çərçivələr içində xoş ahəng və gözəllik axtarışı // Poetik tərcümələr. 1-ci toplu / Red. Hamlet İsaxanlı. – Bakı: Xəzər universitəsi, 2005. – s. 331-389.
34. İsaxanlı, İ. "İran nəğmələri" – İrana və Bakıya əbədi sevgi heykəli // – Bakı: Azərbaycan, – 2013. №2, – s. 181-184.
35. İsaxanlı, İ. "İran nəğmələri" Azərbaycan dilində: Bir şeirin altı tərcüməsi // Bakı: Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, – 2012. №10, – s. 136-146.
36. İsaxanlı, İ. "İran nəğmələri"ndə qadın obrazları // Serqey Yesenin. İran nəğmələri. – Bakı: Xəzər universitəsi, 2015. – s. 21-28.
37. İsaxanlı, İ. Bakı Yeseninin vəsfində // Azərbaycan dünya ədəbiyyatında. Beynəlxalq simpoziumun materialları, – Bakı: Xəzər universitəsi, – 2012. – s. 243-249.
38. İsaxanlı, İ. Poetik tərcümənin bəzi məsələləri // – Bakı: Sivilizasiya, – 2015. №10, – s. 65-73.
39. İsaxanlı, İ. Puşkin şöhrətinin layiqli varisi // – Bakı: Pedaqoji Universitet xəbərləri: Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi, – 2013. №1, – s. 272-274.
40. İsaxanlı, İ. Sergey Yeseninin "İran nəğmələri"nin baş qəhrəmanının kimliyi // – Bakı: Pedaqoji Universitetin xəbərləri: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2017. C. 65, №2, – s. 90-97.
41. İsaxanlı, İ. Serqey Yesenin. İran nəğmələri / İ.İsaxanlı. – Bakı: Xəzər universitəsi, – 2015. – 159 s.
42. İsaxanlı, İ. Şeir gülüstanının təkrarolunmaz çiçəyi. Serqey Yesenin / İ.İsaxanlı. – Bakı: Xəzər universitəsi, – 2010. – 372 s.

43. İsaxanlı, İ. Yesenin Azərbaycan dilində: Bir şeirin altı tərcüməsi // – Bakı: Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal [BDU], – 2013. №1, – s. 176-182.
44. İsaxanlı, İ. Yesenin poeziyasında "it hürüşləri" və onların Azərbaycan dilinə tərcümələri haqqında // – Bakı: Dil və ədəbiyyat: beynəlxalq elmi-nəzəri jurnal [BDU], – 2012. №4, – s. 183-186.
45. İsaxanlı, İ. Yesenin poeziyasında xitabların rolu və onların Azərbaycan tərcümələrində saxlanılması problemləri // Bakı: Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, – 2015. №8, – s. 433-438.
46. İsaxanlı, İ. Yesenin yaradıcılığı və Azərbaycan tərcüməçilik məktəbinin uğurları // Dil və ədəbiyyat [ADU], – 2013. №1, – s. 148-160.
47. İsaxanlı, İ. Yesenin yaradıcılığından tərcümələrə dair: Bir şeirin dörd tərcüməsi // Bakı: Azərbaycan Dillər Universitetinin Elmi xəbərlər, – 2013. №1, – s. 154-165.
48. İsaxanlı, İ. Yesenindən tərcümələrə dair: Bir şeirin 14 tərcüməsi // Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri: ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2013. №1, – s. 128-138.
49. İsaxanlı, İ. Yeseninin Azərbaycan araşdırıcıları // Bakı: Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar institutu, – 2015. №5, – s. 327-343.
50. İsayev, R. Yaz küləyi mən olaydım / R.İsayev. – Bakı: Nərgiz, – 2013. – 108s.
51. Kazımov, Q. Müasir Azərbaycan dili. Sintaksis / Q.Kazımov. – Bakı: Aspoliqraf LTD MMS, – 2004. – 494 s.
52. Kəbutər. Yesenin – Şimal torpağının bəxtsiz şairi // Yeni Azərbaycan. – 2001, 9 yanvar. – s. 3.
53. Kərimli, T. Bir tərcümənin tarixi // Elm. – 2016, 27 may. – s. 8.
54. Kürçaylı, Ə. Yesenin Bakıda (Mənzum monoloq) // Səfərə çıxıram. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1965. – s. 163-177.
55. Qabusnamə / Farscadan tərcümə edəni, qeyd və şərhlərin müəllifi R.Sultanov; red. Əkrəm Cəfər. – Bakı: Şərq-Qərb, – 2006. – 216 s.
56. Qarayev, M. Tənhalıq: Şeirlər. Poetik silsilələr. Tərcümələr / M.Qarayev. – Bakı: Oskar, 2008. – s. 227.

57. Qılman, İ. Mən aldanmış xalqın yazıçısıyam // – Bakı: El, – 2007. №48, – s. 4-16.
58. Qismət A. Yeseninin intiharında sirli məqamlar // Ədəbiyyat qəzeti. – 2017, 11 fevral. – s. 7.
59. Qurbanov, Ş. Yesenin və Azərbaycan // Bakı. – 1977, 1 dekabr. – s. 3.
60. Mahmudova, Ş. Əliağa Kürçaylı və poetik tərcümə məsələləri: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. / – Bakı, 2009. – 21 s.
61. Mahmudova, Ş. Əliağa Kürçaylı və poetik tərcümə məsələləri: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. / – Bakı, 2009. – 137 s.
62. Manafoğlu, R. İzahlı tərcüməşünaslıq terminləri lüğəti / R.Manafoğlu, N.Tağısoy, R.Kamal. – Bakı: Mütərcim, – 2010. – 164 s.
63. Məlikzadə, H. Lirika: Obrazdan görüntülər // Kredo. – 2015, 26 iyun. – s. 15.
64. Məmmədli, Q. Ömür dəftərindən səhifələr (1897–1977). Xatirələr. Görüşlər. Müşahidələr / Q.Məmmədli. – Bakı: Təhsil, – 2016. – 184 s.
65. Muğam ensiklopediyası / Redaksiya heyətinin sədri, baş red. M. Əliyeva. – Bakı: Heydər Əliyev Fondu, – 2008. – 215 s.
66. Musa oğlu, R. S.A.Yesenin // Sovet Gürcüstanı. – 1965, 7 oktyabr. – s. 4.
67. Mustafayev, C. Yeseninşünaslığa yeni töhfə // – Bakı: Xəzər Xəbər, – 2010. № 291, – s. 26-27.
68. Nazim, Ə. Serqey Yesenin (şeir) // Bakı: Maarif və mədəniyyət [əski əlifba ilə], – 1926. №1, – s. 7.
69. Nəbiyev, B. Axtarışlar, tapıntılar və itkilər (Azərbaycan dilində bədii tərcümələrin vəziyyəti və vəzifələri) // Tərcümə sənəti: məqalələr məcmuəsi. – Bakı: Elm, – 1990. – s. 66-101.
70. Nəbiyev, B. Söz ürəkdən gələndə // Kommunist. – 1975, 18 sentyabr. – s. 4.
71. Rövşən, R. Günah içində (şeir) // Nəfəs. kitablar kitabı. – Bakı: Qanun, 2006. – s. 350.
72. Rövşən, R. Poeziya nümunələrinin tərcümə çətinlikləri // Aydın yol. – 2015, 20 fevral. – s. 7.

73. Rus şairləri Azərbaycan haqqında / tərt. ed. İ.Seyidov; red. İ.Soltan. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1955. – 156 s.
74. Rüstəm, S. Yeseninə (şeir) // Ələmdən nəşəyə [əski əlifba ilə]. – Bakı: Azərbaycan Uşaq ədəbiyyatı Nəşriyyatı, – 1927. – s. 111.
75. Rüstəm, S. Yeseninə (şeir) // Seçilmiş əsərləri: [3 cilddə].– Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – c. 3. – 1956. – s. 65.
76. Sergey Yeseninin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan. – 1995, 5 sentyabr. – s. 1.
77. Şahanə (RSFSR xalq artisti V.İ.Kaçalovun xatirələrindən) // Ədəbiyyat və incəsənət. – 1985, 11 oktyabr. – s. 8.
78. Şuşinski, F. Cabbar Qaryağdıoğlu / F.Şuşinski. – Bakı: İşıq, – 1987. – 126 s.
79. Tərcüməçilər tərcümə haqqında // Aydın yol. – 2014, 24 oktyabr. – s. 19.
80. Topçubaşov, M. Şirinli-acılı xatirələrim // Bakı: Azərbaycan, – 1979. №6, – s. 125-138.
81. Ulutürk, X.R. Bir odlu gözləri, bir də xoş səsi / X.R. Ulutürk. – Bakı: Çinar–çap, – 2007. – 301 s.
82. Vurğun, S. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında // Əsərləri: [6 cilddə]. – Bakı: Elm, – c. 5. – 1972. – s. 270-278.
83. Vurğun, S. Sovet poeziyası haqqında // Əsərləri: [6 cilddə]. – Bakı: Elm, – c. 6. – 1972. – s. 317-373.
84. Yesenin, S. “26-lar haqqında ballada” / tərc. ed. T.Bayram // Ürəkdən ürəyə: – Bakı: Gənclik, – 1975. – s. 3-8.
85. Yesenin, S. “Bir sərraf adamdan soruşdum ki mən”, “Söylədin ki, Sədi yalnız” və s. / tərc. ed. F.Mustafa // Bizim fakt. – 2010, 18-25 may. – s. 2.
86. Yesenin, S. “Əlvida, Bakı! Daha çətin bir də görüşək...” / tərc.ed. Ə.Cəmil // Ədəbiyyat və İncəsənət. – 1974, 6 oktyabr. – s. 8.
87. Yesenin, S. “Əlvida, Bakı!” / tərc. ed. R.Zəka // Azərbaycan gəncləri. – 1964, 29 may. – s. 3.

88. Yesenin, S. “Əlvida, doğma Bakı!”, “Nə ölmək yenidir...” / tərc. ed. E.N.Sibirel // Azərbaycan. – 2006, 4 iyun. – s. 8.
89. Yesenin, S. “Əlvida, ey Bakı! Ayrılaq gərək”, “Salamat qal, əziz dostum, salamat” və s. / tərc. ed. K.Aslan // Poetik tərcümələr. 1-ci toplu / Red. Hamlet İsaxanlı. – Bakı: Xəzər universitəsi, – 2005. – s. 119-135.
90. Yesenin, S. “Əlvida, ey dostum, bir də əlvida”, “Nə təəssüf, nə göz yaşı, nə fəryad” / tərc. ed. Anar // Azərbaycan gəncləri. – 1973, 1 sentyabr. – s. 4.
91. Yesenin, S. “Əlvida, ey dostum, daha ayrılaq”, “Səni görməyəcəm, əlvida, Bakı!”, “Köhnə ağrılarım səngiyib hələ” və s. / tərc. ed. F.Mustafa // Yeni Azərbaycan. – 2005, 29 aprel. – s. 3.
92. Yesenin, S. “Əlvida, ey dostum, dostum, əlvida” / tərc. ed. F.Qoca // Ədəbiyyat qəzeti. – 2010, 30 aprel. – s. 4.
93. Yesenin, S. “Əlvida, ey Bakı, bu da son görüş” və s. / tərc. ed. N.Əlizadə // Ədəbiyyat qəzeti. – 2016, 25 iyun. – s. 13.
94. Yesenin, S. “Əlvida, ey dostum, əlvida artıq!”, “Anama məktub” və s. / tərc. ed. E.Borçalı // Ədəbiyyat və incəsənət. – 2006, 6 oktyabr. – s. 4.
95. Yesenin, S. “Əlvida, ey dostum, görüşənədək” / tərc. ed. G.Paçxataşvili // Elimiz. Günümüz. – 2010, fevral. – s.16.
96. Yesenin, S. “Əlvida, dostum, əlvida” / tərc. ed. M.Qarayev // Yol. –1994, fevral. – s. 6.
97. Yesenin, S. “Əlvida, əziz dost, əlvida bir də...” / tərc. ed. N.Kəsəmənli // Bakı. – 1974, 9 oktyabr. – s. 3.
98. Yesenin, S. “Əlvida, əziz dost, əlvida”, “Anama məktub” / tərc. ed. M.Qarayev // Tənhalıq: Şeirlər. Poetik silsilələr. Tərcümələr. – Bakı: Oskar, 2008. – s. 295-297.
99. Yesenin, S. “Əlvida” / tərc. ed. Ş.Sadiq // Ədəbiyyat və İncəsənət. – 1959, 10 yanvar. – s. 4.
100. Yesenin, S. “Fars motivləri”ndən / tərc. ed. Q.Xalid // Rus klassik poeziyası Qoca Xalidin tərcüməsində. – Bakı: Şirvannəşr, – 1997. – s. 33-39.

101. Yesenin, S. “Heç zaman Bosforda olmamışam mən” / tərc. ed. G.Mövlud // Alma. – 2007, 30 sentyabr - 6 oktyabr. – s. 14.
102. Yesenin, S. “Xorasanda elə qapılar var ki...” / tərc. ed. S.Rüstəm // – Bakı: İnqilab və mədəniyyət, – 1928. № 6-7, – s. 16.
103. Yesenin, S. “Xorasanda elə qapılar var ki...” / tərc. ed. S.Rüstəm // Addımlar. – Bakı: Azərnəşr, – 1930. – s. 43-44.
104. Yesenin, S. “İran nəğmələri” / tərc. ed. S.Məmmədzadə // Dünya uşaq ədəbiyyatı kitabxanası. – Bakı: Gənclik, – 1987. – s. 331-342.
105. Yesenin, S. “İran nəğmələri” / tərc. ed. S.Məmmədzadə // – Bakı: Azərbaycan, – 1986. №4, – s. 154-159.
106. Yesenin, S. “Qara adam” (Poema) / tərc. ed. R.Rövşən // Bakı: Xəzər, – 2004. №3, – s. 18-22.
107. Yesenin, S. “Şəhanə, Şəhanə, mənim Şəhanəm”, “Səni görməyəcəyəm, əlvida Bakı” / tərc.ed. F.Mustafa // Tac. – 2005, 04-14 noyabr. – s. 7.
108. Yesenin, S. Fars havaları / tərc. ed. E.Borçalı // – Bakı: Adiloğlu, – 2010. – 60 s.
109. Yesenin, S. Qadına məktub. Şeirlər və poema / tərc. ed. Ə. Kürçaylı // – Bakı: Gənclik, – 1970. – 127 s.
110. Yesenin S. Salamat qal, dostum.../ Tərc. ed. T.Kərimli // Elm. – 2017, 21 iyul. – s. 8.
111. Yesenin, S. Şahanəm / tərc. ed. T.Kərimli // Elm. – 2016, 2 dekabr. – s. 8.
112. Yesenin, S. Şeirlər və poemalar / tərc. ed. Ə. Kürçaylı // – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1965. – 183 s.
113. Yesenin, S. Şeirlər və poemalar / tərc. ed. Ə. Kürçaylı // – Bakı: Azərnəşr, – 1975. – 253 s.
114. Yesenin, S.A. Seçilmiş əsərləri / tərc. ed. Ə. Kürçaylı // – Bakı: Avrasiya Press, – 2006. – 168 s.
115. Yusifqızı, Z. Şərq musiqisinin peyğəmbəri / Z.Yusifqızı. – Bakı: Şərq-Qərb, – 2008. – 159 s.

Türk dilində

116. Mirza Bala. Komünist şairler // Ankara: Azerbaycan Aylık Kültür Dergisi. – 1976. sayı 220, – s.10-11.

Rus dilində

117. Абдуллаев, В. Яркая звезда Сергея Есенина // Бакинский рабочий. – 2009, 3 октября. – с. 6.
118. Абуашвили, А. Существует ли текст? // – Москва: Вопросы литературы, – 1979. №5, – с. 72-75.
119. Азербайджан в творчестве русских и советских писателей / сост. С.Турабов. – Баку: Азернешр, – 1977. – 394 с.
120. Аслан, К. Поэт, воспевший красоту // Вышка. – 1995, 17 ноября. – с. 5.
121. Бебутов, Г. О Сергее Есенине. Четыре эскиза // – Тбилиси: Литературная Грузия, – 1968. №10, – с. 90-94.
122. Белинский, В. Полн. собр. сочинений: [в 13 т.]. – Москва: Изд-во АН СССР, – т. 9. Статьи и рецензии (1845–1846) / Ред. В.А.Десницкий. – 1955. – 804 с.
123. Белинский, В. Теория художественного перевода. Проблема переводимости // Русские писатели о переводе: XVIII-XX вв / под ред. Ю.Д.Левина и А.В.Федорова. – Ленинград, Советский писатель, – 1960. – с. 196-211.
124. Белоусов, В. Кто была Шаганэ? // Учительская газета. – 1965, 3 июля. – с.4.
125. Белоусов, В. Кто она, Шаганэ? // Советская Россия. – 1965, 2 октября. – с.4.
126. Белоусов, В. Персидские мотивы / В.Белоусов. – Москва: Знание, 1968. – 77 с.
127. Белоусов, В. Сергей Есенин. Литературная хроника. В двух частях. Часть 2 (1921-1925) / В.Белоусов. – Москва: Советская Россия, – 1970. – 445 с.
128. Белоусов, В. Шаганэ // Москва: Нива, – 1965. №9, – с. 61-63.

129. Берчиян, М. Есенин и моряки // Водный транспорт. – 1980, 23 декабря. – с. 4.
130. Боков, В. В творческой мастерской. Поэты о рифме // – Москва: Вопросы литературы, – 1983. №12, – с. 141-144.
131. Болдовкин, В. Он всем нам родной // – Москва: Слово, – 2003. №2, – с. 84-99.
132. Бухарин, Н. Злые заметки // Правда. – 1927, 12 января. – с. 3.
133. Вайнштейн, М. О времени и месте создания «Персидских мотивов» С.А. Есенина // – Москва: Научные доклады высшей школы. Филологические науки, – 1962. №2, – с. 186-193.
134. Васильева, Л. В творческой мастерской. Поэты о рифме // – Москва: Вопросы литературы, – 1983. №12, – с. 144.
135. Велиханова, Ф. История перевода Азербайджана / Ф.Велиханова. – Баку: Элм, – 1994. – 164 с.
136. Вержбицкий, Н. Встречи с Есениным // С.А. Есенин в воспоминаниях современников: [в 2 томах] / сост. и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 208-231.
137. Вержбицкий, Н. Встречи с Есениным: воспоминания / Н.Вержбицкий. – Тбилиси: Заря Востока, – 1961. – 128 с.
138. Вечер Сергея Есенина // Бакинский рабочий. – 1924, 3 октября. – с. 5.
139. Вечер, посвященный Сергею Есенину // Бакинский рабочий. – 1956, 6 октября. – с. 3.
140. Воронский, А. Об отошедшем // Литературные записи. – Москва: Артель писателей Круг, – 1926. – с. 135-145.
141. Воронский, А. Памяти Есенина // С.А. Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 67-74.
142. Гачечиладзе, Г. Художественный перевод и литературные взаимосвязи / Г.Гачечиладзе. – Москва: Советский писатель, – 1980. – 255 с.

143. Гёте, И. Собрание сочинений: [в 10 томах] / под общей ред. Н.Вильмонта и А.Аникста. – Москва: Художественная литература, – т. 10. Об искусстве и литературе. – 1980. – 510 с.
144. Горький, М. Сергей Есенин. // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986, – с.5–11.
145. Грузинов, И. Есенин // С.А. Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 1. – 1986, – с. 353-364.
146. Грузинов, И. С.Есенин разговаривает о литературе и искусстве // С.А. Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 1. – 1986, – с.495-500.
147. Гулузаде, Я. “Qız nədi, qəfəsdə saxlamaq nədi...” // Тезисы научно-методической конференции «Художественный перевод: теория, практика, преподавание». БСУ, – Баку: – 2002, – с. 27-28.
148. Гулузаде, Я. А был ли Есенин в Азербайджане? // Актуальные проблемы изучения гуманитарных наук. Тезисы докладов и сообщений республиканской межвузовской научной конференции. – Баку: Мутарджим, – 1998, – с. 32-34.
149. Гулузаде, Я. Шаганская Шаганэ // Актуальные проблемы изучения гуманитарных наук. Тезисы докладов и сообщений республиканской межвузовской научной конференции. – Баку: Мутарджим, – 2000, – с.77-80.
150. Гурвич, Е. «Я северный ваш друг и брат» // Баку. – 1965, 2 октября. – с. 3.
151. Гурвич, Е. Есенин в Баку // Баку. – 1965, 2 октября. – с. 3.
152. Данилов, М. Вечер Сергея Есенина // Бакинский рабочий. – 1924, 6 октября. – с. 3.
153. Данилов, М. Певец голубени // Бакинский рабочий. – 1925, 31 декабря. – с. 5.

154. Данилов, М. Среди книг и журналов // Бакинский рабочий. – 1924, 25 декабря. – с. 7.
155. Дао Туан Ань. Восприятие творчества Есенина во Вьетнаме: проблемы перевода // Сергей Есенин и его современники. Серия «Есенин в XXI веке»; Вып. 3: сборник научных трудов. – Москва-Константиново-Рязань, – 2015, – с. 262-268.
156. Девитт, В. Размышляя над «Персидскими мотивами» // – Баку: Литературный Азербайджан, 1975. №10, – с.105-112.
157. Диспут о творчестве Есенина [объявление] // Труд. – 1926, 28 февраля. – с. 5.
158. Есенин, С. «1 мая» // Бакинский рабочий. – 1925, 5 мая. – с. 5.
159. Есенин, С. «Анна Снегина» // Бакинский рабочий. – 1925, 1 мая. – с. 8.
160. Есенин, С. «Анна Снегина» // Бакинский рабочий. – 1925, 3 мая. – с. 2-3.
161. Есенин, С. «Баллада о двадцати шести» // Бакинский рабочий. – 1924, 22 сентября. – с. 2-3.
162. Есенин, С. «Быть поэтом– это значит то же...», «Глупое сердце, не бейся...» // Бакинский рабочий. – 1925, 7 августа. – с. 3.
163. Есенин, С. «В Хорассане есть такие двери...», «Голубая родина Фирдоуси...» // Бакинский рабочий. – 1925, 3 апреля. – с. 3.
164. Есенин, С. «Спит ковыль. Равнина дорогая...», «Вижу сон. Дорога черная...» // Бакинский рабочий. – 1925, 20 июля. – с. 4.
165. Есенин, С. «Воздух прозрачный и синий...», «Золото холодное луны...» // Бакинский рабочий. – 1925, 13 апреля. – с. 7.
166. Есенин, С. «Гори, звезда моя, не падай...», «Жизнь – обман с чарующей тоскою...» // Бакинский рабочий. – 1925, 21 августа. – с. 4.
167. Есенин, С. «Заря откликает другую...» // Бакинский рабочий. – 1925, 12 мая. – с. 2.
168. Есенин, С. «Каждый труд благослови, удача...», «Видно, так заведено навеки...» // Бакинский рабочий. – 1925, 31 июля. – с. 3.

169. Есенин, С. «Какая ночь! Я не могу...», «Не гляди на меня с упреком....», «Ты меня не любишь, не жалеешь...», «Может, поздно, может, слишком рано...» // Бакинский рабочий. – 1926, 12 февраля. – с. 4.
170. Есенин, С. «Мой путь» // Бакинский рабочий. – 1925, 24 апреля. – с. 3.
171. Есенин, С. «Листья падают, листья падают...», «Над окошком месяц. Под окошком ветер...» // Бакинский рабочий. – 1925, 2 сентября. – с. 4.
172. Есенин, С. «Неуютная жидкая лунность...», «Прощай, Баку! Тебя я не увижу...» // Бакинский рабочий. – 1925, 25 мая. – с. 2.
173. Есенин, С. «Низкий дом с голубыми ставнями...» // Бакинский рабочий. – 1924, 26 сентября. – с. 3.
174. Есенин, С. «Никогда я не был на Босфоре», «Свет вечерний шафранного края…» // Заря Востока. – 1925, 18 января. – с. 3.
175. Есенин, С. «Отчего луна так светит тускло...» // Бакинский рабочий. – 1925, 14 августа. – с. 4.
176. Есенин, С. «Песня», «Не вернусь я в отчий дом...» // Бакинский рабочий. – 1925, 17 мая. – с. 4.
177. Есенин, С. «Письмо деду» // Бакинский рабочий. – 1924, 29 декабря. –с. 8.
178. Есенин, С. «Письмо к сестре» // Бакинский рабочий. – 1925, 10 мая. – с. 8.
179. Есенин, С. «Пускай я порою от спирта вымок...» // – Баку: Литературный Азербайджан, – 1959. №10, – с. 99.
180. Есенин, С. «Море голосов воробьиных...», «Руки милой – пара лебедей...», «Голубая да веселая страна...» // Бакинский рабочий. – 1925, 10 августа. – с. 4.
181. Есенин, С. «Русь советская» // Бакинский рабочий. – 1924, 24 сентября. – с. 3.
182. Есенин, С. «Синий май. Заревая теплынь...», «Ну, целуй меня, целуй...» // Бакинский рабочий. – 1925, 19 мая. – с. 2.
183. Есенин, С. «Сыпь, тальянка, звонко, сыпь, тальянка, смело...» // Бакинский рабочий. – 1925, 9 октября, с. 3.

184. Есенин, С. «Собаке Качалова», «Несказанное, синее, нежное...» // Бакинский рабочий. – 1925, 7 апреля. – с. 4.
185. Есенин, С. «Страна негодяев» [отрывки из драматической поэмы] // Бакинский рабочий. – 1924, 29 сентября. – с. 3.
186. Есенин, С. «Сукин сын», «Отговорила роща золотая…» // Бакинский рабочий. – 1924, 23 сентября. – с. 3.
187. Есенин, С. «Тихий ветер. Вечер сине-хмурый...» // Красная газета. [вечерний выпуск]. – 1926, 27 марта. – с. 2.
188. Есенин, С. «Улеглась моя былая рана…», «Я спросил сегодня у менялы…» // Трудовой Батум. – 1924, 10 декабря. . – с. 3.
189. Есенин, С. «Цветы» // Однодневная газета «Арена»; «Работники печати – работникам цирка». – 1925, 4 января. – с. 4.
190. Есенин, С. «Черный человек», «Спит ковыль. Равнина дорогая...», «Вижу сон. Дорога черная...» // Бакинский рабочий. – 1926, 29 января. – с. 4.
191. Есенин, С. «Шаганэ, ты моя, Шаганэ...», «Ты сказала, что Саади...» // Бакинский рабочий. – 1925, 1 января. – с. 5.
192. Есенин, С. «Этой грусти теперь не рассыпать…», «Пушкину» // Бакинский рабочий. – 1924, 25 сентября. – с. 3.
193. Есенин, С. «Я иду долиной. На затылке кепи...», «Я помню, любимая, помню...» // Бакинский рабочий. – 1925, 4 августа. – с. 3.
194. Есенин, С. Персидские мотивы / С.Есенин. – Москва: Современная Россия, – 1925. – 49 с.
195. Есенин, С. Полное собрание сочинений: [в 7 томах] / гл. ред. Ю.Л.Прокушев. – Москва: Наука–Голос, – т. 1. Стихотворения. – 1995. – 672 с.
196. Есенин, С. Полное собрание сочинений: [в 7 томах.] / гл. ред. Ю.Л. Прокушев. – Москва: Наука–Голос, – т. 2. Стихотворения (Маленькие поэмы). – 1997. – 464 с.

197. Есенин, С. Полное собрание сочинений: [в 7 томах] / гл. ред. Ю.Л. Прокушев. – Москва: Наука–Голос, – т. 4. Стихотворения, не вошедшие в «Собрание стихотворений». – 1996. – 544 с.
198. Есенин, С. Полное собрание сочинений: [в 7 томах] / гл. ред. Ю.Л. Прокушев. – Москва: Наука–Голос, – т. 6. Письма. – 1999. – 816 с.
199. Есенин, С. Полное собрание сочинений: [в 7 томах] / гл. ред. Ю.Л.Прокушев. – Москва: Наука–Голос, – т. 7, кн. 1. Автобиографии. Дарственные надписи. Фольклорные материалы. Литературные декларации и манифесты. – 1999. – 560 с.
200. Есенин, С. Полное собрание сочинений: [в 7 томах] / гл. ред. Ю.Л. Прокушев. – Москва: Наука, – т. 7, кн. 3. Утраченное и ненайденное. Неосуществленные замыслы. Есенин в фотографиях. Канва жизни и творчества. Библиография. Указатели. – 2001. – 768 с.
201. Есенин, С. Собрание сочинений: [в 3 томах] / составление и общая редакция Ю.Прокушева. – Москва: Правда, – т. 1. – 1983. – 432 с.
202. Есенин, С. Собрание сочинений: [в 3 томах] / составление и общая редакция Ю.Прокушева. – Москва: Правда, – т. 2. –1983. – 400 с.
203. Есенин, С. Собрание сочинений: [в 6 томах] / – Москва: Художественная литература. – т. 6. Письма [Составление, подготовка текста и комментарий В.А.Вдовина]. – 1980. – 509 с.
204. Есенин у студентов // Труд. – 1924, 2 октября. – с. 4.
205. Есенинская Русь / Автор идеи и руководитель проекта Б.С.Ставцов; гл. редактор О.Е.Воронова. – Рязань: Дело, – 2009. – 191 с.
206. Есенинская энциклопедия: Методические рекомендации для авторов. – Москва: Лазурь, – 2015. – 216 с.
207. Заболоцкий, Н. Заметки переводчика // Мастерство перевода: сборник статей. – Москва: Советский писатель, – 1959. – с. 251-253.
208. Ивинская, О. В плену времени: годы с Борисом Пастернаком / О.Ивинская. – Librairie Artheme Fayard, – 1978. – 442 с.

209. Исаханлы, И. «Прощай, Баку!» на азербайджанском языке // – Баку: Азербайджанский университет языков. Научные известия, – 2013. №2, – с. 209-225.
210. Исаханлы, И. Азербайджанский поэтический венок Сергею Есенину // Сергей Есенин и его современники . Серия «Есенин в XXI веке»; Вып. 3: сборник научных трудов. – Гос. музей-заповедник С.А.Есенина: Москва–Константиново–Рязань, – 2015, – с. 269-279.
211. Исаханлы, И. Влияние творчества Сергея Есенина на азербайджано–русские литературные связи // – Баку: БСУ, Актуальные проблемы изучения гуманитарных наук, – 2017. №2, – с.177-182.
212. Исаханлы, И. Второе крещение – крещение нефтью: к истории пребывания Есенина в мае 1925 года в Баку // – Рязань: Современное есениноведение, – 2015. №2, – с. 16-22.
213. Исаханлы, И. Гибель Есенина в откликах азербайджанской печати // – Рязань: Современное есениноведение, – 2013. №24, – с. 6-11.
214. Исаханлы, И. Гибель Сергея Есенина: Отклики в бакинской прессе (1925–2017) // – Москва: Современная наука: актуальные проблемы теории и практики. Серия гуманитарные науки, – 2018. №5, май. – с. 124-128.
215. Исаханлы, И. Два народных певца: Сергей Есенин и Джаббар Карягдыоглу // Сергей Есенин и русская история: сборник трудов по материалам Международной научной конференции, посвященной 117-летию со дня рождения С.А.Есенина и Году российской истории. – Москва–Константиново–Рязань: Гос. музей-заповедник С.А.Есенина:, – 2013, – с. 407-414.
216. Исаханлы, И. Есенин на страницах бакинской газеты «Труд» (1924–1926 годы) // – Рязань: Современное есениноведение, – 2014. №28, – с. 38-41.
217. Исаханлы, И. Есенин на страницах газеты «Труд» (1924-1926 годы) // Вопросы филологии. НАНА, Институт рукописей им. М.Физули, – 2013. №3, – с. 322-327.

218. Исаханлы, И. Жизненный и творческий путь Есенина: взгляд из Азербайджана // Сергей Есенин: Личность. Творчество. Эпоха. Серия «Есенин в XXI веке»; Вып. 5: сборник научных трудов. Часть II. – Москва–Константиново–Рязань: Гос. музей-запов. С.А.Есенина, – 2017. – с. 158-165.
219. Исаханлы, И. Незадаром ему мигнули очи. Есенин в Баку / И.Исаханлы. – Баку: Издательство Университета Хазар, – 2012. – 373 с.
220. Исаханлы, И. О некоторых переводах произведений Есенина на азербайджанский язык // Сергей Есенин и искусство. Серия «Есенин в XXI веке»; Вып. 2: сборник научных трудов. – Москва–Константиново–Рязань: Гос. музей-заповедник С.А.Есенина, – 2014. – с. 434-450.
221. Исаханлы, И. Относительно бакинских встреч Есенина // – Баку: Язык и литература, БГУ, – 2013. №3, – с. 228-229.
222. Исаханлы, И. Поэзия Сергея Есенина – как важное звено азербайджано-русских литературно-культурных связей // – Москва: Современная наука: актуальные проблемы теории и практики. Серия гуманитарные науки, – 2018. №3/2, март, – с. 151-154.
223. Исаханлы, И. Сергей Есенин на азербайджанском языке // – Рязань: Современное есениноведение, – 2012. №23, – с. 24-28.
224. Исаханлы, И. Тема Востока в творчестве Сергея Есенина: на материале цикла «Персидские мотивы» // – Москва: Современная наука: актуальные проблемы теории и практики. Серия гуманитарные науки, – 2018. №4, апрель, – с. 124-127.
225. История русской советской литературы (1917-1940) / Под ред. проф. А.Метченко и проф. С.Петрова. – Москва: Просвещение, – 1975. – 406 с.
226. История русской советской литературы / Под ред. П.С.Выходцева. – Москва: Высшая школа, – 1986. – 630 с.
227. Камский, М. Наши о Есенине // Труд. – 1924, 8 октября. – с. 3.
228. Камский, М. Сергей Есенин // Труд. – 1925, 30 декабря. – с. 6.

229. Каплун, Б. Бакинские страницы Сергея Есенина // Бакинский рабочий. – 1965, 3 октября. – с. 4.
230. Карандаш. Вечер Есенина // Труд. – 1926, 3 марта. – с. 3.
231. Каратыгина, Т. Бакинский друг Сергея Есенина // – Баку: Хазар–Хабар, – 2004. №168, – с. 32-33.
232. Каратыгина, Т. «Быть поэтом – значит петь раздолье… О впечатлениях, о поездке в Баку // – Баку: Хазар–Хабар, – 2004. №163, – с. 16-18.
233. Касумова, Е. Сергею Есенину – Зеркало (стихотворение) // – Баку: Литературный Азербайджан, – 1997. №1-4, – с.51-52.
234. Катаев, В. Слово о Есенине // Бакинский рабочий. – 1975, 6 октября. – с.3.
235. Качалов, В. Встречи с Есениным // – Москва: Красная нива, – 1928. №2, – с. 18-19.
236. Козлов, И. Народ любит и помнит Сергея Есенина / И.Козлов. –Москва: Азбука, – 2005. – 374 с.
237. Кочарли, Ф. Литература азербайджанских татар // – Тифлис: Вестник Кавказа, – 1903. №1, – с.7-17.
238. Кошечкин, С. Песни Джаббара Карягды. Из кавказских встреч поэта // О, Русь, взмахни крылами: Есенинский сборник. Вып. 1. – Москва: Наследие, – 1994. – с. 186-192.
239. Курбанова, Г. Фольклорные мотивы и традиции в поэтическом творчестве (на материале поэзии С.Есенина и С.Рустама): / диссертация доктора философии по филологии. / – Баку, 1996. – 149 с.
240. Курочкина, С. Повесть об актрисе / С.Курочкина. – Баку: Юрд, – 2004. – 144 с.
241. Кюрчайлы, А. Есенин в Баку (поэтический монолог) / пер. К.Джахангира // – Баку: Литературный Азербайджан, – 1965. №5, – с. 78-80.
242. Кюрчайлы, А. Мой учитель поэзии // Молодежь Азербайджана. – 1975, 2 октября. – с. 3.
243. Лаппа-Старженецкая, А. «Нельзя молчать», ... или «Есенин, его лирика и ее толкователи». –ГЛМ, Ф. 4, оп. 2, № 47.

244. Левик, В. И верность и вдохновение // – Москва: Вопросы литературы, – 1979. №5, – с. 55-63.
245. Левик, В.В. О точности и верности // Перевод – средство взаимного сближения народов. – Москва: Прогресс, – 1987. – с. 358-377.
246. Легла дорога в Константиново…: альбом / сост. и вступ. статья С.Кошечкина; худож. Г.Сауков. – Москва: Московский рабочий, – 1985. – 238 с.
247. Лежнев, А. Памяти Сергея Есенина // Бакинский рабочий. – 1926, 1 января. – с. 6.
248. Леонидзе, Г. Я вижу этого человека // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и коммент. А.А.Козловского. Москва: Художественная литература, – т. 2. – 1986. – с. 200-207.
249. Леонов, П. Загадки не существует // Бакинский рабочий. – 1996, 8 марта. – с. 1.
250. Летопись жизни и творчества С.А.Есенина: [в 5 томах] / гл. ред. А.Н.Захаров. – Москва: ИМЛИ РАН, – т. 2. – 2005. – 760 с.
251. Летопись жизни и творчества С.А.Есенина: [в 5 томах] / гл. ред. Н.И.Шубникова-Гусева. – Москва: ИМЛИ РАН, – т. 4. – 2010. – 736 с.
252. Летопись жизни и творчества С.А.Есенина: [в 5 томах] / гл. ред. Н.И.Шубникова-Гусева. – Москва: ИМЛИ РАН, – т. 5, кн.1. – 2013. – 832с.
253. Леффель, Х. Последнее стихотворение Сергея Есенина в немецких переводах // – Рязань: Современное есениноведение, – 2012. №22, – с.16-19.
254. Либединский, Ю. Мои встречи с Есениным // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 138-155.
255. Лилова, А. Введение в общую теорию перевода / А.Лилова. – Москва: Высшая школа, – 1985. – 256 с.
256. Литературная энциклопедия. [в 11 томах] / Ответственный редактор А.В.Луначарский. – Москва: Издательство Коммунистической Академии, – т. 4. – 1930. – 731 с.

257. Логвиненко, А. У героини стихов Есенина // Молодежь Азербайджана. – 1958, 10 сентября. – с. 3.
258. Ломан, А. Об издании произведений С.А.Есенина // Есенин и русская поэзия. – Ленинград: Наука, – 1967. – с. 363-371.
259. Луначарский, А. Об упадочничестве среди молодежи // Упадочное настроение среди молодежи. Есенинщина [Стенограмма доклада в Коммунистической Академии 13 февраля 1927 г.]. – Москва: Издательство Коммунистической академии. Секция литературы и искусства, – 1927. – с. 6-47.
260. Мазявый, С. Лики Есенина // Труд. – 1926, 24 сентября. – с. 3.
261. Мамедзаде, С. Сны старого дома (стихотворение) // Бакинский рабочий. – 2001, 21 июля. – с. 4.
262. Мамедов, Н. Национальное своеобразие подлинника и перевод / Н.Мамедов. – Баку: Мутарджим, – 1998. – 72 с.
263. Мамедов, Н. Сергей Есенин в Азербайджане // Тематический сборник научных статей, посвященный 100-летию со дня рождения С.Есенина. – Баку: Мутарджим, – 1995. – с.8-9.
264. Мамедов, С. Еще раз о пребывании С.Есенина в Баку // Тематический сборник научных статей, посвященный 100-летию со дня рождения С.Есенина. – Баку: Мутарджим, 1995. – с. 10.
265. Мамедова, П. Азербайджанские переводы произведений С.Есенина и их исследование: / диссертация доктора философии по филологии. / – Баку, 1998. –149 с.
266. Мамедова, П. Сергей Есенин на азербайджанском языке / П.Мамедова. – Баку: Мутарджим, – 2003. – 132 с.
267. Мануйлов, В. О Сергее Есенине // С.А. Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 165-190.
268. Маршак, С. Поэзия перевода // Собрание сочинений: [в 8 томах]. – Москва: Художественная литература, – т. 6. – 1971. – с. 371-375.

269. Маслов, А. Загадочная петля. Тайна последних дней Сергея Есенина / А.Маслов. – Ростов-на-Дону: Феникс, – 2006. – 210 с.
270. Махмудова, К. Азербайджанский поэт Алиага Вахид и Сергей Есенин // Есенин и поэзия России XX–XXI веков. Традиции и новаторства. Материалы международной научной конференции, – Москва–Рязань–Константиново, – 2004, – с. 175-179.
271. Маяковский, В. Рожденные столицы // Сочинения: [в 2 томах] – Москва: Правда, – т. 2. Поэмы. Пьесы, Проза. – 1988. – с.710-713.
272. Минералов, Ю. Хвост лисы // – Москва: Дружба народов, – 1982. №4, – 247-257.
273. Михайлов, Б. Сергей Есенин у водников // Молодежь Азербайджана. – 1963, 24 февраля. – с. 8.
274. Московит. Письма из столицы // Бакинский рабочий. – 1926, 2 февраля. – с. 5.
275. Мурашев, М. Сергей Есенин // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 1. – 1986. – с. 187-197.
276. Наджафов, Г. Балаханский май: документально-художественная повесть / Г.Наджафов. – Баку: Гянджлик, – 1986. – 188 с.
277. Наджафов, Г. История рукописи Есенина // Бакинский рабочий. – 1988, 22 апреля. – с. 3.
278. Наседкин, В. Последний год Есенина // Ветер с поля: Стихи, воспоминания о Есенине. – Уфа: Башкирское книжное издательство, – 1978. – с. 127-152.
279. Непряхин, Ф. Поэт и нефть // Баку. – 1965, 17 сентября. – с. 4.
280. Непряхин, Ф. Воспоминания [в стихотворной форме] // из личного архива Ф.Непряхина. Хранится по адресу: М.Ибрагимов 11, кв. 9.
281. Новрузов, Р. Художественный перевод и проблема взаимодействия и взаимообогащения литератур (на материале русско-азербайджанских литературных связей): / докторская диссертация по филологическим наукам. / – Баку, 1990. – 358 с.

282. Новрузов, Р. Художественный перевод: проблема взаимодействия и взаимообогащения литератур / Р.Новрузов. – Баку: Элм, 1990. – 342 с.
283. Новрузов, Р. Поэзия С.А.Есенина в переводах А.Кюрчайлы // Тематический сборник научных статей, посвященный 100-летию со дня рождения С.Есенина. – Баку: Мутарджим, –1995. – с.10-14.
284. Овинников, Д. Певец России. Очерк творчества С.А.Есенина / Д.А.Овинников. – Тула: Приокское книжное издательство, – 1992. – 272с.
285. Огнев, В. Свое – общее. К проблеме взаимного перевода // – Москва: Иностранная Литература, –1964. №7, – с. 206-210.
286. Озеров, Л. Письма о поэзии // – Москва: Вопросы литературы, – 1968. №2, – с. 95-109.
287. Открытие клуба объединенных экспедиции печати // Бакинский рабочий. – 1925, 10 мая. – с. 4.
288. Памяти Есенина // Красная газета [вечерний выпуск]. – 1925, 31 декабря. – с. 5.
289. Памяти Сергея Есенина. Траурный вечер // Труд. – 1926, 6 января. – с. 2.
290. Пастернак, Б. Грузинские лирики / Б.Пастернак. – Москва: Советский писатель, – 1935. – 136 с.
291. Первана Б. «Прощай Баку!...» на азербайджанском языке. Четыре перевода стихотворения С.Есенина // – Баку: Литературный Азербайджан, – 1994. № 4-5-6, – с. 168-172.
292. Персидские лирики. X – XV вв. / Из персидского языка перевел акад. Ф.Корш // – Москва: Издание «М. и С. Сабашниковых», – 1916. – 126 с.
293. Пессимист. Песня // Бакинский рабочий. – 1925, 30 декабря. – с. 4.
294. Пессимист. С.Есенин и СССР // Бакинский рабочий. – 1924, 15 декабря. – с. 3.
295. Пессимист. Черная работа [из летней тетради] // Бакинский рабочий. – 1924, 13 июля. – с. 3.
296. Повицкий, Л. Сергей Есенин в жизни и творчестве // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии

А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 232-250.

297. Подгаецкая, И. «Свое» и «чужое» в индивидуальном поэтическом стиле. Теория: проблемы и размышления // – Москва: Вопросы литературы, – 1982. №7, – с. 145-173.
298. Полевой, Н. Принципы поэтического перевода. Критика переводов // Русские писатели о переводе. XVIII–XX вв / под ред. Ю.Д.Левина и А.В.Федорова. – Ленинград: Советский писатель, – 1960. – с. 174-183.
299. Полонский, Л. Два певца // Бакинский рабочий. – 1965, 3 октября. – с. 4.
300. Полонский, Л. Два певца // Книги и годы. (Страницы русско-азербайджанских культурных связей) / Л.Полонский, В.Портнов. – Баку: Азгосиздат, – 1974. – с. 41-45.
301. Посмертные стихи Сергея Есенина. «Какая ночь! Я не могу...», «Не гляди на меня с упреком....», «Ты меня не любишь, не жалеешь...», «Может, поздно, может, слишком рано...» // Бакинский рабочий. – 1926, 12 февраля. – с. 4.
302. Поэт Есенин в Баку // Труд. – 1924, 25 августа. – с. 3.
303. Р. Б. Большое культурное дело // Бакинский рабочий. – 1925, 16 апреля. – с. 6.
304. Р.Б. В кружке рабочих писателей и поэтов при «Бак. рабочем». Выступление С.Есенина // Бакинский рабочий. – 1925, 10 апреля. – с. 5.
305. Ройзман, М. Все, что помню о Есенине / М.Ройзман. – Москва: Советская Россия, – 1973. – 272 с.
306. Рустам, С. Книга о великом русском поэте // Есенин и его поэзия / С.Кошечкин. – Баку: Язычы, 1980. – с. 3-5.
307. Ряшенцев, Ю. Мастер – друг мастера. Перевод поэзии, поэзия перевода // Литературная газета. – 1972, 14 июня. – с. 5.
308. Савельев, С. Записки литературного следопыта / С.Савельев. – 2-ое доп. изд. – Москва: Молодая гвардия, – 1976. – с. 287-301.

309. Селиханович, А. Сергей Есенин // Бакинский рабочий. – 1924, 25 сентября. – с. 5.
310. Семенко, И. Вступительная статья // Жуковский, В.А. Избранное. – Москва: Правда, – 1986. – с. 5-18.
311. Сергей Есенин в Грузии. «Товарищи по чувством, по меру…» / сост. и ред. Г.В. Бебутов. – Тбилиси: Мирани, – 1986. – с. 13-99.
312. Сергей Есенин на Кавказе (1924-1925 гг). Фотогалерея. Есенинский вестник. – Издание Гос. музея-заповедника С.А. Есенина, – с. 71-96.
313. Скороходов, М. Знакомый наш – Сергей Есенин» // Правда. – 2015, 2-5 октября. – с. 8.
314. Скосырев, П. Об искусстве поэтического перевода // Наследство и поиски. Статьи. Очерки. Заметки. – Москва: Советский писатель, – 1961. – с. 225-295.
315. Смерть Сергея Есенина. Документы, факты, версии. Материалы комиссии Всеросийского Писательского Есенинского Комитета по выяснению обстоятельств смерти поэта. – Москва: ИМЛИ РАН, – 2003. – 415 с.
316. Субботин, В. Отцы // Литературная Россия. – 1967, 23 июня. – с. 6-18.
317. Субботин, С. Есенин в Баку. К хронологии событий апреля-мая 1925 г. // – Рязань: Современное есениноведение, – 2012. №22, – с.19-29.
318. Султанов, Ч. Мои встречи с великими... / Ч.Султанов. – Баку: Мутарджим, – 2017. – 556 с.
319. Сухорукова, Ю. Уроки бытия: Стихи / Ю.Сухорукова. – Волгоград: Нижне-Волжское книжное издательство, – 1990. – 60 с.
320. Сысоева-Трофимова, Е. Воспоминания о Есенине // из личного архива Ф.Непряхина. Хранится по адресу: М.Ибрагимов 11, кв. 9.
321. Табидзе, Н. Из книги память // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и коммент. А.А.Козловского. – Москва: Художественная литература. – т. 2. – 1986. – с. 195-199.

322. Табидзе, Т. С.Есенин в Грузии // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и коммент. А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с.191-194.
323. Тагисой, Н. Любовь к поэзии Сергея Есенина всегда жива в Азербайджане // Исаханлы, И. Незадаром ему мигнули очи. Есенин в Баку. – Баку: Издательство университета Хазар, – 2012. – с. 11-19.
324. Тагисой, Н. Неиссякаемый источник // Каспий. – 2015, 6 ноября. – с.11-12.
325. Тартаковский, П. Русские поэты и Восток: Бунин, Хлебников, Есенин. Статьи. / П.Тартаковский. – Ташкент: Литература и искусство, – 1986. – 298 с.
326. Тартаковский, П. Свет вечерний шафранного края…(Средняя Азия в жизни и творчестве Есенина) / П.Тартаковский. – Ташкент: Литература и искусство, – 1981. – 234 с.
327. Тематический сборник научных статей, посвященный 100-летию со дня рождения С.Есенина. – Баку: Мутарджим, – 1995. – 28 с.
328. Толстая-Есенина, С. Отдельные записи // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и коммент. А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 258-263.
329. Толстой, А. Переводчик. Принципы поэтического перевода // Русские писатели о переводе. XVIII-XX вв / под ред. Ю.Д.Левина и А.В.Федорова. – Ленинград: Советский писатель, – 1960. – с. 320-322.
330. Трагическая смерть Сергея Есенина // Бакинский рабочий. – 1925, 30 декабря. – с. 2.
331. Траурный вечер памяти Сергея Есенина // Бакинский рабочий. – 1926, 6 января. – с. 5.
332. Трофимов, В. Эрьзя: Бакинский период творчества / В.Трофимов. –Баку: Гянджлик, – 1977. – 38 с.
333. Троцкий, Л. Памяти Сергея Есенина // Бакинский рабочий. – 1926, 20 января. – с. 1.
334. Троцкий, Л. Памяти Сергея Есенина // Правда. – 1926, 19 января. – с. 3.

335. Турабов, С. «За такие милые края!» // Бакинский рабочий. – 1975, 1 октября. – с. 3.
336. Турабов, С. Азербайджан в жизни и творчестве Сергея Есенина // Русский язык и литература в Азербайджанской школе. Ежемесячный методический сборник [Приложение к журналу «Азербайджан мектеби»], – 1978. № 10, – с. 3-21.
337. Турабов, С. Азербайджан в русской поэзии / С.Турабов. – Баку: Азернешр, – 1964. – 130 с.
338. Турабов, С. Дань великой любви. Есенин в азербайджанской литературе // – Баку: Литературный Азербайджан, – 1985. №10, – с. 104-111.
339. Турабов, С. Есенин в Азербайджане // – Баку: Литературный Азербайджан, – 1959. №10, – с. 99-102.
340. Турабов, С. Моя лирика жива... любовью к Родине // Бакинский рабочий. – 1960, 4 октября. – с. 4.
341. Турабов, С. Простое слово: друг // Бакинский рабочий. – 1970, 6 октября. – с. 4.
342. Турабов, С. Поэтический мир Есенина // Тематический сборник научных статей, посвященный 100-летию со дня рождения С.Есенина. – Баку: Мутарджим, 1995. – с. 18-22.
343. Устинов, Г. Сергей Есенин и его смерть // Красная газета [вечерний выпуск]. – 1925, 29 декабря. – с. 4.
344. Устинова, Е. Четыре дня Сергея Александровича Есенина // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 354-357.
345. Файнштеин, Л. Сергей Есенин в Баку // Сергей Александрович Есенин. Воспоминания / под редакцией И.В.Евдокимова. – Москва-Ленинград: Государственное издательство, 1926. – с. 116-124.

346. Фомин, В. Сергей Есенин. Обстоятельства гибели / В.Фомин. – Воронеж: Воронежский Государственный Педагогический Университет, – 2010. – 212 с.
347. Халилов, А. «Персидские мотивы» Сергея Есенина и восточная поэзия // Науч. труды. Серия языка и литературы. Издание АГУ им. С.М.Кирова. – Баку, – 1979. – с. 32-38.
348. Халилов, А. Этапы развития взаимосвязей русской и азербайджанской поэзии советского периода: / докторская диссертация по филологическим наукам. / – Баку, 1987. – 348 с.
349. Халилов, Р. Большое видится на расстоянии // Гюнай. – 1995, 7 октября. – с. 4.
350. Хлысталов, Э. Тайна гибели Есенина. Записки следователя из «Англетера» / Э.Хлысталов. – Москва: Яуза, Эксмо, – 2005. – 448 с.
351. Хлысталов, Э. Как погиб Сергей Есенин? // Бакинский рабочий. – 1989, 25 ноября. – с. 4.
352. Хмурый, К. Памяти Сергея Есенина // Бакинский рабочий. – 1926, 3 января. – с. 6.
353. Хромов, К. Сергей Есенин в Баку // Коммунист Сумгаита. – 1965, 3 октября. – с. 3.
354. Циклоп. Бакинский день. Поэт Есенин среди студенчества // Труд. – 1924, 5 октября. с. 4.
355. Чагин, П. Сергей Есенин в Баку // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. – Москва: Художественная литература, – т. 2. – 1986. – с. 160-164.
356. Чагин, П. Сергей Есенин в Баку // Сергей Есенин. Исследования. Мемуары. Выступления. Юбилейный сборник / под общ. ред. Ю.Л.Прокушева. – Москва: Просвещение, – 1967. – с. 252-256.
357. Чагин, П. Сергей Есенин в Баку // Литературная Россия. – 1965, 1 октября. – с. 8-9.

358. Чагина, М. Встречи с Есениным // Советская культура. – 1980, 7 октября. – с. 6.
359. Чагина, М. У истоков «Персидских мотивов» // Литературная Россия. – 1970, 2 октября. – с. 10.
360. Чижик-Полейко, А. Стилистика русского языка. Синтаксис / А.Чижик-Полейко. – Воронеж: Изд. Воронежского Университета, – 1966. – 194 с.
361. Шаганэ ты моя, Шаганэ! // Зеркало. – 1999, 7 августа. – с. 26.
362. Шаповалов, В. «Еще я долго буду петь» // Правда Востока. – 1988, 15 декабря. – с. 3.
363. Шариф, А. Сергей Есенин – поэт и человек. К 110-летию со дня рождения великого русского поэта Сергея Есенина // Зеркало. – 2005, 22 октября. – с. 40.
364. Шарифли, Т. «И буйство глаз, и половодье чувств» // – Баку: Литературный Азербайджан, –1974. № 10, – с. 110-112.
365. Швейцер, В. Песня // Диалог с прошлым. – Москва: Искусство, 1966. – с. 57-71.
366. Швейцер, В. Этюды к портретам. Песня // – Москва: Москва, – 1964. №2, – с. 183-187.
367. Шипулина, Г. «… Донесу, как счастье, до могилы» // – Баку: Литературный Азербайджан, – 1995. №7-12; 1996. №1-4, – с. 142-148.
368. Шипулина, Г. «Хорошо бродить среди покоя голубой и ласковой страны…» // Тематический сборник научных статей, посвященный 100-летию со дня рождения С.Есенина. – Баку: Мутарджим, – 1995. – с. 23-27.
369. Шипулина, Г. «Я – северный ваш друг и брат…» // – Баку: Литературный Азербайджан, – 2005. №11, – с. 112-127.
370. Шипулина, Г. Бакинская Есениниана // Столетие Сергея Есенина. Международный симпозиум. Есенинский сборник. Выпуск III. – Москва: Наследие, – 1997. – с. 314-326.

371. Шипулина, Г. Есенин и Азербайджан. Год 1995-й // Издания Есенина и о Есенине. Итоги. Открытия. Перспективы. Есенинский сборник. Выпуск IV. – Москва: ИМЛИ РАН, Наследие, – 2001. – с. 261-266.
372. Шипулина, Г. Еще одна легенда о жизни Сергея Есенина. Шаганэ: Реальность или миф? // – Баку: Литературный Азербайджан, – 1992. №2, – с. 121-126.
373. Шипулина, Г. Здесь о тебе сказали «наш» // Вестник. – 2003, ноябрь. – с. 26-27.
374. Шипулина, Г. Мифы о смерти С.А.Есенина // – Баку: Литературный Азербайджан, – 1990. №11, – с. 107-118.
375. Шипулина, Г. Об одном выступлении Есенина // Баку. – 1988, 9 февраля. – с. 3.
376. Шипулина, Г. Рядом с Есениным // Баку. – 1982, 10 сентября. – с. 3.
377. Шипулина, Г. Сергей Есенин в бакинской прессе 20-х годов // Радуница. Информационный сборник №2 (Материалы 10-х Всесоюзных Есенинских чтений в Липецке 23-24 сентября, 1989 года) / Составитель и научный редактор Н.Г.Юсов. – Москва: Добровольное общество любителей книги РСФСР. Есенинское общество «РАДУНИЦА» при Московском городском отделении ВООПИиК, 1990, с.44-52.
378. Шипулина, Г. Словарь языка Есенина: [в 5 томах]. – Бакинский Славянский Университет. Баку: Мутарджим, – 2012-2013.
379. Шипулина, Г. Словарь языка Есенина. Художественная проза: [в 2 томах] – Бакинский Славянский Университет. Баку: Мутарджим, 2015.
380. Шипулина, Г. Уместно ли тут частное расследование? // Бакинский рабочий». – 1990, 13 января. – с. 4.
381. Штейнберг, А. Чагин и Шаганэ // – Москва: Молодая гвардия, – 1968. № 10, – с. 214-215.
382. Эрлих, В. Право на песнь // С.А.Есенин в воспоминаниях современников: [в 2 томах] / составление и комментарии А.А.Козловского. –Москва: Художественная литература, – т. 2. – 1986. – с. 319-353.

383. Эткинд, Е. Поэзия и перевод / Е.Эткинд. – Москва-Ленинград: Советский писатель, 1963. – 431 с.
384. Юсов, Н. Известный и неизвестный Есенин / Н.Юсов. – Москва: Новый индекс, – 2012. – 640 с.
385. Юшин, П. Сергей Есенин. Идейно-творческая эволюция / П.Юшин. – Москва: Московский Университет, – 1969. – 480 с.
386. Яковлев, А. Есенин // Бакинский рабочий. – 1925, 30 декабря. – с.4.

İngilis dilində

387. Bassnett, S. Translation Studies / S.Bassnett. – 3rd edition. – Routledge, – 2002. – 176 p.
388. Isaxanli, I. Fragments of Azerbaijan–Russian literary relations: On Sergei Yesenin's Baku visits // – Baku: Khazar Journal of Humanities and Social Sciences, – 2017. – Vol. 20, No. 2. – pp. 66-79.
389. Isaxanli, I. Sergey Esenin: the Baku Period of Life and Creativity of the Great Russian Poet // – Milan: Enthymema, – 2018. No.22. – pp. 82-94.
390. McVay, G. The Centenary of Sergei Esenin: A Survey of Publications // The Slavonic and East European Review, – 1998. Vol. 76, No. 3. – pp. 494-528.